TEXT --- TEXT --- TEXT



# RAMAZAN TÖVSİYƏLƏRİ

(çıxışlarından seçmələr)

*Seyid Əli Xamenei*



Tərcümə edən:
Ağabala Mehdiyev

Gürcüstan - 2025

Kitabın adı:
RAMAZAN TÖVSİYƏLƏRİ
**Seyid Əli Xamenei**

Tərcümə edən:
**Ağabala Mehdiyev**

Naşir:
**“İman” mədəni maarif müəssisəsi**

ISBN:
978-964-2951-536

Çap tarixi: 2025
Mövzu: Müqəddəs Ramazan ayı



© “İman” mədəni maarif müəssisəsi - Gürcüstan
© Parlaq Yol
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.
Vebsayt: www.leader.ir
Elektron poçtu: Info@leader.ir

Bu kitabı Ayətullah əl-üzma Xameneinin əsərlərinin qorunması və nəşri müəssisəsi çapa hazırlamışdır.

# Mündəricat

**Kitab haqqında ümumi əlumat** » **13**

**Ramazan Allaha tərəf qayıtmaq üçün ən gözəl fürsətdir** » **21**
Ramazan – Allahla ünsiyyət baharı » 22
Allahla əlaqənin qorunmasının nişanələri » 22
İnsanın həyatındaki iki paralel yol » 23
Ramazan – Allahın xüsusi bəndələrinin ziyafət ayı » 24
Oruc insanın mənəvi təkamülünün əsas sütunlarındandır » 25
Təqvanın bərəkətləri, təqvasızlığın fəsadları » 26
Təqvanın ictimai təsiri » 27
Quranın baharı olan ramazan ayını qənimət bilmək » 29
Quranla ünsiyyətdə olmağın insana təsiri » 29

**Ramazan özünüislah və ibadət ayıdır** » **31**

**Ramazan insanın Allaha yaxınlaşması üçün bir fürsətdir** » **32**
Ramazan islahat və yenilənmə kursudur » 34
Günahı tərk etməyin əhəmiyyəti » 35
İslam cəmiyyətində sağlam mühitin qorunması » 36

**Təkəbbürün mənfi nəticələri** » **39**
Xudbinlik hissinin sındırılması » 41
"Nəml" surəsinin təvazökarlıq dərsləri » 43
İnsanın Allahdan ehtiyacsızlıq hiss etməsinin təhlükələri » 49
Allah dərgahına dua » 51

**Ramazan insanın mənəvi məşq fürsətidir** » **53**
Dərrakəsizlik və gözüaçıqlığın olmaması » 55
Əmmar Yasirin əzəmətinin sirri » 57

**Ramazanda əldə edilən mənəvi qazancın qorunması** » **61**
Əməllərdə diqqətli olmağın vacibliyi » 63
Ramazan dəyişiklik etmək fürsətidir » 63

Ülvi bəndəlik məqamı » 64

**Ramazan mənəvi güc əldə etmək fürsətidir » 66**

**Ramazan ibadət, dua, minacat və cihad ayıdır » 68**

**İslamın məqsədi gözəl həyatdır » 70**

**Quran oxumaq və ayələri barədə düşünmək » 72**

**Ramazan – nuranilәşmə və özünüislah ayı » 74**

**Ramazan müxtəlif çətinliklərdən qurtuluş fürsətidir » 75**
Ramazan mənəvi xəstəliklərin müalicə ayıdır » 76
Özünüislahın ən mühüm şərti » 80
İxlasın mərhələləri və ixlas sahiblərinin dərəcələri » 82
Ramazan ayının daha bir fürsəti » 84

**Ramazan dua və minacat fürsətidir » 85**
Duanın qəbul olma qayda və şərtləri » 86
Nəql edilmiş dualarda dərin İslam maarifi yatır » 88
Dua barəsində iki baxış » 89

**Ramazan nəfsə hakim olmaq üçün məşq ayıdır » 92**
Ramazan Allaha itaət əldə etmək üçün yarış meydanıdır » 94
Ramazan ayında əldə edilənlərin gələn ilə saxlanılması » 95

**Ramazan Cənnətin bir parçasıdır » 97**
Ramazanın əsas məqsədi təqvadır » 99

**Ramazan təqva diyarına qədəm basmaq ayıdır » 101**
Təqvanın xeyir və nəticələri » 101

**Həzrət Əlinin ən mühüm tövsiyələri » 104**
Təqvanın tərif, zərurət və vacib şərtləri » 106
Tərifłənən və qınanan dünya » 107
Həzrət Əlinin bütün nəsillərə vəsiyyəti » 110
Yetimlərə nəvaziş göstərməyin əhəmiyyəti » 112
Qonşuların hüquqlarına riayət etmək barəsindəki tövsiyə » 113
Quranın başa düşülməsi » 113
Mal, can və dil ilə Allah yolunda cihad etmək tövsiyəsi » 115

**Fitr bayramı mükafat günüdür** » **118**

**İmam Səccadın duadakı istəkləri** » **120**

**Ramazan ayının dəyəri** » **122**
Ramazan ayı İmam Səccadın gözündə » 123
Ramazan – Allah ayı » 124
Ramazan – İslam ayı » 124
Ramazan – paklayıcı ay » 125
Ramazan – saflaşma ayı » 125
İnsanın azmasının səbəbi: tərslik! » 127
Ramazan keçmiş nöqsanların aradan qaldırılması ayıdır » 128

**Duanın faydaları və ondan əldə edilən nəticələr** » **130**
Dua Allahın xəzinələrinin açarıdır » 132
Duanın qəbul edilməsinin şərtləri » 134
Nəql edilmiş dualarda dərin ilahi təlimlər yatır » 139
İnsanın əməllərindəki zəif nöqtələr » 141

**Fitr bayramı – mənəvi həyatın yeni başlanğıcı** » **144**

**Həzrət Əlinin bariz xüsusiyyətləri** » **147**
Həzrət Əlinin şücaəti » 150

**Fitr bayramı ciddi qərar qəbul etmək günüdür** » **161**
İnsan həyatında dünyanın rolu » 162

**Ramazan tövbə və yardım diləmək ayıdır** » **166**
Allahdan bağışlanma diləməyin mənası » 167
Günahın insanın həyat və fəaliyyətinə təsiri » 168
Günahın mənəviyyata təsiri » 170
Allahın bağışlanma və tövbə neməti » 170
Allahdan bağışlanma diləməyin mühüm şərti » 172
Günahı kiçik saymaqdan çəkinmək lazımdır » 175
Allahdan bağışlanma diləməyin fərqi » 176
Allah dərgahına dua » 179

**Həzrət Əlinin Allahdan bağışlanma diləməsi** » **181**
Kamil və uca insanın xüsusiyyəti » 183
Ramazan Ona tərəf qayıtmaq ayıdır » 184

**Fitr bayramı paklıq, təmizlik günüdür** » **187**

**Ramazan mənəvi yüksəliş üçün xüsusi fürsətdir** » **189**

**Ramazan ayına daxil olmaq nemətinin şükrü** » **192**
Oruc kamillik əldə etmək üçün mənəvi idmandır » 194
Həqiqi oruc nədir? » 196

**Ramazan ayının əməllərinin dörd mühüm ünsürü** » **199**
Bağışlanma məsələsinin yada salınması » 200
Qədr gecəsi Allahdan əfv diləmək fürsətidir » 202
Ramazan ayı ilin, qədr gecəsi ramazan ayının ən gözəl fürsətidir » 203

**Fitr bayramı əməllərin qiymətləndirmə günüdür** » **206**

**Ramazan ayı nuraniyyət əldə etmək fürsətidir** » **208**

**Ramazan ayının gəlişi münasibəti ilə təbrik** » **209**
Ramazan Allaha yaxınlaşmaq fürsətidir » 209
İlahi vədlər » 210
Həzrət Musanın Qurandakı hekayəti » 216
Ramazan ayının qədrinin bilinməsi tövsiyəsi » 218

**Orucun və nəfslə mübarizənin ən mühüm faydası təqvadır** » **220**
Ramazan qəlblərin nurlanma vasitəsidir » 220
Bütün dini göstərişlərin məqsədi gözəl həyatdır » 222

**Oruc tutmağın üç mərhələsi** » **224**

**Ramazan çirk və pasların təmizlənmə fürsətidir** » **230**
Quranda işlənmiş "səkinət" sözünün mənası » 231
Təqva və onun "səkinət" ilə əlaqəsi » 233
Təqva bütün çətinliklərin əlacıdır » 236

**Həzrət Əlinin bariz xüsusiyyətləri** » **238**

**Ramazan möminlərin qısa zahidlik kursudur** » **246**
Oruc tutmaq nəticəsində əldə edilən keyfiyyətlərin qorunması » 247

**Ramazan yaxşı işlər görmək üçün fürsətdir** » **249**

**Ramazan insanın özünü islah etmə ayıdır** » **250**
Fitr bayramı müsəlmanların tükənməz azuqəsidir » 251

**Ramazan səbir və namaz ayıdır** » **253**
Ramazan ayının ən böyük dərsi özünüislahdır » 254

**Fitr bayramı sözün həqiqi mənasında bayramdır** » **255**

**Ramazan təqva tədarükü ayıdır** » **256**
Əmirəl-mömininin vəsiyyətləri » 257

**Ramazan dərsləri** » **261**
Bədxərcliyin cəmiyyətə vurduğu ziyanlar » 263

**İslam dünyası bu gün hər şeydən çox Qurana möhtacdır** » **266**

**Qədr gecəsinin əhəmiyyəti** » **270**

**Fitr bayramı Allahdan bayramlıq almaq fürsətidir** » **272**
Boyuna düşən vəzifəyə əməl etmək » 273

**Ramazan ayının fitr bayramı ilə sona çatmasının fəlsəfəsi** » **276**

**Oruc insanı Allahın əzabından qoruyur** » **278**
Günahlar ilahi əzabın dünyəvi təzahürüdür » 279
Qiyamət insanın Allahın hüzurunda duracağı gündür » 280
Quranın Qiyamət barəsindəki ayələri » 281
Sirat körpüsü bəndəlik və təqva körpüsüdür » 282
Övladlarımıza diqqət və qayğının vacibliyi » 285

**Qədr gecəsi mələklərin və Ruhun nazil olduğu gecədir** » **287**

**“Nəhcül-bəlağə”də imanın mənası, şərtləri və xüsusiyyətləri** » **289**
İmanın dörd sütunu » 294
Sabit iman, amanabənd iman » 298
Həzrət Əlinin Malik Əştərə göstərişi » 299

**Ramazanda insanlarla mələklərin həmnişinliyi** » **305**
Ramazan təqva tədarükü ayıdır » 307

**İslam inqilabı Quranın cəmiyyətdəki qəribliyinə son qoydu** » **309**

**Allahın ramazan süfrəsinin nemətləri** » **312**
Quranı düşünərək oxumaq lazımdır » 314
Quranla ünsiyyət insanı haqq yolda qoruyan amildir » 315
Məsumlardan nəql edilmiş dualardakı çoxsaylı təlimlər » 316

**Ramazan mənəvi saflıq əldə etmək fürsətidir** » **318**
Duanın faydaları » 319
Dua və onun qəbul olunmasının şərtləri » 323
Nəql edilmiş duaların əhəmiyyəti » 326
Duanın ən böyük nağd faydası » 327

**Ramazan Allahın mərhəmətindən bəhrələnmək fürsətidir** » **328**
Bağışlanma diləməyin fərdi və ictimai dərəcələri » 330
Üç növ günah » 332

**Fitr bayramı Allahın lütfündən bəhrələnmək bayramıdır** » **336**

**Fitr bayramı müsəlmanın ruh və qəlbinin paklıq rəmzidir** » **339**

**Qurani-kərimlə ünsiyyətdə olmağın faydaları** » **340**

**Ramazan ayının digər aylardan üstün olmasının səbəbləri** » **343**
Həzrət Əlinin kəlamında orucun növləri » 345
Təqva özünənəzarətdir » 348

**Dua neməti və onun insanın həyatına təsiri** » **350**
Gənclərə tövsiyə » 353

**Vacib namazlarla ramazan ayının bərəkətinin qorunması** » **355**

**Quran barəsində boynumuza düşən üç vəzifə** » **358**
Quranla əlaqə ilboyu qorunmalıdır » 360
Qurani-kərimi əzbərləmək neməti » 362
Bir neçə Quran duası » 363

**Ramazan Allah qonaqlığına dəvət ayıdır** » **364**
İlahi ramazan ziyafətinin mənəvi bərəkətləri » 365
Bağışlanma diləmək və onun faydaları » 367

**Allahı xatırlamağın əhəmiyyəti** » **371**

Zikr və Allahı xatırlamağın mərhələləri » 375
Möminlərin üç çox mühüm və çətin məsuliyyəti » 378
Zikrin bütün hallarda və hər yerdə davam etdirilməsi » 379

**Fitr bayramı Allaha şükür bayramıdır » 383**
Ramazan ayının dərsləri » 384

**Fitr bayramı müsəlmanların vəhdət simvoludur » 387**

**Qurani-kərimə qulaq asmaq » 389**

**Səbirlə namazın Qurani-kərimlə əlaqəsi » 391**
Səbrin üç meydanı » 394
Səbrin üç meydanının ictimai cəhətləri » 396

**Qədr gecələri itaətkarlıq baharıdır » 399**
Əmirəl-mömininin əxlaqi və tərbiyəvi cəhəti » 400
Dünya İslam təlimləri prizmasından » 401
Ramazan batini xəstəliklərin müalicə edilməsi fürsətidir » 406
Yeniyetmələrin oruc tutmaları münasibəti ilə təbrik edilməsi » 407

**Fitr bayramının iki xüsusiyyəti » 409**
Ramazan ayının böyük dərsləri » 410

**Ramazan insanın ilahi fitrətə yaxınlaşma fürsətidir » 413**

**Quran oxumaq Quranla ünsiyyətin başlanğıcıdır » 414**
Quran qarilərinə tövsiyələr » 415

**“Qüds günü”nün əhəmiyyəti » 419**

**Qədr gecəsi insanın yeni ilinin başlanğıcıdır » 421**
Ramazan ayında əldə edilən xeyirlər » 422
Cəmiyyətdə əxlaqın əhəmiyyəti » 424

**Quran təlimlərindən bəhrələnməyin vacibliyi » 427**
Quran təlimlərinin dərəcələri » 428
Quran ayələrini dərk etməyin gərəkliyi » 430

**Ramazan ayının dualarda qeyd edilmiş xüsusiyyətləri » 433**
Təqvanın geniş əhatə dairəsi » 437

**Pak və saf qəlb gəncliyin böyük sərmayəsidir** » **441**

**Ramazan ayının qədrini bilməyin vacibliyi** » **445**

**Ramazan Allahın rəhmət qapılarının açılma fürsətidir** » **447**

**Bərəkətli fitr bayramının nişanəsi bəndəlik və ibadətdir** » **450**

**İslam dünyasının çatışmazlıqlarının aradan qaldırılması** » **452**
Quranın əzbərlənməsinin onun mənasının başa düşülməsinə təsiri » 455

**Oruc Allahın möminlərə hədiyyəsidir** » **458**
Məsumların dualarındakı ilahi təlimlər » 459
“Məkarumul-əxlaq” duasına ötəri baxış » 460

**Şairlərə dini məlumatlarını artırmaq tövsiyəsi** » **464**

**Ramazan nurlu bərəkət məhsulunun yığım vaxtıdır** » **467**

**Fitr bayramı xoşbəxtlərin həqiqi bayramıdır** » **470**

# Kitab haqqında ümumi məlumat

Yenə ramazan – Qurani-kərimə, həmçinin İslam Peyğəmbəri və məsum imamların kəlamına əsasən bütün aylardan üstün olan ay gəlib çatdı. Onun fəzilətini təsvir etmək üçün bircə ifadə kifayətdir: “Allah ayı”.

Bütün aylar Allaha məxsusdur, amma təkcə bir ayı “Allahın ayı” adlandırıblar. Bütün gecələr Allahındır, amma təkcə bir gecəni “Qədr gecəsi” hesab ediblər və həmin əziz gecə bu bərəkətli aydadır.

Ramazan varlıq aləminin yaradanı və mehribanların mehribanı olan Allah tərəfindən təşkil edilən ziyafətdir. Bu ziyafətə hamı dəvət edilib. O ancaq imkanlılara vacib olan həcc, qazanc və gəlirin, eləcə də bəzi məhsulların müəyyən miqdarına düşən xüms və zəkat, hətta müsəlmanlara bütün hal və şəraitlərdə vacib olan namaz kimi deyil.

Əsrlərdir alim, mütəfəkkir, abid və vaizlər insanlara bu aydakı vəzifələrini başa salır, onlara bu misilsiz fürsəti daha yaxşı və daha çox dərk etməyi tövsiyə edirlər. Bu gün bu dəyərli fürsətdən istifadə etmək istəyən şəxslərin əlində din alimlərinin, əxlaq müəllimlərinin, hətta ədib və şairlərin ramazan ayının fəziləti barədə yazdığı çox mühüm kitablar var.

Əlinizdə olan bu kitab da həmin sıradandır. Amma bu kitabda onu bu mövzuda yazılmış digər əsərlərdən fərqləndirən bir sıra xüsusiyyətlər var. Biz indi onların bəzisinə işarə edəcəyik:

**1.**

Bu kitabda Ayətullah Seyid Əli Xameneinin 22 il ərzində – 1990-cı ildən 2011-ci ilə kimi – ramazan ayında etdiyi çıxışlarındakı tövsiyə, öyüd-nəsihət, təhlil və moizələrdən seçmələr toplanıb.

Bu çıxışların auditoriyası çox vaxt ümumi xalq kütləsi, bəzi vaxtlarda isə Quran qariləri, İran İslam Respublikasının dövlət məmurları, cümə namazı iştirakçıları, universitet müəllimləri, tələbələr, şairlər və digər təbəqələrə mənsub şəxslər olub.

Buna görə də bu kitabın içindəki materialların seçilməsində iki cəhət nəzərə alınıb:

1. Bərəkətli ramazan ayı, oruc tutmaq barəsindəki dini təlimlər, dua etməyin qaydası, möminlərin bu aydakı fərdi, ictimai və siyasi vəzifələri.
2. Hər il ramazan ayının birindən bərəkətli fitr bayramına kimi olan zaman müddətində bəyan edilən məsələlər. Bu kitabı diqqətlə mütaliə edən şəxs onda xüsusi mənəvi ab-hava hiss edəcək. Bunun səbəbi həmin sözlərin sahibinin də qeyd etdiyi kimi, ramazan ayında dünyaya, xüsusilə İslam cəmiyyətinə və möminlərə xüsusi mənəvi və ilahi halın hakim olması, onun müsəlmanların bütün işlərinə, söz və ruhiyyələrinə təsir göstərməsidir.

**2.**

Ayətullah Seyid Əli Xameneinin 22 illik çıxışlarında diqqəti çəkən nüanslardan biri müxtəlif mövzulardakı çıxışların arasında bir növ bağlılığın olmasıdır. Hətta əgər bir mövzuya ayrı-ayrı illərdə neçə dəfə toxunubsa, ona hər dəfə ya yeni prizmadan yanaşıb, ya da onun barəsində yeni nüansa toxunaraq onu başqa cəhətdən təhlil edib. Misal üçün bu kitabın əsas hissəsini təşkil edən təqva və Allahdan bağışlanma diləmək mövzularına müraciət edin.

**3.**

Ali Dini Rəhbərin çıxışlarının xüsusiyyətlərindən biri də bərəkətli ramazan ayı barəsində İslam təlimlərindən, xüsusilə məsum Əhli-beyt hədislərindən qaynaqlanan dərin məzmunlu müxtəlif ifadələrin işlədilməsidir. Buna misal olaraq ramazan ayı barəsində işlədilmiş "ilahi rəhmət və bağışlanma ayı", "ilahi ziyafət ayı", "özünüislah və təqva ayı", "Allahdan bağışlanma diləmək, tövbə və Ona tərəf qayıtma ayı", "təqva tədarükü ayı", "ibadət, dua və minacat ayı" və sairə ifadələri göstərmək olar.

O başqa bir çıxışında ramazanın günəş təqvimi ilə yeni ilə (Novruz bayramına) təsadüf etməsindən istifadə edərək "dua və Quranın baharı", "özünüislah və ibadətin baharı", "Allahla ünsiyyətin baharı" və "zikr, Allahdan bağışlanma diləməyin, Allaha sığınmağın baharı" kimi ifadələr işlətmişdir. Amma o, çıxışlarında ramazanı təbiətin baharına bənzətməklə kifayətlənmir və geniş təhlil ilə ramazanın təbiətin baharı ilə üst-üstə düşüb-düşməməsindən asılı olmayaraq, həqiqi bahar olmasından söz açaraq ramazanı möminlərin həqiqi ilinin başlanğıcı

kimi təqdim edir. Müsəlmanların iman ili ramazanda başlayır və ramazan ayının ibadəti gələn ramazana kimi olan sonrakı on bir ayı keçirmək üçün sərmayə sayılır. Beləcə, müsəlmanların həqiqi baharına, yəni onların öz daxilində dəyişiklik, təzələnmə və bərpa işlərinin aparılmasına təkid edilib.

## 4.

Ayətullah Seyid Əli Xameneinin ramazan ayı və oruc tutmağın qaydaları barəsindəki söhbətlərinin xüsusiyyətlərindən biri də dini tövsiyələrin ictimai cəhətlərinə diqqət yetirilməsidir. Onun çıxışlarında imkansızların vəziyyəti ilə maraqlanmaq, yetimlərə qayğı göstərmək, kasıblara əl tutmaq kimi bəyənilən işlərin yerinə yetirilməsi, israfçılıq, bədxərclik, təfriqə salmaq və sairə xoşagəlməz işlərdən çəkinmək tövsiyə edilib. Beləcə, gözəl əxlaqi keyfiyyətlərə yiyələnmək və çirkin xüsusiyyətlərdən çəkinmək tövsiyəsi şəxsi və fərdi çərçivədən çıxaraq ideal İslam cəmiyyətinin atributuna çevrilir. Buradan da fərd, şəxsi çevrə və uzaqbaşı müsəlmanların ailə mühitinin islah edilməsini nəzərdə tutan moizələrlə çevrə və ailə mühitini islah etməkdən əlavə, ideal İslam cəmiyyətinin formalaşması üçün cəmiyyətin də islah edilməsini nəzərdə tutan baxış arasındakı fərq tam aydın olur. İctimai diskussiyaların sonu istər-istəməz gedib dini cəmiyyətin düçar olduğu siyasi bəlalara çıxır və onda İslam cəmiyyətinin qarşılaşdığı bəla və təhlükələr təhlil edilir. Həmin söhbətlərdə İslam təlimləri və İslam tarixinin enişli-yoxuşlu ibrətamiz hadisələrindən istifadə edərək müsəlmanların tənəzzülünün səbəbləri araşdırılıb, bəsirət və səbirli olmağın qəflət yuxusuna getmək, dünyapərəstlik,

hegemonluq arzusu, xudbinlik, təkəbbür, eləcə də nüfuzlu şəxsiyyətlər və dövlət məmurlarının ən mühüm sapma amillərindən olan var-dövlət hərisliyi və əxlaqsızlıq kimi bütün bəlaların dərmanı olması vurğulanıb.

## 5.

Öncə qeyd edilənlərdən əlavə, dünya müsəlmanları və zülmə məruz qalan xalqların, xüsusilə məzlum Fələstin xalqının taleyinə diqqət yetirilməsi məsələsinə işarə etmək lazımdır. Çıxışlarda İslam İnqilabının dahi banisi İmam Xomeyninin təşəbbüsü ilə ramazan ayının son cümə günündə keçirilən "Qüds günü" yürüşündə iştirak etməyə təkid edilib. Bu, zaman və məkanın tələbləri nəzərə alınaraq bərəkətli ramazan ayı barəsindəki öyüd-nəsihət və moizələrin əhatə dairəsinin cəmiyyət və ölkə hüdudlarından kənara çıxaraq İslam dünyasını əhatə etməsinə səbəb olur. Əziz oxucu bu kitabı mütaliə edəndə bu günlərin ən geniş yayılmış ifadəsinə, yəni "islami oyanış" ifadəsinə əvvəlki illərin ramazan aylarında bir gerçəklik və zərurət kimi dəfələrlə təkid edilməsinin şahidi olacaq. O, gerçəklik və ümidlərin dikildiyi bir həqiqətdir və onu heç kəs inkar edə bilməz. Onun böyük din alimlərinin rəhbərliyi altındakı islami hərəkatlardan, xüsusilə İran İslam Respublikasından qaynaqlanan dalğaları hər gün İslam dünyasının yeni ərazilərinə yayılır və onun insani, ədalətpərvər və anti-imperializm cəhəti hətta qeyri-müsəlman cəmiyyətlərə sirayət edib, dünyanın məhrum və zəif kütlələrini yeni hərəkata sövq edib.

## 6.

Amma hər halda bu kitabın ana xətti və ramazan söhbətlərinin döyünən ürəyi həzrət Məhəmmədin xalis İslam təlimləridir. Onlar müsəlmanların iki sonsuz və ilahi təlim mənbəyinə – Allahın kitabı və Peyğəmbər Əhli-beytinə istinad edilərək dolğun və şirin ifadələrlə 22 il müddətində tədricən sistemli şəkildə bəyan edilib. Həmin çıxışların ən mühümü bunlardır:

A. Qurani-kərimin bəşəriyyətin bütün fərdi və ictimai dərdlərinin dərmanı kimi oxunması, başa düşülməsi və onunla ünsiyyətdə olmaq barəsindəki tövsiyələr.

B. Təqva, dua, minacat, Allahdan bağışlanma diləmək və tövbə kimi anlayışların Quran təlimləri və məsumların hədisləri, xüsusilə Əmirəl-möminin Əlinin "Nəhcül-bəlağə"dəki kəlamları əsasında dəqiq və hərtərəfli izah edilməsi.

C. Misilsiz şəxsiyyət olan İmam Əlinin həyatının şücaət, təqva, ədalət və ilahi rəhbərlik nümunəsi olaraq təhlil edilməsi.

## 7.

Bu kitabı mütaliə edəndə və çıxışların tarix və auditoriyasına diqqət edəndə görürük ki, Ali Dini Rəhbər:

1. Qurani-kərimin oxunması məclislərinin təşkil edilməsinə xüsusi diqqət yetirib.
2. Onun söhbətlərinin əsas mehvəri insanın özünü iman və əxlaq baxımından islah etməsidir.
3. O, universitet müəllimləri, tələbələr və digər təbəqələrlə görüşərək onların söz və fikirlərinə qulaq asıb, onlarla fikir mübadiləsi aparıb.

4. O, ramazan ayında oruc tutan möminlərin yanında olub və onlarla birlikdə cümə namazı qılıb.
5. Möminlərin diqqətini əhəmiyyətli qədr gecələri və həzrət Əlinin şəhadət günlərinə yönəldib.
6. İslam dünyasının vəziyyətini analiz edərək "Qüds günü" yürüşünün mümkün qədər izdihamlı keçirilməsinə təkid edib.

### 8.

Qurani-kərim, Nəhcül-bəlağə, İslam tarixi, Fələstin, müqəddəs Qüds, həmçinin dua və digər mövzuların əsas mehvər olması barədə dediklərimizin mənası Ali Dini Rəhbərin həmin mövzulardakı çıxışlarının hamısının bu kitabda toplanması deyil. Çünki o, il boyu müxtəlif tədbirlərdə və görüşlərdə qeyd edilən mövzular barədə başqa çıxışlar da edib. Buna görə də hər hansı bir mövzu barəsində daha ətraflı məlumat əldə etmək üçün Ali Dini rəhbərin çıxışlarının tematik toplusuna müraciət etmək lazımdır.[1] Birinci bənddə də qeyd etdiyimiz kimi, biz bu kitabda ötən illər ərzində ancaq ramazan ayında edilən çıxışların bəzi hissəsini toplamışıq.

### 9.

Bu kitabda çıxışların sıralığı tarixi ardıcıllıq əsasında hazırlanmışdır. Buna görə də oxucuların mövzu əsasında mütaliəsinə kömək məqsədi ilə tematik mündəricat hazırlanmışdır.

İnşallah, bu kitab möminlərə anlayış və bəsirətlə oruc

1. Buna misal olaraq Əlirza Bərazeşin "Ali Dini Rəhbər Ayətullah Seyid Əli Xameneinin nəzərində dua", həmçinin Səid Sülhmirzainin "Ali Dini Rəhbər Ayətullah Seyid Əli Xameneinin nəzərində Fələstin" kitablarını göstərmək olar.

tutmaqda kömək edəcək və onların həm özlərini islah etmələrinə, həm də İslam cəmiyyətini mənəvi cəhətdən yenidən qurmalarına zəmin yaradacaq.

Bütün müvəffəqiyyətlər Allah tərəfindəndir.

*Əlirza Muxtarpur Quhrudi*

# Ramazan Allaha tərəf qayıtmaq üçün ən gözəl fürsətdir

Yaxşı olar ki, ilin dəyişməsi və ilahi rəhmət və bağışlanma ayı olan bərəkətli ramazan ayının yaxınlaşması münasibəti ilə biz də öz batin və vücudumuzda olan nöqsanlardan, əyriliklərdən, çirkinlik və pisliklərdən üz döndərək, yəni Allahdan bağışlanma diləyək. Allahdan bağışlanma diləmək və tövbə etməyin mənası Ona tərəf qayıtmaq, pisliklərə arxa çevirmək, özündə dəyişiklik yaratmaqdır. *“Və Rəbbinizdən bağışlanmağınızı diləyəsiniz, sonra Ona doğru qayıdasınız ki, müəyyən bir müddətə qədər sizə yaxşı gün-güzəran versin və hər bir yaxşı əməl sahibinə əməli qədər bağışlasın”.*[1] Bizim Allahdan bağışlanma diləməyimiz, Ona tərəf qayıtmağımız, özümüzü daxildən islah etməyimiz Allahın Öz lütf, rəhmət, bərəkət, güc və izzətini bizə daha çox nazil etməsinə səbəb olacaq. Bu dönüş və özünüislaha bütün təbəqələrin – həm mənim kimi müəyyən vəzifəsi

1. Hud, 3

olan şəxslərin, həm də ümumi xalq kütləsinin – ehtiyacı var. Əlbəttə, mən və mənim kimilər özümüzə daha çox diqqət etməli, özümüzü daha çox nəzarətdə saxlamalı, nəfsi istəklərin vücudumuza hakim olmasının qarşısını almalıyıq.

## Ramazan – Allahla ünsiyyət baharı

Bu il təbiətin baharı ilə dua və Quranın baharı üst-üstə düşüb. Bir neçə gündən sonra bərəkətli ramazan ayı daxil olacaq. Ramazan insanın özünü islah etməsi, yeniləməsi ayı, Allahla ünsiyyətin baharıdır. Allahla ünsiyyəti yaddan çıxarmaq olmaz. Bütün səhv və xətalar buradan qaynaqlanır. Xətaları az, qəlbi elm nuru və ilahi hidayətlə dolu olan, bu xalqa, bizə, dünyadakı İslam aşiqlərinə işarə ilə yol göstərən şəxs, yəni İmam Xomeyninin sadalanan bu xüsusiyyətlərə malik olmasının səbəbi Allahla ünsiyyətinin güclü olması idi.

Dünyada inqilab, hökumət, idarəçilik və rəhbərliklərdə nöqsan və sapma yaranmasının səbəbi onların məsələnin bu cəhətini, yəni mənəviyyatı, Allahla əlaqəni unutmaları olub və elə indi də belədir. Əgər diqqət etsək, görərik ki, bizim də irəlilədiyimiz, uğur qazandığımız, yaxşı işlədiyimiz, razı qaldığımız yerlər məsələnin bu cəhətini nəzərə aldığımız yerlərdir. Zərbəyə məruz qaldığımız yerlər də işin bu cəhətində zəif olduğumuz yerlərdir.

## Allahla əlaqənin qorunmasının nişanələri

Allahla əlaqə məsələsinə yüngül yanaşmaq olmaz. Əlimizdə olanların hamısını bu əlaqə sayəsində

əldə etmişik. Bu ünsiyyət qəlbimizin bizim düşmən qarşısında cəsarətli olmağa və ondan qorxmamağımıza səbəb olur; Allahla olan bu əlaqə qəlbimizin möminlərin və Allahın yolunu gedənlərin məhəbbəti ilə dolmasına və nəticədə fikir ayrılıqlarını, baxış fərqlərini görməməyimizə səbəb olur; Allahla olan bu əlaqə, Allaha olan bu bağlılıq bizim nəfsi istəklərə görə haqqı ayaq altına atmamağımıza, ümumi mənafeyi şəxsi maraqlara qurban verməməyimizə, Allah yolundan çıxmamağımıza, bu yolu getməkdən yorulmamağımıza səbəb olur. Bu əlaqəni həmişə qurmaq mümkündür, o heç vaxt gec və qeyri-mümkün deyil.

## İnsanın həyatındaki iki paralel yol

İnsanın həyatı daim iki paralel yol üzərində keçir. Həmin yollardan biri yolçularının daim üzü yuxarı qalxdığı yoldur. İkinci yol isə yolçuları üzü aşağı, dərəyə və Cəhənnəmə doğru hərəkət edən yoldur. Bu iki yol bir-birinin yanında, bir-birinə paraleldir. Bu iki yolun hərəkət xətti bir-birinə tamamilə bənzəyir. Üzüaşağı və tənəzzül istiqamətində hərəkət edənlər digər yolun yolçularının yaxınlaşdığı yerdən uzaqlaşırlar. Onlar Allahdan uzaqlaşır, Şeytan və Cəhənnəmə yaxınlaşırlar. Həmçinin üzüyuxarı, yüksəliş, nur, Allah, tövhid, əxlaqi və mənəvi paklıq istiqamətinə hərəkət edənlər digər dəstənin tərəfinə süqut etdiyi yerdən uzaqlaşır.

Bu iki yol bütün marşrut boyu paralel uzanır və on-ların birindən digərinə çox asanlıqla keçmək mümkündür. Yollar bir-birinə çox yaxındır. Əgər biz – Allah eləməmiş – ikinci yol ilə getsək və şəxsi əxlaq baxımından üzüaşağı hərəkətdə

olsaq, amma birdən digər yola keçmək və üzüyuxarı hərəkət etmək istəsək, bunu hər an edə bilərik. "Allaha tərəf hərəkət edənin yolu yaxındır".[1] Əgər biz Allahın yoluna qədəm qoymaq istəsək, məsafə çox yaxındır. Siz bir addım atmaqla yolçuları üzüaşağı və süqut istiqamətində gedən yoldan yolçuları əbədi xoşbəxtlik, nur, doğruçuların yeri və ülvi məkan istiqamətində hərəkət edən yola keçə bilərsiniz.

Məsələnin əksi də belədir. Biz nəfsi istəklərə tabe olanda və insanın Allahdan uzaqlaşmasına səbəb olan iş görəndə, ayağımızı o yoldan yolçuları üzüaşağı gedən yola qoymuş oluruq. Biz nəfsimizin istəklərinin əksini etmək və xudbinlik, lovğalıq, nəfsin şeytanına qarşı çıxmaq qərarına gələndə – İmam Xomeyni on ildən bir az artıq müddət ərzində bizi daim bundan çəkindirir və bütün hadisələrdə bizə, bütün İran xalqına, o cümlədən dövlət məmurlarına "diqqətli olun, nəfsinizin əsirinə çevrilməyin" deyirdi – ayağımızı o yola qoyur və üzüyuxarı hərəkət etməyə başlayırıq. Bu, ramazan ayında mümkündür. Nəfsi istəkləri cilovlamaq ramazanda başqa vaxtlardan daha asandır.

## Ramazan – Allahın xüsusi bəndələrinin ziyafət ayı

Allah-taala Öz müqəddəs kitabında buyurur: *"Ey iman gətirənlər! Oruc sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, təqvalı olasınız"*.[2]

Bərəkətli ramazan ayının başlaması, həqiqətən, müsəlmanlar üçün böyük bayramdır. Buna görə də yaxşı



1. Misbahul-mütəhəccid, c. 2, səh. 583
2. Bəqərə, 183

olar ki, möminlər bu ayın gəlişi münasibəti ilə bir-birini təbrik etsinlər, bir-birinə bu aydan mümkün qədər çox faydalanmağı tövsiyə etsinlər. Çünki bu ay ilahi ziyafət ayıdır. Bu ayda nemət və kərəm sahibi olan Allahın süfrəsində yalnız möminlər və bu ziyafətə daxil olmağa layiq olan kəslər oturarlar. Bu, Allahın bütün insanların, hətta dünyada olan bütün varlıqların faydalandığı ümumi kərəm süfrəsindən fərqli süfrədir. Bu, Allahın xas bəndələrinin süfrəsi, onların ziyafətidir.

## Oruc insanın mənəvi təkamülünün əsas sütunlarındandır

Allah-taala buyurur: *"Oruc sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi"*.[1] Bildiyimiz kimi, namaz və zəkat ancaq İslam ümmətinə məxsus ibadət olmayıb. Əziz İslam Peyğəmbərindən əvvəlki peyğəmbərlərin də şəriətinin başında namaz və zəkat dayanıb. *"Nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi tövsiyə etdi"*.[2] Bu ayə həzrət İsanın dilindən nəql edilib. Bu hökmlərin digər peyğəmbərlərin şəriətində də olmasını Quranın digər ayələrindən də başa düşmək olar. Söhbətin əvvəlində oxuduğumuz ayədə də buyurulur ki, oruc da namaz və zəkat kimi İslam ümmətinə məxsus hökmlərdən deyil və onlar keçmiş ümmət və peyğəmbərlərə də əmr edilmişdi.

Buradan belə məlum olur ki, bütün zamanlarda insanların mənəvi həyatında namaz vacib olduğu və o, insanla Allah arasında mənəvi əlaqə yaratdığı, həmçinin zəkat zəruri olduğu və o, insanın malını təmizlədiyi kimi,

1. Bəqərə, 183
2. Məryəm, 31

oruc da vacib və zəruri olub insanın mənəvi təkamülünün əsas sütunlarından biridir. Əgər belə olmasaydı, zaman və dinlər dəyişdikcə bu hökm sabit qalmazdı.

Əlbəttə, müxtəlif dinlərdə bir-birindən fərqli zamanlarda və fərqli formalarda oruc tutulur. Amma ac qalmaq, mədəni boş saxlamaq, ağız, dil və dodağı günün müxtəlif saatlarında fiziki həzlərdən məhrum etmək fərqli dinlərdə olan orucun ümumi xüsusiyyətidir. Deməli, oruc insanların mənəvi yüksəliş və təkamülünün, hidayət və tərbiyəsinin əsas sütunlarından biridir.

## Təqvanın bərəkətləri, təqvasızlığın fəsadları

Ayənin davamında buyurur: *"...ki, təqvalı olasınız"*.[1] Yəni oruc təqvaya doğru pillə, sizin vücud, qəlb və ruhunuzda təqvanın yaranma vasitəsidir. Təqvanın mənası insanın bütün iş və davranışlarında diqqətli olması və onun Allahın razılığını təmin edib-etməməsini nəzərə almasıdır. Bu daimi nəzarət, diqqət və çəkinmənin adı "təqva"dır.

Təqvanın əksi qəflət, diqqətsizlik və gözübağlı hərəkət etməkdir. Allah möminin həyat işlərində sərvaxt olmasını istəyir. Mömin həyatın bütün işlərində gözüaçıq və ayıq-sayıq olmalıdır. Bunun xeyri budur ki, o, gördüyü işin Allahın istəyi və dinin yoluna zidd olmadığını başa düşür. İnsanda belə bir halın yaranmasının və onun öz danışıq, davranış, sükut, oturuş, duruş və digər işlərinin Allahın müəyyənləşdirdiyi yola uyğun olmasına nəzarət etməsinin – bu sayıqlıq, diqqət və ayıqlığın adı "təqva"dır. Orucun faydası budur.

1. Bəqərə, 183

## Təqvanın ictimai təsiri

Əgər hər hansı bir xalq və ya şəxs təqvalı olsa, həm dünya, həm də axirətin bütün xeyirlərini əldə edər. Təqvanın xeyri təkcə Allahın razılığını qazanmaq və Qiyamətdə Cənnətə getmək deyil. Təqvalı insan onun xeyrini elə dünyada da görür. Şüurlu şəkildə Allahın yolunu seçən və həmin yolda diqqətlə hərəkət edən təqvalı cəmiyyət Allahın nemətlərindən elə dünyada da bəhrələnir, başucalığı qazanır. Allah ona dünya işləri barədə elm və bilik bəxş edir. Təqva yolunda hərəkət edən cəmiyyətdə ictimai mühit sağlam, sevginin hakim olduğu, cəmiyyətin müxtəlif təbəqələri arasında qarşılıqlı əməkdaşlığın yarandığı mühit olur.

Təqva dünya və axirət xoşbəxtliyinin açarıdır. Yolunu azmış, müxtəlif fərdi və ictimai problemlərdən nalə edən bəşəriyyət təqvasızlığının, qəflətdə olmasının, diqqətsizliyinin, nəfsi istəklərinin onun üçün tədarük gördüyü bataqlıqda qərq olmasının altını çəkir. Geridəqalmış cəmiyyətlər barədə danışmağa ehtiyac yoxdur, çünki hər şey göz qabağındadır. Dünyanın inkişaf etmiş cəmiyyətləri bəzi cəhətlərdən xoşbəxt olmalarına baxmayaraq – bunun da səbəbi onların bəzi həyat məsələlərində ayıq-sayıq olmalarıdır – onlarda da ciddi boşluq və nöqsanlar var; onların yazıçı, natiq və incəsənət xadimləri bunu müxtəlif formalarda bəyan edirlər.

Təqva peyğəmbərlərin ilk və son tövsiyəsidir. Quranın müxtəlif surələrində də oxuyursunuz ki, peyğəmbərlərin insanlara ilk tövsiyəsi təqvalı olmaq olub. Əgər təqva olsa, fərd və cəmiyyətə ilahi hidayət tam və kamil şəkildə nəsib olar. Amma təqva olmasa, onlara ilahi hidayət də nəsib

olmaz. Oruc təqvanın müqəddiməsidir.

Allah-taala başqa bir ayədə, "Hədid" surəsinin ayələrinin birində buyurur: "Ey iman gətirənlər! Allahdan qorxun (təqvalı olun) və Onun elçisinə iman gətirin ki, sizə öz mərhəmətindən iki pay bəxş etsin: sizə (insanlar arasında və öz həyat yolunuzda) getməyiniz üçün nur versin və günahlarınızı bağışlasın".[1] Təqva Allahın sizin qəlbinizdə, həyatınızda, yolunuzda işığında hərəkət etdiyiniz və sayəsində həyat yolunu tapdığınız nurun yaranmasına səbəb olur. İnsan çaşqınlıqla hərəkət edə bilməz. İnsanın hədəf və məqsədin hara olduğunu bilmədən hərəkət etməsi mümkün deyil. Bizə məqsəd, son mənzil və yolu göstərə biləcək nur təqvadan doğur. Bütün peyğəmbərlər və övliyalar insanlara təqvalı olmağı tövsiyə ediblər.

Mən namazda iştirak edən siz qardaş və bacılara bütün işlərinizdə, həyatınızın bütün anlarında təqvanı özünüzə vacib etməyi tövsiyə edirəm. Bunu cəmiyyətdə məsuliyyəti daha çox olan şəxslər daha çox nəzərə almalıdırlar. Düzdür, İslam cəmiyyətində hamı məsuliyyət daşıyır, amma yük və məsuliyyət hər nə qədər çox olsa, daha çox təqva ehtiyatına ehtiyac var. Cəmiyyətdə məsuliyyəti olan şəxslər gərək öz təqvalarını artırsınlar, nə etdiklərini bilsinlər, danışdıqları sözə, atdıqları addıma, gördükləri işə Allahın razı olub-olmadığını fikirləşsinlər. Meyar budur. Əgər biz təqvanı özümüzə peşə etsək, and olsun Allaha, dünyanın ən böyük maddi gücləri belə bizi getdiyimiz bu düz yoldan iynənin ucu qədər sapdıra bilməz.




1. Hədid, 28

## Quranın baharı olan ramazan ayını qənimət bilmək

Ramazan ayını qənimət bilin. Bu ayın günlərini oruc tutmaqla, gecələrini zikr və dua ilə keçirin. Duanın fəsli ramazan ayıdır. Bəli, insan həmişə dua etməklə Allahla ünsiyyətdə olmalıdır. Amma nəzərə almaq lazımdır ki, *"Bəndələrim Məni səndən soruşanda (de ki,) Mən (onlara) yaxınam. Məni çağıranda çağıranın səsinə səs verirəm"*[1] ayəsi "Bəqərə" surəsində oruca aid bərəkətli ayələrin içində gəlib. *"Bəndələrim Məni səndən soruşanda (de ki,) Mən (onlara) yaxınam"* ayəsi oruc və ramazan ayı barəsindəki ayələrin ortasında gəlib və bütün insanların və bəndələrin diqqətini Allaha, Ona üz tutmağa yönəldir, dəvət edir.

Dua sizin Allahla qəlbən bağlantınızdır. Duanın mənası istəmək, Allahı çağırmaqdır. İstəməyin mənası ümid bəsləməkdir. Əgər sizin ümidiniz olmasa, Allahdan heç nə istəməzsiniz. Ümidi olmayan insan heç bir şey istəmir. Deməli, duanın mənası ümid – müsbət cavab verilmə ümididir. Cavab verilməyə ümid bəslənilməsi qəlbi alovlandırır, onda nur yaradır. Cəmiyyət dua sayəsində ruh yüksəkliyi əldə edir, hərəkətə gəlir.

## Quranla ünsiyyətdə olmağın insana təsiri

Bu ay Quranın baharıdır. Quranla ünsiyyətdə olmaq bizim zehnimizdəki islami elmi gücləndirir, dərinləşdirir. İslami cəmiyyətlərin bədbəxtliyinin səbəbi Qurandan və onun həqiqət və təlimlərindən uzaq düşməsidir. Quranın mənasını başa düşməyən, onunla ünsiyyətdə olmayan



1. Bəqərə, 186

müsəlmanlar heç, hətta dilləri Quranın dili ilə eyni olan və onun dilini başa düşənlər də Quran ayələri barədə fikirləşmədikləri üçün Quranla ünsiyyətdə olmur, onun həqiqətlərini dərk etmirlər. Allah-taala buyurur: *"Allah kafirləri möminlər üzərində əsla qalib etməmişdir!"*[1] Yəni Allah mömimləri kafirlərin qarşısında xar, onların əlaltısı etməmişdir. Gördüyünüz kimi, bu ayə ərəb ölkələrində ərəblər tərəfindən oxunur, amma ona əməl edilmir. Onlar Quran ayələrinin mənasına diqqət etmir, onun barəsində dərindən düşünmürlər. Buna görə də müsəlman ölkələri geridə qalıb.

Quranla ünsiyyətdə olmağın mənası Quranı dönə-dönə oxumaq, onun mənası barədə fikirləşmək, məqsədini başa düşməkdir. Qeyri-ərəblər Quranın tərcüməsindən istifadə edə, onun sözlərinin təxmini mənasını başa düşə, ayələrin məzmununu dərk edə, onların barəsində fikirləşə bilərlər.

Əgər biz Quran ayələri barədə dərindən düşünsək, bizim iradə və müqavimət gücümüz daha da artar. Bir vaxtlar küfr və zülmət dünyası ilə vuruşan insanları həmin Quran ayələri yetişdirmişdi. Böyük İran xalqını zülmətə qərq olmuş müasir cahiliyyət dünyası – modern XX əsr cahiliyyəti ilə mübarizə aparmağa sövq edən də həmin təlimlər olub. Ümidvarıq ki, xalqımız Qurana və Quran həqiqətlərinə gündən-günə daha çox yaxınlaşacaq.

*Tehran şəhərinin cümə namazının xütbələrindəki çıxışdan*
*30.III.1990*



1. Nisa, 141

# Ramazan özünüislah və ibadət ayıdır

Sizin nəyiniz varsa, Qurandandır; nəyiniz varsa, Allaha üz tutmaqdan, Ona təvəkkül etməkdən və Onunla əlaqədə olmaqdandır. Allahla ünsiyyətdə olmağı unutmayın. Qarşıdan ramazan ayı gəlir. O, özünüislah və ibadətin, Quranın, zikr, dua, Allahdan bağışlanma diləmək və Ona sığınmağın baharıdır. Onun qədrini bilin. Bütün təbəqələr, xüsusilə gənclər ramazan ayını qənimət bilməlidir. Allaha sığının, Ondan sizi doğru yola istiqamətləndirməsini, sizə xüsusi mərhəmət göstərməsini istəyin, Ona təvəkkül edin, Allah düşmənlərindən zərrəcə qorxub çəkinməyin.

*Məşhəd şəhərinin əhalisi və İmam Rza zəvvarlarının qarşısındakı çıxışdan 22.III.1990*

## Ramazan insanın Allaha yaxınlaşması üçün bir fürsətdir

İnsan Allahdan və Onun yolundan uzaq, müxtəlif qəflət amillərinin mühasirəsinə düşüb. Müxtəlif maraqlar onu üzüaşağı, tənəzzül istiqamətinə çəkir. Amma insan ruh və batini yüksəkliklərə qalxmaq, ucalmaq, Allaha yaxınlaşmaq, ilahi əxlaqa sahib olmaq istəyir. Ramazan ayı barəsindəki mühüm məsələlərdən biri insanın öz ruhunu yüksəkliklərə ucaltmaq imkanı əldə etməsidir. Ramazan ayında belə bir fürsət var.

Əlbəttə, ramazandan başqa vaxtlarda da fürsətlər var. Məsələn, gündəlik qılınan beş namaz da fürsətdir və biz onlardan istifadə edərək mənəvi yüksəkliklərə qalxa, özümüzü islah edə, mənəvi pas, çirk, qəflət və xəstəlikləri özümüzdən uzaqlaşdıra bilərik. Namaz bunun üçün gözəl fürsətdir. Yəqin ki, siz bunu indiyə kimi sınaqdan keçirmisiniz, keçirməmisinizsə, keçirin. Əgər siz namazda diqqətinizi özünüzə və gördüyünüz işə – namaza

yönəltsəniz, şübhəsiz, sizin namazdan əvvəlki halınızla namazdan sonrakı halınız bir-birindən fərqli olacaq. Bunun yeganə şərti sizin namazda nə işlə məşğul olmağınıza diqqət etməyinizdir. Namazın sözlərinin mənasını başa düşsəniz, daha yaxşı olar. Bu, çox asan işdir.

"Bizim dilimiz ərəb dili deyil, ərəb cümlələrinin mənasını başa düşə bilmərik" deməyin. Namazın əvvəlindən axırına kimi bütün sözlərinin mənasını öyrənmək üçün normal adama bir saatdan da az vaxt kifayət edir. Bu, çox asandır. Namazın sözlərinin tərcüməsi yazılmış kitablar da var. Şübhəsiz, əgər namazın sözlərinin mənasına diqqət etsəniz, dediyiniz sözlərin mənasını bilsəniz, onların barəsində düşünsəniz, çox yaxşı olar. Əgər bunu edə bilməsəniz, heç olmasa, səcdədə olanda bilin ki, Allahla danışırsınız; rükuda olanda bilin ki, Allahın qarşısında əyilmisiniz; "Fatihə" və surəni oxuyanda, zikrləri deyəndə diqqətinizi kiminlə danışmağınıza yönəldin. Bunun özü çox mühümdür.

Əgər belə bir diqqət yarada bilsəniz və namazda Allahı yada salsanız – *"Allahı xatırlamaq daha böyükdür"*[1] – bu namaz sizin üçün "möminin meracı" olacaq və sizi göylərə qaldıracaq. Yüksəkliklərə ucalmağın mənası sizin namazdan sonra öz batininizdə daha çox saflıq, paklıq və nur hiss etməyinizdir. Maliyyə məsələləri ilə bağlı ibadətlər də elədir. İbadətlərin müxtəlif növləri var və onların hər biri bizim üçün bir fürsətdir. Amma ramazan ayı il ərzində olan istisnai fürsətdir.

Bu 29 və ya 30 gündə gündəlik vacib namazlardan və insanın həmişə qıla bildiyi nafilə namazlarından əlavə, bir sıra dualar da var ki, onların oxunması insana əlavə nuranilik bəxş edir. Həmin dualar nəql edilərək gəlib bizə

1. Ənkəbut, 45

çatıb. Bizə Allahla necə danışmaq, necə minacat etməyin lazım olduğunu öyrədiblər, Allaha nələrin deyilməsinin mümkün olduğunu başa salıblar. İmamlardan nəql edilmiş həmin dualarda bəzi cümlələr var ki, əgər onlar olmasaydı, adam Allahla elə danışmağın, Ondan o cür şeylər istəməyin mümkün olduğunu bilməzdi.

## Ramazan islahat və yenilənmə kursudur

Ramazan orucu qeyd edilənlərdən əlavə, oruc tutan şəxsə xüsusi mənəviyyat və nuranilik verərək onun ilahi bərəkətdən bəhrələnməsinə zəmin yaradır. Əgər siz gündəlik namaz və digər dini vəzifələrdən başqa ramazan ayının oruc və dualarına diqqət etsəniz və ona Quran oxumağı da əlavə etsəniz – dini mətnlərdə ramazan "Quranın baharı" adlandırılıb – o, kamil islahat, yenilənmə kursu olar, çox xeyirli bir dövrəyə çevrilər.

Əsas məsələ bizim ramazan ayında Allaha tərəf hərəkət etməyimizdir. Bu mümkündür. Öncə də qeyd etdiyim kimi, mən bəzən ramazan ayından sonra İmam Xomeyninin yanına gedəndə onun daha da nuraniləşdiyini, danışıq, baxış, işarə, hərəkət və hətta nəzərlərinin dəyişdiyini, ramazandan əvvəlki vaxtdan fərqləndiyini hiss edirdim. Ramazan ayı mömin insan üçün belə bir təsirə malikdir. Ramazan möminin qəlbinə, batininə o qədər nuranilik bəxş edir ki, insan bunu əyani şəkildə görür, onun danışığından paklaşdığını hiss edir. Allahın bəndələri belədir. Biz bu fürsətdən çox istifadə etməliyik.

## Günahı tərk etməyin əhəmiyyəti

Mən bir məsələyə toxunmaq istəyirəm və ümid edirəm ki, Allahın köməyi ilə o həm mənim özümdə, həm də siz əziz qardaş və bacılarda müsbət dəyişikliyin baş verməsinə səbəb olacaq. Həmin məsələ budur ki, Allaha yaxınlaşmaq üçün əsas məsələ günahların tərk edilməsidir. Müstəhəb əməllərin yerinə yetirilməsi, nafilə namazların qılınması, minacat, dua və digər işlər ikinci dərəcəlidir. Əsas məsələ insanın günah etməməsidir. Bu, insandan təqva tələb edir. Təqva insana lazım olan ən mühüm və ilk şeydir. İnsanın günah etməməsinə də təqva səbəb olur. Günah insanın özünü Allahın böyük bağışlanma dəryasının kənarına çatdırmasına və ondan bəhrələnməsinə mane olur. Günah bizim dua etməyimizə, diqqətimizin Allaha yönəlməsinə mane olur. Günah bizi özümüzü arındırmağa, yol verdiyimiz nöqsanları aradan qaldırmaq barədə fikirləşməyə, fikirləşib günahdan uzaqlaşmağa qoymur. Məsələnin ilk şərti budur.

Əlbəttə, günahlar da fərqlidir: onların bəzisi fərdi, bəzisi ictimaidir; bəzisi əl, bəzisi göz, bəzisi dil ilə baş verir. Müsəlmanlar üçün günahlar məchul deyil, onlar nəyin günah olduğunu bilirlər. Həm dua oxuyan, həm müstəhəb, həm də boynuna düşən vacib əməlləri yerinə yetirən, amma bununla bərabər günahdan da çəkinməyən şəxs soyuqlayıb qızdırma içində olan və həmin vəziyyətdə soyuqdəymə dərmanlarını qəbul etməklə yanaşı, bədəninə zərərli olan yeməklərdən də istifadə edən şəxs kimidir. Təbii ki, belə bir vəziyyətdə həmin dərmanların heç bir faydası olmayacaq. Əgər xəstə ona zərəri olan yeməkdən çəkinmirsə, ziyanlı işlərlə məşğuldursa, dərmanın ona heç bir təsiri olmayacaq.

Allahın rəhmət, bağışlama və digər mənəvi nemətlərindən istifadə etməyə zəmin yaratmaq lazımdır və o, günahın tərk edilməsidir. Həzrət Əli "Kümeyl" duasında belə buyurur: "İlahi, mənim duamı həbs edən (onların qəbul olmasına mane olan) günahlarımı bağışla".[1] Günahlar duanın qəbul olmasına mane olur. Ramazan ayının bu gecə və səhərlərində dəyərli "Əbu Həmzə" duasında belə oxuyuruq: "İlahi, mənimlə Sənə itaət etməyimə mane olan (boynuma düşən vəzifələri yerinə yetirməyimə, özümü Sənə yaxınlaşdırmağıma əngəl törədən) günahlarım arasında fasilə yarat".[2] Əsas məsələ günahın tərk edilməsidir.

## İslam cəmiyyətində sağlam mühitin qorunması

Hər bir İslam hökumətinin ən gözəl xüsusiyyəti günah mühiti yaratmamasıdır. Qeyri-islami quruluşlarda mühit günaha bulaşır, hətta insan günah etmək istəməsə belə, sanki bu mümkün olmur və hər şey insanı günaha tərəf sövq edir. Amma İslam quruluşunda belə deyil. İslam quruluşunda mühit günaha bulaşmayıb. Bəli, bu quruluşda da günahkar var, özü də müxtəlif səviyyələrdə, müxtəlif peşələrdə və müxtəlif səlahiyyət sahiblərində. Günahın mövcud olduğunu inkar etmək olmaz. Sadəcə burada günah ancaq şəxsi xarakter daşıyır. Yəni hər hansı bir şəxsin nəfsi istəyi onu günaha sövq edir. Bundan fərqli olaraq batil və şeytani quruluşlarda günah ictimai baxımdan inkişaf meyarıdır. Amma islami quruluşda

1. əl-İqbal, səh. 706
2. İqbalul-əmal, səh. 73

günah nəinki inkişafa səbəb olmur, əksinə, inkişafa mane olur, dəyərlərlə ziddiyyət təşkil edir və tənəzzülə səbəb olur.

Kimliyindən asılı olmayaraq, günah edən şəxsə haqq qazandırmaq və "bu işi filankəs görürsə, deməli, olar" demək olmaz. Xeyr, belə deyil. Nəyin günah olduğunu öyrənmək və günahkarı onun vasitəsi ilə tanımaq lazımdır. Kimliyindən asılı olmayaraq, günah edən şəxs günahkardır. Bizim "bu işi filankəs görürsə, deməli, olar, əgər həmin işdə bir problem olsaydı, görməzdi" deməyimiz yanlışdır. Bəli, hər hansı bir şəxsin əməlini yaxşı tərəfə yozmaq olar, hətta bu, bəyənilən işdir. İnsan bütün möminlərin əməlini yaxşı tərəfə yozmalıdır. Möminin işi mümkün olan qədər pis tərəfə yozulmamalıdır. Amma əgər kimsə günah olması tam aydın olan bir iş görürsə, onun günah sayılmasında işi görənin kimliyinin fərqi yoxdur. Görənin kimliyindən asılı olmayaraq, günah günahdır. Hətta seçilən şəxslər günah edəndə onların günahı başqalarından daha ağır olur.

Buna görə də əsas məsələ günahdan çəkinməkdir. Allahın köməyi ilə bu ramazan ayında çalışaq, öz üzərimizdə işləyək və günahı özümüzdən uzaqlaşdıraq. Əgər günahdan uzaqlaşsaq, üzümüzə göylərə ucalmaq qapıları açılacaq və biz insan üçün müəyyənləşdirilmiş mənəvi və ilahi yüksəliş yolunu qət edə biləcəyik. Amma günah yükü ağır olsa, bu işi görmək mümkün olmayacaq. Ramazan ayı günahdan uzaqlaşmaq üçün gözəl fürsətdir.

İnşallah, Allah-taala həm buradakı qardaş və bacılara, həm ölkəmizdə, həm də dünyada olan bütün müsəlmanlara bu ramazan ayından bəhrələnmək imkanı versin, onların hamısı ilahi sifətlərə yiyələnmək şərəfi nəsib etsin və ya heç olmasa bu yolda addımlamağa başlasınlar. Əgər insan bu

yolda hərəkət etsə, bəşəriyyətin bütün problemləri azalar və tədricən yox olar.

*Ramazan ayının 11-ci günündə*
*müxtəlif xalq kütlələri ilə görüşdəki çıxışdan*
*7.IV.1990*

# Təkəbbürün mənfi nəticələri

İnsanın kamillik yolunda hərəkət etməsinə mane olan, həm Quranın müxtəlif yerlərində müxtəlif ibarələrlə, həm də məsum imamların hədislərində çəkinməyimiz tövsiyə edilmiş sifətlərdən biri təkəbbür və özündənrazılıqdır. Bu sifət insanın mənəvi yüksəlişi yolunda böyük maneədir. Dünyanın əvvəlindən indiyə kimi baş vermiş bütün savaşlar, yəni peyğəmbərlərin göndərilməsi, çoxsaylı mübarizələr, haqq ilə batilin yaranması, müharibələr, döyüşlər, qarşıdurmalar, problemlər qarşısında səbir nümayiş etdirilməsi, haqq əhlinin böyük səylər göstərməsi, hətta İslam hökumətinin qurulması və İslam ədalətinin bərqərar edilməsi insanın kamilliyə çatması və Allaha yaxınlaşması üçün olub. Hər şey bunun üçündür. Təkəbbür elə bir sifətdir ki, ona düçar olan şəxsin özünün özündən xoşu gəlir. O, özünə, işinə, elminə, fərdi xüsusiyyətlərinə baxanda onlara valeh olur və onlar onun gözünə çox böyük və gözəl görünür. Bəlkə də, insanın kamilləşməsi yolunda ən böyük maneə və ən pis xəstəlik özündənrazılıq, özünü nöqsansız saymaq, güclü və bacarıqlı hesab etmək,

başqalarından üstün zənn etməkdir.

Təkəbbürün xüsusiyyətlərindən biri insanın özünü başqalarından üstün hesab etməsidir. Əslində, təkəbbürün mənası bu deyil. Bu, təkəbbürün xüsusiyyətlərindən biridir. Həqiqətən, bu, çox təhlükəli və heyrətamiz bir xüsusiyyətdir. Adam Quran ayələrinə nəzər salanda barəsində müxtəlif ifadələr işlədilmiş bu sifətin xüsusi vurğulanmasının və Allah yolunda hərəkət edən mömin şəxsin ondan çəkinməsinə çox təkid edilməsinin şahidi olur.

Fərqi yoxdur, özünü güclü saymaq da təkəbbürün bir növüdür. Həmçinin insanın özünü güclü, zəngin və ehtiyacsız hiss etməsi, yaxud özünü elmli sayması, öz elminə arxalandığı üçün təqdim edilən hər şeyi onunla ölçməsi, onun elmi ilə düz gələn şeyi qəbul edib, elmi çatmayan şeyi inkar etməsi də təkəbbürün təhlükəli növlərindəndir. Hətta ibadət əhli olan, zahidliklə məşğul olan, Allaha tərəf üz tutan və mənəviyyatını artırmaq istiqamətində çalışan şəxslər də gördükləri işdə təkəbbürə düçar olurlar. İbadətkar və zahid şəxsdə öz ibadəti barəsində yaranan eqoizm, özündənrazılıq, özünü təmiz və başqalarından üstün saymaq da təkəbbürün növlərindəndir. Məsələn, bir şəxs Qədr gecəsini dua, minacat, göz yaşı tökmək, Allaha üz tutmaq, namaz, Allahdan bağışlanma diləmək və digər ibadətlərlə keçirir, onun səhərisi gün camaat arasına çıxanda onların öz işi ilə məşğul olduğunu görüb ürəyində "ay yazıqlar, dünən gecə siz nə edirdiniz, mən nə edirdim; vaxtınız qəflətdə keçirmisiniz!" deyir. Özünü başqalarından üstün sayır. Bunların hamısı insanın təkamülü yolunda ölümcül zəhərdir.

Biz adi adam olduğumuz üçün adi təkəbbürə düçar oluruq. Mənəvi məqamları qət edərək yüksək məqamlara

ucalan şəxslər isə malik olduqları mənəvi məqama uyğun təkəbbür və özündənrazılığa düçar olurlar. Bu da onlar üçün olduqca böyük təklükədir. Bu hansı məqamda olmasından asılı olmayaraq, hamı üçün təhlükəlidir.

Allah yolunda ilk addım özünü kiçiltmək və özünü tam yoxsul və əliboş hesab etməkdir. Yəni insan güc, sərvət, elm və müsbət xüsusiyyətlərə malik olmasına, var-dövlət və qüdrət baxımından ən yüksək həddə olmasına baxmayaraq, özünü formal deyil, sözün həqiqi mənasında Allah qarşısında möhtac, əliboş, kiçik, həqir hiss etməlidir. Bu, kamil insan ruhiyyəsidir. Əlbəttə, bu məqama çoxlu məşq etmək və çalışmaqla çatmaq olar.

## Xudbinlik hissinin sındırılması

Deyilənlərə görə, zəmanəsinin böyük övliyalarından, arif və mənəviyyat əhlindən olmuş məşhur alim mərhum Mirzə Cavad Məliki Təbrizi tələbəlik illərinin ilk vaxtlarında Nəcəfdə tələbə olmasına baxmayaraq, zadəgan kimi davranarmış. Belə ki, o bir yerə gedəndə arxasınca bir nökər düşərmiş. Həmçinin çiyninə qiymətli dəri atar, bahalı paltarlar geyinərmiş. Bunun səbəbi onun zadəgan ailəsindən çıxması olub. Onun atası Təbriz tacirlərinin başçısı, ya da tacirlərin başçısının ailəsindən olub. Mərhum Mirzə Cavad mənəviyyatlı tələbələrdən olub və Allah bu əməlisaleh gəncə xüsusi lütf edəndən sonra o, dövrünün məşhur arifi, əxlaq, mərifət və tövhid ustadı, Nəcəfdə məna əhlinin yol göstərəni mərhum Molla Hüseynqulu Həmədaninin yanına gedib. O vaxt hətta böyük şəxsiyyətlər gedib mərhum Molla Hüseynqulu Həmədaninin məclislərində iştirak edər, ondan bəhrələnərdilər.

Zadəgan tələbə geyimində olan mərhum Mirzə Cavad Təbrizi mərhum Molla Hüseynqulu Həmədaninin dərsinə ilk dəfə girmək istəyəndə Molla Hüseynqulu Həmədani içəridən deyir ki, elə orada, yəni qapının ağzında, ayaqqabıların üstündə otur. Mərhum Mirzə Cavad elə oradaca oturur, amma bu söz ona toxunur və o özünü təhqir olunmuş sayır. Amma bu iş və bu ilahi tərbiyə onun mənəvi təkamülünə səbəb olur. Beləcə, həmin dərslərdə davamlı şəkildə iştirak edir, ustadına hörmətlə yanaşır, onun dərsinə gedir. Bir gün mərhum Mirzə Cavad yenə arxa tərəflərdə oturarkən Molla Hüseynqulu Həmədani dərs qurtarandan sonra üzünü ona tutub deyir: "Get bu qəlyanı mənim üçün hazırla gətir". Mərhum Mirzə Cavad ayağa qalxır və qəlyanı götürüb çölə çıxır. Amma bu işi necə görsün? Zadəgan balası, o qədər adamın qarşısında, əynində də bahalı paltarlar! Fikir verin, əməlisaleh və böyük insanları belə yetişdirirdilər. Mərhum Mirzə Cavad qəlyanı aparıb çöldə gözləyən nökərinə verərək deyir ki, bu qəlyanı hazırla gətir. Nökər qəlyanı aparıb hazırlayır və gətirib mərhum Mirzə Cavada verir. Mərhum Mirzə Cavad qəlyanı məclisə gətirir. Onun qəlyanı əlinə alıb məclisə gətirməsinin özü də mühüm və ağır iş olub. Mərhum Molla Hüseynqulu Həmədani deyir ki, mən istəyirdim qəlyanı özün hazırlayasan, nökərin yox!

Bu, insanın vücudunda şirkə səbəb olan dikbaş xudbinliyin sındırılmasıdır. Bu, haqq qarşısındakı eqoistlik, məğrurluq, özündənrazılıq, özünü dəyərli və üstün saymaq hissini yox edir, onu kamillik zirvəsinə aparan yola istiqamətləndirir. Mərhum Mirzə Cavad həmin məqama çatmışdı. O, sağlığında mənəviyyat əhlinin qibləsi olub. Bu gün o böyük şəxsiyyətin qəbri batin və mənəviyyat əhlinin

ziyarətgahıdır. Buna görə də ilk addım hər bir insanın daxilində olan "mənəm-mənəm"liyi sındırmaqdır. Əgər insan davamlı nəzarət, öyüd-nəsihət və zahidliklə onu əzməsə, böyüyərək fironluq edər.

Dünyada olan bütün fəsadlar eqoizmdən qaynaqlanır. Bütün zülmlər, ayrı-seçkiliklər, müharibələr, qanların tökülməsi, haqsız qətllər, bəşəriyyətin həyatını zəhərə çevirən və insanı səadətdən məhrum edən bütün işlər hamımızın içində olan bu xudbinlikdən və bu batini "Firon"dan gəlir. Əgər biz onu cilovlamasaq, vücudumuzda olan bu inadkar atın ağzına dəhnə vurmasaq, çox təhlükəli olar. O, insanın təkcə özü üçün təhlükəli deyil, nüfuz dairəsindən asılı olaraq onun ətrafındakılar üçün də təhlükəlidir. İnsanı quyunun dibinə atan bu xudbinlik reallıqda insanın gücü və təsir dairəsi qədər fəsad yaranmasına səbəb olur. Buna görə də Qurani-kərim buyurur: *"Cəhənnəmdə təkəbbürlülər üçün yermi yoxdur?!"*[1] Cəhənnəm kafirlərin yeridir. Günah, fəsad və bədbəxtliklər təkəbbürdən qaynaqlanır. İnsanların həm batinində, həm də ətrafındakı mühitdə Şeytanın hökmranlıq edib at oynatdığı dünyanı insanların təkəbbürü yaradır.

## "Nəml" surəsinin təvazökarlıq dərsləri

"Nəml" surəsinin ayələrinin mənasına diqqət edirdim. Bu surədə həzrət Süleymanın hekayətinin bir hissəsi qeyd edilib. O, çox heyrətamiz bir hekayətdir. Surənin, demək olar ki, bütün hadisələri onun ətrafında dövr edir. Bu surə həzrət Musanın hekayəti ilə başlayır və təkəbbür və məğrurluğu qeyd edilən Fironla sona çatır. Yəni öz zahiri

1. Zumər, 60

güc və izzəti ilə Firon həddinə çatacaq qədər öyünmək hər bir insanın başına gələ bilər. Sonra dərhal həzrət Süleymanın hekayətinə keçərək buyurur: *"Biz Davuda və Süleymana böyük bir elm verdik"*.[1] Allah onlara o qədər elm, hökmranlıq və qüdrət verib ki, həzrət Süleyman üzünü ətrafındakılara tutaraq deyib: *"Bizə hər şeydən verildi"*.[2] Allah həzrət Süleymana təkbaşına hökmranlıq etmək üçün lazım olan hər şey vermişdi. Həzrət Süleymanın hökmranlığı İsrail oğullarının neçə yüz illik səylərinin nəticəsi idi. Davudun hökmranlığı haqqın, yəni həzrət Musanın Firona təqdim etdiyi haqqın, İsrail oğullarının arasında uzun illər mövcud olan tövhid kəlamının təzahürü idi. Bu hökmranlıq ondan sonra Süleyman peyğəmbərə keçdi. Həzrət Süleymanın hökuməti heyrətamiz hökumət olub.

Həzrət Süleymanın Allah-taalanın bu surədə nəql etdiyi hekayəti, demək olar, əvvəldən axıra kimi təkcə maddi deyil, həm də metafiziki qüdrətə malik, özündən əvvəl və sonrakılar arasında misli olmayan hökumət sahibi olan bu əzəmətli insanın Allah qarşısındakı təvazökarlığı ətrafında dövr edir. *"O, necə də gözəl qul idi! Çünki daima Allaha qayıdardı"*.[3] Allah-taala Qurani-kərimin müxtəlif surələrində – "Nəml", "Səbə", "Sad" və "Bəqərə" surələrində həzrət Süleymanın adını çəkib və onu "əvvab", yəni Allah qarşısında təvazökar, Ona tərəf qayıdan, bütün işlərini Allaha həvalə edən bəndə adlandırıb.

Həzrət Süleymanın "Nəml" surəsində nəql edilmiş hekayətində də elədir. Hekayətin əvvəlində qarışqaların




1. Nəml, 15
2. Nəml, 16
3. Sad, 30

sözü nəql edilib: *“Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: “Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsin”.*[1] Bu, qarışqalardan birinin sözüdür. O digər qarışqalara deyir ki, yuvanıza daxil olun, çünki ola bilər, Süleymanın qoşunu özü də hiss etmədən, bilməyərəkdən sizi tapdasın. Süleyman peyğəmbər onun bu sözünü başa düşür. Bu, Allahın qüdrətidir. Görəsən, o, qarışqalardan ətrafa yayılan dalğaları necə tutur, onların bir-biri ilə əlaqə vasitəsi olan və adi insanların başa düşmədiyi həmin danışığı necə başa düşüb? Artıq bu, Allahın qüdrətidir: *“Bizə quşların dili öyrədildi”.*[2] Süleyman peyğəmbər quşların dilini bilir, onların danışığını başa düşürdü. Elm inkişaf edərək bizi quş, canlı və bitkilərin xüsusiyyəti ilə daha yaxından tanış etdikcə bunları daha yaxşı başa düşmək, daha rahat qəbul etmək olur.

Bir vaxtlar bu sözlər danışılanda insanların maddi zehni, hətta alimlər onu inkar edirdilər. Təxminən yüz il bundan qabaq Hindistan və Misirdə materialist düşüncəli təfsirçi və alimlər var idi. Onlar XIX əsr Avropa düşüncə tərzi ilə tanış idilər və mənəviyyatı inkar edirdilər. Həmin alimlər bu qisimdən nə görürdülərsə, onları başqa cür yozurdular, halbuki buna əsla ehtiyac yox idi. Elmin inkişafi bizə bu qəbildən olan çox şeyi sübut edərək onların başa düşülməsini asanlaşdırıb. Əlbəttə, onlar da həmin ayələrin mənasını başa düşdüklərini iddia edirdilər. Hər halda sözünü açıq-aydın bəyan edən Quranda şübhəli heç nə yoxdur və biz bunu qəbul edirik. Biz sözü gedən məsələni də dərk edirik.

Həzrət Süleyman qarışqanın sözünü eşidəndən sonra

1. Nəml, 18
2. Nəml, 16

*"onun bu sözünə gülümsədi".*[1] Bu, çox şirin, eyni zamanda simvolik hadisədir. Qarışqa zəiflik və kiçiklik, Süleyman isə insanın qüdrət və əzəmət simvoludur. Bundan artıq böyüklük olmaz. O ən kiçik varlığın kinayəli sözündən qəzəblənmir, ondan intiqam almağa çalışmır. Bu, çox heyrətamiz ruhiyyədir. Əlbəttə peyğəmbərin belə bir ruhiyyə sahibi olmasını təsəvvür etmək mümkündür. Amma adi insanların ruhi baxımdan bu qədər həlim və zərif olması mümkün deyil.

Süleyman peyğəmbərin Qurani-kərimdə qeyd edilən hekayətlərində təkid edilən bir nüans var və o da bu kontekstdədir. Öncə də qeyd etdiyim kimi, bu surənin həzrət Süleymana aid hissəsi sanki bütünlüklə həmin məsələnin ətrafında dövr edir. Yəni o, güclü insanların Allah-taala qarşısında necə təvazökar olmalarını, özlərini, qürur və mənliklərini necə unutduqlarını, Allah qarşısında özlərini heç saymalarını və bunun insanın kamilləşməsinə necə səbəb olmasını göstərir. Burada bu nüansın başa salınmasına çalışılıb.

Həzrət Süleyman Səba hökmdarı Bilqeysin hökuməti barədə məlumat əldə edəndən sonra ona belə bir ismarıc göndərdi: *"Mənə qarşı təkəbbür göstərməyin və yanıma Haqqa təslim olan halda gəlin!"*[2] Yəni Allahın bu yenilməz qüdrəti bütün Fironları, şəxsi və şeytani qüdrətləri məhv edərək hamını Allah qarşısında təslim edir. Səba şəhəri Yəməndə və ya Afrikanın şimalına yaxın bir yerdə yerləşib. Onun dəqiq yeri barədə fikir ayrılığı var. Həzrət Süleyman Bilqeysə xəbər göndərir ki, onun qüdrəti qarşısında təslim olmalıdır. Bilqeys həzrət Süleymana



1. Nəml, 19
2. Nəml, 31

hədiyyə göndərir, amma Süleyman onun hədiyyəsini qəbul etmir. Buradan belə məlum olur ki, burada məsələ maddi və ticari deyil, iman və Allah qarşısında təslim olmaq məsələsidir.

Bilqeys həzrət Süleymanın hökmranlığı altında olan əraziyə daxil olub onun sarayına yaxınlaşanda Süleyman göstəriş verir ki, şüşədən bir qəsr və eyvan tiksinlər. Çünki Süleyman xariqüladə qüdrətə malik idi: *"Süleyman nə istəyirdisə, onlar onun üçün düzəldirdilər; məbədlər, heykəllər..."*[1] Həzrət Süleymanın göstərişi ilə şüşədən böyük bir qəsr və ya eyvan inşa edildi. Bilqeys həmin əraziyə daxil olmaq istəyəndə şüşələr şəffaf olduğu üçün oranın su olduğunu güman etdi və içəri daxil olmaq məcburiyyətində olduğu üçün – çünki ona demişdilər ki, mütləq içəri keçməlisən – islanmasın deyə paltarının ətəyini qaldırdı. O, paltarının ətəyini qaldıranda həzrət Süleyman ona belə dedi: *"Bu, (su deyil,) şəffaf büllurdan düzəldilmiş bir saraydır!"*[2] Buna görə də çırmanmağa ehtiyac yoxdur.

Elm, qüdrət, izzət və sərvət, bir sözlə, bütün məziyyətləri özündə bir yerə toplamış Süleymanın əzəməti Bilqeysin qürurunu sındırdı və onun İslamı qəbul edib müsəlman olması, iman gətirməsi yolunda olan böyük maneəni aradan qaldırdı. Hər halda o da hökmdar və qüdrət sahibi idi. Qüdrət sahibləri bir-biri ilə qarşılaşanda daha çox lovğalanır, təkəbbürlü ruh və azğın nəfslərini daha çox büruzə verir, necə deyərlər, bir-biri ilə rəqabət aparırlar. Rəqabət zamanı insanın fironluq xüsusiyyətləri özünü daha çox göstərir. Belə bir vəziyyətdə Bilqeysin iman gətirməsi mümkün deyildi. Hətta əgər iman gətirsəydi

1. Səbə, 13
2. Nəml, 44

belə, o, formal və qorxudan doğan bir iman olacaqdı. Niyə? Çünki onun batinindəki hökmranlıq, qüdrət və əzəmət onun iman gətirməsinə mane olacaqdı. Amma Bilqeys bu böyük qüdrət və əzəməti və onun bir insanın ixtiyarında olmasına baxmayaraq, həmin şəxsin özünü Allahın qulu saymasını müşahidə edəndən sonra onun xudbinlik və qürur "şüşə"si sındı. O bu əzəmətli nişanələri görəndən sonra minacat edərək Allaha belə dedi: *"(Səba hökmdarı) dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişəm. İndi isə Süleymanla aləmlərin Rəbbi olan Allaha təslim oldum!"*.[1] Beləcə, o, səmimi-qəlbdən iman gətirdi və həmin maneə aradan qalxdı.

Allah-taala burada da göstərir ki, insan batini təkəbbür və lovğalıq əsiri olduğu müddət ərzində iman gətirə bilməz. Amma bu tilsim sınandan sonra onun iman gətirməsi də asanlaşır. Bu, İslam və Quranın böyük dərsidir. Dünyada yaranan bütün problemlər bu təkəbbürdən qaynaqlanır. Bu gün dünyada güc sahibi olan şəxslərin gücü puçdur və əslində, o, güc deyil: bu gün gücləri var, amma sabah yerlə-yeksan olur; biri bu gün hökmdardır, iki gün, bir həftə sonra hətta özünü qorumaq qüdrəti olmayan aciz bir varlığa çevrilir. Tarix bunun nümunələri ilə doludur. Belə olan halda bu nə gücdür ki, insan onunla öyünsün! Öz sərvətlərinə arxalanan zəngin şəxslər, əslində, onun zənginlik olmadığını bilmirlər. Elə "Ələq" surəsində də buna işarə edərək buyurur: *"Xeyr! İnsan həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə"*.[2] İnsanın özünü ehtiyacsız sayması onun həddini aşmasına səbəb olur.

Bəzi şəxslər isə çoxlu pul, sərvət və imkana sahib



1. Nəml, 44
2. Ələq, 6-7

olmalarına baxmayaraq, özlərini ehtiyacsız hesab etmir, həmin sərvətə arxalanmır, özlərini Allaha bağlı sayırlar. Belə olan şəxs həddini aşmaz. Dünyanın bütün sərvəti ixtiyarında olan Süleyman peyğəmbər bunun kamil nümunəsi idi. İlahi hökumətlər, tarix boyu hakimiyyətdə olmuş peyğəmbərlər və övliyaların hamısı bu cür olublar. Cəmiyyətin sərvət və bütün imkanları onların ixtiyarında olub, amma onlar özlərini ona bağlamayıblar. Məsələn, həzrət Əlinin şəxsi sərvəti olub, amma o, daim qazanc əldə edərək sədəqə verib. Camaatın mal-mülkü və beytülmal o həzrətin ixtiyarında idi, istədiyini götürüb istifadə edə bilərdi. Amma o həzrət həmin mal və sərvətdən uzaq durub.

## İnsanın Allahdan ehtiyacsızlıq hiss etməsinin təhlükələri

İnsanın ehtiyacsızlıq hiss etməsi, özünü güclü bilməsi və öz elminə etimad etməsi insan üçün təhlükəlidir. Qurani-kərim Qarunun hekayətini nəql edərək buyurur ki, ona nəsihət verəndə belə cavab verirdi: *"Bu sərvətə, malik olduğum bilik vasitəsilə nail olmuşam"*.[1] Bu məğrurluq, öyünmə, təkəbbür, insanın özündə olan cüzi şeyə arxalanaraq onu mühüm sanması ən böyük bəlalardandır.

Əgər İslam Respublikasında bütün təbəqələr – istər hansısa məsul vəzifədə çalışan şəxslər, istərsə də heç bir zahiri vəzifə, iş və məsuliyyəti olmayan adi insanlar – təkcə bu xüsusiyyəti özlərində formalaşdırsalar və azğınlığa səbəb olan təkəbbür, özündənrazılıq və lovğalığı özlərindən uzaqlaşdırsalar, problemlərin çoxu həll olar və cəmiyyət sözün əsl mənasında

1. Qəsəs, 78

islami cəmiyyət olar. Əlbəttə, məsul şəxslərin məsuliyyəti daha ağırdır. Biz bunu mütləq etməliyik. Nə gözləyirik? Hamımızın içində olan vəsvəsə daim bizə başqalarından üstün olduğumuzu, sözümüzün daha sanballı olduğunu, məqamımızın başqalarından daha yuxarı olduğunu deyir. Bu, İslam cəmiyyətində fəsad, təfriqə və hər şeyin pozulmasına səbəb olur. Bunu aradan qaldırmaq lazımdır. Əgər biz bu rəzil xüsusiyyəti öz vücudumuzdan və cəmiyyətdən silsək, qardaşlıq hissi yaranar və gündən-günə daha artıq vəhdət və birliyə sahib olarıq, cəmiyyət də islami və ilahi meyarlar baxımından daha da yaxşılaşar.

Həzrət Əli dəyərli "Nəhcül-bəlağə" kitabında təkəbbür və onun əlacı barədə heyrətamiz məsələlərə toxunub. O həzrətdən bu barədə çox fəsahətli sözlər nəql edilib. O həzrətin həyatı da Allaha xatir və Allah yolunda bəndəlik nümunəsi olub. Bəlkə də, insanın vücudunda olan təkəbbür, özündənrazılıq və dominantlığın əksi Allahın hökmlərini qəbul etmək və Onun qarşısında təslim olmaqla müşayiət edilən ibadətkarlıq, bəndəlik və Allah qarşısında mütləq təvazökarlıqdır.

Bu, Allah övliyalarının xüsusiyyətidir. Həzrət Əli ona hamıdan daha çox yiyələnib. O həzrət həyatının və İslam yolunda mübarizəsinin əvvəlindən həzrət Peyğəmbərin ömrünün sonuna, Peyğəmbərin vəfatından hökumət o həzrətin ixtiyarına keçənə, həmçinin özünün hakimiyyəti dövründə batil qüvvələr, siyasət aləminin mənəm-mənəm deyən şəxsləri ilə mübarizə aparmaqla yanaşı, insanların batinində olan lovğalıq hissi ilə də mübarizə aparıb. O həzrət şəxsən özü belə olub. Həzrət Əlinin içində Allah qarşısında misilsiz təvazökarlıq və mütilik hissi olub və o həzrət bunu başqalarında da yaratmağa çalışıb.

Allah-taala Quranın dəyərli ayələri və bu günlərin sahibi həzrət Əlinin kəlamlarının bərəkəti ilə bizə Allaha bəndəlik yolunda addımlamaq və özümüzü Allahın layiqli bəndələrindən etmək şərəfi nəsib etsin!

## Allah dərgahına dua

Allahım, Səni and verirəm ən əzəmətli adına, izzət, calal və kəréminə! Allahım, ey həmdə layiq Allah, Məhəmmədə, ey uca Allah, Əliyə, ey varlıq aləmini yaradan Allah, Fatiməyə, ey yaxşılıq edən Allah, Həsənə, ey yaxşılığı əzəli olan Allah, Hüseynə xatir:

İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir bizə Sənə bəndəlik istiqamətində addımlamaq şərəfi nəsib et! İlahi, batinimizdə olan bütü sındır! İlahi, bizim ipə-sapa yatmayan nəfsimizi Öz həqiqi bəndələrindən et, Öz lütf və mərhəmətini bizə nazil et! İlahi, Səni and verirəm Məhəmməd və onun Əhli-beytinə, bizi Məhəmməd və onun Əhli-beytinin həqiqi davamçılarından et! İlahi, vücudumuzda olan və bizi Səndən uzaqlaşdıran, bizimlə Sənin aranda pərdə çəkən, kamillik qapısını üzümüzə bağlayan çirkin və xoşagəlməz sifətlərin kökünü kəs! İlahi, bizi dediklərimizə və bildiklərimizə əməl edənlərdən et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir bu bərəkətli gün və bu bərəkətli ramazan ayında Özünün xüsusi mərhəmətini müsəlman xalqımıza nazil, onları düşmənlərinə qalib və düşmənlərini xar və məhv et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir əziz rəhbərimiz İmam Xomeyninin pak ruhunu məhşərə Məhəmməd və Əhli-beytin pak ruhu ilə birgə gətir! İlahi, Öz dərgahında onun məqamını gündən-günə daha yüksək et! İlahi,

Məhəmməd və onun Əhli-beytinə xatir bu xalq və bu cəmiyyətin, bizim hər birimizin əməllərinin savabından onun ruhuna hədiyyə et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir bizim dəyərli şəhidlərimizi məhşər səhnəsinə İslamın erkən dövrünün şəhidləri ilə birgə gətir, Öz lütf, mərhəmət və bərəkətini şəhid ailələrinə nazil et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir yaşadığımız cəmiyyətə Öz xeyir-bərəkətini nazil et, problemləri aradan qaldır, düşmənin aşkar və gizli planlarını alt-üst et, bizi bir-birimizə mehriban et, yaxınlaşdır, Öz hökmlərinə tam əməl edənlərdən et! İlahi, yaşadığımız cəmiyyətdə Qurani-kərimin hökmlərini gerçəkləşdir, əxlaqımızın bu əziz kitabın buyurduğu əxlaqdan olmasına yardım göstər! İlahi, ölənlərimizə rəhmət et, ata-anamızın günahlarını bağışla! İlahi, bizi bağışla və Öz rəhmətini bizə nazil et! İlahi, əgər bu ayın indiyə kimi ötüb keçən günlərində bizi bağışlamamısansa, onun yerdə qalan günlərində bizi bağışla! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir İmam Zamanın müqəddəs qəlbini bizdən razı et, o həzrətin dua və razılığını bizə də şamil et! Bizi həm qeyb, həm də hüzur dövründə o həzrətin köməkçilərindən et! İlahi, bizə Öz yolunda şəhidlik nəsib et!

*Ramazan ayının 23-cü günündə xalqın müxtəlif təbəqələrindən ibarət bir dəstə ilə görüşdəki çıxışdan*
*19.IV.1990*

# Ramazan insanın mənəvi məşq fürsətidir

İdman etməyəndə insanın cismi zəifləyir, süstləşir, gücsüzləşir. Kimliyinizdən və bədəninizin nə qədər güclü olmasından asılı olmayaraq, əgər idman etməsəniz, yeyib-yatsanız, bədəniniz zəifləyəcək. Buna şübhəniz olmasın. Həmçinin əgər idman etməsəniz, bədəniniz lazımi inkişaf etməyəcək. Bədənin bəzi gözəllikləri də var ki, onlar yalnız idman edəndə üzə çıxır. Sizin ruhunuz da eynən belədir. Siz idman etmədən, məşq etmədən güclənə bilməzsiniz.

Bəzi insanların cismi güclü və gözəl, ruhu isə arıq, çirkin, aciz və zəif olur. Bunun bir faydası yoxdur. Bütün ibadətlər bizim mənən məşq etməyimiz, tərbiyə olunmağımız, inkişaf etməyimiz üçündür. Əlbəttə, ibadətləri dərk etmək lazımdır. İbadətlər də zahir və batindən ibarətdir. İbadətin təkcə zahirinin olması vacib deyil. İnsanın namaz qılıb dediyi zikrlərə, nə dediyi sözlərə, kiminlə danışmasına diqqət etməməsinin, namazın sözlərini ümumilikdə dərk etmədən deməsinin bir faydası yoxdur.

Əlbəttə, ərəb dilindən anlayışı olmayan və namazda deyilən sözlərin mənasını bilməyən şəxslərin namazda diqqətlərini Allahla danışmalarına yönəltmələri və Allahı yada salmaları da yaxşıdır. Amma namazda deyilən sözlərin mənasını başa düşməyə çalışın. Namazda deyilən sözlərin mənasını öyrənmək çox asandır. Siz qısa müddət ərzində həmin bir neçə cümlənin mənasını öyrənə bilərsiniz. Namazı onun mənasına diqqət edərək qılın. Bu namaz *"namaz bütün təqvalıların Allaha yaxınlaşmaq vasitəsidir"*[1] kəlamının nümunəsi ola bilər. Namaz insanı Allaha yaxınlaşdırır, amma təqvalı insanı.

Oruc təqvanın yaranmasına səbəb olur, amma hər oruc yox, qaydalarına riayət edilən oruc! Mən bu silsilə məclislərin birincisində oruc barəsindəki hədislərə işarə etdim. Burada çıxış edən başqa dostlar da bu barədə danışdılar, hədislərə işarə etdilər. Oruc insanın ancaq yeyib-içməkdən imtina etməsindən ibarət deyil. Oruc ruhun bir növ tərbiyə edilməsidir. Siz oruc ilə ruhunuzu tərbiyə edə, təmizləyə, saflaşdıra, paklaya bilərsiniz.

Böyük ibadətlərdən sayılan fitrə-zəkatın da həm zahiri, həm batini var. *"Nəfsinin hərisliyindən, xəsisliyindən qorunanlar nicat tapanlardır"*.[2] Zəkat bizim içimizdə olan hərislik və xəsislik hissini öldürməli, bizim dünya malına, dünyanın bərbəzəyinə bağlılığımızı aradan qaldırmalıdır. Zəkat çox gözəl şeydir.

Allaha şükür olsun, bu il ramazan ayı 30 gün oldu. Neçə il idi ramazan ayı 29 gün olurdu, 30 gün olmurdu. Bu il ramazan həmişəkindən bir gün artıq oldu. Siz 30 gün



1. Nəhcül-bəlağə, qısa kəlamlar, 136-cı kəlam
2. Həşr, 9

oruc tutdunuz, diqqətlə namaz qılıb dua etdiniz. Bunun sizin vücudunuza, şübhəsiz, xeyri var. Gərək bu ayda qazandığımız həmin xeyri qoruyub saxlayaq. Bu, çox dəyərli xeyirdir. Əgər biz namaz və orucumuzu diqqətlə yerinə yetirsək, şüurlu şəkildə zikrlə məşğul olsaq, İslamın hədəflərinə gündən-günə daha çox yaxınlaşarıq. Siz cəmiyyətdə İslamın hədəflərinə yaxınlaşmayan, onlardan uzaq olan müsəlmanlarla rastlaşırsınız. Onların işində yaranan nöqsanların biri buradan qaynaqlanır. Ola bilər, onların işinin müxtəlif nöqsanları olsun, amma onların birinin kökü budur.

## Dərrakəsizlik və gözüaçıqlığın olmaması

Əgər insan ibadət zamanı diqqətini toplamasa, ibadətin bəndəlik, Allahla ünsiyyət və Onun qarşısında təslim olmaqdan ibarət ruhunu dərk etməsə, müxtəlif təhlükələrlə qarşılaşar. Onlardan biri də dərrakəsizlikdir.

Xəvaricin adını çox eşitmisiniz. Onlar elə ibadət edir, elə Quran oxuyur, elə şövqlə namaz qılırdılar ki, hətta Əmirəl-mömininin səhabələrini təsir altına salırdılar. Cəməl müharibəsi günlərinin birində Əmirəl-mömininin səhabələrindən biri bir yerdən keçəndə onlardan birinin gecə yarısı ibadət etdiyini və *"(bu cür adam dəyərlidir,) yoxsa gecə saatlarını qiyam və səcdə halında ibadət edərək keçirən"*[1] ayəsini oxuduğunu gördü. O bu səhnədən çox təsirlənərək Əmirəl-möminin Əlinin yanına gəldi. Həzrət Əlinin yaxın səhabələrinin çoxu gözüaçıq, zirək insanlar idilər. Amma bəzən belə adamlar da səhvə yol verirdilər.

Həzrət Əli nahaq yerə "mənim gördüyüm işi heç kəs

1. Zumər, 9

görə və bu fitnəni yatırda bilməzdi” buyurmayıb. Bu iş, həqiqətən, Əlinin qılıncını, onun özünə və öz yoluna bəsirət və imanını tələb edirdi. Hətta bəzən xüsusi zümrə şəkk-şübhəyə düşürdü. Nəql edilənlərə əsasən, həzrət Əli həmin səhabəsinə deyir ki, sənin cavabını sabah verəcəyəm. Səhərisi gün müharibə qurtarır və xəvaricin hamısı döyüşdə öldürülür. Sağ qalanların sayı heç 10 nəfərə çatmır. Həzrət Əli səhabələrinin ibrət götürməsi və onlara öyüd-nəsihət vermək üçün ölülərin arasında gəzişməyə və onların bəzisi ilə söhbət etməyə başlayır. O həzrət üzü üstə yıxılmış cəsədlərin birinə çatır və onun arxası üstə çevrilməsi göstərişini verir. Onu arxası üstə çevirirlər. Ya da ki, onun qaldırılıb otuzdurulması göstərişini verir və onu qaldırıb otuzdururlar. Sonra bir gün qabaq o həzrətin yanına gələn yaxın səhabəsinə belə deyir: “Bunu tanıyırsan?” Həmin şəxs: “Xeyr, ya Əmirəl-möminin”, – deyə cavab verir. İmam buyurur: “Bu, dünən eşitdiyin ayələri oxuyan və səni təsir altına salan şəxsdir”.

Belə Quran oxumağın nə faydası?! Bu ibadətin nə xeyri var?! Bu, ibadətin ruhundan uzaqlıqdır. Əgər insan ibadət, namaz və Quranın ruhu ilə tanış olsa, başa düşər ki, İslamın həqiqət və mövcudluğunun təzahürü olan Əli ibn Əbu Talib bir tərəfdə olanda bütün şəkk-şübhələri kənara atıb ona qoşulmaq lazımdır. Bunu dərk etməmək və Əliyə qarşı qılınc çalmaq Quran və dindən uzaqlıqdır.

Deməli, məsələnin bir səbəbi bu dərrakəsizliklər, düşüncəsizliklər və böyük səhvlərdir. Biz Əməvi və Abbasilərin xilafəti dövründə bunun geniş yayılmasının şahidi oluruq. Bəziləri zahirdə müqəddəs, dindar, abid və zahid insanlar kimi davranıblar və adları kitablarda abidlərin, zahidlərin, əxlaq sahiblərinin, sayılıb-seçilən

adamların sırasında qeyd edilib. Amma səhv ediblər. Bu səhvin böyüklüyü haqq ilə batil cəbhəsi arasındakı fərqin böyüklüyü qədər olub. Bu ən böyük səhvlərdəndir. Kiçik səhvləri bağışlamaq olar. Amma kiminsə haqq cəbhəsi ilə batil cəbhəsini səhv salması və onları bir-birindən ayırd edə bilməməsi bağışlanmaz səhvdir.

## Əmmar Yasirin əzəmətinin sirri

Əmmar Yasir kimilərin əzəməti də buna görədir. Həzrət Əlinin xüsusi səhabələrinin əzəməti heç bir halda səhvə yol verməmələrində, cəbhəni səhv salmamalarındadır. Biz Siffeyn müharibəsinin müxtəlif səhnələrində bu əzəmətin şahidi oluruq. Əlbəttə, bu təkcə Siffeyn müharibəsinə aid deyil. Əmmar bəzi möminlərin səhvə düşdüyü yerlərin çoxunda qarşıya çıxar və öz gözüaçıqlığı, məntiqi sözləri ilə onların zehnində yaranmış şəkk-şübhəni aradan qaldırardı. Adam tarixə nəzər salanda Əmirəl-mömininlə əlaqəli hadisələrin çoxunda, o cümlədən Siffeyn müharibəsində bu böyük şəxsin əzəmətini görür.

Siffeyn müharibəsi bir neçə ay çəkib. O, çox heyrətamiz müharibə olub. İnsanlar qarşı tərəfdə olanların namaz qıldığını, ibadət etdiyini, camaat namazı qıldığını, Quran oxuduğunu, hətta Quranı nizənin başına keçirdiyini görürdülər. Namaz qılan bu şəxslərə qılınc çəkmək böyük cürət və ürək tələb edirdi.

İmam Sadiq hədislərinin birində buyurub ki, əgər həzrət Əli qiblə əhli ilə vuruşmasaydı, pis və azğın qiblə əhli ilə necə davranmaq lazım olması axıra kimi məlum olmayacaqdı. Əli ibn Əbu Talib bu yolu açaraq hamıya nə etmək lazım olduğunu göstərdi. Bizim iranlı döyüşçülər də İran-İraq

müharibəsində iraqlı əsgərlərin səngərini ələ keçirib onları əsir götürəndə onların səngərində möhür və təsbeh olduğunu görürdülər. Bəli, onlar eynilə həzrət Əliyə qarşı vuruşan şəxslər kimi idilər. Onlar da namaz qılır, bəzilərinin şəkk-şübhəyə düşməsinə səbəb olurdular. Əmmar Yasir onların yanına gedər, onlarla söhbət edərdi. Bu, sayıqlıq və gözüaçıqlıqdır. Əmmar Yasir kimilərə ehtiyac var.

Əgər insan əməl və ibadətlərin diqqətin Allaha yönəldilməsi və bəndəlikdən ibarət ruhunu başa düşməsə və vacib əməllərin hər biri ilə özünü Allaha bəndəliyə yaxınlaşdırmasa, gördüyü iş səthi olar. Səthi iş və iman həmişə təhlükəyə məruz qalır. Biz İslam tarixində bunun şahidi olmuşuq.

Öncə də qeyd etdiyimiz kimi, bəzi dindar, müqəddəs, abid və zahidlər zalim, qəsbkar, günahkar, xəbis, yalançı və riyakar xəlifələrin yanına gedərək ona üç-dörd kəlmə öyüd-nəsihət verərdilər. Həmin xəlifə də ya riyakarlıqla, ya da həqiqətən, qəlbində müəyyən qədər təsirlənərək gözündən üç-dörd damcı yaş axıdardı. Bəzən də şərab içib sərxoş olar, sonra həmin halda hisslərə qapılaraq söhbət etmək üçün kimisə yanına gətizdirərdi. Həmin şəxs söhbət edər, onlar da ona qulaq asıb ağlayardılar. Sonra da dinin zahiri barəsində elmə malik olsa da, təbiətcə sadəlövh və nadan olan bu adamlar həmin xəlifənin müridinə çevrilirdilər.

Adam İslam tarixində bu barədə heyrətamiz hadisələrlə qarşılaşır. Əmr ibn Übeyd məşhur abid və zahidlərdən olub. Abbasi xəlifəsi ona böyük hörmət göstərərək belə deyərdi: "Əmr ibn Übeyd bir tərəfədir, digər təqva və zahidlik iddiaçıları bir başqa tərəfə!" Əgər siz Əmr ibn Übeyd, Məhəmməd ibn Şihab Zühriyə və onlar kimi olan

digərlərinə baxsanız, onların öz zəmanələrində haqq hərəkatının ən böyük əngəllərindən olduğunu görərsiniz. Onlar batil cəbhəsinə getməklə onu gücləndirər, haqq tərəfi, yəni Peyğəmbər Əhli-beytinin olduğu cəbhəni məzlum halda tək buraxar, bu nadanlıqları ilə düşmənin onlara zülm etməsinə səbəb olardılar.

Bütün bunları deməkdə məqsəd budur ki, ibadətin ruhu Allaha bəndəlikdir. Qardaşlar və bacılar! Biz çalışıb öz vücudumuzda bəndəlik ruhunu yaşatmalıyıq. Bəndəliyin mənası Allah qarşısında təslim olmaq, içimizdə olan bütü sındırmaqdır. Həmin batini büt, yəni "mən" bütü özünü çox yerdə göstərir. İnsanın mənafeyi təhlükə ilə qarşılaşanda, kimsə onun sözünü qəbul etməyəndə, sənin istəyinə uyğun, amma şəriətə zidd bir şey baş verəndə, ya biri sənin mənafeyini təmin edən, digəri isə boyuna düşən vəzifələrin yerinə yetirilməsindən ibarət yol ayrıcına gəlib çatanda insanın içindəki "mən" baş qaldırır və özünü büruzə verir.

Əgər biz içimizdə olan bu "mən"i, nəfsi istəyi, batini "Firon"u, Şeytanı tam və ya qismən cilovlaya bilsək, bütün işlər düzələr. Hər şeydən qabaq biz özümüz adam olar və nicat taparıq. Ramazan ayı bunun müqəddiməsidir. Oruc, diqqətlə qılınan namaz, sədəqələr, hətta Allah yolunda cihad insanların Allahın bəndəsi olduğu dünyanın qurulması üçündür.

İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir bizi Öz bəndələrindən et!

Bu gün ramazan ayı sona çatır. Qardaş və bacılar, bu ayda əldə etdiklərinizi qoruyub saxlamağa çalışın. Onun qorunmasının yolu günahlardan çəkinmək və qəlbdə Allahı yad etmək, unutmamaqdır. Çalışın hər bir halda –

işləyəndə, insanlarla münasibətdə olanda, maddi mənafe, nəfsi istək və sairə ilə qarşılaşanda Allahı yada salın.

*Ramazan ayının 30-cu günündə*
*müxtəlif xalq kütlələri ilə görüşdəki çıxışdan*
*26.IV.1990*

## Ramazanda əldə edilən mənəvi qazancın qorunması

Müsəlmanlar gərək bayram günü özlərinə və bərəkətli ramazan ayında ilahi ziyafətdən nə qazandıqlarına baxsınlar. Ramazan ayı özünüislah və təqva ayıdır. Görəsən, biz bu dəyərli ayda oruc və ibadətlə bir şey artıra, özümüzü düzəldə bilmişik, ya yox? Bu gün özünüzdə belə bir haqq-hesab aparın və əgər ramazan ayında bir şey əldə etdiyinizi görsəniz, onu il boyu qorumağa çalışın.

İslamın əzəməti tarix boyu özünü islah etmiş və həqiqətən, Allaha bəndəlik etməyə hazır olan müsəlmanların vasitəsi ilə təmin edilib. Əgər İran xalqı Allaha bəndəlik etməyə hazır olmasaydı, bu böyük işi görə və bu gün dünyada bütün müsəlmanların arasında İslam cəmiyyətinin, hətta bütün əzilən xalqların arasında çalışqanlıq, fədakarlıq və ayıq-sayıqlıq nümunəsi kimi təqdim edilə bilməzdi. Əgər İran xalqı bu gün bu ağır əmanəti çiynində daşımaq və mənzil başına çatdırmaq istəyirsə, özünü islah etməkdən başqa yol yoxdur.

Biz Allaha arxalanmalı, Ona təvəkkül etməliyik. Bu, Allaha bəndəlik və Ona təslim olmaqdan başqa bir şey deyil. Allaha arxalanmaq və Onun vədlərinə inanmaq hamının bacardığı iş deyil. Allaha yalnız qəlb və zehnində Onu yada salan şəxslər arxalana bilərlər. Əgər Allah insanın yadında olmasa və O həmin şəxsin qəlbini doldurmasa, heç vaxt Allaha etimad edib təhlükəli meydanlara daxil ola bilməz. Quran bizə yolu göstərib. Allahdan qorxmaq, təqvalı olmaq, Ona bəndəlik etmək, Onun qarşısında təslim və təvazökar olmaq həm dünya, həm də axirətdə nicat və qurtuluş yoludur.

Həzrət Əli fitr bayramının xütbəsində müsəlmanlara xitab edərək belə buyurub: "Ölüm və bütün insanlara vəd edilmiş o qaçılmaz vaxt gəlib çatmamışdan qabaq günahlarına görə Allaha tövbə etmək istəyən yoxdur? Allahın rəhmətindən və insanın qabaqcadan göndərdiyi əməllərdən başqa heç bir yardımın olmayacağı o yoxsulluq günü gəlib çatmamışdan iş görmək istəyən yoxdur?" Əmirəl-möminin bayram və şadlıq günündə də insanları tövbə etməyə, Allaha tərəf qayıtmağa, iş görməyə, çalışmağa və Allahla əlaqə yaratmağa səsləyir.

Qardaş və bacılar! Biz yol verdiyimiz bütün xətalara görə tövbə etməliyik. Əgər İmam Səccad, həzrət Əli və bəşəriyyətin arasında misilsiz nuraniliyə malik digər böyük şəxsiyyətlər müxtəlif ifadə və yanğı ilə tövbə edib Allahdan bağışlanma diləyiblərsə, mən və mənim kimilər Allaha tərəf qayıtmaq, Ondan bağışlanma diləmək üçün bir anı belə fövtə verməməliyik.

## Əməllərdə diqqətli olmağın vacibliyi

Gecə-gündüz yerinə yetirilən bütün əməllərinizdə təqvalı olun. Yəni öz danışıq, davranış, iş və qərarlarınızda diqqətli olun, nəsfi istəklərin sizi Allahın yolundan və ilahi vəzifələrin yerinə yetirilməsindən uzaqlaşdırmasına imkan verməyin. Şeytan pisliklərə əmr edən nəfs, nəfsi istəklər, eqoistlik və xudbinlik vasitəsi ilə bizi Allahın düz yolundan azdırmaq istəyir. Təhlükəli dağ yolunun hər döngəsində öz hərəkət və addımlarına diqqət edən adam kimi biz də diqqətli olmalıyıq. Təqva budur. Yəni diqqətli olmaq, Allahın bütün işlərə şahid olduğunu nəzərə almaq, baş verən səhv və xətalara görə dərhal tövbə etmək, Allaha arxalanmaq, Ondan yardım diləmək və Ona sığınmaq lazımdır.

İlahi, bizim hamımıza təqvalı olmağı nəsib et!

## Ramazan dəyişiklik etmək fürsətidir

Əgər biz bərəkətli ramazan ayı və onun hər anının bizə verilmiş zikr və dua fürsətlərini qənimət bilsək və özümüzü qüdrət, izzət və əzəmət mənbəyinə, yəni Allah-taalanın müqəddəs zatına yaxınlaşdırsaq, şübhəsiz, ruhumuzda, onun ardınca da həyatımızda, iş, mübarizə və fəaliyyət mühitimizdə əsaslı dəyişiklik yaranacaq, bununla da İslamın hədəflərinə yaxınlaşacağıq. İslamla bəşəriyyətə dəyişiklik və ideyalar təqdim edən məktəb və proqramların əsas fərqlərindən biri budur.

Bizim nəzərimizcə, insan yalnız Allah-taala ilə əlaqə sayəsində təkamül və yüksək məqama çata bilər. Bu, İslamda, ümumiyyətlə, bütün dinlərdə

olan aksiomlardandır. Əlbəttə, ramazan ayı xüsusi fürsətlərdəndir. Allah-taalanın Qurani-kərimdəki: *"Qədr gecəsi min aydan xeyirlidir"*[1] – kəlamı böyük sözdür. Yəni ramazan ayındakı bu bir gecə daha yaxşı və daha fəzilətli, insanın inkişafına daha təsirlidir. Həmçinin həzrət Peyğəmbərin bu ayı ilahi ziyafət ayı hesab etməsi balaca şey deyil. Məgər insanın səxavətli bir adamın süfrəsində oturub oradan əliboş çıxması mümkündür?! Bu ancaq o vaxt ola bilər ki, sən həmin ziyafətdə iştirak etməyəsən. Bu ayda Allahın bağışlama, razılıq və ziyafət süfrəsinin başında oturmayanlar, əlbəttə ki, Onun nemətlərindən məhrum olacaqlar. Özü də bu məhrumiyyət həqiqi məhrumiyyətdir: "Bədbəxt bu əzəmətli ayda Allahın əfvindən məhrum olan şəxsdir".[2]

## Ülvi bəndəlik məqamı

Dəfələrlə qeyd etmişəm, əsas məsələ insanın bəndəlik sifətinə yiyələnməsidir. Bəndəliyin mənası Allahın istək, hökm və şəriətinə tabe olmaqdır. İlahi göstərişlərin, peyğəmbərlərin şəriətlərinin hamısının məğzi tək bu sözdən ibarətdir. Bəlkə də, Allah-taala peyğəmbərləri peyğəmbərlik məqamına seçməmişdən və onları peyğəmbərlik məqamı ilə şərəfləndirməmişdən qabaq bəndəlik məqamı ilə şərəfləndirib. Hədislərin birində belə deyilir: "Allah-taala Məhəmmədi peyğəmbər seçməmişdən qabaq bəndə seçib".[3] Allah-taala ona əvvəl bəndəlik libası geyindirib, sonra peyğəmbərlik məqamına yüksəldib. Sanki o bütün yüksəlişlərin müqəddiməsi və əsas şərtidir.

1. Qədr, 3
2. Üyunu əxbar ər-Rza, c. 1, səh. 295
3. Biharul-ənvar, c. 93, səh. 211

Bəndəlik bütün təkamüllərin əsas şərtidir. Əlbəttə, bəndəliyin də müxtəlif mərhələləri var. Bəndəliyin bizim əldə edə biləcəyimiz mərhələsi qeyd edilən mərhələdir.

Biz gərək özümüzü itaətə hazırlayaq, hər şeyin mənbəyinin Allah olduğuna inanaq, nemətləri həqiqətən Allahın nemət və bəxşişi hesab edək, öz güc, elm və bacarığımızın məhsulu saymayaq, özümüzü də vasitə hesab edək. Bizim zehnimiz, əlimiz, qolumuz, əməlimiz və fəaliyyətimiz Allahın istəyinin gerçəkləşmə vasitəsidir. Allahın İmam Xomeyni kimi ləyaqətli bəndələri həqiqətən ramazan ayının, onun gün və saatlarının qədrini bilir, ondan maksimum istifadə edirdilər. Biz məsum imamları görməmişik, amma adam onların ibadət və diqqətinin bir damcısını İmam Xomeyninin vücudunda görə bilirdi.

*Fitr bayramı münasibəti ilə*
*İran İslam Respublikasının məsul şəxsləri*
*və dövlət məmurları ilə görüşdəki çıxışdan*
*27.IV.1990*

# Ramazan mənəvi güc əldə etmək fürsətidir

Ramazan ayı dua və təqva tədarükü ayıdır. Biz bu ayda ibadət və diqqətimizi Allaha yönəltməklə mənəvi güc əldə etməli, həmin mənəvi güc ilə sıldırımlı yolları sürətlə və asanlıqla qət etməliyik.

Ümid edirəm ki, İran xalqı keçmiş təcrübələrdən yararlanaraq cəmiyyətdə olan qardaşlıq, qarşılıqlı əməkdaşlıq və həmrəyliyin qədrini bilərək onun gündən-günə daha da güclənməsi istiqamətində çalışacaq. Xalq bir-biri ilə mehriban davranmalı, bir-birinə kömək etməli, xüsusilə bu günlərdə ehtiyacı olan insanların köməyinə tələsməlidir. İmkanı olan şəxslər ehtiyacı olan şəxslərə kömək etməlidir. Xalqımız arasında lap qədimdən mövcud olan və İslamın ülvi göstərişlərindən sayılan bu qarşılıqlı yardım hissi çox dəyərli ənənədir. Onu qoruyun, ramazan ayında və bayram günü ona daha çox əhəmiyyət verin. İnsansevərlik, fədakarlıq, başqalarını düşünmək və onlar

üçün bir iş görmək xalqımızı bu hərəkatın məqsədinə çatdıracaq işlərdəndir.

*Günəş təqvimi ilə yeni ilin başlanması münasibətilə*
*İran xalqını təbrik çıxışından*
*21.III.1991*

# Ramazan ibadət, dua, minacat və cihad ayıdır

Bu böyük və dəyərli gündə namazda iştirak edən bütün qardaş və bacılarıma təqvalı olmağı, təqvalıların başçısı Əmirəl-mömininin yolunu davam etdirməyi, həyatda, dində, təqvada, qadağan edilmiş və Allahı qəzəbləndirən işlərdən çəkinməkdə o həzrəti örnək götürməyi tövsiyə edirəm.

Bu ay oruc, Quranın nazil olması, Quranla ünsiyyət, ibadət, dua – dua ibadətin məğzi və ruhudur – minacat, Allahdan bağışlanma diləmək, tövbə etmək, Allahın xoşuna gəlməyən pis yollardan qayıtmaq və ilahi təqvaya riayət etmək və cihad ayıdır. Bədr müharibəsi hicrətin ikinci ilində bu ayda baş verib, Məkkə hicrətin səkkizinci ilində bu ayda fəth edilib, Hüneyn müharibəsi həmin ilin ramazan ayında başlayıb. Həmçinin o, nəfs, Şeytan və Allah düşmənlərinə qarşı cihad və mübarizə aydır. Ramazan hazırlıq və təqva tədarükü, qohumlarla ünsiyyət, din qardaşlarına qarşı düzlük və yaxşılıq, dini təlimlərlə

tanışlıq, Quran ayələri barədə düşünmək, bir sözlə, bir il Allah yolunda hərəkət etmək üçün azuqə tədarükü görmək ayıdır. Ümidvaram ki, biz bu ayın ötən günlərini onun tələblərinə uyğun keçirmişik, qarşıdakı günlərin qədrini daha çox biləcək, nəfsimizə aid işlərdə, Allahın hökmlərinə münasibətdə, insanlarla davranışımızda, Quran ayələri barədə düşünmək və onunla ünsiyyətdə, nəfslə mübarizə barədə qərar qəbul edib əzmkarlıq göstərməkdə ciddi addımlar atacaq, qətiyyət göstərəcəyik.

Bu tövsiyələrə əməl etməyə mənim sizdən çox ehtiyacım var. Bunlar dinin böyük şəxsiyyətlərinin, bu günlərin sahibi Əmirəl-mömininin tövsiyələridir. Bu günləri qənimət bilin və Allahla əlaqənizi möhkəmləndirin. Bu güclü əlaqə sayəsində dini və dünyəvi problemlərimizin həlli istiqamətində hərəkət edəcək və inşallah, onların aradan qaldırılmasına nail olacağıq.

*Tehran şəhərinin cümə namazının xütbələrindəki çıxışdan*
*5.IV.1991*

# İslamın məqsədi gözəl həyatdır

Siz ibadət edəndə, şövqlə dua oxuyanda, diqqətlə namaz qılanda, ehtiyacı olan birinə ianə verəndə həzz alırsınız. Bu həzzi yeməklə əldə etmək mümkün deyil. Allaha bəndəliyin şirinliyini dadmış şəxslər – hər bir mömin həyatının müəyyən anlarında bu şirinliyi dadaraq qeyd edilən halla qarşılaşır, bəzisi az, bəzisi çox – diqqətini Allaha yönəldəndə, ibadət və minacat edəndə, Allah qarşısında dayanıb göz yaşı tökəndə elə bir ləzzət hiss edir ki, onun qalması üçün dünya və onda olanlardan vaz keçməyə hazır olur.

Əlbəttə, maddiyyat insanı həmin haldan çıxarır. Həmin hal ara-sıra baş verir və "mənəvi həzz" deyəndə həmin hallar nəzərdə tutulur. Allah və mənəvi hədəflərlə tanış olmayan şəxslər bu həzzin şirinliyini dadmırlar. Bəzi insanlar ömürlərini bərəkətsiz maddi aləmdə keçirərək Allaha üz tutmaq mənəvi həzzinin şirinliyini bir an belə hiss etməyiblər. Onlar bizim dediklərimizi başa düşmürlər.

İslam bizi elə yüksəkliklərə qaldırmaq, qəlbləri elə nuranilәşdirmək, pislikləri qəlbimizdən elə çıxarmaq istəyir ki, biz həmin mənəvi həzzi təkcə ibadət mehrabında deyil, həyatımızın bütün sahələrində, hətta iş yerimizdə, sinifdə, müharibədə, təlim-tərbiyə meydanında, quruculuq işlərində də hiss edək. Daim namazda, yəni bu halda olanların xoş halına! İş görəndə də, yeyib-içəndə də Allahla olmaq və Onu yada salmaq lazımdır. Bu cür insan həyata və aləmə nur saçır. Əgər dünya bu cür insanlar yetişdirə bilsə, müharibə, zülm, ədalətsizlik, çirkinlik və xoşagəlməz işlərin kökü kəsilər. "Gözəl həyat" budur.

Deməli, "gözəl həyat"ın mənası insanların ancaq namaz qılması, ibadət etməsi, məişət məsələləri və maddiyyat barədə ümumiyyətlə düşünməməsi deyil. Xeyr, "gözəl həyat"ın mənası dünya ilə axirətə, maddə və mənaya birlikdə malik olmaqdır. "Gözəl həyat"ın mənası hər hansı bir xalqın çalışması, quruculuq işləri ilə məşğul olması, sənaye, ticarət və kənd təsərrüfatının inkişafını zirvəyə çatdırması, elmi-texniki güc əldə etməsi, bütün sahələrdə inkişaf etməsi, bütün bunların kənarında qəlbinin Allahla olması, gündən-günə Allahla daha çox tanış olmasıdır. İslam Respublikasının məqsədi budur. Bu, peyğəmbərlərin, dünyada olan islahatçıların, son 150-200 ilin görkəmli İslam şəxsiyyətlərinin elan etdiyi hədəfdir.

*İmam Rzanın ziyarətinə gəlmiş zəvvarlar və Məşhəd şəhərinin əhalisi ilə görüşdəki çıxışdan 18.IV.1991*

# Quran oxumaq və ayələri barədə düşünmək

Həzrət Əli buyurub: “Kim bu Quranla otursa, mütləq, onun yanından bir artım və bir kəsir ilə durar: onun artımı hidayət, kəsiri isə korluq olar”.[1] Siz Quranın yanından duranda özünüzdə bir artım hiss edərsiniz. O, hidayətdir. Həmçinin sizdən bir şey azalar və o, korluq və nadanlıqdır. Bu hidayəti bizim əlimizdən almaq istəyirdilər. İş o yerə çatmışdı ki, zalım şahlıq rejiminin son dövrlərində, yəni inqilabdan 20 il qabaq yetişmiş nəsil məktəblərdə Quranla tanış ola bilmirdi. Ola bilərdi kiminsə bəxti gətirsin və o, hardasa Quran kursu tapsın, ya Quran müəllimi görsün, ya da Quran oxuyan valideynləri olsun və onların vasitəsi ilə Quranla tanış olsun. Amma ümumilikdə Quran cəmiyyətdə yox idi. İnqilab gəlib insanları Quranla tanış etdi.

Əzizlərim, ey Quran qariləri, pak və inqilabçı gənclər! Quranla ünsiyyətinizi gündən-günə artırın, evlərinizi Quranla ətirləndirin, onu oxuyun, ayələrinin mənası

1. Nəhcül-bəlağə, səh. 252

barədə düşünün. Düşmən müsəlmanların Quranı əlində bayraq etməsini istəmir. Çünki Quran müsəlmanların vəzifələrini, İslam baxımından necə cihad etməli, necə yaşamalı və necə ölməli olduğunu bəyan edib.

Biz Quranla əlaqələrimizi gündən-günə möhkəmləndirməliyik. Evlərdə Quran oxuyun. Hətta bikar olanda, bir az boş vaxt tapan kimi Quranla ünsiyyətdə olun. Hər gün bir az Quran oxuyun, Quran oxumağı öyrənin, təcvid qaydalarını mənimsəyin. Əsasən Misirdən gələn Quran müəllimi və ustadlarından maksimum istifadə edin... Bu Quran ustadlarının elmlərini mənimsəyin. Əlbəttə, Quran dərin və intəhasız bir okeandır, onun sonu yoxdur, irəli – istər onun səthində, istər dərinliyi baxımından – getdikcə hərəkət imkanının yenə mövcud olduğunu görəcəksiniz.

*Quran qariləri ilə görüşdəki çıxışdan*
*6.II.1992*

# Ramazan – nuraniləşmə və özünüislah ayı

Qarşıdan ramazan ayı gəlir. Ramazan həm özümüzlə, həm də başqaları ilə məşğul olmaq ayıdır. Şübhəsiz, əgər biz özümüzlə məşğul olmasaq, başqaları ilə də məşğul ola bilmərik. Ramazan ayının duaları, orucu, minacatları, raz-niyazları, zikrləri, müstəhəb əməlləri bizim özümüzü müəyyən qədər nuraniləşdirməyimiz üçündür. Əgər biz nuraniləşsək, başqaları ilə də məşğul ola bilərik. Əgər bizdə nur olmasa, başqalarını nuraniləşdirə bilmərik. Dildə nə qədər danışsaq da, mənasız olacaq, heç bir faydası olmayacaq, əksinə, dediklərimizin ziyanı olacaq.

Allahdan istəyirəm ki, bizə həm özümüzü islah etmək, həm də başqalarının mənəvi islah olmasına kömək etmək imkanı versin. Allah İmam Zamanın qəlbində bizə münasibətdə mehribanlıq yaratsın və o həzrətin dualarını bizə də şamil etsin.

*Ruhanilərdən ibarət bir dəstə ilə görüşdəki çıxışdan*
*13.II.1993*

# Ramazan müxtəlif çətinliklərdən qurtuluş fürsətidir

Ramazan ayı insanın özünü islah etməsi üçün gözəl fürsətdir. Biz xammal kimiyik. Əgər biz öz üzərimizdə işləsək və bu xammalı formaya sala bilsək, həyat üçün lazım olan işi görmüş olarıq. Həyatın məqsədi də budur. Elm və əməl baxımından öz üzərində işləməyən, dünyadan dünyaya gəldiyi kimi – ona bir az da çirkinlik, pislik, fəsad artırıb gedən şəxslərin vay halına! Mömin daim öz üzərində işləməli, daimi çalışqanlığın çox və ya qeyri-mümkün olduğunu düşünməməlidir. Xeyr, elə deyil. Bu nə çoxdur, nə də qeyri-mümkün. Özünə diqqət edən, haram və günah işlər görməmək üçün əməllərinə nəzarət edən və Allahın yolunu ciddi şəkildə gedən şəxs uğur qazanar. Bu, daimi özünüislahdır və İslamın proqramları bu daimi özünüislahla üst-üstə düşür. Gündə beş dəfə namaz qılıb zikr deməkdə, *"yalnız Sənə ibadət edirik və yalnız Səndən imdad diləyirik"* cümləsini təkrar etməkdə, rüku

edib torpaq üzərinə səcdəyə qapılmaqda, Allah-taalanı pak sifətlərlə öyməkdə, Ona həmd-səna edərək təkliyinə şəhadət verməkdə məqsəd nədir? Bütün bunlar insanın davamlı özünüislahla məşğul olması üçündür. Amma problemlər çoxdur, hamımızın problemi var: dolanışıq problemləri, məişət problemləri, şəxsi problemlər, ailə-uşaq problemləri... Rəngarəng problemlər bizim özümüzlə lazımınca məşğul olmağımıza mane olur. Buna görə də bir ay davam edən ramazan ayı gözəl fürsətdir. Bu fürsəti əldən çıxarmayın. Yəni əgər bütün il boyu əməllərimizə nəzarət edə və özünüislahla məşğul ola bilmiriksə, heç olmasa ramazan ayını qənimət bilək. Ramazan ayında buna şərait də var. Şəraitin münasib olma şərtlərindən biri sizin oruc tutmağınızdır. Bu, ilahi müvəffəqiyyətlərdəndir. Onun ilahi müvəffəqiyyət olmasının mənası Allah-taalanın onu insana münasib etməsidir. Allah-taala orucu vacib etməklə bizə özümüzlə məşğul olmaq üçün münasib şərait yaradıb. Oruc böyük nemətdir. Həmin vaxt insanın qarnı boş olur və gün ərzində nəfslə mübarizəyə şərait yaranır: istədiyinizi yeyib-içə bilmirsiniz, nəfsiniz istəyən şeylərin çoxunu neçə saat özünüzə qadağan edirsiniz. Bu, nəfslə mübarizədir. Nəfslə mübarizə bütün yaxşı və özünüislah işlərinin başında durur.

## Ramazan mənəvi xəstəliklərin müalicə ayıdır

Ramazan ayı gözəl fürsətdir. Allah-taala bizə bu ayda özümüzü islah etmək imkanı verib. Bundan əlavə, bu ayın saatları çox bərəkətlidir. Allah-taala həmin an və saatları təbii olaraq elə yaradıb. Onlar çox dəyərli saatlardır. Bu ayda bir rükət namaz qılmağınız, bir dənə “subhanəllah”

zikrini deməyiniz, bir az sədəqə verməyiniz, qohumlara ayaqüstü baş çəkməyiniz ilin başqa vaxtında görülən həmin işlərdən qat-qat üstündür. Bu, gözəl fürsətdir. Bu ayda insanın özü ilə məşğul olmasına gözəl şərait var. Bu, həkimin xəstə ilə qarşılaşmasına bənzəyir. Bu xəstənin müxtəlif xəstəlikləri var: o həm şəkər xəstəsidir, həm qan təzyiqi var, həm qanında yağlılıq çoxdur, həm sümükləri ağrıyır, həm revmatizm xəstəliyi var, həm mədə xorası. Bir sözlə, onun çoxlu xəstəliyi var. Bu xəstəliklərdən başı çıxan və onların müalicə yollarını bilən peşəkar həkim bu xəstəliklərlə necə davranır? Əvvəlcə xəstəlikləri bir kağıza qeyd edir, xəstənin ümumilikdə hansı xəstəliklərinin olmasına diqqət edir. Əgər həkimin bəzi xəstəliklər barədə məlumatı olmasa və onların birini müalicə etmək üçün başqa bir xəstəliyə zərəri olan dərman yazsa, xəstəni müalicə əvəzinə, başqa bir xəstəliyə düçar edə bilər. Məsələn, xəstənin mədəsində xora olduğunu bilməsə və onun revmatizmini müalicə etmək üçün asprin versə, böyük fəsadla qarşılaşa bilər. Bəli, aspirin revmatizmi müalicə edir, amma o, mədə xorası üçün çox zərərlidir. Əgər həkimin bu xəstəlik barədə kifayət qədər məlumatı olmasa və xəstənin həmin xəstəliyinin olduğunu bilməsə, onu müalicə etmək əvəzinə, mədə qanaxmasına düçar edə bilər. Buna görə də əvvəlcə diqqət etməli, canıyananlıqla xəstəlikləri tapmalı, qeyd etməli, hansının daha mühüm, daha təcili və daha əsaslı olmasına nəzər salmalıdır. Məsələn, birinin mədəsində problem var və verilən dərmanlar onun bədəninə yaxşı sovrulmur. Yaxud onun bağırsaqlarında narahatlıq var və o, yağlı qidaları qəbul edə bilmir. Buna görə də onu müalicə etmək üçün əvvəlcə digər xəstəliklərin müalicəsinə mənfi təsir göstərən və

sağaldılacağı təqdirdə xəstənin şəfa tapmasına müsbət təsir göstərən xəstəlik tapılmalıdır.

Əziz qardaşım, özünüz öz həkiminiz olun! Heç kəs insanın özü kimi onun xəstəliyini tapa bilməz. Elə xəstəliklər var ki, kimsə insana: "Səndə filan xəstəlik var", – deyəndə əsəbiləşir, həmin adama nifrət edir. Məsələn, kimsə birinə: "Sən paxıl adamsan", – desə, o da dərhal: "Paxıl özünsən! Məni niyə təhqir edirsən? Niyə boş-boş danışırsan?!" – deyə cavab verər. Heç kəs ona "paxıl" deyilməsinə dözə bilmir. Biz bu sözü başqasından qəbul edə bilmirik. Amma özümüz özümüzə nəzər salanda görürük ki, bəli, bizdə belə bir xəstəlik var. İnsan hamını aldada, bir şeyi hamıdan gizlədə bilər, amma özünü yox! Deməli, bizim xəstəliyimizi üzə çıxara biləcək ən yaxşı şəxs özümüzük. Xəstəliyinizi kağız üzərində qeyd edin: paxıllıq, simiclik, bədxahlıq... biri bir xeyir əldə edəndə biz narahat oluruq. Tənbəllik, yaxşı və əməlisaleh insanlara qarşı bədbinlik, boyuna düşən vəzifələrin yerinə yetirilməsində məsuliyyətsizlik, xudbinlik, eqoistlik... Biz özümüzü çox sevirik.

Əgər bizim xəstəliklərimiz bunlardırsa, onları kağız üzərində qeyd edək. Ramazan ayı bu xəstəliklərin mümkün qədər və bir-bir müalicə edilməsi üçün bir fürsətdir. Əgər biz onları müalicə edib aradan qaldırmasaq, onlar ölümcül hal ala və bizim mənəvi ölümümüzə səbəb ola bilər. Fiziki ölüm bir şey deyil. Əgər biz cismimizdə ölümcül bir xəstəliyin olduğunu bilsək və ya bunun ehtimalını versək, nə qədər narahat olar, əl-ayağa düşərik? Gecə yuxumuz qaçar, ən yaxşı həkimləri tapar: "Birdən bədənimdə olan bu şiş xərçəng olar" – deyər, onu yadımıza salanda vahimələnərik.

Məgər bizdə həmin xəstəlik olsa, nə olacaq? Uzaqbaşı öləcəyik. İndi bir ildən sonra ölək, iki ildən sonra, ya on ildən sonra. Nizami Gəncəvi demişkən:

*İstər yüz il qalasan, istərsə bir gün*
*Mütləq köçməlisən bu füsunkar saraydan.*

Onsuz da əbədi qalan deyilik. İndi bir gün artıq, ya əskik, hər halda ömür sona çatacaq. Bu, fiziki ölümdür və biz ondan bu qədər qorxuruq. Mənəvi ölüm isə əbədi xarlıq və ilahi əzaba düçar və əbədi həyatda Allahın bizim üçün tədarük gördüyü və nəzərdə tutduğu nemət və həzlərdən məhrum olmaqdır. İnsan gərək Qiyaməti nəzərə alsın, təsəvvür etsin ki, Allah bəzi şəxslərə, bəzi bəndələrinə, ünsiyyətdə olduğumuz, küçə və məhəllədə gördüyümüz bu adi insanların bəzisinə, iş yoldaşımıza, sinif yoldaşımıza, hansısa dostumuza dünyada gördüyü bəzi işlərə, göstərdiyi bəzi səylərə görə ülvi məqam nəsib edəcək, onları Cənnətə aparacaq, əzabdan qoruyacaq, Qiyamətin cəzasından xilas edəcək, amma biz tənbəlliyimizə, özümüzlə məşğul olmamağımıza, bir anlıq qəflətə görə onların hamısından məhrum oluruq. Ondan insan həsrət dəryasına qərq olur. *"Sən onları hər şeyin sona yetəcəyi vaxt həsrət çəkiləcək günlə qorxut!"*[1] Amma iş işdən keçib və sonrakı peşmançılığın faydası yoxdur. Bu, mənəvi baxımdan məhv olmaqdır.

Qardaşlar və bacılar! Əgər özümüzlə məşğul olmasaq, bədbəxt və üzüqara olacaq, Allahın gözündən düşəcəyik, mənəvi məqamdan uzaq düşəcək, Allahın əbədi nemətindən məhrum olacağıq. Buna görə də özümüzlə məşğul olmalıyıq. Ramazan ayı bunun üçün gözəl fürsətdir. Xoşbəxtlikdən,

1. Məryəm, 39

əlimizdə əxlaq kitabları var. Bütün əxlaqi göstərişlərin ümumi nəticəsi budur ki, insan öz nəfsi istəklərini nəzarətdə saxlamalı və cilovlamalıdır. Əsas məsələ budur.

## Özünüislahın ən mühüm şərti

Özümüzü islah etmək üçün diqqət etməli olduğumuz və bəlkə də, müəyyən qədər müqəddimə xarakteri daşıyan şeylərdən biri ixlasdır. İxlasın mənası işin xalis yerinə yetirilməsi və ona heç nəyin qatışdırılmamasıdır. Bəzən biri ibadət etmir, bəzən isə ibadət edir, amma qatqılı. Bu da onun kimidir. İbadət və əməlin xalis olmasının mənası onun Allaha xatir yerinə yetirilməsidir. Təəssüf ki, insanlar bir çox hallarda yaxşı işlərini dilə gətirir, başqalarına deyirlər. Sanki onlar yaxşı işlərin dilə gətirilməməli olduğunu unudublar. Bəli, bunun da istisnaları var. Bəzi yerlərdə bəzi işlər açıq-açkar edilməlidir. Sədəqə barəsindəki hədislərdə qeyd edilir ki, gizli sədəqə verməyin savabı filan qədər, aşkar sədəqə verməyin savabı behman qədərdir. Yaxud cəm şəkildə edilən ibadət camaatın gözü qabağında yerinə yetirilir və o elə də olmalıdır. Bu, Allahın qanunudur. Amma ibadətlərin çoxu, ya əksəriyyəti – insanın özü ilə Allah arasında olan əlaqə, zikr, dua, müstəhəb namazlar, gecə namazı, ehsan, yaxşı işlər və sairə – onu yerinə yetirənlə Allah arasında gizli qalmalıdır. Məbada insan hər hansı bir işi başqasına göstərmək üçün görsün! İnsanın hər hansı bir işi başqasının diqqətini özünə cəlb etmək üçün görməsi həmin işi görməməkdən daha pisdir. Çünki insan hər hansı bir işi görməyəndə onu görməmiş sayılır. O hər hansı bir işi başqalarının diqqətini özünə cəlb etmək üçün görəndə də həmin işi görməmiş kimi olur. Üstəgəl bu daha

pisdir. Onun daha pis olmasının səbəbi şirkə bulaşmasıdır. Çünki həmin əməl şirkə bulaşmış və haram əməl sayılır, insanın Allahdan uzaqlaşmasına səbəb olur. Buna görə də hamımız harada və hansı şəraitdə olmağımızdan asılı olmayaraq, işlərimizi ixlasla yerinə yetirməyə çalışmalıyıq. Əgər iş Allaha xatir yerinə yetirilsə və niyyət saf olsa, adətən işlərdə müşahidə olunan problemlər qarşıya çıxmaz. Biz işi başqalarına xatir yerinə yetirəndə həqiqi dəyərləri ona-buna qurban veririk. İnsan işi Allaha xatir yerinə yetirmək istəyəndə yalnız boynuna düşən vəzifənin nədən ibarət olmasına diqqət edir və ondan kimin xoşunun gəlməsinə, ya gəlməməsinə, kimin yanında hörmət qazanacağına və ya kimin yanında hörmətdən düşəcəyinə fikir vermir...

Mən ixlas barəsində bir hədis qeyd etmişəm, indi onu sizə oxuyacağam. Həzrət Peyğəmbər buyurub: "Hər bir haqqın bir həqiqəti var".[1] Hər bir şeyin bir həqiqəti, ruhu, mənası var. "Bəndə ixlasın həqiqətinə (həqiqi mənasına) çata bilməz"[2], "Allaha xatir gördüyü işlərin heç birində təriflənməyi sevməyincə".[3] (Bu çox çətin və digər məqamlardan üstün məqamdır). Məsələn, bir şəxs işi başqalarına görə görmür, namazını Allaha xatir qılır, Allaha xatir Quran oxuyur, xeyir işlər görür, başqalarına yaxşılıq edir, əl tutur, sədəqə verir, Allah yolunda çalışır. Amma camaatın "bu nə yaxşı adamdır" deməsindən xoşu gəlir. Gördüyü işləri, əslində, insanlara görə etməyib, Allaha xatir görüb qurtarıb. Amma insanların onu tərifləməsindən xoşu gəlir. Peyğəmbər buyurur ki, bu, ixlasın ali dərəcəsi deyil. İxlasın ali dərəcəsi odur ki,

1. Biharul-ənvar, c. 51, səh. 112
2. Biharul-ənvar, c. 69, səh. 294
3. Rauzətul-vaizin və bəsirətul-muttəizin, c. 2, səh. 414; Biharul-ənvar, c. 69, səh. 294

onun bundan da xoşu gəlməsin, ümumiyyətlə, camaatla işi olmasın. İnsanların onun işini bilib-bilməməsinin, xoşunun gəlib-gəlməməsinin fərqi olmasın. Allahın ondan nə istədiyinə baxaraq tam dəqiqliyi ilə ona əməl etsin.

Mən bu xüsusiyyəti İmam Xomeynidə çox görmüşdüm. Onun kiminsə xoşunun gəlib-gəlməməsi ilə işi yox idi, boynuna düşən vəzifəni yerinə yetirirdi. Yük ağır olanda, iş böyük və təhlükəli olanda ixlas daha çox dərdə dəyir...

## İxlasın mərhələləri və ixlas sahiblərinin dərəcələri

Əgər biz əməllərimizdə ixlaslı olsaq, müxlis, yəni "niyyət və əməli ancaq Allaha xatir olan bəndə" olarıq. Amma müxlis bəndədən üstün mərtəbə müxləs bəndəlikdir. Mərhum Seyid Bəhrulülum ona istinad edilən və Allaha doğru mənəvi hərəkətdən bəhs edən kitabında müxlis ilə müxləs arasında fərq olduğunu qeyd edib. O yazır ki, müxlis hər hansı bir işi ancaq Allaha xatir yerinə yetirən və başqaları ilə işi olmayan şəxsdir. Müxləs isə bütün vücudunu ixlasla Allaha həsr edən şəxsdir. Müxləsin vücudu bütünlüklə Allaha məxsus olur. Bu, həqiqətən, çox yüksək və əlçatmaz bir məqamdır. Amma mənim nəzərimcə, indiki zamanda, xüsusilə əməl, mübarizə və cihad meydanında olan gənclər bu məqama da çata bilərlər. Əlbəttə, bizim kimilər üçün bu məqama çatmaq çətindir. Biz ondan çox uzağıq. Amma gənclər, xüsusilə safürəkli, ixlaslı möminlər ona çata bilərlər. Əlbəttə, həmin kitab mərhum Bəhrulüluma istinad edilir, amma onun mərhum Bəhrulülumun olması dəqiq deyil. O daha sonra yazır: "Allah-taala bu ixlas sahiblərinə üç şey vəd edib: Birincisi, buyurub: *"Şübhəsiz*

*ki, onların hamısı (Allahın ədalət məhkəməsinə) gətiriləcəkdir. Allahın ixlaslı qulları müstəsnadır."*[1] Onların əməl, nəfəs və hərəkətləri bütün xırdalıqlarına kimi sırf Allaha xatir olduğu üçün məhşər səhnəsinə gətirilib sorğu-sual edilməkdən azaddırlar.

Onların ikinci imtiyazı budur: *"Yalnız etdiyiniz əməllərin cəzasını alacaqsınız. Allahın ixlaslı qulları müstəsnadır"*.[2] Onun əməli ilə mükafatı uyğun deyil; əməli hər nə olsa, mükafatı sonsuzdur. Çünki onun vücudu Allaha məxsusdur və o, bütünlüklə ilahi məqsədlər yolunda hərəkət edir. Onun bütün vucudu Allaha xatir xalisləşib, saflaşıb.

Bir hədis oxudum, amma vaxt tapıb onun sənədinə baxa bilməmişəm, bilmirəm sənədi necədir. Həmin hədisin məzmunu belədir: "Allah-taala buyurur: "Əgər müxlis və ya müsləx bəndəyə bütün dünyanı versən, onun haqqı verilmiş olmaz". Buna görə də onun mükafatı yerinə yetirdiyi əmələ uyğun deyil. Onun bir namazı Allahın yaxşı bəndələrinin qıldığı min namaza bərabərdir.

Onun digər imtiyazlardan üstün üçüncü imtiyazı budur ki, *"Allah onların aid etdikləri sifətlərdən uzaqdır. Təkcə Allahın ixlaslı bəndələri istisnadır"*.[3] Yəni onlar Allahı layiqincə vəsf edə bilərlər. Bunu digər bəndələr edə bilməzlər. Onlar Allah barəsində nə desələr, "Səni layiqincə dərk etməmişik"[4] nümunəsi olacaq. İnsanlar Allahı naqis və natamam vəsf edirlər. Burada müxləs bəndələr istisnadırlar. Onlar Allahı layiqincə vəsf edə bilərlər. Buna görə də əgər insan imamlardan nəql edilmiş dualarla ünsiyyətdə olsa, Allahla düzgün minacat edə, Onunla layiqincə danışa

1. Saffat, 127-128
2. Saffat, 39-40
3. Saffat, 159-160
4. Biharul-ənvar, c. 66, səh. 292

bilər. Ramazan ayı dua ayıdır. Duaları yaddan çıxarmayın. Ramazan ayında oxunmaq üçün nəql edilən dualar da qədri bilinməli, nemət, qənimət sayılmalıdır. "Əbu Həmzə", "İftitah", "Cövşən" duaları, eləcə də Ramazan ayının gecə, gündüz, səhər və digər vaxtlarında oxunması tövsiyə edilmiş digər dualar, həqiqətən, Allahın böyük nemətlərindəndir. Bu fürsəti qənimət bilin.

## Ramazan ayının daha bir fürsəti

Bir şey yadıma düşdü, qoyun bunu da deyim: gündəlik namazlardan sonra qılınması tövsiyə edilmiş 34 rükət nafilə namazı çox dəyərlidir. Ramazan ayı çox gözəl fürsətdir. Biz adətən nafilə namazlarını qılmırıq. Amma bunu ramazan ayında qılmaq olar. Oruc ağızla namaz qılmaqdan yaxşı iş ola bilərmi?! Zöhr namazı dörd rükətdir. Həmin dörd rükətin səkkiz rükət nafiləsi var və o, zöhr namazından qabaq qılınır. Bu səkkiz rükət dörd dənə iki rükətlik namaz şəklində qılınır. Əsr namazı da dörd rükətdir və onun da səkkiz rükət nafiləsi var. Əsr namazının nafiləsi də onun özündən qabaq qılınır. Bu nafilələri qılın. Həmçinin məğrib namazının nafilələrini qılın. O bunlardan da mühümdür. Eləcə də gecənin nafiləsi on bir rükət, sübh namazının nafiləsi 2 rükətdir. Bəzi adamlara ilin başqa vaxtlarında sübh namazından qabaq durub gecə namazı qılmaq çətindir. Amma ramazan gecələrində siz onsuz da obaşdanlığa durursunuz. Allah bizə belə bir fürsət yaradıb, ondan niyə istifadə etməyək? Ramazan ayının fürsətlərini qənimət bilin.

*Ramazan ayının birinci günündəki çıxışdan*
*22.II.1993*

# Ramazan dua və minacat fürsətidir

Bütün qardaş və bacılara təqvalı olmağı tövsiyə edirəm. İlahi ziyafət ayı olan ramazan ayındayıq. Bu bərəkətli ziyafətin açarı təqvadır. Bu ayda bizim öhdəmizə düşən vəzifələrdən biri və ya daha dəqiq desək, bu ayda malik olduğumuz fürsətlərdən biri duadır. Dua barəsində üç nüansa toxunacağam. Düzdür, duanın xeyir, təsir və bərəkətləri qeyd edəcəklərimdən daha çoxdur. Amma həmin üç nüansın duada əhəmiyyəti böyükdür.

Onların birincisi budur ki, biz Allah-taalanın dərgahına dua edəndə, əslində, öz istəklərimizə çatmaq üçün bir vasitə axtarır, həmin istiqamətdə hərəkət edirik. Biz duadan bu məqsədlə istifadə edirik. Dua etməyin növlərindən biri budur – istəyə nail olmaq üçün dua etmək. İnsan bütün istəklərinə maddi vasitələrlə nail olmur. Bəzi şeylər var ki, insan onları dua vasitəsi ilə əldə etməlidir. Əlbəttə, onlar əməlsiz dua ilə əldə edilmir. İnsanın heç bir iş görmədən dua etməsinin faydası yoxdur. Biz iş görmək, addım

atmaq, çalışmaqla yanaşı, Allahdan da istəməliyik. Bu dua insanın istəyinin gerçəkləşməsinə səbəb olur. Bildiyiniz kimi, həzrət Peyğəmbər döyüş meydanında bütün işləri görəndən sonra dua edib. Buna görə də bizim boynumuza düşən vəzifələrdən biri dua etmək, məqsəd və istəklərimizə bu yolla çatmaqdır.

## Duanın qəbul olma qayda və şərtləri

Dua digər vasitələrin yanında dayanan bir vasitədir. Böyük tədqiqatçı və mütəfəkkirlərin dili ilə desək, Allah-taala varlıq aləmində onlarla vasitə və səbəb yaradıb, onlardan biri də duadır. Duaların çoxunda söhbət hacət istəməkdən gedir. Məsələn, bərəkətli ramazan ayının çox zəngin məzmuna malik səhər duasında Allah-taala ad və sifətlərinə and verildikdən sonra deyilir ki, istədiyin duanı et və Allahdan hacətini dilə, Allah-taala bu andlardan sonra duanı qəbul edəcək. Buna görə də hədislərin birində həzrət Əlinin belə buyurması nəql edilib: "Bəla sizə gəlib çatmamışdan qabaq onun dalğalarını dua ilə dəf edin".[1] Bu, həqiqətdir. Əlbəttə, bu o demək deyil ki, sizin istədiyiniz şey mütləq Allaha dediyiniz şəkildə gerçəkləşəcək. Xeyr, elə deyil. Bütün adi səbəb və bütün istəklər kimi duanın da bir sıra şərt və qaydaları var. Siz dostunuzdan da bir şey istəyərkən müəyyən qaydalara riayət edirsiniz. Duanın xüsusi qaydalarına əməl etmək lazımdır. Onun ən mühüm qaydalarından biri insanın diqqətinin Allaha yönəlməsi və istəyini səmimi-qəlbdən Allahdan istəməsidir. Duanın vaxtı insanın qəlbinin riqqətə gəldiyi və fikrinin toplandığı vaxtdır. Həmin vaxt Allahdan istənilən şeylər çox vaxt

1. Biharul-ənvar, c. 90, səh. 289

gerçəkləşir. Əlbəttə, ola bilər, bəzən Allahın elmində bizim bilmədiyimiz xeyirlər olsun və Allah-taala yaradılışın və ya hər hansı bir xalqın ümumi mənafeyinə zidd olan həmin duamızı qəbul etməsin. Amma əgər istəyimizin yolunda böyük maneə olmasa və fikrimizi toplayaraq dua edə bilsək, həmin dua tez və ya gec, mütləq, qəbul olacaq. Hədislərdə deyilir ki, hər hansı bir istəyinizin gerçəkləşməsi üçün dua edəndə öz dua və istəyinizi çox saymayın. Yəni Allahdan ürəyinizdən keçən şeyi istəyin və "bu çoxdur, qoy az şey istəyim ki, gerçəkləsin" deməyin. Bizə duanı çox hesab etmək qadağan edilib. Yəni hansısa dua və istək Allah qarşısında çox və böyük sayılmamalıdır. Allahdan böyük şeylər istəyin, Allah istəyinizi gerçəkləşdirəcək. Duaya ümid qapısını, Allah-taalanın bəndələrlə Özü arasında vasitə etdiyi yolu öz üzünüzə bağlamayın. Əlbəttə, hədislərdə qeyd edilib ki, duada tələsmək olmaz. Əgər dua edib bir şey istəsəniz və o siz istəyən vaxt gerçəkləşməsə, "Allah-taala duamı qəbul etmədi" deməyin. Xeyr, belə deyil. "İşlər öz zamanının girovundadır". Hədislərdə nəql edilib ki, İsrail oğulları Allah-taala onları xilas edəcəyini vəd edəndən sonra qırx il dua etdi və nəhayət, istədikləri oldu. Çox böyük iş baş verdi. Əslində, Fironun qərq olması və Musanın Firona qalib gəlməsi üçün qırx il dua etmək elə də çox deyil. Tələsməyin, fikrinizi toplayıb dua edin və Allahdan istədiyinizi diləyin. Bu məna bəzi hədislərdə də qeyd edilib. Duaların birində belə nəql edilib: "İlahi, çoxsaylı arzular Səndən başqa hansı qapıda və kimin yanında deyilsə, rədd edilər. Sənin dərgahında çoxsaylı istəklər də qəbul edilir".

## Nəql edilmiş dualarda dərin İslam maarifi yatır

Duada olan başqa bir cəhət məsum imamlardan nəql edilmiş dualarda böyük İslam maarifi dərslərinin yatmasıdır. Əgər "Səhifeyi-Səccadiyyə" kitabını oxusanız və həmin sözlərin dua olmasını nəzərə almasanız, onda olan hər duanın bir ali İslam və Quran dərsi olduğunu görərsiniz. Əgər kimsə həzrət Əlinin "Nəhcül-bəlağə"nin birinci xütbəsində tövhid barəsindəki kəlamlarını və ya "Səhifeyi-Səccadiyyə"nin Allaha həmd barəsindəki birinci duasını qarşısına qoyub oxusa, onların ikisinin də eyni olduğunu və aralarında heç bir fərqin olmadığını görər. Onlar xütbə və dərsdirlər. Əmirəl-möminin camaatın qarşısında dayanıb ilahi təlimlərdən danışıb, İmam Səccad dua edib və həmin təlimləri dua dili ilə bəyan edib. "Səhifeyi-Səccadiyyə"nin səkkizinci duası da elədir. Mən onun bəzi bəndlərini qeyd etmişəm. O, bir əxlaq dərsidir. Sanki o, xütbədir və bir nəfər camaatın qarşısında dayanıb çıxış edərək onlara əxlaqi sapıntıların nədən ibarət olduğunu açıqlayır.

İmam Səccad həmin duada belə buyurur: "Allahım, hərislikdən, hərislik və qəzəbin çoxluğundan, paxıllığın mənə qalib gəlməsindən, səbrin azlığından, qane olmamaqdan, bədəxlaqlıqdan, şəhvətpərəstlikdən, yersiz təəssübkeşlikdən, öz günahını kiçik, itaətini böyük saymaqdan, ixtiyarımızda və əlimiz altında olanların pis idarə edilməsindən, zalıma kömək etməkdən, çarəsizə yardım etməməkdən Sənə sığınıram".[1] İmam Səccad bunların hamısını duada deyir, dua dili ilə bəyan edir və

1. Səhifeyi-Səccadiyyə, 8-ci dua

bu şeylərdən Allaha sığındığını buyurur. Bunlar əxlaq dərsidir. "Səhifeyi-Səccadiyyə"də olan dualar, "Əbu Həmzə Sumali" və "İftitah" duaları, ramazan ayında, cümə axşamı və cümə günü və başqa vaxtlarda oxunması tövsiyə edilən dualar, bir sözlə, məsum imamlardan nəql edilmiş duaların hamısı İslam maarifi ilə – tövhid, nübuvvət, haqlar, ictimai vəziyyət, əxlaq, hökumət, insanların İslam barəsində bilməli olduğu məsələlərlə – doludur. Bu dualarda bir çox məsələlər dua dili ilə bəyan edilib. Məsum imamlarımız batil hökumətlərin hakimiyyəti dövründə həmin təlimləri insanlara bu yolla çatdırıblar. Dua barəsindəki baxışlardan biri də budur.

## Dua barəsində iki baxış

Bu iki baxışda dua vasitə fərz edilib. Birinci baxışa əsasən, dua insanın dilək və arzularına çatması üçün vasitədir. İkinci nəzərə əsasən, dua ilahi təlimlərlə tanış olmaq vasitəsidir. Dua barəsindəki üçüncü baxışa əsasən, insan dua etməklə, istəyini Allaha deməklə özünü Allah-taalaya yaxınlaşdırır. Dua etməyin özü Allaha yaxınlaşmağa səbəb olur. Allahla danışmağın, Ona yalvarıb-yaxarmağın, Onunla danışmağın, tövbə edərək bağışlanma diləməyin özü insanın məqsədlərindən biridir. Bu, duanın ən yüksək xüsusiyyətlərindəndir. İnsanın Allah qarşısında dayanıb göz yaşı tökməsinin, özünü kiçiltməsinin özü insanın məqamının yüksəlməsinə səbəb olur. İnsan Allahla raz-niyaz etməklə ucalır, yüksəkliklərə qalxır. İnsanın bədbəxtliyi Allahı unudanda başlayır. İnsanın özünü Allaha möhtac bilməməsi onun üzüqaralığının başlanğıcıdır. İnsan həyatında Allahla ünsiyyət və əlaqəyə

yer ayırmayanda uğursuzluğa düçar olur. Dünyada nə qədər pislik varsa, buradan qaynaqlanır. İnsanın vücudunda olan bütün çirkinliklərin kökü buradır. İnsan özünü pisliklər qarşısında sığortalamaq üçün Allaha tərəf getməli, Onunla ünsiyyətdə olmalı və əlaqə qurmalıdır. Bu, dini vəzifədir.

Ramazan ayı bu cür dua etmək vaxtıdır. Duanın qeyd edilən mənaları arasında ziddiyyət də yoxdur. Öz hacətinizi bəyan etdiyiniz duanı həm də fikrinizi toplayaraq edin və qəlbinizi Allaha yaxınlaşdırın. Bizim buna ehtiyacımız var. Qardaş və bacılar, duanı yaddan çıxarmayın.

...Əgər düşmənin qarşısında möhkəm dayanmaq istəyirsinizsə, gərək üzünüzə dua qapılarını açasınız. Əgər heç kəs və heç nədən qorxunuzun olmağını istəmirsinizsə, Allahla əlaqələrinizi möhkəmləndirin. Əgər maddi görüntülər qarşısında büdrəmək istəmirsinizsə, özünüzü dua ilə sığortalamalısınız. Dua belədir. Bu bütün insanların vəzifəsidir. Bu, insanın qəlbindən Allaha tərəf açdığı yoldur. Buna görə də gördüyünüz kimi, Əmirəl-möminin – bu şücaətli insan, o qəhrəman, o böyük şəxsiyyət, o güclü və qüdrətli hakim, düşüncə, zehin, ağıl, hikmət, dərs və təlimləri dünyanın ən görkəmli filosof və mütəfəkkirləri üçün dərs olan, önündə bütün dünya dayansa belə, qorxub qaçmayan Əli dövrünün ən abid, Allah qarşısında ən çox ağlayan və ən çox yalvarıb-yaxaran insanı olub.

Ramazan ayını əldən çıxarmayın. Bu fürsətləri əldən çıxarmayın. Ramazan dua və raz-niyaz etmək üçün gözəl fürsətdir. Çalışaq dua qapısını üzümüzə bağlamayaq. Dua etməyə – fikrini toplayaraq və mənəvi hal əldə edərək edilən dua – müvəffəq olmuş şəxs bilməlidir ki, Allah ona

lütf göstərib və duanın qəbul olması sonrakı mərhələdir. İslam cəmiyyəti dua və raz-niyaz edən və Allaha üz tutan cəmiyyət olmalıdır.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*25.II.1993*

# Ramazan nəfsə hakim olmaq üçün məşq ayıdır

Allah fitr bayramını xalqımıza və digər xalqlara bərəkətli etsin. Mühüm bir məsələ var ki, ona həmişə, xüsusilə Ramazan ayından sonrakı belə bir gündə – fitr bayramı günündə xüsusi diqqət yetirmək lazımdır. Həmin məsələ hər bir xalqın fəaliyyətinin əsasının, uğur qazanmasının sirrinin onun öz intellektual, ideoloji və mənəvi təməllərini möhkəmləndirməsindən ibarət olmasıdır.

İslam bizə başa salır ki, insan dünya və axirət məqsədlərinə çatmaqda uğur əldə etmək üçün onun daxilində dəyişiklik baş verməlidir. Cəmiyyətdə, xüsusilə islami cəmiyyətdə həmin dəyişiklik baş verməyincə, qəlblər Allahla tanış olmayınca, Allahın yolu ən üstün və doğru yol kimi diqqət mərkəzində olmayınca İslam cəmiyyətlərinin problemləri həll olmayacaq. Allahın biz müsəlmanlara hədiyyə və bəxşişi olan ramazan ayı bizə bu istiqamətdə dəyərli töhfələr gətirir. Digər tərəfdən, bir növ mənəvi məşq olan ramazan ayı nəfsə hakim

olmaq üçün bir vasitədir. Nəfsə hakim olmadan və nəsfi istəklərin cilovunu ələ almadan heç bir böyük işi uğurla həyata keçirmək mümkün deyil. Ramazan ayı öz oruc sərmayəsi ilə bu istiqamətdə çox dəyərli əməli məşq hesab edilə bilər. Əhli-beyt məktəbinin davamçıları Allahın lütfü ilə ramazan ayında Əhli-beytdən nəql edilmiş dualarla bu mübarək ayın gecə, gündüz və səhərlərində Allahla minacat, dua və raz-niyaz ediblər. İmam Səccadın duaları ilə tanışlığı olan şəxs çox yaxşı başa düşür ki, bizim Allahdan və mənəviyyatdan uzaq düşməyimizin, biz və bizim kimilərin mənəvi və ülvi məqamlara çatmaqdan məhrum olmağımızın səbəbi şəhvət və nəfsi istəklərə tabe olmaqdır.

İmam Səccad "Əbu Həmzə" duasında belə deyir: "İlahi, mənimlə mənim Sənə davamlı itaətimə mane olan günahlarım arasında ayrılıq sal".[1] Buradan belə məlum olur ki, günahlar, yəni insanın nəfsi istəklərə tabe olub gördüyü işlər insanın pərvaz etməsinə və yüksəkliklərə ucalmasına mane olur.

Biz ramazan ayında bu cümləni dəfələrlə təkrar etmişik: "İlahi, bizim pis halımızı Öz gözəl halınla dəyişdir".[2] Biz Allahdan Öz lütf və mərhəməti ilə bizim pis halımızı gözəl hala çevirməsini istəyirik. Əgər bu olsa, Allahın lütfü ilə bütün problemlər həll olar. Ölkə miqyasında bizim hər birimizin boynuna bir sıra məsuliyyətlər düşür; məsuliyyətimiz böyük də olsa, kiçik də olsa, bu dəyişikliyə daha çox ehtiyacımız var və öz halımıza daha çox acımalıyıq. Mən şəxsən özümü deyirəm, mənim bu dəyişikliyə daha çox ehtiyacım var. Bu hər hansı bir ölkədə, hər hansı bir xalqın arasında hərəkət və

1. İqbalul-əmal
2. Biharul-ənvar, c. 95, səh. 120

dəyişikliyin açarıdır. *"Özlərində olanı dəyişmədikcə, Allah heç bir xalqın taleyini dəyişməz"*.[1] Həyatın dəyişməsi üçün onların özündə, öz canında olan şey dəyişməlidir.

## Ramazan Allaha itaət əldə etmək üçün yarış meydanıdır

Mübarək fitr bayramı möminlərin öz mükafatını aldığı, həzrət Peyğəmbər və övliyaların bayram, şərəf və kəramət günüdür. Namazda iştirak edən qardaş və bacıların hamısına təqvalı olmağı və günahlardan çəkinməyi tövsiyə edirəm. Allahın lütfü sayəsində ramazan orucunun nəticəsi təqva və günahdan çəkinmək olmalıdır.

Fitr bayramı Allahın xüsusi diqqət etdiyi, həmçinin möminlərə ilahi bağışlanma və rəhmətin nazil olduğu gündür. Bərəkətli ramazan ayının günləri kimi bu günün də qədrini bilmək lazımdır. Nəql edilənlərə əsasən, İmam Həsən fitr bayramı günü bir yerdən keçirmiş. O həzrət bir dəstə adamın dayanıb oynadığını, bu günə əhəmiyyət vermədiyini, ona etinasız yanaşdığını, qəflətdə başlarının özlərinə qarışdığını, deyib-güldüyünü görür. O həzrət həmin dəstənin yanında dayanıb belə deyir: "Allah-taala ramazan ayını Öz bəndələri üçün yarış meydanı edib ki, bu yarış meydanında Ona itaət etməklə Onun razılığını əldə etmək istiqamətində bir-biri ilə yarışsınlar. Onların bir dəstəsi başqalarını ötə, qabaqlaya və nəticədə nicat tapa bildi. Amma başqa bir dəstə bu ramazan ayında səhlənkarlıq etdi, özünü Allahın rəhmət dərgahına çatdıra bilmədi və məyus oldu".[2] Həmçinin buyurub:

1. Rəd, 11
2. Tühəful-üqul, səh. 236

“Yaxşı əməl sahiblərinin savab yükünü yığıb bağlayaraq getdiyi, məhrumların öz zərər-ziyanlarını təhvil aldığı gün laqeydliklə gülən və başı oynamağa qarışan şəxslərin halı təəccüb doğurur”.[1] Bu gün böyük gündür və o, Qiyamət gününə bənzəyir. Bu gün ramazan ayında Allahın razılığını qazana bilmiş şəxslər Allah-taaladan öz mükafatlarını alacaqlar. İnsan bu günü qəflətdə keçirməməlidir. İmam daha sonra belə buyurub: “Əgər gözlərin qarşısındakı pərdələr kənara çəkilsəydi, yaxşı əməl sahiblərinin öz mükafatını, pis əməl sahiblərinin isə öz səhlənkarlıqlarının nəticələrini yığmaqla məşğul olduğunu görərdin”.[2]

## Ramazan ayında əldə edilənlərin gələn ilə saxlanılması

Hər saat və anı xeyir-bərəkətlə dolu olan və Allah-taalanın mömin və yaxşı əməl sahiblərinə böyük mükafatlar vəd etdiyi ramazan ayı sona çatdı. Bəziləri bu aydan əlidolu çıxdılar, öz azuqə qablarını doldurub gələn ramazana kimi özlərini sığortaladılar. Xoş onların halına! Ümid edirəm ki, siz qardaş və bacılar da həmin insanların arasındasınız.

Ramazan ayındakı səylərinizin nəticəsini qoruyub saxlamağa çalışın. Qəlblərinizi pak saxlayın, sizi Allahdan uzaqlaşdıran işlərlə məşğul olmayın. Qəlblərinizi Allahı yada salmağa məşğul edin, onun qədrini bilin və ramazan ayında əldə etdiklərinizlə gələn ramazana kimi öz xoşbəxtliyinizi təmin edin. Allahın lütfü sayəsində İran İslam Respublikasında yaxşı olmaq, yaxşı qalmaq, yaxşı yaşamaq istəyən kəslərə münasib şərait var. Müsəlman

1. Kafi, c. 7, səh. 682
2. Tühəful-üqul, səh. 236

kimi yaşamaq istəyənlər İslam Respublikasında müsəlman kimi yaşaya, müsəlman qala bilərlər. Dünya ölkələrinin çoxunda belə bir şərait – gəncin günah etmək istəməyəndə günah etməyəcəyi, günaha yaxınlaşmaq istəməyən şəxsin günaha yaxınlaşmayacağı mühit – yoxdur. Bunlar İslam Respublikasının sayəsində mümkün olub. Bunun qədrini bilmək lazımdır.

*Fitr bayramı namazının xütbələrindəki çıxışdan*
*23.III.1993*

# Ramazan Cənnətin bir parçasıdır

Ramazan ayının diqqətçəkən başqa bir cəhəti də var. Mən bu barədə bir neçə kəlmə danışmaq istəyirəm. Düzdür, bunlar sizin üçün yeni söz deyil, onu siz özünüz də başqalarına deyirsiniz. O sizə qaranlıq deyil. Mən bunu bütün eşidənlərin yadına salmaq üçün deyirəm. Ramazan Cənnətin ilin içində olan bir parçasıdır. Allah-taala onu maddi dünyanın yandırıcı Cəhənnəminə daxil edir və bizə bu ilahi süfrənin başında özümüzü Cənnətə daxil etmək fürsəti verir. Bəziləri ancaq həmin otuz günü Cənnətə daxil olur, bəzisi həmin otuz günün sayəsində bütün ili, bəziləri isə bütün ömrünü Cənnətdə keçirir. Təəssüf ki, bəziləri onun yanından xəbərsiz halda keçir. Bu onların ziyana uğraması ilə nəticələnir. Bu qədər istedad, zirvələrə ucalmaq və təkamül imkanına malik insanın bu əzəmətli süfrədən istifadə etməməsi, həqiqətən, hər bir kəsdə təəssüf doğurur. O, ramazan ayıdır, ilahi ziyafət ayıdır, "Qədr gecəsi" ayıdır.

Bunları o qədər təkrar etmişik, o qədər demişik, eşitmişik ki, bizim üçün adiləşib. Bu təkrar şeylərin içindən həqiqətləri tapan şəxs kamilliyə çata bilər. Təcrübi elm də belədir. Almanın ağacdan qopub yerə düşdüyünü hamı görüb. Dünyada bundan adi iş yoxdur. Amma bu hadisə bir nəfərin diqqətini özünə cəlb edib və "alma nə üçün yerə doğru hərəkət edir? Nə üçün ağacdan qopandan sonra göyə qalxmır?" sualları bir nəfəri düşündürüb. Nəticədə cazibə qüvvəsi kəşf edilib, elmdə yeni qapı açılıb. Bizim həyatımızda olan adi hadisələrin çoxu bu qəbildəndir. Quran buyurur: *"Məgər onlar dəvənin necə yaradıldığına baxmırlar?"*[1] Dəvə ərəblər üçün dünyanın adi şeylərindən biridir. Quran insanın diqqətini həmin dəvəyə yönəldir. Biz gərək ətrafımızda baş verən hadisələrə diqqət edək. Onların biri də ramazan ayıdır. Bu ilahi ziyafət balaca məsələ deyil. Eşitmişik, ona "İlahi ziyafət", yəni qonaqlıq deyirlər. Bu qonaqlığın təşkilatçısının elm və qüdrət sahibi olan əzəmətli Allah olduğunu da bilirik. Bütün yaradılış aləmi Onun əlindədir. "Hər şey sözlə deməyə ehtiyac olmadan istəməyinlə dərhal Sənə tabe olur".[2] Bu, ilahi ziyafətdir, bu da ziyafətə dəvət edilən bizlər: "Siz ilahi ziyafətə dəvət edilmisiniz".[3] Bu fürsətdən istifadə etmək lazımdır. Yaxşı, bəs ondan necə istifadə etmək olar? İxtiyarımıza qoyulan həmin bu şeylərlə: oruc, namaz, nafilələr, dua, zikr, diqqətin Allaha yönəldilməsi, özünü Allah qarşısında kiçiltmək və itaətkarlıq göstərməklə. Əgər biz ruhanilər özümüz bu meydana daxil olsaq və auditoriyamızı da bu meydana daxil etməyə çalışsaq, bu



1. Ğaşiyə, 17
2. Səhifeyi-Səccadiyyə, səh. 54
3. Fəzailu Əmiril-möminin, səh. 133; Əmali, Səduq, səh. 93

ölkə Cənnətin bir parçasına çevrilər, həm dünya düzələr, həm də axirət: *"Əgər şəhər və kəndlərin əhalisi iman gətirib təqvalı olsaydı (günahlardan çəkinsəydi), sözsüz ki, göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq".*[1] Bunlar ilahi vədlərdir. Burada şişirtmə və mübaliğə yoxdur. Allah-taala göyün və yerin bərəkət qapılarını təqvalıların üzünə açacaq. Təqva belədir.

## Ramazanın əsas məqsədi təqvadır

Ramazan orucunun ən böyük və ya başqa sözlə desək, əsas məqsədi təqvadır: *"...ki, təqvalı olasınız".*[2] Bu bizim öz əlimizdədir. Hər bir kəs özünü, bundan əlavə, əgər bacarsa, başqasını islah etməlidir. Bu, təkcə ruhanilərin vəzifəsi deyil, hamıya aiddir, amma buna alim, ruhani, xətib və vaizlər daha hazırlıqlı olurlar. Allah-taala onlara bu imkanı, bu danışıq bacarığını, bu zehni, bu ictimai mövqeyi və bu libası verib. Biz bunlardan istifadə etməliyik. Bu ramazan ayında adiləşmiş sözlərdən biri də Allah-taalanın bu kəlamıdır: *"Qədr gecəsi min aydan xeyirlidir. O gecə Rəbbinin izni ilə mələklər və Ruh hər bir işə görə (hər bir işi öncədən təyin etmək üçün yerə) enirlər. Sübh açılanadək əmin-amanlıq (bərəkət və rəhmət dolu) olan bir gecədir".*[3] Bu bir gecə səhərə kimi ilahi əmin-amanlıq içində olur. Bu əmin-amanlıq və salam möminlərə, Cənnət əhlinə, Allahın xalis bəndələrinə məxsusdur: *"Rəhmli Rəbb tərəfindən onlara salam deyiləcək".*[4] Bu bizim ixtiyarımızdadır və biz ondan istifadə edə bilərik. Mənim ramazan barəsində demək istədiyim söz bu idi.

1. Əraf, 96
2. Bəqərə, 183
3. Qədr, 3-5
4. Yasin, 58

Bütün işlərin düzəlməsinin açarı budur. Hər şey burdan başlayır...

Əgər İmam Xomeyniyə baxsanız, bu əzəmətli hərəkatın əsasının təqva olduğunu daha yaxşı görərsiniz. İmam Xomeyni təqva, diqqətin Allaha yönəlməsi, ilahi idrak, Allaha xatir çalışmaq və ixlas nümunəsi idi. Əgər bunlar olmasaydı, bir iş görmək mümkün olmazdı. Əgər İmam Xomeyni o qədər yaxşı, məna əhli olmasaydı, işlər bura kimi gəlib çatmazdı. Təqva islahatın başlanğıcıdır.

*Ruhanilərlə görüşdəki çıxışdan*
*6.II.1994*

# Ramazan təqva diyarına qədəm basmaq ayıdır

Həzrət Əli buyurub: “Təqvadan ayrılan şəxs şəhvət düşkünü olar; təqvadan ayrılan şəxs ləzzət və nəfsi istəklərə mübtəla olar, günah azğınlığına düşər, çoxsaylı pislik və zərər-ziyanlardan ayrıla bilməz”.[1]

Namazda iştirak edən bütün qardaş və bacılarıma ilahi təqvaya riayət etməyi tövsiyə edirəm. Gəlin təqvaya çatmaq, orucu insanın təqva diyarına qədəm basma vasitəsi olan bu ayın qədrini bilək və özümüzü dindarlığın təqva adlandırılan mərhələsinə yaxınlaşdıraq.

## Təqvanın xeyir və nəticələri

Bu gün birinci xütbədə Qurandakı çox mühüm bir təcrübəyə işarə edərək təqva barəsində danışacağam. İnsanın həyatında təqvanın rolu böyükdür. Onun xeyirlərindən biri təqvalı insanın həyatın eniş-yoxuşlarında özünü qoruya bilməsidir. Amma təqvasız insan bunu edə

1. Təsnifu ğurəril-hikəm və durəril-kəlim, səh. 274

bilmir. Əgər insan özündə daim özünə nəzarət etməkdən, öz əməl və fikirlərinə, yerinə yetirdiyi və ya tərk etdiyi işlərə diqqət etməkdən ibarət təqva ruhu yarada bilsə, ilahi imtahanlardan başıuca çıxar. Çünki təqvanın mənası insanın özünə nəzarət etməsi, diqqət yetirməsi və qəflətə düşməməsidir.

Əziz qardaş və bacılar! Sınaq hamı üçündür. Biz milli müstəvidə baxanda bütün xalqların həyatın eniş-yoxuşunda sınaqla qarşılaşmasının şahidi oluruq. Bu, fərdi miqyasda da belədir və bütün insanlar imtahana çəkilirlər. Sınaqlar fərqli olsa da, mövcuddur. Əgər insanın qarşısına hər hansı bir həzz çıxırsa və insanın nəfsi dinlə ziddiyyət təşkil edən həmin həzzə meyil göstərirsə, ora sınaq meydanıdır. Yaxud insanın qarşısına pul çıxır və o həmin pulu mənimsəmək imkanına malik olur, amma bu mənimsəmə Allahın qanunu ilə ziddiyyət təşkil edir. Bu da bir sınaqdır. O cümlədən insan hansısa bir söz deyir və həmin söz onun şəxsi maraqlarına uyğun gəlsə də, nahaq söz olur. Bu da sınağın bir növüdür. Bəzən bir sözün deyilməsi vacib olur və onun deyilməsini insandan Allahın qanunu tələb edir, amma həmin sözün deyilməsi insan üçün təhlükə və problem yaradır. Bu da sınaq yeridir. Məsələyə ümmət və xalqlar miqyasında yanaşanda da belədir. Əgər hər hansı bir xalq sərvət və qüdrət əldə edirsə, qələbə qazanıb elmi nailiyyətə çatırsa, ora həmin xalqın sınaq yeridir. Əgər xalqlar qüdrət zirvəsində olmalarına baxmayaraq, özlərini sağlam saxlaya bilsələr, imtahandan başıuca çıxa bilərlər. Amma əgər cəmiyyət və xalqlar rifah içində olanda Allahı yaddan çıxarsalar, imtahandan başıaşağı və uğursuzluqla çıxmış olarlar. Buna görə də Quran "Nəsr" surəsində həzrət Peyğəmbərə xitab edərək buyurur: *"Rəhman və Rəhim Allahın*

*adı ilə! Allahın köməyi və qələbə gəlib çatdığı zaman, insanların dəstə-dəstə Allahın dininə daxil olduğunu gördükdə..."*[1] Allahın qələbə və yardım nəsib etməsi ilə insanların dəstə-dəstə dinə daxil olması hər bir peyğəmbərin qüdrətinin zirvəsidir. İnsan burada diqqətli olmalıdır. Buna görə də buyurur: *"Rəbbinə həmd və tərif de, Ondan bağışlanmağını dilə. O, çox tövbə qəbul edəndir!"*[2] Qələbə çalanda Allahı yaddan çıxarma, Ona həmd və təriflər de. Əldə edilən bu uğurların səbəbkarı sən deyilsən, Allahdır. Özünə baxma, Allaha bax.

Hər hansı bir xalq, həzrət Peyğəmbər kimi müdrik və ilahi rəhbər bu kimi yerlərdə ümmətin yolunu sapmamasına diqqət edir. Bu kimi yerlərdə təqva həmin xalqın dadına çatır. Əgər xalqın təqvası olsa, o, inkişaf, iman və Allaha bəndəlik yolunu davam etdirər. Amma əgər xalqların təqvası olmasa, tarix boyu güclü xalqların başına gələn bəla və müsibətlər onların da başına gələr. Onlar təkəbbür, lovğalıq, zülm, kobudluq və azğınlığa düçar olublar, insanları doğru yoldan çıxarıblar, dünyanı viran qoyublar, pozublar, sonda da özləri məhv olublar. Siz yaxın keçmişdə dünyanın bir neçə böyük imperiyası barədə bunun bariz nümunəsinin şahidi olmusunuz. O, təqvasızlığın nəticəsidir. Fərd və ya cəmiyyət olmasından asılı olmayaraq, dünyanın bütün təqvasızlarını süqut gözləyir. Bu onların qaçılmaz taleyidir. Təqvasızlığın sonunun süqut olması qətidir. Əlbəttə, tam süqutdan qabaq azğınlıq və fəsad gəlir.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*18.II.1994*

1. Nəsr, 1-2
2. Nəsr, 3

# Həzrət Əlinin ən mühüm tövsiyələri

Həzrət Əli ramazan ayının 19-cu gecəsi zərbətlənəndən sonra qısa vəsiyyət edib. Mən, inşallah, bu gün həmin vəsiyyəti sizə tərcümə edəcəyəm. Hər bir kəs həyatının son anlarında öz yaxınlarına fikir, nəzər, ruhiyyə və baxışlarının ən mühümlərini, məğzini bəyan edir. Əmirəl-möminin yaradılışın möcüzəsi, əsl müsəlman olub. O, həzrət Peyğəmbərə bənzəyib və onun da məqamı göylərdə yerdən daha məşhur olub. Onun mələklərin arasındakı mürid və aşiqlərinin sayı insanlar arasındakı mürid və aşiqlərindən çox olub. O, səma aləminə bağlı şəxsiyyət, bütün ülvi və ilahi təlimlərdən xəbərdar arif, "Allah yolunda layiqincə cihad edən"[1] birinci dərəcəli mücahid, birinci dərəcəli zahid, birinci dərəcəli siyasətçi, birinci dərəcəli rəhbər olub. İndi belə bir ülvi xüsusiyyətləri olan şəxs dünyadan köçür. Onun vaxtı azdır. O, vaxtının azlığını vurulmamışdan qabaq da bilirdi. İndi o zərbətlənib və vaxtı daha da azalıb.

1. Tühəful-üqul, səh. 69

O, ömrünün son saatlarını yaşayır və öz övladlarına, kufəlilərə, dövrün sərgərdan müsəlmanlarına, bütün tarixə qısa ismarıc göndərmək istəyir. Bu ismarıc bir səhifəyə də yerləşər. Onda işlənmiş ifadələr çox dəqiq seçilib. Bu vəsiyyətin cümlələri bizə ilk baxışda rabitəsiz görünə bilər. Bizdə belə təsəvvür yarana bilər ki, o həzrət bir yerdə bizim nəzərimizcə və səthi təhlillərimizə görə çox mühüm olan bir məsələyə toxunur, sonra birdən-birə bizim nəzərimizcə elə də əhəmiyyəti olmayan məsələyə işarə edir. Amma Əli ibn Əbutalib məsələlərə ilahi gözlə baxır. O, dünyada olan varlıqlara Allah-taalanın gözü ilə baxır. Allahın və Əlinin gözündə hər hansı bir şeyin böyük və kiçik olmasının meyarı bizim böyüklük və kiçiklik meyarımızdan fərqlidir. Buna görə də əgər kimsə məsələlərə həmin gözlə baxsa, onların bir-biri ilə tam bağlı olduğunu görər. Əlbəttə, biz ona həmin gözlə baxmaqdan məhrumuq və əlimizdən ancaq onları qeyd edilən kimi təhlil etmək gəlir. Bu vəsiyyətdə çox dəqiq ifadələr işlədilib.

Əmirəl-möminin bu vəsiyyəti İmam Həsənlə İmam Hüseynə edib. Belə ki, o həzrət İmam Həsənlə İmam Hüseyni yanına çağıraraq onlarla söhbət edib və bu sözləri zərbətlənəndən sonra onlara deyib. Əmirəl-möminin həmin vaxt yaralı olub və qatilin vurduğu qılıncın zəhərli olması o həzrətin bədəninin qızdırmasını qaldırıb. Xəstəlik və zəiflik adətən adi insanların danışmasına mane olur. Amma o, Əmirəl-möminin kimi şəxsiyyətə mane ola bilmir. O bu qısa zaman ərzində – zərbətlənəndən şəhid olana kimi olan qırx səkkiz saatdan az vaxt ərzində bütün vacib və zəruri işlərini yerinə yetirməli idi və yerinə yetirdi də! O həzrətin vəsiyyətlərindən biri “sizə təqvalı olmağı

tövsiyə edirəm"[1] cümləsi ilə başlayan vəsiyyətidir. Heç bir müqəddiməsiz, ilk söz təqvadır.

## Təqvanın tərif, zərurət və vacib şərtləri

Təqva insanın hər şeyi, hər hansı bir xalqın dünya və axirəti, bəşəriyyətin getməli olduğu bu uzun yolun azuqəsidir. Həzrət Əlinin ilk və son sözü təqvadır. O həzrət buyurur ki, oğullarım, özünüzə diqqət edin, Allah yolunda olun, ilahi meyarlarla yaşayın. İlahi təqvanın mənası budur. Burada söhbət Allahdan qorxmaqdan getmir. Bəziləri təqvanın mənasının "Allahdan qorxmaq" olduğunu deyirlər. "Allah qorxusu" və "Allah xofu" da başqa bir dəyərdir. Amma bu, təqvadır. Təqvanın mənası insanın gördüyü hər bir işdə diqqətli olması və həmin işin Allahın onun üçün nəzərdə tutduğu dəyərlərlə uyğun gəlməsidir. İnsan təqvanı bir an belə yaddan çıxarmamalıdır. Əgər biz onu bir anlıq tərk etsək, sürüşkən yol və dərin dərə ilə üz-üzə qalacaq, sürüşərək dərənin dibinə yuvarlanacağıq. İşdir, əgər haradasa əlimiz bir şeyə, bir daşa, ağaca, kola ilişsə, bəlkə, özümüzü dərənin dibindən yuxarı çıxara bildik.

*"Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı, Onun mükafat və cəzasını) xatırlayar və (Onu xatırlamaq sayəsində haqq yolu görər) dərhal görən olarlar".*[2] Təqvalı insan Şeytanın toxunuşunu hiss edən kimi dərhal özünə gələr, fikrini toplayar. Şeytan bizdən əl çəkmir. Deməli, ilk tövsiyə təqvadır.



1. Nəhcül-bəlağə, səh. 421
2. Əraf, 201

## Təriflənən və qınanan dünya

Təqvanın ardınca başqa məsələyə toxunur: "Dünya sizin arxanızca qaçsa da, siz dünyanın arxasınca qaçmayın". Bu da ikinci nüansdır. O da təqvanın zəruri şərtlərindəndir. Əslində, bütün yaxşı işlər təqvanın vacib və zərurətləridir. Onlardan biri də dünyanın arxasınca qaçmamaqdır. Əmirəl-möminin "tərki-dünya olun" demir, onun arxasınca getməməyi, ona pərəstiş etməməyi, dünyanın arxasınca qaçmamağı tövsiyə edir. Dünya deyəndə nə nəzərdə tutulur? Yer üzünün abadlaşdırılması? İlahi sərvətlərin çıxarılması? Arxasınca qaçmamaq tövsiyə edilən dünya deyəndə bumu nəzərdə tutulur? Xeyr! Dünyanın mənası sizin özünüz üçün, bəhrələnmək və həzz almaq üçün istədiyiniz şeydir. Buna dünya deyilir. Yoxsa ki, yer üzünün abadlaşdırılması bəşəriyyətin xeyir və mənafeyi nəzərə alınaraq ediləcəyi təqdirdə, elə axirətin özünə bərabərdir. Yaxşı dünya budur. Qınanmış və bizə arxasınca getməmək tövsiyə edilmiş dünya bizi, gücümüzü, səyimizi, fəaliyyətimizi özünə cəlb edən və bizi getdiyimiz yoldan saxlayan dünyadır. Eqoistlik, xudpəsəndlik, həm sərvət, həm də ləzzəti ancaq özü üçün istəmək, budur qınanan dünya.

Əlbəttə, bu dünyanın həm halal, həm də haram növü var. İnsanın özü üçün istədiyi şeylərin hamısı haram növə aid deyil. Xeyr, onun halalı da var. Amma bizə onun hətta halalının da arxasınca getməmək tövsiyə edilib. Bu mənada olan dünyanın heç halalı da yaxşı deyil. Maddi həyatınızı ilahi istiqamətə yönəldə bilsəniz, xeyir əldə edəcəksiniz. Axirətin mənası budur. Əgər kimsə ticarətlə var-dövlət toplamaq üçün deyil, insanların rifahını yaxşılaşdırmaq

üçün məşğul olsa, o, əsl axirət olar. Dünyanın bütün işləri belədir. Deməli, ikinci nüans dünyanın arxasınca qaçmamaq və dünyapərəst olmamaqdır.

Əmirəl-mömininin özü bu vəsiyyətində buyurduğu öyüd-nəsihətin kamil icraçısı olub. Əgər siz o həzrətin həyatına nəzər salsanız, onun həyatının bu qısa vəsiyyətdə deyilənlərin xülasəsi olduğunu görərsiniz. Daha sonra buyurur: "Əgər (qeyd edilən qınanmış) dünyada hər hansı bir şeydən məhrum olsanız, təəssüflənməyin". Filan sərvət, filan həzz, filan məqam və filan imkan və rifahdan məhrum olmağa görə heyifsilənməyin. Bu, o həzrətin üçüncü cümləsidir.

Sonra buyurur: "Haqqı deyin!" Haqqı deyin, gizlətməyin. Əgər hər hansı bir şeyin həqiqət olduğunu düşünürsünüzsə, onu lazımi yerdə deyin, haqqı gizlətməyin. Əgər dili olanlar haqqı gizlətməsələr, batili üzə çıxarmasalar, ya haqqın yerində batili oturtmasalar – əgər haqqı görən və bilən şəxslər haqqı desələr, haqq zülmə məruz qalmaz, qəribsəməz, batil tərəfdarları haqqı məhv etmək fikrinə düşməz.

Daha sonra buyurur: "Qarşılıq üçün iş görün". Yəni ilahi və həqiqi qarşılıq, mükafat üçün çalışın. Ey insan, bihudə iş görmə! Sənin yeganə və əsas sərmayən bu işin, bu ömrün, bu nəfəslərindir. Buna görə də onu boş yerə hədər vermə. Əgər ömür keçirir, bir iş görür, nəfəs alır, enerji sərf edirsənsə, bunların hamısını mükafat qarşılığında et. Mükafat nədir? İnsanın vücudunun qarşılığı bir neçə tümən puldur?! Mənim sərf etdiyim ömrün qarşılığı budur?! İnsanın mükafatı onun-bunun xoşuna gəlməkdir?! Xeyr! İmam Səccad belə buyurub: "Sizin ömrünüzün dəyər və qiyməti yalnız Cənnətdir. Onu ondan başqa heç nəyə

satmayın”. Buna görə də ömrünüz müqabilində ondan başqa hər nə alsanız, azdır və bilin ki, sizi aldadıblar. Odur ki, axirət mükafatı üçün çalışın.

İmam Əli daha sonra buyurur: “Zalımın qənimi, məzluma arxa-dayaq olun”. Bu hədisin orijinalında işlənmiş “xəsm” sözü çox vaxt “düşmən” kimi tərcümə edilir. Amma, əslində, “xəsm” sözünün mənası düşmən deyil. Bəzən biri zalıma düşmən olur, yəni ondan zəhləsi gedir. Amma bu yetərli deyil. “Zalımın qənimi ol” cümləsinin mənası zalıma qarşı iddialı olmaq, onun yaxasından yapışıb əl çəkməməkdir. Bəşəriyyət Əmirəl-mömünindən bu günə kimi zalımın yaxasından yapışmadığı üçün bədbəxt olub. Əgər iman sahibləri zalımların yaxasından yapışsaydılar, dünyada zülm bu qədər geniş yayılmazdı, əksinə, zülmün kökü kəsilərdi. Əmirəl-möminin bunu istəyir: “Zalımın qənimi olun!” Dünyanın harasında zülm və zalım varsa, sən burada özünü onun qənimi bil. Mən indi yola düşüb dünyanın bu başından o başına getməyin və orada zalımın yaxasından yapışmağın zəruri olduğunu demək istəmirəm. Məqsəd budur ki, onunla düşmənçilik et və nə vaxt, harada fürsət yaransa, onun yaxasından yapış. Bəzən insan zalıma yaxınlaşa və onun yaxasından yapışa bilmir, buna görə də onunla uzaqdan düşmənçilik edir. Görün bu gün dünyada Əmirəl-mömininin bu cümləsinə əməl edilməməsi nəticəsində necə qarışıqlıq yaranıb və bəşəriyyət hansı bədbəxtliklərə düçar olub! Görün müxtəlif xalqlar, xüsusilə müsəlmanlar necə zülmə məruz qalıblar! Əgər Əmirəl-mömininin təkcə bu vəsiyyətinə əməl edilsəydi, bu gün zülmlərin və zülmdən yaranan bədbəxtliklərin çoxu mövcud olmazdı.

“Məzluma arxa-dayaq olun!” Harada məzlum varsa, ona kömək et. Əmirəl-möminin demir ki, məzluma

tərəfkeşlik et. Deyir ki, kömək et. Məzluma hər hansı bir formada kömək edilməlidir.

O həzrətin vəsiyyətinin bura kimi olan hissəsi İmam Həsənlə İmam Hüseynə ünvanlanıb, amma onlar təkcə İmam Həsənlə İmam Hüseynə aid deyil, onlara ünvanlansa da, hamıya aiddir.

## Həzrət Əlinin bütün nəsillərə vəsiyyəti

Həzrət Əli vəsiyyətinin davamını ümumi şəkildə belə buyurub: “Siz iki oğluma, bütün övladlarıma, yaxınlarıma və bu məktubumun çatacağı hər bir kəsə vəsiyyət edirəm”.

Bu hesabla Əmirəl-mömininin həmin sözləri burada oturan siz əziz bacı-qardaşlara, onu sizə oxuyan mənə də ünvanlanıb. O həzrət buyurur ki, sizin hamınıza vəsiyyət edirəm. Nəyi vəsiyyət edir? – “Təqvalı olmağı!” Yenə təqva! Əmirəl-mömininin ilk sözü də, son sözü də təqvadır. Onun ardınca buyurur: “İşinizdə nizam-intizamlı olmağı”. Məqsəd həyatda görülən bütün işlərin nizam-intizamlı olmasıdır. Görəsən, məqsəd budur? Onun mənası bu da ola bilər. O həzrət “işlərinizdə nizam-intizamlı olmağı” deyil, “işinizdə nizam-intizamlı olmağı” buyurur. Yəni nizam-intizama salınmalı olan şey çox deyil, bir dənədir. Buradan belə nəticəyə gəlmək olur ki, o bütün insanların ortaq olduğu bir işdir. Məncə, “işinizdə nizam-intizamlı olmağı” deyəndə İslam quruluşu və hökumətinin bərqərar edilməsi nəzərdə tutulur. İmamın kəlamının mənası budur ki, hökumət məsələsinə nizam-intizamla yanaşın və hərc-mərclik olmasın.

İslam dünyası həmin hərc-mərcliklər, hər kəsin özü üçün bir bazar açması nəticəsində həmin vəziyyətə düşüb.

Əgər Əmirəl-möminin həmin vaxt İslam dünyasının idarəçiliyini öz öhdəsinə götürsəydi və İslam dünyası hamılıqla ona beyət etsəydi, beyətinə sadiq qalsaydı, hərc-mərclik yaranmaz, işlər acı sonluqla bitməzdi. Həzrət Peyğəmbər buyurub: "Əgər kimsə rəhbər olsa, camaat onu qəbul etsə və o, Allahın razı qaldığı şəxs olsa, heç kəsin ona qarşı çıxmaq haqqı yoxdur". Əgər həzrət Peyğəmbərin bu kəlamına əməl edilsəydi, həmin müharibələr baş verməzdi; nə Cəməl müharibəsi baş verərdi, nə Siffeyn müharibəsi, nə də Nəhrəvan müharibəsi. Əmirəl-möminin vəsiyyətnaməsinin bu cümləsində bizi o böyük bədbəxtlikdən – bəzilərinin insanlarda süstlük və səbatsızlıq yaratmasından, birinin bu, digərinin o tərəfə çəkməsindən, hökumətin nizam-intizamını və ölkənin asayişini pozmasından – çəkindirərək buyurur: "İşinizdə nizam-intizamlı olmağı və aranızdakı münasibətləri düzəltməyi".

Vəsiyyətin ikinci hissəsində qeyd edilən üçüncü prinsip qarşılıqlı münasibətlərin düzəldilməsidir. "Aranızdakı münasibətləri düzəldin"; bir-birinizlə yaxşı davranın, münasibətləriniz səmimi olsun; bir olun, aranızda ziddiyyət və parçalanma olmasın. Əmirəl-möminin bunun ardınca həzrət Peyğəmbərin kəlamından sitat gətirərək buyurur: "Mən cəddinizin belə buyurduğunu eşitmişəm: "İnsanların arasındakı münasibətlərin düzəldilməsi hər namaz və orucdan üstündür". Gördüyünüz kimi, o həzrət "bütün namaz və oruclardan üstündür" deyil, "hər namaz və orucdan üstündür" buyurur. Siz öz namaz və orucunuzun arxasınca getmək istəyirsiniz. Amma onların ikisindən də üstün bir əməl var. Həmin əməl nədir? O, insanların arasını düzəltməkdir. Əgər nə vaxtsa İslam

ümmətinin arasında ixtilaf və parçalanma yarandığını görsəniz, həmin boşluğu doldurmağa çalışın. Bunun fəziləti namaz və orucdan çoxdur.

## Yetimlərə nəvaziş göstərməyin əhəmiyyəti

Bu bir neçə cümlədən sonra o həzrət qısa, dolğun və təsirli ifadələrlə buyurur: "Yetimlər barədə Allahdan qorxun, Allahdan qorxun". Hədisin ərəbcə orijinalında "Allah, Allah" ifadəsi işlədilib. Onu başqa dilə tərcümə etmək istəsək, belə deməliyik: "Yetimlər barəsində sən bil, Allahın bilsin!" Yəni bacardığınız qədər yetimlərin qayğısına qalın, onları unutmayın. Görün insan ruhiyyəsindən xəbərdar olan bu canıyanan Allah adamı necə xırda nüanslara diqqət edir. Bəli, yetimlərin qayğısına qalmaq adi şəxsi və emosional acıma deyil. Uşaq atasını, həyatının ən mühüm ehtiyaclarından birini itirib. O, ataya olan ehtiyacdır. Siz bunu tam mümkün olmasa da, müəyyən formada aradan qaldırmağa çalışmalısınız. Amma diqqətli olun, elə edin ki, atasını itirmiş gənc, yeniyetmə və uşağın qəlbi sınmasın. "Yetimlər barədə Allahdan qorxun, Allahdan qorxun. Məbada onları ac saxlayasınız". Onları gah ac, gah tox saxlamayın. Hədisin ərəbcə orijinalındakı "la təğğəbu" ifadəsinin mənası onların dolanışığını təmin etmək, qayğılarına qalmaqdır. "Məbada onlar sizin hüzurunuzda laqeydliklə üzləşsinlər". Sizin onların yanında olmamağınız və xəbərinizin olmaması başqa, amma məbada onların yanında olasınız və hansısa yetim etinasızlıq və laqeydliyə məruz qalsın. Hərənin öz işinin ardınca gedərək yetim uşağın tək qalması yolverilməzdir.

## Qonşuların hüquqlarına riayət etmək barəsindəki tövsiyə

Sonrakı cümlədə buyurur: "Qonşular barədə Allahdan qorxun, Allahdan qorxun!" Qonşuluq məsələsinə əhəmiyyətsiz yanaşmayın. Bu, çox mühüm məsələdir, böyük ictimai əlaqədir. İslam bu məsələyə çox əhəmiyyət verir. O, insanların fitrəti ilə də düz gəlir. Sadəcə bu dəyərlər insan fitrətindən uzaq münasibətlərin içində itib-batıb. Bir də görürsən kimsə neçə il bir evdə yaşayır, amma qonşuluğunda kimlərin yaşadığını, onların necə yaşadıqlarını bilmir. Belə olan halda bəla və çətinliklər zamanı insanların ehtiyacını kim ödəməli, zəruri hallarda onların köməyinə kim tələsməlidir?

Gərək qonşularınızın vəziyyətini nəzərə alasınız. Bu, məsələnin təkcə maddi tərəfinə aid deyil. Əlbəttə, məsələnin maddi tərəfi də mühümdür, amma ümumilikdə bütün insani cəhətlər nəzərə alınmalıdır. Əgər bu məsələlərə riayət edilsə, cəmiyyətdə mehribanlıq yaranmasının, əlacsız dərdlərə dərman tapılmasının şahidi olarsınız! "Bu, Peyğəmbərinizin vəsiyyətidir. Peyğəmbər qonşuları o qədər çox tapşırırdı ki, biz onlara miras payının təyin ediləcəyini güman edirdik".

## Quranın başa düşülməsi

"Quran barədə Allahdan qorxun, Allahdan qorxun! Məbada başqaları ona əməl etməkdə sizdən qabağa keçsinlər!" Məbada başqaları etiqad bəsləmədikləri Qurana əməl etsinlər, qabağa düşsünlər, amma ona etiqad bəsləyən sizlər ona əməl etməyəsiniz və geri qalasınız. İş orasıdır

ki, bu iş artıq baş verib! Dünyada hər hansı bir inkişafa nail olanlar ona fəsad, şərab içmək, zülm etməklə deyil, çalışmaqla, əzmkarlıqla, işləri düzgün yerinə yetirməklə, Allahın bəyəndiyi sifətlərə yiyələnməklə nail olublar.

Mən dəfələrlə demişəm, əgər dünyada elmin inkişafına səbəb olan bu qərb ölkələrində bəzi yaxşı və bəyənilən xüsusiyyətlər olmasaydı, həmin inkişafa nail ola bilməzdilər və başqalarına etdikləri zülmlər onları məhv edərdi. Amma biz həmin xüsusiyyətləri tərk etmişik. Onlar işin üstünə düşür, vaxtlarının qədrini bilir, istehsal etdikləri məhsula əhəmiyyət verirlər. Əgər bizim fəhlə, şagird, müəllim, ruhani, tacir, əkinçi və digər təbəqədən olan vətəndaşlarımız müsbət xüsusiyyətlərə yiyələnsələr, ölkə başdan-ayağa cənnətə çevrilər. Buna görə də yaxşı və müsbət xüsusiyyətlərə üz tutmalıyıq. O, Qurana əməl etməkdən ibarətdir. "Məbada başqaları Qurana əməl etməkdə sizdən qabağa keçsinlər!" Əmirəl-möminin kiminsə Qurana əməl etməsinə qarşı deyil. Əgər bütün dünya Qurana əməl etsə, bu, o həzrəti daha çox sevindirər. Sadəcə burada demək istədiyi budur ki, məbada Qurana etiqadı olmayanlar onun ayələrinin mənasına əməl etsinlər və sonra sizə hakim olsunlar, qabağa düşsünlər, amma siz geri qalasınız. "Namaz barədə Allahdan qorxun, Allahdan qorxun! Həqiqətən, o sizin dininizin sütunudur. Allahın evi barədə Allahdan qorxun, Allahdan qorxun! Onu boş qoymayın. Əgər o boş qoyulsa, sizə möhlət verilməz". Yaxud əgər onu boş qoysanız, yaşaya bilməzsiniz. Bu ifadə müxtəlif cür tərcümə edilib.

## Mal, can və dil ilə Allah yolunda cihad etmək tövsiyəsi

“Cihad barədə Allahdan qorxun, Allahdan qorxun! Məbada Allah yolunda mal, can və dilinizlə cihad etməyi tərk edəsiniz”. İslam ümməti nə qədər ki, bu cihadı edirdi, dünyanın nümunəvi ümməti idi. Amma onu tərk edəndən sonra xar oldu. Xaçpərəstlər İncildə həzrət İsadan belə deməsini nəql ediblər: “Əgər kimsə bir üzünə şillə vursa, üzünün o biri tərəfini qabağa ver”. Yəni biz əsla müharibə tərəfdarı deyilik, birmənalı şəkildə sülh, barışıq və mehribanlıq əhliyik. Bu, onların şüarıdır və onlar bunu bu gün də təkrar edirlər. Onlar özlərini yenə yerə vurmur, “siz cihad və müharibə, qılınc və qan tökmək tərəfdarısınız” deyib müsəlmanları tənqid edirlər. Onlar bunu təkrar-təkrar o qədər dedilər ki, müsəlmanlar da utanıb geri çəkildilər, müsəlman alimlər: “Bizdə cihad yoxdur, əslində, bizdə olan cihad müdafiə xarakteri daşıyır” dedilər. Allah-taala: “Cihad et!” – buyurur, müsəlman alim: “Cihad müdafiədir” – deyir. Allah-taala buyurur: *“Döyüş meydanında bir yerə toplaşmış kafirlərlə qarşılaşsanız, onlara arxa çevirməyin!”*[1] *“Yaxınlığınızda olan kafirlərlə vuruşun!”*[2] Müsəlman alim deyir ki, Allah yolundakı cihad, əslində, cihad və hücum yox, müdafiə xarakterlidir. Bunların hamısı xaçpərəstlərin təbliğatının nəticəsidir. Onlar o qədər sülh və barışıqdan danışıblar və “müharibə və qılınc çəkmək pis işdir, heç kəsə hücum etməyin!” deyiblər ki, cihad edən və izzət sahibi olan müsəlmanları cihaddan ayırıb xanənişin ediblər. Sonra da həmin dırnaqarası

1. Ənfal, 15
2. Tövbə, 123

sülh tərəfdarları hər yerdə müsəlmanların gününü qara ediblər. Bu gün Bosniya və Herseqovinada, həmçinin işğal olunmuş Fələstin ərazilərindəki həzrət İbrahimin türbəsinin yanında, əl-Xəlil məscidində müsəlmanları qətlə yetirənlər ABŞ və Avropadan gələnlərdir. Həmin avropalılar, amerikalılar, qərblilər bir ömür "siz cihad tərəfdarısınız, cihad pis şeydir" deyib müsəlmanları tənqid ediblər, amma digər tərəfdən səlib müharibələrindən bəri xaçpərəstlər bir cür, o birilər bir başqa cür əllərindən gələn qədər müsəlmanlarla mübarizə aparıblar, müharibə ediblər, onları qətlə yetiriblər.

Əlbəttə, bura o mövzunun yeri deyil. Qısası, bu da çox maraqlı məsələdir. Tarix oxuyan və tarixdən xəbəri olanlar bu hadisələrdən danışanda həm zülmlərə, həm də riyakarlıqlara görə qan ağlayırlar. Bir tərəfdən sülhdən dəm vurub, digər tərəfdən paltarın altında bu qədər qılınc və xəncər gizlətmək olar?!

İslamın buyurduğu çərçivədə olan cihad zülm deyil. Cihadda insanların hüquqları pozulmamalı, o-bu hansısa bəhanə ilə öldürülməməlidir. Cihadda "bütün qeyri-müsəlmanlar öldürülməlidir" deyə bir şey yoxdur. Cihad çox əzəmətli ilahi hökmlərdəndir. Əgər cihad olsa, xalqlar başıuca və izzət sahibi olar.

Daha sonra buyurur: "Bir-birinizlə əlaqədə olun, bir-birinizə kömək edin. Bir-birinizə arxa çevirməyin, əlaqələrinizi kəsməyin. Yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirməyi əsla tərk etməyin. Əgər onu tərk etsəniz, pisləriniz sizə hakim olar". Əgər yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirməsəniz, pisləriniz iş başına keçər, idarəçilik işlərini öz əllərinə alarlar. Əgər insanlar pisləri və pislikləri qınamağa adət etməsələr, pislər iş başına

keçər, işlərin idarəçiliyini öz əllərinə alarlar. "Sonra siz (yaxşılar) dua edərsiniz" Allahdan onların şərini sizdən uzaqlaşdırmasını istəyərsiniz, "amma duanız qəbul olmaz".

Bu, Əmirəl-mömininin vəsiyyəti idi. Onda təxminən iyirmi mühüm mövzuya toxunulub. O həzrət sonra daha mühüm və həssas məsələyə toxunub. Həmin mühüm məsələ nədir? O, qisas və intiqam məsələsidir. O həzrət buyurur: "Ey Əbdülmüttəlib oğulları!" Ey mənim qanımın intiqamını almaq haqqı olan qohumlarım! "Sizi "Əmirəl-möminin öldürüldü, Əmirəl-möminin öldürüldü" deyib bu bəhanə ilə müsəlmanların qanlarına batmış halda görmək istəmirəm". Məbada məndən sonra bir-birinizin canına düşə, keçmişdə haqq-hesabınız olan şəxsləri də məsələyə qata və onlardan intiqam almaq istəyəsiniz. "Bilin! Mənim əvəzimə ancaq qatilim öldürülməlidir. Baxın, əgər mən onun bu zərbəsi nəticəsində ölsəm, onun əvəzində ona bir zərbə vurun. Onu şaqqalamayın".

Əmirəl-möminin qorxurdu ki, qohumları alçaq İbn Mülcəmin üstünə tökülüb onu parça-parça edər. Buna görə də bu ilahi şəxsiyyət insanların o həzrətin düşməninin üstünə hücum çəkməsindən, intiqam almaq üçün onu parça-parça etməsindən ehtiyat edirdi. Bu səbəbdən belə buyurur: "Onu şaqqalamayın. Çünki mən həzrət Peyğəmbərin belə buyurduğunu eşitmişəm: "Hər hansı bir canlını, hətta quduz it olsa belə, şaqqalamaqdan çəkinin".

Bu, Əmirəl-mömininin son vəsiyyəti idi. Bu vəsiyyət bizə ünvanlanıb. Buna görə də ona əməl etməliyik.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*4.III.1994*

# Fitr bayramı mükafat günüdür

Bərəkətli fitr bayramı münasibəti ilə həm namazda iştirak edən siz əziz qardaş və bacıları, həm böyük İran xalqını, həm də bütün dünya müsəlmanlarını təbrik edirəm. Fitr bayramı əzəmətli gün və gecələrdən sonra gələn böyük bir gündür. Həzrət Əli fitr bayramı gününün xütbələrinin birində belə buyurub: “Ey insanlar! Bu gün yaxşı əməl sahiblərinin Allah-taaladan mükafatlarını (oruc, ramazan ibadəti, nəfsi istəkləri cilovlamağın mükafatını) aldıqları, puç və batil iş görənlərin ziyana uğradığı gündür”. Nalayiq işlər görən şəxslər bu gün öz pis əməllərinin zərərli nəticəsini görəcəklər. Bu gün qarşılıq verilən gündür. “Bu gün Qiyamətə bənzəyir. Evinizdən çıxıb fitr namazını qıldığınız yerə doğru hərəkət edəndə Qiyamətdə qəbirlərinizdən Rəbbinizə (böyük Məhşər səhnəsinə, ilahi mükafat və cəzanın verildiyi yerə) doğru hərəkət edəcəyiniz vaxtı yada salın. Namaz qılınan yerdə dayanmaqla yadınıza Qiyamətdə (haqq-hesab üçün) Rəbbinizin hüzurunda dayanacağınızı salın. Namaz qılınan yerdən

evinizə qayıtmağınızla yadınıza (Qiyamətdə) Cənnətdəki evinizə qayıtmağınızı salın".

O həzrət daha sonra buyurur: "Ey Allahın bəndələri! Allahın oruc tutan kişi və qadınlara verəcəyi ən kiçik mükafat ramazan ayının son günü bir mələyin onlara xitab edərək belə deməsidir: "Ey Allah bəndələri, müjdə olsun sizə! Sizin keçmiş günahlarınız bağışlandı".

Ramazan ayının mükafatı budur. Ramazan ayının son dəqiqələrində düzgün tutulmuş oruca, yaxşı və saf niyyətlə yerinə yetirilən ibadətə belə mükafat verilir: "Sizin keçmiş günahlarınız bağışlandı". Keçmiş günahların bağışlanması kiçik mükafat deyil. "Baxın görün bundan sonra yeni günə necə başlayacaqsınız". Məbada günah edib növbəti ramazanda bağışlanacağınızı güman edəsiniz! Heç kəs gələn ramazana kimi sağ qalıb-qalmayacağını bilmir. Keçən il bu bayram namazında, bu ibadətgahda bəzi adamlar var idi, amma bu il yoxdurlar. Gələn il də bizdən kimin qalıb kimin qalmayacağı məlum deyil. Bundan əlavə, bilərəkdən edilən günah insanın qəlbini qaraldır. Bundan sonra həmin şəxs asanlıqla ixlaslı ibadət edə bilmədiyi üçün günahı da bağışlanmır. Gəlin hamımız çalışıb günahlardan çəkinək, yaxşı işlər görək. İnsanı xoşbəxt edən xüsusiyyət budur.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*13.III.1994*

# İmam Səccadın duadakı istəkləri

Bu gün fitr namazı münasibəti ilə həzrət Əlinin xütbəsindən nəql etdiyimiz nurani kəlamların ardınca qısa da olsa, bir əxlaqi məsələyə toxunmaq istəyirəm. Həmin məsələ budur: “Səhifeyi-Səccadiyyə”nin dualarının birində – sübhün nafiləsi ilə vacib namazı arasında oxunan duanın sonunda – İmam Səccadın belə buyurması nəql edlib: “İlahi, mənə kamil ağıl, güclü iradə, saf batin, təmiz qəlb, çoxlu elm və gözəl ədəb bəxş et!” Mən burada “saf batin” ifadəsi üzərində dayanmaq istəyirəm.

İmamın üçüncü istəyi “saf batin” dir. Yəni mənə elə saf batin ver ki, işimin batini onun zahirindən yaxşı olsun. İmam Səccadın Allahdan istəyinə diqqət edin...

İnsanlar iki cürdür: bəzi insanların hər şeyi zahirindədir, zahirləri cazibədar, gözəgəlimli, möhtərəm və təvazökar görünür, amma batinləri çürük və boşdur, onda heç nə yoxdur. Bu, böyük işlər görmək istəyən insanların ən pisidir və bu xüsusiyyətdən Allaha sığınırıq. Amma bəzi insanlar

da var ki, batinləri zahirlərindən daha yaxşıdır, zahirləri necədirsə, batinləri ondan daha yaxşı, daha cazibədardır. İmam Səccad bizə öyrədir ki, Allahdan bizə ikinci dəstəyə aid insanlardan olmaq şərəfi nəsib etməsini istəyək.

Dualar təkcə Allahdan istəməkdən ibarət deyil, həm də bizim üçün dərsdir. Riyakarlıq birinci dəstəyə mənsub insanların xüsusiyyətidir. Həmin şəxslər nə müharibədə dərdə dəyirlər, nə çətinlik zamanı işə yarayırlar, nə də ağır yükü çiyinlərinə götürürlər, nələri varsa, zahirdədir. Amma İslam tərbiyəsi başqa cürdür. İslam tərbiyəsinə əsasən, zahirini qorumalısan, amma batinin zahirindən də yaxşı olmalıdır. Heç kəs "zahir nə cür olur olsun, əsas batindir" deməsin. Bəli, əsas batindir, amma zahir də batinin güzgüsü olmalıdır. "Zahir batinin güzgüsüdür". Zahiri də düzəltmək lazımdır. Heç kəs zahirdə əyri iş görməməlidir. Hər hansı bir şəxsin əməl və simasında Allaha ibadət nişanələrinin görünməsi çox gözəl təsirə malikdir. Amma bununla yanaşı, batin zahirdən daha yaxşı və ağır olmalıdır.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*13.III.1994*

# Ramazan ayının dəyəri

Allah-taala Öz kitabında buyurur: *“(Oruc tutmaq üçün nəzərdə tutulan bir neçə gün) ramazan ayıdır. O, Quranın insanları doğru yola yönəldən, hidayət nişanələri və haqqı batildən ayıran olaraq nazil edildiyi aydır”.*[1]

Namazda iştirak edən bütün qardaş və bacıları bu gün və bu aydan azuqə götürməyə dəvət edirəm. Həqiqətən, əgər biz bu bərəkətli gün, gecə və dəqiqələrə gözüaçıqlıqla baxsaq, onların bizim səadət, mənəviyyat, gələcək və dünyamıza nə qədər müsbət təsir göstərdiyini dərk edərik. Çünki hər şeyin sahib və yaradanı bu gün və saatlara şərafət və dəyər bəxş edib; Öz izin və hidayəti ilə bizi bu saat, gün və gecələrdən bəhrələndirməyə yönəldib.

Bu bərəkətli saatların ən yaxşı azuqəsi Allah-taala ilə ünsiyyətdə olmaq, Ona üz tutmaq, Ona bağlanmaq, Ondan istəmək, Onunla danışmaqdır. Bu günlərdə və bu ayda Allahdan istədiyiniz ən əziz şey təqva olmalıdır. “İlahi, məni təqva ilə xoşbəxt et, Sənə qarşı itaətsizliklə



1. Bəqərə, 185

bədbəxt etmə!”[1] Xoşbəxtlik də, dünya da, axirət də, zəfər və qələbə də, bütün işlərin açarı və ilahi yardım da təqvada və günahlardan çəkinməkdədir. Buna görə də Allahdan bizə təqvalı qəlb nəsib etməsini diləyək. Yəni qəlbimizin nəfsi istəklərə meyil göstərməsi, dünyəvi, maddi, şəxsi və mənasız maraqların bizi özünə tərəf cəlb etməsi əvəzinə, Allahın istəyinə tərəf cəlb edilək, bizi Allah sevgisi özünə tərəf çəksin və bu bizim bütün işlərimizə işıq saçsın.

## Ramazan ayı İmam Səccadın gözündə

“Səhifeyi-Səccadiyyə” kitabının 44-cü duası ramazan ayı barəsindədir. Mən həmin duanın bəzi cümlələrini seçmişəm və inşallah, onları sizə oxuyub tərcümə etmək istəyirəm. Amma ondan qabaq siz əzizlərdən, xüsusilə gənclərdən xahiş edirəm, “Səhifeyi-Səccadiyyə” ilə ünsiyyətdə olun. Çünki zahirdə duadan ibarət olan bu kitabda hər şey var. İmam Səccad “Səhifeyi-Səccadiyyə”nin digər duaları kimi bu duada da Allahla raz-niyaz etməsinə baxmayaraq, sanki diskursiv metoddan, məsələnin dəlillə, nəticənin səbəbə əsaslandırılması metodundan istifadə edib. Mən oxuduğum qədəri “Səhifeyi-Səccadiyyə”nin dualarının çoxu belədir. Hər şey müəyyən qayda və sistemə əsaslanır. Sanki kimsə birinin qarşısında oturub və ona məntiqi dəlillər gətirir. “Səhifeyi-Səccadiyyə”də olan aşiqanə nalələr də bu cürdür.

Bu mənim haqqında danışmaq istədiyim cümlələrdə də elədir. İmam sözügedən duanın əvvəlində belə buyurur: “Həmd bizə onu nəsib edən Allaha məxsusdur”.[2] Biz

1. Məfatihul-cinan, İmam Hüseynin “Ərəfə” duasından
2. Səhifeyi-Səccadiyyə, səh. 186

Allahın nemətlərindən qafil deyilik, ona həmd və şükür edirik. O bizim qarşımızda bizi Ona həmd etməyə qovuşduran qapılar açıb, bir sıra məqsəd və yollar müəyyənləşdirərək bizi həmin yollarla getməyə sövq edib.

## Ramazan – Allah ayı

İmam Səccad sonra gəlib bu cümləyə çatır: "Həmd Özünün ramazan ayını həmin yollardan biri edən Allaha məxsusdur". Həmd bizi Ona, kamala, Onun əzəmət diyarına çatdıran yollardan birini ramazan ayı edən Allaha məxsusdur. İmam burada "Öz ayı" ifadəsindən istifadə edib. Allah Öz ayını həmin yolların biri edib. Bu, çox mənalı ifadədir. Bütün varlıq aləminin sahibinin varlıqların bir hissəsini xüsusi şəkildə ayırıb Özünə nisbət verməsindən belə məlum olur ki, O, həmin hissəyə xüsusi diqqət yetirir. Həmin hissələrdən biri "Allah ayı"dır. Ramazan ayının fəzilətini başa düşmək üçün bu mənsubiyyətə diqqət etmək kifayətdir. "Ramazan ayı, oruc ayı, İslam ayı". Bu ay oruc ayıdır. Onun orucu nəfsin təmizlənməsində böyük rol oynayır. Çünki onda insan aclıq çəkir, nəfsi istəkləri ilə mübarizə aparır.

## Ramazan – İslam ayı

"İslam ayı" ifadəsinin mənası Allah qarşısında təslim olmaqdır. Gənc insan oruc tutanda acır, susayır, bütün hissləri onu nəfsi istəklərinə tərəf sövq edir. Amma o bu hisslərin hamısına qarşı müqavimət göstərir. Niyə? Allahın əmrini yerinə yetirmək üçün! Bu, Allah qarşısında təslim

olmaqdır. Ümumilikdə heç bir müsəlman ilin heç bir başqa günündə Allah qarşısında ramazan ayının günlərindəki qədər təslim olmur. Deməli, "İslam ayı" deyəndə təslim olmaq ayı nəzərdə tutulur.

## Ramazan – paklayıcı ay

İmam duanın davamında buyurur: "Paklayıcı ay". Bu ayda bizim ruhumuzu paklayan amillər mövcuddur. Həmin amillər hansılardır? Onların biri orucdur, biri Quran oxumaqdır, biri dua və raz-niyaz etməkdir. Bu ayda oxumaq üçün çoxsaylı dualar var. Onlar Allah-taalanın bu bir aylıq ziyafətdə Öz ziyafət süfrəsindən götürüb insanların qarşısına qoyduğu təmiz ruzilərdir. İmamın sözünün mənası budur ki, Allah-taala bu ziyafətdə sizə oruc ilə qulluq edir.

Oruc ilahi süfrələrdəndir. Quran da bu böyük ziyafətin ilahi süfrələrindən biri sayılır. Bu süfrələrdən hər nə qədər çox bəhrələnsəniz, mənəvi təməliniz güclənər, kamillik yolunda ağır yükləri rahatlıqla daşımaq imkanı əldə edərsiniz. Bundan sonra xoşbəxtlik sizə daha da yaxınlaşar.

## Ramazan – saflaşma ayı

Daha sonra buyurur: "Saflaşma ayı". Bu ay saflaşma ayıdır. Buna görə də biz gərək bu ayda saflaşaq, arınaq.

Əzizlərim, sizin vücudunuzda çox dəyərli qızıl var. Amma, təəssüf ki, bir çox hallarda bu qızıla torpaq, mis və başqa dəyərsiz maddələr qatışır. Sizin içinizdə toz-torpaq aşqarlı xəzinə var. Bütün Allah elçiləri bizim vücudumuzda olan bu qızılı, bu qiymətli maddəni xalisləşdirməyimiz,

saflaşdırmağımız və butadan təmiz çıxarmağımız üçün gəlib. Dünyada sınaq və çətinliklər buna görədir; Allah-taalanın insanların boynuna çətin vəzifələr qoyması bu məqsədlədir; Allah yolunda çalışmaq, cihad etmək bu məqsədə qulluq edir. Allah yolunda şəhid olmuş şəxsin bu qədər dəyərə malik olmasının səbəbi onun bu böyük çalışqanlığı, canını qurban vermək və fədakarlıq göstərməklə özünü xalisləşdirə bilməsidir. Bu, qızılın xalisləşməsinə butadan təmiz çıxmasına bənzəyir.

Bu ay saflaşmaq ayıdır. Əgər biz diqqət etsək, bu ayda gerçəkləşən xalisləşmənin digər vaxtlardan asan olduğunu görərik. Biz oruc tutmaqla, nəfslə mübarizə aparmaqla özümüzü xalisləşdirə, saflaşdıra bilərik. Azmaların çoxunun səbəbi ya etdiyimiz günahlar, ya da vücudumuzda yatan çirkin xüsusiyyətlərdir. *"Sonra çirkin işlərə bulaşanlar elə bir həddə çatdılar ki, Allahın ayələrini yalan sayıb onları lağa qoydular".*[1] Günahın sonu azğınlıqdır. Əlbəttə, tövbə nurunun insanın qəlbinə işıq saçması istisnadır. Bizə daim: "Bir günah edən kimi dərhal tövbə edin, günahın təkrar edilməsindən peşman olun və bir daha günah etməmək qərarına gəlin" – deyilməsinin səbəbi budur ki, günah bataqlığında batmaq təhlükəli işdir və insan bəzən geri dönüşü olmayan yerə çatır.

Sapmanın bir səbəbi günah, başqa bir səbəbi xoşagəlməz xüsusiyyətlərdir. Çirkin xüsusiyyətlər insanın azmasına mövcud günahlardan daha çox təsir göstərir. Əgər biz gördüyümüz bütün işlərdə, danışdığımız bütün sözlərdə, irəli sürdüyümüz bütün fikirlərdə eqoist və xudpəsənd olsaq, bir-birimizi səhv çıxarmağa çalışsaq, yalnız özümüzün düz başa düşdüyümüzü, düz iş gördüyümüzü desək, heç

1. Rum, 10

bir məsləhət, dəlil və məntiqlə razılaşmasaq, heç bir haqq sözə qulaq asmasaq, əgər paxıllıq vücudumuzda kök salsa və bunun nəticəsində yaxşını pis görsək, hər hansı bir yerdə açıq-aydın həqiqəti təsdiqləməkdən imtina etsək, əgər vəzifə və pul sevgisi bizim həqiqəti qəbul etməyimizə mane olsa, deməli, təhlükəli və azdırıcı sifətlərə düçar olmuşuq.

Dünyada gördüyünüz azğınların çoxu bu yolla azıb. Yoxsa ki, "hamı dünyaya (pak) fitrətlə gəlir".[1] Bütün ruhlar pakdır, hamının vicdanı haqqı görür. Amma bəziləri sonradan bu nurlu və aydın çeşməni nəfsi istək və çirkin xüsusiyyətlərlə – onların bəzisi genetik olur, bəzisi sonradan qazanılır – bulandırır.

## İnsanın azmasının səbəbi: tərslik!

Müasir bəşəri elmin qollarından sayılan əxlaq elmi alimlərinin – düzdür, bizim üçün əməli əxlaq daha dəyərlidir, amma hər halda bəziləri əxlaq elminin mütəxəssisi sayılırlar – nəzərincə, hətta bizlər genetik xüsusiyyətləri dəyişdirmək iqtidarındayıq. Məsələn, zati tənbəllik, hərislik, simiclik, paxıllıq və tərslik kimi xüsusiyyətləri dəyişdirmək mümkündür. Bəzi şəxslər tərsdirlər və insan onlara həqiqəti hər nə qədər dəlil-sübutla təqdim etsə də, inadkarlıq göstərir, onu israrla inkar edirlər. Bu, insanın həqiqətdən uzaq düşməsinə səbəb olur. İnadkar şəxs tərsliyinin əvvəlində həqiqət nurunu az da olsa görür, hiss edir və bilir ki, bu işi tərslikdən doğur. Amma o, tərsliyini davam etdirəndən sonra həmin azacıq həqiqət nurunu da dərk etmir. Onun batinində yalançı etiqad və əqidə yaranır, əgər o özünə gəlib dərindən

1. Kafi, c. 2, səh. 13

düşünsə, zehnində olan şeyin əqidə olmadığını, qəlb və ruhunun dərinliyindən gəlmədiyini görər. Amma tərslik onun həqiqət və mənəviyyat nidasını can-dildən eşitməsinə mane olur...

## Ramazan keçmiş nöqsanların aradan qaldırılması ayıdır

Ramazan ayı elə bir aydır ki, onda Allahı yada salmaq və diqqəti Ona yönəltməklə keçmişdə yol verilmiş nöqsanları aradan qaldırmaq olar. "Əbu Həmzə" duasında çox təsirli sözlər var. Onlardan birində dua edən şəxs Allaha belə deyir: "Allahım, mən Sənə ümid bəsləməyi Səndən başqasına ümid bəsləməkdən üstün tutdum, başqalarına sığınmağı Sənə sığınmaqla əvəz etdim. Bilirəm ki, Sənə tərəf gəlmək istəyən üçün yol yaxındır..."[1]

Harada olmağınızdan, kimliyinizdən, hansı libas və yaşda olmağınızdan, gənc, oğlan, qız, ortayaşlı və ya qoca, kişi və ya qadın, yoxsul, varlı, alim, orta təhsilli və sairə olmağınızdan asılı olmayaraq, əgər Allaha ehtiyac hiss edirsinizsə – təbii ki, hər bir sağlam insanda belə bir hiss var – bilin, Allah çox yaxındır. Qəlbinizi bir anlıq Allaha yönəldin, dərhal cavab eşidəcəksiniz. Kiminsə qəlbən Allahla danışması, amma Allahdan cavab gəlməməsi mümkün deyil. Allah bizə cavab verir. Əgər qəfildən qəlbinizin dəyişdiyini hiss etsəniz, bilin ki, o, Allahın cavabıdır. Gözünüzdən yaş gəldiyini, ruhunuzun riqqətə gəldiyini, bütün vücudunuzla ehtiyac hiss etdiyinizi görsəniz, bilin ki, bu, Allahın cavabıdır və sonrakı cavab

1. Misbahul-mütəhəccid, c. 2, səh. 583

da, inşallah, istəyin gerçəkləşdirilməsi olacaq. Quran buyurur: *"Allahın lütfündən (mərhəmətindən) istəyin!"*[1] Allahdan istəyin. "İstəməyi əmr etmək, amma istəniləni verməmək Sənin sifətin deyil".[2] İstəyinizi Ona deyin, Ondan istəyin. Onun istənilən şeyi verməməsi mümkün deyil! Əlbəttə, Allahdan istənilən şeyin gerçəkləşməsinə zaman və məkanın tələbləri, şərait və sairə də təsir edir.

Xülasə, ramazan ayının qədrini bilin, öz xoşbəxtliyiniz, təqvalı olmağınız, özünüzün və övladlarınızın gələcəyi, bu böyük xalqın gündən-günə inkişaf etməsi, bu əzəmətli inqilab, bu vəziyyəti öz iradə, iman, təqva və addımı ilə yaradan o böyük şəxsiyyətin ruhunun şad olması üçün – Allah onun ruhunu məhşərə peyğəmbərlər və övliyaların ruhu ilə gətirsin – dua edin.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*3.II.1995*



1. Nisa, 32
2. Misabhul-mütəhəccid, c. 2, səh. 583

# Duanın faydaları və ondan əldə edilən nəticələr

Duanın üç fayda və nəticəsi var. Elə bir dua yoxdur ki, onda bu üç faydanın ikisi olmasın. Bu həm məsumlardan nəql edilmiş dualara, həm də insanın özünün ehtiyac üzündən Allaha etdiyi dualara aiddir. Bu duaların hamısında həmin iki şey var.

Amma bəzi dualarda həmin iki şeydən əlavə üç şey də var. Həmin üç şey çox mühümdür. Onların biri duanın ümumi məqsədindən, yəni Allah-taaladan istəmək və istəyi almaqdan ibarətdir. Biz insanların ehtiyacı çoxdur. Bizim vücudumuz başdan-ayağa ehtiyacdan ibarətdir. Əgər siz öz vücudunuza diqqət etsəniz, görərsiniz ki, nəfəs almaq və yemək yeməkdən tutmuş yol getməyə, qulaq asmağa, görməyə kimi hər şey biz insanların möhtac olmasından xəbər verir. Allah-taala bizim ixtiyarımızda bir sıra imkan və güclər qoyub. Biz onların vasitəsi ilə yaşayırıq və onların hamısı Allahın istək və iradəsinə tabedir. Həmin güc və imkanların hansısa birində nöqsan yaransa, məsələn, əgər

insanın damarlarından biri tutulsa, ya onun sinirlərinin biri işdən düşsə, əzələlərin hansısa birində problem yaransa, insan öz həyatında ciddi problemlə qarşılaşar. İnsanın vücudundan kənar məsələlər, ruhi və ictimai məsələlər də belədir.

İnsan başdan-ayağa ehtiyacdan ibarətdir. Biz bu problemlərin aradan qaldırılmasını, ehtiyacların təmin edilməsini kimdən istəməliyik? Bizim ehtiyaclarımızı bilən Allahdan! *"Allahın lütfündən (mərhəmətindən) istəyin! Allah hər şeyi biləndir"*.[1] Allah sizin nə istədiyinizi, sizə nə lazım olduğunu, Ondan nə dilədiyinizi bilir. Buna görə də Allahdan istəyin. Başqa bir yerdə buyurur: *"Rəbbiniz deyib: "Məni çağırın, Mən sizə cavab verirəm"*.[2] Əlbəttə, bu cavab verməyin mənası istəklərin gerçəkləşdirilməsi deyil. Sadəcə buyurur ki, sizə cavab verirəm. Əlbəttə, Allahın verdiyi bu cavab bir çox hallarda sizin istəyinizin gerçəkləşməsi ilə müşayiət edilir. Beləliklə, birinci məsələ bu oldu ki, insanın bir sıra ehtiyacları var və o həmin ehtiyaclarının aradan qaldırılmasını Allahdan istəməlidir. Allahın qapısına getmək lazımdır ki, başqalarının qarşısında zəlil halda qalmayasan.

Bu gün cümə günüdür. Cümə günü həzrət Peyğəmbərin və imamların kəlamları ilə tanışlıq günüdür. Buna görə də bir neçə qısa hədis oxuyacağıq. Hədislərin birində belə deyilir: "İbadətlərin ən üstünü duadır".[3] Həzrət Peyğəmbərdən nəql edilmiş digər bir hədisdə o həzrətin öz səhabələrinə belə deməsi nəql edilib: "Sizi həm düşməndən qoruyan və onun əlindən xilas edən, həm də ruzinizi artıran silahla

1. Nisa, 32
2. Ğafir, 60
3. Kafi, c. 2, səh. 466

tanış edimmi?”[1] Bu, Allahdan hacətlərin qəbul olunmasını istəməkdir. Səhabələr dedilər: “Bəli, ya Peyğəmbər”. O həzrət buyurdu: “Dua edərək Rəbbinizi çağırın”.[2] “Gecə və gündüz”.[3] “Həqiqətən, möminin silahı duadır”.[4] Yəni hacətlərin arxasınca, eləcə də düşmən, hadisə və bəlalarla mübarizəyə dua silahı ilə getmək lazımdır.

Digər bir hədisdə İmam Səccad belə buyurub: “Dua həm nazil olmuş, həm də hələ nazil olmamış bəlanı dəf edir”.[5] Yəni əgər dua etməsəniz, həmin bəla da sizə üz tutacaq.

Bu, çox mühüm məsələdir. Allah-taala insana öz istəklərini gerçəkləşdirməsi üçün vasitə verib. Əlbəttə, bəsi istisnalar da var və biz onlara işarə edəcəyik. Həmin vasitə nədir? Allah-taaladan istəmək!

## Dua Allahın xəzinələrinin açarıdır

Nəql edilənlərə əsasən, həzrət Əli buyurub: “Allah-taala sənə Ondan istəmək icazəsi verməklə Özünün bütün xəzinələrinin açarını sənin ixtiyarına verib”.[6] Deməli, Allah-taalanın sənə Ondan istədiyin şeyi diləmək icazəsi verməsi Onun bütün xəzinələrinin açarı deməkdir. Əgər insan bu açardan düzgün istifadə etsə – hacətini Allahdan istəsə – şübhəsiz, Allah onu insana verər. “Sən istədiyin vaxt dua vasitəsi ilə Allahın xəzinələrinin qapısını açırsan”. Baxın, bu çox mühüm məsələdir. İnsan nə üçün özünü bu mühüm vasitədən məhrum etməlidir?!

1. Kafi, c. 2, səh. 468
2. Kafi, c. 2, səh. 468
3. Kafi, c. 4, səh. 302
4. Kafi, c. 2, səh. 468
5. Kafi, c. 2, səh. 468
6. Biharul-ənvar, c. 74, səh. 204

Burada qarşıya bir neçə sual çıxır. Birincisi, əgər dua belə bir möcüzəvi təsirə malikdirsə, bəs onda bu dünyəvi vasitələr, avadanlıqlar, elm, texnika nə üçündür? Cavab budur ki, dua maddi vasitələrin alternativi deyil. Yəni "insan, məsələn, səfərə getmək istəyəndə ya avtomobil, qatar və təyyarə ilə, ya da dua ilə getməlidir" – deyə bir şey yoxdur. Yaxud "insan bir şey əldə etmək istəyəndə ya pul xərcləməli, ya da pulu olmasa, duaya əl atmalı və həmin şeyi dua vasitəsi ilə əldə etməlidir" – deyə bir şey də yoxdur. Duanın mənası sizin Allahdan istəməyiniz və Onun həmin vasitələri tədarük görməsidir. Bundan sonra maddi səbəblərin hər biri öz yerini alır. Qəbul edilmiş dua belə olur.

Siz hansısa bir hacətinizin gerçəkləşməsi üçün dua edirsiniz. Allah-taalanın həmin duanı qəbul etməsi həmin istəyin maddi və adi vasitələrinin tədarük görülməsi ilə baş verir. Məsələn, sizin birindən alacağınız var və o sizə olan borcunu qaytarmır. Amma bir də görürsən onun ürəyinə düşür və gətirib sizə olan borcunu qaytarır. Bu, bir vasitədir. Duanın insan üçün bu vasitəni tədarük görməsində nə problem var?

Dünyada olan bütün vasitələr bu cürdür. Buna görə də dua kiminsə tənbəlliyinə, elm, maddi vasitələr, təbii səbəb-nəticə qanunu və sairədən üz döndərməsinə səbəb olmamalıdır. Xeyr, dua onların alternativi deyil, onların sırasında olan bir nəsnədir. Dua onları tədarük görən vasitədir.

Əlbəttə, bu, çox vaxt belə olur. Amma Allah-taala bəzən də möcüzə göstərir ki, bu da ayrı bir mövzudur. Möcüzə xüsusi hallarda baş verir və dua xüsusi yerlərdən başqa yerlərdə işlərin adi qaydada həyata keçməsini təmin edir.

Siz dua edib Allahdan ehtiyacınız olan hansısa bir hadisənin baş verməsini istəyəndə dua ilə bərabər gücünüzdən də istifadə etməlisiniz. Məsələn, əgər siz tənbəllik hiss edir və dua edərək Allah-taaladan sizdən bu xüsusiyyəti almasını istəyirsinizsə, duanın yanında iradənizi də toplamalı, əzmkarlıq göstərməlisiniz. Yəni yenə burada da başqa təbii vasitə var və o, əzmkarlıqdır. Gərək əzmkarlıq göstərə, iradənizi toplayasınız. Heç kəs fikirləşməsin ki, əgər evdə oturub çalışmasa, heç bir addım atmasa, hətta iradəsini işə salmasa, ancaq dua etməklə Allah onun hacətini verəcək. Xeyr, belə şey yoxdur. Deməli, dua çalışmaqla birlikdə olmalıdır. Bəzən göstərilən çoxsaylı səylər nəticə vermir, amma dua edən kimi lazımi nəticə əldə edilir. Bu, bir məsələdir.

## Duanın qəbul edilməsinin şərtləri

Digər bir nüans bəzən insanın etdiyi çoxsaylı duaların qəbul edilməməsi barədədir. Görəsən, bunun səbəbi nədir? Bu məsələyə hədislərdə aydınlıq gətirilib. Məsələn, hədislərdə deyilir ki, əgər duanın lazımi şərtləri mövcud olmasa, o, qəbul edilmir. Hər halda duanın da bir sıra şərtləri var. Dinin böyük şəxsiyyətləri buyurublar ki, Allahdan qeyri-mümkün şeylər istəməyin. Hədislərin birində deyilir ki, bir gün həzrət Peyğəmbərin səhabələrindən biri o həzrətin yanında dua edərək belə deyib: "Allahım, məni yaratdıqlarının heç birinə möhtac etmə!"[1] Həzrət Peyğəmbər buyurub: "Elə demə. İnsanlara ehtiyacı olmayan şəxs yoxdur".[2] Məgər hansısa insanın başqalarına möhtac

1. İqbalul-əmal, c. 1, səh. 160
2. Biharul-ənvar, c. 90, səh. 325

olmaması mümkündür?! “Allahım, məni heç kəsə möhtac etmə!” demə. Çünki bu, insan təbiətinə, Allahın qanununa və Onun insanın vücudunda yaratdığı təbiətə ziddir. Nə üçün “Allahım, məni heç kəsə möhtac etmə!” deyirsən? Bu dua qəbul edilməyəcək. Həmin şəxs dedi: “Ya Peyğəmbər, bəs necə dua edim?” Həzrət Peyğəmbər buyurdu: “De ki, İlahi, məni pis insanlara möhtac etmə!”[1] Bu cür dua etmək düzdür. Bu, mümkün işdir. Allahdan bunu istə. Buna görə də Allahdan qeyri-mümkün və dünyaya hakim qanunlarla ziddiyyət təşkil edən şey istənilsə, qəbul olmaz.

Duanın qəbul olma şərtlərindən biri də onun diqqətlə və fikrin toplanılaraq edilməsidir. Bəzən dua dilucu edilir və şəxs “İlahi, bizi bağışla”, “İlahi, bizə bol ruzi ver”, “İlahi, bizə borcumuzu qaytarmaqda kömək et” kimi duaları dilində deyir. Əgər insan belə 10 il də dua etsə, duası qəbul olmaz. Bunun heç bir faydası yoxdur. Duanın qəbul olma şərtlərindən biri budur. “Bilin! Allah-taala qafil – nə istədiyini və kiminlə danışdığını bilməyən – qəlbin duasını qəbul etməz”.[2] Təbii ki, bu cür dua qəbul olunmaz. Gərək Allaha can-dildən yalvarıb-yaxara, ciddi istəyəsiniz. Hacəti Allahdan israrla istəmək, onu təkrar-təkrar dilə gətirmək lazımdır. Belə olan təqdirdə Allah-taala, şübhəsiz, duaları qəbul edəcək.

Digər bir məsələ budur ki, dua edəndə heç bir hacət böyük sayılmamalı və “bunu Allahdan istəmək olmaz, çünki o, çox böyük istəkdir” deyilməməlidir. Xeyr! Əgər həmin istək təbiət və yaradılış qanunları ilə ziddiyyət təşkil etmirsə, qeyri-mümkün deyilsə, nə qədər böyük olmasının fərqi yoxdur, onu Allahdan istəmək olar. Siz nəql edilmiş

1. əl-Həyat, c. 1, səh. 408
2. Biharul-ənvar, c. 74, səh. 173

hədislərə istinad edərək ramazan ayında hər gün namazdan sonra belə bir dua oxuyursunuz: "İlahi, bütün qəbiristanlıq əhlini şad et; Allahım, bütün yoxsulları zənginləşdir..."[1] Duada hansısa konkret yerin yoxsulları deyil, bütün İslam yoxsulları deyilir. Bu, çox mühümdür. (Mən, inşallah, bu məsələyə yenə qayıdacağam.) Bu, böyük istəkdir. Siz "Allahım, bütün yoxsulları zənginləşdir" deyib dua edəndə onun gerçəkləşməsini Allahdan istəyirsiniz. Allahdan belə bir şeyin istənilməsində nə problem ola bilər?! Əgər zənginləşmə yolundakı maneələr aradan qalxsa, bunu istəmək niyə olmasın ki?! Cəmiyyətdə yoxsulluğun olması zati şey deyil. İnsan cəmiyyətində mövcud olan yoxsulluq sonradan zorla yaradılır. Dünyanın zalım və hegemon qüvvələri fərd və cəmiyyətləri yoxsulluğa düçar edirlər. Əgər həmin güclər yox olsalar, "Allahım, bütün yoxsulları zənginləşdir" duasının qəbul edilməsində nə problem var?! Onda bu dua da gerçəkləşər.

Siz həmin duanın davamında belə deyirsiniz: "Allahım, bütün acların qarnını doydur; Allahım, bütün çılpaqlara libas geyindir".[2] İnsan Allahdan belə böyük hacətlər istəyir. Cümə gününün səhər duasında – bu duanın oxunması müstəhəbdir; o, qısa, amma çox yaxşı duadır və əgər imkan edə bilsəniz, onu, mütləq, oxuyun – Allahdan bir sıra hacətlər istənilir, sonra belə deyilir: "Allahım, ram olmayan arzular və böyük istəklər ümidsizliyə məhkumdur, yalnız Sənə deyilənlərdən başqa!"[3] Bizim istək karvanımız dayanıb, hərəkət etmir, yalnız Sənin qapına gələnlər istisna olmaqla!



1. Müstədrəkul-vəsail, c. 7, səh. 447
2. Müstədrəkul-vəsail, c. 7, səh. 447
3. Misbahul-mütəhəccid, c. 1, səh. 156

Allah insanın böyük istəklərindən qorxmur. Allahdan ürəyiniz istəyən qədər böyük şey istəyin. Məbada kimsə öz-özünə: "Əgər mən bu şeyi özüm üçün istəsəm, gerçəkləşə bilər, amma bütün insanların sağlam olmasını istəmək çox böyük istəkdir; mən bunu Allahdan necə istəyim?" – desin. Xeyr, belə deyil! İstəyin, bütün bəşəriyyət, bütün insanlar üçün istəyin; bəzi şeyləri bütün müsəlmanlar üçün istəyin. Elə sözügedən duanın bir cümləsi də belədir: "Allahım, müsəlmanların işində olan bütün fəsadları düzəlt!"[1] Bu dua müsəlmanlara məxsusdur, xüsusi olaraq müsəlmanlar barəsindədir. Əlbəttə, onun da səbəbləri var. Bəlkə də, səbəb onun qeyri-müsəlmanlar barəsində gerçəkləşməsinin mümkün olmamasıdır. Bəlkə də, İslam hakim olmayınca Allah-taalanın bütün fəsadları aradan qaldırması qeyri-mümkündür. Fəsadların aradan qalxma şərti İslamdır. Bu, məsələnin bir tərəfidir.

Həmçinin istəklərin kiçikliyindən çəkinməyin. Ən kiçik istəklərinizi belə Allahdan diləyin. Hədislərdə deyilir ki, hətta çarığınızın bağını – çox dəyərsiz şey olsa belə – Allahdan istəyin. İmam Baqir buyururb: "Kiçik istəklərə saymazyana baxmayın. Çünki Allahın ən çox sevdiyi mömin Ondan ən çox şey istəyən mömindir".[2] Buna görə də Allahdan istəyin.

(Kimsə deyə bilər ki:) İnsanın ayaqqabı bağına ehtiyacı varsa, o həmin bağı dükana gedib ala bilər. Bunun üçün duaya nə ehtiyac var? Bəli, var! Buna görə də ayaqqabı bağı və ya onun kimi hər hansı kiçik bir şeyə ehtiyac hiss edən kimi qəlbinizi Allaha tərəf yönəldərək belə deyin: "İlahi, onu mənə yetir!" Allah onu adama necə yetirir? Allahın

1. Müstədrəkul-vəsail, c. 7, səh. 447
2. Müstədrəkul-vəsail, c. 5, səh. 172

onu sənə yetirməsi cibə pul qoyub küçənin başına çıxmaq, onu mağazadan almaq və istifadə etməkdir. Hər halda ayaqqabının bağı dükana gedib pul ilə alınsa da, Allahdan istənilməlidir. Çünki hətta həmin halda belə onu sizə Allah verib. İnsana Allahdan başqasının əli ilə heç nə çatmır. Bizə çatan şeylərin hamısını Allah verir.

Allahın verdiyi şeyi əvvəl Allahdan istəmək lazımdır. Niyə? Kiçik şeylərin də Allahdan istənilməsinin tövsiyə edilməsinin səbəbi bizim öz ehtiyac, acizlik, zəiflik və yoxsulluğumuzu dərk etməyimizdir. Əgər Allah kömək etməsə, imkan verməsə, güc verməsə, fikirləşmək qabiliyyəti verməsə, şərait yaratmasa, həmin ayaqqabı bağı da gəlib bizim əlimizə çatmaz. Ola bilər siz ayaqqabı bağı almaq üçün evdən çıxasınız və yolda cibinizi soysunlar, ya pulunuz düşüb itsin, ya getdiyiniz dükan bağlı olsun, ya yolda hansısa mühüm bir hadisə baş versin və siz məcbur qalıb geri dönüb ayaqqabı bağı ala bilməyəsiniz. Buna görə də hər şeyi, hətta ayaqqabı bağını, hətta gündəlik ruzinizi Allahdan istəyin. Gəlin qəlbimizdəki yalançı "mən"i sındıraq. O qədər "mən, mən" deyirik ki, elə bilirik hər şey öz əlimizdədir. Bu "mən, mən"lər insanı bədbəxt edir. Bu, insanın öz istəklərini bəyan etmək vasitəsi olan dua barəsindəki izah idi.

İndi öz istəklərinizə, müsəlmanların istəyinə, ölkənizin ehtiyaclarına, mömin qardaşlarınızın diləklərinə, xəstələrə, xəstəsi olanlara, müharibə veteranlarına, qəmkədəri olanlara, qəlbində qüssəsi olanlara, ağlar gözlərə, ətrafınızda olan insanların çoxsaylı ehtiyaclarına, sizinlə eyni səmanın altında, eyni ölkədə, İslam dünyasında, yer kürəsində olan şəxslərə nəzər salın. Qədr gecələrində bu istək və ehtiyacların hamısını bir-bir Allahdan istəyin.

## Nəql edilmiş dualarda dərin ilahi təlimlər yatır

Duada olan ikinci şey İslam təlimləridir. Bu, məsumlardan nəql edilmiş duaların xarakterik xüsusiyyətidir. İmam Səccad "Səhifeyi-Səccadiyyə"ni dua şəklində tənzimləyib, dua oxuyub. Amma bu kitab İslam maarif və təlimləri ilə doludur. "Səhifeyi-Səccadiyyə"də xalis tövhid, nübuvvət və İslam peyğəmbərinin müqəddəs məqamına sevgi ilə doludur. İmamlardan nəql edilmiş digər dualar kimi bu kitabda da yaradılış barədə təlimlər var. Səhərlər oxunan "Əbu Həmzə Sumali" duası – çalışın onu oxuyun və mənasına diqqət edin – və cümə axşamları oxunan "Kümeyl" duası İslam təlimləri ilə zəngindir. Onlarda həqiqətlər dua dili ilə bəyan edilib. Əlbəttə, İmam Səccadın, əslində, dua etmək fikrində olmadığını və dua pərdəsi altında İslam təlimlərini çatdırmaq niyyətində olduğunu demək olmaz. Xeyr, o həzrət elə dua və minacat edib, Allah-taala ilə danışıb, sadəcə qəlbi Allah və ilahi təlimlərlə tanış olan şəxsin danışığı da belə olur; onun dilindən hikmət tökülür, duası elə hikmət olur.

Bizim oxuduğumuz bu dualar hikmətlə doludur. İmamlardan nəql edilmiş dualarda, həqiqətən, insanın ehtiyacı olan təlimlər var. Onlar dualarda həmin məsələlərə toxunmaqla bizə Allahdan nə istəməyin lazım olduğunu öyrədirlər.

Mən indi "Əbu Həmzə Sumali" duasından bəzi cümlələri oxuyacağam. Əslində, bu dua çox uzundur və fövqəladə minacat üslubuna malikdir. Mən söhbətimin üçüncü hissəsində ona toxunacağam. Bu minacatlarda insanın həqiqi ehtiyaclarına toxunulub. Həqiqi ehtiyaclar o

həzrətin Allah-taaladan istədiyi şeylərdir. Məsələn, duanın bir yerində Allah-taalaya xitab edərək belə buyurur: "İlahi, mənim həyatımı şirinləşdir". Həyatın şirinliyi nə pul ilədir, nə güc ilə, nə də qızıl-gümüşə sahib olmaqla. Çünki ola bilər hər hansı bir şəxs bu imkanların hamısına malik olsun, amma buna baxmayaraq, həyatı şirin olmasın: hansısa bir narahatlıq onun həyatının şirinliyini əlindən alsın. Məsələn, ailə problemi olsun və buna görə həyatı şirin olmasın; övladının problemi olsun, Allah eləməmiş, övladlarının birinin əxlaqi problemi olsun və buna görə həyatı şirin olmasın; ona pis bir xəbər gəlsin və həyatı acı olsun. Onun həm pulu var, həm gücü, həm də imkanı; hər şeyi var, amma həyatı şirin deyil. Ola bilər, sadə həyat yaşayan, güzəranını həyat yoldaşı və övladları ilə yoxsul daxmada keçirən bir kasıbın həyatı hər şeyi olan bu zəngin və güclü şəxsdən şirin olsun.

Görün İmam Səccad diqqəti əsas məsələyə necə yönəldir? Buyurur: "İlahi, həyatımı şirinləşdir, comərdliyimi aşkar et".[1] Zahirən "comərdliyimi aşkar et" ifadəsinin mənası budur ki, mənə kömək et, comərdliyimi gerçəkləşdirmək imkanı əldə edim. Əlbəttə, burda məqsəd comərdliyin camaata göstərilməsi deyil. Comərdliyin gerçəkləşməsi üçün comərdlik etmək lazımdır. Comərdliyin insanın içində olması yetərli deyil. İnsan comərdliyi əməldə həyata keçirməlidir və başqalarına münasibətdə comərd olmalıdır. Bu, "comərdliyin aşkar edilməsi"dir.

Duanın davamında buyurur: "Bütün cəhətlərdən vəziyyətimi düzəlt".[2] Mənim duamın vəziyyətini düzəlt, mənim gündəlik məişət şəraitimi, ailə vəziyyətimi,

1. İqbalul-əmal, c. 1, səh. 74
2. İqbalul-əmal, c. 1, səh. 74

məşğul olduğum iş baxımından vəziyyətimi, bütün xüsusiyyətlərimi düzəlt, islah et. Hər bir işin düzəldilməsi özünə görə kamil duadır. “Məni uzun ömür, gözəl əməl və kamil nemət verdiyin, razı qaldığın və gözəl həyat nəsib etdiyin kəslərdən et!”[1] Bundan gözəl şey ola bilərmi?!

Məsumlar bizə Allahdan nə istəməli olduğumuzu öyrədirlər. Allahdan istənilməli şeylər bunlardır. Onlar dualarında bu məsələləri irəli sürüblər. Bəziləri dünyada artıq şeylərin ardınca gedirlər. Məsələn, filan ticarətin baş tutmasını, filan səfərin gerçəkləşməsini, filan peşəyə yiyələnməyi və sairəni istəyirlər. Axı insan nə üçün Allahdan əsas şeyləri istəməməlidir?! Dinin rəhbərləri bizə belə dua etməyi, Allahdan bu şeyləri istəməyi öyrədiblər. Əlbəttə, onların bizə öyrətdiyi duaların növü barədə danışmaq geniş bir bəhsdir.

## İnsanın əməllərindəki zəif nöqtələr

Digər cəhətdən məsumlar qeyd edilən dualarda bizə zəif mənəvi nöqtələri xatırladır və bizim həmin nöqtələrdən zərbəyə məruz qalmaq ehtimalımızın olması barədə xəbərdarlıq edirlər. İmam “Əbu Həmzə” duasının bir yerində belə buyurur: “Allahım, məni xüsusi zikrinlə şərəfləndir və gecə-gündüz Sənə yaxınlaşmaq üçün yerinə yetirdiyim işləri riyakarlıq, özünü göstərmək, bihudəlik və puçluq çirkabına bulaşmağa qoyma”.[2] İlahi, gördüyüm işləri riyakarlıq, özünü göstərmək, dillərə düşmək, camaatın “xəbərin var filankəs nə yaxşı iş görüb? Bilirsən filankəs nə yaxşı ibadət edir?” kimi sözlər

1. İqbalul-əmal, c. 1, səh. 74
2. İqbalul-əmal, c. 1, səh. 74

danışması məqsədi daşımaqdan, qürrələnmək üçün yerinə yetirilməkdən qoru. İnsan bəzən işlərini öyünmək və qürrələnmək – “filan işi mən görmüşəm” demək – üçün görür.

İnsanın əməllərində bunlar olmamalıdır. Bunlar zəif nöqtələrdir. İnsan böyük işlər görür, amma cüzi riyakarlıq və özünü göstərmək niyyəti ilə onları *“sovrulmuş toz dənəciklərinə”*[1] çevirir, yandırıb havaya sovurur. Məsumlar bizə xəbərdarlıq edirlər ki, diqqətli olaq və əməllərimizi belə zay etməyək. “İlahi, məni dərgahının mütilərindən et...”[2]

Deməli, bu dualardakı ikinci məsələ onlarda çoxlu təlimlərin olmasıdır. Məsələn, “Kümeyl” duasının əvvəllərində belə oxuyuruq: “Allahım, pərdələri yırtan günahlarımı bağışla; Allahım, əzabların nazil olmasına səbəb olan günahlarımı bağışla; Allahım, nemətlərin dəyişməsinə səbəb olan günahlarımı bağışla”.[3] Bəzi günahlar Allahla insan arasında olan pərdələrin götürülməsinə səbəb olur. Bəzi günahlar insana əzab nazil olması ilə nəticələnir. Bəzi günahlar isə insanın nemətdən məhrum olmasına gətirib çıxarır. “Allahım, duanı həbs edən günahlarımı bağışla”.[4] Bəzi günahlar duanı həbs edir, onun qəbul olmasına mane olur.

Bu günahlardan Allaha sığınırıq. Ola bilər, insan elə günah etsin ki, nə qədər dua etsə də, onun bir təsir və faydası olmasın. Duanın heç bir təsirinin olmadığını necə bilmək olar? İnsandan dua hissinin alınması ilə!

Bu barədə belə bir söz var, bilmirəm məsum kəlamıdır,

1. Furqan, 23
2. İqbalul-əmal, c. 1, səh. 74
3. İqbalul-əmal, c. 2, səh. 707
4. İqbalul-əmal, c. 2, səh. 707

ya qeyri-məsum. Hər halda kim deyibsə, hikmətli sözdür: "Mən duanın qəbul olunmamasından daha çox, duanın özündən məhrum olmaqdan qorxuram".

Bəzən insan dua hissindən məhrum edilir. Bu, pis əlamətdir. Dua, raz-niyaz, minacat vaxtı dua etmək hissinin itirilməsi yaxşı hal deyil. Əlbəttə, bunu düzəltmək mümkündür. İnsan diqqətini Allaha yönəltməklə, Allahdan istəməklə dua hissi əldə edə bilər.

"Kümeyl" duasında da maariflə doludur. Bu, duada olan ikinci nüans idi. Duada olan üçüncü nüans və son nüans daha mühümdür, hətta öncə qeyd edilən iki nüans onunla müqayisədə kiçikdir. O, Allah qarşısında özünü kiçiltmək və təvazökarlıqdan ibarətdir. Duanın əsli budur. Həzrət Peyğəmbər buyurub: "Dua ibadətin məğzidir".[1] Çünki duada Allaha mütləq bağlılıq və Onun qarşısında özünü kiçiltmək, mütilikdən ibarət hiss var. İbadətin əsli budur. Buna görə də ayənin davamında buyurur: *"Rəbbiniz deyib: "Məni çağırın, sizi (duanızı) qəbul edim. Mənə ibadət etməyə təkəbbür göstərənlər tezliklə Cəhənnəmə zəlil gündə daxil olacaqlar".*[2] Duada əsas məsələ insanın özünü Allah qarşısında yalançı xudbinlikdən uzaqlaşdırmasıdır. Duada əsas məsələ insanın özünü Allah qarşısında kiçiltməsidir.

Əzizlərim! Baxın, harada – istər öz mühitinizdə, istər öz ölkənizdə, istər dünyada – pislik və fəsad varsa, onun kökü xudbinlik, təkəbbür, lovğalıq və məğrurluqdur. Dua bunları yox etməlidir.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*17.II.1995*

1. Müstədrəkül-vəsail, c. 5, səh. 167
2. Ğafir, 60

# Fitr bayramı – mənəvi həyatın yeni başlanğıcı

Hər bir fitr bayramı ayıq və gözüaçıq müsəlman üçün həqiqi bayram – mənəvi həyatın yeni başlanğıcı ola bilər. O, müsəlmanlar üçün bahar fəslinin bitki və ağaclar üçün oynadığı rolu oynaya bilər. İl ərzində müxtəlif günahlara bulaşmış, nəfsi istəklər və xoşagəlməz sifətlərə düçar olmuş, özünü tədricən Allahın rəhmət dərgahından uzaqlaşdırmış şəxs hər il Allah tərəfindən xüsusi bir fürsət əldə edir. Həmin fürsət ramazan ayıdır. Ramazan ayında qəlblər yumşalır, ruhlar ziya və nur əldə edir, insanlar Allahın xüsusi rəhmət vadisinə qədəm basmağa hazırlaşır, hər bir kəs öz istedad, hümmət və əzmkarlığı miqdarında Allahın əzəmətli ziyafətindən bəhrələnir. Bu ay sona çatandan sonra yeni il – fitr bayramı gəlir. O, elə bir gündür ki, insan ramazan ayında əldə etdiklərindən istifadə edərək ilahi düz yol ilə gedə və əyriliklərdən çəkinə bilər.

Bütün peyğəmbərlər, övliyalar, onların canişinləri, əməlisaleh insanlar və doğruçular çalışıblar ki, insan

pisliklərə əmr edən nəfsi, batini düşmənini tanısın və ondan çəkinsin. Yüksək mənəvi məqamlara çatmağın böyük sirri budur. İnsan bu yolla mələkdən də uca məqama çata bilər. Bu gün həmin gündür. Əzizlərim! İnşallah, biz hamımız – mübarək ramazan ayını arxada qoyanların hamısı – bu ziyafətdən, Allahın bu geniş süfrəsindən öz səy və istedadımız miqdarında bəhrələnmişik və ramazandan hamı öz azuqə payını götürüb. Gəlin hamımız bu ayda əldə etdiyimiz azuqənin köməyi ilə batini və nəfsi nöqsanlarımızı özümüzdən uzaqlaşdıraq. Bu bizim öz əlimizdədir. *"Cidd-cəhdlə fəaliyyət göstərən özü üçün çalışır"*.[1] İnsanın fəaliyyətinin nəticəsi ilk olaraq onun özünə qayıdır. Gəlin özümüzdə olan xoşagəlməz və pis xüsusiyyətləri tapıb üzə çıxaraq. İnsanın fəaliyyətinin çətin hissələrindən biri bura aiddir. Özümüz özümüzə məftun olmayaq. Öz eyiblərimizi görək, onları sıra ilə gözümüzün qarşısına gətirək. Sonra ramazan ayında əldə etdiyimiz həmin azuqənin – qəlbin yumşalması, iradə, saflıq, ixlas və Allahın lütfü ilə qəbul edilmiş itaətin – köməyi ilə həmin siyahının bir hissəsini silək: əgər paxılıqsa, paxıllığı silək, əgər tərsiksə, tərsliyin daşını ataq, əgər süst və tənbəliksə, süstlük və tənbəlliklə vidalaşaq, əgər qəlbiqara və bədbiniksə, qəlbiqaralıq və bədbinliyi tərk edək, əgər vədəxilafıqsa, bu xoşagəlməz xüsusiyyətdən əl çəkək, əgər əhd-peymanımızı pozuruqsa, əhdimizə sadiq qalaq. Xülasə, ramazan ayı və fitr bayramının bərəkəti ilə özümüzdə olan bütün əxlaqi nöqsanları pis əməllər siyahısından pozaq, bu işdə möhkəm olaq və daha da qabağa gedək. Bunu da bilin ki, Allah-taala bu yolda çalışanlara kömək edəcək. Allah kamala çatmaq yolunda

1. Ənkəbut, 6

sizi tək qoymayacaq. Bunun ilk xeyri insanın özünə çatır. Bundan əlavə, “böyük cihad” olan nəfslə mübarizə, nəfsin islah edilməsi və Allah yolunda əzmkarlığın xeyri təkcə insanın özüylə məhdudlaşmır. Onun sayəsində cəmiyyət, ölkə, xalqın vəziyyəti də yaxşılaşır, ölkənin siyasi vəziyyəti, beynəlxalq nüfuzu, iqtisadi şəraiti, məişət şəraiti, xülasə, insanların həm dünya, həm də axirəti düzəlir. Ondan sonra uzun illər ərzində öz milli kimliyini sübuta yetirmiş bu xalq digər xalqların gözü qarşısında məşəl kimi işıq saçır, hamı onun vücudundan bəhrələnir, onun davranışından örnək götürür.

Bu yolda addımlamaq üçün Allahdan yardım diləyək, bir-birinin ardınca günahları tərk edək, xoşagəlməz əxlaqi xüsusiyyətləri bir-birinin ardınca özümüzdən uzaqlaşdıraq, özümüzü Quran və İslamın buyurduğu nümunəvi insana çevirək və bu istiqamətdə çalışaq. Əgər belə olsa, Allah-taala da bu xalq barəsindəki bütün vədlərini gerçəkləşdirər və Onun bərəkəti bir-birinin ardınca sizə nazil olar.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*2.III.1995*

# Həzrət Əlinin bariz xüsusiyyətləri

Bu gün bərəkətli ramazan ayının 19-cu günü və "fəcr ongünlüyü"nün[1] günlərindən biridir. İran xalqı, hətta İslam dünyası üçün ilin belə əlamətdar günü çox az olur.

Birinci xütbədə İslam tarixinin şəhadəti bu günlərə təsadüf edən böyük şəhidi barədə danışmaq və Əmirəl-mömini̇ni xatırlamaqla bu əzəmətli məclisi nurlandırmaq istəyirəm...

Min dörd yüz ilə yaxındır hamı – müsəlman və qeyri-müsəlman, şiə və qeyri-şiə olmasından asılı olmayaraq, bütün natiqlər, alimlər, mütəfəkkirlər, şairlər, mərsiyə oxuyanlar, Əhli-beyt məddahları həzrət Əli barəsində danışır və Qiyamətə kimi də danışacaq. Bütün bunlara baxmayaraq, o həzrət barəsində danışmağa çox söz var və biz ona hansı cəhətdən yanaşsaq, deyilməmiş sözlərin çox olduğunu görəcəyik. Mən fikirləşirdim ki, görəsən, biz bu gün həzrət Əlinin şəxsiyyətini xülasələşdirmək istəsək,

1. İmam Xomeyninin 15 illik sürgündən sonra İrana qayıtmasından İslam İnqilabının qələbə çalmasına kimi olan on günə verilmiş addır. İranda hər il həmin on gün münasibəti ilə bayram şənlikləri keçirilir. – Tərc.

nə deməliyik? Əlbəttə, məqsədim bu ilahi şəxsiyyətin əlçatmaz səmavi cövhərindən danışmaq deyil. Çünki bu istiqamətdəki qapılar mənim kimilərin üzünə bağlıdır. Məqsəd o həzrətin hamının görə, barəsində düşünə, örnək götürə bildiyi zahiri sima və şəxsiyyətidir. Gördüm ki, bu işi bir xütbədə və bir saatın içində görmək mümkün deyil. O həzrət, həqiqətən, əzəmətli şəxsiyyətdir. "O hansı tərəfdən baxılmasından asılı olmayaraq, ucsuz-bucaqsız dəryadır". Buna görə də onun bütün cəhətlərini xülasələşdirib "Həzrət Əli budur" – demək mümkün deyil. Bəli, biz o həzrətin şəxsiyyətinə müxtəlif cəhətlərdən yanaşa və başa düşdüyümüz, dərk etdiyimiz qədər danışa bilərik. Gördüm ki, həzrət Əlidə, bəlkə də, yüz sifət və xüsusiyyət tapmaq olar. Bu "yüz" sözünə böyük şəxsiyyətlərdən nəql edilmiş bəzi hədislərdə də işarə edilib. O, həm elm, təqva, zahidlik, təmkin, səbir kimi mənəvi xüsusiyyətləri, həm o həzrətin bir ata, ər, təbəə, əsgər, qoşun başçısı, hakim olaraq davranışlarını, həm də təvazökar və ədalətli şəxs, rəhbər və qazı olaraq insanlarla münasibətindəki xüsusiyyətlərini ehtiva edir. Bəlkə də, Əmirəl-mömininin belə yüz sifətini saymaq olar. Kim dolğun ifadə və fəsahətli dil ilə bu yüz sifəti izah edə bilsə, o həzrət barəsində nisbətən kamil təsəvvür yarada bilər. Amma bu sifətlərin əhatə dairəsi o qədər genişdir ki, hər bir xüsusiyyət və ya sifət, məsələn, Əmirəl-mömininin imanı barəsində heç olmasa bir kitab yazmaq lazımdır. Əlbəttə, mən bu gün iman barəsində danışmaq istəmirəm. Əmirəl-möminin mömin insan olub. Yəni bir fikir, iman və əqidə onun vücudunun dərinliklərində kök atıb. Amma məsələ burasındadır ki, Əmirəl-mömininin imanının əzəmətinin məlum olması üçün biz bu imanı kimin imanı ilə müqayisə etməliyik?

O həzrətin belə bir kəlamı var: "Əgər pərdələr kənara çəkilsə, mənim yəqinim artmaz". Yəni əgər qeyb pərdələri götürülsə və mən qeyb aləmini, yəni Allah-taalanın zatını, mələkləri, Cənnəti, Cəhənnəmi və dinlərin qeyb aləmi barəsində dediklərinin hamısını bu zahiri göz ilə görsəm, yəqinim artıb indi olandan çox olmaz. Başqa sözlə desək, bu yəqin və iman hər şeyi gözü ilə görən şəxsin yəqini kimidir. Ərəb şairlərindən biri belə deyir:

*And olsun Allaha, Məhəmməd bizə buyurub ki, əgər yer və göydə olan bütün varlıqların imanı tərəzinin bir gözünə, Əlinin imanı isə digər gözünə qoyulsa, yenə Əlinin imanına çatmaz.*

Yaxud o həzrətin İslamdakı keçmişini, yeniyetməliyinin lap əvvəlindən Allaha iman gətirməsini, bu yola qədəm qoymasını və son ana kimi bu yolda addımlamasını bir sözlə ifadə etmək mümkün deyil.

O həzrətin şəxsiyyəti əzəmətli və çoxşaxəlidir. Biz çox böyük şəxsiyyətlər görmüşük, onların bəzisi ilə şəxsən tanışlığımız olub, ya bəzilərinin həyatını kitablarda oxumuşuq. Onlar elə şəxsiyyətlər olublar ki, adam onlar barəsində düzgün təsəvvürə malik olanda utanır, xəcalət çəkir. Sanki insan başını göyə qaldırıb Aya, Veneraya, Yupiterə, Saturn və Marsa baxır. Heç bilirsiniz onlar nə qədər yüksəklikdə, nə qədər böyük və nə qədər işıqlıdırlar?! Amma bizim zəif gözümüz, məsələn, Yupiter və ya Venera ilə texniki vasitə və güclü teleskoplar vasitəsi ilə görünən, bizdən milyonlarla işıq ili qədər məsafədə yerləşməsi, ya bizimlə bir qalaktika qədər arası olan ulduz arasında nə fərq olduğunu dərk edə bilmir. Onların hər ikisi ulduzdur, gözümüz onların hər ikisini gecə səmada görür, amma o hara, bu hara! Biz əzəmətlərdən o qədər uzağıq ki, Əmirəl-mömininin bəşəriyyətin tarixdə, İslamda, kitablarda,

elm aləmində və digər sahələrdə gördüyü digər böyük şəxsiyyətlərlə fərqini düzgün dərk edə bilmirik. Əmirəl-möminin heyrətamiz insan olub. Bu gün biz Əli ibn Əbu Talibin şiəsi sayılırıq və ona tabe olmalıyıq. Əgər biz o həzrətin şəxsiyyətinin müxtəlif cəhətləri barədə bir şey bilməsək, kimliyimizdə nöqsan yaranacaq. Biri var iddialı olmamaq, biri də var iddialı olmaq. Biz iddialı olanlardanıq. Biz həm özümüzün, həm də yaşadığımız cəmiyyətin Əli kimi olmasını istəyirik. Birinci dərəcədə biz şiələr, ikinci dərəcə qeyri-şiə müsəlmanlar belə bir məsələ ilə qarşı-qarşıyadır. Əlbəttə, Əmirəl-mömininі bütün müsəlmanlar qəbul edir, amma şiələr o həzrətə başqa cür baxır və onu daha əzəmətli sayır.

## Həzrət Əlinin şücaəti

Mən bu gün bir az həzrət Əlinin şücaəti barədə danışmaq istəyirəm. Əgər vaxt qalsa, o həzrətin başqa xüsusiyyətinə də toxunarıq. Şücaət çox böyük və müsbət təsirə malik xüsusiyyətlərdəndir. Şücaətin döyüş meydanındakı təsiri insanın təhlükədən qorxmaması, təhlükəli meydana atılması, gücünü işə salması və nəticədə düşmənə qalib gəlməsidir.

Dünya əhalisinin şücaət barədə təsəvvürü bu cürdür. Amma şücaət göstərmək üçün döyüş meydanından başqa digər meydanlar da var və onun həmin meydanlardakı təsiri döyüş meydanından daha mühümdür. Buna misal olaraq həyat meydanını, haqq ilə batilin qarşı-qarşıya gəldiyi yeri, elm meydanını, həqiqətlərin bəyan edilməsi meydanını, eləcə də insanın həyatda mövqe nümayiş etdirməli olduğu yerləri göstərmək olar. Şücaət bu kimi yerlərdə öz

təsirini göstərir. Şücaətli şəxs haqqı görüb dərk edəndən sonra onun ardınca gedir, heç nədən qorxub çəkinmir; ona nə kiminləsə üz-göz olmaq təhlükəsi mane olur, nə eqoistlik, nə də düşmənin böyüklüyü. Amma şücaətsiz şəxs belə deyil. Bəzən həqiqət "bina"sı insanların, xüsusilə cəmiyyətdə nüfuz sahibi olan şəxslərin şücaətli olmaması nəticəsində dağılır, viran olur. Başqa sözlə desək, bəzən hər hansı bir şəxsin ortaya şücaətli mövqe qoymaması səbəbindən haqq nahaq olur, batil haqq libasına bürünür. Buna görə də əgər döyüş meydanındakı şücaətdən daha mühüm olan əxlaqi və ictimai şücaət mövcud olsa, qarşıya belə məsələlər çıxmaz.

Bəşəriyyət tarixinin ən şücaətli şəxslərindən olan həzrət Əli döyüş meydanında heç bir düşmənə arxa çevirməyib. Bu, böyük dəyərdir. Siz İslamın erkən dövründə baş verən müharibələrdə – hamının qorxuya düşdüyü Xəndək müharibəsində, eləcə də Xeybərin fəthində, Ühüd, Bədr və Hüneyn müharibələrində həzrət Əlinin şücaətinin nümunələrini görürsünüz. Bu müharibələrin bəzisində o həzrətin iyirmi beş, bəzisində otuz yaşı olub. 27-28 yaşlı gənc döyüş meydanında şücaət göstərərək İslamı qalib edib və belə əzəmətin yaranmasına səbəb olub. Bu, Əmirəl-mömininin döyüş meydanındakı şücaətinə aiddir. Amma qeyd etmək lazımdır ki, bu böyük şəxsiyyətin, Allahın sevimli bəndəsinin həyat meydanındakı şücaəti döyüş meydanındakı şücaətindən daha üstün olub. Bunlar nə vaxt baş verib? O həzrətin gəncliyində! Siz o həzrətin İslamı qəbul etməkdə hamıdan qabağa düşməsi hadisəsinə nəzər salın. Hamının həzrət Peyğəmbərin dəvətinə arxa çevirdiyi və heç kəsin İslamı qəbul etmək cürətinə malik olmadığı bir vaxtda Əli Peyğəmbərin dəvətini qəbul edib.

Bu da şücaət nümunələrindəndir. Əlbəttə, hər hansı bir hadisə, məsələn, sözügedən bu hadisə müxtəlif cəhətlərdən müxtəlif xüsusiyyətlər üçün misal çəkilə bilər. İndi biz ona şücaət nümunəsi kimi baxırıq. Həzrət Peyğəmbər cəmiyyətə bir ismarıc çatdırmalı idi. Amma həmin cəmiyyət bütünlüklə həmin ismarıca qarşı idi: insanların cəhalət və təkəbbürlüyü, onlara hakim olan zadəganların dəbdəbəli həyatı və maddi və sinfi mənafeyi həmin ismarıca qarşı idi. Qeyd edilən cəmiyyətdə belə bir ismarıcın qəbul edilmə ehtimalı nə qədərdir? Həzrət Peyğəmbər həmin ismarıcı cəmiyyətə çatdırdı və onu hamıdan qabaq öz qohumlarına dedi. Çünki Allah-taala ona buyurmuşdu: *"Yaxın qohumlarını qorxut!"* Amma o həzrətin təkəbbürlü, məğrur və həqiqətlərə etinasız, məntiqi sözü lağa qoyan əmiləri gözlərini yumub o həzrətdən üz döndərdilər. Halbuki həzrət Peyğəmbər onların yaxın qohumu idi və onlarda güclü qohumluq təəssübkeşliyi var idi. Ümumiyyətlə, həmin dövrün bütün insanları belə idi və onlar bəzən bir qohumlarına görə on il müharibə edirdilər.

Bəli, həzrət Peyğəmbər İslam məşəlini əlinə götürəndə qohumları ona laqeyd yanaşdı, hörmətsizlik göstərdi, təhqir etdi, lağa qoydu. Amma həmin vaxt yeniyetməlik yaşlarında olan Əli ayağa qalxaraq dedi: "Əmioğlu, mən iman gətirirəm". Əlbəttə, o həmin hadisədən əvvəl iman gətirmişdi, sadəcə qohumların toplaşdığı həmin məclisdə iman gətirdiyini elan etdi. Əmirəl-mömininin həmin bir neçə gün istisna olmaqla möminliyini heç vaxt gizlətməyib. Digər müsəlmanlar iman gətirmələrini neçə il gizli saxlayıblar. Amma Əlinin iman gətirdiyini hamı lap əvvəldən bilirdi.

Bu səhnəni zehninizdə canlandırın: qonum-qonşu hörmətsizlik edir, cəmiyyətin nüfuzlu şəxsləri təzyiq

göstərir, şair lağa qoyur, xətib ələ salır, zəngin məsxərə edir, alçaq və rəzil insanlar təhqir edir, amma bu hörmətsizlik dalğasının ortasında yeniyetmə bir şəxs ayağa qalxaraq dağ kimi möhkəm dayanıb: "Mən Allahı və bu yolu tanıyıram" – deyir və sözünün üstündə dayanır. Şücaət budur. Bu şücaət özünü Əmirəl-mömininin həyatının bütün mərhələlərində göstərib. Bu şücaət Məkkədə də olub, Mədinədə də olub, həzrət Peyğəmbərə beyətdə də.

Həzrət Peyğəmbər müxtəlif səbəblərdən camaatdan bir neçə dəfə beyət alıb. Həmin beyətlərin, bəlkə də, ən çətini Hüdeybiyyə hadisəsindəki "beyətuş-şəcərə" və ya "rizvan beyəti" olub. İş çətinə düşəndən sonra həzrət Peyğəmbər ətrafında olan o min neçə yüz nəfəri bir yerə yığaraq belə buyurub: "Sizdən ölüm beyəti alıram. Heç yerə qaçmamalısınız. Qələbə çalana və ya ölənə kimi vuruşmalısınız". Məncə, o həzrət bundan başqa heç yerdə müsəlmanlardan belə beyət almayıb. Həmin dəstənin içində hər cür adam var idi. Nəql edilənlərə əsasən, onların arasında imanı zəif olan şəxslər də olub, münafiqlər də. Həmin hadisədə ayağa qalxıb beyət etdiyini deyən ilk şəxs bu gənc olub. İyirmi neçə yaşında olan bu gənc əlini uzadaraq belə deyib: "Səninlə ölüm beyəti edirəm". Sonra digər müsəlmanlar da ürəklənib bir-birinin ardınca həzrət Peyğəmbərə beyət ediblər. Hətta ürəyi istəməyənlər də məcbur qalaraq beyət ediblər. *"Mömінlər ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində gizli qalanı bildi".*

Əmirəl-möminin belə şücaət sahibi olub. Həzrət Peyğəmbərin zamanında nə vaxt insanlığın cövhərini nümayiş etdirmək lazım gəlirdisə, Əli qabağa çıxır və bütün ağır işlərdə hamıdan öndə gedirdi. Nəql edilənlərə

əsasən, bir kişi Abdullah ibn Ömərin yanına gələrək deyib: "Mən Əliyə düşmənəm". Bəlkə də, həmin şəxs Abdullah ibn Ömərin ailəsinin Əli ilə arasının elə də yaxşı olmadığını bilib və buna görə həmin sözü deməklə yerini şirin salmaq istəyib. Abdullah ibn Ömər onun cavabında belə deyib: "Allah sənə düşmən olsun! Sən keçmişi bütün dünya və onda olanlardan üstün olan bir şəxsə düşmənsən?!"

Bəli, bu, əzəmət sahibi olan Əmirəl-mömінindir; bu, tarixin parlaq Əlisidir – əsrlərlə işıq saçan və nuru gündən-günə daha da artan Əli! O həzrət hətta tək-tənha olsaydı belə, insanlıq cövhərinə ehtiyac olan bütün yerlərdə meydana atılardı. Əmirəl-möminin belə buyurardı: "Düz yol ilə gedənlərin sayının azlığı sizi qorxuya salmasın". Azlıqda olmağınız, dünyanın bütün insanlarının, ya onların çoxunun arasının sizinlə pis olması, getdiyiniz yolu qəbul etməməsi sizi qorxuya salmasın, yolunuzdan dönməyinizə səbəb olmasın. Hər hansı bir yolun doğru yol olduğunu biləndən sonra bütün vücudunuzla onu qət etməyə çalışın.

Əmirəl-mömininin məntiqi bu olub. O həzrət öz həyatında bu şücaətli məntiqdən istifadə edib. Əmirəl-möminin beş ildən az çəkən xilafətində də bu cür davranıb. O həzrətin həyatının hansı cəhətinə baxsanız, şücaət nümunəsi ilə qarşılaşarsınız. Əmirəl-möminin onunla beyətin ikinci günündə o həzrətdən qabaq qanunsuz şəkildə ona-buna verilmiş torpaqlar barədə belə buyurub: "And olsun Allaha, əgər onun (məndən qabaq qanunsuz şəkildə bəzilərinə verilmiş mülklərin) qadınlara mehriyyə təyin edildiyini, ya onunla kəniz alındığını görsəm belə, geri qaytaracağam". Əgər qanunsuz şəkildə bəzilərinə verilmiş həmin mülkləri həyat yoldaşınıza mehriyyə təyin etdiyinizi, ya onu satıb

kəniz aldığınızı görsəm belə, heç nəyi nəzərə almayacaq, onların hamısını beytülmala qaytaracağam. O həzrət sonra bunu həyata keçirməyə başladı və məlum düşmənçiliklər baş qaldırdı. Bundan böyük şücaət ola bilər?! O həzrət ən inadkar şəxslərin, həmçinin İslam cəmiyyətində ad-san sahibi olan şəxslərin qarşısında, eləcə də Şamda on minlərlə əsgəri o həzrətə qarşı müharibəyə sövq edə biləcək böyük sərvət qarşısında şücaətlə dayanıb. O həzrət Allah yolunun hansı yol olduğunu müəyyənləşdirəndən sonra heç kəsi nəzərə almayıb. Bu, insandan şücaət tələb edir. O hətta öz qohumlarını nəzərə almayıb. Bunu dildə demək asandır, amma ona əməl etmək çox çətindir. Etiraf edim ki, biz əvvəllər örnək kimi Əlinin həyatından danışanda məsələnin dərinliyini tam başa düşmürdük. Amma bu gün İslam cəmiyyətinin idarə edilməsi kimi həssas məsuliyyət bizim kimilərin əlində olduğu üçün biz Əlinin nə qədər böyük şəxsiyyət olduğunu dərk edirik.

Əzizlərim, ey mənim namaz qılan mömin qardaş və bacılarım! Düzdür, mən bunları daha çox özümə, bizim kimi İslam cəmiyyətinin idarəçilik yükünü boynuna götürmüş şəxslərə deyirəm, amma bunlar hamıya aiddir, təkcə xüsusi təbəqəyə aid deyil. Bərəkətli şəxsiyyəti milyonlarla insanın İslam və həqiqətlə tanışlığına səbəb olan iş görmüş Əmirəl-möminin belə yaşayıb. Əmirəl-mömininə minbərlərdə yüz ilə yaxın lənət oxunub, bütün İslam dünyasında onun əleyhinə danışılıb, özünə və sözlərinə qarşı minlərlə yalan hədis uydurulub, cəmiyyətə təqdim edilib. Amma o həzrət belə yaşadığı üçün həmin uzun müddətdən sonra özünü xurafat yükünün altından çıxara və tarixin qarşısında dik dayana bilib. Əli kimi inci yaşayır və heç bir alaq, zibil, tullantı və palçıq onu çirkləndirə, onun dəyərini aşağı sala

bilmir. Brilyant palçığın içinə də düşsə, brilyantdır. Belə bir inciyə malik olmaq lazımdır. Hər bir müsəlman həyat qülləsinin başında bu məşəli görməli və ona doğru hərəkət etməlidir.

Heç kəs bizim Əli ibn Əbu Talib kimi hərəkət edə biləcəyimizi iddia etməyib. Əbəs yerə heç kəsə: "Siz nə üçün Əli kimi davranmırsınız?" – demək lazım deyil. Nəql edilənlərə əsasən, özü də məsum olan İmam Səccad ilə ibadətdən söhbət edən zaman Əmirəl-mömininin ibadətindən söz düşüb və o həzrət ağlayaraq belə buyurub: "Biz hara, Əmirəl-möminin hara?! Məgər biz Əli kimi ola bilərik?!" İndiyə kimi böyük şəxsiyyətlərdən heç kəs nə "Əli kimi hərəkət edəcəyəm və ya davranacağam" – deyə bir iddia edib, nə belə bir xəyala qapılıb, nə də zehnindən belə bir fikir keçirib. Əsas məsələ istiqamətin Əlinin getdiyi istiqamət olmasıdır. O həzrət, Osman ibn Hüneyfə yazdığı məktubda – həmin məktub "Nəhcül-bəlağə"də nəql edilib – "bilin, sizin imamınız dünyadan iki nimdaş paltarla kifayətlənib" cümləsi ilə öz həyat tərzinə işarə edəndən sonra belə buyurub: "Bilin! Buna sizin gücünüz çatmaz!" Elə bilməyin ki, siz də mənim kimi davrana bilərsiniz.

O, misilsiz şəxsiyyət, əlçatmaz varlıq, amma örnək olub. Biz çalışıb bu örnəyə doğru hərəkət etməliyik. Heç kəs Əlinin şücaətinə yiyələnə bilməz. Əmirəl-mömininə ən yaxın insanlardan biri o həzrətin əmisi oğlu, şagirdi, dostu, sirdaşı, o həzrətin həqiqi tərəfdar və aşiqi Abdullah ibn Abbas olub. Bir dəfə Abdullah ibn Abbas səhvə yol verərək beytülmalın bir hissəsini öz malı hesab edərək onu götürüb Məkkəyə gedib. Əmirəl-möminin ona elə bir məktub yazıb ki, adam onu oxuyanda tükləri biz-biz durur. Belə ki, o həzrət həmin məktubda Abdullah ibn Abbasa

xitab edərək yazır: “Sən xəyanət etmisən”. Daha sonra belə buyurur: “Əgər mən deyəni etməsən və sonra əlimə keçsən, Allah yanında sənin barəndə üzürlü sayılacağam”. Yəni sənə görə Allah yanında xəcalətli və başıaşağı olmamağa çalışacağam. “Səni, vurduğum şəxslərin hamısı Cəhənnəmə gedən qılıncımla vuracağam”. Məktubun bu cümləsi daha təsirlidir. Buyurur: “And olsun Allaha, əgər sənin gördüyün işi Həsənlə Hüseyn görmüş olsaydı, yanımda heç cür üzürlü sayılmazdılar. Onların xeyrinə heç bir qərar qəbul etməz və haqqı onlardan alaram...” Əmirəl-mömінin Həsənlə Hüseynin məsum olduğunu bilir. Amma buna baxmayaraq, buyurur ki, əgər birdən belə bir iş baş versə – hərçənd baş verən deyil – mən onlara da rəhm etmərəm. Bu, şücaətdir.

Əlbəttə, bu davranışın müxtəlif adları var. O, bir tərəfdən ədalətdir, digər tərəfdən qanuna riayət edilməsi və qanuna hörmət. Amma o, başqa bir cəhətdən də şücaət və insanın özünə hakim olmasıdır. Bu gün bizim bu şücaətə ehtiyacımız var. Bu hökumətdə işləyən, əli beytülmala çatan, insanların çox etimad etdiyi şəxslərin bu şücaətə daha çox ehtiyacı var. Müasir dünyanın nadanları Əbu Ləhəb və Əbu Cəhl kimi deyillər. Bu gün kafir və düşmənlər, dünyanın ən zirək adamları ən mühüm siyasi və təbliğat vasitələri əlində olan kəslərdir. Dünya siyasəti onların əlindədir, xalqları onlar idarə edir, hakimiyyətləri onlar dəyişdirir, dünyanın müxtəlif bölgələrini işğal edir, müharibələr törədir, müharibələri yatırır, siyasi quruluşları dəyişdirir, yeni sistem yaradırlar. Bu gün dünyanın bir nömrəli hiyləgər və məkrli güclərinin hamısının diqqəti İslam Respublikasına yönəlib. Onların İslam Respublikası barəsindəki siyasəti bu sistem və İran xalqını təhqir etmək,

lağa qoymaqdır. Demək istəyirlər ki, siz dünyada qəbul olunmuş ümumi ənənəyə əməl etməməklə səhv edirsiniz; siz ABŞ və hegemon qüvvələrin beynəlxalq siyasətlərinə təslim olmamaqda səhvə yol verirsiniz; həmçinin Fələstin məsələsində səhv edirsiniz, Bosniya və Herseqovina məsələsində, eləcə də müsəlmanlara aid digər məsələlərdə yanılırsınız.

Bu gün onların siyasəti budur. Əlbəttə, bu, təkcə bu günə aid deyil, elə inqilabın əvvəlindən belə olub. Onlar həmin vaxtdan İran xalqına qarşı təxribat törədirlər. İran rəsmilərinə, onlara qarşı daha çox çıxanlara qarşı daha çox təxribatla məşğuldurlar. Onlar hansı işdən çox zərər-ziyan görürlərsə, onu daha çox lağa qoyurlar. Belə ki, onlar qadınlarla davranışa rişxənd edirlər, universiteti lağa qoyurlar, ibadəti ələ salırlar, camaat namazına rişxənd edirlər, spirtli içki içməməyi, ilahi qanunların icrasını məsxərəyə qoyurlar.

Əzizlərim! Bəzən bu məsxərələr, təhqir və hörmətsizliklər, alçaltmalar böyük insanları bədbəxt edir. Belə ki, onlar da "palaza bürünüb elnən sürünürlər". Sonra da hegemon qüvvələr məqsədlərinə çatdıqları və maneələri aradan götürdükləri üçün əllərini əllərinin üstünə qoyub qəhqəhə ilə gülürlər. Onlar hansısa bir inqilabi cərəyanı öz inqilabi arzu və şüarlarından əl çəkənə, yanlış hesab edənə və hətta məsxərəyə qoyana kimi dünyada məsxərə obyektinə çevirirlər. Beynəlxalq siyasət aləmində belə şeylər – özünün dünənki düşmənləri ilə bir sırada dayanıb özünün bugünkü gününə rişxənd edən, "palaza bürünüb elnən sürünmək" üçün düşmənləri sevindirənlər çox olub. Əlbəttə, düşmənlər də bunu görəndə sevinir və deyirlər ki, bəh-bəh, siz nə qədər mədəni və ağıllı adamlarsınız!

Amma, əslində, onlar yolları üzərindəki maneələrdən birini də aradan götürmüş olurlar. Onlar maneələri belə aradan götürürlər.

Əli ibn Əbu Talibə etiqad bəsləyən şiə o həzrətin şücaətindən dərs almalıdır. "Düz yol ilə gedənlərin sayının azlığı sizi qorxuya salmasın". Qorxmayın, düşmənin sizdən üz döndərməsindən yalqızlıq hiss etməyin. Düşmənin əlinizdə olanları – çox dəyərli gövhəri – lağa qoyması etiqadınızı zəiflətməsin. Sizin əlinizdə çox bahalı gövhər var və siz çox böyük iş görmüsünüz. Siz öz ölkənizdə tükənməz xəzinə tapmısınız, İslama qovuşmusunuz, istiqlaliyyət və azadlıq əldə etmisiniz, özünüzü güclərin əsarət boyunduruğundan xilas etmisiniz. Bir vaxtlar bu ölkə, bu universitet, bu Tehran, bu hərbi hissələr, bu silahlı qüvvələr, bu dövlət idarələri, bu nazirliklər, təhlükəsizlik orqanları, bir sözlə, hər şey ABŞ-ın ixtiyarında idi... Əvvəllər bu ölkədə nə bir xalq var idi, nə səs vermək hüququ, nə parlament, nə də seçki. Hər şey formal, yalançı və süni idi. Pəhləvilər sülaləsinin hakimiyyəti dövründə bu xalqın həyatı, həqiqətən, çox təəccüblü olub. O, geniş bir salonda qurulmuş böyük bir zavod maketinə bənzəyirdi. Uzaqdan baxanda onu zavod və zavodun avadanlıqları sanırsınız, amma yaxınlaşanda hər şeyin oyuncaq kimi neylon və plastikdən düzəldilmiş bir şey olduğunu görürsünüz. Bu, uzaqdan baxanda sütun, heykəl və hündür tavana malik böyük imarət kimi görünən, yaxınlaşanda isə qardan hazırlanmış maket olması məlum olan görüntü kimidir.

Universitet, ziyalılıq, jurnal, qəzet, parlament, hökumət, bir sözlə, hər şey formal idi. Onların arasında yalnız ümumi və kütləvi xarakter daşıyan din cərəyanı həqiqi idi, ona da kin və nifrətlə baxılırdı. Əlbəttə, küncdə-bucaqda

zəif şəkildə vətənpərəstlik cərəyanı da var idi. Xalqı bu günə salmışdılar. Siz gəlib hər şeyi əsaslı şəkildə yenidən qurdunuz. Bu gün bu ölkədə elm inkişaf edir, sənaye inkişaf edir, universitet inkişaf edir, insanların şəxsiyyəti inkişaf edir, düşüncələr inkişaf edir, həqiqi mənada olan azadlıq inkişaf edir, təhsil inkişaf edir. Bu xalq yavaş-yavaş dünyada öz yerini tutur. Dünənə kimi dünyada heç kəs İran xalqını saymırdı, hətta bura gələnlər bu xalqdan onu barbar sayıb haqq alırdı. Amma bu gün siz nəzəri mühüm sayılan xalqsınız. Dünyada İran xalqının ciddi şəkildə razılaşmadığı heç bir işdə irəliləyiş əldə etmək mümkün olmur. Allaha şükür olsun ki, bu gün dünyada bu xalq, bu quruluş, bu hökumət və bu ölkənin vəziyyəti belədir. İran xalqı yavaş-yavaş diqqətləri özünə cəlb edir. Düşmən nə qədər təhqir etsə də, nə qədər danışsa da, bu sizin uğurunuzdur.

Əli ibn Əbu Talibin şücaəti və o həzrətin ona məcbur qəbul etdirilmək istənilən batil qarşısındakı müqaviməti bizim üçün böyük dərsdir. Mən bütün əziz bacı və qardaşlara tövsiyə edirəm: ilahi təqvanı qeyd edilən mənada, tam və kamil şəkildə nəzərə alın, diqqətdə saxlayın və bu istiqamətdə hərəkət edin. Belə etsəniz, sizə Allah da kömək edəcək. Bu on yeddi ildə Əmirəl-mömininin adının kölgəsi bu xalqın başı üzərində olub, bu xalq o həzrətin nurundan bəhrələnib. Düşmənin acığına bundan sonra daha artıq bəhrələnəcək və inşallah, daha çox inkişaf edəcəyik. Yaşadığımız cəmiyyət, həqiqətən, Əli tərəfdarı olan cəmiyyətdir.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*9.II.1996*

# Fitr bayramı ciddi qərar qəbul etmək günüdür

Həm bütün dünya müsəlmanlarını, həm əziz İran xalqını, həm də namazda iştirak edən siz qardaş və bacıları fitr bayramı münasibəti ilə təbrik edirəm. Bu gün çox böyük gündür və o, peyğəmbərlərin sonuncusu həzrət Məhəmmədə və tarix boyu yaşamış bütün İslam ümmətinə aid gündür. Müsəlmanlar mühüm və tərbiyəvi xarakterə malik bir sınağı arxada qoyandan sonra Allah qarşısında haqq-hesaba oturur və öz ramazan aylarını Allaha təqdim edirlər. Fitr bayramının gecə və gündüzünün dualarında bu mənaya işarə edilib: "İlahi, bizdən ramazan ayını qəbul et".

Fitr bayramı günündə başqa bir nüans da var və o, il ərzində növbəti ramazana ciddi hazırlaşmaq qərarının qəbul edilməsidir. Bütün ramazan aylarında ilahi ziyafətə və bərəkətli qədr gecələrinə daxil olmaq istəyən kəs əvvəldən hazırlaşmalıdır. Bu hazırlıq il ərzində baş verməlidir və bu barədə qərar bu gün qəbul edilməlidir. Öz-özlüyünüzdə qərara gəlin, elə davranın ki, gələn il

ramazan sizi qəbul etsin, ilahi ziyafət sizin üçün şirin və bərəkətli olsun. Bu hər hansı bir insanın əldə edə biləcəyi ən böyük feyz, onun bütün dünya və axirət, şəxsi və ictimai işlərində, qohumlarla münasibətlərində mühüm vasitədir.

## İnsan həyatında dünyanın rolu

Əziz qardaş və bacılar! Qısa olaraq bunu deyim ki, insanlar bu dünyada müəyyən bir kurs keçmək üçün hansısa bir düşərgəyə aparılan şəxslərə bənzəyirlər. Fərz edin ki, şagird və ya hərbçilər, yaxud idarə işçiləri kurs keçmək, ixtisas artırmaq, müəyyən şeyləri öyrənmək üçün bir düşərgəyə aparılır, orada onlar üçün proqram hazırlayır, yaşayışları üçün şərait yaradırlar. Onlar həmin kursun sonunda öyrəndiklərini öyrənəndən, əldə etməli olduqlarını əldə edəndən sonra işlərini daha yüksək mərhələdə davam etdirmək üçün düşərgədən çıxarılırlar.

Bura həmin böyük düşərgədir. Bu düşərgəyə hər gün milyonlarla insan daxil olur. Həmçinin özünü yaradılışın məqsədinə çatdırmaq və əsl mənzilbaşına çatmaq üçün milyonlarla insan oradan xaric olur. Bu düşərgədə bizim üçün proqram hazırlanıb. Biz həmin proqrama əməl etməklə özümüzü daha yüksək məqamlara çatdıra, islah edə, son və həqiqi mənzilə daxil olmağa hazırlaya bilərik. Həmin son və həqiqi mənzilbaşı Allahla görüşdür. Dinlər insanlar üçün belə bir həyat proqramı hazırlayıblar. Bu proqramlar neçə cürdür:

Onların bəzisi insanla Allah-taala arasında mənəvi, ruhi və qəlbi əlaqə yaradır. Buna misal olaraq namaz, zikr, diqqətin Allaha yönəldilməsi, raz-niyaz, Allaha yaxınlaşmaq və digər ibadətləri göstərmək olar.

Proqramların bəzisi insanın əxlaq və davranışlarını, vərdişlərini islah edir, onun ruhunda olan nöqsanları aradan qaldırır. Buna misal olaraq əxlaqi hökmləri göstərmək olar. Onlar təkəbbür, paxıllıq, pislik, rəzillik, alçaqlıq, yalançılıq və xəyanəti bizdən uzaqlaşdıraraq onu hörmətli, elmli, mülayim, mehriban və digər ülvi insani keyfiyyətlərə malik insana çevirir.

Həmin proqramların digər bir qismi bizim bu dünya və bu düşərgədə olan insanlarla fərdi və ictimai münasibətlərimizi tənzimləyir. Bizə hətta həmin əşya və heyvanlarla davranmağı öyrədiblər. Həmin proqramların bəzisi bizim həmin əlaqə və davranışlarımızı tənzimləyir.

Proqramların bir qismi də mühitin yaşayış üçün yararlı olmasına səbəb olur. Buna misal olaraq hökumət və dövlətin yaradılması barəsindəki proqramları, eləcə də yaxşılıqlara dəvət edib pisliklərdən çəkindirmə, zalımlarla düşmənçilik, əməlisaleh və mömin şəxslərlə xoş münasibətdə olmaq, dünya və cəmiyyətin ümumi vəziyyətinin düzəlməsinə kömək etmək, yoxsulluğun aradan qalxmasına yardımçı olmaq, bir sözlə, dünya, mühit və cəmiyyətlərə aid proqramları göstərmək olar. Bu böyük düşərgədə və həyatın bu mərhələsində ümumilikdə bizim üçün bu proqramlar hazırlanıb.

Bundan əlavə, dünya adlandırılan bu təlim-tərbiyə düşərgəsində insanın rahatlığı üçün şərait də yaradılıb, onun fiziki və cinsi həzz almasına da diqqət edilib. Bu həzz vasitələri onun göz, qulaq, burun, ruh və ağlına "sığal çəkir", onu məmnun edir. Əgər bu həzz vasitələrindən düzgün istifadə edilsə, bu düşərgə həyatı daha da şirinləşər. Yəni inkişaf edərək yüksələrik, həm özümüzü kamilliyə yaxınlaşdırarıq, həm son mənzilbaşına daxil

olmağa hazırlaşarıq, həm də bu dünyada Allahın halal həzz vasitələrindən istifadə edərik. Allah-taala buyurub: *"De: "Allahın öz qulları üçün yaratdığı zinətləri və təmiz ruziləri kim haram etmişdir?!"*[1]

Siz ramazan ayında və qarşıya çıxan digər böyük ibadət fürsətlərində özünüzü bu proqramları düzgün həyata keçirməyə hazırlayırsınız. Bu proqramları düzgün həyata keçirən, ona lazım olanları yerinə yetirən, öz həyat və davranışını islah edən şəxs bu düşərgədən çıxmağa qorxmaz. Çünki onun əli doludur.

Bir dua var, ramazan ayı girəndən sonra hər namazdan sonra onu oxumaq müstəhəbdir. Həmin duada Allaha belə deyirik: "Allahım, müsəlmanların işində olan bütün fəsadları düzəlt! Alahım, Öz zənginliyinlə yoxsulluğumuzun qarşısını al! Allahım, bizim pis halımızı Öz gözəl halınla dəyişdir". İlahi, bizim pis halımızı Öz yaxşılıq, lütf və mərhəmətinlə düzəlt. Biz Allahdan bunu istəyirik. Bu bizim öz əlimizdədir.

Gərək diqqətli olaq. Gərək ramazandan qabaqkı on bir ayda hazırlıq işləri görək. Əgər ramazana hazırlıqlı daxil olsaq, ilahi ziyafətdən daha artıq bəhrələnəcək, gələn il bir dərəcə, bir səviyyə, bir sinif də yuxarı qalxacağıq. Ondan sonra siz həm ruh və qəlbinizdə, həm də ictimai həyatınızda sizi məmnun edən və razı salan hadisələrlə qarşılaşacaqsınız.

İslamda bütün tərbiyə və həyat proqramları bu prinsip üzərində qurulub. Hər bir kəs özü öz nəsihətçisi olmalı, öz əməllərinə nəzarət etməli, sapıntıların qarşısını almalı, özünü yaxşı işlərə dəvət edərək pis əməllərdən çəkindirməlidir. Bu, yəni insanın özünü yaxşı işlərə dəvət

1. Əraf, 32

edərək pis əməllərdən çəkindirməsi başqalarını yaxşı işlərə dəvət edərək pis əməllərdən çəkindirməsindən daha mühümdür. Bu, ilahi təqvadır və bizdən istənilən də budur. Təqvaya həm özümüz riayət edək, həm də başqalarına təqvalı olmağı tövsiyə edək. Mən də siz qardaş və bacılara ilahi təqvanı unutmamağı tövsiyə edirəm. Ramazan ayının ən böyük azuqəsi təqvadır. Əldə etdiklərinizi qoruyun və inşallah, onu qarşıdakı illərdə, ömrünüzün sonuna kimi daha da artırın.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*20.II.1996*

# Ramazan tövbə və yardım diləmək ayıdır

Allah ayı, tövbə, raz-niyaz, Allahdan bağışlanma və yardım diləmək ayı olan ramazan siz əzizlərə və dünyanın bütün müsəlmanlarına mübarək olsun! Birinci xütbədə bu ayın bəzi xüsusiyyətlərindən danışacağam. Hər şeydən əvvəl namazda iştirak edən siz əzizlərimə ilahi təqvaya riayət etməyi tövsiyə edirəm. Bu ay təqva ayıdır. Oruc təqva vasitəsidir. Təqva mömünin – həm mömin şəxsin, həm də mömin cəmiyyətin – dünya və axirət azuqəsidir. Allahdan bu ayda bu dəyərli azuqədən bizim hamımıza, əzəmətli və müsəlman İran cəmiyyətinə pay verməsini diləyirik.

Bərəkətli ramazan ayının günlərində oxunması tövsiyə edilmiş duaların birində belə oxuyuruq: “Bu ay Allaha tərəf qayıtmaq, tövbə etmək və oddan azad olmaq ayıdır”.[1] Buna görə də mən birinci xütbədə Allahdan bağışlanma diləmək barədə danışacağam.



1. Kafi, c. 4, səh. 75

## Allahdan bağışlanma diləməyin mənası

Allahdan bağışlanma diləməyin mənası Ondan günahların əfv edilməsini diləməkdir. Əgər bu iş düzgün yerinə yetirilsə, insanın üzünə bərəkət qapılarını açar. Hər hansı bir şəxsin və ya insan cəmiyyətinin ehtiyacı olan ilahi lütf qapılarının hamısı – ilahi bəxşiş, mərhəmət, nur, hidayət, uğur, yardım və müxtəlif meydanlarda qələbə – etdiyimiz günahlar nəticəsində bağlanır. Günah bizimlə Allahın lütf və mərhəmətinin arasına sədd çəkir. Allahdan bağışlanma diləmək həmin səddin aradan qalxmasına və Allahın lütf qapılarının üzümüzə açılmasına səbəb olur. Allahdan bağışlanma diləməyin faydası budur. Buna görə də Quranın bir neçə yerində Allahdan bağışlanma diləməyin həm dünya, həm də axirət xeyrinin olması qeyd edilib. Məsələn, buyurur: *"Rəbbinizdən bağışlanma diləyin. Sonra Ona doğru qayıdın ki, göydən sizə davamlı yağış göndərsin..."*[1] Buna bənzər digər ayələr də var. Bütün bunlardan belə məlum olur ki, Allahdan bağışlanma diləməklə insanın qəlbinə və cəmiyyətə Allahın lütf və mərhəməti nazil olur. Buna görə də Allahdan bağışlanma diləmək çox mühümdür.

Bağışlanma diləməyin özü tövbənin bir hissəsidir. Tövbənin də mənası Allaha tərəf qayıtmaqdır. Buna görə də tövbənin sütunlarından biri Allahdan bağışlanma diləməkdir. Bu, Allahın böyük nemətlərindəndir. Allah-taala insanların üzünə tövbə qapısı açıb ki, onlar kamillik yolunda irəliləyə bilsinlər və günah onları "şikəst etməsin". Çünki günah insanı insanlığın zirvəsindən aşağı salır. Bütün günahlar insanın ruhuna, batini saflığına, mənəviyyatına

1. Hud, 52

və mənəvi dəyərinə zərbə vurur, onun ruhunun şəffaflığını korlayır, onu bulandırır. Günah insanın onu dünyadakı başqa varlıqlardan ayıran mənəviyyatını ləkələyir və onu heyvan və cansız əşyalara daha çox yaxınlaşdırır.

## Günahın insanın həyat və fəaliyyətinə təsiri

Günah insana mənəvi cəhətdən mənfi təsir göstərməkdən əlavə, onun uğursuzluğuna da təsir edir. İnsan bir çox sahələrdə etdiyi günahlara görə uğursuzluğa düçar olur. Əlbəttə, bu, sırf dini göstəriş deyil və onun elmi və fəlsəfi izahı da var. Günah insanı necə "şikəst edir"? Məsələn, Ühüd müharibəsində müsəlmanların bir dəstəsinin səhlənkarlığı və təqsiri qazanılmış ilkin qələbənin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Yəni müsəlmanlar əvvəl qalib gəlmişdilər, amma dağın başındakı yarıqda oturub arxa cəbhənin təhlükəsizliyini qorumalı olan oxatanlar qənimət tamahından öz mövqelərini buraxıb meydana qaçdılar və düşmən arxadan basqın edərək qəfil hücuma keçib müsəlmanları məğlub etdi. Ühüd müharibəsindəki məğlubiyyətin səbəbi bu olub.

"Ali-İmran" surəsinin ondan çox ayəsində bu məğlubiyyətə işarə edilib. Çünki müsəlmanlar psixoloji baxımdan çox narahat idilər və bu məğlubiyyət onlara çox pis təsir edirdi. Quran ayələri onları sakitləşdirərək yol göstərir və onlara bu məğlubiyyətin haradan qaynaqlandığını, onun necə baş verdiyini başa salır. Sonra bu ayəyə çataraq buyurur: *"(Ühüd müharibəsində) iki ordunun qarşılaşdığı gün qaçanları Şeytan düçar olduqları bəzi günahlar sayəsində yoldan çıxartdı".*[1] Yəni sizdən bəzilərinin Ühüd

1. Ali-İmran, 155

müharibəsində düşmənə arxa çevirməsinin və məğlub olmasının səbəbi əvvəldən mövcud olan problemdir. Belə ki, onların batini problemi olub. Onlar əvvəldən bir sıra işlər görmüşdülər və Şeytan ona görə onları xətaya sövq etdi. Yəni əvvəl edilən günahlar cəbhədə – hərbi və siyasi meydanda, düşmənlə qarşılaşanda, quruculuq işlərində, təlim-tərbiyədə, daha möhkəm müqavimət, daha dəqiq idrak, insanın polad kimi qarşısına çıxanı kəsib hərəkət etməsi, maneələri aradan götürməsi lazım olan yerlərdə – öz təsirini göstərir. Əlbəttə, bu, barəsində həqiqi tövbə edilmiş və Allahdan bağışlanma dilənmiş günahlara aid deyil.

Bu surədə başqa bir ayə də var və bu məsələ onda bir başqa şəkildə bəyan edilib.[1]

Quran buyurur ki, sizin məğlub olmağınız, döyüş meydanında problemlə qarşılaşmağınız təəccüblü deyil. Buna bənzər işlər həm əvvəllər, həm də indi olub. Buyurur: *"Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə (Allah adamı ilə) birlikdə (düşmənə qarşı) vuruşmuşlar. Onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də boyun əymişlər"*.[2] Yəni bu, yeni məsələ deyil. Siz Ühüd müharibəsində məğlub olub bir dəstənin ölməsindən narahat olmusunuz, bəziləriniz məyusluq və süstlüyə düçar olmusunuz. Bu, təkcə sizin başınıza gələn hadisə deyil. Döyüş meydanlarında keçmiş peyğəmbərlər də uğursuzluqla qarşılaşıblar, amma onlar süstlük və zəifliyə qapılmayıblar. Daha sonra buyurur: *"Onların: "Ey Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla! Bizi sabitqədəm və kafirlər üzərində qalib et!" – deməkdən*

1. Ali-İmran, 166
2. Ali-İmran, 146

*başqa sözləri olmamışdır".*[1] Yəni keçmişdə peyğəmbərlərin səhabə və tərəfdarları müharibə və ya başqa hadisələrdə uğursuzluqla qarşılaşanda Allaha üz tutaraq dua edərdilər. Buradan belə məlum olur ki, baş verən hadisə və bəla sizin etdiyiniz günahlardan yaranır. Onun qaynağı günahlardır.

## Günahın mənəviyyata təsiri

Bilin, insanın etdiyi günahlar, əyri işlər, şəhvətpərəstlik, dünyapərəstlik, tamahkarlıq, dünya malına hərislik, hər hansı vəzifədən yapışıb ondan əl çəkməmək, simiclik etmək, həmçinin paxıllıq, hərislik və qəzəb, şübhəsiz, insanın vücuduna iki cür təsir göstərir. Onlardan biri mənəvi təsirdir. Yəni günah insanın ruhunu mənəviyyatdan uzaqlaşdırır, onun nurunu yox edir, insanın mənəviyyatını zəiflədir, üzünə ilahi rəhmət qapılarını bağlayır. Onun ikinci təsiri ictimai təsirdir. Belə ki, günah ictimai səhnələrdə, müqavimət və möhkəmliyə, güclü iradə nümayiş etdirməyə ehtiyac olan yerlərdə insanın yaxasından yapışaraq həmin zəifliyi aradan qaldıran başqa amil olmasa, onu məhv edir. Əlbəttə, ola bilər, insan hansısa yaxşı sifət və ya iş sahibi olsun, beləcə, o insanın həmin zəifliyini aradan qaldırsın. İndi bizim söhbətimizin mövzusu bu deyil. Hər halda günah öz-özlüyündə belə bir təsirə malikdir.

## Allahın bağışlanma və tövbə neməti

Allah-taala insana böyük nemət verib və buyurub ki, əgər siz təsiri vücudunuzda qalan bir iş görüb sonra peşman

1. Ali-İmran, 147

olsanız, tövbə və bağışlanma qapısı həmişə açıqdır. Siz günah etməklə sanki bədəninizə yara vurursunuz, mikrob salırsınız. Bu halda siz, mütləq, xəstələnəcəksiniz. Əgər həmin yara, xəstəlik və zərbənin təsirini yox etmək istəyirsinizsə, bilin, Allah bir qapı açıb və o, tövbə, Allahdan bağışlanma diləmək və Ona tərəf qayıtmaq qapısıdır. Əgər Allaha tərəf qayıtsanız, Allah sizin nöqsanlarınızı aradan qaldıracaq. Bu, Allahın bizə verdiyi böyük nemətlərdəndir.

Ramazan ayı ilə vida duasında – o, "Səhifeyi-Səccadiyyə"nin 45-ci duasıdır – İmam Səccad Allahın müqəddəs zatına xitab edərək belə buyurur: "Sən bəndənə bağışlanma qapısı açmış kəssən. Sən onun adını "tövbə" qoymusan. Quran və vəhydən bu qapıya bir bələdçi də qoymusan ki, bəndələrin həmin qapını səhv salmasınlar. Belə bir qapı açılandan və dəlil təqdim ediləndən sonra insanın bu evə daxil olmamaqda bəhanəsi nədir?!"[1] İlahi bağışlanmanın yolu Ondan bağışlanma diləməkdir. Allahdan bağışlanma diləmək lazımdır.

Qarşıma həzrət Peyğəmbərin belə bir hədisi çıxdı: "Allah-taala bağışlamaq istəmədiyi kəsdən başqa bütün günahkarları bağışlayır". Səhabələr soruşdular: "Ya Peyğəmbər, Allah-taalanın bağışlamaq istəmədiyi kəs kimdir?" Buyurdu: "Allahdan bağışlanma diləməyən kəs!"[2] Deməli, Allahdan bağışlanma diləmək tövbə və bağışlanmanın açarıdır. Allahdan bağışlanma diləməklə bağışlanmaq olar. Allahdan bağışlanma diləmək bu qədər əhəmiyyətlidir.

Bu barədə 2-3 məsələni də qeyd edim, bəlkə, o bizim bu ramazan ayından daha səmərəli istifadə etməyimizə,



1. Səhifeyi-Səccadiyyə, 45-ci dua, səh. 491
2. Müstədrəkül-vəsail, c. 12, səh. 122

Allaha tərəf qayıtmağımıza, Allahın bu geniş mərhəmət qapısından bəhrələnməyimizə kömək oldu. Bu bizim xalq və cəmiyyətin dünya və axirəti, qarşımızda olan müxtəlif meydanlarda uğur qazanması üçün çox faydalıdır.

## Allahdan bağışlanma diləməyin mühüm şərti

Əgər biz Allahın bağışlanma nemətini əldə etmək istəyiriksə, iki xüsusiyyətdən uzaqlaşmalıyıq. Onların biri qəflət, ikincisi isə məğrurluqdur. İnsan qəflətdə olmamalı, günah etdiyini unutmamalı, onu dərk etməlidir. Dünyada bəzi insanlar – "əksər insanlar" demirəm, çünki bizim onların az, ya çox olması ilə işimiz yoxdur və ola bilər, belə insanlar bəzi cəmiyyətlərdə az, bəzisində çox olsunlar – günah edirlər, amma qəflətdədirlər, günah etmələrinə diqqət yetirmir, bunun fərqində deyildirlər. Belə ki, onlar yalan danışır, təxribat törədir, qeybət edir, ziyan vurur, şər işlər görür, dağıdıcılıq edir, qətl törədir, müxtəlif günahsız insanlara quyu qazır, geniş miqyasda müxtəlif xalqlara qarşı qorxulu planlar hazırlayır, insanları azdırırlar, amma əyri iş gördüklərini dərk etmirlər. Hətta ola bilər kimsə ona "gördüyün iş günahdır" desə, qəhqəhə ilə gülsün və qarşı tərəfi lağa qoyaraq "günah?! Nə günah?!" desin.

Qəflətdə olan bu şəxslərin bəzisi, ümumiyyətlə, savab və cəzaya etiqad bəsləmir. Amma onların bəzisinin savab və cəzaya etiqadı var, lakin qəflətə qərq olduqları üçün nə iş gördüklərini anlamırlar. Əgər biz gündəlik həyatımıza bir az diqqət etsək, görərik ki, biz də həyatımızın bəzi yerlərində qəflətdə olan həmin şəxslər kimiyik. Qəflət çox heyrətamiz və böyük düşməndir. Bəlkə də, insan üçün

qəflətdən böyük təhlükə və düşmən yoxdur. Bəziləri belədir.

Qəflətdə olan insan heç vaxt Allahdan bağışlanma diləmək fikrinə düşmür. O, ümumiyyətlə, günah etdiyini dərk etmir. O, günaha qərq olub, məst və yuxuda olan adam kimidir. O, həqiqətən, yuxuda bir iş görən şəxsə bənzəyir. Buna görə də əxlaq və irfan ustadları nəfsin təmizlənməsi yollarını bəyan edəndə insanın qəflətdən çıxması halına "yəqzə", yəni "oyanış" deyirlər.

Quran terminologiyasında qəflətin əksi təqvadır. Təqvanın mənası insanın ayıq-sayıq olması, daim özünə diqqət yetirməsidir. Qəflətdə olan şəxs onlarla günah etsə də, günah etdiyini əsla hiss etmir. Onun əksi təqvalı şəxsdir. Təqvalı şəxs onun tam əksidir. Belə ki, o, kiçik bir günah edən kimi dərhal günah etdiyini dərk edir və tez onu aradan qaldırmağa çalışır. *"Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı, Onun mükafat və cəzasını) xatırlayar və (Onu xatırlamaq sayəsində haqq yolu görər) dərhal görən olarlar".*[1] Şeytan onların yanından keçən kimi dərhal Şeytanın hücumuna məruz qaldığını, səhv etdiyini, qəflətə düçar olduğunu dərk edərlər. Onlar gözüaçıq insanlardır.

Əziz qardaş və bacılar! Kimliyinizdən asılı olmayaraq, diqqətli olun. Bu xüsusi bir dəstəyə, məsələn, məlumatı az olan, savadsız, gənc və azyaşlılara aid deyil. Hamı – alim, mütəfəkkir, ziyalı, böyük şəxsiyyətlər, kiçik adamlar, varlılar, yoxsullar, bir sözlə, hamı – diqqətli olmalıdır. Qəflət bəzən onların da yaxasından yapışır və onlar da qəflətə düçar olurlar. Bəzən onlar da günah edir, amma günah etdiklərini bilmirlər. Bu, çox böyük təhlükədir.

1. Əraf, 201

Biz bəzən günah edir, amma onun günah olduğunu dərk etmirik və günah etdiyimizi bilmədiyimiz üçün ona görə tövbə edib Allahdan bağışlanma da diləmirik. Qiyamət olanda gözümüz açılır və əməl dəftərimizdə təəccüb doğuran əməllərin qeyd edildiyini görürük. İnsan təəccüb edir ki, görəsən, mən bu işləri harada görmüşəm?! Nə qədər fikirləşsə də, yadına düşmür. Bu, qəflət günahı və onun müxtəlif formalarıdır. Deməli, Allahdan bağışlanma diləməyin maneələrindən biri qəflətdir.

İkinci maneə məğrurluqdur. İnsan kiçik bir iş görən kimi qürrələnir. Dua və hədislərdə "Allah qarşısında qürrələnmək"[1] ifadəsi işlədilib. "Səhifeyi-Səccadiyyə"nin cümə günləri oxunan 46-cı duasında çox təsirli bir ifadə var. Buyurur: "Ən böyük bədbəxtçilik Sənin qarşında qürrələnməkdir".[2] Məğrur şəxs kiçik bir iş görən kimi, məsələn, iki rükət namaz qılan kimi, ya insanlara bir xidmət göstərən kimi, birinə ianə məqsədi ilə pul verən kimi, Allah yolunda bir iş görən kimi dərhal qürrələnir, Allah yanında öz işini qaydasına saldığını, daha heç nəyə ehtiyacının olmadığını düşünür. O bunu dilə gətirməsə də, ürəyində belə fikirləşir.

Bunu da nəzərə almaq lazımdır ki, Allah-taalanın tövbə qapısını açmasının və günahları bağışlamasının mənası günahların kiçik və əhəmiyyətsiz olması deyil. Xeyr, elə deyil. Bəzən günahlar insanın ruhunu bütünlüklə məhv edir; ülvi insan həyatı məqamında olan insanı murdar və yırtıcı heyvana çevirir. Günah belədir. Günahın kiçik şey olduğunu düşünməyin. Yalançılıq, qeybət, insanların şərəfinə hörmətsizlik, hətta bir kəlmə söz deməklə başqasına zülm etmək kiçik günah deyil.



1. Biharul-ənvar, c. 80, səh. 342
2. Səhifeyi-Səccadiyyə, 46-cı dua

## Günahı kiçik saymaqdan çəkinmək lazımdır

İnsanın günah hissi keçirməsi üçün, mütləq, uzun illər günaha qərq olmasına ehtiyac yoxdur. Xeyr, belə deyil, bir günahın özü də günahdır. Günahı kiçik saymaq olmaz. Hədis kitablarında "günahın kiçik sayılması" fəsilləri var və həmin hədislərdə günahın kiçik sayılması məzəmmət edilib. Allah-taalanın günahı bağışlamasının səbəbi onun kiçik və əhəmiyyətsiz olması deyil, Allaha tərəf qayıtmağın çox mühüm olmasıdır. Günah çox təhlükəli işdir. Amma Allaha tərəf qayıtmaq və Onu yada salmaq o qədər mühümdür ki, əgər kimsə onu tam sədaqət və səmimiyyətlə etsə, həmin ağır "xəstəlik" sağalar. Buna görə də görülmüş hər hansı bir yaxşı işə görə qürrələnmək insanın Allahdan bağışlanma diləmək barədə düşünməməsinə səbəb olur. Hələ biz məsələnin o tərəfini demirik ki, həmin yaxşı işin yaxşı iş olması da tam məlum deyil və ola bilər o elə də yaxşı və ya əhəmiyyətli olmasın.

İmam Səccad başqa bir duada Allaha belə deyir: "İlahi, Sən elə bir məqam sahibisən ki, Sənin qarşında hətta doğruçular belə qürrələnməməlidirlər".[1] Görün bu dua məsələni necə gözəl bəyan edir, onda necə gözəl maarifləndirmə var. Yol budur! İmam buyurur ki, doğruçular Allahın bəndələri arasında yüksək məqam sahibidirlər, amma buna baxmayaraq, onlar da qürrələnməməli, "biz Allahın yolu ilə düz gedirik və daha bir iş görməyə, çalışmağa ehtiyac yoxdur" deməməlidirlər.[2] Xeyr! "Sənin qarşında hətta doğruçular belə qürrələnməməlidirlər". Bu da insanın Allahdan bağışlanma diləməsinə mane olur. Əgər qəflət olmasaydı, insan Allah qarşısında qürrələnməz,

1. Səhifeyi-Səccadiyyə, 39-cu dua
2. Biharul-ənvar, c. 80, səh. 342

özü haqqında yüksək fikirdə olmaz, nəticədə Allahdan bağışlanma diləyərdi.

## Allahdan bağışlanma diləməyin fərqi

Allahdan dildə deyil, həqiqi mənada bağışlanma diləmək işlərin düyününün açılmasına səbəb olur. Təsəvvür edin ki, böyük bir probleminiz var və onun həll olmasını Allah-taaladan istəyirsiniz. Məsələn, Allah eləməmiş, sizin əzizlərinizdən birinin çətinliyi var, adi həll yollarını da sınaqdan keçirmisiniz, amma həll edə bilməmisiniz. İndi Allaha üz tutmusunuz və dua edirsiniz. İndi təsəvvür edin, kiminsə övladı, ya əzizlərindən biri bir xəstəliyə tutulub və Allah dərgahına üz tutaraq dua edir. O, dua edib hacətini Allahdan necə istəyər? Allahdan günahların bağışlanmasını da elə istəyin. Günahların bağışlanmasını Allahdan səmimi-qəlbdən istəyin və həmin günahı bir daha təkrarlamamaq qərarına gəlin.

Əlbəttə, ola bilər, insan günah etməmək qərarına gəlsin, amma sonra yenidən ayağı büdrəsin və həmin günahı təkrar etsin, sonra yenə tövbə etsin. Əgər insan tövbəsini yüz dəfə pozsa da, yüz birinci tövbə üçün qapı açıqdır. Amma tövbə edib Allahdan bağışlanma diləyəndə niyyətiniz indi tövbə edib sonra həmin səhv iş və günahı təkrarlamaq olmamalıdır. Bu, düz deyil.

İmamlardan nəql edilmiş belə bir hədis oxudum: “Dildə Allahdan bağışlanma diləyib qəlbində peşman olmayan kəs özünü araya qoyub”.[1] Belə də bağışlanma diləmək olar?! Bu, bağışlanma diləmək deyil. Allahdan bağışlanma diləməyin mənası insanın həqiqətən və ciddi şəkildə

1. Biharul-ənvar, c. 75, səh. 356

Allahdan onu bağışlamasını diləməsidir. İnsan həmin işi təkrarlamaq barədə necə fikirləşə bilər?! Onun Allahdan bağışlanma diləməyə üzü gələr?!

Şair demişkən:

*Əldə təsbeh, dildə tövbə, qəlb günah şövqü ilə doludur;*
*bizim bu bağışlanma diləməyimizə günahın gülməyi gəlir.*

Bu necə bağışlanma diləməkdir?! Bu bağışlanma diləyi yetərli deyil. Bağışlanma istəyi ciddi və həqiqi olmalıdır. Özü də o hansısa xüsusi zümrəyə aid deyil. Buna görə də bütün insanların deyil, çox günah edənlərin bağışlanma diləməli olduğunu demək olmaz. Hətta Peyğəmbər Allahdan bağışlanma diləməlidir: *"Allah sənə aid edilən əvvəlki və sonrakı günahları bağışlasın"*.[1] Bəli, Peyğəmbər də Allahdan bağışlanma diləməlidir.

Allahdan bağışlanma diləmək ya yerinə yetirilən günaha görə olur, ya da əxlaqi günahlara görə. Əgər hər hansı bir şəxs heç bir günah etməsə – yalan danışmasa, qeybət etməsə, zülm etməsə, əyri iş görməsə, şəhvətpərəstlik etməsə, heç kəsə qarşı hörmətsizlik göstərməsə, heç kəsin malına əl uzatmasa – belə, yəni bədən üzvləri ilə günah etməsə də – əlbəttə, bu cür adamlar çox azdır – əxlaqi günahlar edir. Əgər heç bir günah etməyən həmin şəxs cəmiyyət arasına çıxanda insanlara baxıb: "Bu yazıq insanların hamısı günah etməklə məşğuldur, amma, Allaha şükür, biz özümüzü saxlamışıq və günah etmirik" – desə, yəni özünü onlardan üstün hesab etsə, bunun özü günah və tənəzzüldür; ona görə Allahdan bağışlanma diləmək lazımdır. İnsanları təhqir etməyə, özünü başqalarından üstün hesab etməyə, öz işini başqalarının işindən yüksək

1. Fəth, 2

qiymətləndirməyə, eləcə də bəzi insanlarda olan paxıllıq, tamahkarlıq, xudbinlik kimi çirkin xüsusiyyətlərə görə Allahdan bağışlanma diləmək lazımdır.

Tutaq ki, hər hansı bir şəxs bu günahların heç birini etmir, amma, məsələn, tövhid elmində irəliləyişi də yoxdur. Bunun özü də bir qüsurdur və ona görə Allahdan bağışlanma diləmək lazımdır. Tövhid elmi və Allahla tanışlıq məhdud elm deyil. O, sonsuz elmdir və bütün peyğəmbərlər və övliyalar bu yolda irəliləyiblər, Allah və Onun kamal sifətləri barədə daha çox məlumat əldə etmək istiqamətində çalışıblar. Buna görə də həmin şəxsin bu yolda çalışıb irəliləməməsi qüsur, gerilik, mənəvi iflasdır və ona görə Allahdan bağışlanma diləmək lazımdır.

Allahdan bağışlanma diləmək hamıya aiddir. Buna görə də məsum imamlar dualarda çox ah-nalə ediblər. Bəziləri elə bilir ki, İmam Səccad bu ah-naləni başqalarına öyrətmək üçün edib. Bəli, onlar həm forma, həm də məzmun baxımından başqalarına öyrətmək məqsədi də daşıyır, amma məsələnin kökü bu deyil. Məsələnin kökü bu əməlisaleh, ülvi və alicənab bəndənin vücudunda olan ehtiyacdır. Bu ah-nalə onun özünə aiddir. Allah qarşısında yalvarıb-yaxarmaq onun özünə aiddir. Allahın əzabından qorxmaq, Allaha yaxınlaşmaq və Onun razılığını əldə etmək onun özünə aiddir. Məsələn, ola bilər, həyatda halal ləzzət və halal işlərə həddən artıq diqqət etmək həmin yüksək məqam sahiblərinin gözündə bir növ tənəzzül sayılsın. Həmin ülvi məqam sahibi olan şəxs arzulayır ki, kaş zəruri maddi şeylərdən asılı olmayaydı, halal şeylərə və adi məişət ehtiyaclarına heç möhtac olmayıb mərifət və sonsuzluq vadisində Allahın razılığı və ilahi mərifət Cənnətinə doğru hərəkət edəydi. Bu, baş vermədiyi üçün

o, Allahdan bağışlanma diləyir. Buna görə də bağışlanma hamıya aiddir.

Əzizlərim, Allahdan bağışlanma diləmək üçün ramazan ayını qənimət bilin və Ondan bağışlanma diləyin... Hamınız Allahdan bağışlanma diləyin. Həm ibadət əhli olanlar, həm orta həddə ibadət edənlər, həm ibadət etməkdə tənbəllik edənlər, həm minimum ibadətlə keçinənlər, hətta, Allah eləməmiş, bəzən vacib ibadətlərin bəzisini tərk edənlər, bir sözlə, hamı bilməlidir ki, işlərin inkişaf amili onlarla Allah arasındakı əlaqədir. Allah-taaladan bağışlanma diləyin, Ondan sizi əfv etməsini istəyin. Allahdan arada olan günah maneəsini aradan qaldırmasını, lütf günəşinin şüaları qəlb və canlara saçsın deyə bu buludu yox etməsini istəyin. Onda siz yüksəliş və izzətin yarandığının şahidi olacaqsınız...

## Allah dərgahına dua

İlahi, bizi Özünün əməlisaleh bəndələrindən et! İlahi, bizə həqiqi tövbə, Sənə tərəf qayıtmaq və Səndən bağışlanma diləmək şərəfi nəsib et! İlahi, Sənin lütf və mərhəmət nurun həmişə müxtəlif istiqamətlərdən bu xalqa şüa saçıb, onu bundan sonra daha çox et! İlahi, bizim səhlənkarlıqlarımızı, nöqsanlarımızı və israflarımızı bağışla! İlahi, bizim xəta, nadanlıq, elmsizlik və səhlənkarlıqlarımızı Öz əfv və rəhmətinlə bağışla! İlahi, cəmiyyətdə və burada olan yaxşı insanların ehtiramına qəlbimizdən nadanlıq və zülmət toz-torpağını təmizlə! İlahi, bizə Səni tanımaqda kömək ol! İlahi, bizə Sənin yolunda, kamil insanlıq yolunda hərəkət etməyi nəsib et. İlahi, günahlarımızı bağışla! İlahi, bu xalqa Öz xeyir və bərəkətini gündən-günə daha artıq nazil et!

İlahi, bu xalq, bu ölkə və bu inqilaba düşmən olanların, Səndən uzaq, Səninlə "küsülü" olan və bu xalqla Səninlə əlaqəsi olduğuna görə düşmən kəsilənlərin şərini bu xalqdan uzaq et, onların şərini öz başlarında çatlat, bu xalqı bütün meydanlarda qalib et! İlahi, bu ayda bizə Quranla ünsiyyətdə olmağı, Quranın təlimlərinə yaxın olmağı nəsib et. İlahi, Öz rəhmət və inayətini ölüb-gedənlərimizə, xüsusilə İmam Xomeyni və əziz şəhidlərimizə şamil et.

*Tehranın cümə namazının xütbələrindəki çıxşdan*
*17.I.1997*

# Həzrət Əlinin Allahdan bağışlanma diləməsi

Əmirəl-mömininin xüsusiyyətlərindən biri də Allahdan bağışlanma diləmək olub. Mən bu xütbənin sonunda bu barədə bir neçə kəlmə danışmaq istəyirəm. Əmirəl-mömininin dua və tövbə etməsinin, Allaha tərəf qayıdaraq Ondan bağışlanma diləməsinin əhəmiyyəti böyükdür. Əmirəl-möminin döyüşkən və mübariz şəxsiyyət olub, döyüş və siyasət meydanlarının bəzəyi olub, beş ilə yaxın müddət ərzində həmin dövrün ən böyük ölkələrindən birinə rəhbərlik edib. Əgər siz bu gün o həzrətin hakimiyyəti altında olmuş ərazilərə baxsanız, onun indi təxminən on ölkənin ərazisindən ibarət olduğunu görərsiniz. Əmirəl-möminin belə böyük ərazini əhatə edən böyük və ideal siyasətçi olub və çoxsaylı işlərinə baxmayaraq, böyük bir ərazini idarə edib. Əmirəl-mömininin həm siyasət meydanında, həm etdiyi döyüşlərdə, həm ictimai fəaliyyətində, həm insanlar arasında hökm çıxarmasında, həm də cəmiyyətdə insanların hüquqlarını qorumaqda

örnək olub. Bunlar çox böyük işlərdir, insandan böyük vaxt və yüksək əzmkarlıq tələb edir, insanı daim özünə məşğul edir. Birtərəfli adamlar belə yerlərdə: “Bizim dua və ibadətimiz də budur; biz Allah yolunda iş görürük, Allaha xatir çalışırıq” – deyirlər. Amma Əmirəl-möminin belə buyurmur. O həzrət həmin işləri görməkdən əlavə, ibadətlə də məşğul olur. Bəzi hədislərdə – əlbəttə, mən bu məsələni və həmin hədislərin nə qədər mötəbər olduğunu tam araşdırmamışam – Əmirəl-mömininin gün ərzində min rükət namaz qılması nəql edilib.

Kitablarda gördüyünüz bu dualar onun adi dualarıdır. O, gənc yaşlarından dua və raz-niyaz edib, Allaha üz tutub. Əmirəl-möminin həmin vaxt da müxtəlif işlərlə məşğul olub. Əli həzrət Peyğəmbərin zamanında inqilab ruhlu bir gənc olub və bütün meydanlarda aparıcı qüvvələrdən olub. O həmişə müəyyən işlərlə məşğul olduğundan boş vaxtı olmayıb. Amma elə həmin vaxtlarda da: “Peyğəmbər səhabələri arasında kim hamıdan çox ibadət edir?” – deyə soruşanda Əbu Dərda ayağa qalxaraq: “Əli”, – deyə cavab verib. Ondan bunun səbəbini soruşublar. O, misallar çəkib və Əlinin hamıdan çox ibadət etməsi barədə hamını qane edəcək dəlillər təqdim edib. O, gənclik dövründə, iyirmi neçə yaşı olanda da belə olub, sonra – xilafət dövründə də.

Əmirəl-mömininin ibadətləri barədə Nauf Bikalı və başqalarından müxtəlif hekayətlər nəql edilib. Böyük alimlər “Səhifeyi-Ələviyyə” adlı kitab hazırlayıblar. Bu kitabda Əmirəl-mömininindən nəql edilmiş dualar toplanıb. Onlardan biri də sizin cümə axşamları oxuduğunuz “Kümeyl” duasıdır. Mən bir dəfə İmam Xomeynidən soruşdum: “Siz mövcud dualar arasında hansı duanı daha çox bəyənir və əzəmətli hesab edirsiniz?” O bir az

dayanıb buyurdu: "İki duanı: bir "Kümeyl" duasını, bir də "Şabaniyyə" minacatını. Çox güman ki, "Şabaniyyə" minacatı da Əmirəl-möminindən nəql edilib. Çünki hədislərdə deyilir ki, "Şabaniyyə" minacatını bütün imamlar oxuyublar. Böyük ehtimalla, o da Əmirəl-mömünindəndir. Onun sözləri və məzmunu da "Kümeyl" duasının sözlərinə və məzmununa bənzəyir. "Kümeyl" duası da heyrətamiz duadır. Dua Allahdan bağışlanma diləyi ilə başlayır. Onda Allah on şeyə and verdirilir. Baxın, mənim ötən həftə qeyd etdiyim bağışlanma diləyi budur. "Allahım, Səni hər şeyi əhatə edən rəhmətinə and verdirərək Səndən istəyirəm..."[1] Allahı rəhmətinə, qüdrətinə, əzəmətinə – on böyük sifətinə – and verdirir, sonra buyurur: "Allahım, pərdələri yırtan günahlarımı bağışla; Allahım, əzabların nazil olmasına səbəb olan günahlarımı bağışla; Allahım, duamı həbs edən günahlarımı bağışla".[2] Əmirəl-möminin burada Allaha beş növ günahdan danışır: duanın qarşısını alan günahlar, əzabın nazil olmasına səbəb olan günahlar... Yəni duanın əvvəlindən Allahdan bağışlanma diləyir və bu istək duanın sonuna kimi davam edir. "Kümeyl" duasının əsas məzmunu Allahdan bağışlanma diləməkdir. Bu, çox təsirli minacatdır.

## Kamil və uca insanın xüsusiyyəti

Əzizlərim! Ən uca və kamil insan Allah yolunda hərəkət edib Allahı özündən razı salan, nəfsi istəklərinin əsirinə çevrilməyən insandır. Dürüst və kamil insan odur. Nəfs, qəzəb, şəhvət, istək və hisslərinin əsirinə çevrilən insan

1. əs-Səhifətul-ələviyyə vət-tohfətul-murtəzəviyyə, səh. 196
2. İqbalul-əmal, c. 2, səh. 707

hətta zahirdə böyük məqam sahibi olsa belə, həqir və kiçik insandır. Əgər dünyanın ən böyük və ən zəngin ölkəsinin prezidenti nəfsi istəkləri ilə mübarizə apara bilmirsə, nəfsi istəklərinin əsiridirsə, kiçik insandır. Amma nəfsi istəklərinin öhdəsindən gələn və Allahın insanın kamillik yolundan ibarət doğru yol ilə gedən yoxsul şəxs böyük insandır.

Allahdan bağışlanma diləmək sizi bu həqirlikdən xilas edir; bağışlanma diləmək bizi bu əsarət zəncirlərindən və buxovlardan azad edir; bağışlanma diləmək Allahın sizə verdiyi nurlu qəlbinizin paslarını təmizləyir. Qəlb deyəndə, can, ruh, insanın həqiqi mahiyyəti nəzərdə tutulur. O, çox nurludur. Bütün insanlar nurludurlar. Hətta Allahla əlaqə və tanışlığı olmayan insanın zatında nur var, amma Allahı tanımamaq, günah və nəfsi istəklərə tabe olmaq nəticəsində o, kirlənir. Allahdan bağışlanma diləmək həmin kirləri təmizləyir, qəlbə nur verir.

## Ramazan Ona tərəf qayıtmaq ayıdır

Ramazan ayı Allahdan bağışlanma diləmək, dua və Ona tərəf qayıtmaq ayıdır. Qədr gecəsi olma ehtimalı olan gecələrin ikisi – on doqquz və iyirmi birinci gecələr artıq arxada qaldı, amma iyirmi üçüncü gecə qabaqdadır. Həmin gecənin qədrini bilin. İyirmi üçüncü gecənin əvvəlindən – gün batandan ilahi əmin-amanlıq – *“sübh açılanadək əmin-amanlıq (bərəkət və rəhmət dolu) olan bir gecədir”*[1] – başlayır və o, sübh azanına kimi davam edir. Arada olan bu neçə saat Allahın yaradılış aləmi üzərində qurulmuş əmin-amanlıq və rəhmət çadırıdır. Qədr gecəsi heyrətamiz

1. Qədr, 5

gecədir. O, min aya bərabər deyil, min aydan da yaxşıdır. *"Qədr gecəsi min aydan xeyirlidir".*[1] İnsanın min aydan ibarət həyatı nə qədər bərəkət mənbəyi ola bilər, Allahın mərhəmətini özünə nə qədər cəlb edə bilər? Bu bir gecə min aydan da xeyirlidir. Bu, çox mühüm məsələdir. Buna görə də həmin gecənin qədrini bilin və onu dua etməklə, yaradılış nişanələrinə diqqət etməklə, bu barədə, insanın taleyi haqda, Allahın insandan istəyi, bu maddi həyatın vəfasızlığı və gördüyünüz hər şeyin can verərək qapıları üzünüzə açılacaq o biri aləm üçün müqəddimə olması barədə düşünməklə keçirin.

Əzizlərim, biz can verəndə başqa aləmə daxil olacağıq. Buna görə də gərək özümüzü həmin günə hazırlayaq. Bütün dünya, bütün sərvətlər, Allahın bu aləmdə sizin vücudunuzda əmanət qoyduğu bütün enerjilər, Allahın insanlar üçün istədiyi şeylərin hamısı – ədalətli hökumət, rahat həyat və başqa şeylər – insanın özünü o biri aləmə hazırlamaq xarakteri daşıyır. Özünüzü o biri aləmə hazırlayın, Allahla ünsiyyətdə olun, minacat edin, qəlbinizi təmizləyin, zikr edin, bağışlanma diləyin. Allaha belə üz tutan, qəlbini təmizləyən, günahdan üz döndərən, yaxşı işlər görmək qərarına gələn şəxslər bu dünyada problemlərlə qarşılaşanda onlarla mübarizə apara bilən əzəmətli varlıqlardır. Onlardan biri də İmam Xomeyni olub. Bizim cəmiyyətdə yaşayan möminlər də onun nümunələrindəndir. Bu mömin və yorulmaz gənclər, qadın və kişilər, şəhidlər, müharibə əlilləri, ağır həyat şəraiti olan həbsxanalarda əsirlikdə olanlar, əzizlərindən uzaq düşən şəxslər, döyüş meydanının çətinliklərinə qatlaşanlar, sizin bu gün min nəfərinin dəfn mərasiminə

1. Qədr, 3

toplaşdığınız kəslər də onun nümunələrindəndir. Onların hər biri bariz və gözəl nümunədir. Bu cür şəhidi olan xalq onun qədrini bilməli, onu dəyərləndirməli və özünə örnək götürməlidir.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*31.I.1997*

# Fitr bayramı paklıq, təmizlik günüdür

Fitr və qurban bayramları barədə nəql edilənlərdən ümumilikdə belə məlum olur ki, bu bərəkətli gün mənəvi paklıq, təmizlik günüdür. Bayram namazında oxunan iki surənin birində belə buyururlar: *"Həqiqətən, günahlardan təmizlənən şəxs uğur qazanmışdır"*.[1] "Uğur" deyəndə həyat meydanında müvəffəqiyyət qazanaraq yaradılışın məqsədinə çatmaq nəzərdə tutulur. İkinci rükətdə oxunan surədə də həmin məna eyni ilə belə bəyan edilib: *"Nəfsini təmizləyən uğur qazanmışdır"*.[2] Hər iki surədə söhbət paklıq və təmizlikdən gedir.

Bu gün həm də mala aid vacib bir iş də görülməli, yəni fitrə zəkatı verilməlidir. Zəkat da insanın paklanmasına, təmizlənməsinə səbəb olan maliyyə əməliyyatıdır: *"Onların mallarından sədəqə (zəkat) al ki, bununla onları təmizləmiş, pak etmiş olasan"*.[3] İnsanlardan bu vacib malın alınması onların

1. Əla, 14
2. Şəms, 9
3. Tövbə, 103

ruhlarının paklanmasına, pis xüsusiyyətlərdən, hərislik, simiclik və başqa xoşagəlməz çirkinliklərdən arınmasına səbəb olur.

Əziz qardaş və bacılar! Ey möhtərəm namaz iştirakçıları! Deməli, fitr bayramı paklıq və təmizlik günüdür. Ola bilər, bu paklığın səbəbi sizin bir ay oruc tutmağınız, günahlardan çəkinməyiniz, özünüzü çirkinliklərdən təmizləməyiniz olsun. Ola bilər, digər bir səbəb sizin bu ibadət meydanına gəlib camaatla birlikdə ibadət etməyiniz olsun. Hər halda əsas məsələ müsəlmanın bu ayın sonunda, fitr bayramı günü arınmış halda olmasıdır.

Siz özünüzü çirkinliklərdən təmizləmisiniz. Əgər orucu qaydasında tutsanız və bayram namazını qaydasında qılsanız – inşallah ki, elə də etmisiniz – bu paklıq yaradar. Bu paklığın qədrini bilin. İnsan bu paklıq sayəsində nicat tapır, əks halda çirkinlik – şəhvət və qəzəbdən, hərislik, paxıllıq və digər xoşagəlməz əxlaqi sifətlərdən doğan çirkinliklər nəticəsində bəlalara düçar olur. İnsanlar bu çirkin əxlaqı sifətlərlə dünyanı zülmətə çeviriblər, yer üzünü çirkləndiriblər, Allahın nemətlərinə nankorluq ediblər.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*9.II.1997*

# Ramazan mənəvi yüksəliş üçün xüsusi fürsətdir

Ramazan ayı bərəkətli aydır. Ramazan ayının bərəkəti bu ayda ilahi ziyafətdə iştirak etmək istəyən müsəlmanlardan, qəlblərdən başlayır. Bu ayın bərəkətinin təsir etdiyi ilk həqiqət möminlərin, oruc tutanların, bu ayın müqəddəs və bərəkətli mühitinə qədəm basanların ruh və qəlbidir. Bu ayda həm Quran oxumaq, həm də bu ayda oxunması tövsiyə edilən dualarla ünsiyyətdə olmaq insanı mənəvi cəhətdən təmizləyir, paklayır. Bu paklığa bizim hamımızın ehtiyacı var.

Bu ayda təqva tədarükü görməyə bütün müsəlmanların ehtiyacı var. Amma biz ruhanilərin buna başqalarından daha çox ehtiyacımız var. Məşhur ariflərdən birinin[1] dili ilə desək, Allahın nemətlərindən olan su bütün çirkləri yuyub aparır. Su ilə ünsiyyətdə olan hər şey təmizlənir. Amma su da çirklənəndə təmizlənməyə möhtac olur. Allah-taala təbii olaraq suyu buxara çevirir, göyə aparır, sonra

1. Cəlaləddin Rumi nəzərdə tutulur. O öz "Məsnəvi"sində bu məsələyə toxunub.

yenidən yağış damcıları şəklində yerə qaytarır, çirkləri ondan ayırır, onu təmizləyir, saf və təmiz su kimi insan və digər varlıqların ixtiyarında qoyur.

Bu hikmətli sözün müəllifi deyir: sizin canınız, elminiz, nəsihətləriniz, hətta ruh və qəlbiniz çirkləri insanlardan uzaqlaşdıran təmiz sudur. Amma həmin pak suyun özü tədricən təmizlənməlidir. Onun təmizlənməsi və saflaşması yalnız mənəvi yüksəliş ilə, yalnız yüksəkliklərə doğru mənəvi hərəkət ilə – o da ancaq dua və zikr ilə əldə edilir – mümkündür. Bu pak su zikr, dua, minacat, nafilələr, Allaha yalvarıb-yaxarmaq, insanın öz vücudunda və kainatda olan nişanələr barədə fikirləşməsi ilə öz təmizliyini yenidən bərpa edir, yenidən çirkinliklərlə qarşılaşmaq və insanın cisim və ruhundakı çirkləri təmizləmək qabiliyyəti əldə edir. Buna görə də ramazan ayı bu mənəvi yüksəliş üçün fürsətdir.

Əslində, fürsət həmişə var, şaban və rəcəb ayları da elədir. Zikrlə və ibadətlə məşğul olan şəxslər üçün ilin digər günləri də həmin xüsusiyyətə malikdir. *“Sən ancaq Allahın bu xatırlatmasına tabe olub mərhəmətli Allahdan gizlində qorxan şəxsi qorxuda bilərsən”*. Allahı xatırlamaq, yada salmaq və diqqəti Ona yönəltmək insanın qurtuluşuna səbəb olur. İlin bütün günlərində, bütün gecələrdə, gecə yarılarında Quran oxumaq, onun ayələri barədə fikirləşmək, bu zəngin mənalı və aşiqanə duaları, xüsusilə “Səhifeyi-Səccadiyyə”dəki duaları oxumaqla bu batini paklığa nail olmaq olar. Amma ramazan ayı xüsusi fürsətdir. Bu ayın gecələri, gündüzləri, saat və dəqiqələri insan, xüsusilə gənclər üçün bir nemətdir.

Gəncliyinizi Allahın yardımı ilə din və şəriətin təbliğatı yoluna həsr etmiş siz gənc ruhanilər bu aydan çox istifadə

etməli, ramazan ayına daxil olmamışdan qabaq yerdə qalan bu bir neçə gündə özünüzdə hazırlıq işləri görməlisiniz. Siz mənim kimilərdən daha hazırlıqlısınız: həm ruhi baxımdan hazırlıqlısınız, həm məşğuliyyətiniz azdır, həm də daha mənəviyyatlısınız. Bunun qədrini bilin, onu qənimət sayın, özünüzü daha ağır yüklər götürməyə, daha böyük işlər görməyə hazırlayın. Bu cəmiyyətin, ölkənin, dünyanın və tarixin sizin müqəddəs səylərinizə çox ehtiyacı var. Bu fürsətlərdən maksimum istifadə etmək lazımdır.

*Bir dəstə ruhani ilə görüşdəki çıxışdan*
*24.XII.1997*

# Ramazan ayına daxil olmaq nemətinin şükrü

İlahi, bizə daha bir ramazan ayına daxil olmaq fürsəti verdiyin üçün bütün vücudumuzla, bütün hiss və duyğularımızla Sənə şükür edirik. Əgər Allahın bu böyük nemətinin ardınca biz ilahi ziyafətdən bu dəfə, həqiqətən, istifadə edə və Allahın nemət və ehsan süfrəsindən bəhrələnə bilsək, ömrümüzün sonuna kimi dayanmadan şükür etsək də, onun şükrünü layiqincə yerinə yetirə bilmərik. Bu ilahi qonaqlığa daxil olmaq münasibəti ilə namazda iştirak edən siz əziz qardaş və bacıları təbrik edirəm.

Birinci xütbədə hər şeydən əvvəl siz əziz qardaş və bacılara təqvalı olmağı tövsiyə edirəm. Oruc tutmaqda məqsəd təqva əldə etməkdir. Ramazan ayının ən böyük məhsulu təqvadır. Ümid edirəm ki, biz bu ayın bərəkəti ilə öz danışıq və davranışımıza, hiss və düşüncələrimizə ilahi təqva və nəzarəti hakim edib özümüzü insani kamilliyə bir addım yaxınlaşdıra biləcəyik.

Daha sonra oruc barəsində söhbət edəcəyəm. Oruc bu ayın ən əsas işi hesab edilir.

Allah-taala insanı elə yaradıb ki, onun tərbiyəyə ehtiyacı var. O həm kənardan, həm də daxildən özü özünü tərbiyə etməlidir. Mənəvi məsələlərdə bu tərbiyə iki istiqamətdə aparılmalıdır. Onlardan biri insanın düşüncə və əqli qüvvələrinin tərbiyə edilməsi, yəni inkişaf etdirilməsi, yetişdirilməsidir. Tərbiyənin bu növü təlim yolu ilə qazanılır. Onun ikinci cəhəti nəfs, qəzəb, şəhvət və ruhi qüvvələrinin tərbiyə edilməsidir. Tərbiyənin bu növünün adı "təzkiyə" (təmizləmə)dir.

İnsan potensialı olan yararlı xammal kimidir. Əgər insan da zavodda düzgün istifadə edilərək lazımi formaya salınan həmin xammal kimi düzgün təlim və təzkiyə görsə, özünün kamillik zirvəsinə çatar. Belə ki, onun vücudu həm bu dünyada xeyir və bərəkət mənbəyi olar, dünya və insanların qəlbini abadlaşdırar, həm də axirət aləmində. O əvvəldən bu günə kimi bütün insanların arzusunda olduğu aqibətlə üzləşər, yəni nicat tapar, əbədi xoşbəxt Cənnət həyatına qovuşar. Buna görə də əvvəldən peyğəmbərlərin sonuncusu həzrət Məhəmmədə kimi bütün peyğəmbərlər məqsədlərinin təlim və təzkiyə olduğunu deyiblər. *"Allah möminlərə onların öz içərisindən Allahın ayələrini onlara oxuyan, onları (pis əməllərdən) təmizləyən, Kitabı (Quranı) və hikməti onlara öyrədən bir peyğəmbər göndərdiyi vaxt minnət qoydu (böyük bir nemət bəxş etdi)."*[1] Onlar insanları həm əqli və intellektual cəhətdən, həm də ruhi cəhətdən tərbiyə etmək istəyiblər.



1. Ali-İmran, 164

## Oruc kamillik əldə etmək üçün mənəvi idmandır

Bizə yerinə yetirilməsi əmr edilən bütün ibadətlər və dini vəzifələr, əslində, həmin "təzkiyə" və ya tərbiyə üçün vasitədir. Onların hamısı bizim kamilləşməyimiz üçün idmandır. İdman etməyəndə sizin cisminiz zəifləyir, gücdən düşür, kövrəlir. Siz cisminizin güclü, gözəl, qüvvətli olmasını, öz qüvvə və istedadlarını büruzə verməsini istəyirsinizsə, idman etməlisiniz. Namaz, oruc, sədəqə, günahlardan çəkinmək, yalan danışmamaq, insanlara qarşı xeyirxah olmaq da idmandır. Ruh bu idmanlarla gözəlləşir, güclənir və kamilləşir. Əgər bu idmanlar yerinə yetirilməsə, zahirdə gözəl görünsək də, batinimiz naqis, zəif, və həqir olacaq. Bu idmanların biri də orucdur.

Oruc insanın ancaq yeyib-içməməsindən ibarət deyil. Yeyib-içməmək niyyət üzündən olmalıdır. Yoxsa ki, siz başınız qarışıq olduğu və vaxtınız olmadığı üçün 12-15 saat heç nə yeyə bilməyəndə sizə heç bir savab verilmir. Amma yeyib-içməkdən çəkinmək niyyətlə yerinə yetiriləndə, niyyətin ardınca əməl gələndə o sizə dəyər verən və ruhunuzu qiymətli edən parlaq gövhərə çevrilir.

Niyyət orucun şərtidir. Niyyətin mənası nədir? Yəni bu əməli, bu hərəkəti, yeyib-içməkdən çəkinməyi, bu məşqi Allaha xatir, Onun yolunda və Allahın əmrini yerinə yetirmək üçün etmək. Bu niyyət bütün işlərə dəyər verir. Buna görə də bərəkətli ramazan ayının birinci gecəsinin duasında belə deyirsiniz: "Allahım, bizi niyyət edib əməl edənlərdən et, bədbəxtliyə düçar olub tənbəllik edənlərdən etmə".[1] Tənbəllik, həvəssizlik və süstlük bütün işlərdə –

1. əl-İqbal bi-əmalil-həsənə, c. 1, səh. 76

istər mənəvi iş olsun, istər maddi – bədbəxtliyə səbəb olur.

Oruc ən yaxşı işlərdəndir. Oruc zahirdə heç bir iş görməmək olsa da, onun batini əməl və müsbət işdən ibarətdir. Çünki siz bu işin niyyətini etmisiniz. Buna görə də orucluq meydanına daxil olandan, yəni dan yeri söküləndən günün sonuna kimi həmin niyyətə görə daim ibadət halında olursunuz. Hətta yatanda da, yol gedəndə də ibadət edirsiniz.

Həzrət Peyğəmbərin belə buyurması nəql edilib: "Bu ayda sizin nəfəsiniz zikr, yuxunuz ibadətdir".[1] Yuxu necə ibadət ola bilər?! Nəfəs almaq necə "subhanəllah" demək ola bilər?" Bunun səbəbi sizin bu meydana niyyət edərək daxil olmağınızdır. Siz bikar olanda, heç bir iş görməyəndə belə həmin niyyətinizə görə ibadətdə sayılırsınız.

Başqa bir hədisdə belə buyurulub: "Oruc tutmuş şəxsin yuxusu ibadət, susması zikrdir".[2] Siz oruc olanda, sussanız belə, "subhanəllah" deyən kimisiniz. "Onun əməli qəbul, duası yerinə yetirilər". Sizin sükutunuz da, nəfəs almağınız da, yatmağınız da ibadətdir. Niyə? Çünki siz otuz günlük ramazan ayında Allaha xatir yeyib-içməkdən çəkinməyi, bəzi fiziki həzlərdən imtina etməyi təcrübədən keçirirsiniz.

Bu və digər ibadətlərin hamısı insanın nəfsi istəklərlə və onu alçaqlığa sövq edən, əsir edən həzlərlə mübarizə aparması üçündür. İnsanın öz nəfsini başlı-başına buraxması hünər deyil; insanın imkan daxilində hər şeydən həzz alması onun üçün kamillik deyil, heyvani xüsusiyyətdir. Bu iş insanın heyvani cəhətini gücləndirir. Əlbəttə, heyvani cəhət də bizimdir və bizdən ondan imtina etmək istənilməyib. Yemək, içmək, istirahət

1. Əmali, Səduq, səh. 93
2. Səvabul-əmal, səh. 727

etmək, halal ləzzətlərdən həzz almaq da vücudumuzun bir parçasıdır. Onda bir eyib yoxdur və bunu bizə heç kəs qadağan etməyib. Qadağan edilən şey insanın bu cəhətdə qərq olmasıdır. Maddi şeylərə uymaq insanı bu cəhətdə qərq olmağa sövq edir. Dinlər və əqli metodlar – ağıla əsaslanan ilahi üsullar – insanın həzlərdən və həyatda ürək istəyən şeylərdən istifadə etməkdə ixtiyarını əldən verməsinin və onun içinə yuvarlanmasının qarşısını alır. İnsanı həzlərdən bəhrələnməkdə özbaşınalığa dəvət edən istənilən çağırış, əslində, od, bədbəxtlik və məhvə çağırışdır. Peyğəmbərlərin və müdriklərin çağırışı, ümumiyyətlə, ilahi çağırışlar nəfsin bu həzlərdən çəkindirilməsi üzərində qurulub və oruc da onlardan biridir. Buna görə də hədislərdə ramazan ayı günahları tərk etmək üçün insanın məşq meydanı hesab edilib.

## Həqiqi oruc nədir?

Hədislərin birində İmam Sadiq, Məhəmməd ibn Müslimə belə buyurb: "Ey Məhəmməd! Sən oruc tutanda qulağın, gözün, dilin, ətin, qanın, dərin və saçın da oruc tutmalıdır".[1] İmam öz səhabə və şagirdinə buyurur ki, oruc tutanda yalan danışmamalı, möminləri bəlaya sürükləməməli, sadə insanları yoldan çıxarmamalı, müsəlman qardaşına və İslam cəmiyyətinə qarşı məkrli plan hazırlamamalı, bədxahlıq etməməli, qəlbiqara olmamalı, böhtan atmamalı, bir şey satanda aldatmamalı, əmanətə xəyanət etməməlisən. Ramazan ayında özünü yeyib-içməkdən, nəfsin istədiyi şeylərdən və cinsi münasibətlərdən saxlayaraq oruc tutan şəxsin dil, göz, qulağı, ümumiyyətlə,

1. əl-Muqniə, səh. 310

bütün bədən üzvləri oruc olmalı, özünü Allah dərgahında və günahdan uzaq hiss etməlidir. Hədisin davamında buyurur: "Oruc tutduğun gün oruc olmadığın adi günlər kimi olmamalıdır".[1] Ramazan ayında adi günlərdə davrandığın kimi davranmamalısan. Gərək nəfsini tərbiyə etməyə diqqət edəsən və bu fürsəti qənimət biləsən.

Başqa bir hədisdə belə deyilir: "Ruhun orucu beş duyğu orqanının digər günahlardan çəkinməsi və qəlbin bütün şər amillərdən arınmasıdır".[2] Əmirəl-möminin buyurur ki, ruhun orucu cisim və qarının orucundan fərqlidir. İnsanın ruhunun oruc olması bütün duyğu orqanlarının günahlardan çəkinməsi, qəlbin şər və fəsada səbəb olan amillərdən arınmasıdır. Gəlin həm Allah-taala, həm də Onun bəndələri ilə səmimi olaq. Bu barədə çoxsaylı hədislər nəql edilib.

Əziz bacı və qardaşlar! Gəlin bu fürsətdən istifadə edək. Ramazan ayı özümüzü Allaha yaxınlaşdırmaq, pisliklərdən uzaqlaşmaq və günahlardan təmizlənmək üçün çox böyük fürsətdir. Bu ayda oxunması tövsiyə edilən dualar, bu ayda müstəhəb olan bağışlanma diləyi – bunların hamısı fürsətdir. Ramazan ayı tezliklə sona çatacaq. Əgər gələn ramazana kimi sağ qalsanız, o da ildırım sürəti ilə gəlib gedəcək. Bu dəyərli fürsətlər əldən çıxacaq. Gərək onun bütün gün və saatlarından istifadə edəsiniz. Mən namazda iştirak edən siz qardaş və bacılara, xüsusilə gənclərə bu ilahi rəhmət baharından istifadə etməyi, Allahdan bağışlanma diləməyi tövsiyə edirəm. Allahın "qapı"sına gedin, bədən, ruh, fikir və qəlbinizin günahlarına görə Allahdan bağışlanma diləyin. Allahdan bu cür bağışlanma



1. əl-Muqniə, səh. 310
2. Təsnifu qürəril-hikəmi və dürəril-kəlim, səh. 176

diləyən və tövbə edən cəmiyyət nura boyanar və həmin nur sayəsində Allah o cəmiyyətə çoxlu xeyir nazil edər...

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*2.I.1998*

# Ramazan ayının əməllərinin dörd mühüm ünsürü

Namazda iştirak edən bütün qardaş və bacılara bu gün və gecələrdə Allahın möminlərə əta etdiyi bol bərəkətlərdən istifadə etməyi tövsiyə edirəm. Həmçinin sizlərə və özümə ilahi təqvaya riayət etməyi, Allahı unutmamağı, hamıya Allah qarşısında öz danışıq və davranışına diqqət etməyi, özünü yolda olan tikanlardan, uçurumlardan, insanın özünün sabitqədəmliklə və büdrəmədən rahatlıqla qət edə bilmədiyi yollarda qorumağı tövsiyə edirəm. İnsan gərək şəxsi və ictimai həyatında Allah-taalanın həmin uçurumlardan keçmək üçün təyin etdiyi vasitələrə diqqət etsin. Allah insanın özünü qoruması və məqsədə yaxınlaşması üçün bir sıra vasitələr müəyyənləşdirib. İnsan mənzilbaşına çatmaq üçün möminlərin ixtiyarında qoyulan imkanlardan istifadə etməlidir.

Bu işlərə diqqət etmək təqvadır. Dəfələrlə eşitdiyiniz kimi, ramazan ayının mühüm məqsədlərindən biri təqvanın əldə edilməsidir. *"Oruc, sizdən əvvəlkilərə vacib edildiyi kimi,*

*sizə də vacib edildi ki, təqvalı olasınız".*[1] Mən ramazan ayında Allah tərəfindən xüsusi əhəmiyyət verilən şeylərə, yəni ramazan orucuna, Quran oxumağa, nəql edilmiş duaların oxunmasına və Allah-taalanın mərhəməti sayəsində baş tutan təvəssüllərə diqqət edəndə görürəm ki, çox mühüm bu dörd ünsürün arasında – onlardan ramazan orucu vacibdir – bizim üçün ən çox əhəmiyyət daşıyanı Allahdan bağışlanma diləmək, aləmlərin Rəbbindən yol verdiyimiz səhlənkarlıq, nadanlıq, qüsurlara görə bizi əfv etməsini istəməyimizdir.

## Bağışlanma məsələsinin yada salınması

Mən keçən il bərəkətli ramazan günlərində tövbə və bağışlanma diləmək barədə geniş danışmışam. Buna görə də bu gün yenidən onun barəsində Quran və hədislərə əsaslanan nəzəri bəhs açmaq istəmirəm. Sadəcə əziz və mühüm qədr gecələri yaxın olduğu üçün Allahdan bağışlanma diləmək məsələsini bir daha yada salmaq istəyirəm.

Əziz qardaş və bacılar! İlk addım Allahdan bağışlanma diləmək və Ona tərəf qayıtmaqdır. Tövbənin mənası Allaha tərəf qayıtmağımızdır. Siz kamilliyin hansı səviyyəsində, hətta Əmirəl-möminin səviyyəsində olsanız da, Allahdan bağışlanma diləməyə ehtiyacınız var. Allah-taala Öz elçisinə belə buyurur: *"Günahının bağışlanmasını dilə!"*[2] Digər bir ayədə buyurur: *"Rəbbinə həmd və tərif de, Ondan bağışlanmağını dilə!"*[3] Quranda Allah-taala dəfələrlə həzrət Peyğəmbərə Allahdan bağışlanma diləməsi əmrini verib.



1. Bəqərə, 183
2. Ğafir, 55
3. Nəsr, 3

Peyğəmbərin məsum olmasına, günah etməməsinə və Allahın əmrindən çıxmamasına baxmayaraq, Allah-taala ona da: "Bağışlanma dilə", – deyə əmr edir.

Əlbəttə, Allah övliyaları və böyük şəxsiyyətlərin Allahdan bağışlanma diləmələrinin mənası başqadır və bunun özü ayrı bir mövzudur. Onlar bizim kimi günahlara görə bağışlanma diləmirlər. Onlar günah etmirlər. Onların məqamı yüksəkdir və onlar Allaha çox yaxındırlar. Onların məqamı yüksək olduğu üçün, ola bilər, bizə halal, hətta müstəhəb olan şeylər onlara icazəli olmasın. Bunu onların məqamı tələb edir. Buna görə də onlar Allahdan bağışlanma, özü də formal deyil, ciddi şəkildə bağışlanma diləməlidirlər!

"Kümeyl" duasına baxın. Hədislərə əsasən, bu dua Əmirəl-mömininin sözləridir. Əmirəl-möminin bu duaya Allahdan bağışlanma diləməklə başlayır, Allahı adlarına, qüdrətinə, əzəmətinə calal və camal sifətlərinə and verir, bu qədər anddan sonra Allahdan bağışlanma diləyir: "Allahım, pərdələri yırtan günahlarımı bağışla..."[1] Bu, böyük şəxsiyyətlərdən nəql edilmiş "Əbu Həmzə Sumali" duasında da, digər dualarda da belədir. Bizim Allahdan bağışlanma diləməyə ehtiyacımız var. Əziz möminlər! Ey pak qəlb sahibləri! Məbada qürrələnəsiniz və günah etmədiyinizi düşünəsiniz! Xeyr, elə deyil! Biz qüsur və günaha batmışıq. "Sənin nemətlərin müqabilində bizim əməllərimizin nə dəyəri var?!"[2] Bizim yaxşı sayıb yerinə yetirdiyimiz işlər Allahın nemətləri, şükür haqqı ilə müqayisədə dəyəri varmı?! Onları bir-biri ilə müqayisə edib dilə gətirmək olarmı?! Biz onların şükrünü yerinə

1. İqbalul-əmal, c. 2, səh. 707
2. İqbalul-əmal, c. 1, səh. 69

yetirə bilmərik. Bu əsla mümkün deyil! "Yaxşılıq edən Sənin rəhmətindən ehtiyacsız deyil!"[1] Məgər kimsə bir an da olsun Allahın lütf və mərhəmətindən ehtiyacsız ola bilər?! Biz həmişə möhtacıq və Allahın lütfü daim bizə şamil olur. "Sənin xeyrin bizə nazil olur".[2] Biz bunların şükrünü yerinə yetirməkdə acizik. Bu ya səhlənkarlıq, ya da günah üzündən baş verir və hər halda bağışlanılmağa ehtiyac var.

## Qədr gecəsi Allahdan əfv diləmək fürsətidir

Qədr gecəsi Allahdan bağışlanma və əfv diləmək üçün bir fürsətdir. Allahdan üzr istəyərək bağışlanma diləyin. Allah-taala bizə belə bir fürsət yaradıb. Gəlin Ona tərəf qayıdaq, Ondan bağışlanma diləyək, üzr istəyək. Gəlin bu işi görək, əks təqdirdə Allah-taala bir gün günahkarlara belə buyuracaq: *"Onlara üzrxahlıq etmək üçün izin verilməyəcəkdir"*.[3] Allah göstərməsin, Qiyamətdə bizə üzrxahlıq etmək icazəsi verilməyəcək. Günahkarlara dil açıb üzr istəmək icazəsi verilməyəcək. Ora üzrxahlıq yeri deyil. Nə qədər ki, bu meydandayıq, icazə var, üzrxahlıq etmək məqamın artmasına, günahların təmizlənməsinə, bizim pak və nurani olmağımıza səbəb olur, Allah-taaladan üzr istəyək. Nə qədər ki, bu fürsət var, Allahın diqqətini özünüzə cəlb edin, Onun lütf və məhəbbət dolu nəzərlərini özünüzə tərəf yönəldin. *"Elə isə Məni xatırlayın ki, Mən də sizi yad edim"*.[4]

Siz qəlbinizi Allaha yönəldərək Onu yada salan kimi Allahın lütf, məhəbbət və mərhəmət nəzəri sizə yönəlir,

1. İqbalul-əmal, c. 1, səh. 67
2. İqbalul-əmal, c. 1, səh. 70
3. Mursəlat, 36
4. Bəqərə, 152

Onun lütf və bəxşiş əli sizə tərəf uzanır. Allahı yad edin. Əks təqdirdə bir gün Allah günahkarlara belə xitab edəcək: *"Biz də sizi unutduq"*.[1] Qiyamət səhnəsi belə olacaq.

## Ramazan ayı ilin, qədr gecəsi ramazan ayının ən gözəl fürsətidir

Bu gün Allah-taala sizə raz-niyaz etmək, yalvarıb-yaxarmaq, əlinizi Ona tərəf uzatmaq, sevginizi bildirmək, qəlbinizdən gözünüzə səmimiyyət və məhəbbət göz yaşları axıtmaq fürsəti verib. Bu fürsətin qədrini bilin. Allah-taala bir gün günahkarlara belə buyuracaq: *"Bu gün fəryad qoparmayın!"*[2] Gedin, burada ah-zar etməyin, bunun heç bir faydası yoxdur! "Çünki sizə Bizim tərəfimizdən heç bir yardım göstərilməyəcək!"[3] Amma bu həyat bizim Allaha tərəf qayıtmağımız üçün bir fürsətdir. İlin ən yaxşı fürsətlərindən biri ramazan ayı, ramazan ayında da ən yaxşı fürsət qədr gecəsidir.

Qədr gecəsi bu üç gecədən biridir. Mərhum mühəddis[4] Quminin nəql etdiyi hədisə əsasən, məsumlardan bu üç gecədən – və ya iki gecədən: 21 və 23-cü gecələrdən – hansının qədr gecəsi olması soruşulub, onlar da cavab veriblər ki, insanın bu iki – və ya üç – gecəni qədr gecəsi sayması çox asandır. İnsanın bu üç gecə arasında şəkk-şübhədə qalmasının nə əhəmiyyəti var?! Məgər üç gecə nə qədər çoxdur ki?! Bəzi şəxslər bütün ramazan ayını qədr gecəsi sayıb ayın əvvəlindən sonuna kimi hər gecə qədr gecəsinin əməllərini ediblər. Bu ayın qədrini bilin!

1. Səcdə surəsi, ayə 14
2. Muminun, 65
3. Muminun, 65
4. Hədis elmi ilə məşğul olan şəxs – Red.

Allahla qəlbini belə düzəldən, Onun qapısına gedən, hacətini səmimiyyətlə Ondan istəyən, tam səmimiyyətlə Allaha sığınan xalq heç vaxt bədbəxtliyə, fəsada, xarlığa düçar olmaz, düşmənin əsirinə çevrilməz, daxili parçalanmağa yol verməz. Xalqların bu bədbəxtliklərə düçar olmasının səbəbi səhlənkarlıq, qəflət, günah və fəsadlardır: *"Başınıza gələn hər bir müsibət etdiyiniz əməllər üzündəndir"*.[1] Allahın qapısına gedən şəxs özünü paklığa, günahdan uzaqlığa bir addım da yaxınlaşdırır.

Gəlin Allaha sığınaq, Ondan istəyək, Allah üçün iş görək, addım ataq, qəlbləri Allaha tapşıraq. Allahı yada salmaqla qəlbimizin safllığını gündən-günə artıraq. Əgər qəlblər saf olsa, dünyaya bağlanmasa, dünya və maddiyyatın əsirinə çevrilməsə, cəmiyyət nurani, saf və pak insanlar toplusuna çevrilər. Belə bir toplu yaxşı çalışar, yaxşı işləyər, öz dünyasını abad edər. Hər hansı bir şəxsin dünyaya bağlı olmamasının mənası dünyanın abad edilməməsi deyil. Dünyanın abadlığı Allaha xatir və axirət məqsədli işlərdəndir. Maddi həyatımızın qaydasına düşməsinə səbəb olan iş Allahın bizdən istədiyi işlərdən, axirət əməllərindəndir. Bu iş Allah yad edilərək yerinə yetiriləndə daha yaxşı, daha rahat, daha həvəsli və daha kamil həyata keçirilir.

Bu günlərin qədrini bilin. Qədr gecələrinin, həqiqətən, qədrini bilin. Quran açıq-aydın buyurur: *"Qədr gecəsi min aydan xeyirlidir"*.[2] O, çox dəyərli bir gecədir. Onda mələklər və Ruh nazil olur. Allah-taala bu gecəni "salam" gecəsi adlandırıb. "Salam"ın mənası həm insanları Allahın salamı ilə salamlamaqdır, həm də sülh, əmin-amanlıq və insanlar,

1. Şura, 30
2. Qədr, 3

qəlb, ruh, cisim və cəmiyyətlər arasında səmimilik. O, mənəvi baxımdan belə bir gecədir. Qədr gecələrinin qədrini bilin və ölkəniz, özünüz, müsəlmanlar, müsəlman ölkələri üçün dua edin.

Müsəlman ölkələrində çoxlu problemlər var. Həmin problemlərin həll olunmasını Allahdan istəyin. Bütün insanlar üçün, insanların doğru yola gəlməsi, özünüz və həyatınız, böyükləriniz, ölkəniz, ölüb-gedənləriniz, Allahdan olan istəklərinizin gerçəkləşməsi üçün dua edin. Bu saat və dəqiqələrin qədrini bilin. Bütün qardaş və bacıların bərəkətli qədr gecələrində məni də dua etməsini rica edirəm.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*16.I.1998*

# Fitr bayramı əməllərin qiymətləndirmə günüdür

Fitr bayramı günü çox böyük və əhəmiyyətli gündür. Birinci xütbədə siz əziz qardaş və bacılara Əmirəl-mömininindən bir hədis nəql edəcəyəm ki, həm özüm, həm də sizin üçün faydalı olsun.

Mərhum Səduq, İmam Sadiqin belə buyurduğunu nəql edib: "Əmirəl-möminin fitr bayramı günü camaata xütbə oxudu və həmin xütbədə buyurdu: "Ey insanlar! Bu gün yaxşı əməl sahiblərinin Allah-taaladan mükafatlarını aldığı, puç və batil iş görənlərin ziyana uğradığı gündür".[1]

Ramazan ayında ibadət edən və mənəvi fürsəti qənimət bilən kəslər bu gün Allah-taaladan öz mükafatlarını alırlar. İxlasla tutulan orucun, Quran oxumağın, gecə ibadətinin, raz-niyaz və duanın, sədəqə və ehsanların, eləcə də siz əziz gənclərin və İslam həqiqətləri ilə tanış olan siz möminlərin ramazan ayında yerinə yetirdiyiniz digər əməllərin mükafatı məna aləmində sizə təqdim ediləcək.

1. Əmali, Səduq, səh. 100

“Bu gün Qiyamətə bənzəyir”. Bu gün yaxşı əməl sahibləri əməllərinin mükafatını aldığı, pis əməl sahibləri ziyana uğradığı üçün o, Qiyamət gününə bənzəyir. Qiyamətdə də dünyada yaxşı iş görənlər mükafatlanacaq, Allahın xüsusi lütfündən bəhrələnəcəklər. Amma dünya həyatını qəflətdə, pis işlər görməklə, itaətsizliklə, nəfsi istəklərə qərq olmaqla, eqoistliklə, xudbinliklə keçirənlər həmin gün ziyana uğrayacaqlar.

Əmirəl-möminin bu gözəl bənzətmədən belə nəticə çıxarır: “Evinizdən çıxıb fitr namazını qıldığınız yerə doğru hərəkət edəndə Qiyamətdə qəbirlərinizdən Rəbbinizə (böyük Məhşər səhnəsinə, ilahi mükafat və cəzanın verildiyi yerə) doğru hərəkət edəcəyiniz vaxtı yada salın. Namaz qılınan yerdə dayanmaqla yadınıza Qiyamətdə (haqq-hesab üçün) Rəbbinizin hüzurunda dayanacağınızı salın. Namaz qılınan yerdən evinizə qayıtmağınızla yadınıza (Qiyamətdə) Cənnətdəki evinizə qayıtmağınızı salın”. Bu gün də qarşıda olan Qiyamət kimi yaxşı əməl sahiblərinin savab və mükafatlarını aldığı, günahkarların isə ziyana uğradığı gündür.

Ömrünüzün hər anının qədrini bilin. Ömrünüzün bütün saatlarından yaxşı işlər görmək üçün istifadə edin. Özünüzü Allaha yaxınlaşdırın. Öz vaxtınızı Allah yolunda çalışmağa sərf edin. Ömür-gün ildırım sürəti ilə keçir. Qiyamətdə bu anları yada salacaqsınız. Xoş yaxşı əməl sahiblərinin və vay ziyana uğrayanların halına!

*Fitr namazının xütbələrindəki çıxışdan*
*29.I.1998*

## Ramazan ayı nuraniyyət əldə etmək fürsətidir

Ramazan ayı ətirli, bərəkətli, əziz aydır, Allahın ayıdır. Allaha şükür ki, bir-iki ildir ölkəmizdə gözəl ənənənin təməli qoyulub. Belə ki, ramazan ayı qabağı məscidlərdə təmizlik işləri aparılır, ramazana hazırlıq görülür, məscidlər gülablanır. Ramazan ayı başlamamışdan onun gəlişi hiss olunur. Hamıya, xüsusilə gənclərə tövsiyə edirəm ki, hər şeydən əvvəl öz pak və nurani qəlbinizdə bu cür hazırlıq işləri aparın. Əgər belə etsəniz, vücudunuzda olan bu nurun şüası, şübhəsiz, ətrafınızda olanlara da saçacaq.

*Ruhanilərdən ibarət bir dəstə ilə görüşdəki çıxışdan*
*14.XII.1998*

# Ramazan ayının gəlişi münasibəti ilə təbrik

Əvvəlcə ramazan ayının gəlişi münasibəti ilə namazda iştirak edən və oruc tutan siz əziz qardaş və bacıları, iman, etiqad və əməli İslam dünyasında nümunə olan əziz xalqımızı təbrik edirəm. Allah bu ayı ölkəmizə və xalqımıza həm mənəvi, həm də maddi baxımdan bərəkətli etsin, onun bərəkətini hamıya şamil etsin. İkincisi, bu fürsətdən istifadə edib həm özümü, həm də sizi təqvalı olmağa dəvət edirəm.

## Ramazan Allaha yaxınlaşmaq fürsətidir

Əzizlərim! Gəlin oruc tutmaq, ibadət və mənəviyyat fürsətinin qədrini bilək və özümüzü Allaha yaxınlaşdıraq. Günahlardan uzaqlaşmaq, ibadətlərə yaxınlaşmaq, əxlaq, rəftar, insani xüsusiyyətləri daha çox oyatmaq və aktivləşdirmək bu ayda, həqiqətən, hər bir kəs və hər bir toplum üçün bərəkət mənbəyi ola bilər. Gəlin Qurandan,

dualardan dərs və hikmət öyrənək; bir az yaradılışımız, Allahın bizə verdiyi böyük nemətlər, boynumuza düşən böyük vəzifələr barədə düşünək, ölüm, ilahi hesab, ixlasla yerinə yetirilən ibadət və əməllərin dəyəri haqda fikirləşək. Əgər belə etsək, ramazan ayı bizim üçün, həqiqətən, bərəkətli ay olacaq. Allah bizim hamımıza bu bərəkətli ayda belə bir uğur nəsib etsin.

## İlahi vədlər

### 1. Duanın qəbul olması

Bu gün birinci xütbədə bir az Allahın duanın qəbul olması barəsindəki vədi barədə danışmaq istəyirəm. Bizim ramazan ayındakı vəzifələrimizdən biri dua etməkdir. Allahdan edilən dua, Allahın istəyi ilə qəbul olmaqdan əlavə, insanı Allaha yaxınlaşdırır, ilahi təlimlərin insanın qəlbində möhkəmlənməsinə və iz buraxmasına, imanın möhkəmlənməsinə səbəb olur. Yəni duanın bir neçə cəhətdən böyük faydaları var. Buna görə də Quran dəfələrlə duadan söz açıb və əməlisaleh bəndələrin duasına işarə edib. Bunların hamısı bizə dərs vermək üçündür. Peyğəmbərlər çətin vaxtlarda dua edərək Allahdan kömək diləyiblər. *"O, Rəbbinə yalvarıb: "Məni üstələdilər! Mənim intiqamımı onlardan al!" – dedi".*[1] Bu dua həzrət Nuhun dilindən nəql edilib. Həmçinin həzrət Musanın dilindən belə nəql edilib: *"Sonra o, Rəbbinə dedi: "Bunlar günahkar adamlardır!?"*[2] Musa Allaha şikayət edir və Ona sığınır.

Allah-taala Quranın bir neçə ayəsində duanı qəbul edəcəyini vəd edib. Onlardan biri bu ayədir: *"Rəbbiniz deyib:*

1. Qəmər, 10
2. Duxan, 22

*“Məni çağırın, sizi (duanızı) qəbul edim”.*[1] Ola bilər, duanın qəbul edilməsi deyəndə həmin istəyin tam qəbul edilməsi nəzərdə tutulmasın. Bəzən yaradılış qanunları Allahın sizin həmin hacətinizi mütləq gerçəkləşdirməsini tələb etmir. Bəzən hansısa qanunlar həmin istəyin gerçəkləşməsinin, yaxud yaxın zamanlarda gerçəkləşməsinin qarşısını alır. Bundan başqa hallarda Allah-taala adətən sizin istəyinizə müsbət cavab verir. Ramazan ayının səhərlərində oxunan dəyərli “Əbu Həmzə” duasında bu mənaya işarə edilib. Qurani-kərim buyurur: *“Allahın lütfündən (mərhəmətindən) istəyin! Allah hər şeyi biləndir”.*[2] Düzdür, Allah-taala hər şeyi bilir və sizin ehtiyaclarınızdan xəbərdardır. Amma siz dua edərək hacətlərinizi Ondan istəyin. Bu məna cüzi fərqlə duada da qeyd edilib. İmam Səccad daha sonra buyurur: “Ey mənim mövlam, “istə” deyib verməmək Sənin xüsusiyyətin deyil”.[3] Yəni Allahın kərəm, rəhm və qüdrətinin mənası budur ki, əgər O, “istəyin” deyirsə, deməli, həmin istəyi vermək istəyir. Xütbənin əvvəlində oxuduğum ayədə bu məna aydın şəkildə bəyan edilib: *“Bəndələrim Məni səndən soruşanda (de ki,) Mən (onlara) yaxınam. Məni çağıranda çağıranın səsinə səs verirəm”.*[4] Allah Onu çağıranın səsinə səs verir. “Şübhəsiz, Allahdan dilənilən və istənilən hər bir istəyin bir qarşılığı var”.[5] Bu, çox mühüm məsələdir və Allahın mömin bəndələri gərək onun qədrini bilsinlər. İmanı olmayan şəxsin çoxsaylı digər fürsətlər kimi bu fürsətdən də istifadə etməməsi təbiidir. Amma bu, Allah-taalanın danılmaz vədidir.

1. Ğafir, 60
2. Nisa, 32
3. İqbalul-əmal, c. 1, səh. 68
4. Bəqərə, 186
5. İqbalul-əmal, c. 2, səh. 643

Allah-taala bütün istəklərə cavab verəcək. Bu, ilahi vəddir və təbii ki, hər bir vədin bir sıra şərtləri var. Mən burada Allahın vədləri barədə bəzi ayələri qeyd etmişəm. Amma bu mövzuya təfsilatı ilə daxil olmaq istəmirəm, sadəcə qısa olaraq bəzi nüanslara toxunmaq istəyirəm.

## 2 və 3. Yaxşı əməl sahiblərinin mükafatı və pis əməl sahiblərinin cəzası

Allah-taala Öz bəndələrinə bir çox vədlər verib. Məsələn, Allahın vədlərindən biri budur: *"Kim yaxşı iş görsə, xeyri özünə, kim də pislik etsə, zərəri özünə olar"*.[1] Allahın digər bir vədi belədir: *"Biz yaxşı işlər görənlərin mükafatını zay etmərik"*.[2] Bu, təkcə axirətə aid deyil, dünya ilə axirətin hər ikisinə şamildir. Başqa bir vəd belədir: *"Hər kəs fani dünya həyatını istəsə, ondan yalnız istədiyimiz miqdarı istədiyimiz şəxsə verərik"*.[3] Kim axirəti kənara qoyub ancaq dünyanı özünə məqsəd seçsə, Biz məqsədinə çatmaqda ona kömək edərik. Əlbəttə, bunun bir sıra şərtləri də var. Əgər o, çalışsa, zəhmət çəksə, səy göstərsə, öz məqsədinə çatar. Bəzi xalqlar çalışıblar, səy göstəriblər, zəhmət çəkiblər, qənaət etməli yerdə qənaət ediblər, nəticədə yüksək yerlərə çatıblar. Həmin ayənin davamında buyurur: *"Kim də axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, səy (və zəhməti) mükafatlandırılar. Bu iki dəstənin hər birinə Rəbbinin nemətlərindən bəxş edirik"*.[4] Biz həm dünya malı əldə etmək istəyənlərə kömək edirik, həm də axirət qazanmaq və dünyadakı səylərini Allahın razılığı ilə uyğunlaşdırmaq istəyənlərə. Bu, yaradılışın, Allahın varlıq aləmindəki

1. Fussilət, 46
2. Kəhf, 30
3. İsra, 18
4. İsra, 19-20

qanunudur. Yəni kim çalışsa, zəhmət çəksə, mütləq, uğur qazanacaq. Allah heç bir səyi nəticəsiz qoymur. İstənilən səyin ardınca nəticə gəlir. Bəzən insanlar həmin nəticəni dərk edir, onu hədəf seçir və ona çatırlar. Amma bəzən həmin əməldən doğan nəticəni düzgün dərk etmirlər və başqa nəticə axtarırlar, amma həmin əməl öz nəticəsini verir və nəhayət, onlar həmin nəticəni əldə edirlər. Deməli, Allah-taala heç bir səyi cavabsız qoymur.

## 4. Mömin və əməlisaleh insanların yer üzünə hakim olması

Allahın vədlərindən biri də budur: *"Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd vermişdir ki, onlardan əvvəlkiləri yer üzünün canişinləri etdiyi kimi, onları da yer üzünün hakimləri edəcək"*.[1] Bu da Allahın inkarolunmaz vədlərindəndir. İman və yaxşı əməl sahibi olan hər bir tayfa, xalq və cəmiyyət Allahın yer üzündəki canişini və yer üzündə qüdrət sahibi olacaq. Bu, inkaredilməz bir vəddir. Əgər iman sahiblərinin imanının yanında yaxşı əməl də olsa, bu iş baş verəcək. Bu iş, İran İslam Respublikası barəsində baş verib. Bizim öz tariximizdə nə vaxt belə bir şey olubsa, bu iş baş verib. *"Onlardan əvvəlkiləri yer üzünün canişinləri etdiyi kimi, onları da yer üzünün hakimləri edəcək, möminlər üçün bəyəndiyi dini möhkəmləndirəcək"*.[2] Əgər iman olsa, amma yaxşı əməl olmasa, onlar yer üzündə Allahın canişini olmayacaqlar. Quru və kənarında əməl olmayan imanın heç bir faydası yoxdur. Amma əgər imanın yanında əməl də olsa, bu vəd mütləq gerçəkləşəcək.



1. Nur, 55
2. Nur, 55

## 5. Allah yolunda çalışanların doğru yola istiqamətləndirilməsi və dəstəklənməsi

Allahın digər bir vədi budur: *“Yolumuzda (ixlasla) cihad edənləri, mütləq, Öz yolumuza yönəldəcəyik”.*[1] Allah-taalanın Onun yolunda çalışanlara doğru yolu göstərməsi qətidir. Biz bir vaxtlar – cavanlığımızda, İslam təlimləri və bu kimi şeylərlə təzə tanış olduğumuz ilk vaxtlarda bunları oxuyur və deyir, onlara etiqad və iman bəsləyirdik, amma həyatda şəxsən təcrübə etməmişdik. Onların Allah kəlamı və həqiqət olduğunu bilirdik, amma təcrübədən keçirməmişdik. Amma bu gün onu təcrübədən keçirmişik. Siz gənclərin yadına gəlməz, amma ortayaşlıların bəzilərinin yadına gəlməsə də, bəzilərinin yadına gələr, o vaxt islami hərəkat zamanında İranda, bu gün İslamın beşiyi və carçısı olan ölkədə və ya bu Tehran şəhərində kimsə özü müsəlman kimi yaşamaq istəsəydi, həqiqətən, mümkün deyildi, çox çətin idi. Əgər kimsə başqalarını doğru yola dəvət etmədən, tərbiyə etmədən kamil müsəlman kimi yaşamaq istəsəydi, mümkün deyildi, yolda müxtəlif maneələr var idi. Əgər həmin vaxt kimsə desəydi ki, Qumda ətrafında bir neçə tələbə olan və səsləri çıxan kimi tutulan, həbs edilən, döyülən, əzilən, işgəncə verilən bu cənab bir gün Allah adamlarının, haqq yolçuları və müdrik rəhbərin səbir və müqaviməti nəticəsində bütün ölkənin diqqətini özünə cəlb edəcək, bütün qəlbləri ələ alacaq, xalq kütlələrini meydana gətirəcək, heç kəs inanmazdı. Əgər kimsə desəydi ki, bir gün xalqın meydanlara tökülməsi nəticəsində İslam hökuməti qurulacaq, heç kəs inanmazdı. Amma o, Allahın vədi idi və deyilənlərə əməl edildiyi üçün gerçəkləşdi.

1. Ənkəbut, 69

Duanın həmişə təbii qanunları pozmasına, təbii qanunların əksinə təsir göstərməsinə ehtiyac yoxdur. Xeyr, belə deyil. Dua təbii qanunlar çərçivəsində həyata keçir. Allah Öz qüdrəti ilə qanunları uyğunlaşdırır, bir-birinin kənarına qoyur və sizin istəyiniz gerçəkləşir. Əlbəttə, sizin duanız başqa bir ilahi qanunla toqquşanda qəbul olmur. Allahın vədi haqdır. Amma o vəd də doğrudur. Heç bir işlə məşğul olmayan və öz məqsədləri yolunda çalışmayan şəxslərin öz məqsədlərinə çatmasına heç bir zəmanət yoxdur. Əgər siz heç bir iş görmədən oturub dua etsəniz, təbii ki, həmin duanın qəbul olunmaq ehtimalı çox azdır. Bəli, ola bilər həmin dua qəbul olsun, amma onun qəbul olacağına zəmanət verilməyib. Əgər siz açıq aydın təbii bir qanuna zidd dua etsəniz, onun gerçəkləşməsinə zəmanət yoxdur. Hərçənd ki, dua bəzən qanunları pozur. Amma bunun mənası sizin digər ilahi qanunlarla ziddiyyət təşkil edən, yanında əməl olmayan və diqqətsizliklə edilən duanızın da qəbul edilməsi deyil. Xeyr! Duada Allah-taaladan istəmək, sözün həqiqi mənasında ondan hacət diləmək vacib şərtdir. Bu şərti olan dua qəbul olur. Əgər dua ilə bərabər, böyük hədəflərə çatmaq yolunda iş görülsə və səy göstərilsə, onun qəbul olunmaq şansı böyükdür. Əgər bir dua neçə dəfə edilsə – xüsusilə əgər o, böyük məsələlər, xüsusilə insanın, ölkənin və xalqın taleyi ilə bağlıdırsa – amma qəbul olmasa, məyus olmaq lazım deyil. Çünki bunu bəzən böyük işlərin təbiəti tələb edir və onların gerçəkləşməsi üçün zaman lazım olur.

## Həzrət Musanın Qurandakı hekayəti

Mən söhbətimin sonunda sizə Qurandan bir hekayət danışmaq istəyirəm. İstəyirəm bunu danışmaqla həm dediklərimə bir dəlil gətirim, həm də ramazan ayının bu bərəkətli cümə günündə sizin qəlbləriniz bu hekayəti eşitməklə nurlansın. Fironun zalım hökmranlığı zamanında Musanın anası onu dünyaya gətirdi. Zalım hökumət məmurlarının bu oğlan uşağını öldürəcəyi qəti idi. Musanın anası nə edəcəyini bilmirdi. Əgər uşaq qız olsaydı, fikir çəkməzdi. Ananın qəlbində uşağa böyük məhəbbət olur. Amma indi o nə edəcəyini bilmir. Bu vaxt həmin anaya Allah tərəfindən belə bir vəhy gəlir: *"Biz Musanın anasına: "Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu dənizə at"*.[1] Təhlükə çoxalanda, uşağın düşmənin əlinə düşmək təhlükəsi hiss edəndə, onun əlindən alınmasına imkan vermə. Onu dənizə at. Allah-taala bu hekayəti Quranın bir neçə yerində nəql edib. Amma onların hər birində bu hekayət özünəməxsus bir incəliklə nəql edilib. Ana təhlükənin onu təhdid etdiyini hiss edir. Uşağı əlindən almaq üçün Bəni-İsrail övladlarından olan bu hörmətli ailənin evinə hücum edirlər. Həzrət Musanın anası körpənin onun əlindən alınacağını başa düşür və buna görə də onu Nil çayına atır. Ayədə dəniz deyilsə də, mövcud nişanələrdən belə məlum olur ki, məqsəd Nil çayıdır. Bu, çox mühüm səhnədir. Ana öz övladını bir sandığa qoyub coşqun çaya atmağa necə dözür? Amma ilahi vəhy ona belə bir vəd verir: *"Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik"*. Allah-taala burada Musanın anasına iki şey vəd edir: həmin vədlərin birincisi,

1. Qəsəs, 7

körpənin ona qaytarılması, ikincisi isə onun peyğəmbər təyin edilməsidir. O, körpəni coşqun çaya atandan sonra Musanın bacısına dedi: *"(Anası Musanın) bacısına: "Onun dalınca get!" – dedi".*[1] Onlar narahat idilər. Çünki o, körpə, südəmər və neçə günlük idi. Nəhayət, Nil çayı körpəni Fironun evinin yaxınlığına apardı. Fironun ailəsi onu görüb götürdü. Allah onların qəlbinə saldı ki, bu körpəni götürüb özləri saxlasınlar. Fironun zövcəsi dedi ki, bu körpəni özümüzə saxlayaq.[2] *"Biz bütün süd verən qadınları ona haram etmişdik".*[3] O, heç bir qadının döşünü götürmədi. Ona süd vermək üçün nə qədər dayə gətirdilərsə, o onların heç birinin döşünü əmmədi. Amma o, ac idi və süd əmməli idi. Həmin vaxt Musanın bacısı gəlib belə dedi: *"Sizin üçün bu körpənin qayğısına qalacaq və ona qarşı xeyirxah olacaq bir ailəni sizə göstərimmi?"*[4] Baxın, Allah duanı müstəcab etmək, verdiyi vədi gerçəkləşdirmək istəyəndə şəraiti bu cür dəyişdirir. Bu qıza cürət verir və onun ürəyinə salır ki, gəlib Fironun məmurlarına belə bir təklif versin. Onlar onun bu təklifi ilə razılaşırlar. O da gedib Musanın anasını gətirir və onun süd verən qadın olduğunu deyir. Onlar körpəni ona verirlər. Musa anasının qoxusunu alır və onun südünü əmməyə başlayır. Burada Fironun məmurlarında onun həmin körpənin anası olması barədə şübhə yaranmır. Allah-taala Öz vədini gerçəkləşdirmək istəyir. *"Biz onu öz anasına qaytardıq"*[5] ki, *"gözü aydın olsun və qəm yeməsin"*[6] *"və Allahın vədinin haqq olduğunu bilsin".*[7] Bu

1. Qəsəs, 11
2. Kəmalud-din və tımamun-nemət, c. 1, səh. 148
3. Təfsiri-Qumi, c. 2, səh. 136
4. Təfsiri-Qumi, c. 3, səh. 136
5. Qəsəs, 13
6. Taha, 40
7. Qəsəs, 13

vədin doğru olduğunu o özü də gördü. İkinci vədə – *"onu elçilərimizdən biri edəcəyik"*[1] vədinə – gəldikdə, Musanın neçə il sonra Allahın elçisi seçiləcəyi ismarıcı elə orada verilib. Bütün İsrail oğulları bilsin ki, bu körpə peyğəmbər seçiləcək, Allah tərəfindən elçi olaraq göndəriləcək, sizi xilas edəcək! Elə o cür də oldu. Əlbəttə, Allah-taalanın həzrət Musanın anasının ürəyinə *"onu elçilərimizdən biri edəcəyik"*[2] vəhyi göndərməsi ilə o həzrətin Tur dağında peyğəmbərlik məqamını qəbul etməsi və Bəni-İsraili xilas etmək tapşırığı alması arasında, bəlkə də, 3-4 il fasilə olub. Əlbəttə, hədislərdə bəzi şeylərə toxunulub, amma adam həmin hədislərin sənədindən elə də arxayın deyil. Amma ayələrdə olan bəzi nişanələrdən belə məlum olur ki, onların arasında, ən azı, 30 il fasilə olub.

## Ramazan ayının qədrinin bilinməsi tövsiyəsi

Əzizlərim, ramazan ayıdır, dua edin, duanın qədrini bilin, vaxtın qədrini bilin, böyük istəklərə, İslam ümmətinin istəklərinə, müsəlman ölkə və xalqınızın istəklərinə, şəxsi istəklərinizə diqqət edin, yalvarıb-yaxararaq onları Allahdan istəyin. Hər bir şəxs etdiyi duanın məsuliyyətini boynuna götürsün, yerinə yetirməsi lazım olan işlərin üstündə dursun və Allah yolunda çalışmağa hazır olduğunu elan etsin. Əlbəttə, "çalışmaq" deyəndə heç də həmişə vuruşmaq, cəbhəyə getmək, döyülmək və sairə nəzərdə tutulmur. Bunlar xüsusi hallarda baş verir. Onun daimi mənası düzlük, əsas təməl prinsiplərə sədaqət, gələcəyə ümidvar olmaq, düşməni düşmən hesab etməkdir.

1. Qəsəs, 7
2. Qəsəs, 7

Dua fürsətini qənimət bilin. Allah-taala bu duaları qəbul edəcək, istəklər gerçəkləşəcək. Əgər yaşadığımız cəmiyyət təqvalı, dua edən və mənəviyyatlı cəmiyyət olsa, şübhəsiz, onun hətta maddi ehtiyaclarının çoxu aradan qalxar.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*25.XII.1998*

# Orucun və nəfslə mübarizənin ən mühüm faydası təqvadır

Ey Allahın bəndələri! Sizə və özümə təqvalı olmağı tövsiyə edirəm. İnsanın ölümdən sonrakı həyatının azuqəsi təqvadır. İnsanın həyatda düz yolla getmək sərmayəsi də təqvadır. Oruc tutmağın ən böyük faydası təqva əldə etməkdir. Həmçinin hər bir insanın nəfsi istəklərlə mübarizəsinin məhsulu təqvadır. Qoca və gənc, kişi və qadın, eləcə də hansı təbəqəyə mənsub və harada olmasından asılı olmayaraq, möminlərin əsas məqsədi təqva əldə etmək olmalıdır. Təqva insanı düşmənlər və düşmənçiliklər qarşısında qoruyur, düz yol və Allahın razı olduğu işlərə istiqamətləndirir.

## Ramazan qəlblərin nurlanma vasitəsidir

Hər şeydən əvvəl namazda iştirak edən siz əzizləri, bütün İran xalqını və bütün dünya müsəlmanlarını bərəkətli fitr bayramı münasibəti ilə təbrik edirəm. Hədislərə

əsasən, fitr bayramının qunutunda deyildiyi kimi, "bu gün müsəlmanlar üçün bayram, həzrət Məhəmməd üçün azuqə, şərəf, kəramət və başucalığıdır".[1]

Əzizlərim! Ramazan ayını oruc tutmaq, ibadət etmək, Quran oxumaq, zikr etmək, raz-niyaz və dua ilə keçirdiniz. Ramazan ayı Allaha bəndəlik təzahürü, təqvaya doğru gedən aydın yol, günahların bağışlanma amili, qəlblərin nurlanma vasitəsidir. Allah-taala bu ayda bəndələri qonaq qəbul edir və onlar Allah-taalaya yaxınlaşırlar. Bu, çox əzəmətli aydır. Allah-taala bu ayın asan və sadəliklə bitməməsini istəyib. Buna görə də ibadət ayı olan bu ayın sonunda bir gün təyin edib ki, insanlar onu bayram keçirsinlər, bir yerə toplaşsınlar, onu böyük bir gün kimi qeyd etsinlər, müsəlmanlar bir-birini təbrik etsinlər, ramazan ayında olan uğurlarının qədrini bilsinlər, Allahla öz aralarında haqq-hesab etsinlər, bu dəyərli ayda əldə etdikləri azuqəni qoruyub saxlasınlar. Sözügedən gün fitr bayramıdır. Buna görə də fitr bayramı bayram günü olsa da, ibadət, Allaha üz tutmaq, Allahın yada salınması və Ona yaxınlaşmaq günüdür. O, namazla başlayır və dua, raz-niyaz ilə də sona çatır. Fitr bayramı gününün qədrini bilin, onu qənimət bilin və böyük sayın.

Siz bu gün bayram namazının qunutunda Allaha 9 dəfə belə dediniz: "Allahım, Səndən əməlisaleh bəndələrinin istədiyi şeylərin ən yaxşısını istəyirəm və ixlaslı bəndələrinin Sənə sığındığı şeylərdən Sənə sığınıram".[2] Siz Allahın razılığını diləyir, Ona yaxınlaşmaq, Ona xatir iş görmək, sizə Ona bəndəliyin nəsib olmasını istəyirsiniz.



1. İqbalul-əmal, c. 1, səh. 289
2. İqbalul-əmal, c. 1, səh. 289

Siz nəfsi istəklərə və Allahdan başqasına qul olmaqdan, Ona şərik qoşmaqdan Allaha sığınırsınız.

## Bütün dini göstərişlərin məqsədi gözəl həyatdır

İslamda hər şey insanın özünü islah etməsi üçün müqəddimədir. Bütün vacib göstərişlər, günahlardan çəkinmək barəsindəki göstərişlər, müstəhəb əməllər, fərdi və ictimai hökmlər, bir sözlə, hər şey gözəl həyat, insanın insani ruh ilə yaşaması, insanın heyvanlıq və vəhşilik aləmindən göylərə ucalması üçün müqəddimədir. Əgər insan ilahi tərbiyə alsa – bu ancaq onun öz istəyi ilə baş verə bilər – onun ruhunda bu gözəl həyat yaranar və o, mühiti də gözəlləşdirər, sağlamlaşdırar. Amma əgər bu ilahi tərbiyə olmasa və insan Allahın yolunu getmək üçün lazım olan iradəsini itirsə, özünü nəfsi istəklərə təslim etsə, heyvan səviyyəsində qalacaq və hətta heyvanlardan da təhlükəli bir varlığa çevriləcək. Siz bəşəriyyət tarixində bunun şahidi olmuş və insan simasında olan heyvan xislətlilərin insanların Allahın yolu ilə getməsinə mane olduğunu görmüsünüz. Fironların, Qarunların, Nəmrudların, şeytanların da təkamül və tərəqqi istedadı olub. Əgər onlar özlərinə gəlsəydilər, düşünsəydilər, öz insanlıq gövhərlərini yada salsaydılar, inkişaf edə bilərdilər. Allah-taala Fironla qarşılaşan zaman Musaya belə buyurur: *"Onunla yumşaq danışın. Bəlkə, xatırlasın, yaxud da qorxsun!"*[1] Fironun da xatırlaması, özünə gəlməsi, Allahı və içindəki insanlıq gövhərini yada salması

1. Taha, 44

ehtimalı var idi. Amma həddi aşmaları – nəfsi istəklərin, dünyapərəstliyin, xudbinliyin, təkəbbürün və heyvanlıq ruhunun həddi aşması ona imkan vermədi.

Əzizlərim! Oruc insanın həmin heyvanlıq ruhunu ram etmək üçündür. Namaz insanın təvazökarlıq hissini təhrik etmək məqsədi daşıyır. İslamda olan bütün hərəkət, əməl və addımlar bizim öz nəfsimizə hakim olmağımız, içimizdə olan bu vəhşi "fil"in başına nəsihət, moizə və ilahi vəzifələr "çəkic"i vurmağımız və onu ram etməyimiz üçündür. Bayram da, oruc da, namaz da, cihad da buna görədir. İslam hökuməti belə bir mühit yaratmaq, qəlblərin Allaha yaxınlaşması, insanların yer üzünü – dünyanı – abadlaşdırmaqla yanaşı, dünyanı hədəf seçməkdən daha üstün istiqamətə aparması üçündür. İslam dünyanın abadlaşdırılmasına, elm arxasınca gedilməsinə, Allahın təbiət aləmindəki qanunlarının dərk edilməsinə qarşı deyil. Əksinə, İslam insanları elm və düşüncəyə istiqamətləndirir.

İslam cəmiyyətin intellektual və elmi səviyyəsini qaldırır, insandan yer üzünü abadlaşdırmasını, Allahın bu aləmdə – külək, torpaq, günəş, su və digər şeylərdə əmanət qoyduğu imkan və istedadları kəşf edib üzə çıxarmasını və həm özünün, həm də başqalarının ixtiyarında qoymasını istəyir. İslam insandan bunu istəyir. İslam insanı məqsəd və arzularını ancaq maddi həyatda, pulda, başqalarına hakim olmaqda, qüdrət əldə etməkdə, nəfsi istək və ləzzətlərdə məhdudlaşdırmaqdan çəkindirir. İslam insanı bunlardan çəkindirir. Varlıq aləmində İslamın yaradılış məqsədləri gerçəkləşməyincə, insan rahatlaşmayacaq.

*Xalqın müxtəlif təbəqələrindən ibarət*
*dəstə ilə görüşdəki çıxışdan*
*18.I.1999*

# Oruc tutmağın üç mərhələsi

Dini mükəlləfiyyət adlandırdığımız oruc, əslində, Allahın bəxşiş və neməti, oruc tutmaq şərəfi əldə etmiş şəxslər üçün olduqca dəyərli fürsətdir. Əlbəttə, onun bir sıra çətinlikləri də var. Ümumiyyətlə, çətinliyi olmayan bərəkətli və faydalı iş yoxdur. İnsan çətinliyə qatlaşmadan bir yerə çata bilmir. İnsanın oruc tutanda qatlaşdığı çətinlik onun orucdan əldə etdiyi xeyir ilə müqayisədə çox az və cüzidir. İnsan az sərmayə qoyub böyük gəlir götürür. Oruc tutmağın üç mərhələsinin olduğu deyilir. Oruc tutan şəxs üçün bu mərhələlərin hamısı faydalıdır.

## Birinci mərhələ: ümumi mərhələ

Qeyd edilən mərhələlərdən biri orucun ümumi mərhələsidir, yəni oruc tutanda yemək, içmək və sairə şeylərdən çəkinmək. Əgər orucun yeganə məqsədi həmin şeylərdən çəkinmək olsa belə, onun çoxlu xeyirləri var. O həm bizi sınayır, həm də bizə öyrədir; onda həm dərs var, həm də həyat sınağı. O, məşqdir, amma fiziki idman

məşqindən daha mühüm məşq. Məsum imamlardan bəzi hədislər nəql edilib və onlarda orucun bu mərhələsinə işarə edilib. Həmin hədislərin biri İmam Sadiqdəndir. O həzrət belə buyurub: "Allah-taala orucu zəngin şəxslə yoxsulun bərabərliyi üçün vacib edib".[1] Allah-taala orucu vacib edib ki, həmin gün və saatlarda zənginlə yoxsul bərabər olsun.

Yoxsul şəxs gün ərzində ürəyi istəyəni alıb yeyə və içə bilmir. Amma zəngin şəxslər gün ərzində istədiklərini alıb yeyir və içirlər. Zəngin şəxs yoxsulun vəziyyətini, onun aclığını, onun istədiyi şeyləri əldə etmək imkanından məhrum olmasını dərk etmir. Amma oruc tutanda onların hamısı bərabərləşir və könüllü şəkildə nəfsi istəklərdən məhrum olurlar. İmam Rzadan nəql edilmiş başqa bir hədisdə başqa nüansa işarə edilib. O həzrət buyurur: "(Oruc ona görə vacib olub ki,) aclıq və susuzluğun acısını dadsınlar və onun vasitəsi ilə axirət yoxsulluğunu dərk etsinlər".[2] Bu hədisdə Qiyamət gününün aclıq və susuzluğuna işarə edilib. Qiyamət günü insanın düçar olacağı çətinliklərdən biri susuzluq və aclıqdır. İnsan həmin vəziyyətdə Allah qarşısında sorğu-sual ediləcək. Buna görə də insan ramazan ayının aclıq və susuzluğu zamanı Qiyamətdəki həmin vəziyyətini yada salıb onun haqqında düşünməlidir.

Həmçinin İmam Rzadan nəql edilmiş başqa bir hədisdə diqqət orucun aclıq və susuzluq mərhələsinin başqa bir cəhətinə yönəldilib. O həzrət buyurur: "İnsana aclıq və susuzluğa tablamaq qüdrəti verilir".[3] Naz-nemət

1. Mən la yəhzuruhul-fəqih, c. 2, səh. 37
2. İləluş-şəraye, c. 1, səh. 270
3. Üyunu əxbarir-Rza, c. 2, səh. 116

içində böyümüş – aclıq və susuzluğu dadmamış və başa düşməyən insanların səbir və dözümü olmur və onlar meydanlarda tez əldən düşür, həyatda qarşıya çıxan müxtəlif sınaqlar onları çox tez sıxaraq əzir. Amma aclıq və susuzluğu dadmış şəxs bunların mənasını çox gözəl bilir və bu istiqamətdə qarşıya çıxa biləcək çətinliklər zamanı dözümlü olurlar. Ramazan ayı hamıya belə bir dözüm və səbir verir. Bu barədə başqa bir hədis də nəql edəcəyəm. Həmin hədis də İmam Rzadan nəql edilib. Əlbəttə, son iki hədisin bir hədisin ayrı-ayrı bəndləri olması ehtimalı da var. Buyurur: "Oruc onların boyunlarına düşən vəzifələrin yerinə yetirilməsi məşğələsidir".[1] Yəni ramazan ayında aclıq və susuzluğa qatlaşmaq və nəfsi istəklərdən çəkinmək insanın həyatda müxtəlif vəzifələri yerinə yetirmək məşğələsidir. Əlbəttə, məqsəd dini, ilahi və ixtiyari çərçivədə həyata keçirilən məşğələdir. İnsanı gücləndirən, ona həyatda çətin yolları qət etmək qüdrəti verən şeylərdən biri çoxlarının məşq edərək zahidliklə məşğul olmasıdır. Bu, dini məşğələdir. Gördüyünüz kimi, qeyd edilən bir neçə hədisdə orucun həmin mərhələsi, yəni aclıq və susuzluğa qatlaşmaq zənginlərdə yoxsullarla bərabərlik hissi yaradır, insana Qiyamət aclığı hissini təlqin edir, onu çətinliklər qarşısında səbirli və dözümlü edir, onu Allahın razılığının əldə edilməsi məşğələsi olaraq boynuna düşən vəzifələrin yerinə yetirilməsində səbir bəxş edir. Yəni orucun bu mərhələsində bu qədər xeyir var. Bütün bunlardan əlavə, qarnın boş olması və insanın adi halda halal hesab edilən digər işlərdən çəkinməsi ona xüsusi nuraniyyət verir ki, bu da çox mühüm məsələdir.

1. Üyunu əxbarir-Rza, c. 2, səh. 116

## İkinci mərhələ: qulaq, göz, dil və qəlbin günahdan qorunması

Orucun ikinci mərhələsi günahdan çəkinmək, yəni qulaq, göz, dil və qəlbi, hətta bəzi hədislərə əsasən, bədəninin dərisini və tükünü günahdan qorumaqdır. Əmirəl-möminin belə buyurub: "Oruc insanın yeyib-içməkdən çəkindiyi kimi haramlardan da çəkinməsidir".[1] Bu, orucun bir pillə üstün mərhələsidir. Ramazan ayı insanın günahdan çəkinməyi məşq etməsi üçün gözəl fürsətdir. Bəzi gənclər bizimlə görüşəndə xahiş edirlər ki, onların günah etməməsi üçün dua edək. Bəli, dua etmək yaxşı şeydir, lazımdır. Biz dua da edirik. Amma günah etməmək insanın istək və iradəsindən asılıdır. İnsan gərək günah etməmək barədə qəti qərara gəlsin. Qəti qərara gələndən sonra bu çox asandır. Günahdan çəkinmək insanın gözünə dağ boyda bir iş kimi görünür. Amma insan qəti qərara gələndən sonra o, hamar yerə çevrilir. Ramazan ayı insanın bunları məşq etməsi üçün gözəl fürsətdir. Həzrət Fatimə hədislərin birində belə buyurub: "Əgər oruc tutan şəxs dil, qulaq, göz və bədən üzvlərini (günahdan) qorumasa, orucundan nə xeyir əldə edəcək?"[2] Hədislərin birində nəql edilib ki, bir qadın öz qulluqçusunu təhqir edir. Deyəsən, onlar həzrət Peyğəmbərlə qonşu olublar və ya hansısa səfərdə o həzrətlə birlikdə olublar. Həzrət Peyğəmbər əlində olan yeməkdən həmin qadına təklif edir və ona: "Götür ye", – deyə müraciət edir. Qadın: "Oruc tutmuşam", – deyə cavab verir. Nəql edilənlərə əsasən, həzrət Peyğəmbər ona belə buyurur: "Sən necə orucsan ki, qulluqçunu söydün?! Oruc




1. Müstədrəkül-vəsail, c. 7, səh. 366-367
2. Müstədrəkül-vəsail, c. 7, səh. 366-367

təkcə yeyib-içməkdən çəkinməkdən ibarət deyil".[1] "Allah orucu vacib edib ki, o, insanla yeyib-içməkdən əlavə, pis iş və sözlər arasında pərdə olsun".[2] Allah oruc tutan şəxsin digər günah və çirkin işlərin arxasınca da getməməsini istəyir. Həmin günahlardan biri də dil günahı, başqalarına hörmətsizlikdir. Qəlb günahları, qəlbdə başqalarına qarşı ədavət və kinin olması da həmin günahlardandır. Bəzi günahlar dini terminologiyada qeyd edilən mənada günahdır, bəzisi isə əxlaqi baxımdan. Onların dərəcələri bir-birindən fərqlidir. Deməli, oruc tutmağın ikinci mərhələsi insanın günahlardan çəkinməsidir. Xüsusilə siz gənclər bu fürsətdən istifadə edin. Siz gəncsiniz. Gənc həm gücə malikdir, həm də qəlbin təmiz və saf olması onun üçün bir fürsətdir. Ramazan ayında bu fürsətdən istifadə edin, orucun ikinci mərhələsi, yəni günahlardan çəkinməyi məşq edin.

## Üçüncü mərhələ: insanın Allahı unutmasına səbəb olan amillərdən çəkinmək

Oruc tutmağın üçüncü mərhələsi insanın fikir və zehnini özünə məşğul edib ona Allahı unutduran bütün şeylərdən çəkinməsidir. Bu, oruc tutmağın yüksək mərhələsidir. Hədislərdə nəql edilənlərə əsasən, həzrət Peyğəmbər Allahdan soruşub: "Ya Rəbb, orucun faydası nədir?" Allah-taala buyurub: "Oruc hikmətlə, hikmət idrakla, idrak yəqinlə nəticələnir. Bəndədə yəqin yarandan sonra səhəri necə – çətinlik, ya asanlıq içərisində – açmaq onun üçün fərq etmir". Oruc qəlbdə hikmət çeşməsinin qaynamasına səbəb olur. Qəlbə hikmət hakim olandan

1. Kafi, c. 7, səh. 437
2. Biharul-ənvar, c. 93, səh. 392

sonra həmin nurlu və işıqlı idrak yaranır. İdrak yaranandan sonra həzrət İbrahimin Allahdan istədiyi, həmçinin bu ayın dualarında Allahdan təkrar-təkrar istənilən yəqin yaranır. Bir şəxs yəqin əhli olandan sonra həyatın bütün çətinlikləri onun üçün asanlaşır və hadisələr onu sındıra bilmir. Görün bu nə qədər mühüm şeydir. Yüksəliş və təkamül yolu getmək istəyən şəxs problemlər, baş verən hadisələr, yolda olan maneələr qarşısında sınmır. Yəqin insanda belə bir hal yaradır. Bu, orucun nəticəsidir. Oruc qəlbdə Allahın yada salınması hissini və Allahın dərk ediməsi nurunu yaradandan, onu işıqlandırandan sonra, nəticə bu olur. İnsana Allahı unutduran şeylərin hamısı orucun bu mərhələsinə zərər vurur. Xoş o kəslərin halına ki, özlərini bu mərhələyə çatdıra bilirlər! Əlbəttə, biz gərək bu mərhələyə çatmağı arzulayaq, onu Allahdan istəyək və ona çatmaq istiqamətində çalışaq.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*17.XII.1999*

# Ramazan çirk və pasların təmizlənmə fürsətidir

Çox ətirli və və nurlu məclisdəyik. Birincisi, ramazan ayındayıq. Ramazan ayı həyat səmamıza yağan mərhəmət yağışı kimidir. O bizim öz əllərimizlə həyatımızda, ruh və qəlbimizdə yaratdığımız çirkləri, pasları, tör-töküntüləri yuyub təmizləyir, mühiti təmiz, qəlbi işıqlı edir. İkincisi, məclis iştirakçıları gördükləri işi saf niyyətlə yerinə yetirdikdə – inşallah ki, elə o cürdür – Allahın ən yaxşı bəndələrindən birinə çevrilirlər. Siz çox mühüm işlə məşğulsunuz. Sizin gördüyünüz iş böyük və geniş təsirə malikdir. Buna görə də əgər niyyətiniz qeyd edilən kimi olsa, sizi adi insanlarla müqayisə etmək olmaz. Bunun səbəbi öncə qeyd edilən şeylərdir. Ölkənin işlərinin idarə edilməsində mühüm rol oynayan siz mömin qardaşlar ramazan ayında oruc ağızla mənəviyyat ətirli bu məclisdə iştirak edirsiniz. Buna görə də bu məclis çox mühüm məclisdir.

## Quranda işlənmiş “səkinət” sözünün mənası

Mən keçən il bu toplantıda “səkinət” barədə bəzi nüanslara toxundum. “Səkinət”in, yəni xatircəmlik, aramlıq, iztirabsızlıq və həyəcanlanmamağın məsul şəxslərə böyük təsiri var. Belə ki, əgər onlar aram olsalar, qarşıya hər hansı bir problem çıxanda həmin aramlıq sayəsində düzgün qərar qəbul edə bilər, özlərini itirməz, həyəcanlanmazlar. Onlar çətin problemlər qarşısında qaya, hətta dağ kimi dayanar, həmçinin işlər rahatlaşanda və əmin-amanlıq yarananda özlərini itirməzlər. Cəmiyyətdə təsir gücü olan şəxslərin problemlərindən biri də budur. Belə ki, bəziləri əlləri bir yerə çatan kimi qarşılarında böyük imkanların olduğunu görüb özlərini xoşbəxt hiss edir, özlərini itirir, tələsik qərarlar qəbul edir, başqalarını alçaldır, xudbinliklərini artırırlar. Amma əgər “səkinət”, yəni o vüqar və ilahi xatircəmlik olsa, bunun qarşısını alaraq insanı kiçik və saman çöpü kimi küləyin axını ilə gah bu, gah o tərəfə gedən insanlara xas işlər görməyə qoymaz. Əslində, “səkinət”ə malik şəxs heç bir meh və küləyin təlatümə gətirə bilmədiyi dərin okeana bənzədilib. Bu “səkinət” insana yoxsulluq və zəngillikdə, təklikdə və çoxluqda çox kömək edir.

Quranda “səkinət” barədə çox danışılıb. Bu barədə biz keçən il də danışmışdıq. Sonuna yaxınlaşdığımız bu il ərzində bir sıra hadisələr baş verdi və məsul şəxslərin “səkinət”i özünü göstərdi. Belə ki, iqtisadi gəlirlərimiz azaldı, iqtisadi, siyasi və ictimai problemlərimiz oldu. Düşmənlər bu il yayda Tehranda bəzi hadisələr törətdilər. Əgər insanda “səkinət”, aramlıq, Allaha təvəkkül və etimad, gələcəyə, əlində olan haqq-həqiqətə inam olmasa,

bu cür hadisələrlə qarşılaşanda özünü itirər. Bu, insan onun düşmən tərəfindən hazırlanmış plan olduğunu biləndə daha həssas olur. Onların düşmənin planı olması ehtimalı zəif ehtimal deyil və əldə buna dəlalət edən bəzi nişanələr də var. İmam Xomeyni dünyadan köçəndən sonra düşmən onillik bir proqram hazırlamışdı və onu həyata keçirmək istəyirdi. Bəlkə də, bizim iqtisadi problemlərimiz – neftin qiymətinin aşağı düşməsi – siyasi məsələlər, bəzi mədəni, ictimai asayiş problemləri həmin proqramlarla müəyyən qədər əlaqəli idi. Bunu bəzi dəlillər də sübut edir. Bu, məsələnin məclisdə iştirak edən siz məsul şəxslərin "səkinət"inə aid olan hissəsi idi. Xalqın "səkinət"inə gəldikdə, qeyd etmək lazımdır ki, "səkinət" və aramlığa xalqın da ehtiyacı var. Görəsən, seçilmiş zümrədə olan bu "səkinət"i xalqa necə sirayət etdirmək olar? Əlbəttə, xalqın böyük əksəriyyəti güclü və möhkəm iman sahibidir. Onlar çətinliklər zamanı həqiqi mənada güclü olduqlarını nümayiş etdiriblər. Bu, güclü din və imandan qaynaqlanır. Amma əgər bir dəstə adam ölkə və xalqın işlərinin idarə edilməsini öhdəsinə götürürsə, onlar bu məsələyə laqeyd qala bilməzlər. Bizim boynumuza düşən vəzifə yalnız iqtisadi və siyasi vəzifələrdən ibarət deyil. Biz xalqın mənəviyyatına görə də məsuliyyət daşıyırıq. Əgər insanlar mənəvi və əxlaqi baxımdan tənəzzülə uğrasa, cəmiyyətdə buna görə heç kəsin məsuliyyət daşımadığını demək olmaz. Burada kimsə məsuliyyət daşıyır. Bəs o kimdir? Şübhəsiz, bu məsələdə ölkənin məsul şəxsləri yaxalarını kənara çəkə bilməzlər. Onların hərəsi bir cür məsuliyyət daşıyır. Deməli, ölkədə insanların mənəviyyatına görə də ölkəni idarə edən şəxslər – yuxarıdan aşağıya kimi hamısı – öhdəlik daşıyır.

## Təqva və onun “səkinət” ilə əlaqəsi

Burada başqa bir nüans da var və mən söhbətin əvvəlindəki ayəni ona işarə etmək üçün oxudum. Onun “səkinət” ilə də əlaqəsi var. Həmin nüans təqvadan ibarətdir. Bu ayədə küfr ilə iman cəbhəsi arasında qarşılaşma aparılıb. Həmin ayədə küfr cəbhəsində cahiliyyət təəssübkeşliyinin olduğu qeyd edilib. O, Hüdeybiyyə hadisələri və ondan sonraya aiddir. Hüdeybiyyə hadisələri həzrət Peyğəmbərin həyatının çox mühüm və mənalı hadisələrindəndir. Həzrət Peyğəmbər və müsəlmanlar Məkkəyə getmək üçün Hüdeybiyyəyə doğru hərəkət etdilər. Onlar Hüdeybiyyədə dayandılar. Düşmən onları müharibəyə sövq etmək istəyirdi. Amma həzrət Peyğəmbərin ilahi tədbiri onun qarşısını aldı və onlar müharibə etmədən geri döndülər. Həzrət Peyğəmbərlə müşriklər arasında müqavilə bağlandı. O, çox mühüm müqavilə idi. Bəzi hədislərə əsasən, “Fəth” surəsi Hüdeybiyyə müqaviləsi barədə nazil olub və o, “qələbə” adlandırılıb: *“Biz sənə aydın bir qələbə verdik”*.[1] Məqsəd Hüdeybiyyə sülhüdür. Həzrət Peyğəmbər Quran ayələri ilə müsəlmanlara vəziyyəti izah edərək hansı cəbhənin nə olduğunu başa salırdı.

İslam quruluşunda həmişə diqqətdə saxlanılması lazım olan əsas məsələ cəbhələrin müəyyənləşdirilməsi, haqq cəbhəsi ilə batil cəbhəsinin bir-birinə qarışdırılmamasıdır. Bəli, batil cəbhəyə qarşı mülayim davranıla bilər, bəzən, yeri gələndə onlara dostluq əli uzadıla bilər, bunun eybi yoxdur. Amma onlar əsla bir-birinə qarışmamalıdır. Gərək kimin haqq, kimin batil olması, həm haqqın, həm də batilin nə etmək istəməsi, məqsədinin, metodunun, taktikasının

1. Fəth, 1

nədən ibarət olması məlum olsun. Bunlar nəzərdən qaçırılmamalıdır. Sərhədlərin müəyyənləşməməsi və nəzərdən qaçması heç bir haqq cəbhəsinin xeyrinə olmayacaq. Heç kəs, hətta düşmən haqq cəbhəsini haqq olmasının səbəbini, nə etməli olduğunu və rəqibinin kim olmasını bilməməsinə görə tərifləməz. Həzrət Peyğəmbər sərhədləri müəyyənləşdirib və kafirlərin, yəni o həzrətin peyğəmbər olaraq göndərilməsi, zühuru, fəaliyyəti və cihadı ilə düşmən olan əks cəbhənin vəziyyətini bəyan edib. Küfr cəbhəsinə göz yummaq olmaz. Küfr cəbhəsi, yəni haqqa dəvətin qarşısında dayananlar müəyyənləşməlidirlər. Haqqın küfr cəbhəsi ilə nə işinin olması, ümumiyyətlə, haqqın niyə yaranması, Allah tərəfindən peyğəmbərlərə niyə göndərilməsi, onların onu niyə bəyan etməsi məlum olmalıdır. Əgər haqqın insanların qurtuluşa dəvət edən ismarıcının zahir olmasının fəlsəfə və hikməti varsa və onun çatdırılması vacibdirsə, o həmin ismarıcı çatdıranların – peyğəmbər və Qiyamətə kimi onun yolunu davam etdirənlərin boynuna bir sıra məsuliyyətlər qoyur. Deməli, haqq cəbhəsinin məqsədinin nə olmasını və məqsədinə necə çatmaq istəməsini başa düşmək lazımdır.

İnsanın qurtuluşu necə əldə edilir? Təbii ki, o ancaq nəsihət və moizə ilə əldə edilmir. Buna görə də gərək haqq cəbhəsi, yəni peyğəmbərlər fürsət və imkan yaranan hər neçə vaxtdan bir ortaya çıxıb addım atsınlar. Onlar insanların nicat və qurtuluşa yaxınlaşmaq üçün bilməli olduğu həqiqətləri onların zehnində canlandırıb, həyatlarında gerçəkləşdiriblər. Bu, haqq cəbhəsinin işidir və o, çalışqanlıq tələb edir. Niyə? Çünki haqqın qarşısında əks cəbhə var. Haqq dünyada insanların qurtuluşundan, onun qarşısındakı cəbhə isə əsarətindən danışır. Əgər haqq

ədalətdən danışırsa, bəziləri də ədalət düşməni və ya zülm tərəfdarıdırlar. Əgər haqq Allaha ibadətdən danışırsa, bəziləri allahlıq iddiası edərək Allahın mövcudluğunu, Allah qarşısında təslim olmağı inkar edirlər. Təbii ki, onlar bir-birinə düşməndirlər. Düşmən qarşısında çalışmadan nə həmin ismarıcın yayılmasında irəliləyiş olar, nə də o, zehinlərdə və reallıqda gerçəkləşər.

Peyğəmbər həm kafirlərin, həm də zəif möminlərin, yəni yarımçıqların – istər münafiqlər olsun, istər tam mənada münafiq və ikiüzlü olmayan, amma qeyri-sabit təbiəti olan şəxslərin – vəziyyətini müəyyənləşdirib. İslam onları da mömin və möhkəm şəxsiyyətə çevirmək istəyir. Bəzi müsəlmanlar qorxduqları üçün Peyğəmbərlə Hüdeybiyyə müharibəsinə getməmişdilər. Onlar deyirdilər ki, əgər biz bu səfərə getsək, Peyğəmbər və bütün müsəlmanlar kafirlər tərəfindən darmadağın ediləcəklər. Həzrət Peyğəmbər qayıdandan sonra onlar o həzrətin yanına gəlib dedilər ki, biz sizinlə gələ bilmədik, çətinliyimiz var idi, işimiz çıxdı; indi dua edib Allahdan bizə bağışlanma dilə. Onlar bu sözlərində də səmimi deyillər. Əslində, onlar heç Allahdan bağışlanma diləmirdilər və özlərini həmin səfərə getmədikləri üçün zirəng sayırdılar. Quran buyurur: *"Tezliklə yerdə qalmış bədəvi ərəblər sənə: "Var-dövlətimiz və ailələrimiz başımızı qatdı. Bizim üçün bağışlanma dilə!" – deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər".*[1] Onların münafiq, kafir və düşmən olduğunu demək olmaz. Xeyr, elə deyil. Zəif ruhlu insanlar çətinliklərdə bir rol oynaya bilmirlər. İslam quruluşu, İslam cəmiyyəti, islami məsuliyyət daşıyan idarəçilər bu cür mənəvi məsələlər barədə məsuliyyət daşıyırlar.

1. Fəth, 11

## Təqva bütün çətinliklərin əlacıdır

Əziz dostlar, qardaş və bacılar! Biz nə vaxt mühüm rol oynaya bilərik? Təqva ruhumuz olanda! *"Onlara təqva ruhunu bəxş etdi"*.[1] Təqvanı sabit və haqq söz, daimi vəzifə hesab etməliyik. Həm danışığımızda, həm davranışımızda, həm də əlimiz altında işləyənlər, bizimlə əməkdaşlıq edənlər barədə qərar qəbul edəndə təqvanı diqqət mərkəzində saxlamalıyıq. Bu, onlar üçün, onların rəftarı da camaat üçün dərsdir... Hər halda bizim bu və digər çoxsaylı ayələrdən öyrəndiyimiz budur ki, təqva vasitə, dərmandır. O, təkcə vəzifə və məsuliyyət deyil. O, ancaq Allah-taalanın haqq-hesab zamanı bizdən təqvamız barədə soruşmasına görə əhəmiyyətli deyil. Əlbəttə, əgər başa düşsək və diqqət etsək, bu da böyük şeydir. Biz məsuliyyət daşıyırıq, amma bununla belə, ilahi haqq-hesabı, ilahi hesab gününün çətinliklərini, qorxusunu unuduruq. Məsuliyyətimiz nə qədər böyük olsa, təhlükə bir o qədər çox olur. Əgər Allah-taala bizimlə Öz rəhmət və lütfü ilə davranmasa, işimiz çətin olacaq. Xərclərimiz, istifadələrimiz, insanlarla davranışlarımız bütün xırdalıqlarına kimi Allah dərgahında sorğu-sual ediləcək. Allahın haqq-hesabı və cəzasından əlavə, bunu da bilmək lazımdır ki, təqva insanın yolunu açır: *"Allahdan qorxana Allah xilas yolu göstərir və ona güman etmədiyi yerdən ruzi bəxş edir"*.[2] Təqva sizə bütün çətinliklərdən, xüsusilə ictimai çətinliklərdən çıxış yolunu göstərir. Əgər məsul şəxslər təqvalı olsalar, təqvaları böyük çətinliklərdə onlara çıxış yolu göstərər. *"Və ona güman etmədiyi yerdən ruzi bəxş edir"*. Bizim gümanlarımız həmişə tam və kamil olmur.

1. Fəth, 26
2. Təlaq, 2-3

Deməli, əsas məsələ təqvadır. Biz təqvalı olmağı tövsiyə edirik. Bu ayda tutulan oruc da təqvalı olmağa kömək edir. İnsanların problemlərini təqva ruhu ilə həll etməlisiniz.

*İran İslam Respublikasının dövlət*
*məmurları ilə görüşdəki çıxışdan*
*25.XII.1999*

## Həzrət Əlinin bariz xüsusiyyətləri

Mən bu gün oxumaq üçün bir hədis seçmişəm. Bu hədis Şeyx Müfidin "İrşad" kitabında nəql edilib. Əlbəttə, mən hədisin mətnini İmam Xomeyninin dəyərli "Qırx hədis" kitabından nəql edirəm. Amma hədisi "İrşad" kitabı ilə də tutuşdurmuşam. Hədisi Şeyx Müfid nəql edib. Ravi nəql edir ki, biz İmam Sadiqin yanında idik, Əmirəl-möminin Əlidən söz düşdü. İmam Sadiq o həzrəti layiqincə təriflədi.[1] İmam Sadiqin dedikləri və ravinin yadında qalanlar – ravi onları ya həmin məclisdə yazıb, ya da məclisdən sonra – bunlardır. Mən hədisə diqqət edəndə gördüm ki, onda qeyd edilən bəndlərin hər biri Əmirəl-mömininin həyatının bir cəhətinə – o həzrətin zahidliyinə, ibadətinə və qarşıda işarə edəcəyimiz digər xüsusiyyətlərinə işarə edir. Fikir verin, burada İmam Sadiq Əmirəl-möminini tərifləyir. O həzrət əvvəlcə belə buyurur: "And olsun Allaha, Əmirəl-



1. əl-İrşad, c. 2, səh. 141

möminin ömrünün sonuna kimi bir tikə haram yeməyib”.[1] Yəni o həzrət haramdan, haram maldan, haram gəlirdən çəkinib. Əlbəttə, məqsəd o həzrətin hökmünü qəti bildiyi haramlar deyil, əslində, haram olan, amma zahirdə haram olması bilinməyən şeylərdir. Yəni o həzrət hökmünü qəti bildiyi haramlar öz yerində, hətta şübhəli şeylərə də yaxınlaşmayıb. Diqqət edin, bunları bizə nəzəri və əməli örnək olaraq deyiblər. İmam Sadiq, İmam Baqir və İmam Səccad etiraf edir ki, biz elə yaşaya bilmərik. Əgər onlar elə yaşaya bilmirlərsə, bizim kimilərdən danışmağa dəyməz. Burada söhbət bizim elə yaşamağımızdan getmir. Xeyr! O bu həyatın zirvəsidir. O həmin zirvəni göstərir. Zirvənin göstərilməsinin mənası budur ki, hamı həmin istiqamətdə hərəkət etməlidir. Amma həmin zirvəyə kim çata bilər ki?! Elə hədisin özündə də qeyd edilir ki, İmam Səccad özünün elə yaşaya bilmədiyini buyurub.

“O həzrət nə vaxt Allahın razı olduğu iki işlə qarşılaşırdısa, onlardan bədəninə daha çətin gələni seçirdi”. Yəni İmam Əli biri haram, digəri halal olan deyil, hər ikisi halal, məsələn, hər ikisi ibadət olan işlə qarşılaşanda da onlardan fiziki baxımdan daha çətinini seçirdi. Əgər iki halal yemək olsaydı, onların daha sadəsini seçirdi, iki halal paltar olsaydı, onlardan daha ucuzunu seçirdi, iki halal iş olsaydı, onların daha çətinini seçirdi. Diqqət edin, bunlar adi bir adamın sözləri deyil. Sözügedən hədisə əsasən, bunları İmam Sadiq deyib. Yəni onlar tam dəqiq sözlərdir. Görün dünya həyatında və dünya ləzzətlərindən həzz almaqda insanın özünü çətinliyə salması nə qədər mühümdür.

“Nə vaxt həzrət Peyğəmbərin mühüm işi olsaydı,

1. əl-İrşad, c. 2, səh. 141

onu çağırar və onu qabağa salardı".[1] Çünki həzrət Peyğəmbər ona inanırdı və bilirdi ki, İmam Əli birincisi, işi yaxşı yerinə yetirir, ikincisi, çətin işdən qorxan deyil, üçüncüsü, Allah yolunda çalışmağa daim hazırdır. Məsələn, "Leylətül-məbit"də – həzrət Peyğəmbərin gizli şəkildə Məkkədən Mədinəyə hicrət etdiyi gecə – kimsə o həzrətin yerində yatmalı idi. Həzrət Peyğəmbər bu işi Əliyə tapşırdı. Həmçinin Peyğəmbər müharibələrdə, bütün mühüm işlərdə Əmirəl-möminini qabağa salardı. "Çünki ona inanırdı". Bilirdi ki, o, əliboş qayıtmayacaq, əlləri əsməyəcək, tapşırılan işi layiqincə yerinə yetirəcək. Baxın, burada söhbət mənim kimi zəif və aciz insanların elə olmaq iddiasında olmasından getmir. Xeyr! Söhbət bizim həmin istiqamətdə hərəkət etməli olmağımızdan gedir. Əlinin davamçısı olan müsəlman bu yolda hərəkət etməli və bacardıqca qabağa getməlidir. Daha sonra buyurur: "Bu ümmətin arasında ondan başqa heç kəsin həzrət Peyğəmbər kimi davranmaq qüdrəti olmayıb".[2] O, Peyğəmbər kimi hər yerə gedərdi. Ondan başqa heç kəs həzrət Peyğəmbərin arxasınca gedə və ayağını o həzrətin ləpirinə qoya bilməyib. "Allahın bəyəndiyi böyük işlər görməsinə baxmayaraq, Cənnət və Cəhənnəm arasında olan şəxs kimi davranıb".[3] Daim qorxu və ümidvarlıq arasında olub, Allahdan qorxub. Sanki onu Cənnətlə Cəhənnəm arasında saxlayıblar, bir tərəfində Cənnəti, o biri tərəfində Cəhənnəmi görür. "Onun savabına ümid bəsləyir, bunun əzabından qorxub". Xülasə, o həzrət etdiyi çoxsaylı cihadlara, Allah yolunda verdiyi çoxsaylı



1. əl-İrşad, c. 2, səh. 141
2. əl-İrşad, c. 2, səh. 141
3. əl-İrşad, c. 2, səh. 412

sədəqələrə, çoxsaylı ibadətlərə görə qürrələnməyib. Biz iki rükət nafilə namazı qılıb neçə cümlə dua oxuyan kimi dərhal – hələ iki damcı göz yaşı da töksək, lap çox – qürrələnir, özümüzü "Cənnətin tovuzquşu"su sayırıq. Amma Əmirəl-möminin bu qədər yaxşı əməlinin olmasına baxmayaraq, qürrələnməyib.

Əlbəttə, həzrət Peyğəmbər, Əmirəl-möminin və İmam Səccad kimi Cənnətin yaradılış fəlsəfəsi olan şəxslərin Cəhənnəm əzabından qorxmasının və Allaha sığınmasının səbəbinə gəldikdə, bunun özü ayrı bir mövzudur. Biz kiçiyik, baxışlarımız məhduddur, ancaq ayağımızın altını görürük, Allahın əzəmətini dərk etmirik. Biz böyük elmi şəxsiyyətin qarşısında oynayan balaca uşaq kimiyik; yaxşı ilə pisi bir-birindən ayıra bilməyən həmin uşaq gəlir, gedir, heç nəyi vecinə almir. Çünki o həmin şəxsin kimliyini başa düşmür. Amma uşağın atasının ağlı onun ağlından daha kamil olduğu üçün o həmin şəxsin qarşısında təvazökarlıq göstərir. Bizim Allah qarşısındakı vəziyyətimiz belədir. Uşaqlar, həmçinin qəflətdə olan aşağı səviyyəli şəxslər kimi biz də Allahın əzəmətini dərk etmirik. Amma elm mərhələsindən iman mərhələsinə, iman mərhələsindən batini müşahidə mərhələsinə, batini müşahidə mərhələsindən Allahda fani olmaq mərhələsinə çatmış şəxslərin gözündə Allahın əzəməti elə təzahür edir ki, nə qədər yaxşı iş görsələr də, onu görmür, heç nə etmədiklərini düşünürlər. Onlar özlərini Allaha borclu hesab edirlər.

"O həzrət öz malından – əlinin zəhməti və alın təri ilə qazandığı pul ilə – min qul və kəniz alıb Allah yolunda və Cəhənnəmdən qurtulmaq üçün azad edib". O həzrət bu işi həm Peyğəmbər zamanında, həm o həzrətdən

sonrakı iyirmi beş illik fasilədə, həm də xəlifə olduğu dövrdə edib. Bəzi hədislərdən belə məlum olur ki, Əmirəl-möminin xəlifə olanda da işləyib, tarlada abadlıq işləri görüb, quyu qazıb, pul qazanaraq həmin pulları Allah yolunda xərcləyib. O cümlədən o həzrət davamlı şəkildə qul alıb azad edib. Əmirəl-möminin, beləcə, min qul alıb azad edib. "O həzrətin evinin ənənəvi yeməyi zeytun, sirkə və ortabab və ya aşağı keyfiyyətli xurma olub". Bizim cəmiyyətin dili ilə desək, o həzrətin ənənəvi yeməyi qatıq-çörək və ya pendir-çörək olub. "O, daim bez paltar geyinib. Əgər paltarının qolu uzun olsaydı, qayçı götürüb qolunun artığını kəsərdi". Yəni hətta paltarın qolunun artıq olmasına razı olmur, onun artıq olduğunu deyir, ondan başqa yerdə istifadə edilməsi göstərişini verirdi. Həmin dövrdə parça az idi, insanların geyim problemi var idi. Buna görə hətta kiçik bir bez parçası kiminsə dərdinə dəyə bilərdi.

Daha sonra o həzrətin ibadətindən söz açır. O həzrət İslamın zirvəsi, müsəlmanların örnəyi idi. Həmin hədisdə belə buyurulur: "Bu davranış, zahidlik və ibadətdə o həzrətə övladlarından və Əhli-beytindən ən çox Əli ibn Hüseyn oxşayıb". İmam Sadiq İmam Səccadın ibadəti barədə geniş söhbət edib, o cümlədən belə buyurub: "Atam həzrət Əbu Cəfər Baqir bir gün atasının yanına gedib və o həzrətin otağına daxil olub. Baxıb görüb ki, atası ibadət etməkdən heç kəsin düşmədiyi bir hala düşüb". O həzrət həmin vəziyyəti izah edərək buyurur: Yuxusuzluqdan rəngi saralıb, ağlamaqdan gözləri batıb, ayaqları şişib... İmam Baqir atasını belə bir vəziyyətdə görəndə narahat olub. "Mən onu bu cür ağlayan görüb özümü saxlaya bilmədim və zar-zar ağlamağa başladım". İmam Səccad

fikrə dalmışdı. Təfəkkür özü də bir növ ibadətdir. O həzrət, oğlunun ağlamasının səbəbini başa düşüb və ona əməli bir dərs vermək istəyib. Başını yuxarı qaldıraraq buyurub: "Oğul, Əli ibn Əbu Talibin ibadətləri qeyd edilən vərəqlərin bəzisini mənə ver". Kağızların içinə bax və Əli ibn Əbu Talibin ibadətinin təsviri qeyd edilmiş dəftəri gətir mənə ver. Burada belə məlum olur ki, imamların əlində Əli ibn Əbu Talibin zamanından bəzi yazılar, o həzrətin qəzavətləri, həyatı və hədisləri barədə bir sıra kitablar olub. Ümumiyyətlə, digər hədisləri də nəzərə alanda belə məlum olur ki, imamlar həmin yazı və kitablardan müxtəlif vaxtlarda istifadə ediblər. İndi burada da İmam Səccad oğlu İmam Baqirə buyurur ki, Əli ibn Əbu Talibin ibadətinin qeyd edildiyi yazını tapıb gətirsin. İmam Baqir buyurur: "Mən həmin yazını ona verdim. O həmin yazıdan bir az oxudu, sonra narahat halda onu yerə qoydu". İmam Səccad həm İmam Baqirə, həm İmam Sadiqə, həm də bizlərə dərs verir. "Buyurdu: "Kim Əli ibn Əbu Talib kimi ibadət edə bilər?!" İmam Səccad o qədər ibadət edir ki, İmam Baqirin ona ürəyi yanır. Nəzərə almaq lazımdır ki, İmam Baqir bizim kimi olmayıb. Biz ondan qat-qat kiçik şeyləri böyük görürük. İmam Baqir özü də imam və ülvi məqam sahibi olub, amma buna baxmayaraq, Əli ibn Hüseynin ibadətinə görə narahat olur, o həzrətə ürəyi yanır, özünü saxlaya bilmir, özündən asılı olmayaraq, zar-zar ağlayır. İndi belə bir ibadət əhli olan Əli ibn Hüseyn buyurur: "Kim Əli ibn Əbu Talib kimi ibadət edə bilər?!" Yəni o həzrət özü ilə İmam Əli arasında böyük fasilə görür.

Bizim, bütün dünyanın aşiq olduğu, xristian bir şəxsin eşqlə onun barəsində kitab yazdığı, dinin təməl prinsiplərinə elə də bağlı olmayan şəxslərin sevə-sevə mədh etdiyi Əliyə

uzaqdan niyə baxırsınız, bir az yaxına gedin. Bu Dəmavənd[1] zirvəsinə uzaqdan baxan şəxs: "Bəh-bəh, necə də gözəldir!" deyir. Bir az bu dolanbaclardan yuxarı qalx, görüm kimsən! Yaxına getmək, yola düşmək, hərəkət etmək lazımdır. Bu gün bəşəriyyətin Əmirəl-mömininin bayraqdarı olduğu xüsusiyyətlərə ehtiyacı var. Bu xüsusiyyətlər elmin və texnologiyanın inkişaf etməsi, dünyada həyat tərzinin modernləşməsi ilə köhnəlmir. Ədalət köhnəlmir, insaf köhnəlmir, haqpərəstlik köhnəlmir, zalımla düşmənçilik köhnəlmir, qəlbin Allaha bağlanması köhnəlmir. Bunlar insanın vücudunun tarix boyu olmuş sabit rəngləridir. Əmirəl-möminin bu xüsusiyyətlərin bayraqdarı olub. Bu gün bəşəriyyət bu sözlərin, bu həqiqətlərin teşnəsidir. Bəs yol nədir? Yol, yaxınlaşmaqdır. Biz haradasa haqq bir söz danışanda onu böyük saymamalıyıq. Xeyr! Əli budur. Məbada gecənin və ya gündüzün bir hissəsini ibadət edək və onu böyük hesab edək, xudbinliyə düçar olaq. Xeyr! Bu, Əlidir. Məbada hansısa bir təhlükəli meydana daxil olaq və özümüzü böyük sayaq. Xeyr! Əli budur. Bacardığınız qədər yaxınlaşmağa çalışın. Ey oruc tutanlar, ey namaz qılanlar, ey nafilə namazlarını qılanlar, ey Allah yolunda cihad edən və çalışanlar, ey təhlükəli meydanlara daxil olanlar, ey dünya zahidləri, ey günün aslanları, ey gecə ibadəti ilə məşğul olanlar! Xoş halınıza! Siz Əliyə yaxınsınız. Amma siz bir az da yaxınlaşa bilərsiniz.

Onun qarşısında İslam dünyası, hətta sağlam bəşəriyyət baş əyir. Tarixdə bunların izi qalır. O onun zahidliyi, o onun ibadəti, o şücaəti, o da Allah yolundakı qətiyyəti! Lazım olan yerdə qılıncı ilə həqiqət, din və Allah düşmənlərinin

1. Xəzər dənizinin cənubunda, İranın Mazandaran ostanının Amol şəhristanında, Tehran şəhərindən 66 km şimal-şərqdə yerləşən potensial aktiv stratovulkan. – Red.

canına düşür və heç nədən qorxub çəkinmirdi. O, Allah yolunda heç kəsin tənəsindən qorxmazdı.[1] Allah yolu üzərində azğın, zərərli və özbaşınalıq edən adam olanda məsələni onun qılıncı həll edirdi. Harada məzlum, haqqı əlindən alınmış adam olsaydı, Əmirəl-möminin ən kövrək və incəqəlbli insana çevrilirdi. Hədislərdə nəql edilənlərə əsasən, Əmirəl-möminin öz əli ilə yetimlərin ağzına o qədər yemək qoyurdu ki, bir nəfər – yəqin, gənc olub – belə deyib: "Biz arzulayırdıq ki, kaş biz də yetim olaydıq, Əmirəl-möminin bizə də belə iltifat göstərəydi". O həzrət gizli şəkildə yoxsul, kasıb, çətinlik içində olan, yolda qalan şəxslərə o qədər baş çəkib ki, onlar o həzrət zərbətlənəndən sonra onlara tanınmaz qiyafədə gəlib əl tutan şəxsin Əmirəl-möminin olduğunu başa düşüblər.

Onun kəlamı "Nəhcül-bəlağə"dir, bəşəriyyətin ərəblər arasındakı ən fəsahətli sözü! "Nəhcül-bəlağə" incəsənət və gözəlliyin zirvəsidir. Onda həm söz, həm də məna gözəlliyi var. İnsan onu oxuyanda heyran qalır. Heç bir böyük ərəb şairi, heç bir ərəb yazıçısı "Nəhcül-bəlağə"yə ehtiyacım yoxdur deməyib.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*31.XII.1999*



1. Kitabu Süləym ibn Qeys Hilali, c. 1, səh. 22

# Ramazan möminlərin qısa zahidlik kursudur

Fitr bayramı ibadət və bağışlanma bayramıdır. Bu gün mömin müsəlmanlar üçün qısa zahidlik kursudur. Onlar bu kursdan bütün il boyu, ömürlərinin sonuna kimi özlərini islah etmək, ruhiyyələrini gücləndirmək və özlərində yaxşı vərdişləri artırmaq üçün bəhrələnmək istəyirlər. İnsanın bu ayda özünü cilovlaması, aclıq və susuzluq qarşısında səbir nümayiş etdirməsi, nəfsi istəkləri ilə mübarizə aparması onda yaxşı vərdişlərin güclənməsinə səbəb olur. Ümumilikdə insan bu vərdişlərdən ibarətdir. Gözəl mənəvi xüsusiyyətləri olan şəxslər bu dünyadan əlidolu gedirlər. İbadətlər, təqva və insanın boynuna düşən digər vəzifələr insanın sonda özünü bu vərdişlərin toplusuna çevirməsi, özünü həqiqi insan etməsi və əzəmət sahibi olan Allaha bənzətməsi üçündür.

## Oruc tutmaq nəticəsində əldə edilən keyfiyyətlərin qorunması

Ramazan ayı sayəsində nəfsi istəklərlə mübarizə gücü əldə etmiş insan böyük bir şey əldə edib və gərək onu qorusun. Şəhvətpərəstlik, nəfsi istəklərə tabeçilik kimi çirkin vərdişləri olan şəxs ramazan ayında bu vərdişinə qalib gələ bilər. O, ramazan ayından sonra da bu vərdişini qoruyub saxlamalıdır. Bəşəriyyətin bütün bədbəxtlikləri onun nəfsi istəklərə tabe olmasından qaynaqlanır. Bütün zülmlərin, hiyləgərliklərin, namərdliklərin, ədalətsizliklərin, haqsız müharibələrin, zalım hökumətlərin, xalqların zalıma təslim olub zülmə məruz qalmasının kökü nəfsi istəklərə tabe olmaq və nəfsin istəkləri qarşısında təslim olmaqdır. Əgər insan nəfsi istəklərinə qalib gələ bilsə, nicat tapar. Ramazan ayı sizdə belə bir xüsusiyyət yaradıb. Bugünkü bayram sizin haqq-hesab etməyiniz, Allahın Öz ziyafətində sizə verdiyi mükafatı qoruyub saxlamağınız və Allahla əlaqələrinizi möhkəmləndirməyiniz üçündür.

Əziz qardaş və bacılar, xüsusilə gənclər! Bu raz-niyaz və diqqət ab-havasını, öz nurlu qəlblərinizlə Allahla qurduğunuz əlaqələri il boyu da qoruyub saxlayın. İnsan dünya və axirəti bu mənəvi saflıqla əldə edə bilər. İnsanı xoşbəxt edən dünya yalnız və yalnız bu yolla əldə edilə bilər.

Söhbətimin sonunda siz əziz qardaş və bacılara Əmirəl-mömininin bu hədisini oxuyum. Əmirəl-möminin buyurub: "Bu gün Allahın orucunu qəbul etdiyi, ibadətlərini dəyərləndirdiyi şəxs üçün bayramdır. Allaha qarşı itaətsizlik edilməyən hər bir gün bayramdır".[1]

1. Nəhcül-bəlağə, 420-ci hikmət

Əzizlərim, günah etməmək və Allahın haramlarından çəkinməklə bu günü bayram edin, sabahı bayram edin, bütün ili özünüz üçün bayrama çevirin.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*8.I.2000*

# Ramazan yaxşı işlər görmək üçün fürsətdir

Əzizlərim! Ramazan ayındayıq. Bu günlər və saatlar çox dəyərlidir. Bu saat və günlərdən hamımız istifadə etməliyik. Biz bu gün və saatlardan həqiqi mənada bəhrələnmək üçün həm Allahdan kömək istəməli, həm də özümüz çalışmalı, həqiqi və mömin İslam məmuru kimi olduğumuz işdə düzgün fəaliyyət göstərməliyik. Yol budur, bundan başqa yol yoxdur. Yəni biz cəmiyyətdə bu fəsadların baş alıb getməsinə əsla razı olmamalıyıq. Bu işlər görülməlidir və buna görə hamı məsuliyyət daşıyır. Çalışmaq lazımdır, islahat işləri aparmaq lazımdır. İslahatın ilk addımı batini islahatdır. Yəni bu quruluşun məsul şəxsləri özlərini İslama zidd davranış, rəftar və xüsusiyyətdən təmizləməlidirlər. Əgər bu iş baş versə, işlərdə irəliləyiş əldə etmək mümkün olacaq.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*2.XII.2000*

# Ramazan insanın özünü islah etmə ayıdır

Fitr bayramının təbrik edilməsinin mənası bərəkətli ramazan ayının uğurla sona çatdırılmasıdır. Allaha şükür ki, bu il xalqımıza bərəkətli ramazan ayını sözün həqiqi mənasında xeyir-bərəkətlə keçirməyi nəsib etdi. Möminlərin, imanlı gənclərin, oruc tutanların diqqət, pak hiss və ilahi təsirə malik nəfəsləri sayəsində ölkə başdan-başa mənəviyyat ətrinə bürünmüşdü. Allaha şükür olsun ki, bu il ramazan ayı insanların diqqətinin Allaha yönəlməsi, Ona üz tutması və uğur əldə etməsi baxımından keçən ildən və əvvəlki illərdən daha uğurlu oldu. Bunun qədrini bilmək və bərəkətli təsirlərini qorumaq lazımdır. Ramazan ayı insanın irəliləmək üçün özünü islah etməsi ayıdır. İnşallah, bu bərəkətli yolu və hərəkəti 22 ildir davam etdirdiyimiz kimi, bundan sonra da müvəffəqiyyətlə davam etdirək. Mənim qeyd etmək istədiyim ikinci nüans bu idi. Bu ayda İran xalqına nazil olan ilahi bərəkət və müvəffəqiyyətin qədrini bilmək lazımdır.

Əmirəl-möminindən nəql edilmiş hədisdə fitr bayramı günü Qiyamətə, yəni əməllərin qarşılığının verildiyi günə bənzədilib.[1] İnşallah, sizin bu mənəvi və siyasi ibadət mərasimində toplanmağınız Allahın rəhmətinin sizə nazil olmasına səbəb olar və İran xalqı, dövlət məmurları, bir sözlə, hamı fəaliyyət göstərdiyi sahədə Allah-taalaya təvəkkül edərək Allahın Qurandakı və məsum imamların kəlamlarındakı tövsiyələrini məsuliyyətlə yerinə yetirər. Həmçinin zəmanəmizin böyük mənəvi şəxsiyyəti və peyğəmbərlərin canişini İmam Xomeyninin göstərdiyi yolu davam etdirərək Allahın istəyi ilə xalqın xoşbəxtliyi və ölkənin gələcəyini təmin edər.

## Fitr bayramı müsəlmanların tükənməz azuqəsidir

Bəlkə də, bərəkətli fitr bayramının ən bariz xüsusiyyəti onun mənəvi və beynəlxalq mərasim olmasıdır. Ondan fərqli olaraq beynəlxalq mərasimlərin çoxu sırf siyasi xarakter daşıyır. Amma fitr bayramı güclü mənəvi xüsusiyyətə malikdir. Fitr bayramının namazının qunut duasında belə oxuyuruq: "İlahi, müsəlmanlar üçün bayram, Məhəmməd üçün azuqə, şərəf, kəramət və başucalığı amili etdiyin bu günün ehtiramına Səndən istəyirəm ki..."[2] Bu gün bütün müsəlmanların bayramı, İslamın, İslam Peyğəmbərinin şərəf mənbəyi, İslamın başucalığı amili, tarixin tükənməz azuqəsidir. Fitr bayramına bu gözlə baxmaq lazımdır. Bu gün bizim böyük xalqımızın bu azuqəyə ehtiyacı var. Müsəlmanlar bu azuqədən iki cür istifadə etməlidirlər:

1. Biharul-ənvar, c. 9, səh. 362
2. İqbalul-əmal, c. 1, səh. 289

birincisi, vəhdət və müsəlmanların bir-birinə yaxınlaşması istiqamətində, ikincisi, İslam dünyasında mənəviyyata diqqətin artırılması baxımından. İslam dünyasında inkişaf və tərəqqi amili olan bu iki amilin hər ikisi zərbəyə məruz qalıb. Bu gün müsəlmanların vəhdəti məzhəb parçalanmaları, firqəçilik, millətçilik və digər azğın şüarlar nəticəsində zərbəyə məruz qalıb. Müsəlmanlar gərək özlərinin bütün şüarlarının – istər millətçilik şüarları olsun, istərsə də öz məzhəb və siyasətlərinə aid şüarlar – başına vəhdət və İslam ümmətinin birliyi şüarını yazsınlar. Bu gün onların ən faydalı şüarlarından biri bu olmalıdır. Bildiyimiz kimi, istismarçı, imperialist və düşmən qüvvələr həmişə müxtəlif hiylələrlə bu vəhdəti pozmağa çalışıblar...

İkinci məsələ mənəviyyat məsələsidir. Bizim neft, müstəqillik, izzət, vəhdət və birliyimizi qarət edən imperialistlər gəlib mənəviyyatımızı da qarət ediblər və İslam dünyasında öz maddi baxışlarını müxtəlif mədəniyyətlər adı altında sırıyıblar. Bu gün İslam mənəviyyatına, İslam həqiqətinə və dini mənəviyyata qayıdış müsəlmanların şüarı olmalıdır. Bu gün müsəlmanların buna ehtiyacı var.

*Dövlət məmurları və müsəlman ölkələrin*
*səfirləri ilə görüşdəki çıxışdan*
*27.XII.2000*

# Ramazan səbir və namaz ayıdır

Fitr bayramı ramazan ayından sonra mükafat almaq və Allahın mərhəmətini görmək günüdür. Allaha şükür olsun ki, səbir və namaz ayı olan ramazan ayını xeyirliklə arxada qoydunuz, Allah-taala sizə dua, zikr və minacatla oruc tutmağı, Ona yaxınlaşmağı və Onun qarşısında baş əyməyi nəsib etdi. Bu gün Allah-taalanın sizin mükafatınızı verəcəyi gündür. Ümid edirəm ki, Allahın bizə verdiyi ən böyük mükafatlardan biri ilahi rəhmət vasitəsini gələn ramazana kimi qorumaq olacaq. Ramazan ayında ilahi rəhmət sizin yerinə yetirdiyiniz yaxşı işlərdən qaynaqlanır. Ramazan ayında diqqətin Allaha yönəldilməsi, ehtiyacı olanlara əl tutmaq, qohumlara baş çəkmək, imkansızlara qayğı göstərmək, paklıq, təqva, küsdüyünüz adamlarla barışmaq, düşmənçilik etdiyiniz şəxslərlə insafla davranmaq kimi gözəl işlər var. Ramazan mehribanlıq, diqqət və yaxınlaşma ayıdır. Bu ayda qəlblər yumşalır, ruhlar Allahın lütf və mərhəməti ilə nuranilәşir, insan yaxşı işlər görmək imkanı əldə edir. Bunu

gələn ilə kimi davam etdirin. Ramazan dərsini illik öyrənmək lazımdır. Bu, Allahın böyük mükafatlarındandır. Allah bizə bunu qismət etsin. Allahdan razılıq, rəhmət, əfv və xoşbəxtlik diləyək. Belə olsa, bayramımız həqiqi bayram olar.

## Ramazan ayının ən böyük dərsi özünüislahdır

Əzizlərim! Ramazan ayının ən böyük dərsi özünüislahdır. Özünüislahın ilk və ən mühüm addımı insanın özünə, öz əxlaq və davranışına tənqidi nəzərlərlə baxması və öz eyiblərini diqqətlə araşdırması, onları aradan qaldırmağa çalışmasıdır. Bu bizim bacaracağımız iş və boynumuza düşən vəzifədir.

Üzümü insanlara tutub deyirəm: bir-birinizə rəhm edin ki, Allah da sizə rəhm etsin. Əlində imkan olan şəxslər başqalarının hüquqlarını pozmasınlar. Müxtəlif fərdi və ictimai bacarıq, istedad, zəka, imkan, qüdrət və məqama malik şəxslər bu imkanlardan başqalarının hüququnu pozmaq istiqamətində istifadə etməsinlər. Gəlin özümüzü Allahın bəndəsi hesab edək və Allahın digər bəndələri qarşısında özümüzü borclu bilək, onlara yaxşılıq edək, insafla davranaq. Əgər belə etsək, Allahın lütf və rəhmət yağışı bizə də yağar, bizi yuyub təmizləyər, Allah Öz mərhəmətini bizə nazil edər. Əlbəttə, bu hamının boynuna düşən vəzifədir, amma cəmiyyətdə imkan, qüdrət, məqam, sərvət və nüfuza malik şəxslər bu ağır yük – özünüislah, başqalarının hüquqlarını pozmamaq barədə başqalarından daha çox məsuliyyət daşıyırlar.

*Fitr bayaramının xütbələrindəki çıxışdan*
*16.XII.2001*

# Fitr bayramı sözün həqiqi mənasında bayramdır

Fitr bayramı İslamın ən əzəmətli və əlamətdar günlərindəndir. İslam dünyası fitr bayramını sözün həqiqi mənasında bayram hesab edir və bayram kimi qeyd edir. Bunu İslam ümmətindən İslam istəyib: "Allah onu sizin üçün bayram və sizi ona layiq edib".[1] Məsələnin ikinci tərəfi daha əhəmiyyətlidir. Biz Allahın bu bəxşişindən həm fərdi, həm də ictimai müstəvidə istifadə etməliyik. Gərək Allahın dərk etmək, tövbə və Ona tərəf qayıtmaq nurunu qəlbimizə daxil edək. Əgər ilahi mərifət və məhəbbət aləmindən qəlbimizə qapı açsaq və batinimizi işıqlandırsaq, aləmdə olan çətinlik və zülmətlərin çoxu aradan qalxar. Çünki yaxşılıq və pisliklərin qaynağı insanların qəlbidir. Həmçinin ondan ictimai və beynəlxalq davranış, fəaliyyət və münasibətlərdə geniş mənada istifadə etmək lazımdır.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*16.XII.2001*

1. Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 517

# Ramazan təqva tədarükü ayıdır

Ramazan təqva tədarükü ayıdır. Gəlin Allah-taaladan bu ayda bizə bütün il və ömrümüz üçün dəyərli təqva ehtiyatı görməkdə yardım etməsini istəyək.

Bu gün birinci xütbədə Əmirəl-mömininin öz övlad və qohumlarına vəsiyyətindən bir neçə cümlə nəql edəcəyəm. Əlbəttə, "Nəhcül-bəlağə"də nəql edilənlərə əsasən, o həzrət bu vəsiyyəti onun çatdığı bütün insanlara ünvanlayıb. Əmirəl-mömininin həmin sözləri bizə də aiddir. O, məşhur vəsiyyətdir və o həzrət bir-iki sətirdən sonra buyurur: "Sizə, bütün övladlarıma, Əhli-beytimə və məktubum çatan hər bir kəsə təqvalı olmağı, Allahdan qorxmağı, işinizdə nizam-intizamlı olmağı və aranızdakı münasibətləri düzəltməyi vəsiyyət edirəm".[1] Bu vəsiyyətnamədə təxminən iyirmi tövsiyə var. Təbii ki, böyük insanın ömrünün son anlarında yazılan vəsiyyəti onun nəzərincə ən həssas məsələləri ehtiva edir. Əmirəl-möminin bu vəsiyyəti İbn Mülcəm

1. Camiul-əhadisiş-şiə, c. 23, səh. 890

tərəfindən zərbətlənəndən sonra edib.[1] Bu vəsiyyətnamədə qeyd edilən iyirmi məsələnin hamısı mühüm məsələdir. Onda dünyapərəstlik, Quran, həcc, cihad, yetimlər, qonşular və sairə məsələlərə toxunulub. Mən bu gün sizə demək üçün həmin iyirmi məsələdən ikisini seçmişəm. Onlardan biri "işlərdə nizam-intizamlı olmaq", ikincisi, "aradakı münasibətlərin düzəldilməsi", yəni qardaşlar arasında xoş və mehriban münasibət yaradılması. Buradan belə məlum olur ki, Əmirəl-mömininin nəzərində bu iki məsələ olduqca mühüm məsələlərdəndir.

## Əmirəl-mömininin vəsiyyətləri

### 1. Təqva ilə müşayiət edilən nizam-intizam

Nizam-intizam çox mühüm məsələdir və insan onun öz həyatındakı məna və yerinə diqqət edəndə onun əhəmiyyətini daha yaxşı dərk edir. Nizam-intizam deyəndə hər bir şeyin öz yerində qərar tapması nəzərdə tutulur. Bizi hər tərəfdən əhatə edən dünya qanuna əsaslanan topludur. Dünyada baş verən hadisələrə, bizim hiss edə və görə bildiyimiz aləmə qanun və nizam-intizam hakimdir. Nizam-intizama malik bu dünyanın hissələrindən biri də insandır. İnsanın təbii həyatı da nizam-intizamlıdır. Qan dövranı, ürəyin döyünməsi, tənəffüs, həmçinin bədəndə baş verən digər proseslərin hamısı nizam-intizama tabedir. Əgər insanın rəftar və davranışı nizam-intizama malik olsa, onunla ətraf mühit arasında uyğunluq yaranar. Nizam-intizam insana hər şeydən ən gözəl şəkildə istifadə etmək imkanı yaradır və heç nəyin lazımsız qalmamasına səbəb olur. İnsanın bədənində olan nizam-intizamın pozulması,

1. Camiul-əhadisiş-şiə, c. 23, səh. 890

ya xəstəliklə nəticələnir, ya da elə onun özü bir xəstəlikdir. Bu, insanın davranışlarında da – istər şəxsi həyatında olsun, istərsə də ictimai – belədir. Buna görə də nizam-intizam olduqca böyük əhəmiyyətə malikdir.

Əlbəttə, "nizam-intizam" ifadəsinin əhatə dairəsi genişdir. O, insanın yaşadığı və ya işlədiyi otağın içinə də aiddir – onun barəsində səliqəli otaq, səliqəsiz otaq ifadələri işlədilir – onun iş və təhsil mühitindəki şəxsi davranışlarına da, ictimai mühitə, cəmiyyətin quruluşuna və ictimai quruluşa, yəni xüsusi fəlsəfəyə əsaslanan özünəməxsus sistemdən qaynaqlanan quruluşa da. Əmirəl-mömininin öz vəsiyyətinin bu hissəsində buyurduğu "işlərinizdə nizam-intizamlı olun" cümləsi bunların hamısına aid olur.

O həzrət nizam-intizamdan qabaq təqva məsələsinə toxunub. Vəsiyyətnamənin əvvəlində təqva məsələsi qeyd edilib: "Sizə ilahi təqvanı və dünya sizi axtarsa da, sizin dünyanı axtarmamağınızı tövsiyə edirəm".[1] Amma iki sətir sonra yenidən buyurur: "Sizə, bütün övladlarıma, Əhli-beytimə və məktubum çatan hər bir kəsə təqvalı olmağı, Allahdan qorxmağı, işinizdə nizam-intizamlı olmağı və aranızdakı münasibətləri düzəltməyi vəsiyyət edirəm".[2] Təqva burada bir daha təkrarlanır. Bəlkə də, Əmirəl-möminin bununla demək istəyir ki, insanın şəxsi işlərində, ictimai həyatında müsbət hesab edilən nizam-intizam təqvadan qaynaqlanan, onunla müşayiət edilən və ona uyğun gələn nizam-intizamdır. Deməli, bu bizim hamımıza şəxsi və ailə həyatımızda, təhsil işlərimizdə, peşə məşğuliyyətimizdə və ictimai fəaliyyətimizdə nizam-



1. Rauzətul-vaizin, c. 1, səh. 136
2. Camiul-əhadisiş-şiə, c. 23, səh. 890

intizamlı olmaq və proqramla iş görmək barədə ümumi vəsiyyətdir. Bunlar, əsasən, fərdi nizam-intizamdır. Nizam-intizama ictimai sahədə də riayət etmək lazımdır. Hər bir kəs olduğu yerdə ictimai nizam-intizama riayət etməyi özünə borc bilməlidir. Bu bizim hamımız üçün ümumi ictimai qaydadır. Bu baxımdan hamı birdir.

Qanunlara, qardaşlıq və mürüvvətə riayət etmək, həddi aşmamaq, başqalarının hüquqlarını pozmamaq, vaxtın – həm öz, həm də başqalarının vaxtının – qədrini bilmək, yol keçmək və gediş-gəliş qaydalarına riayət etmək, maliyyə və ticarət məsələlərində, eləcə də digər məsələlərdə dəqiqlik, bir sözlə, bunların hamısı nizam-intizama aiddir. Nizam-intizamın mühüm nümunələrindən biri də bizim ictimai fəaliyyətimizlə düşüncə, etiqad və şüarlarımız arasında uyğunluğun olmasıdır. Çox təhlükəli intizamsızlıqlardan biri cəmiyyətin düşüncə, etiqad və inancları ilə onlardan doğmalı və ümumi ictimai normaları formalaşdırmalı olan davranışların bir-biri ilə düz gəlməməsidir. Bu, bir növ ümumi ikiüzlülük və riyakarlığın yaranmasına səbəb olur və çox təhlükəlidir.

Dildə durmadan İslam-İslam deyib, əməldə islami prinsiplərə inanmamaq, insan hüquqlarını təməl prinsip kimi irəli sürüb əməldə insan haqlarına riayət etməmək – təəssüf ki, bu məsələ bu gün beynəlxalq aləmdə bəşəriyyətin ən böyük bəlalarındandır – həmçinin dildə azadlıqdan ağızdolusu danışıb əməldə başqalarının azadlığına riayət etməmək, sözdə qanundan və ona riayət etməkdən dəm vurub, əməldə qanuna əməl etməmək çox pis xüsusiyyətlərdən, intizamsızlığın aşkar və təhlükəli nümunələrindəndir. Əlbəttə, qanun yazan və ya qanunları icra edən məsul şəxslər bu məsələyə daha çox riayət etməli

və bununla ümumi xalq kütləsinin diqqətini bu məsələyə yönəltməlidirlər.

## 2. Qəlblərin bir-birinə yaxınlaşması

İkinci məsələ "aradakı münasibətlərin düzəldilməsi"dir. Əmirəl-mömininin öz mühüm vəsiyyətində "aradakı münasibətlərin düzəldilməsi" barəsində qeyd etdikləri yalnız zahiri birlik və vəhdət – iki dəstənin hər hansı bir məsələ barədə müqavilə bağlayıb koalisiya yaratması deyil. O həzrət daha böyük şeyi nəzərdə tutur. Məqsəd qarşılıqlı münasibətlərdə qəlblərin səmimi olması, zehinlərdə qarşılıqlı nikbinliyin yaranması, heç kəsin və heç bir dəstənin qarşı tərəfin hüquqlarını pozmaması, onu incitməməsidir.

Əmirəl-möminin aradakı münasibətlərin düzəldilməsini qeyd edəndən sonra həzrət Peyğəmbərin kəlamından sitat gətirərək buyurur: "Çünki mən sizin cəddinizin belə buyurduğunu eşitmişəm: "İki nəfərin arasını düzəltmək hər namaz və orucdan üstündür".[1] Yəni insanların arasını düzəltmək, onların qəlbini bir-birinə yaxınlaşdırmaq, zehinlərdə qarşılıqlı nikbinlik yaratmaq hər namaz və orucdan üstündür. Hər hansı bir şəxsin insanların arasını düzəltmək istiqamətində çalışması onun müstəhəb namaz qılması və ya müstəhəb oruc tutmasından üstündür. Bizim bu gün buna çox ehtiyacımız var.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*22.XI.2002*



1. Nəhcül-bəlağə, səh. 421

# Ramazan dərsləri

Ramazan orucu qəlb və ruhda təqva ehtiyatının yaranması ilə nəticələnir. Bu təqva ehtiyatı il ərzində həyatın enişli-yoxuşlu yollarında bizim əlimizdən tutmalı və bizim doğru yol ilə hərəkət etməyimizi təmin etməlidir.

Əzəmət, kəramət və rəhmət dolu ramazan ayı arxada qaldı. Bütün dünya müsəlmanları bu ayda oruc tutmaqla, raz-niyaz etməklə, dua oxumaqla, Allahı xatırlamaqla, Quran oxumaqla qəlb və ruhunu daha da aydınlandırdı, özünü Allaha daha da yaxınlaşdırdı.

Ramazan ayında müsəlmanlar üçün fürsət yaranır. Gərək onlar öz mənəvi həyatlarını gücləndirmək və özlərində maddi canlanma yaratmaq üçün bu fürsətdən istifadə etsinlər. Dua, oruc və Quran oxumaqla bərabər, ramazan ayından öyrənilməli böyük dərslərdən biri aclıq və susuzluğu təcrübə etməklə acların, məhrum kütlələrin, yoxsulların halını düşünməkdir. Ramazan ayının gündəlik dualarında belə oxuyuruq: “Allahım, bütün yoxsulları zənginləşdir; Allahım, bütün acların qarnını doydur;

Allahım, bütün çılpaqları geyindir..."[1] Bu dua ancaq dildə oxumaq üçün deyil. Hamı yoxsulluqla mübarizədə, yoxsulluğun aradan aparılması istiqamətində çalışmaqda özünü borclu bilməlidir. Bu mübarizə hamının borcudur. Quran buyurur: *"Sorğu-sual gününü durmadan inkar edən adamı gördünmü? O elə adamdır ki, yetimi kobudluqla qovar və (başqalarını da) kasıba əl tutmağa həvəsləndirməz".*[2] Dini inkar etməyin nişanələrindən biri insanın yoxsul və məhrum kütlələrə fikir verməyərək məsuliyyət hiss etməməsidir. Biz Ramazan ayında oruc tutmaqla aclıq və susuzluğun, insanın iştahı istəyən şeyə çatmamağın nə olduğunu dərk etmişik, onların çətinliyini dadmışıq. Bu bizi İslamın yoxsul və yoxsulluq barədə hər bir müsəlmandan istədiyi və haqqında hamının boynuna vəzifə qoyduğu məsuliyyətə yaxınlaşdırmalıdır.

Əlbəttə, bütün cəmiyyətlərdə yoxsulluğun əlacı ictimai ədalətin bərqərar edilməsindən və cəmiyyətdə ədalətli sistemin qurulmasından asılıdır. Əgər belə olsa, başqalarının hüquqlarına əl uzadanlar hamının haqqı olan sərvəti öz xeyirlərinə müsadirə edə bilməzlər. Bu, dövlət və hökumətin vəzifəsidir. Amma insanların da boynuna böyük məsuliyyət düşür. İctimai proqramları yalnız uzunmüddətli və ortamüddətli zaman kəsiyində və tədricən həyata keçirmək mümkündür. Buna görə də ictimai proqramlar öz nəticəsini verənə kimi oturub gözləmək, cəmiyyətdə məhrum kütlələrin imkansızlığına, acların yoxsulluğuna tamaşa etmək olmaz. Bu barədə hamı və əlindən hər hansı bir iş gələn hər bir kəs məsuliyyət daşıyır.

1. Məfatihul-cinan, mübarək ramazan ayının gündəlik duaları fəsli
2. Maun, 1-3

Qarşılıqlı yardım barədə hamı məsuliyyət hiss etməlidir. “Qarşılıqlı yardım” deyəndə heç bir müsəlman, həmvətən və məhrum ailəni dərd və çətinliklər içərisində yalqız buraxmamaq, onlara baş çəkmək, onlara kömək əli uzatmaq nəzərdə tutulur. Bu gün bu, vicdan, əxlaq və insanlıq hissi olan bütün insanların vəzifəsidir. Müsəlmanların isə əxlaqi və mənəvi borcu olmaqdan əlavə, həm də dini vəzifəsidir.

Qonşulara, yoxsullara əl tutun. İmkanlı şəxslərin yoxsullara kömək etməsinə mane olan amillərdən biri cəmiyyətdə bədxərclik və dəbdəbəli həyat meyillərinin güclü olmasıdır. Cəmiyyətdə bədxərcliyin gündən-günə artması, hamının daha çox xərcləməyə, çeşid-çeşid yeməyə, rəngarəng geyinməyə, mod, hər çıxan yeni məişət əşyası və dəbdəbənin arxasınca getməyə təşviq edilməsi böyük bəladır. Bu yolda nə qədər sərvət və pullar hədərə gedir və Allahın razılığı olan yerə, insanların problemlərinin aradan qaldırılmasına sərf edilmir.

## Bədxərcliyin cəmiyyətə vurduğu ziyanlar

Bədxərclik cəmiyyət üçün böyük bəladır. İsrafçılıq siniflər arasındakı fasiləni, yoxsullarla zənginlər arasındakı uçurumu gündən-günə dərinləşdirir, artırır. İnsanlar israfçılıqdan çəkinməyi özünə borc bilməlidir. Müxtləlif dövlət orqanları, xüsusilə təbliğat vasitələri, mədəniyyət sahəsində fəaliyyət göstərən təşkilatlar, xüsusilə televiziya şirkətləri bu barədə məsuliyyət hiss etməli, insanları nəinki israfçılığa və dəbdəbəli həyat tərzinə təşviq etməməli, əksinə, ondan çəkindirməli, qənaətə, lazım olan qədər xərcləməyə və israfçılıqdan çəkinməyə dəvət etməlidir. Bədxərclik cəmiyyəti məhvə sürükləyir.

İstehlakı istehsalından çox olan cəmiyyət müxtəlif sahələrdə məğlubiyyətlə qarşılaşacaq. Biz xərclərimizi mötədilləşdirməyə və azaltmağa, israfçılıqdan çəkinməyə adət etməliyik.

Gənclər ailə toplantıları təşkil etsinlər, ailə üzvlərinin yardımlarını toplasınlar və onu ilk növbədə ailə və qohum-əqrəbada olan imkansızlara sərf etsinlər, əgər qohum-əqrəbada ehtiyac olmasa, başqa yoxsullara kömək etsinlər.

Bu gün yaşadığımız cəmiyyətdə yoxsulluq var. Biz İslam Respublikası olaraq cəmiyyətdə yoxsulluğun kökünü kəsmək məsuliyyəti daşıyırıq. Cəmiyyətdə məhrumiyyət olmamalıdır. Dövlət, İslam Respublikası və xalq kütləsi olaraq bu barədə bizim boynumuza məsuliyyət düşür. "Sizin hamınızın rəiyyəti var və hamınız öz rəiyyətinə görə cavabdehlik daşıyırsınız".[1] Bu hamının vəzifəsidir. Hər bir kəs bir yolla dəbdəbəli həyat meyillərini, israfçılığı və bədxərcliyi azaltmağa çalışmalıdır. Bu, ramazan ayının bizə verdiyi dərsdir. Bunun üçün çalışmaq, fədakarlıq göstərmək, bəsirətli və gözüaçıq olmaq lazımdır. Buna görə də bu işdə Allahdan yardım diləməliyik.

Bəzi ailələr sözün əsl mənasında yoxsul və ehtiyac içindədirlər; bunun səbəbi onların tənbəlliyi və özlərini işə verməməsi deyil. Onları tapmaq və onlara kömək etmək lazımdır. Onları üzə çıxarmaq elə də çətin iş deyil.

İlahi, bu böyük və mühüm vəzifənin yerinə yetirilməsində bizə kömək et! İlahi, Məhəmməd və onun Əhli-beytinin hörmətinə, bizə, cəmiyyətin tək-tək hər bir üzvünə bədxərclik və israfçılığın ziyanlarını, qarşılıqlı

1. Səhih Buxari, c. 1, səh. 304 (bu, Peyğəmbər hədisidir)

yardım, imkansızlara əl tutmağın xeyirlərini başa sal və bizə bu işi görməyi nəsib et.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*6.XII.2002*

# İslam dünyası bu gün hər şeydən çox Qurana möhtacdır

Biz Quran oxunması məsələsini çox vurğulayırıq. Biz onu əyləncə və ya hər bir kəsin öz bacarığını nümayiş etdirməsi üçün demirik. Məqsəd cəmiyyətdə Quran ab-havasının yaradılmasıdır. Bizim gözəl qarilərimiz var və onlar öz gözəl səslərindən, Quranın müxtəlif oxunuş üslublarından, həmçinin təcvid qaydalarından istifadə etməklə, Quran ayələrinin hərf, söz və cümlələrini gözəl tələffüz etməklə cəmiyyətdə Quran ab-havasının yaradılmasına nail ola bilərlər.

Əzizlərim! Bilin, bu gün İslam dünyası Qurana möhtacdır. Dostların burada oxuduğu "Ali-İmran", "Bəqərə", "Ənbiya" və "Əhzab" surələrinin ayələrində İslam dünyasının bugünkü dərd və süstlüyünün dərmanı mövcuddur. Onlar insanın imanını dərinləşdirir, möhkəmləndirir, gözünü açır, onda həyat enerjisi yaradır, onu işə sövq edir. Bu xüsusiyyətlərə malik cəmiyyət həm inkişaf edər, həm də ruhiyyəsi güclənər. Cəmiyyətin

ruhiyyəsi güclü olsa, düşmən ona qarşı zorakılıq edə bilməz. Dünyanın imperialist qüvvələri hər hansı bir fərd, cəmiyyət və xalqın boynuna minmək istəyəndə hər şeydən əvvəl həmin fərd və ya xalqın ruhiyyəsini öldürür, onun özünəinam hissini və mübarizlik qüvvəsini yox edir. Nə qədər ki, hansısa bir xalq və ya cəmiyyətdə güc, qüdrət və ruh yüksəkliyi var, heç kəs – nə daxili, nə də xarici düşmənlər, nə tənbəllik, nə başısoyuqluq, nə də bacarıqsızlıq – ona qalib gələ bilməz. Hədislərdə belə deyilir: "Bəziləri Quranı oxuyar və onun dərmanını qəlbində olan dərdin üzərinə qoyar". Quranı şan-şöhrət qazanmaq və ya başlarını qatmaq üçün oxumurlar, sağalmaq üçün oxuyurlar. Quranda olan dərmanı ruh, vücud və batinimizdəki dərdlərin üzərinə qoyaq və mənəvi xəstəliklərimizi Quranla sağaldaq. Bunun üçün mühitin Quran mühiti olmasına ehtiyac var.

Bizi müxtəlif yollarla uzun müddət Qurandan uzaq salıblar. Biz bu gün mühitin Quran mühiti olmasını istəyirik. Biz gərək Qurana üz tutaq. Əlbəttə, yaşadığımız cəmiyyət 25 ildir kollektiv şəkildə Qurana doğru hərəkət edir. İnqilabdan qabaq da Qurana doğru gedənlər var idi, amma o, fərdi qaydada idi. Lakin İslam hökuməti qurulandan sonra cəmiyyət kütləvi şəkildə Qurana doğru hərəkət etməyə başlayıb, yaxşı da hərəkət edib. Amma nəzərdə tutulan yerə çatmağa hələ çox var. Bu hərəkət nəticəsində siz bu gün qoca və cavanların, kişi və qadınların Quranla çox ünsiyyətdə olduğunu görürsünüz. Cəmiyyətin hər guşəsində və müxtəlif sferalarda Quranla ünsiyyətdə olan gənclərə rast gəlmək mümkündür. Bu həmin hərəkətin nəticəsidir və onu gücləndirmək lazımdır. Onu gücləndirmək üçün siz Quran qariləri Quranı gözəl

səs və üslubda oxumalısınız. Bu kimi yığıncaqlar cəmiyyətə Quran oxumağın əhəmiyyətini çatdırmaq üçündür. Yoxsa ki, əgər adam tək otursa, burada oxunulan Quranın neçə qatı qədər Quran oxuyar.

Quran oxumaq təkcə səsdən ibarət deyil. Onun özünəməxsus qayda və üslubları var. Onun bir hissəsi işin zahirinə aiddir, avaz və oxunuş metodundan ibarət qaydalardır. Bir hissəsi də Quranın dərinliklərinə aiddir. Bu mərhələ əvvəlkindən daha dərindir və batini xarakter daşıyır, ayələrin mənaları ilə tanışlıqdan ibarətdir. Mən gənc qarilərə dəfələrlə demişəm, indi bir daha təkrar edirəm ki, onlar çalışıb oxuduqları ayənin mənasını yaxşı başa düşməlidirlər. Heç olmasa oxuduqları ayələrin tərcümə və mənasını bilməlidirlər ki, onu oxuyanda məna səs ilə birlikdə ruhlarının dərinliklərindən gəlsin. Əgər belə olsa, o, cəmiyyətə təsir edər. Bəzi misirli qarilərin Quran oxuması insanı öz təsiri altına salır. Bunun səbəbi qeyd etdiyimiz şeydir. Onlar ayəni elə oxuyurlar ki, elə bil ayənin mənasını sizin qarşınızda təsvir etmək istəyirlər. Mən bəzən gənc qarilərə Əhli-beyt məddahlarını misal çəkirəm və deyirəm ki, onlar məclisdə hamının başa düşdüyü bir beyt şeir oxumaq istəyəndə onu iki cür oxuya bilərlər. Onun bir forması budur ki, məddah şeiri bir dəfə gözəl səslə oxuyur, sanki sizinlə kəlmə-kəlmə söhbət edir. Bu, insanın ruhuna təsir edir. Bir forması da budur ki, o özü üçün bəzi şeylər oxuyur. Quranı da iki cür oxumaq olar. Çox vaxt oxunuşlar arasında avaz baxımından elə də fərq olmur, amma onların bəzisi qəlblərə təsir edir, bəzisi isə etmir. Onların qəlblərə təsir etməməsinin, ürəkləri yerindən oynatmamasının səbəbi onu oxuyan şəxsin dinləyici ilə ürəkdən danışmamasıdır. Bizim mühitdə

çoxları ərəb dilini bilmir, ərəb dili bilinən yerlərdə də görürsən ki, qari dinləyici ilə ürəkdən danışmır. Əgər siz qiraətinizin təsir, ictimai mühiti formalaşdırmaq, qəlbləri dəyişdirmək və ruhlara təsir etmək baxımından uğurlu olmasını istəyirsinizsə, oxuduğunuz ayənin mənası ilə tam tanış olmalısınız. Quran oxuyan kəs onu elə oxumalıdır ki, sanki xoş səslə həmin mənanı dinləyiciyə təsvir etmək istəyir.

*Quran qarilərindən bir dəstə ilə görüşdəki çıxışdan*
*28.X.2003*

## Qədr gecəsinin əhəmiyyəti

Namazda iştirak edən qardaş və bacıların hamısını təqvaya, Allahın əmr və qadağalarına, danışıq və davranışlarda, hətta düşüncə və hisslərdə Allahın istəyinə riayət etməyə dəvət edirəm. Bu gün ramazan ayının 19-cu günüdür. Dünən qədr gecəsi olmaq ehtimalı olan gecələrdən biri idi. Ümumilikdə bu günlər çox əziz və bərəkətli günlərdir; qarşıda qədr gecəsi ehtimalı olan daha iki gecə var. Əziz və mömin Tehran əhalisi bu mənəvi mərasimdə qəlbini Allahla ünsiyyətdə olmağa hazırlamalı, qarşıda olan qədr gecələrində Allahın bu günlər və gecələr üçün möminlərə vəd etdiyi mərhəməti əldə etməyə çalışmalıdır. İlahi, bizim hamımızı qədr gecəsinə çatdır və hamımıza onun bərəkətlərindən istifadə etməyi nəsib et.

Mən qədr gecəsinin əhəmiyyəti barədə qısa bir cümlə demək istəyirəm. Quranın *"qədr gecəsi min aydan xeyirlidir"* ayəsindən belə məlum olur ki, qədr gecəsi ilahi dəyər və təqvim baxımından min aya bərabərdir. Bu günlərdə

oxunan dualarda[1] ramazan ayının dörd xüsusiyyəti qeyd edilib. Onlardan biri bu ayın gün və gecələrinin digər ayların gün və gecələrindən üstün və əzəmətli edilməsidir. Digər xüsusiyyət bu ayda oruc tutmağın vacib olmasıdır. Üçüncü xüsusiyyət Quranın bu ayda nazil olmasıdır. Digər bir xüsusiyyət qədr gecəsinin bu ayda olmasıdır. Duada qədr gecəsi ramazan ayına dəyər vermək baxımından Qurana tay tutulub. Buna görə də qədr gecəsinin qədrini bilmək, onun saatlarını qənimət hesab etmək lazımdır. Elə etmək lazımdır ki, qədr gecəsində Allahın təqdir qələmi əziz ölkəmiz və xalqımız üçün gözəl müqəddərat yazsın.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*14.XI.2003*

1. Məqsəd ramazan ayında vacib namazlardan sonra oxunan bu duadır: "Ya əliyyu, ya əzim, ya ğəfuru, ya rəhim. Əntər-Rəbbul-əzim. Əlləzi ləysə kəmislihi şəyun və huvəs-səmiul-bəsir. Və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur. Və huvəş-şəhrulləzi fərəztə siyaməhu ələyy..." (Ey uca və əzəmətli; ey bağışlayan və rəhm edən! Sən böyük Allahsan, bənzəri → olmayan eşidən və görən Allah! Bu Ramazan ayı Sənin bütün aylardan böyük və dəyərli, şərəfli və üstün etdiyin bir aydır. Sən mənə həmin ayın orucunu vacib etmisən...)

# Fitr bayramı Allahdan bayramlıq almaq fürsətidir

Allaha şükür ki, xalqımıza zikr, dua və ibadət mühitinin hakim olduğu bir ramazan yaşatdı. Bu, böyük ilahi fürsətlərdəndir. Siz əziz möminlər ramazan ayını oruc tutmaqla, Quran oxumaqla, ibadət edib oyaq qalmaqla keçirdiniz və Allaha şükür ki, bayram günü gəlib çatdı.

Bu gün fitr bayramı günüdür. Fitr bayramı Allahdan bayramlıq almaq günüdür. Bu gün milyonlarla insan qəlbində Allahı yada salıb raz-niyaz edərək Ondan ən yaxşı bəndələrinə nəsib etdiyi xeyir-bərəkəti ona da nəsib etməsini, həmçinin onu tarixin ən böyük və üstün şəxsiyyətlərini qoruduğu şərlərdən qorumasını istədi. Xeyir ilk növbədə diqqətin Allaha yönəldilməsi, Allaha bəndəlik, Allahla ünsiyyət, bütün danışıq və davranışlarda, həyatın bütün anlarında Ondan ilhamlanmaq məqamına çatmaqdan ibarətdir. Ən pis şər isə Allaha şərik qoşmaq, Allahdan başqa və Allaha düşmən qüdrətlər qarşısında əyilmək, onlara qul

olmaqdır. Allah Öz lütf və mərhəməti ilə milyonlarla müsəlmanın səmimi-qəlbdən etdiyi bu duanı qəbul etsin və müsəlmanları təhlükəsiz bəndəlik diyarına, saleh və ləyaqətli bəndə məqamına çatdırsın.

## Boyuna düşən vəzifəyə əməl etmək

Bu gün əziz xalqımız bayram edir. Müsəlman ölkələrin çoxunda, həmçinin İranın bəzi şəhərlərində bacı-qardaşlarımızın bəzisi bayramı dünən edib. Bəzi möhtərəm müctəhidlər də dünəni bayram kimi qeyd ediblər. Bu məsələdə hər bir kəs əldə etdiyi yəqin əsasında hərəkət edib. Bəziləri də Ayı görə və yeni ayın başlanması barədə yəqin əldə edə bilməyiblər. Buna görə də dini qaydaya əsasən, onlar üçün bu gün bayram sayılır və onlar bayramı bu gün qeyd edirlər. Hər iki dəstə öz vəzifəsinə əməl edir. Həm ölkəmizdəki, həm də dünyadakı astronomlar və elmi mərkəzlər əvvəlcədən ayın otuz gün olacağı proqnozunu vermişdilər. Amma əgər kimsə ramazan ayının iyirmi doqquzundan sonra – otuzuncu günün axşamı və ya otuzuncu gün – şəvval ayının doğması barədə yəqin əldə etsə, dini baxımdan onun vəzifəsi həmin günü şəvval ayının biri hesab etməkdir. İslamın şəriət qanunlarında bu kimi şeylər ixtilaf mənbəyi deyil. Dünəni şəvval ayının biri hesab edənlər öz vəzifələrinə və yəqinlərinə əməl ediblər və Allah-taala qarşısında öz mükafatlarını alacaqlar. Qum və Nəcəfdə olan bəzi müctəhidlərə tabe olaraq dünən şəvval ayının doğması barədə yəqin əldə edə bilməyən digər dəstə də – təzə ayın doğması barədə biz də yəqin əldə edə bilmədik – Allah yanında öz mükafatını alacaq.

Bizim vəzifəmiz bu idi, onların vəzifəsi də o. Əsas məsələ boyuna düşən vəzifəyə əməl etmək və ramazan ayında əldə edilən azuqəni itirməməkdir.

Həzrət Əli xütbələrinin birində belə buyurub: "Bilin! Bu gün məşq və hazırlıq, sabah yarış günüdür".[1] Bu dünya hazırlaşmaq, məşq etmək yeridir. Bu böyük məşq meydanında özünüzü ilahi görüş meydanına – Qiyamətə və Allah qarşısında haqq-hesab verməyə, sorğu-suala hazırlayın. Bu gün məşq və hazırlıq, özünü islah etmək günüdür, sabah, yəni Qiyamət günü isə yarış, buradan özümüz üçün orada müəyyənləşdirdiyimiz və hazırladığımız yerə doğru hərəkət etmək günüdür. "Qaliblərin mükafatı Cənnət, geri qalanların cəzası isə oddur".[2] Sabah Qiyamətdə qaliblərə Cənnət veriləcək, geri qalanlar isə Cəhənnəm və oda düşəcəklər. "Ölümdən qabaq səhvlərinə görə tövbə edəcək kimsə varmı!"[3] Əmirəl-möminin insanları əgər səhv ediblərsə, onu düzəltməyə, düz yola gəlməyə və doğru yolda addımlamağa dəvət edir. "Bədbəxtlik günü gəlib çatmamışdan qabaq özü üçün bir iş görən və azuqə tədarükü görən bir kimsə varmı?"[4] Yaşadığımız həyat azuqə tədarükü görmək meydanıdır. Bizim qazancımız, təhsilimiz, elmi işlərimiz, siyasi fəaliyyətimiz, evimiz, bir sözlə, həyatımızın bütün sahələri Allaha xatir iş görmək və sabah üçün çalışmaq meydanıdır.

Qardaş və bacılar, əziz möminlər, möhtərəm İran xalqı! Gəlin öz sabahımız üçün iş görək. Bu iş dünyanın əsası, ruh və cismin formalaşma amilidir. Bu iş insanın həm özünün,



1. Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 516
2. Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 516
3. Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 517
4. Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 517

həm də müsəlman qardaş və bacılarının, ölkəsinin, xalqının maddi və mənəvi yüksəlişi üçün çalışmasından ibarətdir.

*Fitr bayramı namazının xütbələrindəki çıxışdan*
*26.XI.2003*

# Ramazan ayının fitr bayramı ilə sona çatmasının fəlsəfəsi

Bərəkətli ramazan ayının fitr bayramı ilə sona çatmasının çox dərin və ibrətamiz mənası var. Yəni insanların oruc və ibadəti, ramazan ayı boyunca batini şeytanlar və pisliklərə əmr edən nəfs ilə mübarizə aparması bayramın yaranması ilə nəticələnir. Həmin bayramın təzahürü insanların Allaha yönəlmə meydanında birgə iştirakı və Onunla itaətkarcasına ünsiyyətdə olmasıdır.

İslam insanları ibadətə, özünü islah etməyə, nəfslə mübarizəyə dəvət etsə də, bunu hər bir şəxsin Allahla fərdi əlaqəsi və şəxsi əməli hesab etmir. İslam bu əlaqəni, diqqətin Allaha yönəldilməsini, Onun qarşısında itaətkarlıq göstərməyi və Ona yaxınlaşmağı onların dünya işində və öz gələcəklərini qurmaq istiqamətində birlikdə möhkəm addımlarla hərəkət etmələrinə səbəb olan vasitə hesab edir. Bəzi böyük şəxsiyyətlər İslam ümmətinin xoşbəxtliyinin iki prinsipdə – tövhid və vəhdətdə olduğunu deyiblər. Bu, həqiqətən, belədir. Bizim bu gün fitr namazı qılaraq Allaha

üz tutmağımız tövhid və vəhdətin təzahürüdür. Çünki o, həm mənəviyyat, həm Allaha yaxınlaşmaq vasitəsi, həm itaətkarlıq, həm qəlbin Allaha iman vasitəsi ilə möhkəmləndirilməsi, həm sakitlik və aramlıq əldə etmək, həm də insan nəfsinin müxtəlif təlatümlərindən xilas olmasıdır. Bununla yanaşı, fitr bayramı bütün qüvvələrin bir-birinə birləşdirilməsi və onların həyat səhnəsinə çıxarılmasıdır. Bu gün həm İran xalqı, həm də böyük İslam ümmətinin bu böyük əsas və prinsipə böyük ehtiyacı var.

*Dövlət məmurları il görüşdəki çıxışdan*
*26.XI.2003*

# Oruc insanı Allahın əzabından qoruyur

Bərəkətli ramazan ayından bəhrələnmək üçün bir hədis nəql edib onun barəsində qısa izah verəcəyəm. Həzrət Peyğəmbərdən belə bir səhih və mötəbər hədis nəql edilib: "Oruc Cəhənnəm odu qarşısında sipərdir".[1] Bu məna əhli-sünnə mənbələrində də müxtəlif ifadələrlə nəql edilib. Onlardan biri də bu hədisdir: "Siz dünyada özünüzü silahla qoruduğunuz kimi, axirətdə oruc vasitəsi ilə Cəhənnəm odundan qoruyacaqsınız".[2]

Görəsən, nəyə görə oruc haqqında "Cəhənnəm odu qarşısında sipər" ifadəsi işlədilib. Orucun əsas xüsusiyyəti nəfsin cilovlanmasıdır. Oruc nəfsin cilovlanması – *"kim nəfsini istəklərdən çəkindiribsə..."*[3] – həmçinin günah və nəfsin hegemonluğu qarşısında səbir təzahürüdür. Buna görə də *"səbir və namazdan kömək alın!"*[4] ayəsinin təfsirində

1. Fiqhur-Rza, səh. 204
2. əl-Xisal, c. 1, səh. 45
3. Naziat, 40
4. Bəqərə, 45

nəql edilmiş hədislərdə ayədəki “səbir” sözü oruc mənasında təfsir edilib. Oruc istəklərdən vaz keçməkdir. Orucun vaxtı məhdud – günün neçə saatı, o da ildə neçə gün – olsa da, simvolik olaraq insan üçün mühüm iş hesab edilir. Niyə? Çünki nəfsi istəklər insanı günaha sövq edir. Əlbəttə, nəfsi istəklərlə günah arasında mütləq bağlılıq yoxdur. Bəzi nəfsi istəklər halaldır. Amma insanın nəfsin cilovunu buraxması, onu boşlaması və onun istəklərinin əsirinə çevrilməsi Əmirəl-mömininin “Nəhcül-bəlağə”də[1] buyurduğu kimidir: həmin şəxsi sanki ram olmayan və cilovu əlində olmayan atın üstünə atıblar, at da onu aparıb uçuruma atır. Nəfsi istəklər insanı günahlara sövq edir.

## Günahlar ilahi əzabın dünyəvi təzahürüdür

Günahlar ilahi əzabın maddi təzahürüdür. İlahi əzabın dünyəvi təzahürü də həmin günahlardır. *“Yetimlərin mallarını zülm və haqsızlıqla yeyənlər, əslində, od yeyirlər”*[2] ayəsinin mənası da həmin şeydir. Yəni hər hansı bir şəxs yetim malı yeyəndə siz zahirdə onun bir malı yeyib udduğunu, qarnına haram tikə atdığını görürsünüz. Amma məsələnin batini onun öz içinə od – Cəhənnəm odu yığmasından ibarətdir. İnsanın burada hər hansı bir yolla haram həzz almasında mövcud olan həzz, məsələnin zahiri tərəfidir. Məsələnin batini tərəfi o biri həqiqi həyatda – xəyal pərdələrinin insanın gözünün qarşısından kənara çəkiləcəyi və həqiqətlərin onun gözü qarşısında aşkar olacağı yerdə üzə çıxacaq. *“Orada hər kəsin daha öncə*



1. Kafi, c. 8, səh. 67
2. Nisa, 10

*yerinə yetirdikləri(nin həqiqəti) üzə çıxacaq"*.[1] Dünyadakı həmin həzzin oradakı təzahürü Cəhənnəm əzabından ibarətdir. Həmin gün gerçəklik və həqiqətlərin özünü büruzə verdiyi gündür. *"Orada hər kəsin daha öncə yerinə yetirdikləri(nin həqiqəti) üzə çıxacaq"*. İnsanın gördüyü işlərin həqiqəti, batini orada aşkara çıxacaq. Bizim ruhumuz, vərdişlərimiz, vücudumuzun həqiqətləri orada özünü göstərəcək. Mövlana belə deyir:

*Ey Yusiflərin dərisini soyan, bu ağır yuxudan qurd kimi ayılacaqsan.*

Burada Yusifləri parçalayan, məzlum insanları ayaq altına atıb əzən yırtıcı pəncələrin batini insan deyil, canavardır. Bu batin özünü orada göstərəcək, təzahür edəcək. Biz gərək Qiyaməti unutmayaq, Qiyamət böyük hadisədir. Qiyamət gərək həmişə zehnimizdə olsun və ondan qorxaq.

## Qiyamət insanın Allahın hüzurunda duracağı gündür

Quran Qiyamət barəsində belə buyurur: *"Qiyamətə inanmayanlar onun barəsində tələskənlik edirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər"*.[2] Kafirlər həzrət Peyğəmbərə deyirdilər ki, sənin bizi qorxutduğun bu Qiyamət və Cəhənnəm haradadır? Quran buyurur: *"Möminlər isə ondan qorxurlar"*.[3] Qiyamət, həqiqətən, qorxuludur, ondan qorxmaq lazımdır. Onu həmişə yadda saxlamaq lazımdır. Bu xatırlama bizi qoruyur. Qiyamət insanın Allahın hüzurunda duracağı gündür. *"Onlar*



1. Yunus, 30
2. Şura, 18
3. Şura, 18

*Rəbbinin hüzurunda sıra ilə duracaqlar".*[1] İnsan öz həqiqəti, batini, qəlbi, bariz xüsusiyyətləri ilə Allahın qarşısına çıxacaq. Allah-taala bizim batinimizi burada da görür. Amma orada heç nə üstüörtülü qalmır və hətta biz özümüz də hər şeyi başa düşəcək və görəcək, özümüzü məzəmmət edəcəyik. Qarşılıqların veriləcəyi gün cavabdehlik günüdür. O, sözün həqiqi mənasında cavabdehlikdir. Orada heç bir səhvi aradan qaldırmaq, yalandan və yersiz bəhanə gətirmək mümkün deyil. Orada insan Allah qarşısında dayanacaq. Allah insanın yaxasından yapışacaq. Qiyamətdə dəqiq haqq-hesab aparılacaq. Bizim hamımızla haqq-hesab çəkiləcək. Qiyamətdə dillər bağlanacaq. Burada dillə müxtəlif oyunlar çıxarmaq olur. Amma orada belə bir imkan yoxdur. *"Bu, (günahkarların) danışa bilməyəcəkləri (və özlərini müdafiə edə bilməyəcəkləri) bir gündür. Onlara üzrxahlıq etmək üçün izin verilməyəcəkdir".*[2] Dil bağlanacaq, sonra onların vərdişləri, bədən üzvləri, əzaları danışacaq. Əgər qəlbimizdə kin, paxıllıq, bədbinlik, bədxahlıq, müxtəlif mənəvi xəstəliklər, əməlisaleh insanlara qarşı kin-küdurət, günah şövqü və sevgisi olsa, orada bunların hamısı üzə çıxacaq. Qiyamət heyrətamiz hadisədir. *"Bu gün onların ağızlarına möhür vurarıq, əlləri Bizimlə danışar, ayaqları etdikləri əməllər üçün şahidlik edər".*[3]

## Quranın Qiyamət barəsindəki ayələri

Qiyamət barəsindəki ayələr çox sarsıdıcıdır. Mən hər bir kəsin ayrı-ayrılıqda həmin ayələri nəzərdən keçirməsini təklif edirəm. Çünki buna hər birimizin ehtiyacı var.

1. Kəhf, 48
2. Mürsəlat, 35-36
3. Yasin, 65

O, insanın qeyd edib hesabat verdiyi işlər kimi deyil. Quranda Qiyamət barəsində yüzlərlə ayə var. Həmin ayələrdə həm müjdə, həm də təhdidlər var. Onların hər ikisi sarsıdıcıdır. Quranın müjdələri də müsbət mənada sarsıdıcı və çox maraqlıdır; onlar insanda şövq yaradır. Quranın təhdidləri də sarsıdıcıdır və insanın ürəyini salır. *"Onları (dostlarını) onlara göstərəcəklər (amma hamının başı öz işinə qarışacaq). Elə olacaq ki, günahkar o günün əzabından qurtarmaq üçün qurban vermək istəyəcək – öz övladlarını, həyat yoldaşını və qardaşını, hər zaman onu himayə etmiş qəbiləsini və yer üzündə olanların hamısını – təki (bu) onu xilas etsin".*[1] Allahın əzabı o qədər ağır olacaq ki, günahkar ondan xilas olmaq üçün öz övladını, əzizlərini, yer üzündə olan bütün insanları qurban verməyə hazır olacaq. Amma bu mümkün olmayacaq. Çünki o, Allahın əzabıdır, zarafat deyil! *"Xeyr! (Bunlarla əsla xilas olmaq olmaz!) Bu odun yandırıcı şölələridir – başın dərisini sıyırıb çıxaran, əli, ayağı qoparıb aparan (bir od)! (O od) çağırır Allahın əmrinə arxa çevirəni və mal-dövlət yığıb saxlayanı".*[2]

## Sirat körpüsü bəndəlik və təqva körpüsüdür

İmam Səccad çox gözəl və dərin mənası olan "Əbu Həmzə" duasında Qiyamət qorxusunu izah edərək buyurur: "Bu gün qəbirdən çılpaq, xar və çiynimdə ağır əməl yükü olan halda qaldırılacağım, gah sağa, gah sola baxacağım və məxluqatın mənim işimdən başqa işlə məşğul olduğu gün üçün ağlayıram.[3] *"O gün onlardan hər birinin yetərincə işi olacaqdır. O gün (neçə-neçə) üzlər parlayacaq, güləcək və*



1. Məaric, 11-14
2. Məaric, 15-18
3. Biharul-ənvar, c. 95, səh. 89

*fərəhlənəcək".*[1] Bəzilərinin üzü güləcək və onlar şad və məmnun olacaqlar. Onlar kimlərdir? Onlar dünyada olanda həqiqət və batini orada, təzahürü isə burada olan sirat körpüsündən keçə bilmiş kəslərdir. Sirat körpüsü bəndəlik və təqva körpüsüdür. *"Mənə ibadət edin! Doğru yol budur!"*[2] Bu dünyada olan doğru yol Cəhənnəm üzərindəki siratdır. Həzrət Peyğəmbərə xitab edilərək deyilən *"çünki sən düz yoldasan"*[3] və ya *"Mənə ibadət edin! Doğru yol budur!"*[4] ayələrində deyilən doğru yol Cəhənnəm üzərindən keçən siratdır. Əgər biz burada doğru yoldan diqqətlə, ayağımız titrəmədən keçə bilsək, həmin siratdan da asanlıqla keçə biləcəyik. Möminlər oradan işıq sürəti ilə keçəcəklər. *"Daha öncə tərəfimizdən yaxşı vəd verilmiş insanlara (əməlisaleh möminlər)ə gəldikdə isə, onlar ondan uzaq tutulacaqlar. Onlar Cəhənnəm odunun səsini eşitməyəcəklər".*[5] Bəli, onlar Cəhənnəmin heç hənirtisini belə eşitməyəcəklər. *"Ürəkləri istədiyi şeydə əbədi qalacaqlar. Ən böyük dəhşət belə onları kədərləndirməyəcək".*[6] "Ən böyük dəhşət" deyəndə insanın qarşılaşacağı ən böyük qorxu nəzərdə tutulur. Möminləri mövcud fiziki və ruhi vəziyyətləri ilə orada *"ən böyük dəhşət belə onları kədərləndirməyəcək".*[7] Onlar həmin sirat körpüsündən keçiblər.

Əziz qardaş və bacılar! Bu sirat bizim üçün çox həssasdır. Biz məsuliyyət daşıyırıq. Bizimlə adi insanlar arasında fərq var. Bizim – istər millət vəkili olaq, istər dövlət məmuru, istər hansısa hərbi hissənin komandiri, istər ədliyyə

1. Əbəsə, 37-39
2. Yasin, 61
3. Zuxruf, 43
4. Yasin, 61
5. Ənbiya, 101-102
6. Ənbiya, 102-103
7. Ənbiya, 103

məmuru – məsuliyyətimiz böyükdür. Biz səhvə yol versək və işimizdə hansısa nöqsan yaransa, bunun zərbəsi təkcə özümüzə dəymir, onun miqyası daha geniş olur. Əgər biz tənbəllik və səhlənkarlıq etsək, bundan bütün ölkə zərər görəcək. Əgər biz hər hansı br qərar qəbul edəndə, Allah eləməmiş, nəfsi istəklərimizə tabe olsaq, ya tanışbazlıq etsək, həqiqi dəyərləri nəzərə almadan mənsub olduğumuz dəstənin mənafeyini əsas götürsək, ölkəyə zərbə dəyəcək. Bizim işimiz çətindir. Biz Cəhənnəm və sirat körpüsündən keçmək barədə başqalarından çox fikirləşməliyik. Bu neçə illik vəzifə əbədi deyil. İstər millət vəkili olun, istər dövlət məmuru, nazir, müdir, ya hər nə, onsuz da bu üç-dörd il, beş il, on il keçib gedəcək. Əgər bu bir neçə ili səbir etsəniz və pul, qanunsuz gəlir, yeyinti və mənimsəmə, dövlətin malından sui-istifadə və beytülmalın mənimsənilməsi arxasınca qaçmasanız – bu elə də çətin deyil – barənizdə *“daha öncə tərəfimizdən yaxşı vəd verilmiş insanlara (əməlisaleh möminlər)ə gəldikdə isə, onlar ondan uzaq tutulacaqlar”*[1] ayəsi gerçəkləşər və mələklər təqvalı şəxslərin yanına gələrək *“bu, sizə vəd olunmuş gününüzdür!”*[2] deyərlər. Bu, peyğəmbərlərin tarix boyu möminlərə vəd etdiyi gündür. Həzz alın, *“Cənnətə daxil olun”*.[3] Biz başqalarından daha diqqətli olmalı, Cəhənnəmdən başqalarından daha çox qorxmalıyıq. Cəhənnəm odu adi insanlardan daha çox bizləri təhdid edir. Adi insanlar ancaq özləridirlər və çox məhdud və kiçik çərçivədə məsuliyyət daşıyırlar. Amma bizim vəziyyətimiz çətindir.

1. Ənbiya, 101
2. Ənbiya, 103
3. Əraf, 49

## Övladlarımıza diqqət və qayğının vacibliyi

Burada övladlara diqqət yetirilməsi məsələsinə toxunmaq istəyirəm. Övladlarınızın qayğısına qalın. *"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!"*[1] Bizim öz övladlarımızı başlı-başına buraxmaq haqqımız yoxdur. Onların imanlarını qorumağa çalışın. Gənc övladınızın, qızınızın, oğlunuzun – istər tələbə olsun, istər ticarətçi, istərsə də başqa peşə sahibi – sizin inanclarınıza olan imanının sarsılmasına səbəb olacaq iş görməyin. İnsan bəzən öz əl və dilinə sahib çıxmır, yanlış bir iş görərək gənc övladının dindən, etiqaddan uzaqlaşmasına, əqidəsini itirməsinə səbəb olur. Biz belələrinə rast gəlmişik. Bu hər iki tərəfdən baş verə bilər. Biz bəzən yersiz sərtlik göstərməklə – mən yersiz sərtlikləri əsla tövsiyə etmirəm – bəzən tündxasiyyətlilik, acı söz və kobud davranmaqla övladlarımızın dindən uzaqlaşmasına səbəb oluruq. Bəziləri də əksinə, başısoyuqluqla və heç nəyi nəzərə almadan uşaqlarına həddən artıq imkan yaradır, onların bütün səhvlərinə göz yumur, öz əlləri ilə uşaqlarını özlərindən uzaqlaşdırırlar və nəticədə uşaq pis yola düşür, pozulur. Uşaqlarla məntiqlə, mehriban və düzgün davranmaq lazımdır. *"Özünüzü və ailənizi ... qoruyun!"* Bu sizin borcunuzdur. Əgər bu iş görülməsə, onun təsiri getdikcə daha da çoxalacaq. Allah eləməmiş, əgər hər hansı bir ailənin gənc övladında və ya ailə üzvlərindən hansısa birində dişdə yaranıb dişin mina qatının həmin hissəsini xarab edərək başqa yerlərə də keçən qara nöqtə kimi mənfi bir xüsusiyyət yaransa, o, tədricən başqalarına, ata-anaya da təsir edəcək və bu qarşılıqlı təsirlər getdikcə daha da

1. Təhrim, 6

güclənəcək, nəticədə o, həqiqət və mənəviyyatını itirəcək.

Bu ayə mənə həmişə maraqlı gəlib: *"Möminlərin imanda onların arxasınca gedən övladlarını da (Cənnətdə) özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik".*[1] Hədislərdə deyilir ki, Biz bunu onların gözünün aydın olması, sevinmələri üçün edirik.[2] Əgər siz möminlər övladlarınızı mömin kimi yetişdirə bilsəniz, Allah-taala Qiyamətdə, Cənnətdə və qarşınızda olan çətin meydanlarda həmin uşaqda olan nöqsanları aradan qaldıracaq, könlünüzün açılması üçün onu sizə qovuşduracaq. Allah-taala möminə böyük dəyər verir.

Mənim demək istədiklərim bunlar idi. Əgər biz düz yolla getmək və ölkənin bizim vücudumuzdan xeyir görməsini istəyiriksə, bunun yolu qeyd etdiyim kimidir: gərək öz qəlbimiz, Qiyamətimiz, sabahımız, ilahi haqq-hesabımız barədə fikirləşək və bu barədə heç bir işdə səhlənkarlığa yol verməyək.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*27.X.2004*



1. Tur, 21
2. Kafi, c. 3, səh. 249

# Qədr gecəsi mələklərin və Ruhun nazil olduğu gecədir

Həm namazda iştirak edən bütün qardaş və bacılara, həm də özümə təqvalı olmağı tövsiyə edirəm. Cümə namazının birinci xütbəsinin əvvəlindən öz ruh və qəlbimizə təqvanı təlqin edərək ramazan orucundan, bu ayın mənəvi mühitindən istifadə edək. Qəlbimizi təqvalı olmağa istiqamətləndirməli və sözün həqiqi mənasında təqvalı olmalıyıq.

Bu gün – ramazan ayının iyirmi biri – böyük ehtimalla, həm qədr gecəsi, həm də Əmirəl-möminin Əlinin şəhid edildiyi gündür. Dünən gecə ilin ən üstün üç gecəsindən biri idi. Bu gecələr qədr gecəsi olmaq ehtimalı olan gecələrdir. Mələklər və Ruh dünənki gecə və ya digər iki gecədən birində nazil olub və olur. Mələklərin nazil olması ilə öz ruhlarını mələk ruhuna çevirə bilmiş şəxslərin xoş halına! Mələklərin yer üzündə və bizim aramızda hazır olması – *"o gecə Rəbbinin izni ilə mələklər və Ruh hər bir işə görə (hər bir işi*

*öncədən təyin etmək üçün yerə) enirlər"*[1] – gərək bizim mələk ruhuna yaxınlaşmağımıza və yiyələnməyimizə kömək etsin. Şübhəsiz, Allahın bəndələri arasında dünənki gecəni layiqincə keçirən, qədr gecəsinin həqiqətlərini dərk edən şəxslər olub. Bəlkə də, bəziləri mələkləri gözlə görüblər. Siz əzizlər də harada olmağınızdan asılı olmayaraq, 19 və 21-ci gecələri yaxşı keçirmisiniz və inşallah 23-cü gecəni də layiqli şəkildə keçirəcəksiniz. Xalqın bütün təbəqələri – gənclər də, qadınlar da, kişilər də bu gecələrdə həqiqətən təmizlənmək istəyirlər. Qəlblər yumşalır, gözlər dolur, ruhlar incəlir. Buna oruc tutmaq da kömək edir. Biz gərək nikbin olaq, dua edək, çalışaq və bu gecələrdən mənəvi yüksəliş istiqamətində istifadə edək. Çünki namaz möminin meracı, onun yüksəliş vasitəsidir. Dua da, qədr gecəsi də möminin meracıdır. Gəlin çalışıb göylərə qalxaq, dünyada insanların çoxunun ilişib qaldığı və əsir olduğu maddi bataqlıqdan bacardıqca uzaqlaşaq. Hər hansı bir şeyə bağlılıq, tündxasiyyətli – insanlığa yaraşmayan və onunla ziddiyyət təşkil edən xüsusiyyətlər – başqalarının hüququnu pozmaq, acgözlük, fəsad, pozğunluq və zülm insanın ruhunun zibilliyidir. Bu gecələr gərək bizi həmin xüsusiyyətlərdən maksimum dərəcədə uzaqlaşdırsın.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*5.XI.2004*



1. Qədr, 4

# “Nəhcül-bəlağə”də imanın mənası, şərtləri və xüsusiyyətləri

Gözəl məclis təşkil edilib. Allah qəlblərimizi gündən-günə bir-birinə daha yaxın etsin, onları bir-birindən ayırmasın; Allah qəlblərimizi həmişə, xüsusilə ramazan ayının bərəkətli son ongünlüyündə həqiqətə daha yaxın etsin və daha çox isinişdirsin.

Ötən illərdə – həm əvvəlki, həm də indiki hökumətin vaxtında bizim ramazan proqramımız belə olurdu: “Nəhcül-bəlağə”dən bir cümlə oxuyur, sonra onu qısa izah edirdik. Bu il də elə edəcəyik. Mən “Nəhcül-bəlağə”nin müxtəlif yerlərindən iman barəsində bir neçə cümləni qeyd etmişəm, əvvəlcə onu oxuyacağam. Əlbəttə, dəyərli “Nəhcül-bəlağə” kitabında iman barəsində çox şey var. Mən “Nəhcül-bəlağə”nin iki cilddə çap edilmiş dörd cildlik çapından istifadə edirəm. Təxminən 30-40 ildir bu çapdan istifadə edirəm. Bura həmin cildlərin birini gətirməli idim deyə ikinci cildi seçdim. Bu cilddə “Nəhcül-bəlağə”nin

qeyd etdiyim çapının 3 və 4-cü cildləri toplanıb və onun haşiyəsində mərhum Əbduhun şərhi verilib.

O həzrət buyurur: "İman ən aydın yol və ən işıqlı çıraqdır".[1] Əmirəl-möminin burada "iman" deyəndə dini imanı, yəni Allaha, Qiyamətə, Peyğəmbərə, bir sözlə, dinlərin insanları tərəfinə dəvət etdiyi imanı nəzərdə tutur. Əlbəttə, ümumilikdə imanın əhəmiyyəti məlumdur. Çünki iman insanın əməl və fəaliyyətinin təməlidir. İnsan bir şeyə bağlanmayınca və iman gətirməyincə onun yolunda hərəkət etmir. İmanla elm arasında fərq var. İnsan bəzən hər hansı bir həqiqəti bilir, amma ona imanı olmur. Yəni imanda ancaq bilmək, həmin şeyin doğruluğu barədə elmə malik olmaq kifayət deyil. İman üçün elmdən əlavə başqa şey də lazımdır. Əlbəttə, elmsiz iman da mümkün deyil. Şəkk-şübhə ilə müşayiət edilən iman mənasızdır. Amma imanın olması üçün təkcə elmin olması da yetərli deyil. Quran həzrət Musa və onunla Firon arasında baş verən hadisələr barədə belə buyurur: *"Ürəklərində buna qəti əmin halda, haqsızcasına və özlərini üstün tutaraq onu inkar etdilər"*.[2] Yəni Musa Allah yoluna dəvətə başlayanda Fironun adamları onun dediklərinin doğru və həqiqət olduğunu başa düşdülər. Amma Musa bu qeyri-adi möcüzəni göstərəndən və Musanın da onlardan hesab edildiyi sehrbazlar Musanın gördüyü işin sehr olmadığını etiraf edəndən, Fironun təhdidlərinə baxmayaraq, Allaha səcdə edib Musaya iman gətirəndən və ölümün pişvazına gedəndən sonra Musanın həqiqəti deməsi onlara aydın oldu. Amma buna baxmayaraq, onlar həmin həqiqəti inkar etdilər. *"Ürəklərində buna qəti əmin halda onu inkar*



1. Nəhcül-bəlağə, səh. 219
2. Nəml, 14

*etdilər".*[1] Onlar Musanın dediklərinin doğru olduğunu dəqiq bilirdilər. Amma bununla belə, onu inkar etdilər. Niyə? *"Haqsızcasına və özlərini üstün tutaraq".*[2] Çünki özlərini üstün tutmaları, nəfsi istəkləri və etmək istədikləri zülmlər onları haqqa təslim olmağa qoymurdu. İman bir növ təslim olmaqdır, həqiqət qarşısında təslim olmaq. İnsan bəzən həqiqəti başa düşür, amma qəlbini həqiqətə təslim etmir və ona qarşı çıxır. Elmin əksi nadanlıq və şəkk-şübhədir. Amma imanın əksi nadanlıq deyil. İmanın əksi küfrdür, yəni gizlətmək, üstünü örtmək. İnsan bəzən bir həqiqəti qəbul edir, amma onun üstünü örtür, gizlədir. Üstünü örtmək və gizlətməyin əksi imandır. Yəni qəlbi iman gətirilən şeyə tapşırmaq, həqiqəti bütün vücudu ilə qəbul etmək, onun qarşısında təslim olmaq. Sizin həqiqət hesab etdiyiniz hər hansı bir şeyə iman gətirməyiniz sizin əməlinizin təməli olur. Bu gün siz bəzilərinin hansısa iqtisadi və ya ictimai məktəbi şövqlə müdafiə etdiyini, ona sərmayə qoyduğunu görürsünüz. Bunun bariz nümunələrindən biri bizim gənclik illərimizdə bəzilərində marksizmə meylin olmasını göstərmək olar. Həmin dövrü sizlərdən bəziləri də görüb. Bəziləri marksist nəzəriyyələr yolunda, həqiqətən, canlarını qurban verməyə hazır idilər. Onlar ona könül vermiş, iman gətirmişdilər. Bu iman əməl, özü də belə çətin əməl – mübarizə aparmaq, meydanda olmaq, öldürmək və ölmək – mənbəyi olur. Əgər hansısa bir prinsipə iman olsa, həmin insan avtomatik şəkildə həmin imanın məqsədlərinə doğru gedir və bunu təkrar-təkrar onun yadına salmağa ehtiyac qalmır. İman öz

1. Nəml, 14

2. Nəml, 14

arxasınca əməl gətirir. Mən növbəti cümlənin izahında buna toxunacağam.

Əmirəl-möminin burada puç şeyə, büt və bütpərəstliyə imanı deyil, dini – şəriki olmayan Allaha, peyğəmbərlərə, həqiqətlərə, Qiyamətə imanı nəzərdə tutur. O həzrət buyurur: "İman ən aydın yoldur".[1] Yəni iman yolu çox aydındır. Əgər kimsə ağıl və fitrətlə bu meydana daxil olsa, bu yolun aydın, tərəddüdsüz və şəkk-şübhəsiz olduğunu görər. "Və ən işıqlı çıraqdır".[2] Onun dalınca belə buyurur: "İnsan yaxşı işlərə iman ilə istiqamətlənir".[3] İnsanı yaxşı əməllərə tərəf çəkən imandır. Sonra buyurur: "Yaxşı işlər də insanı imana istiqamətləndirir".[4] Yəni imanla yaxşı əməl arasında bağlılıq var. Məncə, bu çox mühüm məsələdir. Biz gərək imanımızı yaxşı əməl vasitəsi ilə qüvvətləndirək və yaxşı əməli iman vasitəsi ilə tanıyaq.

Siz Ühüd müharibəsində baş verən hadisəyə diqqət edin. Bu 14 əsr ərzində bütün müsəlmanların nifrin və qınağına tuş gələn o əlli nəfərin hamısı müsəlman və Peyğəmbər səhabəsi olub. Onların çoxu Bədr müharibəsində də iştirak etmişdi və onlar pis adam deyildilər. Amma onlar həmin bəlaya düçar oldular. Yəni qənimət əldə etmək üçün aşırımı tərk etdilər, meydanı düşmənə təhvil verdilər və çoxsaylı insanın pak qanının tökülməsinə səbəb oldular. Həmin hadisədə qanı tökülənlərdən biri Həmzə olub. Həmçinin həzrət Peyğəmbər yaralanıb, yeni qurulmuş İslam hökuməti zəifləyib. Bunların hamısının səbəbkarı həmin əlli nəfərin səhlənkarlığı olub. Quran onların barəsində belə buyurur: *"(Ühüd müharibəsində) iki ordunun*

1. Nəhcül-bəlağə, səh. 219
2. Nəhcül-bəlağə, səh. 219
3. Kafi, c. 2, səh. 50
4. Tühəful-üqul, səh. 164

*qarşılaşdığı gün qaçanları Şeytan düçar olduqları bəzi günahlar sayəsində yoldan çıxartdı".*[1] Yəni onların gördüyü iş öncədən etdikləri səhvlərin nəticəsi idi. Hər bir səhv ardınca başqa səhvlər də gətirir. Yəni o, imanın təməlini süstləşdirir və imanın süstlüyü sonrakı əmələ mənfi təsir göstərir. Biz səhv edəndə o, hətta hiss etməsək belə, bizim imanımıza mənfi təsir göstərir. "Şeytan düçar olduqları bəzi gü*nahlar sayəsində onları yoldan çıxartdı".*[2] Hər hansı bir şəxs səhvə yol verir, sonra həmin səhv insan hiss etmədən onun imanına mənfi təsir edir. Çox vaxt insanın halı dəyişir, amma o öz halının dəyişdiyini hiss etmir.

Allah cənab Xatəmiyə rəhmət eləsin. 1978-ci ildə sürgündən qayıdanda Ərdəkan şəhərində onunla görüşdüm. Onda onun təxminən 70 yaşı var idi, amma deyirdi ki, mən dildə "qocalmışam" desəm də, əsla qocalıq hiss etmirəm; özümü 30-35 yaşında adam kimi hiss edirəm. Mən neçə il sonra ondan soruşdum ki, siz bir vaxtlar belə söz deyirdiniz, indi də elədirmi? Dedi ki, bəli, elədir. İndi biz də eləyik. Biz qoca və ağsaqqallar zehnimizdə özümüzü otuz il qabaqkı kimi təsvir edirik. Biz bütün fiziki əlamətlərinə rəğmən, ömrün keçməsini, baş verən heyrətamiz dəyişiklikləri dərk etmirik. İmanın dəyişməsi də belədir. Yəni insan imanın azalmasını hiss etmir. Onun fiziki nişanələri də yoxdur ki, adam bu dəyişikliyi onun vasitəsi ilə dərk etsin. Deməli, həmin səhv imana, imanın azalması sonrakı əmələ təsir edir. Məsələn, qarşıya cihad və ya hansısa sınaq çıxanda imanımızın azlığı özünü göstərir. Bir vaxtlar güclü imanla böyük iş görmüşük, amma sonradan həmin işlə qarşılaşanda görürük ki,

1. Ali-İmran, 155
2. Ali-İmran, 155

əlimiz-ayağımız əsir. Elə bil ki, bir şəxs gəncliyində iki metr eni olan arxdan tullanıb keçib, amma indi həmin arxa çatanda tullana bilmir. Əməlin imana, imanın da əmələ mənfi təsirinin nəticəsi Ühüd müharibəsindəki məğlubiyyət, digər geriləmələr, tənəzzüllərdir. Onun nəticəsi həzrət Peyğəmbərin hicrətindən əlli, vəfatından qırx il sonra o həzrətin nəvəsinin, ən əziz adamı İmam Hüseynin Peyğəmbərin canişini olan hökumət tərəfindən faciəli şəkildə şəhid edilməsidir. Mən bir vaxtlar bunların tarixin ibrətləri, hətta ibrət dərsindən də üstün bir şey olduğunu demişdim.

## İmanın dörd sütunu

"Nəhcül-bəlağə"nin 30-cu hikmətində belə yazılıb: Əmirəl-mömininindən imanın nə olduğunu soruşdular.[1] O həzrət buyurdu: "İmanın dörd sütunu var".[2] Yəni əgər bu dörd sütun möhkəm olsa, iman ayaq üstə dayanacaq, amma əgər onlar süst olsa, ya uçsa, iman da həmin qədər süstləşəcək, uçacaq; tam itməyəcək, amma həmin qədər uçacaq. O həzrət həmin dörd sütunu belə bəyan edir: "Səbir, yəqin, ədalət və cihad".[3] Onların birincisi, bütün sahələrdə möhkəm olmaq və dözümlülük göstərməkdir. Əgər hansısa bir proqrama əməl etmək istəyirsinizsə, ona axıra kimi əməl edin; əgər hansısa bir iş görmək istəyirsinizsə, onu sona çatdırın. Əgər hansısa bir bəla və müsibətlə qarşılaşsanız, onun qarşısında özünüzü itirməyin. Sizə bir şey vacib ediləndə onu yerinə yetirməkdə dözümlü olun, hövsələdən çıxmayın, əldən düşməyin; hər hansı

1. Nəhcül-bəlağə, səh. 508
2. Nəhcül-bəlağə, səh. 473
3. Nəhcül-bəlağə, səh. 473

bir günahla qarşılaşanda müqavimət göstərin və günaha təslim olmayın. Möhkəmlik və dözümlülüyün hər yerdə bir nişanəsi var. Əlbəttə, dözümlülüyün mənası hər yerdə eynidir və onların hamısının kökündə insanın güc, müqavimət və möhkəmliyi dayanır. Sadəcə o özünü hər yerdə bir cür göstərir: itaətdə səbir, günah qarşısında səbir, müsibət zamanı səbir.

İmanın ikinci sütunu yəqindir. Öncə də qeyd etdiyimiz kimi, yəqin elə elmdir. Yəqinin sütunlarını süstləşdirmək, onun şəkk-şübhə və tərəddüdə düçar olmasına imkan vermək olmaz. Yəqini möhkəm saxlamaq lazımdır. Əgər insanın zehninə təbii olaraq sual gəlsə, onu araşdıraraq yaranmış şəkk-şübhəni aradan qaldırmalıdır; amma özü-özünü vəsvəsəyə salmamalı, özünün və ya başqasının yəqininə xələl gətirməməlidir. Yəqinləri tərəddüdə düçar etməyin, şəkk-şübhəyə çevirməyin.

İmanın üçüncü təməli ədalətdir. Ədalətin mənası hər bir şeyi öz yerinə qoymaqdır. Ədalət sözünün leksik mənası "orta"dır. Mötədillik sözü də bu sözdən düzəlib və onun mənası "hər hansı bir şeyin ifrat və ya səhlənkarlıqdan uzaq, sağa və ya sola meyil göstərmədən öz yerində olması"dır. Ədalətin "hər bir şeyin öz yerində olması" kimi izah edilməsinin də səbəbi budur. Hər bir şey öz yerində olanda təbiət aləmində haqq-ədalət əsasında yaradılmış tarazlıq bərqərar olur. İnsan ədalətli davranmalıdır. Ədalət hakimin vacib xüsusiyyətlərindəndir. Mövqe nümayiş etdirəndə də, kiməsə qarşı sevgi və nifrət bildirəndə də ədalətli olmaq lazımdır. Quran buyurur: *"Hansısa bir toplumla olan düşmənçiliyiniz sizi günaha və ədalətsizliyə sövq etməsin. Ədalətli olun ki, o, təqvaya daha yaxındır"*.[1] Beləliklə,

1. Maidə, 8

imanın sütunlarından biri də ədalətdir. Əgər ədalət olsa, iman da qalar.

İmanın digər sütunu cihaddır. Cihadın mənası mübarizədir. Fars dilində müharibə etmək və toqquşma mübarizə mənası vermir. Biz: "mən mübarizə edirəm: elmi mübarizə, ictimai mübarizə, siyasi mübarizə, silahlı mübarizə edirəm" deyirik. Bunların hamısı mübarizədir və hərəsinin öz mənası var. Mübarizənin mənası hər hansı bir maneə və ya düşmən qarşısında var güclə çalışmaqdır. Əgər insanın qarşısında heç bir maneə olmasa, mübarizə də olmaz. İnsanın asfalt yolda bakı benzinlə dolu maşının qazını basıb getməsinə mübarizə deyilmir. Mübarizə insanın maneə ilə qarşılaşdığı yerlərdə olur. Həmin maneə insan aləmində olanda ona "düşmən", təbiət aləmində olanda "təbii maneə" deyirlər. İnsanın həmin maneələrlə qarşı-qarşıya gəlməsinə və onları aradan qaldırmağa çalışmasına mübarizə deyilir. Ərəb dilində cihad eynən həmin mənada, yəni mübarizə mənasındadır. Quran və hədislərdə qeyd edilən cihad da həmin mənadadır. O hər yerdə silahlı toqquşma mənası vermir. Bəli, o bəzi yerlərdə silahı toqquşma mənası verir, amma bəzi yerlərdə də silahlı toqquşma mənası vermir.

Əmirəl-möminin daha sonra həmin sözləri – həm səbir, həm yəqin, həm ədalət, həm də cihadı – izah edir. Amma biz onların təfsilatına varmayacağıq. Məsələn, buyurur ki, cihadın dörd qolu var: yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, doğruçuluq və tutduğun mövqedə səmimilik. Mövqe tutmağı bu gün biz də bu mənada izah edirik. Yəni insan tutduğu siyasi və ictimai mövqedə səmimi olmalıdır. Buna görə də insanın tutduğu mövqedə səmimi olmasının özü də cihaddır. *"Möminlərin arasında*

*Allahla bağladıqları əhd-peymana sadiq qalan kişilər vardır"*[1] ayəsi də həmin mənadadır.

Cihadın qollarından biri də "fasiqlərlə düşmən olmaqdır".[2] Mən bunu xüsusi qeyd etmək istəyirəm, buna hamınız diqqət edin. Siz bu dəstə ilə yollarınızı ayırmalısınız, onlara qarışmamalısınız. Siz məni tanıyırsınız və mən sizinlə təxminən səkkiz il, bəzilərinizlə daha çox bir yerdə olmuşam. Mən kafirlərlə əlaqələrin kəsilməsinin əsla tərəfdarı deyiləm. Xeyr! Amma sizinlə kafirlər, fasiqlər və İslam Respublikasını qəbul etməyənlər arasındakı sərhəd məlum olmalıdır. Bəli, bəzən insan zərurət üzündən hətta İslam Respublikasını qəbul etməyənlə iş görmək məcburiyyətində qalır. Amma siz sizsiniz, onlar da onlar. Onlara qarışmayın. Mən bu quruluşda həmişə bəzilərindən və özümüzünkülərdən gileylənmişəm. Çünki onlar sərhədləri itiriblər. Mən bəzən onlara deyirdim ki, sizin sərhədləri aradan götürməyiniz problemlə nəticələnir. Belə ki, bir çoxları sərhədin olmaması səbəbindən bu tərəfdən o tərəfə və o tərəfdən bu tərəfə keçir. Yəni sərhədlər unudulur. Sərhədləri bəlli olmayan ölkənin milli kimlik və vəhdəti olmaz. Qoyun sərhədlər məlum olsun, həm sizin, həm də onların harada olduğu bilinsin. "Kim fasiqlərlə düşmən olsa və Allaha xatir qəzəblənsə, Allah da ona görə qəzəblənər".[3] Siz Allaha xatir qəzəblənin ki, Allah da sizə görə qəzəblənsin. "Və Qiyamət günü onu şad edər".[4]

1. Əhzab, 23
2. Kitabu Süləym ibn Qeys Hilali, c. 2, səh. 615
3. Kitabu Süləym ibn Qeys Hilali, c. 2, səh. 615
4. Nəhcül-bəlağə, səh. 473

## Sabit iman, amanabənd iman

O həzrət buyurub: "İmanın bir növü sabit və qəlbdə möhkəm olur, başqa bir növü isə qəlb və sinələrdə müəyyən vaxta kimi amanabənd".[1] İman iki cürdür: sabit iman, amanabənd iman. Amanabənd iman da imandır və ona malik olan şəxs münafiq deyil, sadəcə onun imanı möhkəm olmadığı üçün onu tez itirir. Sabit iman isə qəlbdə möhkəmlənərək tutarlı dəlil və dərin baxışlara əsaslanan, yaxşı əmələ söykənən imandır. İmanın başqa bir növü məntiq deyil, hisslərlə yaranan və insanın yaxşı əməllə təsbit etmədiyi imandır. O, iman iddiası edir, bəzən sərt şüarlar səsləndirir, amma onun arxasınca öz nəfsi ilə mübarizə edəcəyi yaxşı əməl gəlmir. Yəni həmin iman yaxşı əməllə qidalandırılmır. Bu, amanabənd imandır. O həzrət buyurur: "İmanın başqa bir növü isə qəlb və sinələrdə müəyyən vaxta kimi amanabənd olur".[2] Həmin "müəyyən vaxt" nə vaxtdır? Nə qədər ki, bu iman amanabənddir və qəfəsdən qaçan sərçə kimi uçub gedir, yox olur! Çünki bu iman onun vücudunun bir hissəsinə çevrilməyib. Bu iman nə vaxt yox olur? Sınaq zamanı, nəfsi istək baş qaldıranda! Məsələn, əgər həmin şəxs pulpərəst adamdırsa, pul ilə imanı qorumaq arasında qalanda iman uçub gedərək yox olur. Bəziləri də nəfsi təhrik və cinsi istəklərə məruz qalırlar. Başqa bir dəstə vəzifəpərəst olur. Hərə bir cürdür. Bizim hər birimizin bir zəif nöqtəsi var və həmin zəif nöqtələr bizim zərbəyə məruz qaldığımız yerlərdir. Həmin yerlərdən zərbəyə məruz qalmamaq üçün Allaha sığınmaq lazımdır. Bunun yolu təqvadır. Mən həmişə bu və buna bənzər yığıncaqlarda təqva barəsində danışıram.

1. Nəhcül-bəlağə, səh. 279
2. Nəhcül-bəlağə, səh. 279

Təqvanın mənası insanın daim özünə nəzarət etməsidir. Adam inqilabın əvvəlindən indiyə kimi baş verən 180 dərəcəlik dəyişmələrin sirrini burada başa düşür. İnqilabın əvvəlindən 25 il keçir. Biz bəzən bəzi şəxslərin 180 dərəcə dəyişməsinin şahidi oluruq. Yəni ixlaslı, enerjili, coşqun mömin inadkar düşmənə çevrilir. Bizim düşmənlərimiz neçə cürdür: bəzi düşmənlər düşməndirlər, amma daim inqilabla cırmaqlaşmaq istəmirlər. Amma bəziləri daim inqilab və İslam Respublikası ilə cırmaqlaşmaq istəyirlər. Bəzən görürsən ki, onların bəzisi çör-çöpdən qalxan alov şöləsi kimi çox sərt və tünd mövqe nümayiş etdirir, heç kəsi qəbul etmirlər. Əlbəttə, bəzən kötükdən də böyük alov qalxır. Amma heç nəyi olmayan çör-çöpün şöləsi daha çox olur, amma tez də yatır. Biz bəzən belələrinə rast gəlirik. Onların imanı sabit olmur, amanabənd olur, yox olub itir, heç bir tutarlı dəlilə əsaslanmır. Bu iman itəndə adama xəbər etmir, zəng edib getdiyini demir, "mən bundan sonra kafir oluram; daha namaz qılmayacağam" ismarıcı göndərmir. O tədricən baş verir və insan onun yox olduğunu hiss etmir. Buna görə də çox diqqətli olmaq və Allaha sığınmaq lazımdır.

## Həzrət Əlinin Malik Əştərə göstərişi

Dördüncü və sonuncu cümlə o həzrətin Malik Əştərə göstərişinə aiddir. Əmirəl-mömininin Malik Əştərə məktubu çox heyrətamiz məktubdur. Həqiqətən, bu məktubda olan hikmətlərin sayı-hesabı yoxdur.[1] Şair demişkən:

*Mən eşqi hər nə qədər izah etsəm də, eşqin özünə çatanda*

1. Kəşful-yəqin fi fızaili Əmiril-möminin, səh. 254

*dediklərimdən xəcalət çəkirəm.*

İnsan bu məktubun dərinliklərinə nəzər salanda, həqiqətən, onun hər bənd və cümləsində olan əzəmət qarşısında kiçiklik hiss edir. O həzrət buyurur: “Yer üzü əhalisinin yoxsulluğundan viran qalır”.[1] Yəni insanlar yoxsul olanda yer üzü viran qalır. O həzrət bunu fəlsəfi baxımdan buyurmur, gerçəklik kimi bəyan edir. “Yer üzü” deyəndə də Malik Əştəri göndərdiyi Misir nəzərdə tutulur. Əlbəttə, həmin dövrdə Şam, İraq, İran, Mədinə və dünyanın digər nöqtələrinin hakimləri özlərini Misirlə müqayisə edə bilərdilər. İmam buyurur ki, əgər sən getdiyin yerin əhalisinin zənginləşməsinə şərait yarada bilsən, ora abadlaşacaq. Amma əgər camaatı yoxsul vəziyyətdə saxlasan, ya yoxsul vəziyyətə salsan, ora abadlaşmayacaq, viran qalacaq. İnsanlar diyarlarını ruh yüksəkliyi ilə və mövcud imkanları hesabına abadlaşdırmalıdırlar. İnsanlar öz təşəbbüsləri ilə yer üzünün hər yerini abadlaşdırmalıdırlar. O həzrət daha sonra buyurur: “Yer üzünün əhalisi hakimlərin nəfsinin hamıya hakim kəsilməsi nəticəsində yoxsul olur”.[2] Xalqın yoxsulluğu hakimlərin günahıdır. İnsanların yoxsulluğuna onlar səbəb olur. Çünki əldə edilən bütün sərvət və gəlirləri özlərinə götürürlər və bu, camaatın yoxsullaşması ilə nəticələnir. Əlbəttə, hakimlər bəzən qədim müstəbidlər, məsələn, Rzaxan kimi olur, hər şeyi özü üçün istəyir və gözü doymur. Onun böyür-başında olanlar da mövqelərindən sui-istifadə edir, onlar da özlərinə pay götürürdülər. Əvvəl şahın payı gedirdi, sonra da üzüaşağı şahın ətrafında olanların. Onların hər biri öz mövqeyinə uyğun pay

1. Nəhcül-bəlağə, səh. 436
2. Nəhcül-bəlağə, səh. 437

götürürdü. Qədim müstəbid quruluşlarda belə idi. Onun modern forması da Pəhləvi hökumətində olub. Daha qədim formasını kitablarda Qacarlar, Nasirəddin şah və başqaları barədə oxumuşuq. Onun bir forması da müasir formadır. Yəni zahirdə demokrat olan bəzi hökumətlərin batini istibdad quruluşudur. Bu gün həmin hökumətlərin cilovu iqtisadi şirkətlərin əlindədir və onların siyasətlərini həmin şirkətlər müəyyənləşdirir. Onlar zahirdə bir səlahiyyətə malik olmasalar da, batində hər şey onların əlindədir: parlamentə millət vəkilini onlar seçirlər, prezidenti onlar təyin edirlər.

Prezidentin öz adamları və komandası, səfirləri, nazirləri, müxtəlif dərəcəli idarə rəhbərləri olur və əslində, hakim həmin komanda olur. İstibdadın tətbiq edilməsi forması da keçmişdəki kimi deyil və kimsə “mən hökm edirəm” demir. Rzaxan istibdad idarə üsulunu tətbiq etmək istəyəndə Tehranda bəyannamə yaydı və onda neçə dəfə “mən hökm edirəm” ifadəsindən istifadə etdi. Amma bu gün hakim “mən hökm edirəm” ifadəsi işlətmir, demokratik nəzakət qaydalarına tam riayət edir. Ümumiyyətlə, o, hökm etmir, amma işin mahiyyəti elə həmin “mən hökm edirəm”dir. Yəni həmin şirkətə lazım olan qanun, mütləq, təsdiq edilir, həmin şirkətin yaşaması üçün lazım olan iş, hətta İraq kimi ölkəyə hücum etmək bahasına olsa belə, mütləq, həyata keçirilir. İraqın abadlaşdırılmasından və neftindən kim xeyir görür? ABŞ və ya Böyük Britaniya hökumətləri dövlət hakimiyyətli olmadığından şirkət, neft, bir sözlə, heç bir şey onların deyil. Bütün yeni şeylərdən həmin ölkələrdə avtoritar maliyyə-iqtisadiyyat sistemləri istifadə edir. Əlbəttə, onların da öz aralarında rəqabət və düşmənçilik var. Amma hər halda Orta Şərqin neftindən,

Orta Şərqə ağalıqdan, "Böyük Orta Şərq" adlandırılan plandan həmin maliyyə sistemindən istifadə edir, böyük gəlir götürür. Dövlət, prezident, nazirliklər, müdafiə naziri və sairə ön cəbhədir. Əlbəttə, bir çox hallarda onlar özü də ölkənin həmin əsas maliyyə və sənaye qurumlarının idarə heyətinin üzvü olurlar. Beləcə onları himayə edir, lazımi addımları atırlar. Camaat da öz işi ilə məşğul olur. Deyə bilərsiniz ki, ABŞ və ya Böyük Britaniyada ölkə əhalisinin sayının nisbəti ilə götürəndə yoxsul yoxdur.

Xeyr, bu cür hesablanmamalıdır. Böyük Britaniya Hindistanda nə qədər yoxsulluğun yaranmasına səbəb olub. Yaxud Afrika və ya Latın Amerikasını istismar edən filan dövlətin orada nə qədər yoxsulluq yaratdığına baxmaq lazımdır. Yaxud ABŞ-ın bu gün dünyada mövcud olan iqtisadi nüfuzu ilə nə qədər yoxsulluq, aclıq və məhrumiyyət yaratmasına diqqət edilməlidir. Meyar bunlardır. Əlbəttə, bu ölkələrin özündə də yoxsulluq, eləcə də kəskin və heyrətamiz təbəqələşmə mövcuddur. Təəssüf ki, bəzən bizimkilərin təqdim etdiyi statistikalarda sadəlövhcəsinə əlaqəsiz və dar düşüncədən doğan fikirlərə rast gəlinir, məsələn, ölkəmizin iqtisadiyyatı ilə ABŞ və ya başqa ölkənin iqtisadiyyatı arasında böyük fərqin olması qeyd edilir. Bunlar nadanlıqdan doğan sözlərdir. Bunu deyənlərin həqiqətlərdən əsla xəbəri yoxdur. Xeyr, elə deyil. Kapitalist ölkələrindəki iqtisadi uçurum dünyanın hər yerindəkindən daha dərin və daha qorxuludur. Bundan əlavə, bunu həmin ölkələrin özlərindəki vəziyyətlə deyil, bütün dünya ilə müqayisə etmək lazımdır. Çünki onların nüfuz, qüdrət və fəaliyyət dairəsi bütün dünyanı əhatə edir. Biz indi beynəlxalq məsələlərə toxunmaq və hesabat aparmaq istəmirik. Hər halda əsas məsələ

budur ki, dünyanın abadlaşmasını istəyiriksə, özümüzü idarə etməli, əməllərimizi nəzarətdə saxlamalıyıq. İşlərin idarəçiliyi, maliyyə, sənaye və kənd təsərrüfatı məsələləri, yəni ölkənin fəaliyyət sahələri əlində olan bizlər özümüzə nəzarət etməliyik. Bu, şəxsi və individual məsələ də deyil və "biz" deyəndə toplu nəzərdə tutulur. "Siz" deyəndə siz, müavinləriniz, müdirləriniz, təsir qüvvəsinə malik məsul şəxslər nəzərdə tutulur. Bəli, ola bilər, küncdə-bucaqda, çox aşağı qatda olan hansısa şəxs nəzarət edilə bilinməyən və ya ehtimalı verilməyən səhvə yol versin. Bu, başqa məsələdir. Amma sizin müdiriyyətiniz altında olan qrup bu xüsusiyyətlərə malik olmalıdır. "... hakimlərin nəfsinin hamıya hakim kəsilməsi, ömürlərinin qalan hissəsi barədə bədbin olmaları və az ibrət götürmələri nəticəsində yoxsul olur".[1] Yəni hakimlər hər şeyi özlərinə götürmək istəyirlər. Həmçinin onlar gələcəyə nikbin baxmırlar, gələcəkdə nə baş verəcəyindən qorxurlar. İnsan bədbin olmamalı, həm Allah-taala, həm də özü barədə nikbin olmalı, çox ibrət götürməlidir.

Allah eləsin, dediklərim hamıdan qabaq özümə təsir etsin. Həqiqətən, mənim buna hamıdan çox ehtiyacım var. Bizim bu məsələlərə toxunmağımızın səbəblərindən biri budur ki, onlar, bəlkə, özümüzə də təsir etdi və Allah yolunda, düz yolda daha ciddi hərəkət etdik. "Kümeyl" duasında belə oxuyuruq: "İlahi, Səndən qorxmaqda bizə ciddilik əta et".[2] İnsan Allahdan qorxmaqda ciddi olmalı, ona dırnaqarası baxmamalıdır. Bunlar zarafat deyil. Ağıl sahibi olan adam həyatın gerçəklikləri ilə oyun oynamaz və onlara ciddi yanaşar. Həyata aid məsələlərdən də ciddi



1. Nəhcül-bəlağə, səh. 437
2. İqbalul-əmal, c. 2, səh. 709

məsələ ölüm, qəbir, ilahi sorğu-sual, Bərzəx və Qiyamət məsələləridir. Bunlar zarafat deyil. Onlara ciddi yanaşmaq lazımdır.

*İranın Nazirlər Kabinetinin üzvləri ilə görüşdəki çıxışdan*
*10.XI.2004*

# Ramazanda insanlarla mələklərin həmnişinliyi

Ramazan çox böyük fürsətdir. Allah-taala Öz mərhəməti ilə bu fürsəti və Öz ziyafət süfrəsində oturmağı bizə bu il də nəsib etdi. İl ərzində buna bənzər xüsusi fürsət yoxdur. Ramazan ayında bu maddi aləmin sakinləri olan bizlərə Allahın mələkləri və Ruhul-əmin ilə həmnişin olmaq şərəfi nəsib olur. *"O gecə Rəbbinin izni ilə mələklər və Ruh hər bir işə görə (hər bir işi öncədən təyin etmək üçün yerə) enirlər".*[1] Ramazan ayının qədr gecəsi maddi aləm sakini olan insanların ülvi aləmin sakini olan mələklərlə həmnişin olma gecəsidir. Bəşəriyyət karvanı daim bir sonsuzluğa doğru hərəkət etdiyi kimi insan da öz həyatında bir sonluq, məqsəd və mənzil başına doğru hərəkət edir. *"Ey insan! Sən səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan!"*[2] Uzun və enişli-yoxuşlu bu yol müxtəlif yerlərdən keçir, onda zəhmət, bəla, çətinlik, rahatlıq,

1. Qədr, 4
2. İnşiqaq, 6

şadlıq var. *"Onları yaxşılıq və pisliklərlə imtahan etdik".*[1] Onların hamısı sınaq və imtahandır. İnsanların qət etməli və özünü insanlığın kamal zirvəsinə, yəni Allahla görüşə çatdırmalı olduğu bu uzun yolun bəzi hissələrində hərəkət etmək çətindir. Adi yollarda da belədir: insan bəzən çətin keçiddən, bəzən narahat yoldan keçməli, bəzən aşırıma qalxmalı olur, bəzən qarşısına bataqlıq çıxır. Bəzən də yol hamar və geniş, minik rahat olur.

Biz il ərzində qət etdiyimiz uzun yolda nəfsi istəklər və günahlarla mübarizədə, öz əlimizlə yaratdığımız qaranlıq mühitlərdə bir sıra problemlərlə qarşılaşırıq. İnsan bəzən dua ab-havasının yaranmasında, bir damcı göz yaşı tökməkdə problemlə qarşılaşır. Yol çətin olduğu üçün gördüyümüz əyri iş və günahlar bizi əhatə edir. Amma ramazan ayı həmin yolun asan qət edilən hissəsidir. Məsələn, siz çətin bir yol qət edərək bir yer və ya şəhərə çatmaq istəyirsiniz. Siz bu yolda bəzən piyada getməyə, bəzən çaydan keçməyə, bəzən bataqlıqdan keçməyə məcbur olursunuz. Yolun bir hissəsində də gəlib bir hava limanına çatırsınız və orada müasir bir təyyarə sizi rahat şəkildə böyük yol qət edib məqsədə çatdırmaq üçün hazır vəziyyətdə gözləyir. Ramazan ayının başlanğıcı həmin hava limanına çatmaq kimidir. Allah-taala ramazan ayında yolu hamarlayıb, düşmənin olmadığı bir mühit yaradıb. Tutduğunuz oruc sizin nəfsi istəklərinizi zəncirləyir; bu ibadətlər, dualar, itaətlər, zikrlər, qədr gecəsi sizi km-lərlə qabağa aparan rahat vasitələrdir. Əgər çalışsaq və özümüzü ramazan ayına çatdıra bilsək, ilin başqa vaxtında və digər aylarda metrə-metrə getməli olduğumuz yolu km-lərlə qət

1. Əraf, 168

edə bilərik. Buna görə də Allah övliyaları ramazan ayının gəlib çatması müjdəsini eşidəndə sevinər, ondan ayrılanda göz yaşı tökərdilər.

İmam Səccad ramazan ayı ilə vida duasında – zahirən "Səhifeyi-Səccadiyyə"nin 45-ci duasında – bu ayrılıqdan çox nalə edir, bir-birinin ardınca "əssəlamu əleykə" deyərək ramazan ayına salam göndərir. Bu salam əziz ramazan ayı, bu nurlu gün və gecələrlə, ömrümüzün və ilin Cənnətin bir parçası olan hissəsi ilə vidalaşmaq mənasındadır.

## Ramazan təqva tədarükü ayıdır

Ramazan ayının məhsulu təqva, özünü islah etmək, düzəltmək və təqva ehtiyatı görməkdir. *"...ki, təqvalı olasınız"*.[1] Ramazan ayı bizdə təqva ehtiyatı yaradır. Təqva daha ülvi mənzillər əldə etmək vasitəsidir; təqva bizi daha yüksək mənzillərə çatdıra bilən minikdir. *"Təqvalı olun ki, nicat tapasınız"*[2]; *"Təqvalı olun ki, Onun rəhməti sizə şamil olsun"*[3]; *"Allahdan qorxun. Allah sizə öyrədir"*.[4] Allah insana elm, hidayət, rəhmətini təqva sayəsində verir. Və bunların hamısından mühümü qurtuluşdur. Nicat və qurtuluş təqva sayəsində əldə edilir. Əzizlərim, gərək ramazan ayında əldə etdiyimiz təqva ehtiyatını – əgər Allahın köməyi ilə əldə etmişiksə, ilahi ziyafət süfrəsində oturmuşuqsa və ondan bəhrələnmişiksə – qoruyaq. O, çox dəyərli məhsuldur. Bu, əkinçinin zəhmətlə buğda əkməsinə, sonra məhsulu toplamasına və il boyu götürüb istifadə edə bilsin

1. Bəqərə, 21
2. Bəqərə, 189
3. Hucurat, 10
4. Bəqərə, 282

deyə etibarlı elevatora[1] yığmasına bənzəyir. Təqva bizim illik azuqəmizdir. Bu azuqə il boyu müxtəlif təhlükələrlə qarşılaşır: vəsvəsələr, bərbəzəklər, şəhvət və nəfsi istəklər, günahlar onu təhdid edir. Bunların hamısı həmin dəyərli azuqənin bəlasıdır. Bu azuqədən həmin bəla ilə mübarizə aparmaq üçün istifadə edin, bu azuqəni qoruyun.

Bu gün bayramdır. "Onu müsəlmanlar üçün bayram, Məhəmməd üçün azuqə, şərəf, kəramət və başucalığı amili etmisən".[2] İslam Peyğəmbərinin fitr bayramı günündəki başıucalığı o həzrətin davamçısı olan bizlərin dünyanın harasında olmasından asılı olmayaraq, özümüzü çətin həyat yolunu qət etmək, dünya və axirəti abadlaşdırmaq və qurtuluş əldə etmək üçün təqva azuqəsi ilə təchiz edərək silahlandırmağımızdan ibarətdir.

*Dövlət məmurları və müsəlman ölkələrin səfirləri ilə fitr bayramı münasibəti ilə görüşdəki çıxışdan*
*14.XI.2004*



1. Böyük taxıl tədarükü məntəqələrində, dəmiryol stansiyalarında, limanlarda və s.-də tikilən, taxılı qaldırmaq, qurutmaq, saxlamaq üçün müvafiq qurğuları olan çox böyük anbar. – Red.
2. İqbalul-əmal, c. 1, səh. 289

# İslam inqilabı Quranın cəmiyyətdəki qəribliyinə son qoydu

Allaha şükür, bu gün İslam Respublikasının bərəkətindən Quran sədaları ölkəmizin hər yerini bürüyüb. Əziz gənclər bilsinlər, bir vaxtlar bu ölkədə Quran sözün həqiqi mənasında qərib idi. Həmin dövrdə Quran nəinki əməl edilmək və ehtiram göstərilmək, hətta oxunmaq baxımından qərib idi. Bəzən görüntü yaratmaq üçün xırda-para işlər görülürdü, amma ölkə əhalisi, xüsusilə gənclər arasında çox az adam Quranla tanış idi. Mən bu gün baxıb görürəm ki, gənclərin, hətta yeniyetmələrin arasında Quranı lazımi səviyyədə oxuyanların sayı çoxdur. Bu gün burada Quran oxuyan gənclərin hamısı insafən yaxşı oxudu. Bu Quran oyanışı ölkəmizdə tədricən güclənib.

Mən dəfələrlə demişəm, bir daha təkrar edirəm: biz ölkədə Quranın gözəl oxunması işini davam etdiririk ki, insanlar arasında Quranla ünsiyyət və onun oxunması kütləvi hal alsın. Əzizlərim, gərək Quranla ünsiyyətdə

olasınız. Bizim dilimiz Quran dili deyil, amma Quranın mənasını başa düşmək üçün onun tərcüməsinə müraciət edə bilərik. Lakin Quranda olan dərin mənaları başa düşmək üçün ancaq tərcümə kifayət etmir. Onu heç Quranın mətnini oxumaqla da əldə etmək olmur. O, düşünməklə, dərindən fikirləşməklə əldə edilir.

Qurana güzgü kimi – təmiz, parıltılı və ləkəsiz – baxmaq lazımdır ki, qəlbimizdə əks olunsun. Quran gərək ruhumuzda əks olunsun. Bunu həmişə etmək mümkün deyil; o, hamı bacaran iş deyil. O, qəlblərini pak-pakizə saxlayan, Quranın qarşısına iman, inam və sədaqətlə çıxan şəxslərə aiddir. Quranın sədası, sözü və ismarıcı onu qəbul etməyib inkarçı mövqe tutan, əvvəlcədən onu qəbul etməmək, başa düşmək istəməmək niyyətində olanların qəlbinə heç bir təsir göstərməyəcək. *"Əgər Biz mələkləri onlara endirsəydik, ölülər onlarla danışsaydı və hər şeyi toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər"*.[1] Bəzilərinin qəlbi o qədər "paslanıb" ki, dünya dağılsa da, iman gətirməzlər. Buna görə də onlar Quranı oxusalar da, ona yaxınlaşmırlar.

Qurana yaxınlaşmaq lazımdır. Siz əziz gənclər, həmçinin bu sözləri eşidən bütün gənclər, bilin, Quranda hikmət var, nur var, şəfa var. Dünyada olan maddi toqquşmalar nəticəsində insanın ruhunda bir sıra düyünlər yaranır və Quranın hikmətləri onların hamısını açmağa qadirdir. Bu, həqiqətdir. Quran qəlblərdə olan düyünləri açır, qəlbi genişləndirir, nuraniləşdirir, düz yolda addımlamaq üçün ona əzmkarlıq verir. Quranla ünsiyyətdə olmaq və ondan bunları götürmək lazımdır.

Biz maddi dünyaya qərq olmaqla özümüzü məhrum

1. Ənam, 111

edirik. Bu, insanın güzgünün üstünü kirlətməyinə bənzəyir. Təbii ki, belə olan halda güzgü heç nə göstərməyəcək. Biz özümüzü Qurandan məhrum etməməliyik. Təəssüf ki, bu gün İslam dünyası özünü məhrum edib. Buna görə də görürsən ki, şəxs Quran ayəsini oxuyur, Quranın Allahdan qeyrisinə ümid bağlamağa, Allahdan başqasını Allaha şərik qoşmağa, Allahdan başqa və qeyri-ilahi cinaha qoşulmağa necə qəzəblə baxdığını görür, amma bununla belə ürəyi düşmən ölkələrin şirkətlərinin yanındadır. İslam dünyasının inkişaf istiqamətində hərəkət etməməsinin səbəbi bu kimi bəlalardır.

Əlbəttə, Allaha şükür, bu gün müsəlmanlar artıq oyanıblar. Bu gün bütün dünyada islami oyanış hiss edilir və bu oyanış, müsəlmanlar arasındakı bu qardaşlıq, inşallah, gündən-günə daha da artacaq.

*Quran qariləri ilə görüşdəki çıxışdan*
*5.XI.2005*

# Allahın ramazan süfrəsinin nemətləri

Bir cümlə də bu gecələr və günlər barəsində deyim. Əziz qardaş və bacılar! Bildiyiniz kimi, ramazan ayına “ilahi ziyafət ayı” deyilir və bu ayda ilahi ziyafət süfrəsinin açıldığı bildirilir. Bəs görəsən, bu süfrənin nemətləri nədir? Bu ayın nemətlərindən biri oruc, biri Quranın fəzilətidir. Quranı başqa vaxtlarla müqayisədə bu fəzilətli süfrəyə daha çox qoyublar və bizə onu oxumaq göstərişi veriblər. Həmin nemətlərdən biri də bu ayda oxuduğumuz dualardır. Buna misal olaraq “ya əliyyu, ya əzim...” (ey uca və əzəmətli...) duasını, “İftitah”, “Əbu Həmzə” dualarını göstərmək olar. Bunlar bu süfrəyə qoyulmuş nemətlərdir. Bəzilərinin fikri o qədər dağınıq və başqa yerdə olur ki, süfrənin yanından keçəndə, ümumiyyətlə, onu görmürlər. Elə adamlar var ki, ümumiyyətlə, ramazan süfrəsini görmür, ramazan ayının gəlib getməsini hiss etmirlər. Bəziləri də süfrəni görürlər, amma başları qarışıq olduğu üçün bu süfrənin başında oturmağa vaxt tapmırlar, başqa iş və məşğuliyyətlərinin

– dükan-bazar, iş, dünya işləri, nəfsi istəklər və sairənin – ardınca gedirlər. Beləcə, onlar bu süfrənin başında oturmağa və ondan istifadə etməyə macal tapmırlar. Bəziləri də süfrəni görür, onun başında oturur, qədrini bilirlər, amma gözütox adamdırlar, aza da qane olurlar, bir tikə götürür, sonra durub gedirlər. Daha süfrənin başında oturub ondan doyunca istifadə etmir, süfrədə olanlardan çox dadmırlar; kiçik bir tikə götürüb gedirlər. Bəzilərinin də meyli çəkmir, iştahalarının olmadığını deyirlər. Onlar faydasız şeylər yedikləri üçün rəngarəng nemətləri olan süfrənin başında oturanda iştahaları heç nə çəkmir. Başqa bir dəstə iştahası miqdarında ondan istifadə edir. Bu dəstənin iştahası çox olur və nə qədər yesə də doymur. Çünki o, mənəvi süfrədir və onun neməti fəzilətdir. O, insanın ruhunun genişlənməsi və yüksəlməsi ilə nəticələndiyi üçün insan bu süfrədən bəhrələndikcə, ruhu daha yüksəkliklərə ucalır və yaradılışın məqsədinə daha çox yaxınlaşır. Bu, fiziki qidalanmadan fərqlidir. Fiziki qidalanma insan bədəninin yol gedə bilməsi üçündür. Onda ifrata varmaq olmaz. Amma ruhi və mənəvi qidalanmada belə deyil. Çünki bizim yaradılışımız mənəvi və ruhi yüksəliş üçündür. Ruhi qidalanma bizim bu yüksəlişimizə kömək edir, onu asanlaşdırır, gerçəkləşdirir. Buna görə də ondan mümkün qədər çox istifadə etmək lazımdır. Allahın adını eşitdiyimiz bəzi mömin və ixlaslı bəndələri var ki, onların gördüyü işləri bizə danışanda deyilənləri hətta düzgün başa düşə bilmirik. Onlar, həqiqətən, heyrətamiz işlər görüblər: sübh namazına 2-3 saat qalmış yuxudan oyanar, ramazan ayının gecələrində göz yaşı tökərdilər. Nəql edirlər ki, mərhum Mirzə Cavad Məliki Təbrizi yuxudan oyananda dəstəmaz almaq üçün hovuzun başında oturar, suya baxar, dua

oxuyar, ağlayar, Allahla raz-niyaz edər, sudan götürüb üzünə tökəndə ağlayıb Allaha yalvarıb-yaxarar, göyə baxaraq dua oxuyar, nəhayət, gəlib yüksək o mənəvi hala malik və eşqlə dolu gecə namazını qılardı. Mərhum Mirzə Əli Qazi də belə olub. Onun ramazan ayı, orucu, Allaha üz tutması, zikri, namazı barədə heyrətamiz hekayətlər nəql edirlər. Biz belə şeyləri, həqiqətən, düzgün dərk edə bilmirik. Amma onlar bizə yol göstərir və gərək ondan mümkün qədər çox istifadə edək.

## Quranı düşünərək oxumaq lazımdır

Dostlar Quran oxumağı heç vaxt, xüsusilə ramazan ayında yaddan çıxarmamalıdırlar. Quran həyatınızın bir hissəsinə çevrilməlidir. Bacardığınız qədər Quran oxuyun. Quranın düşünərək oxunmasının böyük təsiri var. "Quran oxumaq" deyəndə onun tələsik oxunması, insanın ayələrin mənasını başa düşməməsi, yaxud düzgün başa düşməməsi nəzərdə tutulmur. Biz mənası başa düşülmədən oxunan oxunuşun faydasız olduğunu demək istəmirik. Hər halda insanın diqqətinin oxunan kəlamın Allah kəlamı olmasına yönəlməsinin özü bir növ əlaqə və bağlılıqdır və bunun özü də qənimətdir. Buna görə də kimisə bu cür Quran oxumaqdan çəkindirmək olmaz. Amma bu, bəyənilən, ideal və tövsiyə edilən oxunuş deyil. Quranın bəyənilən oxunuşu insanın düşünərək oxuduğu, ayələrin mənasını başa düşdüyü oxunuşdur. Bizim nəzərimizcə, onun mənasını başa düşmək mümkündür. Əgər insan ərəb dilini bilsə, bilmədiyi yerlərdə tərcüməyə müraciət etsə və ayənin mənası barədə düşünsə, bu işi iki, üç, beş dəfə təkrar etsə, zehnində ayənin mənası barədə geniş təsəvvür yaranar.

Bu təsəvvürü başqa cür əldə etmək mümkün deyil. O, ancaq düşünməklə əldə edilə bilər. Bunu sınaqdan keçirin. Buna görə də adam birinci dəfə bir-birinə bağlı on ayəni oxuyanda bir hiss və təsəvvürə malik olur, ikinci, beşinci, onuncu dəfə diqqətlə oxuyanda isə başqa bir agahlıq və təsəvvür yaranır. Yəni insanın zehnində bir aydınlanma yaranır və o, Quranla nə qədər çox ünsiyyətdə olsa, onu daha çox başa düşür. Bizim buna ehtiyacımız var.

## Quranla ünsiyyət insanı haqq yolda qoruyan amildir

Əzizlərim! Təcrübə göstərir ki, sapmaların çoxu din və İslam maarifi barədə dərin düşüncəyə malik olmamaqdan qaynaqlanır. Bəziləri ayinlərə əməl edir, şüarlar səsləndirir, hisslərə qapılır və bunların hamısı onun dilində olur, qəlbinin dərinliklərində kök atmır. Biz belələrini əvvəllər çox görmüşük: çox tünd, emosional və çılğın adamlar sonradan 180 dərəcə dəyişiblər. İnqilabın əvvəlində adamlar var idi ki, – özü də bunu ümumi demirəm, konkret nümunələr tanıyıram – şəhid Behişti kimi şəxsləri inqilabçı olmaq, inqilabı və İmam Xomeyninin yolunu düzgün dərk etmək baxımından inkar edirdilər. Amma bir müddət sonra onlar inqilab və quruluşu inkar yolunu tutdular. Onların insaflıları onu açıq-aydın, bəziləri isə hiyləgərlik və ikiüzlülüklə inkar etdilər. İnsafsızlar zahirdə özünü bir cür göstərib batində elə olmayanlardır. Onlar dayaz adamlar idilər. Əlbəttə, bu, səbəblərdən biridir. Digər səbəb hətta dərin adamları azdıran nəfsi istəklər, dünyapərəstlik və sairədir. Dayaz adamlar çox olub. İnsanın etiqadında, düşüncə və baxışlarında, ruhunda, imanında dərinlik

yaradan amillərdən biri Quranla ünsiyyətdir. Buna görə də Quranı düşünərək oxumağı həyatınızın bir hissəsinə çevirin və onun həyatınızdan çıxmasına imkan verməyin.

## Məsumlardan nəql edilmiş dualardakı çoxsaylı təlimlər

İnsanda dərinlik yaradan amillərdən biri də dualardır. Mötəbər dualarda o qədər məlumat var ki, insan onları həmin dualardan başqa heç yerdə tapa bilməz. Həmin dualardan biri də "Səhifeyi-Səccadiyyə" kitabında olan dualardır. İslam təlimləri arasında bəzi təlimlər var ki, onları "Səhifeyi-Səccadiyyə" və məsum imamlardan nəql edilmiş dualardan başqa heç yerdə tapmaq mümkün deyil. Həmin təlimlər dua dili ilə bəyan edilib. Onların ancaq duada olması o deyil ki, məsumlar onları gizlətmək istəyib. Sadəcə məsələlər elədir ki, onları yalnız dua dili ilə bəyan etmək mümkündür. Bəzi məsələlər var ki, onları dua, raz-niyaz və minacatdan başqa dillə bəyan etmək mümkün deyil. Buna görə də biz hədislərdə, hətta "Nəhcül-bəlağə"də o qəbildən olan təlimlərə az rast gəlirik. Amma "Səhifeyi-Səccadiyyə"də, "Kümeyl" duasında, "Şabaniyyə" minacatında, İmam Hüseynin "Ərəfə" duasında, İmam Səccadın "Ərəfə" duasında, "Əbu Həmzə Sumali" duasında bu təlimlərə çox rast gəlmək olur. Duaları yaddan çıxarmayın, dua oxuyun, dua edin. Siz çiyninizdə ağır yük daşıyırsınız, düşmənləriniz də çoxdur. İslam dövlətinin düşməni həmişə çox olub. Bu dövlətlərin həmişə, inqilabın əvvəlindən – xüsusilə əgər o təzə qurulubsa və inqilab prinsiplərinə sədaqət şüarları da səsləndirirsə – həm daxili, həm də xarici düşmənləri olub. Onlar gərginlik yaradır, şayiələr yayır, özlərindən mənfi

fikirlər uydurur, yalan yayır, bəzən əməli şəkildə təxribat törədirlər. Bu düşmənçiliklərlə mübarizə aparmaq üçün bir tərəfdən əzmkarlıq, qətiyyət, ciddilik nümayiş etdirmək, yorulmadan çalışmaq və işin arxasınca getmək lazımdır, digər tərəfdən Allaha üz tutmaq, diqqəti Ona yönəltmək, raz-niyaz etmək və Allahdan yardım diləmək. Əgər dua edib Allahdan istəsək, O bizə yorulmadan çalışmaq ruhiyyəsi bəxş edər. Allahın böyük nemətlərindən biri insanın yorulmaması, hövsələdən çıxmamasıdır. İnsan bəzən uzun yollarda gücünün olmasına, ayaqlarının taqətdən düşməməsinə baxmayaraq, ruhi baxımdan yorulur. Bu ruhi yorğunluq insanın məqsədinə çatmasına mane olur. Ruhi yorğunluq bəzən fiziki yorğunluqdan daha təhlükəli olur. Bu ruhi yorğunluğa düçar olmamaq üçün Allahdan yardım diləmək, Ona təvəkkül etmək, Allahın yardımına ümid bağlamaq lazımdır. Bunu əldən çıxarmayın və daim qorumağa çalışın. Biz Allah yanında bizdən əvvəlkilərdən və sonrakılardan əziz deyilik. Əlbəttə, əməlimizin daha yaxşı, təqvamızın daha çox olması istisnadır. Bunu nəzərə almaq lazımdır. Əgər daha təqvalı olsaq, əməllərimizə daha çox diqqət etsək, daha yaxşı işləsək, boynumuza düşən vəzifələri daha yaxşı yerinə yetirsək, qanuna daha hörmətlə yanaşsaq və bu məqsəd istiqamətində daha çox qabağa getsək, Allah yanında daha əziz olarıq. Amma bunlar olmasa, əsla! Gərək fəaliyyətimizi bu nöqtədə cəmləyək və diqqətli olaq ki, başqalarının düşdüyü torlara biz düşməyək. Kim həmin torlara düşsə, həmin bəlalara düçar olacaq, həmin aqibəti yaşayacaq. Çünki bizimlə onlar arasında heç bir fərq yoxdur.

*İranın Nazirlər Kabinetinin üzvləri ilə görüşdəki çıxışdan*
*9.X.2005*

# Ramazan mənəvi saflıq əldə etmək fürsətidir

Quran ayələrinə əsasən, ramazan orucunun məqsədi təqva əldə etmək və insanın vücudunda mənəvi azuqənin artmasıdır.

Bu ay ilahi ziyafət ayıdır. Allah-taala mənəvi ziyafət ayı olan bu ayda öz qonaqlarını rəhmət, bağışlanma qapılarını açmaqla, bu ayda gördükləri işlərə artıq savab verməklə qəbul edir. Ramazan ayının orucu da həmin ilahi ziyafətin nemətlərindəndir. O, insanın ruhunun təmizlənməsinə, oruc tutan şəxsin qəlbinin paklaşmasına səbəb olur. İmam Səccad xütbələrinin birində belə buyurub: “Ramazan paklıq və bağışlanma ayıdır”.[1] Allah-taala bu ayda bağışlanma diləməyə ilin başqa vaxtlarından daha çox iltifat və mərhəmət göstərir. Buna görə də hədislərin birində belə deyilir: “(Allahın rəhmət və bağışlanma qapılarının insanların üzünə açıldığı) ramazan ayında



1. Səhifeyi-Səccadiyyə, 44-cü dua, səh. 186

bağışlana bilməyən kəs hansı ayda bağışlanacaq?!”[1]

Bu ilahi süfrə və ziyafətin nemətlərindən biri də qədr gecəsidir. Mən birinci xütbədə bir az qədr gecəsinin əməlləri barədə danışacağam. Quran buyurur: *“Qədr gecəsi min aydan xeyirlidir”*.[2] Ramazan ayının bir neçə gecəsinin arasında olan və qədr gecəsi adı ilə tanınan gecə min aydan xeyirlidir. Mömin bəndə qədr gecəsinin dəyərli saatlarından maksimum istifadə etməlidir. Bu gecənin ən yaxşı əməli duadır. Bu gün siz əziz qardaş və bacılarıma dua barəsində də bəzi şeylər deyəcəyəm. Əhyada dua etmək, Allaha üz tutmaq və Onu yada salmaq üçündür. Qədr gecəsinin müstəhəb əməllərindən olan namaz da dua və zikrin təzahürüdür. Hədislərdə duanın ibadətin məğzi olması qeyd edilib. Öz sözümüzlə desək, ibadətin ruhu duadır. Dua nədir? Duanın mənası Allahla danışmaq, Allahı özünə yaxın hiss etmək, ürək sözlərini Onunla bölüşməkdir. Dua ya Allahdan bir şey istəməkdən, ya Onu əzəmətlə yad etməkdən, ya Ona həmd-sənadan, ya da sevgi və rəğbət izhar etməkdən ibarətdir. Bunların hamısı duadır. Dua mömin bəndənin, özünü islah etmək istəyən, nicat və qurtuluş axtaran insanın ən mühüm işlərindəndir. Dua ruhun təmizlənməsində belə bir rola malikdir.

## Duanın faydaları

### 1. Qəlbdə Allahın yad edilməsi hissinin oyadılması

Duanın nəticələri nədən ibarətdir? Biz Allah-taala ilə danışanda Onu özümüzə yaxın hiss edir, Ona xitab edir, Onunla söhbət edirik. Bunlar duadan əldə edilən fayda



1. Əmali, Səduq, səh. 53
2. Qədr, 3

və nəticələrdir. Qəlbdə Allahın yad etmək qəfləti – bütün əyrilik, sapıntı və fəsadların kökü bu qəflətdən doğur – yox edir. Dua insanın qəlbindən qəfləti təmizləyir, Ona Allahı xatırladır, onun qəlbində Allahın yad edilməsi hissini oyadır. Dua etməkdən məhrum olan insanların məruz qaldığı ən böyük ziyan onların qəlbində Allahın yada salınmamasıdır. İnsanın Allahı unutması bəşəriyyət üçün böyük ziyandır. Quranda bu barədə neçə ayə var. Bu, çox geniş mövzudur.

## 2. İmanın qəlbdə gücləndirilməsi və davamlı yaşadılması

Duanın ikinci faydası qəlbdə imanın gücləndirilməsi və davamlı yaşadılmasıdır. Duanın xüsusiyyətlərindən biri də qəlbdə imanı möhkəmləndirmək və yaşatmaqdır. İman dünyada baş verən hadisələr, çətinliklər, şadlıq, nemət içində olmaq və insanın qarşılaşdığı digər hallarda yox olmaq təhlükəsi ilə üzləşir. Siz dünya malı, güc və qüdrət, fiziki həzz və nəfsi istəklərlə qarşılaşanda imanını itirən adamlarla rastlaşmısınız. O, kövrək və qeyri-sabit imandır. Duanın xüsusiyyətlərindən biri insanın qəlbində imanın möhkəmləndirilməsidir. İmanın yox olma təhlükəsi dua və diqqətin Allaha yönəldilməsi ilə aradan qalxır.

## 3. İnsanda ixlas ruhunun yaranması

Duanın üçüncü faydası insanda ixlas ruhunun yaranmasıdır. Allahla danışmaq və özünü Ona yaxın hiss etmək insana ixlas ruhu bəxş edir. İxlasın mənası insanın işi Allaha xatir görməsidir. Bütün işləri Allaha xatir görmək mümkündür. Allahın sevimli bəndələri gündəlik işlərinin hamısını Allaha yaxınlaşmaq niyyəti ilə görürlər. Onlar

bunu bacarırlar. Amma elələri də var ki, hətta ibadətlərini, məsələn, namazlarını da Allaha xatir yerinə yetirə bilmirlər. İxlasın olmaması insan üçün böyük dərddir. Dua insana ixlas ruhu verir.

## 4. Özünüislah və insanda əxlaqi keyfiyyətlərin inkişaf etməsi

Duanın dördüncü faydası özünüislah, insanda əxlaqi fəzilət və keyfiyyətlərin inkişaf etməsidir. İnsan diqqətini Allaha yönəltməklə və Allah-taala ilə danışmaqla əxlaqi keyfiyyətlərini gücləndirir. Bu, Allahla ünsiyyətin təbii və qaçılmaz nəticəsidir. Buna görə də dua insanın kamilliklərə yüksəliş pilləsi rolunu oynayır. Həmçinin dua insanda olan əxlaqi çirkinlikləri təmizləyir, hərislik, təkəbbür, eqoistlik, Allah bəndələri ilə düşmənçilik, iradəsizlik, qorxaqlıq, səbirsizlik kimi xüsusiyyətləri insandan uzaqlaşdırır.

## 5. Qəlbdə Allah sevgisinin yaradılması

Duanın beşinci faydası Allah-taalaya məhəbbət yaratmaqdır. Dua insanın qəlbində Allah eşqi yaradır. Allah-taala bütün gözəllik və yaxşılıqların mənbəyidir. Dua etmək, Allahla ünsiyyət və danışmaq qəlbdə belə bir məhəbbət yaradır.

## 6. İnsanda ümid və müqavimət ruhunun yaranması

Duanın altıncı faydası insanda ümid ruhunun yaranmasıdır. Dua insana həyatda olan çətinliklər qarşısında müqavimət göstərmək qüdrəti verir. Həyatda hamı bir sıra hadisə və maneələrlə qarşılaşır. Dua insana güc verir, onu hadisələr qarşısında möhkəmləndirir. Buna görə də hədislərdə dua barəsində "silah" sözü işlədilmişdir. Həzrət Peyğəmbər

buyurub: “Sizə sizi düşmənlərinizin əlindən xilas edən silah göstərim? Gecə-gündüz Rəbbinizə dua etmək! Həqiqətən, dua möminin silahıdır”.[1] Hadisələr zamanı diqqətin Allah-taalaya yönəldilməsi mömin insanın əlində iti silah kimidir. Buna görə də həzrət Peyğəmbər döyüş meydanında bütün lazımi işləri görər, qoşunları sıraya düzər, onları təchizatla təmin edər, onlara tapşırıqlarını verər, komandan olaraq görməli işlərin hamısını görər, bununla yanaşı, meydanın ortasında diz çöküb əllərini açaraq dua edər, Allahla danışar, Ondan yardım diləyərdi. Allahla belə bir əlaqənin olması insanın qəlbini möhkəmləndirir.

## 7. İstəklərin gerçəkləşməsi

Duanın digər bir faydası istəklərin gerçəkləşdirilməsidir. İnsan dua edərək istəyini Allahdan diləyir və Allah-taala onun duasını qəbul edir. Əlbəttə, duanın bütün xüsusiyyəti bundan ibarət deyil, onlardan biridir. Quran buyurur: *“Allahın lütfündən (mərhəmətindən) istəyin”*.[2] Ehtiyaclarınızı Allah-taaladan istəyin. “Əbu Həmzə Sumali” duasında İmam Səccadın dilindən belə deyilir: “İstəməyi əmr etmək, amma istəniləni verməmək Sənə yaraşmır. Sən Öz bəxşişlərinlə bəndələrinin boynuna haqq qoyansan”.[3] Sənin bəndələrinə hacətlərini Səndən diləməyi əmr edib onların istəklərini gerçəkləşdirməməyin mümkün deyil. Əgər Allah-taala bizə Ondan istəməyi əmr edirsə, deməli, hacətimizi gerçəkləşdirmək istəyir. Buna görə də hədislərdə deyilir: “Ola bilməz ki, Allah dua qapısını açsın,[4]



1. Şərhul-Kafi, c. 10, səh. 206
2. Nisa, 32
3. İqbalul-əmal, c. 1, səh. 68
4. Nəhcül-bəlağə, səh. 553

amma onu qəbul etməsin.[1] Allah təsəvvür ediləndən daha səxavətlidir".[2]

## Dua və onun qəbul olunmasının şərtləri

### 1. İstəyin təmiz qəlblə edilməsi

Duanın qəbul edilməsi üçün nə etmək lazımdır? İnsan bəzən Allahdan bir şey istəyir, amma zahirdə onun qəbul edilmədiyini hiss edir. Duanın qəbul edilməsinin mühüm şərtlərindən biri onun şərtlərinə riayət edilməsidir. Duanın ilk şərti onun gənclərin qəlbi kimi təmiz qəlblə edilməsidir. Buna görə də gənclərin duasının qəbul edilmə ehtimalı daha çoxdur. Bəzən məndən gənclər üçün dua etməyimi istəyirlər. Əlbəttə, biz həmişə gənclər üçün dua edirik. Amma, əslində, gənclər qəlblərinin təmizliyinin qədrini bilməlidirlər. Çünki onların duasının qəbul edilmə ehtimalı daha çoxdur.

### 2. Duanın şüurlu şəkildə edilməsi

Duanın qəbul edilməsinin şərtlərindən biri insanın duanı şüurlu şəkildə etməsi, yəni bu dua və istəyin hər şeyə qadir olan kəsdən istənilməsini dərk etməsidir. Başqa sözlə desək, dua edən şəxs duanın təsirinə inanmalıdır. İmam Sadiqə dedilər: "Dua edirik, amma qəbul olmur".[3] O həzrət buyurdu: "Çünki siz tanımadığınız kəsə (şüursuz, qarşı tərəfin kimliyini dərk etmədən) dua edirsiniz". Başqa bir hədisdə insanın duaya baxışı barədə belə nəql edilib: "Bilsinlər ki, Mən onların istəklərini verməyə qadirəm".[4]

1. Biharul-ənvar, c. 68, səh. 54
2. Camiul-əhadis-şiə, c. 30, səh. 504
3. Təfsiru nuris-səqəleyn, c. 4, səh. 533
4. Biharul-ənvar, c. 90, səh. 323

Yəni dua edən şəxsdə Allahın onun istəyini həyata keçirmək qüdrətinə malik olmasına iman olmalıdır.

Duada əzmkar olun, Allahdan böyük şeylər, dünya və axirət səadəti istəyin, "bunlar böyük şeylərdir; bu, çoxdur" deməyin. Xeyr, onlar Allah üçün əsla böyük və çox deyil. Əsas sizin həqiqi mənada və şərtlər çərçivəsində dua etməyinizdir. Əgər belə olsa, Allah-taala sizin həmin duanızı qəbul edər. İnsan bəzən də gerçəkləşən işin onun duasının nəticəsi olduğunu bilmir.

## 3. Tövbə və günahdan çəkinmək

Duanın şərtlərindən biri də günahdan çəkinmək və tövbə etməkdir. Bu gecələr tövbə gecələridir. Hamımızın böyük və kiçik günahı var. Gərək Allahdan üzr istəyək, bağışlanma diləyək, tövbə edək, Ona tərəf qayıdaq, günah etməyək. İnsan bəzən günah etməmək qərarına gəlir, bu istiqamətdə çalışır, amma sonra bir anlıq qəflətə düçar olaraq günah edir, əvvəlki səhvini bir də təkrar edir. Bu halda yenidən tövbə etmək, Allahdan bağışlanma diləmək lazımdır. Amma bağışlanma diləməkdə ciddi olmaq lazımdır. Günah etməmək qərarı insanın ciddi və səmimi istəyi olmalıdır. Hədislərdə dua və onun qəbul edilməsi barədə belə deyilir: "İnsan, duasının qəbul olması üçün başqalarının onun boynunda olan haqqının altından çıxmalıdır".[1] Başqa bir hədisdə nəql edilib ki, Allah-taala həzrət Musaya belə buyurub: "Ya Musa, məni təmiz ürək və doğruçu dil ilə çağır".[2] Əgər Allahla pak qəlb və doğruçu dil ilə danışsanız, duanız, mütləq, qəbul ediləcək.



1. Biharul-ənvar, c. 90, səh. 321
2. Biharul-ənvar, c. 90, səh. 341

## 4. Özünü Allahın hüzurunda hiss etmək və kiçiltmək

Duanın qəbul edilməsinin şərtlərindən biri özünü Allahın hüzurunda hiss etmək və kiçiltməkdir. Duanın mənası sizin Allahla danışmağınız, Allahı qarşınızda hiss etməyiniz, Onun hər yerdə hazır olub hər şeyə nəzarət etməsinə inanmağınızdır. İnsanın qəlbində həqiqi ehtiyac hiss etmədən adət şəklində dilində "İlahi, bizi, ata-anamızı bağışla!" deməsi dua deyil. "İzzət və calal sahibi olan Allah qəflətdə olan qəlbin duasını qəbul etmir".[1] Təmiz olmayan, nəfsi istəklərə qərq olmuş, qəflət içində olan qəlblərin duası necə olar? İnsanın belə edilən duanın qəbul edilməsini gözləməsi nə dərəcədə məntiqlidir?

Bəziləri dua, ibadət və tövbəni qocalana saxlayırlar. Bu, böyük səhvdir. Onlara "tövbə edin" deyəndə "hələ vaxta var" deyə cavab verirlər. Birincisi, vaxtın olub-olmaması məlum deyil. Ölüm gələndə heç kəsə xəbər vermir. Bu, bütün yaş həddi barəsində keçərlidir. Hətta, həqiqətən, vaxtın olduğunu və qocalacağımızı düşünsək belə, kiminsə gənclik dövrünü qəflətdə, nəfsi istəklərə qərq olaraq keçirib, sonradan asanlıqla tövbə etməyin mümkün olduğunu fikirləşməsi böyük səhvdir. Dua etmək və Allaha üz tutmaq əhvali-ruhiyyəsini istənilən vaxt əldə etmək olmur. Biz bəzən belə bir əhvali-ruhiyyənin yaranmasını istəyirik, amma alınmır, diqqətimizi Allaha yönəltmək istəyirik, amma bacarmırıq. Bunun səbəbi əvvəl görülən işlərdir. Diqqətin Allaha yönəlməsinə zəmin yaratmamış şəxsin istədiyi vaxt Allahın qapısına getməsi mümkün olmur. Özünüz də görürsünüz, bəzi pak qəlblər, xüsusilə gənclər çox rahatlıqla Allahla əlaqə yarada bilirlər. Amma

1. Kafi, c. 4, səh. 311

bəziləri nə qədər çalışsalar da, bunu bacarmırlar. Qəlblərini həlim saxlaya bilənlər bu fürsətdən istifadə etsinlər, onun qədrini bilsinlər, Allahla əlaqələrini qoruyub saxlasınlar ki, istədikləri vaxt Allahın qapısına gedə bilsinlər.

## Nəql edilmiş duaların əhəmiyyəti

Dua barəsində qeyd edilməsi lazım olan son nüans nəql edilmiş dualar məsələsidir. Məsum imamlardan nəql edilmiş dualar ən yaxşı dualardır. Birincisi, bu dualarda elə istəklərə toxunulub ki, bizim kimilərin zehninə gəlmir və insan onları Allahdan imamların dili ilə istəyir. "Əbu Həmzə", "İftitah" və "Ərəfə" dualarında insan üçün ən yaxşı istəklər irəli sürülüb. Əgər insan Allahdan onları istəsə və alsa, böyük sərmayə əldə etmiş olar. İkincisi, bu dualarda insanın özünü Allah qarşısında kiçiltməsinə və qəlbinin yumşalmasına səbəb olan şey var. Belə ki, onda istək elə bəyan edilib ki, bu, qəlbin yumşalmasına səbəb olur. Bu dualarda fəsahət, bəlağət, eşq və şövq cövlan edir. İnsan gərək bu duaların qədrini bilsin və onlardan istifadə etsin. Əlbəttə, mənasını başa düşmək şərtilə. Xoşbəxtlikdən, indi gözəl tərcümələr var və "Məfatihul-cinan" kitabı və digər dualar tərcümə edilib. Duaları diqqətlə oxuyun. Əlbəttə, heç bir tərcümə bu duaların sözlərinin orijinal dildəki gözəlliyini verə bilməz. Amma hər halda duanın mənası məlum olur. Buna görə də duaları onların tərcümələrini nəzərə alaraq oxuyun. Bəzən duanı bir nəfər oxuyur, digərləri xorla təkrar edirlər. Bu kimi məclislərdə heç olmasa duanın bəzi bəndləri tərcümə edilsə, daha yaxşı olar. Əlbəttə, ondan aşağı mərhələ budur ki, insan duanın mənasını başa düşməyəndə, heç olmasa,

onda eşqlə dolu bir qəlbin Allah-taala ilə danışdığını hiss etsin.

## Duanın ən böyük nağd faydası

Allah-taala hamımıza qarşıda olan qədr gecəsində bu gecələrdən bəhrələnməyi nəsib etsin! Əzizlərim! Dua edin. Dua ancaq çətinlik vaxtları üçün deyil, həmişə dua etmək lazımdır. Bəziləri elə bilir ki, insan çətinlik, bəla və müsibətə düçar olanda dua etməlidir. Xeyr, belə deyil. İnsan adi vəziyyətdə olanda da dua etməli, Allahla əlaqəsini qoruyub saxlamalıdır. Hədislərin birində işarə edildiyi kimi, insan ülvi aləmdə olan mələkləri öz səsi ilə tanış etməlidir. Duaya həmişə ehtiyac var. Özünüzü, mömin qardaşlarınızın, bütün dünya müsəlmanlarının ehtiyaclarını, ölkənizin ümumi işlərinin yaxşılaşmasını, problemlərin aradan qalxmasını, İslam Respublikasının inkişaf etməsini Allahdan istəyin. Duanın ən böyük faydası onun dua edənə çatan nağd faydasıdır. Həmin nağd fayda Allahla əlaqənin, aləmlərin Rəbbinə yaxınlıq sevgi və şövqünün yaranmasından ibarətdir. Bu, duanın nağd faydasıdır. Duanın qəbul edilməsi isə başqa bir bəhsdir.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*21.X.2005*

# Ramazan Allahın mərhəmətindən bəhrələnmək fürsətidir

Bərəkətli ilahi ziyafət süfrəsi açılmış ramazan ayı qurtarmaq üzrədir. Bu böyük ölkənin məsul şəxsləri olan bizlər həmişə öz vəzifələrimizi layiqincə yerinə yetirmək üçün Allahın yardımından bəhrələnəcəyimizə ümid bağlamışıq. İndi bu ayı arxada qoyuruq, amma bu aydan, Allahın bu aydakı lütf və mərhəmətindən, qədr gecələrindən nə qədər pay əldə etdiyimizi bilmirik. Biz bu böyük xeyir və lütfdən vaz keçə bilmərik. Bizim boynumuza böyük yük düşür. Qarşımızda uzun bir yol var, məsuliyyətimiz ağırdır. Bu böyük vəzifəni Allahın yardımı olmadan yerinə yetirmək mümkün deyil. Buna görə də bu fürsəti qənimət bilməliyik. Mən bu gün, əsasən, bu barədə danışacağam.

Allah-taala Quranda dəfələrlə, o cümlədən bu ayədə Allahdan bağışlanma diləməyi və tövbə etməyi əmr edib. Tövbənin mənası “qayıtmaq”dır. Bu qayıdış həm iman, həm də əməl mərhələsinə aiddir. Bizim bir sıra nöqsanlarımız

olub və indi də var. Gərək özümüzü islah edək. Bu, hər şeydən mühümdür. Müqəddəs "Hud" surəsi belə başlayır: *"Rəhman və Rəhim Allahın adı ilə! Əlif, Lam, Ra. Bu, ayələri möhkəmləndirilmiş, sonra izah edilmiş və Allah tərəfindən göndərilmiş bir kitabdır. (Mənim çağırışım budur ki,) siz Allahdan başqasına ibadət etməyəsiniz. Mən Allah tərəfindən sizi qorxudan və müjdələyənəm. Rəbbinizdən bağışlanma diləyin, sonra Ona doğru qayıdın".*[1] Yəni Quranın ilk ismarıcı tövhiddir. Ondan dərhal sonra Allaha tərəf qayıtmaq və Ondan bağışlanma diləmək məsələsi irəli sürülür. Bu, bütün təbəqələrə – peyğəmbərlərdən tutmuş ən aşağı dərəcədə olanlara kimi hamıya aiddir. Sadəcə bizim bağışlanma dilədiyimiz günah bir şeydir, pak və böyük şəxsiyyətlərin bağışlanma dilədiyi günah bir başqa şey. Pakların işini özümüzlə müqayisə etməməliyik. Allahdan bağışlanma diləməyə onların da ehtiyacı var. Çünki onlar da mümkün varlıqlardır:

*Hər iki aləmdə üzüqaralıq mümkün varlıqdan ayrılmadı. Daha yaxşısını Allah bilir.*

Allahdan bağışlanma diləməyə onların da ehtiyacı var. Onlar bu naqisliyi, kamala çatmamağı, nisbi ləngliyi Allahdan bağışlama diləməklə aradan qaldırmaq istəyirlər. Bizim özümüzə gəldikdə, günahlarımız çox və növbənövdür. Bizim əsas sözümüz budur.

Burada bir hədis də nəql edim: "Bəla qapılarını Allahdan bağışlanma diləməklə bağlayın".[2] Oxuduğumuz ayədə də belə buyurulurdu: *"Müəyyən bir müddətə qədər sizə yaxşı gün-güzəran versin".*[3] Yəni yaxşı gün-güzəran Allahdan bağışlanma diləmək və tövbə etməklə əldə edilə bilər.

1. Hud, 1-3
2. Müstədrəkül-vəsail, c. 5, səh. 318
3. Hud, 3

## Bağışlanma diləməyin fərdi və ictimai dərəcələri

Başqa bir hədisdə belə deyilir: "Ən yaxşı dua Allahdan bağışlanma diləməkdir[1]. "Şabaniyyə" minacatında belə deyilir: "İlahi, Səndən istənilməsinə ömür sərf etdiyim hacətimi verməyəcəyinə inanmıram".[2] O hansı hacətdir? "istənilməsinə ömür sərf etdiyim" deyilən hacət bağışlanmadır.

Allahdan bağışlanma diləməyin mənası səhvlərin düzəldilməsi, özümüzə və başqalarına vurduğumuz zərbələrin fəsadlarını aradan qaldırmaqdır. Əgər insan, həqiqətən, ciddi şəkildə səhv və xətalarını düzəltmək istəsə, Allahın yolunda heç bir maneə ilə qarşılaşmaz və onun aqibəti gözəl olar. Biz insanların səhvi səhvləri unutmaq, özümüzü düzəltmək barədə fikirləşməməyimiz, özümüzdə islahat aparmamağımızdır. Əgər bu qəflət və unutqanlıqlar aradan qaldırılsa və bizdə əzmkarlıq yaransa, hər şey düzələr. Hər şeydən əvvəl də özümüz düzələrik. O, ilk mərhələ və həm də bizim ən böyük vəzifələrimizdəndir. Əsas məsələ budur. Yəni bütün işlər bizim özümüzü düzəltməyimiz üçün müqəddimədir. Hər şey Allahın razılığının əldə edilməsi üçündür. *"Özünüzü qoruyun! Siz doğru yolda olsanız, (haqq yoldan) azanların azğınlığı sizə heç bir zərər yetirə bilməz"*.[3] Bütün səy və fəaliyyətlərin məqsədi Allahı özümüzdən razı salmaq və yaradılışda bizim üçün nəzərdə tutulan kamilliyə çatmaqdır.

Digər bir mərhələ ictimai bağışlanma və islahdır. İmkan daxilində cəmiyyətin hərəkət istiqaməti və işlərini islah



1. Adabe raz-o niyaz be dərgahe bi-niyaz, səh. 361
2. İqbalul-əmal, c. 1, səh. 68
3. Maidə, 105

edək. Bu, bağışlanmanın təsirinin və onun həqiqi mənasının aydın nümunələrindəndir. Bu, çətin iş deyil. Əgər istəsək, bu çox asandır və biz bunu bacararıq. Bu gecələrdə "Əbu Həmzə" duasında belə oxudunuz: "İlahi, Sənə tərəf gələnin yolu yaxındır".[1] Əsas məsələ istək və əzmkarlıq, hərəkət etmək və çalışmaqdır. "Sən yaratdıqlarınla Özün arasında pərdə çəkmirsən, sadəcə əməlləri onları Səndən ayırır".[2] Biz öz əlimizlə, yol verdiyimiz səhvlərlə Allahla özümüz arasında pərdə çəkirik. Allah-taala bizdən uzaq deyil. Yol yaxındır. Əgər müvəffəqiyyət əldə etsək, o, Allahın rəhmətinin nişanəsidir. Əgər ürəkdən bağışlanma diləyə, əzmkarlıq göstərib bir hərəkət edə bilsəniz, bilin ki, bunu sizə Allah nəsib edib və O sizə mərhəmət göstərib. Sizi o tərəfə cəzb edir, çəkirlər. Allah-taala bir neçə yerdə tövbəni Özünə isnad edib: *"Allah tövbə etdi ki, onlar tövbə etsinlər"*.[3] "Tövbə"nin mənası nədir? Onun mənası "üz tutmaq, diqqəti yönəltmək və qayıtmaq"dır. Allah Öz rəhmətini sizə yönəltdi və bu sizin qəlbinizin Allaha üz tutmasına səbəb oldu.

*Məşuq tərəfindən cazibə olmayınca, biçarə aşiqin səyləri nəticə verməz.*

Həmin "Əbu Həmzə" duasında belə deyirik: "İlahi, elmim Sənə tərəf bələdçim, Sənə olan sevgim dərgahında şəfaətçimdir. Mən bələdçimin məni Sənə çatdıracağından əminəm və şəfaətçimin Sənin dərgahında şəfaət edəcəyindən xatircəməm". Sən məni Özünə tərəf istiqamətləndirmisən, mənə dəlil təqdim edilib. Bu Sənin məni istiqamətləndirməyinə dəlalət edir. Sən məni Özünə

1. İqbalul-əmal, c. 1, səh. 68
2. İqbalul-əmal, c. 1, səh. 68
3. Tövbə, 118

tərəf cəzb edirsən, çəkirsən. Ramazan ayında gənclərin məsciddə əllərini göyə qaldırıb Allahdan bağışlanma dilədiyini görürsünüz. Bilin, Allahın lütf və mərhəmətli baxışları bu xalqladır. Bu, ilahi cazibədir, onu Allah-taala yaradıb. Çünki O Öz rəhmətini nazil etmək istəyir. "Allahım, Səndən rəhmətini nazil edən şeyləri istəyirəm".[1] Bu, rəhmətin nazil olmasına səbəb olur. Allah-taala Öz lütf və mərhəmətini bu xalqa nazil etmək istəyir.

## Üç növ günah

Üç növ günaha görə bağışlanma diləmək lazımdır. Bunlar bizə aiddir. Bizim ona idarəçilik işlərində də ehtiyacımız var. Onların nəzərdən qaçırılması bizə böyük zərbələr vurub və vurur. Üç cür günah var: günahın bir növü insanın ancaq özünə qarşı zülmdür. "Özünə zülm" ifadəsi həm Quran, həm də hədislərdə çox işlədilib. İnsan həmin günahı edir və o, birbaşa həmin şəxsin özünə təsir edir. Buna misal olaraq ümumi fərdi günahları göstərmək olar.

Günahın ikinci növündə şəxs günah edir, amma o, birbaşa insanlara və başqalarına mənfi təsir göstərir. Bu, daha ağır günahdır. Bu günah insanın özünə zülm olsa da, o başqalarına da təsir göstərdiyi üçün daha ağır, onun əlacı daha çətindir. Buna misal olaraq zülmü, qəzəbi, insanların fərdi və ümumi haqqının tapdanmasını göstərmək olar. Bu günah daha çox hökumətlərə, müdirlərə, siyasətçilərə, beynəlxalq aləmdə tanınan şəxsiyyətlərə, bir kəlmə sözləri, bir imzaları, kimisə vəzifəsindən uzaqlaşdırmaq və ya kimisə vəzifəyə təyin etmək əmrləri ailələrə, hətta bəzən



1. Misbahul-mütəhəccid, c. 1, səh. 61

bir xalqa təsir edən şəxslərə aiddir. Adətən adi insanlar belə günah etmirlər, əgər onların belə günahı olsa belə, onun əhatə dairəsi məhdud, məsələn, birinin yol gedəndə bilərəkdən başqa birinin ayağına təpik vurması həddində olur. Amma əgər biz bu növ günaha bulaşsaq, onun əhatə dairəsi geniş olar. Qeyd etdiyimiz kimi, bizim bir imzamız, bir əmrimiz, bir kəlmə sözümüz, bir qərarımız çoxsaylı insanlara təsir göstərə bilər. Bu növ günahın özünəməxsus bağışlanma diləmək forması var. Birinci növ günahın bağışlanma dilənilməsi insanın səmimi-qəlbdən Allahdan bağışlanma diləməsindən ibarətdir. Amma ikinci növ günahda məsələ bağışlanma diləməklə bitmir və şəxs bağışlanma diləməkdən əlavə, yol verdiyi nöqsanları da aradan qaldırmalıdır. Düzəltmək, islah etmək, problemləri aradan qaldırmaq məsələsi burada qarşıya çıxır.

Günahın üçüncü növü xalqların ümumi günahıdır. Burada artıq söhbət bir nəfərin səhvə yol verməsindən və bir dəstə adama zərər vurmasından getmir. Bəzən bir xalq və ya dəstə günaha düçar olur. Bu günahın da özünəməxsus bağışlanma qaydası var. Bəzən bir xalq uzun illər hansısa bir xoşagəlməz işin, zülmün qarşısında susur və heç bir reaksiya vermir. Bu da günahdır və bəlkə də, daha ağır günahdır. Bu, *"özlərində olanı dəyişmədikcə, Allah heç bir xalqın taleyini dəyişməz"*[1] ayəsində qeyd edilən məsələdir. Bu günah böyük nemətlərin əldən çıxmasına səbəb olur və günahkar xalqları çətin bəlalara düçar edir. Tehran əhalisi durub Şeyx Fəzlullah Nuri kimi böyük bir müctəhidin dar ağacından asılmasına tamaşa edib. Şeyx Fəzlullah Nuri, əslində, Məşrutə hərəkatının bani və rəhbərlərindən olsa da, bu hərəkatın Böyük Britaniya və qərbpərəst qolu ilə

1. Rəd, 11

əməkdaşlıq etmədiyi üçün Məşrutə əleyhdarı damğası vurularaq edam edilib. Təəssüf ki, bəzi qələm əhli hələ də həmin yalan, əsassız və məntiqsiz sözləri təkrar edir. Şeyx Fəzlullah Nurinin dar ağacından asılmasına tamaşa edən Tehran əhalisi 50 il sonra bunun altını çəkib. Belə ki, elə həmin bu Tehranda "Müəssislər məclisi"[1] yaradıldı və orada hakimiyyətin Rza şaha keçməsi təsdiq edildi. Onlar bir dəstə adamın günahı deyildi, o, milli və ümumi günah idi. *"Təkcə zalımlara toxunmayacaq bəladan qorxun"*.[2] Bəzən cəza ancaq günah edənlərə şamil olmur, hərəkət ümumi olduğu üçün cəza da ümumi olur, hətta onda hamı birbaşa iştirak etməsə belə. Həmin xalq bir gün küçələrə töküldü, sinəsini Məhəmməd Rza Pəhləvinin tankları qarşısına verdi və ölümdən qorxmadı. Yəni günah olan əlli illik sükut, səbir və dözümə son qoyaraq vəziyyəti dəyişdirdi. Allah da onları mükafatlandırdı, zülm hökuməti devrildi, xalq hakimiyyətə gəldi, ölkəyə utanc gətirən siyasi asılılıq aradan qaldırıldı, müstəqillik hərəkatı başladı. Bu hərəkat Allahın köməyi ilə bu günə kimi davam edib, bundan sonra da davam edəcək və bu xalq əzmkarlıqla öz ideyalarına qovuşacaq. Çünki o, hərəkət etdi. Üçüncü növ günaha görə bağışlanma istəyi də bu cürdür.

Quranda tövbə etməklə islah etmək dəfələrlə birlikdə işlədilib: *"...tövbə edənlər və (pis əməllərini yaxşı işlərlə) islah edənlər istisna olmaqla..."*[3]; *"Kim tövbə etsə, iman gətirsə və yaxşı iş görsə..."*[4] Başqa bir yerdə həmin islahın nümunəsi də qeyd edilib. Belə ki, əvvəlcə buyurur: *"Kitabda insanlara aşkar*

1. Konstitusiya hazırlayacaq və qəbul edəcək, yaxud yeni dövlət quruluşu təsis edəcək səlahiyyətə malik məclis. – Tərc.
2. Ənfal, 25
3. Bəqərə, 160
4. Məryəm, 60

*etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və hidayət vasitələrini gizlədən kimsələr..."*[1] Bunun ardınca buyurur: *"... tövbə edənlər və (pis əməllərini yaxşı işlərlə) islah edənlər istisna olmaqla..."*[2] Yaxud buyurur: *"Tövbə edənlər, özlərini islah edib düzəldənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha xatir xalisləşdirənlər istisnadırlar".*[3] Bu ayə ikiüzlülük edən və tərəddüdə düşənlər barəsindədir. Buyurur ki, onların tövbəsi tərəddüddən çıxmaq və xalisləşməkdir. Deməli, islah və özünü düzəltmək tövbənin tələbidir.

Biz gərək Allahdan bağışlanma diləyək. Bizim bağışlanma diləməyimiz şəxsi bağışlanma diləyindən daha geniş mənadadır. Mən də gedib özüm üçün bağışlanma diləməliyəm, siz də. "Biz günahkarıq, günaha qərq olmuşuq, şəxsi işlərimizdə bu qədər nöqsan, səhv və qüsur var, onlara görə bağışlanma diləmək kifayətdir" demək olmaz. Bağışlanma diləmək qəlbi nurlandırır, zehin və ruha aydınlıq gətirir. Bizim şəxsi bağışlanma diləyimiz bizimlə Allah arasında olanlara görədir. Amma ondan əlavə, bizim ümumi bağışlanma diləklərimiz də var.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*30.X.2005*

1. Bəqərə, 159
2. Bəqərə, 160
3. Nisa, 146

# Fitr bayramı Allahın lütfündən bəhrələnmək bayramıdır

Ramazan ayını ibadət, oruc, Allaha üz tutmaq, zikr, raz-niyaz ilə keçirərək fitr bayramına daxil olmaq mömin üçün sözün həqiqi mənasında bayramdır. Bu bayram dünyanın digər bayramları kimi deyil. O, ilahi rəhmət və bağışlanma bayramıdır; o, ramazan ayında Allaha ibadət etmək və Allahın təntənəli ziyafətinə daxil olub onu sağ-salamat arxada qoymaq şərəfinə nail olmuş, ramazan ayında imkan daxilində zikr, dua, Allaha üz tutmaq, oruc tutmuş və namaz qılmış insanların şükür və təşəkkür bayramıdır; o, ibadət-itaət mərhələsini arxada qoyub bağışlanma və ilahi mükafat ümidi ilə özlərini fitr bayramına çatdırmış müsəlmanların bayramıdır.

Süveyd ibn Ğəfələdən bir hədis nəql edilib. O, Əmirəl-mömininin dost və yaxınlarından olub.[1] Süveyd deyir ki, fitr bayramı günü Əmirəl-mömininin evinə getdim. Əmirəl-mömininin qarşısına süfrə sərilmişdi və o həzrət

1. Məkatibul-əimmə, c. 1, səh. 497

yemək yeyirdi. O həzrətin qarşısına çox təvazökar yemək – "xətifə" qoyulmuşdu.[1] O, minimum ərzaqla hazırlanan yeməkdir. Məsələn, bir az süd ilə bir az unu qarışdırırdılar, olurdu yemək. O, çox yoxsul yeməyi idi. Mən o həzrətə dedim: "Ya Əmirəl-möminin, bayram günü və xətifə?!" Yəni nə üçün bayram günü belə yemək yeyirsiniz?! Adətən insanlar bayram günlərində ən yaxşı yeməklər yeyirlər. Amma siz bununla kifayətlənmisiniz?! Əmirəl-möminin buyurdu: "Bu gün bağışlanan kəsin bayramıdır". Yəni bu günün bayram olması növbənöv yeməklər yeyilməsinə, uşaq kimi əhəmiyyətsiz şeylərə sevinməyə görə deyil. Bu gün əsl bayramdır, amma Allaha özlərini bağışlada bilən kəslər üçün! Əmirəl-möminin başqa bir cümlədə belə buyurub: "O, Allahın oruc və ibadətlərini qəbul etdiyi şəxs üçün bayramdır".[2] "Allaha günah edilməyən hər bir gün bayramdır".

Əlbəttə, bizə bir-birimizi fitr bayramı münasibəti ilə təbrik etmək, təzə paltarlar geyinmək, həmin günü sevinc və şadlıq günü saymaq tövsiyə edilib. Amma bu bayramın cövhəri diqqətin mənəviyyata yönəldilməsindən, Allahdan rəhmət və bağışlanma diləməkdən ibarətdir.

Əziz qardaşlar və bacılar! Siz – oruc tutmaq vacib olan şəxslər – möminlər bir ay oruc tutmaqla, ibadət və dua etməklə, Allaha üz tutmaqla, gecələri oyaq qalıb raz-niyazla keçirməklə, Quran oxumaqla, zikrlərinizlə qəlblərinizi Allaha yaxınlaşdırmaq fürsəti əldə etdiniz. Bu fürsəti qənimət bilin, bu qazancı böyük sayın və qoruyub saxlayın. İran xalqı mömindir, gənclərimizin qəlbi pak və işıqlıdır. Ölkənin hər yerində kişi və qadınlar Allah-taala

1. Mənaqibu Ali Əbi Talib, c. 2, səh. 99
2. Nəhcül-bəlağə, səh. 551

ilə səmimi əlaqə qururlar. Bu bizim xalq üçün Allahın rəhmətini özünə cəlb etmək istiqamətində böyük fürsətdir.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*4.XI.2005*

# Fitr bayramı müsəlmanın ruh və qəlbinin paklıq rəmzidir

Fitr bayramı müsəlmanlar üçün böyük gündür. Bu günün əzəməti şərti deyil, həqiqidir. Fitr bayramı günü Allahın bəndələrinin mübarək ramazan ayındakı səy və ibadətlərinə görə mükafatlarını aldıqları gündür. O, ilahi ziyafət sayəsində müsəlmanın ruh və qəlbinin paklaşmasının rəmzidir. Bu günü qənimət bilmək lazımdır. Çünki o, İslam dünyasının ortaq günlərindəndir. Gəlin ondan müsəlman xalqlar arasında vəhdət və birliyin yaradılması istiqamətində istifadə edək. Bu gün müsəlman xalqların bu vəhdətə çox ehtiyacı var.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*4.XI.2005*

# Qurani-kərimlə ünsiyyətdə olmağın faydaları

Əgər Allahın köməyi ilə yaşadığımız cəmiyyətdə Quran oxumaq kütləvi hal alsa və hamı Quranı düzgün oxumağı öyrənsə, bütün evlərə Quran oxumaq ab-havası hakim olsa, bu ölkədə sözün həqiqi mənasında Quran və İslam cəmiyyətinin qurulmasına ümidimiz daha da artar. Bu gün biz İslam hökuməti və İslam cəmiyyəti qurmuşuq. Amma bu hələ ilk addımdır. Bu gün ölkəmizdə, hökumətimizdə, dövlət məmurlarımızın söz və əməlində müşahidə etdiyimiz İslam İslamın minimum həddidir. Bu hər hansı bir İslam cəmiyyətinin ehtiyaclarından azdır. Bu günə kimi İslam Respublikasına nazil olan bərəkətlər İslama həmin minimum həddə əməl etmək sayəsindədir. İran xalqı bu ölkədə imperializm bütünü sındırdı. Onlar böyük cürət və şücaət nümayiş etdirdilər. İran xalqı dünyada heç kəsə onlarla yuxarıdan aşağı danışmaq icazəsi vermir, heç kəsin haqsız və zorakı sözünə tabe olmur. Bu gün bizim gənclərimiz elm meydanlarında öndə gedirlər və

onların uğurları gündən-günə artmaqdadır. Həmçinin ölkəmizdə ədalətin icra olunması nişanələri mövcuddur. Əlbəttə, mən ədalətin icra olunması nişanələri deyirəm və bizim ədaləti tam icra etməyimizə hələ çox var. Siz bütün bunların şahidisiniz. Əgər siz yaşadığımız cəmiyyətdə və ölkəmizdə İslamın yaxşı hesab etdiyinin yaxşı, pis hesab etdiyinin pis olduğunu görürsünüzsə, bunların hamısı İslamın cəmiyyətimizdə olan minimum həddindən qaynaqlanır. Biz islami agahlıq, ruhiyyə və iradəmizi nə qədər çox gücləndirsək, bu nailiyyətlər gündən-günə daha da artacaq, başqa ölkələr üçün örnəyə çevriləcək.

Bu gün, xoşbəxtlikdən, müsəlman xalqlar islami izzət hiss edirlər. Bu, çox mühüm məsələdir. Əziz gənclər! Bir vaxtlar İslam dünyasında – həm bu ölkədə, həm də başqa ölkələrdə müsəlman gənclər müsəlman olduqlarına görə nəinki öyünmür, fəxr etmir, əksinə, utanırdılar. Onlar "bismillah" deməyə, başqalarının yanında namaz qılmağa utanırdılar. Bəli, bir vaxtlar vəziyyət belə idi. Həmin dövrdə gənclərin iftixar yeri qərb və ya şərq düşüncələrinə – marksist təfəkkürünə – tabe olmaq idi. Amma bu gün dövran dəyişib. Şərq düşərgəsi məğlub olub, qərb də gündən-günə tənəzzül istiqamətində hərəkət edir, abır və heysiyyətini daha çox itirir. Bu gün demokratiya, insan hüququ və azadlıq iddiaçıları özlərini dünyada rüsvay ediblər. İslam isə gündən-günə daha çox parlayır, İslam günəşi günbəgün daha çox yüksəkliklərə qalxır. Bu gün müsəlman xalqlar İslamla öyünür, fəxr edirlər. Vəziyyət bütün müsəlman ölkələrində, Afrikanın şimalından Asiyanın şərqinə kimi hər yerdə belədir. Müsəlmanlar, müsəlman gənclər olan hər yerdə – İndoneziya, Malayziya, Hindistan, Pakistan, Banqladeş, bizdən şərqdə

yerləşən ölkələrdən tutmuş orta şərqə kimi, həmçinin ərəb ölkələrində, Türkiyədən tutmuş ərəb və qeyri-ərəb olmasından asılı olmayaraq, Afrika ölkələrinə kimi bütün ölkələrdə – İslamla öyünürlər.

Bu izzət hissi onlara qələbə nəsib edir. Heç bir siyasi, hərbi və iqtisadi imkana malik olmayan Hizbullah gəncləri dünyanın tam təchizatlı ordusuna malik və beynəlxalq güc mərkəzləri tərəfindən himayə edilən ordusuna necə qalib gəldi? Çünki onlar İslam sayəsində özlərinə inanırdılar. Biz İslama əməl edilməsi deyəndə Quranın vədlərinə inanmağı nəzərdə tuturuq. Əgər Quran *"Allah Ona yardım edənlərə yardım edər. Allah qüvvətlidir, məğlubedilməzdir"*[1] buyurursa, buna inanmaq lazımdır. Əgər siz Allaha kömək etsəniz, Allah da sizə kömək edər. *"Allah Öz işində qalibdir"*.[2] Buna inanmaq lazımdır. Quran bəsirəti bizə belə bir inam bəxş edir. Bu inam xalqların oyanışı, təcavüzkar qüvvələrin gündən-günə zəifləməsi, imperialist qüvvələrin müsəlmanlara qarşı hazırladığı planların pozulması ilə nəticələnir.

Buna görə də gəlin Quranla ünsiyyətdə olaq, ona inanaq, ayələrinin mənasını başa düşək. Xoşbəxtlikdən, ölkəmizdə Quran barəsində böyük işlər görülüb və görülür. Amma bu işləri dayandırmaq olmaz. Quranla ünsiyyətdə olan və öyünən siz gənclərə bu bərəkətli yolu davam etdirməyinizi tövsiyə edirəm. İnşallah, həm özünüz, həm xalqınız, həm də ölkəniz onun bərəkətini gündən-günə daha çox hiss edəcək.

*XXIII Beynəlxalq Quran müsabiqəsində iştirak edən qarilərlə görüşdəki çıxışdan*
*26.IX.2006*



1. Həcc, 40
2. Yusuf, 21

# Ramazan ayının digər aylardan üstün olmasının səbəbləri

Allahın köməyi olmadan heç bir fərd və xalq səadət əldə edə bilməz. Amma Allahın köməyinin də bir sıra şərtləri var. Duaların birində belə deyirik: "Allahım, Səndən rəhmətini nazil edən şeyləri istəyirəm".[1] Allahın rəhmətinin nazil olmasına səbəb olan ən yaxşı amillərdən biri ölkənin məsul şəxslərinin, müxtəlif sahələrin rəhbərlərinin Allah və xalq qarşısında məsuliyyət hiss etməsidir. Bu hiss nə qədər güclü olsa və çalışqanlıqla nəticələnsə, şübhəsiz, Allahın rəhməti bizə daha çox şamil olacaq. Gərək iş görək və onu Allaha yaxınlaşmaq niyyəti ilə edək. Niyyətimiz Allah olsa, O bizə, mütləq, yardım edəcək, mərhəmət göstərəcək. Ramazan ayı çox münasib fürsətdir. *"...ki, təqvalı olasınız"*. Ümumiyyətlə, Allah-taala orucu buna görə vacib edib. Bu ayın ən əsas əməllərindən olan orucun vacib edilmə səbəblərindən biri təqva əldə etməkdir. Bu ayda gündəlik

1. Misbahul-mütəhəccid, c. 1, səh. 61

namazlardan sonra bu duanı oxuyuruq: "Və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələşşuhur. (Bu Ramazan ayı Sənin bütün aylardan böyük və dəyərli, şərəfli və üstün etdiyin bir aydır...)"[1] Allah-taala bu ayı digər aylardan üstün edib. Bu ayı üstün edən cəhətlərdən biri oruc, biri Quranın nazil olması, biri də qədr gecələridir. Bunlar sözügedən ayda bu ayın əsas əlamətləri kimi qeyd edilib. Bu ay inkişaf üçün münasib şəraiti olan zaman kəsiyi – bahar fəsli kimidir. Təbiət aləmində ilin fəsillərinin hər birinin öz təbii xüsusiyyəti var. İlin fəsilləri kimi gün, gecə, həftə və ayların da insanın mənəvi inkişafı və yüksəlişi üçün özünəməxsus xüsusiyyəti var. Cümə axşamının bir, cümə gününün başqa bir xüsusiyyəti var. Həmin saatlara təəccüb etmək lazım deyil. Onların maddi təbiət aləmində bir xüsusiyyəti olduğu kimi, mənəvi təbiət aləmində, insanların ruhunda, yüksəlişində, əməllərinin qəbul edilməsində, ibadətlərinin təsirində də bir xüsusiyyəti var. Öncə də qeyd etdiyim kimi, cümə günü, şaban ayının 15-ci günü kimi günlər müqəddəs şəriət tərəfindən xüsusi günlər kimi qeyd edilib. *"Bir neçə müəyyən gün!"*[2] Ramazan ayı, zilhiccə ayı və ya başqa vaxtlar barədə bu cür ifadələr var. Həmin günlər təsadüf nəticəsində seçilməyib. Yəni ramazan ayı öz təbiət və təsiri baxımından rəcəb və ya zilqədə ayı ilə eyni deyil. Onun fəsillərdə olduğu kimi özünəməxsus xüsusiyyəti var. Bundan istifadə edin.

Hədislərin birində deyilir ki, həzrət Peyğəmbər ramazan ayı astanasında üzünü camaata tutaraq belə buyurub: "Allah bütün eyib və nöqsanlardan pak və uzaqdır! (Heç bilirsiniz)



1. İqbalul-əmal, c. 1, səh. 24
2. Bəqərə, 184

siz nəyin pişvazına gedirsiniz və nə sizin pişvazınıza gəlir?!”[1] Bu ifadə ramazan ayının əzəmətini bəyan edir. Həzrət Peyğəmbərin həqiqət və batini görən gözləri ramazan ayının bərəkətlərini görür. Oruc bir fürsətdir, eşitdiyiniz və bildiyiniz təsir və bərəkətlərə malik bir fürsət!

## Həzrət Əlinin kəlamında orucun növləri

Əmirəl-mömənindən bir hədis nəql edilib və onda oruc iki növə bölünüb: cismin orucu və ruhun orucu. O həzrət cismin orucu barədə belə buyurur: “Cismin orucu insanın öz ixtiyarı ilə ilahi cəza qorxusundan və ilahi savab və qarşılıq ümidi ilə yeməkdən imtina etməsidir. Ruhun orucu isə beş duyğu orqanını digər günahlardan qorumaq, qəlbin bütün şər amillərindən təmizlənməsidir”.[2] Bu, ruhun orucudur. Bəs şər amilləri hansılardır? Beş duyğu orqanının, məsələn, əl, göz və dilin günahdan qorunması niyyəti günahdan çəkinmək olan şəxs üçün elə də çətin deyil. Amma qəlbin şər amillərindən təmizlənməsi çox çətindir. O, daha çətindir və onun gerçəkləşməsi üçün məşq etmək, çox çalışmaq lazımdır. Əziz dostlar! Dini mətnlərdə olan bu xitablar bizə ünvanlanıb. Əsl çalışmalı olan şəxs bizlərik. Həqiqətən, bizim etdiyimiz günahla cəmiyyətdə heç bir məsuliyyəti olmayan adi şəxsin etdiyi günah arasında fərq var. Həm qəlb günahları, həm də şəxsi günahlarımız barədə çox diqqətli olmalıyıq. Şər amili olan günahlara misal olaraq paxıllıq və hərisliyi – həm dünya hərisliyini, həm mal toplamaq hərisliyini, həm də tamahkarlığı – bədxahlıq və başqalarının pisliyini istəməyi, başqalarına qarşı bədgüman

1. Müstədrəkül-vəsail, c. 7, səh. 425
2. Təsnifu ğürəril-hikəmi və dürəril-hikəm, səh. 176

olmağı, lovğalıq və təkəbbürü, özünü üstün saymağı, başqalarına yuxarıdan aşağı baxmağı, insanları təhqir etməyi, alçaltmağı göstərmək olar. Dünyada yaranan şərlər bunlardan yaranır. Təkəbbür, məğrurluq, hərislik, paxıllıq, xəsislik və şəhvətpərəstlik insanları bir sıra işlərə sövq edir. İnsan işin əvvəlində onun təsirini elə də hiss etmir. Amma yavaş-yavaş qabağa getdikcə o, insani və tarixi faciəyə çevrilir. Biz böyük tarixi faciələrə diqqət edəndə və həmin fəsadların kökünə baxanda hər hansı bir şəxsdə belə bir xüsusiyyətin olduğunu görürük. Hər hansı bir insanın və ya toplunun tamahkarlığı, hərisliyi və şəhvəti belə böyük faciələrin yaranmasına səbəb olur. Riyakarlıq, başısoyuqluq və saymazlıq da şər amillərindəndir. İnsan qəlbini bu kimi xüsusiyyətlərdən təmizləməlidir.

Ramazan ayı bizim bu kimi şeyləri məşq etmək ayımızdır. Biz gərək bu yolda hərəkət edək, addımlayaq. Bu, məsul şəxslərin boynuna düşən ağır vəzifədir. Əlbəttə, o, ağır olmaqla yanaşı, həm də şərəfli işdir. İslam Respublikası peyğəmbərlərin tarix boyu gətirdiyi və bəşəriyyətə təqdim etdiyi təlimlərlə insanların xoşbəxtliyini təmin etmək istəyir. İslam Respublikası peyğəmbərlərin dünyanın batil qüvvələri qarşısındakı ismarıclarını əməli şəkildə təsdiqləyir. Batil qüvvələr bu gün də mövcuddurlar və bu, onlara ağır gəlir və onunla mübarizə aparırlar. Bu qarşıdurma və mübarizədə qalib gəlməyin yeganə yolu iman, özünə, öz yoluna inamla müşayiət edilən müqavimətdir. Getdiyimiz yola imanımız olmalıdır. *"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirdi. Möminlər də hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər".*[1] Yəni bu yola imanı olan möminlər əl-ələ verib müqavimət göstərməlidirlər. İnkişaf

1. Bəqərə, 285

və qələbənin yolu budur. Əgər onlar bu işi görsələr, mütləq, qalib gələcəklər. Biz bu 27 ildə bunu təcrübədən keçirmişik və müxtəlif meydanlarda, öz sözümüzə inamımız olanda, öz sözümüzün üstündə dayanıb irəliləyəndə bunun şahidi olmuşuq. Biz müqəddəs müdafiə illərində də bunu təcrübədən keçirmişik; müqəddəs quruluşumuzun əsasını qoruyanda da, ölkəmizin müxtəlif sahələrdəki günbəgün, saatbasaat baş verən inkişafında da bunun şahidi olmuşuq. Əgər biz bu gün ölkəmizin inkişaf indekslərini inqilabın əvvəli ilə müqayisə etsək, onların bir-biri ilə müqayisə edilməyəcək qədər fərqli olduğunu görərik. Həmin vaxt mövcud problemləri nəzərə alanda bu qədər inkişafa nail olacağımızı heç ehtimal da vermək olmazdı. Amma biz Allahın köməyi ilə bu mərhələyə gəlib çatdıq. Bu, inamla birlikdə müqavimət göstərməyin nəticəsidir. İnkişafın yeganə yolu budur. Əgər məsul şəxslər məsuliyyətsizlik etsələr, o, şəxsi təsirdən əlavə, xalqa da ziyan vuran günah olar.

Məsul şəxslərin adi insanlarda olmayan özünəməxsus günahları var. Onlardan biri həmin bu – səhlənkarlıq, yəni görülməli işi görməməkdir. Digər bir günah hamının şərik olduğu mala əl uzatmaqdır. Bu bizə məxsus günahdır. Yəni bu günaha biz məsul şəxslər bulaşa bilərik. Adi insanların belə bir günah etmək imkanı yoxdur. Bu günahın mənfi təsiri hər hansı bir adi şəxsin etdiyi günahdan qat-qat çoxdur. Sözügedən günahlardan biri də insanlarda ümidsizlik yaratmaqla ölkənin ümumi inkişafını ləngitməkdir. Yəni insanlarda, aktiv qüvvələrdə məyusluq yaratmaq, şövqlü və ümidli şəxslərin gözündə gələcəyi qaranlıq göstərmək də günahdır. Bu, insanların hərəkətini ləngidir və böyük günahlardandır. Ölkənin

inkişafının qarşısını alan şeylərdən biri də təfriqə, ixtilaf və qarşıdurma yaratmaqdır. İxtilaf yaratmq və ya ixtilafları gücləndirmək bizim təbəqəyə, məsul şəxslərə, siyasətçilərə məxsus günahlardandır. İqtisadi korrupsiya – istər onda əli olmaq, istər ona göz yummaq – da ölkənin ümumi inkişafını ləngidən faktorlardandır. İqtisadi korrupsiya iki cəhətdən inkişafa mane olur. O bir tərəfdən fəsadla nəticələnir və ölkənin ümumi maliyyə sistemində problemlərin yaranması ilə nəticələnir, digər tərəfdən insanların zehnində fəsada səbəb olur və onlarda ümidsizlik yaradır. Buna görə də Allah eləməmiş, istər bu fəsadda iştirak etmək, istər onu görüb göz yummaq, istərsə də danışıq tərzi ilə, ya insanları fəsada ürəkləndirən ifadələrlə onları fəsada – istər maliyyə məsələləri barəsində fəsad olsun, istər cinsi məsələlər barəsində, istərsə də başqa sahədə – sövq etmək ölkənin inkişafını ləngitməkdir. Bu bizim düçar ola biləcəyimiz günahlardandır.

## Təqva özünənəzarətdir

Biz gərək diqqətli olaq, yəni təqvalı olaq. Mən dəfələrlə qeyd etmişəm, təqvanın mənası insanın özünə nəzarət etməsidir. Təqvanın mənası sizin özünüzə nəzarət etməyiniz, səhvə yol verməmək üçün özünüzü diqqətlə nəzarətdə saxlamağınızdır. Biz çox vaxt başqalarının səhvlərini görürük, diqqətlə onların əməllərinə baxırıq ki, görək harasında səhv və ya səhvə bənzər bir şey – zehnimizdə səhv hesab edə biləcəyimiz bir şey – tapırıq. Amma öz səhvlərimizi görmürük. Bu, yaxşı hal deyil. Biz adi fərd, məsul şəxs və ya müdir olmağımızdan asılı olmayaraq, öz səhvlərimizə baxmalıyıq. Əlbəttə, bu, çətin işdir. İnsanın öz

səhvini təsdiqləməsi, öz səhvini tapması, özünü qınaması asan iş deyil. Amma biz bu çətin işi görməliyik. Allah-taala Qiyamətdə, o çətin məhkəmədə bizim yaxamızdan yapışacaq və bizi sorğu-suala tutacaq. Əgər indi bu barədə fikirləşməsək, orada cavab verə bilməyəcəyik.

Məsum imamlardan bu gün və gecələrdə oxumaq üçün nəql edilən dua və kəlamlar bizə Allahla necə əlaqə yaratmağın yolunu öyrədir. Onlar bizə özümüzə necə təsir etməyi, özümüzü necə islah etməyi öyrədir. "Əbu Həmzə" duasında belə oxuyuruq: "İlahi, əlimdə dəlilin olmayacağı, Sənə cavab verməkdə dilimin tutulacağı, Sən sual soruşanda zehnimin qarışacağı vaxt mənə rəhm et".[1] Allah bizdən "bu işi nə üçün gördün? Filan işi nə üçün görmədin?" deyə soruşacaq. Bu sualları bizdən burada soruşsalar, dalbadal dəlil gətirərik. Amma orada əlimizdə dəlil olmayacaq. Çünki həqiqətlər aydındır. Orada daha nəyisə gizlətmək mümkün deyil. İlahi, həmin vaxt bizə rəhm et! Orada Allahın sualları qarşısında insanın dili tutulacaq, zehni qarışacaq. İndi həmin vaxtı fikirləşmək lazımdır. Bu gün bizim belə bir fürsətimiz var. Onun yolu diqqətli olmaq, özümüzə nəzarət etməkdir. Bu nəzarət və diqqət bu ayda qazanılır. Bu ayda belə bir nəzarətə nail olmaq mümkündür. Bizim əsas sözümüz budur. Əlbəttə, mənim bu tövsiyələrim hamıdan qabaq özümə aiddir. Çünki mənim özümə nəzarət etməyə sizin hamınızdan daha çox ehtiyacım var. Buna görə də onları deyirik ki, Allahın köməyi ilə həm özümüzə təsir etsin, həm də sizlərə.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*10.X.2006*

1. İqbalul-əmal, c. 1, səh. 73

# Dua neməti və onun insanın həyatına təsiri

Bu ayın orucunun, ibadətlərinin, qədr gecəsinin əməllərinin, oxunan Quranın ən mühüm təsirlərindən biri qəlbimizin təqvalı olmasıdır.

Bu xütbədə bir az dua barəsində danışacağam. Ramazan ayının ümumilikdə dua ayı olmasından əlavə, qədr gecələri də dua gecələridir. Gərək bu fürsətdən istifadə edək.

Dua barəsində demək istədiklərimizin xülasəsi budur ki, dua Allah qarşısında bəndəliyin təzahürü, insanda bəndəlik ruhunun gücləndirilməsi amilidir. Əvvəldən axıra kimi bütün peyğəmbərlərin tərbiyə metodu və səylərinin əsas məqsədi bu bəndəlik ruhunun, Allah qarşısında bəndəlik hissinin yaradılması olub. Onlar insanda bəndəlik ruhunu dirçəltmək istəyiblər. Bütün insani fəzilətlərin və insanın görə biləcəyi bütün xeyir işlərin kökü – istər ictimai olsun, istər fərdi – Allah qarşısında bəndəlik hissidir. Bəndəlik hissinin əksi xudbinlik, eqoistlikdir. İnsanda olan bütün əxlaqi

çatışmazlıqların kökü eqoistlikdir. Oxuduğunuz, eşitdiyiniz və bu gün gördüyünüz bütün müharibələrin, dünyada baş verən bütün qırğınların, baş verən zülmlərin, tarix boyu baş vermiş bütün faciələrin kökü eqoistlik və xudbinlikdir. İnsanlarda olan bu xüsusiyyət onların həyatında bu fəsadlarla nəticələnir. Bəndəlik eqoistlik əksidir. Əgər bu eqoistlik Allah qarşısında olsa, yəni insan özünü Allaha qarşı qoysa, insanın tüğyan etməsi, həddini aşması ilə nəticələnər. Ərəb dilində "tüğyan" sözü ilə eyni kökdən olan "tağut" sözü təkcə şahlara aid deyil. Allah eləməmiş, bizim hər birimizin içində bir tağut və bir büt ola bilər. Allah qarşısında itaətsizlik və eqoistlik etməyin nəticəsi insanda tüğyanın artmasıdır. Eqoistlik digər insanların qarşısında olanda isə başqalarının hüquqlarını pozmaqla nəticələnir. Əgər bu eqoistlik təbiət qarşısında olsa, təbiətə ziyan vurmaqla nəticələnir. Bu gün dünyada diqqət mərkəzində olan təqdirəlayiq məsələlərdən biri ətraf mühitin qorunması məsələsidir. İnsanın ətraf mühitin qorunmasına laqeydlik göstərməsi onun təbiət qarşısında tüğyan, xudbinlik və eqoistliyinin nəticəsidir.

Dua bunların hamısı ilə mübarizə aparır. Biz dua edəndə özümüzdə belə bir mütilik yaradır, içimizdə olan xudbinlik və eqoistliyi məhv edirik. Nəticədə varlıq aləmi və insanların yaşadığı mühit tüğyan, başqalarının hüquqlarının pozulması və təbiətə ziyan vurulması kimi işlərdən amanda qalır. Buna görə də hədislərdə deyilir ki, "dua ibadətin məğzidir".[1] İbadətlər insanı Allah qarşısında müti və təslim etmək üçündür. Allah qarşısındakı bu itaətkarlıq və mütilik insanların bir-birinin qarşısında göstərdiyi təvazökarlıq və mütilik kimi deyil. O, mütləq

1. Vəsailuş-şiə, c. 7, səh. 27

xeyir, mütləq gözəllik və mütləq fəzilət qarşısında mütilikdir.

Buna görə də duanın özü və dua etmək fürsəti ilahi nemətdir. Əmirəl-mömininin İmam Həsən Müctəbaya vəsiyyətində bu məna qeyd edilib: “Bil! Dünya və axirətin xəzinələri əlində olan kəs sənə dua etmək icazəsi verib və onu qəbul etməyi Öz öhdəsinə götürüb”.[1] Göyün və yerin qüdrəti əlində olan Allah sənə dua etmək, Onunla danışmaq və Ondan istəmək icazəsi verib. “İstədiyini vermək üçün sənə Ondan istəməyi əmr edib”. Allahdan istəmək və Onun əta etməsi insanın ruhunun yüksəlməsinə, bəndəlik ruhunun güclənməsinə səbəb olur. “O, rəhmlidir, bağışlayandır; səninlaə Özü arasında səni Ondan ayıracaq bir kimsə qoymayıb”. Allahla nə vaxt danışsanız və ehtiyaclarınızı Ona desəniz, O sizin səsinizi və ehtiyaclarınızı eşidər. Allahla hər zaman danışmaq, ünsiyyətdə olmaq, hacət istəmək mümkündür. Bu, insan üçün böyük fürsət və nemətdir.

Duanın mühüm xüsusiyyətlərindən biri – mən bu barədə əvvəllər bir az danışmışam – Allahla ünsiyyətdə olmaq, Onun qarşısında bəndəlik hissi etməkdir. Bu, duanın ən mühüm xüsusiyyətdir. Bu olsa, Allah-taala onu qəbul edər. Əlbəttə, Allahın duanı qəbul etməsinin Allah tərəfindən heç bir qeyd-şərti yoxdur. Sadəcə biz öz əməllərimizlə onun qəbul edilməsinə mane, ona laqeyd yanaşılmasına səbəb oluruq. Duanın xüsusiyyətlərindən biri budur.



1. Biharul-ənvar, c. 74, səh. 204

## Gənclərə tövsiyə

Məsum imamlardan nəql edilmiş duaların bərəkətlərindən biri onların ilahi təlimlərlə dolu olmasıdır. "Səhifeyi-Səccadiyyə", "Kümeyl" duası, "Şabaniyyə" minacatı, "Əbu Həmzə Sumali" duası, həmçinin digər dualar ilahi təlimlərlə doludur. Əgər kimsə onları oxusa və başa düşsə, Allahla batini əlaqəsinin yaranmasından əlavə, onlardan xeyli elm də öyrənir.

Mən təkidlə gənclərə bu duaların tərcüməsini oxumağı tövsiyə edirəm. Ərəfə, Əbu Həmzə kimi dualar ilahi təlimlərlə doludur. Kümeyl duasında oxuyuruq: "Allahım, duanı həbs edən günahlarımı bağışla; Allahım bəlaların – yaxud əzabların – nazil olmasına səbəb olan günahlarımı bağışla".[1] Bunların hamısı ilahi təlimlərdir. Yəni biz insanlar bəzən dualarımızın qəbul olmasına mane olan günah və səhvlər edirik. Həmçinin biz bəzən bizə bəla nazil olması ilə nəticələnən günahlar edirik. Bəzən günah ümumi və kütləvi bəlaların nazil olmasına səbəb olur. Əlbəttə, bəla gələndə onun nəyə görə nazil olması elan edilmir. Amma ağıllı adamlar həmin bəlanın bu xalqa nazil olmasının səbəbinin nə olduğunu başa düşürlər. Əməlin təsiri özünü bəzən dərhal, bəzən müəyyən bir müddətə göstərir. Bunları bizə dualar deyir. Yaxud "Əbu Həmzə" duasında belə oxuyuruq: "İlahi, elmim Sənə tərəf bələdçim, Sənə olan sevgim dərgahında şəfaətçimdir".[2] Yəni mənim Səni tanımağım məni Sənə tərəf istiqamətləndirən bələdçimdir. Həmçinin Sənə olan sevgim, qəlbimdə olan məhəbbət Sənin dərgahında mənim şəfaətçimdir. "Mən bələdçimin məni Sənə çatdıracağından əminəm və şəfaətçimin Sənin

1. Misbahul-mütəhəccid, c. 2, səh. 844
2. İqbalul-əmal, c. 1, səh. 68

dərgahında şəfaət edəcəyindən xatircəməm".[1] Mən bu bələdçiyə və məni Sənə tərəf istiqamətləndirən elmimə, Sənə olan sevgimə baxanda görürəm ki, bu yönləndirmə və sevgini yaradan Sən Özünsən. Sən Özün kömək edirsən. Bu, insanın gözünün açılmasına, onda agahlığın yaranmasına səbəb olur. Bunlar ilahi təlimlər, Allahın yardımı, nəsib etdiyi uğur və göstərdiyi iltifatdır. Bunları ancaq dualarda tapmaq mümkündür. Buna görə də duaların qədrini bilin.

Dua Allahı çağırmaqdır. Onu hər dildə etmək olar. Allahla istədiyiniz sözləri danışmaq duadır. İstədiyiniz şeyi Ona deyin. Dua heç də həmişə hansısa hacətin istənilməsindən ibarət deyil. Bəzən o, ancaq Allahla ünsiyyətdən ibarət olur. İstəklərin özü də müxtəlifdir. Bəzən insan Allahdan Onun razılığını istəyir, bəzən bağışlanma diləyir. Bu, istəyin bir növüdür. Bəzən də insan Allahdan maddi şeylər istəyir. Bunda da bir problem yoxdur. Allahdan istənilən dildə, istənilən şeyi istəmək yaxşı şeydir və o, qeyd edilən xüsusiyyətə malikdir (Allahla əlaqə və bəndəlik hissinin yaranmasına səbəb olur). Əlbəttə, məsum imamlardan nəql edilmiş dualar məzmun baxımından ən gözəl məzmuna, söz baxımından ən gözəl ifadələrə malikdirlər. Onlar ilahi təlimlərlə doludur. Onların qədrini bilmək və onlardan Allaha yaxınlaşmaq üçün vasitə kimi istifadə etmək lazımdır.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*13.X.2006*



1. İqbalul-əmal, c. 1, səh. 68

# Vacib namazlarla ramazan ayının bərəkətinin qorunması

Mömin insanların saflıq, ixlas və mənəviyyat ayı olan ramazan ayı sona çatdı. İran xalqı bu ayda həm mənəviyyat, həm də siyasət sahəsində böyük əzmkarlıq nümayiş etdirdi. Belə ki, onların ramazan ayının son cümə günü ölkənin bütün şəhərlərində səs-səsə verib fəryad qopararaq məzlum Fələstin xalqını dəstəkləməsi siyasi arenadakı fəaliyyətə aiddir. Allaha şükür olsun ki, bu il İslam dünyasının çox yerində bu diqqət, şövq, şüur və məsuliyyətin şahidi olduq.

Məsələnin mənəvi cəhətinə gəldikdə, bu il əziz xalqımız ölkənin hər yerində çox saf və səmimi ramazan keçirdi. Namaz, Quran, dua, minacat, əhya və qədr gecələrinin məclisləri çox izdihamlı keçirildi. Ölkənin hər yerində – bütün şəhərlərdə, kəndlərdə əziz xalqımız, xüsusilə gənclər həmin gecələrdə öz qəlb və ruhlarını tövbə suyu ilə yudu. Mənə çox etibarlı mənbələrdən məlumatlar verilir. Həmin məlumatlardan belə məlum olur ki,

Tehranın və digər şəhərlərin məcsidlərində, ölkənin digər ibadət mərkəzlərində fərqli düşüncələrə malik gənclər, zahiri görünüş, fərqli geyim-keçim və fərqli baxış sahibi olmalarına baxmayaraq, qəlblərini götürüb məscidə gedərək Allahla raz-niyaz ediblər. Gənclərdə olan bu saflıq, nuranilik və Allaha yaxınlaşmaq istəyi Allahın böyük nemətlərindəndir. Allaha şükür ki, belə bir nemət mövcuddur və o, gündən-günə daha da artır. Bərəkətli ramazan ayının son günlərində ölkənin bəzi məscidlərində minlərlə adam etikaf edib. Onlar gecə-gündüz zikr edib, ibadətlə məşğul olur, minlərlə Quran xətm edirlər. Bu mənəvi təmizlik və paklıq, gənclərin qəlbinin təmizliyi barədə iki məsələni qeyd etmək istəyirəm:

Birinci məsələ bütün xalqa, xüsusilə əziz gənclərə aiddir. Əzizlərim, bu bərəkətli gün və nurlu gecələr sayəsində Allah-taala ilə qurulmuş bu əlaqəni kəsməyin. Allahla olan əlaqələrinizi qoruyub saxlayın. Onu hamı qoruya bilər. Əgər gündəlik vacib namazları diqqətlə, özünü Allahın hüzurunda hiss edərək və Allah qarşısında dayandığımızı dərk edərək qılsaq, o ən gözəl əlaqədir və qəlbinizin nurunu gündən-günə daha da artıracaq. Qədr gecələrində məscid, hüseyniyyə və ziyarətgahlara toplaşan, göz yaşı tökən, dua oxuyan, başına Quran qoyan, əhya keçirən və qəlbini ilahi məhəbbət nuru ilə dolduran gənclər bu əlaqəni qoruyub saxlasınlar. Onlar ondan bəhrələnəcəklər. İnşallah, bu əlaqə qarşıdakı illərdə, vaxt keçdikcə daha da çoxalacaq. İnsan lazımi kamilliyə və yaradılışın məqsədinə bu yolla çata bilər. Həyatın bütün sahələrində uğur qazanmaq da ondan asılıdır.

İkinci məsələ budur ki, diqqət Allaha yönəldiləndə, minacat, raz-niyazlarda, Allahdan olan diləklərdə hər

cür hacət istənilə bilər, istənilməlidir də! O, hətta kiçik istəklərə də aiddir. Öz hacətlərinizi kiçik istəklərlə məhdudlaşdırmayın. Daha böyük hacətlər var, onları unutmayın. Onların ən böyüyü ilahi bağışlanmadır. Allahdan günah və pis işlərin bizim qəlbimizdə buraxdığı izləri təmizləməsini, rahat tövbə etməyinizə şərait yaratmasını istəyin. Böyük istəklərdən biri də Allah eşqidir. Allahdan sizə ilahi sevgi məqamını nəsib etməsini diləyin. Böyük istəklərdən biri də İslam ümmətinin işlərinin islah olmasıdır. Allah-taaladan təkcə İran xalqı deyil, bütün müsəlmanların, bütün müsəlman ölkələrin işlərini düzəltməsini istəyin. Allahdan bəşəriyyəti doğru yola istiqamətləndirməsini diləyin. Bu duaların qəbul edilmə ehtimalı çoxdur. Onlar böyük təsirə malikdirlər. Bu dualar yolun açılmasına, vasitələrin asanlaşmasına səbəb olur və bizə bu istəklərə çatmaqda kömək edir.

Allahdan sizin hamınıza uğur nəsib etməsini və bu ayın bərəkətini qoruya bilməyinizi istəyirik.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*24.X.2006*

# Quran barəsində boynumuza düşən üç vəzifə

Siz gənc müsəlmanlar, kişi və qadınlar, həmçinin uşaqlar müsəlman olaraq Quranla ünsiyyətdə olmalısınız. Quranı sanki Allahın qarşısında dayanmış və həmin sözlər sanki, həqiqətən, birbaşa sizə ünvanlanmış kimi oxuyun. Oxuyun və onun barəsində dərindən düşünün, ondan öyrənin. Ondan sonrakı mərhələ əməl mərhələsidir. Amma mən hələ əməldən qabaqkı mərhələ barədə danışıram. Quranı öyrənmək, onda olan təlimləri başa düşmək, onun ayə və sözlərinin mənası barədə dərindən düşünmək lazımdır.

Sizin gördüyünüz bu sözlər Allah-taalanın ilahi vəhyin son mənəvi xəzinəsi olaraq bəşəriyyətə əta etdiyi nemətlərdir. O, bəşəriyyəti bu dünyanın sonuna kimi xoşbəxtlik və qurtuluş yoluna istiqamətləndirməlidir. O, ilahi təlimlərlə zəngindir. Buna görə də onu başa düşmək lazımdır.

Təəssüf ki, bizim dil problemimiz var. Bu, bütün qeyri-ərəb xalqların problemidir. Qari Quran oxuyanda ərəblər

onu tam olmasa da, qismən başa düşürlər. Onların tam başa düşməməsinin səbəbi Quranın bəyan tərzinin olduqca fəsahətli, bəlağətli və dolğun olmasıdır. Buna görə də onun tam mənasını bütün xırdalıqları ilə hər kəs başa düşmür. O, eyni tərəziyə qoyulmasa da, bir baxımdan Sədinin "Gülüstan" əsəri kimidir. Əslində, Sədinin "Gülüstan"ı bəlağətli fars dilindədir. Onu bir məclisdə oxuyanda camaat müəyyən şeyləri başa düşür, amma onun mənasını tam dəqiqliyi ilə ancaq ədiblər, yüksək ədəbi məlumat və zövqə malik şəxslər başa düşür. İndi bunun min qat artığını təsəvvür edin. Quran belədir. Ola bilər, sıravi ərəb dinləyici onun bütün xırdalıqlarını başa düşməsin, amma ümumilikdə sözlərin mənasını başa düşür və qəlbi yumşalır. Buna görə də bir də görürsən Quran oxuyurlar və dinləyici oturub ağlayır. Bunun səbəbi onun ilahi nəsihəti başa düşməsidir. Amma biz bundan məhrumuq. Əlbəttə, bunun əlacı var. Məbada kimsə çıxış yolunun olmadığını və heç bir iş görməyin mümkün olmadığını düşünsün. Xeyr, bu, tam həll edilə bilən bir məsələdir. Quranda işlənən sözlərin çoxu fars dilində də işlənir və biz onların mənasını bilirik. O vaxtlar mən Məşhəd şəhərində Quran dərsi deyirdim. Mən dərsdə danışır və həmin dövrün gənclərinə – əlbəttə, onlar bu gün artıq qocadırlar – bunu deyirdim. Misal çəkirdim ki, əgər siz "وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ"[1] ayəsinə baxsanız, onda farsdilli oxucunun başa düşmədiyi 2-3 sözün olduğunu görərsiniz. Farsdilli oxucu yerdə qalan sözlərin hamısını başa düşür. Bəli, məsələn "لَنَبْلُوَنَّكُمْ" sözünü ona izah etmək lazımdır, amma o, "شَيْءٍ" sözünün mənasını ki bilir. Siz "şey və əşya" sözündən istifadə edirsiniz. Həmçinin

1. Bəqərə, 155

“خوف” (xof), “جُوعِ” (cu), “نَقْصٍ” (nəqs), “أَمْوَالِ” (əmval), “أنفُسِ” (ənfus) və “ثَمَرَاتِ” (səmərat) sözlərinin mənasının nə olduğunu bilirsiniz. Bunlar farsdilli oxucunun başa düşə bilməyəcəyi sözlər deyil. Buna görə də Quran ayələrinin, onda olan bağlayıcı, ifadə və söz birləşmələrinin mənasını başa düşmək, Quranla ünsiyyətdə olmaq və tərcüməyə müraciət etmək çətin deyil.

Allaha şükür, bu gün gözəl tərcümələr çoxdur. O vaxtlar Quranın hətta bir dənə də yaxşı tərcüməsi yox idi ki, camaat ona müraciət etsin və məna baxımından arxayın olsun. Amma biz bu gün, Allaha şükür, çoxsaylı yaxşı tərcümələrin olduğunu görürük. Həmin tərcümələrə müraciət edin. Əgər tərcümələrə müraciət etsəniz, onun mənasını başa düşərsiniz. Bu bizim problemlərimizdən biridir və onu aradan qaldırmaq lazımdır. Yəni Quran ayələrinin mənasını başa düşmək lazımdır...

## Quranla əlaqə ilboyu qorunmalıdır

Problem budur ki, biz Quranın nazil olma ayı olan ramazan ayında çoxsaylı Quran yığıncaqları keçirir, məscidlərdə və digər məkanlarda müxtəlif məclislər təşkil edirik, amma ramazan ayı sona çatan kimi Quranı bağlayır, öpüb kənara qoyuruq. Bu, yaxşı iş deyil. Quranı özümüzdən ayırmamalıyıq. Gərək daim Quranla ünsiyyətdə olaq. Hədislərdə deyilir ki, hər gün, ən azı, əlli ayə oxuyun. Bu, bir meyardır. Əgər bunu edə bilməsəniz, gündə 10 ayə oxuyun. Hər gün oxuduğunuz “Fatihə” surəsi ilə “İxlas” surəsinin üst-üstə 10 ayə etdiyini deməyin. Xeyr! Vacib və müstəhəb namazlarda oxuduğunuz ayələrdən əlavə, 10 ayə oxuyun.

Quranı açın qoyun qabağınıza və fikrinizi toplayaraq 10 ayə, 20 ayə, 50 ayə, 100 ayə oxuyun. Quranı başa düşmək, dərk etmək, barəsində fikirləşmək və ondan bəhrələnmək üçün oxuyun. Quran oxumağın bir növü budur ki, insan Quranı əlinə alıb əvvəldən axıra kimi oxuyur. Mənim məqsədim bu cür oxumaq deyil. Mən bu oxunuşun heç bir təsirə malik olmadığını demək istəmirəm. Bəli, mən əvvəllər bu oxunuşun heç bir təsirə malik olmadığını deyirdim. Amma sonra fikrim dəyişdi. Onun heç bir təsirə malik olmadığını demək olmaz. Amma əgər onun təsirini mənası dərk edilərək oxunan qiraətlə müqayisə etsək, görərik ki, həmin zahiri oxunuşun təsiri sıfır olmasa da, sıfra yaxındır.

Bəziləri də Quranı bizim kimi, yəni ondan minbərdə, filan çıxışda, filan yığıncaqda, filan məclisdə danışmaq üçün bir şey tapmaq məqsədi ilə oxuyurlar. Bunun da eybi yoxdur, amma bu da bizim vəzifəmiz olan oxunuş deyil.

Quran oxumağın digər bir növündə insan bir dinləyici kimi oturub Allahın sözlərinə qulaq asır. Allah-taala sizinlə söhbət edir. Sanki əziz bir adamdan, böyük bir şəxsiyyətdən sizə məktub gəlib. Siz həmin məktubu götürüb oxuyursunuz. Niyə? Çünki onun sizə nə yazdığını bilmək istəyirsiniz. Quranı belə oxuyun. Quran Allah-taalanın məktubudur. Ən etibarlı dil və qəlblər onu Allah-taaladan alıb sizə çatdırıb ki, biz ondan istifadə edək, bəhrələnək. Buna görə də hədislərdə deyilir ki, hər hansı bir surəni oxuyanda onu tez oxuyub sona çatdırmağa çalışmayın. Onu dərk etməyə çalışın, hətta surənin və ya cüzün axırına, yaxud ortasına çatmasanız belə! Quran ayələrinin mənası barədə fikirləşin, düşünün. Quranı belə oxuyun. Quranla ünsiyyət qura bilən şəxs ondan ayrıla bilməz. Əgər biz Quranla ünsiyyət qursaq, həqiqətən, ondan ayrılmarıq.

## Qurani-kərimi əzbərləmək neməti

Qeyd etmək istədiyim son məsələ də təkrardır, bunu da dəfələrlə demişəm. O, Quranın əzbərlənməsi məsələsidir. Quranı əzbərləmək Allahın böyük nemətidir. Gənclər və yeniyetmələr Quranı əzbərləmək yaşının qədrini bilməlidirlər. Siz indi elə yaşdasınız ki, Quranı əzbərləyə və yadda saxlaya bilərsiniz. Bunu biz də edə bilərik. Bu, bizim yaşımızda da mümkündür. Amma bu yaşda əzbərlənən mətn yadda çox qalmır, tez unudulur. Mənim yaşda olan adamların Quranı əzbərləməsi qeyri-mümkün deyil. Bəli, bu, mümkündür. Hətta bizdən yuxarı yaşda, 75-80 yaşda da əzbərləmək olar. Eşitdiyimə görə mərhum Ayətullah Xoyi Quranı ömrünün son illərində əzbərləyib. Bu, mühüm məsələdir. Təsəvvür edin, 80 yaşlı qoca Quranı əzbərləyir. Bəli, onu əzbərləmək mümkündür, amma o, yadda çox qalmır, zehindən silinib gedir. Əgər siz gənc yaşlarınızda, xüsusilə yeniyetməlik dövründə, yəni burada Quran oxuyan yeniyetmələr yaşda, ya ondan bir az yuxarı yaşda olanda Quranı əzbərləsəniz, o sizin üçün bir sərmayə və azuqə olar. Quranı əzbər bilən şəxsin onun barəsində düşünmək imkanı Quranı əzbər bilməyən şəxsin imkanından daha genişdir. Adam bəzən Quranda bir ayəyə rast gəlir və ona elə gəlir ki, həmin ayəni heç vaxt oxumayıb. Amma Quranı əzbər bilən şəxs belə şeylə heç vaxt rastlaşmır. Allah dediklərimizə və eşitdiklərimizə təsir qüvvəsi versin.

## Bir neçə Quran duası

İlahi, bizi Quranla yaşat, Quranla öldür! İlahi, bizi məhşər səhnəsinə Quranla gətir! İlahi, bizə Quran təlimlərindən və onda olan ülvi maarifdən bəhrələnməyi nəsib et! İlahi, qəblərimizi Quranla yaşat, Quranla işıqlandır! İlahi, bizi sözün həqiqi mənasında Quranı qoruyanlardan, yaşadığımız cəmiyyəti Quran cəmiyyəti et! İlahi, bu Quran oxuyanları, Quran müəllimlərini – Allaha şükür, onların bəzisi bu məclisdə də iştirak edir – Öz lütf və mərhəmətindən bəhrələndir. İlahi, Quranın nüfuz dairəsini – bu əziz müəllimlərin çalışdığı şeyi – genişləndir! İlahi, İmam Mehdinin müqəddəs qəlbini bizdən razı et! İmamımızın qəlbinin, İmam Xomeyninin pak ruhunu, Quran yolunda mübarizə aparan şəhidlərimizin pak ruhunu bizdən razı et!

*Quran qariləri ilə görüşdəki çıxışdan*
*13.IX.2007*

# Ramazan Allah qonaqlığına dəvət ayıdır

Həm namazda iştirak edən bütün qardaş və bacılara, həm də özümə təqvalı olmağı tövsiyə edirəm. Təqva bu ayın ən üstün məhsul və nəticəsidir. Böyük bərəkət və mənəvi gözəllikləri olan ramazan ayı gəlib çatdı. Həzrət Peyğəmbər ramazan ayı gəlib çatmamışdan qabaq insanları bu təhlükəli, uca və bərəkətli meydana daxil olmağa hazırlayar və belə buyurardı: “Allahın ayı bərəkət və rəhmət ilə sizə üz tutub”.[1] Hədislərə əsasən həzrət Peyğəmbər bunu şaban ayının son cüməsinin xütbəsində buyurub. O həzrət insanlara ramazan ayının gəlib çatması xəbərini verərək onların diqqətini bu məsələyə yönəldib. Əgər biz bir cümlə ilə ramazan ayının tərifini vermək istəsək, gərək belə deyək: “Ramazan fürsətlər ayıdır”. Bizim üçün bu ayda çox böyük fürsətlər var. Əgər biz bu fürsətlərdən düzgün istifadə edə bilsək, böyük və çox dəyərli azuqə əldə etmiş olarıq. Mən bu barədə bir az izah

1. Əmali, Səduq, səh. 93

verəcəyəm. Birinci xütbədə ramazan ayına aid məsələlər və bu misilsiz fürsətlər barədə danışacağam.

Həzrət Peyğəmbər qeyd edilən xütbədə belə buyurub: “Siz bu ayda ilahi ziyafətə dəvət edilmisiniz”.[1] Bu cümlənin özü insandan onun barəsində düşünməsini tələb edir. İlahi ziyafətə dəvət! Heç kəs bu ziyafətdə iştirak etməyə məcbur edilməyib. Xeyr! Bəli, onu vacib ediblər, amma ondan istifadə edib-etməmək bizim öz ixtiyarımızdadır. Bəziləri, ümumiyyətlə, bu dəvətnaməyə baxa bilmirlər. Qəflətə, maddiyyata, dünya işlərinə o qədər qərq olublar ki, ramazan ayının gəlib getməsindən xəbərləri olmur. Bu, hər hansı bir şəxsin çox təmtəraqlı, xeyir-bərəkətli qonaqlığa dəvət edilməsinə, amma onun ora gedə bilməməsinə, hətta dəvətnaməyə baxmağı unutmasına bənzəyir. Onlar həmin ziyafətdən tamamilə məhrum olurlar. Bəziləri isə həmin qonaqlığın olduğunu bilirlər, amma ora getmirlər. Allahın lütfündən məhrum olan, heç bir üzrlü səbəb olmadan oruc tutmayan və ya Quran, yaxud ramazan ayının dualarını oxumayanlar bu dəstəyə aiddirlər. Bu qonaqlığa getməyən, ora daxil olmayanların vəziyyəti məlumdur. Amma müsəlmanların çoxu bizim kimi bu qonaqlığa gedir, amma onların bu qonaqlıqdan əldə etdiyi fayda eyni deyil. Belə ki, bəziləri bu fürsətdən çox bəhrələnirlər (bəziləri isə az).

## İlahi ramazan ziyafətinin mənəvi bərəkətləri

Bəlkə də, bu ilahi ziyafətin ən böyük faydası bu ayda oruc tutub aclıq çəkməklə zahidliyə qapılmaq və nəfsi tərbiyə etməkdir. Orucun insana olduqca böyük xeyirləri var. Mənəvi cəhətdən və qəlbdə nuraniyyət yaratmaq

1. Əmali, Səduq, səh. 93

baxımından bu bərəkət və faydalar həddən artıq çoxdur. Amma bu ayın ən böyük bərəkəti, bəlkə də, orucdur. Bəziləri oruc tutur, bu ziyafətə daxil olur və ondan bəhrələnirlər. Lakin onlar bu bərəkətli ayın mənəvi paklığı olan oruc tutmaqdan əlavə, Qurandan da maksimum bəhrələnirlər. Quranı oruc halda, orucluqdan doğan nuraniliklə, gecələr düşünərək oxumağın, Quranla ünsiyyətdə olmağın, Allahla söhbət etməyin ayrı ləzzət və mənası var. İnsan Quranı belə bir şəraitdə oxuyanda əldə etdiklərini başqa vaxt əldə edə bilmir. Buna görə də onlar bu nemətdən də bəhrələnirlər. Bundan əlavə, onlar Allahla danışmaqdan, həmsöhbət olmaqdan, raz-niyaz etməkdən, ürəklərindəki sirri Allaha açmaqdan, yəni həmin dualardan da bəhrələnirlər. Əbu Həmzə Sumali duası, gündəlik oxunan dualar, gecə və səhərlər oxunan dualar Allahla danışmaq, Ondan istəmək, qəlbi Ona yaxınlaşdırmaqdır. Onlar bu imtiyazdan da istifadə edirlər. Beləliklə, onlar bu qonaqlıqda onun bütün faydalarından yararlanırlar.

Bunların hamısından qabaq, hətta bir cəhətdən onların hamısından üstün məsələ günahların tərk edilməsidir. Onlar günah da etmirlər. Həzrət Peyğəmbərin həmin xütbəsində Əmirəl-möminin o həzrətdən soruşur ki, bu ayda hansı əməl daha üstündür? Həzrət Peyğəmbər buyurur: "Allahın haram buyurduqlarından çəkinmək!" Günah və haramlardan çəkinmək (heç bir iş görməmək) hansısa bir işi görməkdən daha yaxşıdır. O, ruh və qəlbin günah çirkabına bulaşmasının qarşısını alır. Həmin şəxslər günahlardan da çəkinirlər. Deməli, onlar həm oruc tuturlar, həm Quran oxuyurlar, həm dua və zikr edirlər, həm də günahlardan çəkinirlər. Bu işlər insanı əxlaq və rəftar baxımından İslamın nəzərdə tutduğu şeyə

yaxınlaşdırır; onlar yerinə yetiriləndən sonra insanın qəlbi kinlərdən təmizlənir, fədakarlıq ruhu oyanır, məhrum və imkansızlara kömək etməsi asanlaşır və o, maddi işlərdə başqalarının xeyrinə və öz ziyanına güzəştə gedir. Buna görə də gördüyünüz kimi, ramazan ayında cinayətlərin sayı azalır, xeyir işlər artır, cəmiyyətdə insanlar arasında sevgi-məhəbbət başqa vaxtlardakından daha çox olur. Bütün bunlar bu ilahi ziyafətin bərəkətindəndir.

## Bağışlanma diləmək və onun faydaları

Bəziləri ramazan ayından bu cür tam bəhrələnirlər, bəziləri isə yox, bəzi şeylərdən bəhrələnir, bəzi şeylərdən isə məhrum olurlar. Müsəlman bu ayda bu ilahi ziyafətdən maksimum bəhrələnməyə çalışmalı, Allahın rəhmət və əfvinə nail olmalıdır. Mən əfv və bağışlanma məsələsinə xüsusi təkid edirəm. Allahdan böyük və kiçikliyindən asılı olmayaraq, bütün günahlar, xətalar, büdrəmələrə görə bağışlanma diləmək lazımdır. Bu – bizim ramazan ayında özümüzü, qəlbimizi his-pasdan, çirkdən yuyub təmizləməyimiz – çox mühümdür. Bu, Allahdan bağışlanma diləməklə mümkündür. Buna görə də hədislərdə deyilir ki, duaların ən yaxşısı, yaxud duaların ən üstünü Allahdan bağışlanma diləməkdir. Allahdan bağışlanma diləmək hamıya aiddir. Həzrət Peyğəmbər – o ülvi insan da Allahdan bağışlanma diləyərdi. Əlbəttə, bizim kimilərin bağışlanma diləməsinin səbəbi müəyyən günahlardır. Həmin günahlar vücudumuzda olan heyvani hisslərdən doğur və biz onlara "çarvadar günahları" deyirik, yəni açıq günahlar. Amma bəzilərinin bağışlanma diləməsinin səbəbi bu cür günahlar deyil. Onlar yerinə yetirilməsi daha

yaxşı olan işi tərk etdiklərinə görə bağışlanma diləyirlər. Bəziləri heç yerinə yetirilməsi daha yaxşı olan işi tərk də etmirlər, amma bununla belə, yenə bağışlanma diləyirlər. Bu bağışlanma istəyi mümkün varlıq olan insanın təbiət və zatının Allahın zatının əzəməti qarşısındakı naqisliyinə və onun Allahı tam tanıya bilməməsinə görədir. Bağışlanma istəyinin bu növü Allah övliyaları və böyük şəxslərə məxsusdur.

Gərək günahlarımıza görə Allahdan bağışlanma diləyək. Allahdan bağışlanma diləməyin böyük faydalarından biri onun bizi özümüz barəsindəki qəflətdən çıxarmasıdır. Biz bəzən özümüz barədə səhvə yol veririk. Biz bağışlanma diləmək istəyəndə etdiyimiz günahlar, səhvlər, özbaşınalıqlar, nəfsi istəklərə tabe olmağımız, başqalarının hüquqlarını pozmağımız, özümüzə və başqalarına etdiyimiz zülmlər gözümüz qarşısında canlanır, gördüyümüz bu işlər yadımıza düşür və daha qürrələnmir, təkəbbür və qəflətə düçar olmuruq. Allahdan bağışlanma diləməyin ilk faydası budur. Bundan əlavə, Allah-taala vəd edib ki, bağışlanma diləyən, yəni həqiqi mənada Allahdan onu bağışlamasını diləyən, günahından peşman olan şəxsin tövbəsini qəbul edəcək, onu bağışlayacaq. *"...Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər".*[1] Bağışlanma diləmək Allaha tərəf qayıtmaq, günah və səhvlərə arxa çevirməkdır. Allah-taala həqiqi bağışlanma diləyini qəbul edir.

Əgər insan dildə "əstəğfurullah, əstəğfurullah, əstəğfurullah" desə, amma fikri orda-burda olsa, bu bağışlanma diləyinin heç bir faydası olmaz. Əslində, bu, heç bağışlanma istəmək deyil. Allahdan bağışlanma

1. Nisa, 64

diləmək duadır, istəkdir. İnsan onu Allahdan həqiqətən istəməli, "İlahi, mən bu günahı etmişəm, mənə rəhm et, mənim bu günahımı bağışla" deyib Ondan əfv və bağışlama diləməlidir. Allahdan hər bir günah barəsində bu cür bağışlanma diləmək, şübhəsiz, Allahın bağışlaması ilə nəticələnəcək. Allah-taala bu qapını açıq qoyub.

Əlbəttə, İslam dinində günahın başqalarının yanında dilə gətirilməsi qadağandır. Bəzi dinlərdə insanlar ibadətgahlara ruhani və keşişin yanına gedir, günahlarını etiraf edirlər. İslamda belə şey nəinki yoxdur, ümumiyyətlə, qadağandır. İslam insanın pərdələri aradan götürərək batini sirlərini və günahlarını başqasının yanında danışmasını qadağan edir. Günahların başqasının yanında faş edilməsinin heç bir faydası da yoxdur. Təhrif edilmiş həmin dinlərdə məsələ belə fərz edilir ki, şəxs günahlarını keşişin yanında etiraf edir, keşiş də günahları bağışlayır. Xeyr, İslam baxımından günahı ancaq Allah bağışlayır. Hətta həzrət Peyğəmbər günahı bağışlaya bilmir. Mübarək ayədə buyurur: *"Əgər onlar özlərinə zülm etdikləri (Allahın əmrlərini pozduqları) zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv diləsəydi, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər"*.[1] Onlar günah etməklə özlərinə zülm ediblər. Əgər onlar sən Peyğəmbərin yanına gəlib Allahdan bağışlanma diləsələr və sən də onlar üçün Allahdan bağışlanma diləsən, Allah onların tövbəsini qəbul edər. Yəni Peyğəmbər onlar üçün bağışlanma diləyir və günahı özü bağışlaya bilmir. Günahı ancaq Allah bağışlayır. Buna deyirlər bağışlanma diləmək. İslamda Allahdan bağışlanma diləməyin mühüm yeri var. Bu ayda, xüsusilə səhərlər və axşamlar Allahdan bağışlanma

1. Nisa, 64

diləməyi yaddan çıxarmayın. Ramazan ayının dualarını mənalarına diqqət edərək oxuyun.

Allaha şükür ki, yaşadığımız cəmiyyət mənəviyyatlı cəmiyyətdir, insanlar arasında dua etmək, Allaha üz tutmaq geniş yayılıb. İnsanlar dua etməyi sevir, gənclər pak və nurani qəlbləri ilə Allahı yada salmağa maraq göstərir. Bunların hamısı fürsətdir. Ramazan ayı da bizim ixtiyarımızda qoyulmuş ilahi bir fürsətdir. Bu bərəkətli aydan, bu böyük fürsətdən istifadə edin, qəlblərinizi Allaha yaxınlaşdırın, Allahla əlaqə yaradın, bağışlanma diləməklə qəlb və ruhunuzu təmizləyin, istəklərinizi Allaha deyin. Xalqımız Allah-taala ilə mənəvi əlaqə saxlayaraq böyük işlər görüb. Ramazan ayı bu işlərin görülməsi üçün böyük fürsətdir. Bu fürsətdən istifadə edin.

Allah hamımıza kömək etsin, bu ramazan ayında vücudumuzun mənəvi cəhətini heyvani cəhətinə qalib edə bilək. Bizim vücudumuzun bir mənəvi cəhəti var, bir də maddi cəhəti. Nəfsi istəklər maddi cəhəti mənəvi cəhətə qalib edir. İnşallah, bu ramazan ayında o mənəviyyat və nuraniyyəti maddi cəhətə qalib edə bilək, onu azuqə olaraq qoruyub saxlayaraq ramazan ayından il boyu işimizə yarayacaq məşq kimi istifadə edək.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*19.IX.2007*

# Allahı xatırlamağın əhəmiyyəti

Allah-taala buyurur: *"Rəhman və Rəhim Allahın adı ilə. Ey iman gətirənlər! Allahı çox-çox xatırlayın! Səhər-axşam Onun şəninə təriflər deyin! Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə salam və rəhmət göndərən Odur. Onun mələkləri də (sizin üçün rəhmət diləyərlər). O, möminlərə qarşı hər zaman mehriban olmuşdur. Onunla görüşəcəkləri gün xeyir-duaları "salam" olacaqdır. (Allah) onlara çox qiymətli mükafat hazırlamışdır".*[1]

Çox gözəl fürsət yaranıb və ölkənin mühüm idarəçilik yükü boynuna düşən şəxslərin, demək olar ki, hamısı bu böyük və mühüm yığıncaqda iştirak edir. Hörmətli prezident siyasətdən danışaraq müxtəlif sahələr barədə hesabat verdi. Bu barədə həmişə danışılır. Onun barəsində söz çoxdur və ondan danışmaq lazımdır da. Mən fikirləşdim ki, bu fürsətdən istifadə edib siyasi məsələlərdən, qərarlardan və izahlardan daha mühüm olan şey barəsində danışım. O, təmiz qəlb və xalis iman

1. Əhzab, 41-44

məsələsidir ki, bu mərhələlərin hamısında cansız cismə ruh, qaranlıqlara işıq verə bilər. Buna görə də oxuduğum ayəni seçdim ki, ona birlikdə bir daha nəzər salaq. Şəxsən mən özüm nə qədər oxusam da, yenə özümdə *"Allahı çox-çox xatırlayın! Səhər-axşam Onun şəninə təriflər deyin"* ayəsini təkrar etməyə, onun barəsində fikirləşməyə, ona əməl etməyə ehtiyac hiss edirəm. Özümü deyirəm, amma, məncə, ona sizin də ehtiyacınız var. Ayə buyurur: *"Ey iman gətirənlər!"* Bu, mömin cəmiyyətin formalaşmasından və bir sıra böyük sınaqları arxada qoymasından sonraya aiddir. Bunlar "Əhzab" surəsinin ayələridir və o, hicrətin altıncı ilindən, yəni Bədr, Ühüd və bir çox müharibələr, o cümlədən Əhzab müharibəsindən sonra nazil olub. Belə bir şəraitdə Quran müsəlmanlara xitab edərək buyurur: *"Allahı çox-çox xatırlayın!"* Xatırlamanın əksi qəflət və unutqanlıq, müxtəlif hadisələrə düçar olub əsas məsələni yaddan çıxarmaqdır. Bu, biz insanların böyük problemidir. Bizdən bunun baş verməməsi istənilir. Özü də bizdən sadəcə xatırlamaq istənilməyib, çox-çox xatırlamaq istənilib.

Mən burada bir hədis qeyd etmişəm. Əbu Abdullah buyurub: "Hər bir şeyin gedib sona çatdığı bir hədd var".[1] İlahi hökm və vaciblərin hamısının bir həddi var və o, həmin həddə çatanda sona çatır, vəzifə boyundan götürülür. "Zikrdən başqa! Onun sona çatdığı bir hədd yoxdur".[2] Zikrin həddi yoxdur. Elə bir hədd yoxdur ki, zikr və Allahın xatırlanması həmin həddə çatanda, "bəsdir, daha lazım deyil" demək mümkün olsun. O həzrət sonra izah verərək buyurur: "Allah-taala bir sıra hökmləri vacib edib. Kim onları yerinə yetirsə, onları öz sərhədinə çatdırıb.

1. əl-Məhasin, c. 2, səh. 431
2. Kafi, c. 1, səh. 142

(Məsələn) ramazan ayı: kim onda oruc tutsa, onu sərhədinə çatdırıb".[1] Əgər siz ramazan ayında oruc tutsanız, onu sərhədinə çatdırmısınız və boynunuza bu barədə başqa vəzifə düşmür. "(Həmçinin) həcc: kim həcci yerinə yetirsə, (həcc əməllərinin sonuna çatandan sonra) onu sərhədinə çatdırıb". Əlbəttə, bu, hədisin ərəbcə orijinalında olan "فهو حدّه" ifadəsini "fəhuvə həddəhu" kimi oxuyanda bu cür tərcümə edilir. Amma onu başqa cür – "fəhuvə hədduhu" kimi – də oxumaq olar. Bu qaydadan bircə zikr – Allahı xatırlamaq istisnadır. O, digər vacib əməllər kimi deyil. Hədisdə digər vaciblər bir-bir qeyd edilməyib. Zəkatın da vacib edilən miqdarını verəndən sonra sizə heç nə vacib olmur. Xums da elədir, qohumlarla əlaqə saxlamaq da, başqa vacib əmllər də. Bütün vaciblər elədir, "təkcə zikrdən başqa. İzzət və calal sahibi olan Allah onun azına razı olmayıb, onun üçün son hədd təyin etməyib".[2] Sonra o həzrət bu ayəni oxuyub: *"Ey iman gətirənlər! Allahı çox-çox xatırlayın!"*[3] Bu, zikrin əhəmiyyətini göstərir.

Ayənin davamında buyurur: *"Sizə salam və rəhmət göndərən Odur. Onun mələkləri də (sizin üçün rəhmət diləyərlər)".*[4] Mərhum Əllamə Təbatəbai "əl-Mizan" təfsirində belə yazır: "Bu ayə – *"sizə salam və rəhmət göndərən Odur"* ayəsi *"Allahı çox-çox xatırlayın"* ayəsinin səbəbini bəyan edir. Yəni sizdən Allahı çox-çox xatırlamağın istənilməsinin səbəbi həmin Allahın sizə salam və rəhmət göndərməsidir. Allah sizə salam və rəhmət göndərir. Özü də Allah-taala tək deyil, Onun mələkləri də siz möminlərə salavat göndərirlər. Allahın salavat göndərməsinin mənası

1. Kafi, c. 2, səh. 498
2. Kafi, c. 2, səh. 498
3. Əhzab, 41
4. Əhzab, 43

rəhmət göndərməsi, mələklərin salavat göndərməsinin mənası isə möminlər üçün bağışlanma diləmələridir. Quran buyurur: *"Onlar möminlər üçün də bağışlanma diləyirlər"*.[1]

Allah-taala və mələklərin qeyb aləmindən sizə rəhmət və salavat göndərməsinin səbəbi nədir? *"Sizi zülmətlərdən nura çıxartmaq üçün"*.[2] Bu zülmət və nurun nədən ibarət olması da geniş bir bəhsdir: düşüncədə olan zülmət, qəlbdə olan zülmət, əxlaqda olan zülmət və onun müqabilində olan nur.

Əməl də həm zülmət ola bilər, həm də nurani; insanın zehin, düşüncə və əqidəsi həm nurani ola bilər, həm də zülmət; insanın əxlaqı həm zülmət ola bilər, həm də nurani; hər hansı bir xalqın ictimai hərəkət istiqaməti həm zülmət və qaranlığa tərəf ola bilər, həm də nura.

Hər hansı bir xalqa, ölkəyə, hökumətə, şəxsə şəhvət və nəfsi istəklərin, heyvaniyyətdən doğan kobudluğun, hərisliyin, dünyapərəstliyin qalib gəlməsi zülmətdir, zülmətə doğru hərəkətdir. Burada həm istiqamət zülmətdir, həm də məqsəd. Ona mənəviyyat, din, insanlıq, əxlaqi keyfiyyətlər, xeyirxahlıq, düzlük və doğruluq hakim olanda isə nuraniyyət olur. İslam və Quran bizi buna dəvət edir. Allah və Onun mələkləri bizi bununla təchiz edir ki, zülmətlərdən xilas olaq və nur vadisinə daxil olaq. Buna görə də Allahı zikr edin, xatırlayın.



1. Ğafir, 7
2. Əhzab, 43

## Zikr və Allahı xatırlamağın mərhələləri

Zikr və Allahı xatırlamağın bir sıra mərhələləri var. Biz insanlar hamımız eyni mərtəbədə deyilik, bizim mərtəbələrimiz arasında fərq var. Mənəvi cəhətdən bəziləri yüksək mərtəbədədirlər. Onlar övliyalar, peyğəmbərlər, əməlisaleh insanlar, pakqəlbli və mənəviyyatlı insanlardır. Bizim kimilər isə o həddə deyilik. Bizim bəzilərimizin o mərtəbədə nələrin olduğundan xəbəri yoxdur. Biz hamımız Allahı xatırlayırıq, həm onlar, həm də biz. Onların zikri, Allahı xatırlaması Əmirəl-mömininin hədisində qeyd edildiyi kimidir: "Zikr məşuq ilə həmnişin olmaqdır".[1] Bu, Allah övliyalarına xas məqamdır. Onlar üçün zikrin həzzi həmnişinlik həzzidir. Əmirəl-möminin başqa bir hədisdə belə buyurub: "Zikr aşiqlərin həzzidir".[2] Bu onlara məxsusdur.

Əgər bu gecə və gündüzlərdə, xüsusilə bu gecələrdə və gündüzlərdə həyatınıza belə bir qığılcım saçsa, xoş sizin halınıza! Bəzən belə bir şeyin baş verməsi mümkündür. Əlbəttə, onlarınkı daimidir. "Xoş daim namaz halında olanların halına!" Bu, onlara aiddir. Amma aşağı mərtəbədə olanlarda da bəzən qığılcım saça bilər. Bunların qədrini bilmək lazımdır. Bu, zikrin bir mərhələsidir. O, aşiqlərə və mənəviyyat sahiblərinə məxsusdur. Biz həmin mərtəbədə olmasaq da, zikrin bizim üçün də böyük faydası var. Mən indi burada qeyd etdiklərimi oxuyum: "Azdırıcı nəfsi istəklərə meyilli maddi maraqların dəf edilməsi".

Zikr nəfsi istəklərin hücumu qarşısında bizi və qəlbimizi qoruyur. Qəlb çox kövrəkdir. Bizim həm qəlbimiz, həm də ruhumuz kövrəkdir. Biz bəzi şeylərin təsiri altına

1. Təsnifu ğurəril-hikəm və durəril-kəlim, səh. 189
2. Təsnifu ğurəril-hikəm və durəril-kəlim, səh. 189

düşürük, qəlbimiz bəzi şeylərə tərəf cəzb olunur. Qəlb Allahın yeri, insanın vücudunun ən ülvi məkanı, insanın vücudunun batin və həqiqətidir. Əgər biz onun pak və mənəvi xəstəliklərdən sağlam qalmasını istəyiriksə, ona mühafizəçi lazımdır. Həmin mühafizəçi zikrdir. Zikr qəlbin nəfsi istəklərin amansız hücumlarına məruz qalmasının və əldən çıxmasının qarşısını alır; zikr qəlbin fəsad və azdırıcı cazibələrə qərq olmasına mane olur. Bu barədə mən bir hədis oxumuşam, çox dolğun hədisdir. Buyurur: "Qafillər arasında zikr edərək Allahı xatırlayan kəs fərarilər arasında vuruşan döyüşçü kimidir".[1] Bəzən döyüş meydanında bir döyüşçü vuruşur, müqavimət göstərir, müdafiə olunur, düşmənə zərbə vurmaq, onun hücumunun qarşısını almaq üçün bütün imkanlardan istifadə edir, amma bir başqa döyüşçü meydandan qaçır, düşmən qarşısında müqavimət göstərə bilmir. Hədis buyurur ki, qafillər arasında zikr edən (Allahı unudanlar arasında Allahı xatırlayan) kəs fərarilər, döyüşdən qaçanlar arasında müqavimət göstərən həmin əsgər kimidir. Bu bənzətməyə fikir verin. Əsgər yadların qarşısında müqavimət göstərərək vətəninin sərhədlərini müdafiə edir, zikr isə sizin qəlbinizin sərhədini qoruyur. Buna görə də Quranın cihad ayələrindən olan bu ayədə buyurulur: *"Ey iman gətirənlər! Bir dəstə ilə üz-üzə gəldikdə qətiyyətli olun və Allahı çox xatırlayın ki, nicat tapasınız!"*[2] Allahı xatırlamaq insanın dərdinə cihad meydanında da dəyir. Bu zikr sizin nicat tapmağınız üçün vasitədir. Allahı zikr etməyin, xatırlamağın səbəbi nədir? Səbəb onun insanın qəlbini qüvvətləndirməsidir. İnsanın qəlbində qüvvət yaranandan sonra atdığı addımlar da



1. Kafi, c. 4, səh. 373
2. Ənfal, 45

sabit olur, möhkəmlənir. Döyüş meydanı belədir. Döyüş meydanından insanın ayağından qabaq ürəyi "qaçır". Cismimizi qaçmağa vadar edən ürəyimizdir. Əgər ürək möhkəm dayanıb qaçmasa, cisim də dayanar.

Bütün döyüş meydanlarında – həm hərbi, həm siyasi, həm iqtisadi, həm də təbliğat meydanında Allahı xatırlayın. Bu zikr və xatırlama sizin nicat tapmağınıza səbəb olur. Allahı zikr etmək insanın qədəmlərinin sabit olmasına səbəb olur.

Deməli, Allahın xatırlanması bizim doğru yolda hərəkət etməyimizə və irəliləməyimizə səbəb olur. Bizim mömin, müsəlman, mütərəqqi məktəb davamçısı, qarşıda və gələcək əsrlərdə İslam mədəniyyətinin çiçəklənməsindən xəbər verən bu uca binanın ucaldılmasını istəyən kəslər olaraq müəyyənləşdirdiyimiz məqsədə çatmaq və bu yolda hərəkət etmək üçün Allahı xatırlamağa ehtiyacımız var.

Bizim Allahı xatırlamağa hamıdan çox ehtiyacımız var. Mənim bu məclisin gözəl fürsət olmasını deməkdə məqsədim buna görə idi. Sizin adi insanlardan fərqiniz bəzi sahələrdə cəmiyyətin işlərinin idarəçiliyinin sizin əlinizdə olması və onun qorunmasında sizin mühüm rol oynamağınızdır. Sizin bu idarəçilikdə möhkəm olmağınızla süstlük göstərməyiniz və ya idarəçiliyi tam itirməyiniz vəziyyətin dəyişməsinə təsir edir. Bu sizin işlərin idarəçiliyi əlində olmayan şəxslərdən fərqinizdir. Buna görə də sizin Allahı xatırlamağa başqalarından daha çox ehtiyacınız var. Əgər bu zikr, yəni Allahın xatırlanması bizim qəlbimizə hakim olsa, şübhəsiz, davranışımıza, öhdəmizə düşən vəzifələrin yerinə yetirilməsinə, haram və günah işlərdən, Allahın qəzəbinə səbəb olan əməllərdən çəkinməyimizə təsir edəcək, onlardan uzaqlaşmağımıza kömək göstərəcək.

# Möminlərin üç çox mühüm və çətin məsuliyyəti

Yaxşı, bəs zikr və Allahı xatırlamaq nədir? Bu barədə bir hədis Əbu Abdullahdan nəql edilib. Ondan başqa ayrı bir hədis də var. İkinci hədis diqqəti daha çox çəkir. Amma biz hər iki hədisi oxuyacağıq. Birinci hədis həzrət Əbu Cəfərdəndir. İmam Baqir buyurur: "Üç şey möminlərin çox mühüm və ağır vəzifələrindəndir".[1]

Onlardan biri "mömininin insaflı olmasıdır". Yəni insan başqalarına qarşı insafla davranmalı, haqqı şəxsi mənafeyinə görə ayaq altına atmaqla, özünü haqqa görə ayaq altına atmaq arasında seçim etməli olanda ikincini seçməlidir. Əgər qarşı tərəf haqdırsa və siz haqlı deyilsinizsə, insaflı davranmalı, haqqı ona verməlisiniz. Özünüzü hətta alçalmaq və ayaq altına düşmək bahasına olsa belə, ayaq altına atın. Bu, çətin, amma mühüm işdir. İmam Baqir buyurur ki, bu, mühüm işlərdəndir. Əlbəttə, bu çətin işdir. Amma onsuz da bütün yaxşı və böyük işlər çətin olur.

İkincisi, "mömin qardaşa yardım etməkdir". Hədisin ərəbcə orijinalında işlənmiş "muvasat" sözü ilə "musavat" sözü arasında fərq var. "Muvasat"ın mənası bərabərlik deyil. Onun mənası bütün işlərdə mömin qardaşına kömək etmək, onunla birgə addımlamaqdır. İnsanın bunu özünə borc bilməsi, həm düşüncə, həm mal, həm də fiziki baxımdan kömək etməsi "muvasat"dır.

Üçüncüsü, "bütün hallarda Allahı xatırlamaqdır". Bu, zikrdir.

İmam Baqir sonra "bütün hallarda Allahı xatırlamaq"

1. əl-Xisal, c. 1, səh. 131

ifadəsini izah edərək buyurur: "O, günah etmək istəyəndə izzət və calal sahibi olan Allahı yada salsın" və Allahı xatırlamaq onun günah etməsinə mane olsun. Allahı xatırlamaq onun yalan danışmasının, qeybət etməsinin, haqqı gizlətməsinin, insafsızlıq etməsinin, başqasını təhqir etməsinin, camaatın malını, beytülmalı, zəif insanların malını mənimsəməsinin və ya onların barəsində laqeydlik göstərməsinin qarşısını almalıdır. Buların hamısı günahdır. İnsan bu halların hamısında diqqətini Allaha yönəltməlidir. Allahı xatırlamaq onun günaha tərəf getməsinə mane olmalıdır.

"Allahı xatırlamaq onunla həmin günah arasında ayrılıq salır. İzzət və calal sahibi olan Allah buyurur: *"Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı, Onun mükafat və cəzasını) xatırlayarlar"*.[1] İmam buyurur ki, bu, *"Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı, Onun mükafat və cəzasını) xatırlayar"* ayəsinin təfsiridir. Şeytan onlara toxunanda, vəsvəsə edəndə, yəni hələ canına tam düşməyəndə tez Allahı xatırlayar *"və dərhal görən olarlar"*.[2] Allahı xatırlamaq onların gözünün açılmasına səbəb olar. Allahı bütün hallarda xatırlamağın mənası budur.

## Zikrin bütün hallarda və hər yerdə davam etdirilməsi

Qeyd etdiyim ikinci hədisin əvvəli də birinci hədislə təxminən eynidir və onda da həmin üç şeyə toxunulub. Orada "Allahın bütün hallarda xatırlanması" deyilirdi,

1. Əraf, 201
2. Əraf, 201

buradakı hədisdə Əbu Abdullah "Allahın hər yerdə xatırlanması" buyurur.[1] Sadəcə diqqəti çəkən hədisin bu hissəsidir. O həzrət buyurur: "Mən "subhanəllah", "əlhəmdu-lillah", "la ilahə illəllah" və "Allahu əkbər" demirəm".[2] Yəni mən Allahın bütün hallarda zikr edilməsi deyəndə "subhanəllah", əlhəmdu-lillah", "la ilahə illəllah" və "Allahu əkbər" zikrlərinin deyilməsini nəzərdə tutmuram.[3] Bu, dildə deyilən zikrdir. "Bəli, bu da zikrdir",[4] bu da bəyənilən, çox dəyərli işdir, amma mənim əsas məqsədim bu deyil. "Allahın hər yerdə xatırlanması deyəndə Onu itaət və ya itaətsizlik zamanı yada salmaq nəzərdə tutulur".[5] Məqsəd zikrin bu növüdür. Hədislərdə, dualarda nəql edilmiş müxtəlif zikrlər, həzrət Zəhranın zikri və digər zikrlər, əslində, zikr vasitəsidirlər. İnsan onları həqiqi mənalarını nəzərə alaraq dilinə gətirməli, onlara diqqət etməlidir. Onlar bu baxımdan çox dəyərlidirlər.

Əlbəttə, bu mövzulardan danışıb qurtarmaq olmur. Əgər biz bu mənəvi və qəlbimizə aid məsələlər barədə saatlarla dayanmadan danışsaq, yenə də azdır. Əslində, biz bu barədə geridə qalmışıq. Biz İslam quruluşunun və İslam tərbiyəsinin tələbləri baxımından çox qabağa getməmişik. Düzdür, bəziləri quruculuq, texnologiya və başqa cəhətlərdən daha çox inkişaf etmək imkanlarımızın olduğunu, amma etmədiyimizi deyirlər. Amma, məncə, bizim bütün sahələrdən çox irəli getmək imkanımız olan, amma bu imkandan istifadə etmədiyimiz sahə varsa, o da mənəviyyat, özünüislah, qəlbin gözəl əxlaqla

1. Kafi, c. 2, səh. 145
2. Vəsailuş-şiə, c. 15, səh. 255
3. Camiu əhadisi-şiə, c. 23, səh. 960
4. Vəsailuş-şiə, c. 15, səh. 255
5. Vəsailuş-şiə, c. 15, səh. 255

zinətləndirilməsi sahəsidir. Həqiqətən, biz bu sahədə geridə qalmışıq.

Əgər biz nəyə layiq olduğumuza baxmaq istəsək, müqəddəs müdafiə dörvünə nəzər salmağımız kifayətdir. Cəbhəyə gedən gənclər, həmin gəncləri cəbhəyə yola salan valideynlər, şövqlə cəhbəyə hər cür yardım edən o ailələr hansı hissləri keçirirdilər? Onlar bu barədə gözəl örnəkdirlər. Mən onların ən ülvi örnək deyil gözəl örnək olduğunu deyirəm. Biz həmin meyarla, həmin minvalla irəliləməli idik. Amma elə olmadı. Əlbəttə, bəzən hətta onları da unuduruq. Bəzilərimiz unudur, bəzilərimiz, təəssüf ki, inkar edir. Bundan da pisi bəzilərinin onu səhv adlandırmasıdır. Siz bəzən bu cür söz-söhbətlərin şahidi olursunuz. Bəzən biz orda-burda bu cür düşünülməmiş sözlərin danışıldığını, boşboğazlıqların edildiyini, hətta gənc və cəsur döyüşçülərimizin müqəddəs müdafiə dövründəki əməllərinin səhv adlandırıldığını eşidirik.

Əlbəttə, çox vaxt bizim məsələlərin xırdalıqlarından xəbərimiz olmur. Hətta mən özüm, hətta müharibənin iştirakçısı olmuş komandirlər orada baş verənlərin hamısını tam dəqiqliyi ilə bimirlər. Orada ülvi sifət və insani fəzilətlər istiqamətindəki hərəkətlər o qədər çox – təxminən iştirakçıların sayı qədər – olub ki, onları, həqiqətən, sayıb qurtarmaq mümkün deyil.

Mən bu yaxınlarda bir kitab oxudum. Bizim hərbi əməliyyatlardan birinin həyata keçirildiyi bir neçə gün baş verənlər barəsində idi. Hadisələr bir diviziya, briqada, batalyon və ya hətta bölük deyil, kiçik bir dəstənin üzvlərindən sağ qalanların dilindən nəql edilib. Bu cür işlər, həqiqətən, çox dəyərlidir. Həmin kitabın gözəl qələm sahibi olan müəllifi gedib həmin adamlarla görüşüb və

hadisələri onların dilindən nəql edib və nəticədə 600-700 səhifəlik bir kitab alınıb. Biz Fao əməliyyatının ancaq adını eşidirik. Həmin əməliyyatda görülən işlərin çoxunu üzdən bilirik: Ərvənd çayından keçdilər, Fao yarımadasını aldılar, duz zavodunu ələ keçirdilər, filan işi gördülər və sairə. Biz hadisələri belə – ümumi şəkildə bilirik. Amma həmin hadisələrin addım-addım necə baş verdiyini bilmirik.

Böyük ustalıq və məharətlə çəkilmiş bir miniatürü çəkib qoyublar qarşımıza, biz də uzaqdan durub tamaşa edir, "bəh-bəh" deyirik. Daha yaxına gedib bu miniatürün meydana gəlməsi üçün nə qədər zəhmət çəkildiyinə baxmaq istəmirik. Mənim oxuduğum kitab həmin işlərin bir nümunəsini təsvir edirdi. Ümid edirəm ki, bu qəbil işlərin davamı da olacaq.

O, əxlaqi yüksəliş nümunəsi idi. Adam İslam, Allah, qeybə inam, qeybə imanın insana verdiyi əxlaqi fəzilətlərin onun həyatına necə təsir etdiyini onda başa düşür. İnsan bunu həmin şeylərdən xəbərdar olanda başa düşür. Bu iş davam etdirilməli idi. Davam etdirilmədi və lazımi həddə çatmadı. Biz gərək özümüzlə bundan artıq məşğul olaq.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*22.IX.2007*

# Fitr bayramı Allaha şükür bayramıdır

Ramazan bayramı, əslində, şükür bayramıdır, bir aylıq ilahi ziyafətin müvəffəqiyyətlə başa vurulmasına, oruc tutmağın, Allah dərgahına ibadət, itaət və dua edilməsinin nəsib olmasına görə şükür bayramı. Həqiqətən, mömin şəxs bunlara şükür etmək üçün bayram etməlidir.

Etibarlı mənbələrdən əldə etdiyim məlumata əsasən əziz İran xalqı bu ayda gözəl işlər görüb, bu bərəkətli aydan layiqincə bəhrələnib. Hansı ictimai təbəqəyə, ictimai qrupa mənsub olmasından, baxışlarından, maraqlarından, həyat tərzi, davranış və geyimindən asılı olmayaraq, fərqli xüsusiyyətə malik insanların hamısı bu ayda Allahın qapısına gəlib. Bu böyük nemətə – müsəlman xalqın imanına, qəlbən dinə, dini və islami həqiqətlərə üz tutmasına görə Allaha çox şükür etmək lazımdır. Bu, İran xalqının bariz xüsusiyyətlərindəndir. Kütləvi informasiya vasitələrində, radio, televiziya və qəzetlərdə insanların dindarlığı barədə deyilənlər, şübhəsiz, onların dinə

diqqətinin mində birini belə əks etdirmir. Bu böyük ölkədə, bu şəhərlərdə, kəndlərdə, on minlərlə məscid, hüseyniyyə və digər mərkəzlərdə bu xalq, gənclər, qızlar, oğlanlar qədr gecələrində və digər günlərdə toplaşaraq Allah dərgahına üz tutublar, hacətlərini Allahdan istəyiblər, Allahla danışıb raz-niyaz ediblər. Bu, çox dəyərlidir.

## Ramazan ayının dərsləri

Bu ayda bizim üçün bəzi dərslər var. Əlbəttə, onlar insanın müəllimdən və ya kitabdan öyrəndiyi dərslər kimi deyil. O, insanın təcrübə ilə, böyük ictimai işlərlə öyrəndiyi dərslər növündəndir. Həmin dərslərin birincisi Alllahla əlaqə qurmağın öyrənilməsi və Onunla qəlbən yaranan əlaqənin qorunması dərsidir. Siz bu dərsin şirinliyini daddınız və Allah-taala ilə əlaqə qurmağın necə asan olduğunu gördünüz. "Sənə tərəf gələnin yolu yaxındır. Sən yaratdıqlarınla Özün arasında pərdə çəkmirsən, sadəcə əməlləri onları Səndən ayırır".[1] Allaha tərəf gedən yol yaxındır. Siz qədr gecəsində, dua və raz-niyaz zamanı bunun şahidi oldunuz. Siz Allahla raz-niyaz etdiniz, qəlbinizi Allaha hədiyyə apardınız, Ona olan məhəbbətinizi möhkəmləndirdiniz. Bu böyük həzzi qoruyun, bu əlaqənin kəsilməsinə imkan verməyin. Bu, birinci dərsdir.

İkinci dərs xalqın müxtəlif baxışlı insanlarının din və tövhid ətrafında birləşməsidir. Biz milli birlikdən, İran xalqının vəhdətindən danışırıq. Bu vəhdət əsassız deyil. Biz onu quru tövsiyə, bir göstəriş və fərman olsun deyə demirik. Bu vəhdət dini imandan qaynaqlanır. Bizi bir mərkəzə doğru çəkən din və imandır. Həmin mərkəz

1. İqbalul-əmal, c. 1, səh. 68

diqqətin Allah-taalanın müqəddəs zatına yönəldilməsindən ibarətdir. Bu bizim milli birliyimizə səbəb olur, qəlbləri bir-birinə yaxınlaşdırır, yumşaldır. Camaat namazında, cümə namazında, əhya gecələrində, başa Quran qoyulanda, dua oxunanda sizin kənarınızda kimin, hansı baxış sahibi və hansı ictimai qrup mənsubunun oturmasından, onun hansı qiyafədə olmasından asılı olmayaraq, o, sizin qardaşınız, yoldaşınız, Allah dərgahında sirdaşınızdır. Qəlblər arasında olan bu əlaqəni qoruyun. Bu, ikinci dərs idi.

Üçüncü dərs insanın özünə təzyiq göstərməsi və başqalarına əl tutmasıdır. İnsan oruc tutub sübh azanından axşam azanına kimi aclıq və susuzluq çəkməklə özünə təzyiq göstərir. Xalqın böyük hissəsi oruc tutmaqla özünə təzyiq göstərib, başqalarına müxtəlif cəhətdən əl tutub. Adam ramazan ayının 15-də İmam Həsənin doğum günündə çörək sexinin qarşısında "bu gün İmam Həsənin eşqinə bu sexdə çörək pulsuz – yalnız salavat qarşılığında verilir, istəyən gəlib götürə bilər" yazısı görəndə nə qədər həzz alır! İftarlarda – məscidlərdə təşkilatçısı bilinməyən iftar süfrələrində edilən maddi yardımlar da bir başqa dərs, bir başqa mənəvi məşqdir. Gəlin özümüzə təzyiq göstərək və başqalarına əl tutaq. Mən bu məsələ üzərində bir az dayanmaq istəyirəm. Çünki bu, bizim ölkə və cəmiyyətin mühüm problemlərindəndir.

Biz israfçıyıq. Su, çörək, çərəz, benzin və sairənin istifadəsində israfa yol veririk. Ölkəmiz neft istehsalçısı olsa da, neft məhsulları – benzin – idxal edir. Sizcə, bu təəccüblü deyil?! Hər il milyardlarla pul verib benzin və ya başqa şeylər idxal edirik. Niyə? Çünki cəmiyyətin bir hissəsi bədxərclik etmək istəyir! Sizcə, bu nə dərəcədə düzgündür?! Biz buna milli problem kimi baxırıq.

İsrafçılıq pis şeydir. İsrafçılıq hətta Allah yolunda ianə verəndə də pisdir. Allah-taala Quranda Öz elçisinə belə buyurur: *"Əlini nə qoynunda gizlət, nə də onu büsbütün aç"*.[1] Allah yolunda ianə verəndə də mötədil davranmaq lazımdır. Xərclərdə mötədil olmaq lazımdır. Biz bunu bir mədəniyyət halına salmalıyıq. Quran buyurur: *"Onlar Allah yolunda xərclədikdə nə israfçılıq, nə də xəsislik edərlər"*.[2] Onlar nə ifrata vararaq israf edirlər, nə də özlərini sıxıntıya salır, sıxıntı içində yaşayırlar. Xeyr, İslam bunu da tövsiyə etmir. İslam insanların asket həyat tərzində yaşamasını tövsiyə etmir. Xeyr! Orta həddə yaşayın. Görürsünüz, burnunu hər yerə soxan bəzi xarici qüvvələr və dövlətlər neçə ildir durmadan bizi iqtisadi sanksiyalarla hədələyirlər və elə hey "iqtisadi sanksiya tətbiq edəcəyik, iqtisadi sanksiya tətbiq edəcəyik, iqtisadi sanksiya tətbiq edəcəyik" deyirlər. İqtisadi sanksiyanı neçə dəfə tətbiq ediblər də. Çünki onlar bizim bu mənfi xüsusiyyətimizə göz dikiblər. Əgər biz bədxərclik etsək, təbii ki, iqtisadi sanksiyalar bizə pis təsir edər. Amma əgər xalqın hər şeyi hesab-kitaba əsaslansa və o, həm mədaxil, həm də məxaricini, xeyir-ziyanını bilsə, israfçılıq etməsə, həddi aşmasa, iqtisadi sanksiya tətbiq edilməsi ilə ona heç nə olmaz. Belə olan xalqa iqtisadi sanksiya heç bir zərər vura bilməz. Ramazan ayından bu dərsi öyrənək və inşallah, ona əməl edək.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*13.X.2007*



1. İsra, 29
2. Furqan, 67

# Fitr bayramı müsəlmanların vəhdət simvoludur

Fitr bayramını bir cəhətdən İslam ümmətinin vəhdət və birlik bayramı hesab etmək olar. Çünki ramazan ayında qəlblər nuranilәşir, yumşalır və insanların vücudunda ixtilafa səbəb olan mənfur amillər zəifləyir. Fitr bayramı, əslində, fitrətə dönüş ayıdır. İnsanın fitrəti Allah-taalaya, tövhidə, vahid ülvi mərkəzə dönüş nöqtəsidir və insanların bütün maraq və hissləri orada toplanaraq bir araya gələ bilər.

Fitr bayramının namazı İslam dünyasının hər yerində həmin vəhdətin rəmzidir. Buna görə də biz bu namazın qunutunda belə oxuyuruq: "İlahi, müsəlmanlar üçün bayram, Məhəmməd üçün azuqə, şərəf, kəramət və başucalığı amili etdiyin bu günün ehtiramına Səndən istəyirəm ki..."[1] Bu bayram həzrət Peyğəmbərin bərəkətli vücudu üçün azuqə, şərəf, kəramət və başucalığı amilidir.

1. İqbalul-əmal, c. 1, səh. 289

Bu xüsusiyyətlər nə vaxt əldə edilir? – müsəlmanların qəlbi arasında ülfət və barışıq yarananda! Bunu həm milli səviyyəyə, həm də ümmət səviyyəsinə aid etmək olar. Onun milli səviyyəsini böyük İran xalqı uzun müddət – inqilabdan bu günə kimi təcrübədən keçirib. Vəhdət və həmrəylik onun izzət və qüdrət vasitəsidir.

*Dövlət məmurları ilə görüşdəki çıxışdan*
*13.X.2007*

# Qurani-kərimə qulaq asmaq

Allahın kəlamını dinləmək üçün məclislər təşkil edək. Məclislər çox olur, amma Qurana rəğbəti olan əziz xalqımızın Qurana qulaq asması üçün xüsusi məclislər keçirilməsinə də ehtiyac var. Gənclərin, Quranı üzündən oxumağı, ya təcvid qaydalarını bilməyənlərin, müxtəlif qiraətləri öyrənən şəxslərin təlim kursları öz yerində, həmin kurslardan əlavə, Quran məclisləri də keçirilməlidir. Gərək bir qari gəlib otursun, biz də minbərə çıxıb moizə edən şəxsə və ya Əhli-beyt məddahına qulaq asdığımız kimi ona qulaq asaq, ondan bəhrələnək. Bütün sözlər, dəlillər, sübutlar, xütbələr, şeirlər, nəsrlər əgər doğru olsalar belə, ikinci dərəcəlidirlər. Əsas Allahın kəlamı, ilahi vəhy, qeybdən həzrət Peyğəmbərin müqəddəs qəlbinə nazil olan və o həzrətin bizim ixtiyarımızda qoyduğu pak və müqəddəs sözlərdir.

Allaha şükür ki, Quran bu günə kimi təhrif edilməyib. Biz gərək bundan istifadə edək. Gənclər ərəb dilini bilmədikləri üçün Quranı başa düşmürlərsə, Allaha şükür,

bu gün çoxsaylı tərcümələr var, onlardan istifadə edə bilərlər. Məclisin qarisi Quran oxuyanda onlar da oxunan ayənin tərcüməsini oxusunlar, ondan bəhrələnsinlər. Ayələri birbaşa Allahın Özündən eşidin, qəlbinizi Allahın kəlamı ilə tanış edin. Bizim bu barədə çatışmazlıqlarımız var. Gərək orta məktəblərdə Quran – hətta onun bəzi seçmə ayələri – uşaqlara elə öyrədilsin ki, onların öyrəndiyi həmin ayələr ömürlərinin sonuna kimi bir rəsm tablosu kimi gözlərinin önündə olsun və gənclər müxtəlif vaxtlarda ondan istifadə etsinlər.

*Zabit akademiyalarının məzunlarının ümumi buraxılış mərasimindəki çıxışdan 23.VIII.2008*

# Səbirlə namazın Qurani-kərimlə əlaqəsi

Bu bərəkətli ayə və ya daha dəqiq desək, bu bərəkətli cümlə – *“səbir və namazdan kömək alın!”*[1] cümləsi Quranda – “Bəqərə” surəsində – iki dəfə təkrar edilib. Onların birində kitab əhlinə xitab edilərək belə buyurulur: *“Səbir və namazdan kömək alın! Bu iş itaətkarlardan başqası üçün ağırdır”.*[2] Başqa bir ayədə möminlərə xitab edərək buyurur: *“Ey iman gətirənlər! Səbir və namazdan kömək alın. (Çünki) Allah səbir edənlərlədir”.*[3] Birincisi, bu ayələr səbir və namazın xüsusi əhəmiyyət daşıdığını göstərir və onların İslam cəmiyyətinin çatmaq istədiyi ülvi məqsədlərə çatmasında böyük təsirə malik olduğunu bəyan edir. İkincisi, o, bu iki şey, yəni səbir ilə namaz arasında, həmçinin onlarla müqavimət, dözümlülük və yaradılışın mənbəyi ilə qəlbən və mənəvi cəhətdən bağlılığın olduğunu göstərir. Bu iki nəticə ümumilikdə

1. Bəqərə, 45
2. Bəqərə, 45
3. Bəqərə, 153

həmin ayələrdən, xüsusilə iman gətirənlərə xitab edən ayədən çıxır. Bu bərəkətli ayədən qabaqkı ayədə – *"Məni xatırlayın ki, Mən də sizi yad edim. Mənə şükür edin və (nemətlərimə) nankorluq etməyin"*[1] ayəsində Allahı xatırlamaqdan və şükürdən danışılır. Ondan sonrakı ayədə isə cihaddan söz açılıb: *"Allah yolunda öldürülənlərə ölü deməyin. Əksinə, onlar diridirlər, lakin siz dərk etmirsiniz"*.[2] Ondan sonra da bu məşhur ayələr gəlir: *"Əlbəttə, sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul itkisi ilə imtahan edirik. Səbir edənlərə müjdə ver. O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq və Ona tərəf qayıdacağıq", – deyirlər. Onlara Rəbbi tərəfindən lütflər və mərhəmət var"*.[3] Ümumilikdə bu ayələrdən qeyd edilən iki ünsür arasında əlaqə olması məlum olur. Bu iki ünsürün həm özü mühümdür, həm də onlar arasında olan əlaqə. Mən sonradan səbir mövzusuna yenidən qayıdaraq onun barəsində bir az artıq izah verəcəyəm.

Səbir ilə namaz arasındakı əlaqəyə gəldikdə, qeyd etmək lazımdır ki, əslində, ayənin ərəbcə orijinalında "səlat" sözündən istifadə edilib. "Səlat" sözünü ümumi mənada – diqqətin Allaha yönəldilməsi, zikr və itaətkarlıq mənasında götürün. O, zikr və Allahı xatırlamaq halı olmayan namazı nəzərdə tutmur. Buna görə də "səlat" barəsindəki ayədən sonra buyurur: *"Namaz (insanı) çirkinliklərdən və günahdan çəkindirir. Allahı xatırlamaq daha böyükdür"*.[4] Bu, namazın xüsusiyyətidir. Pisliklərdən və günahlardan çəkindirmək xüsusiyyətindən də mühüm məsələ Allahı xatırlamaqdır ki, bu da namazda mövcuddur.



1. Bəqərə, 152
2. Bəqərə, 154
3. Bəqərə, 155-157
4. Ənkəbut, 45

Bu "səlat", yəni Allahı xatırlamaq, diqqətin Ona yönəldilməsi və Onunla qəlbən əlaqə qurmaq səbrin möhkəmləndirilməsində mühüm rol oynayır. İndi ayə, hədis və islami meyarlara əsasən səbrin əhəmiyyəti məlum olandan sonra – əlbəttə, o, siz dostlara məlumdur – "səlat"ın, Allahı xatırlamağın nə qədər əhəmiyyətli olması, onun bu sabitlik amilini, yəni səbri qəlbimizdə, ruhumuzda, həyatımızda, düşüncəmizin üfüqündə nə qədər möhkəm təsbit edə bilməsi məlum olur. Buna görə də Quran buyurur: *"Səbir et! Sənin səbrin ancaq Allah üçün və Allahın yardımı ilə olsun"*. Əlbəttə, Quranda "səbir et!" əmri çoxdur. Əgər insan həmin ayələri oxumaq istəsə, onların hər birinin bir elm dəryası olduğunu görər. İndi buyurur: *"Səbir et! Sənin səbrin ancaq Allah üçün və Allahın yardımı ilə olsun"*.[1] Sən Allahın yardımı ilə səbir edə bilərsən. Yəni möhkəmlik və dözümlülük sonsuz Allahı xatırlamaq mənbəyinə birləşəndə sonsuz olur. Əgər biz səbri – möhkəmlik, sabitlik, sarsılmazlıq, geri dönməmək mənasında olan səbri sonsuz "Allahı xatırlamaq" mənbəyinə birləşdirsək, o, tükənməz, sona çatmaz. Səbrin sona çatmamasının mənası insanın bütün zirvələrə doğru dayanmadan hərəkət etməsidir. O, həm dünya, həm də axirət zirvələrini – elm, sərvət, siyasi güc, mənəviyyat, gözəl əxlaq və ülvi insanlıq zirvələrini – ehtiva edir. İnsan bunların heç birində dayanmır. Çünki bizim dayanmağımızın səbəbi səbirsizlikdən qaynaqlanır. İki qoşun qarşı-qarşıya gələndə də səbri tez tükənən məğlub olur, səbri çox olan isə qalib gəlir. Çünki müəyyən bir anda qarşı tərəfin səbri qurtarır. Bu, sözü gedən məsələnin zahiri və bariz nümunəsidir. Məsələ bütün meydanlarda belədir.

1. Nəhl, 127

Bütün təbii problemlər, kamillik yolunda insanın qarşısını kəsən bütün maneələr də belədir. Əgər insanın səbri tükənməsə, həmin maneə tükənəcək. İslamın həmişə qalib olmasının mənası da budur. *"Bizim qoşunumuz qalibdir"*[1] ayəsi də bu mənadadır. Allahın qoşunu, firqəsi, bəndəsi də həmin tükənməz mənbə ilə əlaqədə olduğu üçün insanı məğlub edən bütün problemlər qarşısında müqavimət göstərir. Bu tərəfdə müqavimət olanda, təbii ki, qarşı tərəf məğlub olacaq. Əlbəttə, əgər biz Allahın qoşunu və firqəsiyiksə, amma qeyd edilən əlaqəyə malik deyiliksə, belə bir qələbənin olacağına zəmanət yoxdur. Buna görə də həmin əlaqəni bərqərar etmək lazımdır. "Səlat"ın, Allahı xatırlamağın, ramazan ayının da əhəmiyyəti bundadır. Özünüislah və təqva fürsətinin, həmçinin ramazan ayının gecə və gündüzlərinin duasında qəlbdə yəqin azuqəsinin artırılması fürsətlərinin qədrini bilmək lazımdır. Əgər bunlar olsa, İslam cəmiyyəti və ümmətinin, müsəlman bəndənin səbri bütün problemlərə qalib gələcək səviyyədə olar. Bundan sonra həmin cəmiyyət siyasət, iqtisadiyyat, əxlaq və mənəviyyat meydanlarında irəliləyə bilər. Bu bir gerçəklikdir. Biz gərək özümüzü bu gerçəkliyə yaxınlaşdıraq.

## Səbrin üç meydanı

Səbir barəsində bunu çox eşitmisiniz, buna hədislərdə də çox toxunulub ki, səbir üç sahəyə aiddir: itaətə səbir, günah qarşısında səbir və müsibət qarşısında səbir.

"İtaətə səbir"in mənası budur ki, siz hər hansı bir lazımi və vacib işi, ibadəti, itaəti yerinə yetirmək istəyəndə

1. Saffat, 173

onun çox çəkməsindən yorulmamalı, onu yarı yolda boşlamamalısınız. Məsələn, hansısa ibadət, müstəhəb namaz və ya dua zahiri baxımdan uzundur. "İtaətə səbir"in mənası insanın bu uzun namaz və duadan, yaxud ramazan ayının orucunun davam etdirilməsindən, vacib namazlarda diqqətin Allaha yönəldilməsindən, Quran oxumaqdan yorulmaması, bezməməsidir. Bu, itaətə səbirdir.

"Günah qarşısında səbir"in mənası insanın günah qarşısında özünü cilovlamasıdır. Gördüyünüz kimi, söhbət yenə də möhkəm dayanmaqdan gedir. İtaətdə möhkəmlik qeyd etdiyimiz kimi idi. Günah qarşısında möhkəmlik insanın günaha cəzb olunmaması, təhrik edilməməsi, nəfsi istəklərin təsiri altına düşməməsidir. O, bir yerdə özünü cinsi şəhvət şəklində, bir yerdə pul şəklində, bir yerdə vəzifə şəklində, bir yerdə şan-şöhrət şəklində göstərir. Bunların hamısı nəfsi istəklərdir. Hərənin nəfsi istəyi bir cürdür. "Günah qarşısında səbir"in mənası insanın məqsədi yolunda haram bir işlə qarşılaşanda onun insanı özünə cəzb etməməsidir. Məsələn, uşaq şirniyyat olan bir qaba çatmaq istəyir. Onunla şirniyyat arasındakı yolda qrafin, stəkan, çini qab var, amma o, bunların heç birini görmür, onların hamısını vurub sındırır. Günaha cəzb olunan insan belədir. Yolu üzərində nə olduğuna baxmır. Bu, çox təhlükəlidir. Çünki o həm də qəflət içindədir və nə etdiyini bilmir, dərk etmir. O, qəflət içindədir və özünün qəflətdə olduğunu da bilmir. Uşaq nə etdiyini bilmir, amma bilmədiyini də bilmir. O, bu qrafinə, ya çini qaba, ya bahalı güldana diqqətsizlik etdiyini də dərk etmir. O, bu diqqətsizliyini də dərk etmir. Buna görə də gərək gözümüzü açaq, ehtiyatlı olaq, qəflətə düçar olmayaq. Bu, "günah qarşısında səbir"dir.

“Müsibət qarşısında səbir”in mənası insanın bir sıra acı hadisələrlə, itkilərlə, ayrılıq, ölüm-itim, yoxsulluq, xəstəlik, dərd, əzab-əziyyət və digər hadisələrlə qarşılaşanda onlara səbir etməsidir. Bu hadisələr insanı sındırmamalıdır və o, həmin müsibətlə dünyanın sona çatdığını düşünməməlidir. Bu üç meydan səbir meydanıdır və onların üçü də mühümdür. *“Onlara Rəbbi tərəfindən lütflər və mərhəmət var”*[1] ayəsinin mənası Allah-taalanın bütün bunlara görə səbir edənə salavat göndərməsi və lütf göstərməsidir.

## Səbrin üç meydanının ictimai cəhətləri

Bu üç meydan bəzən – zehnə gələn, qeyd edilən və hamınızın bildiyi misallarda olduğu kimi sırf şəxsi xarakter daşıyır. Bəzən isə qeyri-şəxsi – ictimai, ümumi məsələlərə, başqa sözlə desək, hər hansı bir toplunun, ümmətin, xalqın, ölkənin taleyi ilə əlaqəli olan işlərə aid olur. Məsələn, fərz edin, insanın israr etməli olduğu itaətin yerinə yetirilməsi, yaxud yetirilməməsi hər hansı bir ölkənin taleyi ilə bağlı olur. Buna misal olaraq müqəddəs müdafiə dövründə Allah yolunda cihad etməyi göstərmək olar. Həmin vaxt cəbhəyə getmək itaət idi. Ölkənin və quruluşun müdafiə edilməsində möhkəm dayanmaq vacib iş və itaət idi. O, şəxsi məsələ deyildi. Cəbhəyə gedən hər bir döyüşçü müharibəyə getmək və müqavimət göstərməklə ölkənin taleyini həll edirdi. Bir zamanlar itaət bu cür idi. Yaxud siz millət vəkilisiniz, nazirsiniz, müdirsiniz, hərbçisiniz və ya hansısa elmi mərkəzdə fəaliyyət göstərirsiniz – harada məşğul olmağınızdan asılı olmayaraq – lazımi işi yerinə yetirməlisiniz. Həmin iş itaət – Allaha itaət və

1. Bəqərə, 157

Onun bəndələrinə xidmətdir. Bu, Allaha itaətin, İslam Respublikasında vəzifədə olmağın bir cəhətidir. Bu da Allaha itaətin bir formasıdır. Bu ilahi quruluşda çalışan dövlət məmurlarının gördüyü işlər bütünlüklə ilahi vəzifədir. Sizin – istər polis olun, istər iqtisadçı, istər təhlükəsizlik məmuru, istər siyasi şəxsiyyət, istərsə də başqası – bu işdən yorulmağınız səbirsizlikdir. Bu, *"səbir və namazdan kömək alın!"*[1] göstərişi ilə ziddiyyət təşkil edir.

Yaxud bir şey günahdır, amma onun çirkin cəhəti və nəticəsi təkcə onu edən şəxsin özünə aid olmur. *"Siz təkcə zalımlara toxunmayacaq bəladan qorxun"*.[2] İnsan bəzən xoşagəlməz bir iş görür, yersiz bir söz danışır, yersiz addım atır, lazımsız bir imza atır – bu biz məsul şəxslərə aiddir – və onun altını bir ölkə, bir cəmiyyət və ya bir təbəqə çəkir. Bu da günahdır. "Günah qarşısında səbir" burada daha geniş məna verir. Bu səbir ilə sizin, məsələn, rüşvətlə qarşılaşıb səbir etməyiniz və onu qəbul etməməyiniz arasında fərq var. Bu, çox böyük və təqdirəlayiq işdir. Amma hər halda şəxsi günah qarşısında səbirdir. Bunun yuxarı mərhələsi zərbəsi şəxsə deyil, cəmiyyətə dəyən günah qarşısında səbir etməkdir. Deməli, günah qarşısında səbrin meydanı belədir.

Müsibət qarşısında səbir də belədir. Müsibətlər bəzən şəxsi olur, bəzən ümumi. Məsələn, ölkənin məsul şəxsləri müxtəlif təxribat, böhtan, şər, təhqir və iftiralarla qarşılaşırlar. Özünüz də görürsünüz, müasir beynəlxalq agentliklər, kütləvi informasiya vasitələri, media mənsubları, yazarlar, natiqlər nə qədər sözlər danışır: İran İslam Respublikası əleyhinə İslama görə bir danışırlar,

1. Bəqərə, 45
2. Ənfal, 25

inqilaba, onun imperialistlərin gözündəki xoşagəlməz ideyalarına görə bir danışırlar, onda fəaliyyət göstərən və bəyənmədikləri bəzi şəxslərə görə bir danışırlar. Yəni İslam Respublikasına müxtəlif cəhətlərdən və müxtəlif yollarla hücum edirlər. Bunlar müsibətdir və onlara səbir etmək asan deyil. Biz dünyanın bəzi böyük və məsul şəxsləri ilə yaxından görüşmüş, bəzilərindən bəzi şeylər eşitmişik. Beynəlxalq səviyyədə aparılan bu əks təbliğat və böhtanlar onlarda müəyyən fikirlər formalaşdırıb. Bunlara dözmək çətindir. Bu da müsibət qarşısında səbir nümayiş etdirməyin bir növüdür.

Buna görə də böyük əhəmiyyətə malik səbri qeyd edilən üç meydanda nəzərə almaq lazımdır. Onun nəzərə alınmalı cəhətlərindən biri şəxsi məsələlərdir. Bu, mühüm cəhətdir və biz ona başqalarından daha çox əhəmiyyət verməliyik. Onun nəzərə alınmalı olduğu ikinci cəhət ictimai, siyasi, ümumi, milli cəhətidir. Bu, bizlərə aid cəhətdir. Ümumilikdə xalq kütləsi belə işlərlə qarşılaşmır. Bu bizə, mənə, dövlət qulluqçusu olan, ədliyyə sistemində işləyən, millət vəkili olan sizlərə, məsul şəxslərə məxsusdur. Hər iki mərhələ və səviyyədə bu üç cəhəti nəzərə almaq, səbirdən kömək almaq lazımdır. Əsas məsələ budur.

*Üç hakimiyyət (qanunverici hakimiyyət, icra hakimiyyəti və məhkəmə hakimiyyəti) başçıları və dövlət məmurları ilə görüşdəki çıxışdan 10.IX.1999*

# Qədr gecələri itaətkarlıq baharıdır

Cümə günü və qədr gecəsi – özü də ramazan ayında və oruc tutmuş qardaş və bacıların hüzurunda cümə namazından qabaq söhbət etmək üçün olan bu bir neçə dəqiqə qəlbimizi Allahın lütf və mərhəmət mənbəyi ilə tanış etmək, Allahın köməyi ilə qəlbimizdə təqva ağacının yetişməsinə zəmin yaratmaq üçün gözəl fürsətdir.

Birincisi, qədr gecəsi dua etmək, raz-niyaz edib Allaha üz tutmaq üçün gözəl fürsətdir. Ramazan ayı, xüsusilə qədr gecələri qəlblərin Allaha yönəlməsi, zikr, raz-niyaz və itaətkarlıq baharıdır. İkincisi, o, qəlbimizi bütün təqva əhlinin əmiri Əmirəl-mömininin uca məqamı ilə az da olsa, tanış etmək və ondan lazımi dərslər öyrənmək fürsətidir. Ramazan ayının fəzilətləri, əməlisaleh bəndələrin bu aydakı vəzifələri barədə hər nə demək mümkündürsə, Əmirəl-möminin onun kamil və bariz nümunəsi olub. Mən birinci xütbədə Əmirəl-möminin haqqında danışacağam ki, o həzrətlə bir az yaxından tanış olaq. Əslində, o həzrət

barədə nə deyilibsə, demişiksə, eşitmişiksə, o həzrətin əzəmətli məqam və şəxsiyyəti ilə müqayisədə çox azdır. Biz o həzrətin nə cihadını, nə Allaha yaxınlaşmaq istiqamətindəki səylərini, nə həyatındakı çətinlikləri, nə də gördüyü işlərin əzəmətini təsvir edə bilərik.

## Əmirəl-mömininin əxlaqi və tərbiyəvi cəhəti

Mən bu gün Əmirəl-möminindən dərs almaq üçün o həzrətin çoxşaxəli fəaliyyətindən birinə işarə edəcəyəm. O, Əmirəl-mömininin əxlaqi və tərbiyəvi cəhətidir. Əmirəl-möminin İslam cəmiyyətində hakimiyyətə gələndə İslam ümmətinin vəziyyəti dünyasını dəyişmiş Peyğəmbər zamanından çox fərqli idi. Həzrət Peyğəmbərin dünyasını dəyişməsi ilə Əmirəl-mömininin hakimiyyətə gəlməsi arasında 25 il fasilə olub və həmin müddət ərzində çoxsaylı hadisələr baş verib. Həmin hadisələr İslam cəmiyyətinin düşüncə, fikir, əxlaq və əməlinə təsir etmişdi. Bütün bunlardan sonra Əmirəl-möminin cəmiyyəti və xilafəti təhvil aldı.

Əmirəl-möminin həmin böyük İslam torpaqlarında beş ilə yaxın hakimiyyətdə oldu. Həmin beş ilin hər günündə bir ibrət dərsi var. Əmirəl-mömininin gördüyü davamlı işlərdən biri insanların əxlaq və tərbiyəsi ilə məşğul olmaq olub. Cəmiyyətdə baş verən bütün yanlışlıqların kökü əxlaqdır. İnsanın işlərinin istiqamətini onun əxlaqı, xüsusiyyət və sifətləri müəyyənləşdirir. Əgər biz hər hansı bir cəmiyyətdə və ya dünyada əyriliklərlə qarşılaşırıqsa, onun səbəbini onların xoşagəlməz xüsusiyyətlərində axtarmaq lazmdır. Bu həqiqət Əmirəl-mömininini mühüm bir həqiqəti bəyan etməyə vadar edir. Həmin ülvi həqiqət budur ki, insanın həmin xoşagəlməz

və zərərli xüsusiyyətlərinin çoxu dünyapərəstlikdən qaynaqlanır. O həzrət buyurur: "Bütün səhvlərin kökü dünyapərəstlikdir".[1] Həmin xətalar bizim fərdi və ictimai həyatımıza mənfi təsir edir. Dünyapərəstlik nədir? Dünya nədir?

## Dünya İslam təlimləri prizmasından

Dünya Allah-taalanın yaradıb insanların ixtiyarında qoyduğu əzəmətli təbiətdən ibarətdir. Dünyanın mənası budur. Dünya ümumilikdə Allah-taalanın varlıq aləmində yaratdığı bu nemətlərdən ibarətdir. Onların birincisi, bizim ömrümüzdür. Dünyada əldə edilən gəlirlər, dünyada göstərilən səylərin nəticələri – bunların hamısı dünyadır. Övlad da dünyadır, mal da dünyadır, elm də dünyadır, təbii sərvətlər də dünyadır, sular, yeraltı mədənlər, insanın təbiət aləmində gördüyü və bizim dünya həyatımızın tərkib hissəsini təşkil edən şeylər də. Yaxşı, bəs bunun harası pisdir? Dini və islami təlimlərin bəzisində bizə dünyanı abadlaşdırmaq tövsiyə edilib. Allah yer üzündə olanların hamısını sizin üçün yaradıb, gedin dünyanı abadlaşdırın, həm özünüzün, həm də başqalarının təbii nemətlərdən bəhrələnməsinə şərait yaradın. Hədislərin bəzisində belə deyilir: "Dünya axirətin tarlasıdır, Allah bəndələrinin ticarət yeridir". Hədislərdə bu və buna bənzər ifadələrdən istifadə edilib və bunların hamısı dünyaya müsbət baxışın olmasından xəbər verir.

Başqa islami mənbə və təlimlərdə isə dünya səhvlərin əsas səbəbi, günahların kökü kimi təqdim edilib. Ümumilikdə İslam təlimlərindən bu iki nəticə çıxır. Əlbəttə,

1. Təsnifu ğurəril-hikəm və durəril-kəlim, səh. 142

bu barədə dərin araşdırmalar aparılmalıdır və aparılıb da. Həmin axtarışların xülasəsi budur ki, Allah-taala bu təbiət süfrəsini insan üçün yaradaraq bütün insanlara Allahın bu təbii nemət süfrəsindən bəhrələnmək və onu bəşəriyyətə daha gözəl formada təqdim etmək göstərişi verib. Amma buna bir sıra qanunlar hakimdir və bəzi qadağan zonalar da mövcuddur. Bəyənilən və təriflənən dünya insanın Allahın bu təbii nemət süfrəsindən Allahın qanunları çərçivəsində bəhrələnməsi, onun çərçivəsindən kənara çıxmaması, qadağan edilmiş zonalara ayaq basmamasıdır. Qınanan dünya isə insanın Allahın insanlara verdiyi bu neməti özü üçün istəməsi, özünə başqalarından artıq pay götürməyə çalışması, başqalarının haqqına əl uzatması, qəlbən ona bağlanmasıdır. Bu bağlılıq insanın gözünün kor, qulağının kar olmasına səbəb olur. Nəticədə o, sevdiyi və qəlbən bağlandığı şeyi əldə etmək üçün bütün vasitələrə əl atır, heç bir çərçivəyə əməl etmir. Bu, qınanan, məzəmmət edilən dünyadır. Qəlbən dünyaya bağlanmaq, öz haqqından artıq pay istəmək, başqalarının haqqına əl uzatmaq dünyanın qınanmış formasıdır. Mal da, dünya da, vəzifə də, qüdrət də, şan-şöhrət də, nemətlər də, təbii ləzzətlər də dünyadır. Həm İslam, həm də ilahi dinlər ümumilikdə bu dünyadan bəhrələnməyi halal hesab edirlər. Amma başqalarının haqqına əl uzatmağı, özünü bu nemətlərə qərq etməyi, əsas məqsədi unutmağı qadağan ediblər, qınayıblar. Bu dünya yüksəliş və təkamül vasitəsidir, o, məqsədə çevrilməməlidir. Bu nüans nəzərə alınmayanda dünya qınaq və məzəmmət obyekti olur.

Əmirəl-möminin iş başına gələndə İslam dünyası bu bəlaya düçar olmuşdu. O, açıq-aydın haqqın, yəni Əli ibn Əbu Talib kimi şəxsin mübahisə obyektinə çevrilməsinə,

bəzilərinin o həzrətin məqamına, mənəviyyatına, parlaq keçmişinə, İslam cəmiyyətinin idarə edilməsində misilsiz səlahiyyətlərinə göz yumulmasına, ona qarşı mübarizə aparılmasına səbəb olub. Bunun səbəbi dünyapərəstlikdir. Əmirəl-mömininin qarşılaşdığı sapıntının – "Nəhcül-bəlağə"də həmin çoxsaylı sapıntılar qeyd edilib – səbəbi dünyapərəstlikdir. Əgər siz bu gün dünyaya baxsanız, bunun şahidi olarsınız. Dünyada işlərin idarəçiliyi dünyapərəst, öz mənafeyini güdən, təcavüzkar şəxslərin əlinə düşəndə vəziyyət belə də olmalıdır. Birincisi, insanların hüquqları pozulur; ikincisi, insanların Allahın bu təbii nemət süfrəsindəki haqq və payı nəzərə alınmır; üçüncüsü, bu dünyapərəstlər öz məqsədlərinə çatmaq üçün cəmiyyətdə fitnə və müharibələr yaradır, yalançı təbliğat, namərd siyasətlər aparırlar. Bütün bunlar dünyapərəstlikdən doğur. Fitnə mühitində, yəni cəmiyyətdə qarışıqlıq olanda insanlar dumanlı və küləkli havada olduğu kimi, bəzən iki metr qabağı görə bilmir. Fitnə zamanı belə bir vəziyyət yaranır. Vəziyyət belə olanda insanların çoxu səhvə düçar olur, sayıqlığını itirir. Belə bir mühitdə yersiz cahiliyyət təəssübkeşlikləri baş qaldırır və siz ətrafınızın dünyapərəstlərlə dolu olduğunu görürsünüz. Amma bəziləri dünyapərəst olmasalar da, fitnə səbəbindən onların məqsədi istiqamətində hərəkət edirlər. Həmin vaxt dünya belə bir vəziyyətə düşür. Buna görə də "bütün səhvlərin kökü dünyadır". Yəni bütün səhv və günahların mənbəyi dünya sevgisi, dünyaya bağlılıqdır. Əmirəl-möminin insanların diqqətini bu cəhətə yönəldir. Bu, Əmirəl-mömininin əxlaqi tərbiyə metodudur.

Əgər siz "Nəhcül-bəlağə"yə baxsanız, görərsiniz ki, Əmirəl-mömininin dünyaya rəğbətsizlik, ona

bağlanmamaq, zahidlik barədə buyurduqları "Nəhcül-bəlağə"də bəyan edilənlərin hamısından çoxdur. Səbəb budur. Yoxsa ki Əmirəl-möminin tərki-dünya olmayıb, guşənişinlik etməyib, özünü dünyadan təcrid etməyib. Əmirəl-möminin həm xilafəti dövründə, həm də ondan qabaq dünyanın abadlaşdırılması istiqamətində ən çox çalışan şəxslərdən olub. Əmirəl-möminin tənbəl adam olmayıb. Tarixdə məşhurdur, Əmirəl-möminin xilafətdən qabaq Mədinədə yaşayanda öz əli ilə çoxlu xurma bağları salmışdı, quyular qazmışdı. Təbiətlə məşğul olmaq, insanların məişət şəraitinin yaxşılaşdırılması və iqtisadi inkişafın yaranması istiqamətində çalışmaq vacib və müsəlmanın və İslam cəmiyyətini idarə edən şəxslərin mühüm vəzifələrindəndir. Əmirəl-möminin belə bir şəxsiyyət olub. Amma bütün bunlara baxmayaraq, dünyaya əsla bağlı olmayıb. Əmirəl-mömininin vəziyyəti və əxlaqi tərbiyə proqramı belə olub.

Əmirəl-möminin "Müttəqin" xütbəsində dünyapərəstliyin əlacını da bəyan edib. "Yaradan onların qəlbində böyüyüb, nəticədə Ondan başqa hər nə varsa, gözlərində kiçilib".[1] İnsanın dünyaya bağlanmasının əlacı təqvalı olmasıdır. Təqvanın xüsusiyyətlərindən biri Yaradanın təqvalı şəxsin qəlbində böyüməsi, Ondan başqa hər şeyin onun gözündə kiçilməsidir. Dünya məqamları, bu mallar, gözəlliklər, maddi həyatın təzahürləri, növbənöv ləzzətlər insanın gözündə kiçilir və Allahın qəlbdə əzəmətlə xatırlanması onun əhəmiyyətsiz görünməsinə səbəb olur. Təqvanın xüsusiyyətlərindən biri budur. O həzrətin özü də bu mənanın kamil nümunələrindən olub. Mənim sonra bir bəndini nəql edəcəyim məşhur "Nouf

1. Tühəful-üqul, səh. 159

Bəkali" xütbəsində deyilir ki, o həzrət bir daş parçasının üstündə dayandı. Əynində sadə və ucuz nimdaş yun paltar, ayağında xurma yarpağından və ya xurma qabığından nəleyn var idi. Əzəmətli İslam hökumətinin hakimi belə yoxsul və zahid geyimində idi. Belə bir həyat tərzinə malik Əmirəl-möminin belə əzəmətli sözlər danışıb və o həzrətin dilindən belə hikmətli kəlamlar süzülüb.

O həzrət öz dövrünün siyasi hadisələri barədə də belə olub. Siffeyn müharibəsində bir nəfər gəlib o həzrətdən Səqifə hadisələri və orada baş verənlər barədə sual soruşur. Əmirəl-möminin ona bir az sərt cavab verir və buyurur ki, sən danışmağın yerini, nə danışdığını bilmirsən; böyük hərbi əməliyyat və siyasi hadisənin içində gəlib keçmişdən, Səqifədə nə baş verdiyindən sual soruşursan![1] Amma buna baxmayaraq, ona qısa da olsa cavab verir və buyurur ki, hər halda sənin sual vermək haqqın var və sən həmin haqqından istifadə edib sual soruşduğun üçün mən də cavab verməliyəm: o, imtiyaz əldə etmək üçün baş vermiş bir hadisə idi. Bir dəstə öz haqqından vaz keçdi, başqa bir dəstə hərisliklə ondan yapışdı.[2] Əmirəl-mömininin gözündə hegemonluq əldə etmək üçün çalışmaq, şan-şöhrət və dünya malı arxasınca qaçmaq bütün zamanlarda xoşagəlməz işdir. Əmirəl-möminin bizə bu ruhiyəni aşılamaq istəyir. Biz o həzrətdən bunu öyrənməliyik. Əmirəl-möminin Allahı xatırlamağı, diqqətin Allahı yada salmağa və Onunla minacata yönəldilməsini bu işin ən yaxşı əlacı hesab edir.



1. Nəhcül-bəlağə, 162-ci xütbə
2. Nəhcül-bəlağə, 162-ci xütbə

## Ramazan batini xəstəliklərin müalicə edilməsi fürsətidir

Biz gərək bu gecələrin, bu günlərin, bu duaların qədrini biləк. Bu dualara diqqət etmək, duaların mənasını yada salmaq çox mühüm və dəyərlidir. Əgər biz onlara diqqət etsək, onların bəşəriyyətin, təəssüf ki, tarixin bütün dövrlərində mübtəla olduğu batini xəstəliklərinin dərmanı olduğunu görərik. Bu xəstəliyi, bu böyük dərdi, bu nöqsanı – dünyaya bağlılığı – bacardığımız qədər azaltmalıyıq. Onu azaltmağın yollarından biri diqqətin Allah-taalaya yönəldilməsi və Onun əzəmətinin yada salınmasıdır. Siz Əmirəl-mömininin dualarına diqqət edin. Ən coşğun dualar Əmirəl-mömininin dualarıdır. Əlbəttə, məsum imamlardan nəql edilmiş duaların hamısı dərin mənalı və dolğundur, onların hamısında maksimum həddə eşqlə dolu şövq, arifanə yanğı hiss etmək mümkündür. Amma Əmirəl-möminindən nəql edilmiş dualar onların ən yaxşılarından biri və ya elə ən yaxşısıdır. Buna misal olaraq “Kümeyl” və “Sabah” dualarını, “Şabaniyyə” minacatını göstərmək olar. Mən bir dəfə İmam Xomeynidən soruşdum ki, siz mövcud duaların arasında hansını daha çox sevirsiniz. O, “Kümeyl” duası və “Şabaniyyə” minacatını dedi. Onların hər ikisi Əmirəl-möminindən nəql edilib. Bu raz-niyaz, Əmirəl-mömininin bu yanğısı, o həzrətin minacatları, həqiqətən, onu diqqətlə oxuyan insanın qəlbini yandırır.

Mən əziz gənclərdən xahiş edirəm ki, duaların söz və cümlələrinin mənasına diqqət etsinlər. Duaların sözləri çox fəsahətli, mənaları çox dolğun və dərindir. Bu gecələrdə Allahla danışmaq, Ondan istəmək lazımdır. Əgər insan bu duaların mənasını bilsə, görər ki, ən yaxşı sözlər, ən yaxşı

istəklər bu dualarda, ramazan ayının gecə və gündüzlərinin, əhya gecələrinin dualarında, Əbu Həmzə duasında, qədr gecəsinin dualarındadır. Əgər kimsə bu duaların mənasını bilmirsə, öz dili ilə dua etsin. Allahla öz dilinizlə danışın. Bizimlə Allah arasında pərdə yoxdur. Allah-taala bizə çox yaxındır, sözümüzü eşidir. Allahla danışaq, istəklərimizi Allah-taaladan istəyək. Allah-taala ilə ünsiyyətdə olmaq, Onu xatırlamaq, bağışlanma diləmək insanın qəlbinə möcüzəvi təsir göstərir. O, ölmüş qəlbləri dirildir.

## Yeniyetmələrin oruc tutmaları münasibəti ilə təbrik edilməsi

... Bu il ilk dəfə vacib oruclarını tutan və Allahın onlara ünvanlanmış xitabına müsbət cavab verən yeniyetmələri, xüsusilə yaşlarının az olmasına baxmayaraq, ilahi vəzifələrini yerinə yetirən, nisbətən bu uzun günlərdə oruc tutan qız uşaqlarını təbrik edirəm. Bu, xalqımızın ən yaxşı ilahi sınaqlarındandır. Gənclər gənclik dövründə dini vəzifə olan orucu təcrübə edirlər. Bir ay ac qalmaq, ləzzətlərə göz yummaq, haramlardan üz döndərmək hamı, xüsusilə gənclər üçün çox dəyərli fürsətdir. Bu, yeniyetməlik dövründən, qız və ya oğlan uşağının həddi-büluğa çatandan təqva əldə etmə məşqidir. Bütün gəncləri, xüsusilə bu il ilk orucunu tutanları təbrik edirəm. Allaha şükür ki, cəmiyyətimizə mənəvi ab-hava hakimdir və bu mənəvi ab-hava ramazan ayında daha da güclənir, insanlar arasında gözəl adətlər yayılır. Möhtac insanlara verilən maddi yardımlar, bunun üçün simvolik olaraq xüsusi həftənin ayrılması, müxtəlif şəhərlərdə təşkil edilən iftar süfrələri, xeyriyyəçi insanların məscid və digər yerlərdə

ehsan verməsi, camaatın gəlib orada iftar etməsi çox gözəl işlərdir. Bu işlər insanlar arasında saflıq və səmimiyyətin yaranmasına səbəb olur. Ramazan ayının haqlarından biri din qardaşlarına yaxşılıq etmək, yaxınlara, müsəlman qardaşlara kömək etməkdir. Bunlar çox gözəl işlərdir. Onlar qədimdən mövcud olub, bu gün daha da artıb. Moizə, dua və Quran məclisləri gözəl məclislərdir. Bu məclisləri gündən-günə daha da yaymaq, genişləndirmək və zənginləşdirmək lazımdır. Məsələnin zahiri ilə kifayətlənmək olmaz, dua, moizə və Quran məclisindən bəhrələnmək də lazımdır. Biz hamımız çalışıb ondan pay götürməliyik.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*20.IX.2008*

# Fitr bayramının iki xüsusiyyəti

Fitr bayramının iki mühüm xüsusiyyəti var. Onun bir xüsusiyyəti mömin insanların ruh və qəlbində yaranan təmizlik və paklıqdır. Ramazan ayının müxtəlif əməlləri var və onlardan biri oruc tutmaqdır. Mömin şəxs öz istək və iradəsi ilə könüllü şəkildə bu dini və ilahi vəzifəsini yerinə yetirir, günün böyük hissəsini maddi ləzzətlərdən imtina edərək həmin günlərdə nəfsi istəklərinə qalib gəlir. Bundan əlavə, o, Quranla ünsiyyətdə olur, Allahın kəlamını oxuyur, Quran təlimləri ilə tanış olur. Həmçinin insan ramazan ayının gündüz və gecələrində, xüsusilə mübarək qədr gecələrində Allahı xatırlayır, zikr edir, dua oxuyur, raz-niyaz edir, diqqətini Allaha yönəldərək Onunla ünsiyyətdə olur. Bütün bunlar insanın qəbinə nuranilik bəxş edir, onun ruhuna bir paklıq verir. Əlbəttə, ramazan ayının bu mühüm əməllərində bizim üçün böyük dərslər var və biz onlardan bəhrələnməliyik.

## Ramazan ayının böyük dərsləri

Ramazan ayının dərslərindən biri mömin insanın iradəsinin bütün nəfsi istəklərə və nəfsi istəklərin insanı sövq etdiyi maddi ləzzətlərə qalib gəlməsidir. Bu, çox mühüm məsələdir. İnsan bəzən özünə nəfsi istəklərə qalib gəlməkdə aciz olması hissini təlqin edir. Ramazan ayının orucu insana sübut edir və başa salır ki, istəsə, əzmkarlıq göstərsə, nəfsi istəklərinə qalib gələ bilər. Biz güclü iradə, Allah-taalaya təvəkkül etməklə vücudumuzda olan azdırıcı təzahürlərə, çirkin və xoşagəlməz adətlərə qalib gələ, onlardan xilas ola bilərik. Bu güclü iradə bizi həm özümüzdə olan xoşagəlməz şəxsi adətlərdən, həm də cəmiyyətdə mövcud olan, həm maddi, həm də mənəvi cəhətdən geriliyimizə səbəb olan ictimai adət-ənənələrdən xilas edə bilər. Deməli, dərslərdən biri möhkəm iradənin bütün maneələrə qalib gəlməsidir.

Bundan əlavə, ramazan ayında insanlar arasında bir-birinə kömək etmək və qarşılıqlı əməkdaşlıq ruhiyyəsi genişlənir və bu, fədakarlıq ruhunun insanın eqoistliyinə qalib gəlməsinə səbəb olur. Baxın, son illərdə, elə bu ilin özündə nə qədər kimliyi məlum olmayan adam məscidləri, hətta küçələri Allah bəndələrinin ziyafət məkanına çevirib, iftar süfrələri təşkil edib, camaatı iftar süfrələrinə dəvət edib. Bu süfrələrdə nə başqa ziyafətlərdə olan dəbdəbə olur, nə də kimsə şəxsi qonaqlıqlarda olduğu kimi başqasından utanır. Bu qarşılıqlı əməkdaşlıqlar, bu xeyriyyəçiliklər çox dəyərlidir və insanın ruhunun paklanmasına səbəb olur. Bu ramazan ayında görün nə qədər ehtiyacı olan insana kömək edilib, hətta nə qədər qan verilib. Məsul şəxslər xəstələr üçün təzə qana ehtiyac olduğunu elan

edən kimi ramazan ayı olmasına baxmayaraq, xeyli sayda insan qan hədiyyə etdi. Bu fədakarlığın eqoistliyə qalib gəlməsi, başqalarının mənafeyinin öz mənafeyindən üstün tutulmasıdır. Əlbəttə, bunların böyük hissəsi ramazan ayının mənəvi təsirindən doğur. Allaha şükür ki, bu il də keçən illər kimi olub. Hətta eşitdiyimə və etibarlı mənbələrdən verilən məlumatlara görə bu il ölkəyə ramazan ayında, xüsusilə qədr gecələrində, o bərəkətli saatlarda daha çox dua, zikr və raz-niyaz ab-havası hakim olub, hamı – müxtəlif təbəqələrdən olan insanlar, fərqli ictimai və siyasi baxışlara malik şəxslər, xüsusilə gənclər dua, zikr və minacat mərasimlərinə üz tutublar, onların daha təntənəli keçməsinə səbəb olublar. Hamı bu mərasimlərə üz tutaraq Allaha dua edib, qəlbini Allaha yönəldib. Diqqətin bu cür Allaha yönəldilməsinin, insanın belə bir şərəf əldə etməsinin özü Allahın mərhəmətidir. İmam Səccad ramazan ayı ilə vida duasında buyurur: "Şükür edənlərin qəlbinə şükür etməyi Sən salmısan, onlara Sənə həmd etməyi Sən nəsib etmisən, öyrətmisən".[1]

Şair demişkən:

*Sənin "Allah" deməyin Bizim ləbbeykimizdir; sənin ehtiyac,*
*dərd və yanğın Bizim qasidimizdir.*

İnsanın "Allah" deməsi, Allah-taala ilə ünsiyyətdə olması, Onunla danışması Allahın lütfüdür, Allahın insana bəxş etdiyi nemətdir. Bu "ya Allah" deməyin özündə Allahın cavabı da var. Siz, xüsusilə siz gənclər bu mənəvi ləzzəti daddınız. Siz pak, nurani, təmiz və ya nisbətən təmiz qəlbinizlə bu həzzi daddınız. Bu həzzi əldən verməyin, ondan əl çəkməyin. Gündəlik vacib namazlardan,



1. Səhifeyi-Səccadiyyə, 45-ci dua, səh. 192

Quran oxumaqdan, məscidlərdən, dualardan, "Səhifeyi-Səccadiyyə"dən və digər dua kitablarından istifadə edin ki, bu paklıq və nuranilik davam etsin. Fitr bayramının bariz xüsusiyyətlərindən biri sizin ramazan ayından yaranan belə bir nuraniliyə malik olmağınızdır.

İkinci xüsusiyyət də sizin namazlarınızda özünü göstərir. Fitr bayramı xalqın həqiqi və batini vəhdətinin göstəricisidir. Milli birlik, hamılıqla Allahın ipindən yapışmaq çox dəyərlidir. Bunu ramazan dərsi olaraq qorumalıyıq. O da ramazan ayının mənəvi məhsullarındandır. Biz müsəlmanların, xüsusilə İmam Xomeyninin sayəsində biz iranlıların ramazanında "Qüds günü" də var. O, İslam dünyasının həqiqi vəhdət və birlik göstəricisidir. Bu il Qüds günü, İran xalqının əzəmətli Qüds günü yürüşü dünyanın müxtəlif yerlərindəki müsəlman xalqların diqqətini özünə cəlb edib. İran xalqı yekdilliklə fəryad qoparır və məzlum Fələstin xalqını himayə edir. Mən əziz İran xalqına, müxtəlif xalq kütlələrinə bu il keçirdiyi əzəmətli Qüds yürüşünə görə təşəkkür edirəm.

Əziz namaz iştirakçıları, qardaş və bacılar! Gəlin ramazan ayının bərəkətindən həm özümüz, həm yaxınlarımız, həm İslam cəmiyyəti barədə bacardıqca çox istifadə edək və Allahın böyük neməti olan bu ilahi azuqəni qoruyub saxlayaq.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*1.X.2008*

# Ramazan insanın ilahi fitrətə yaxınlaşma fürsətidir

Bu böyük bayram münasibəti ilə böyük İslam ümmətini, dünyanın harasında olmasından asılı olmayaraq, bütün müsəlmanları, əziz və mömin İran xalqını, siz hörmətli namaz iştirakçılarını təbrik edir, Allah-taaladan bu fitr bayramını müsəlmanlar üçün həqiqi bayram etməsini, İslam ümmətini həqiqi mənada intizarında olduğu parlaq gələcəyə və ilahi vədə yaxınlaşdırmasını diləyirəm.

Həm siz, həm də bütün müsəlmanlar ramazan ayında ilahi ziyafət süfrəsindən maksimum istifadə etdiniz. Bu ayda tövbə, bağışlanma, zikr, minacat, dua, Allahla ünsiyyət qapısı açıq idi. Oruc tutmaq və nəfsin cilovlanması Allahın bəndələrinin bu aydakı mənəvi nemətlərdən bəhrələnməsinə böyük kömək edir. Müsəlman xalq bu ilahi ziyafətdə zikr və minacatın şirinliyini dadır, öz ilahi fitrətinə yaxınlaşır, iradəsini gücləndirir, insanın həqiqi azuqəsi olan təqva ehtiyatı əldə edir.

*Fitr bayramı münasibəti ilə*
*dövlət məmurları ilə görüşdəki çıxışdan*
*1.X.2008*

# Quran oxumaq Quranla ünsiyyətin başlanğıcıdır

İlk öncə qeyd edim ki, ölkəmizdə Quranla ünsiyyət və Quran oxumaq çox yaxşı inkişaf edib. Burada çoxsaylı qarilər Quran oxudular. Mən həm əziz qardaşların hamısına, həm də bu işin təşkilatçılarına təşəkkür edirəm. Qardaşların hamısı gözəl Quran oxudular. Onların bəzisi, həqiqətən, çox yüksək səviyyədə idi və həm sözlərin tələffüzü, həm avaz, həm təcvid, həm də mənaya diqqət edilməsi baxımından bütün normalara cavab verirdi. Allaha şükür ki, gənclərimiz bu baxımdan da yaxşı inkişaf edib. Bunların hamısı yaxşı işlərdir. Biz dəfələrlə qeyd etmişik ki, bu yığıncaqlar, insanların yaxşı Quran oxumağa həvəsləndirilməsi, cəmiyyətimizin Quranla ünsiyyətdə olması xalqımızın neçə illər əziyyət çəkdiyi Qurana biganəlikdən xilas olması, Qurana yaxınlaşması üçündür. Bu istiqamətdə görülən işlərdə tədricən inkişaf əldə edilir. Əlbəttə, bizim xalqın, gənclərimizin, kişi və qadınların hamısının Quranla tam ünsiyyətdə olması həddinə

çatmasına çox var. Həmin həddə çatandan sonra insan sualını Qurandan soruşur, Quranın müxtəlif məsələlər barəsindəki nəzərini öyrənir və ona əməl edir. Bu, Quranla ünsiyyətdə olmaq sayəsində əldə olunur. Hər hansı bir şəxsin Quranla tam üsiyyətdə olmadan qəfildən Quranı açıb ona baxması və ondan hər hansı bir məsələni tapması mümkün deyil. Çox vaxt Quran buna imkan vermir, qəlb Quran mənalarına yaxınlaşa bilmir. Bu, Quranla ünsiyyət qurulandan sonra mümkün olur. Deməli, bunlar Quranla ünsiyyətdə olmaq üçün müqəddimədir.

## Quran qarilərinə tövsiyələr

Mən adətən əziz qarilərimizə tövsiyələr edirəm. Builki tövsiyəm budur ki, avaz, səs tonu gözəldir, Quranı dinləyiciyə şirin təqdim edir, onun təsirini artırır, amma onu iki cür təqdim etmək mümkündür: onlardan biri budur ki, şəxs sırf oxunuşla məşğuldur. Bu, oxunuşun bir formasıdır. Məşhur misirli qarilər arasında beləlari var. Yaxşı da oxuyurlar, səsləri də gözəldir, avazları da gözəldir. İkinci oxunuşda isə qari Quranı həmin səs və avazla elə oxuyur ki, qəlbdə Allaha itaətkarlıq hissi yaradır, insanın yadına Allahı salır. *"Allahın ayələri onlara oxunduğu zaman imanları daha da artar"*.[1] Onlar Quran oxuyanda belə bir hal yaranır və insanı itaətkarlığa yaxınlaşdırır. Bu cür qarilərimiz də var. Məşhur qarilərin arasında bəziləri belə Quran oxuyur. Onların oxunuşu itaətkarlığa sövq edən oxunuşdur. Bu qaydaya riayət etmək lazımdır. Buna xüsusilə siz gənclər riayət etməlisiniz. Allaha şükür ki, yaxşı səsiniz var, yaxşı oxunuş qabiliyyətinə maliksiniz.

1. Ənfal, 2

Oxumağınızdan belə məlum olur ki, oxuduğunuz ayələrin mənasını başa düşürsünüz. Əvvəllər belə deyildi. İnqilabın ilk onilliyində belə deyildi. Qarilərin yaxşı səsi var idi, oxuyurdular, amma çox vaxt ayələrin mənasına diqqət etmirdilər. Allaha şükür ki, bu barədə inkişaf əldə edilib və gənclər yetişib. Bunlar yaxşıdır. Quran oxuyanda bu qaydaya riayət edin ki, qeyd edilən itaətkarlıq hasil olsun. Quran ayələri qarşısında belə bir itaətkarlıq hasil olandan sonra qəlb Quranın istiqamətləndirməsindən təsirlənir. Bəzən Quran ayələri və Quranın doğru yola istiqamətləndirmək barəsindəki tövsiyələri bəzi insanların qəlbinə əsla təsir etmir, onlar Quranın tövsiyələrindən heç cür təsirlənmirlər. Amma bəziləri elə deyil. *"Allah düz yola yönəltmək istədiyi şəxsin köksünü İslam üçün açıb genişləndirər, azdırmaq istədiyi şəxsin köksünü sanki o, göyə qalxırmış kimi daraldar".*[1] Gərək dua edib Allahdan istəyək, qəlbimizi elə etsin ki, Quranın doğru yola istiqamətləndirməsindən, bir işarəsindən dərs alsın, təsirlənsin.

Bu qədər Quran oxuyuruq, danışırıq, bir-birimizə təkrar edirik, siz mənə deyirsiniz, mən sizə deyirəm. Gərək qəlbimiz bundan təsirlənsin. Məsələn, *"hamılıqla Allahın ipinə möhkəm sarılın"*[2] ayəsi Quranın təlimlərindəndir. Onu dəfələrlə təkrar etmişik, daim oxuyuruq. Bu bərəkətli ayə ilahi ilham kimi bizim qəlbimizə nazil olanda, qəlb onu özünə cəzb edəndə, özündə həzm edəndə, qəlb onun formasına düşəndə, qəlbimiz, ruhumuz bu ayənin qəlibinə düşəndə, vəhdət bizim üçün əsas məsələlərdən birinə çevrilir və biz şəxsi mənafelərimizə görə böyük milli vəhdəti bir-birinə vurmuruq. Baxın, onun təsiri burada



1. Ənam, 125
2. Ali-İmran, 103

üzə çıxır. Əgər Quran ayələri insanın qəlbinə qəlbin onu özünə cəzb etməsi şəklində nazil olsa, qəlb onu başa düşsə, həzm etsə, onda bizə *"onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər"*[1] deyiləndə onu rahatlıqla qəbul edərik. Əlbəttə, bunun mənası insanın düşməni, mütləq, əzməsi, tapdaması deyil. Xeyr, elə deyil! Düşmən bəzən əzilməli, bəzən isə əzilməməlidir. Bu onun özündən asılıdır. Amma hər halda düşmən qarşısında sərt olmaq lazımdır. Düşmən qarşısındakı səngəriniz yumşaq olmamalıdır; düşmən sizin aranıza nüfuz edə bilməməlidir, sizə təsir göstərə bilməməlidir. Bu, sizin düşmən qarşısındakı mövqeyinizə aiddir. Onun əksi isə belədir: *"Öz aralarında isə mərhəmətlidirlər".* Öz aranızda mehriban olmalısınız, rəhmli olmalısınız, mülayim olmalısınız. Bu, Quranın göstərişidir. Nə üçün bu göstərişə əməl etmirik? Problem haradadır? Problemin kökü buradadır. Əgər qəlbimiz Quranın rəhmət və hidayət yağışını qəbul edən qab olsa, əgər qəlbimizi Qurana həvalə etsək, işimiz rahatlaşar. Onda şəxsi mənafe, maraq, maddi xeyir, hegemonluq davası, pulpərəstlik, qohumbazlıq insanın Quranın bu tövsiyə və hidayətinin unudulmasına, əldən çxarılmasına, yaddan çıxarılmasına səbəb olmaz.

Quranı açıb qabağımıza qoyur, ona qulaq asır, onu oxuyuruq. Gərək bunlar bizi mənzil-mənzil qabağa apararaq həmin məqsədə çatdırsın. Quranın, bu səma kitabının belə bir xüsusiyyəti var. Quran adi kitablar kimi deyil ki, onu bir dəfə oxuyub kənara qoyasan və "oxudum, öyrəndim, bəsdir, qoyum yerinə" deyəsən. Xeyr, Quran içməli su kimidir, həyat mənbəyidir, ona həmişə ehtiyac var. Onun təsiri tədricidir, zamanın axarında baş verir və

1. Fəth, 29

heç vaxt sona çatmır. Quranın bələdçiliyinin sonu yoxdur. Siz Quranı nə qədər öyrənsəniz, yenə qarşınızda başqa bir qapı açılacaq və daha bir probleminiz həll olacaq, daha bir məchul sizin üçün məluma çevriləcək. Quran belədir. Buna görə də daim Quran oxumaq lazımdır. Bunun yolu Quranla ünsiyyətdə olmaq, gənclərimizin gözəl səs və avazla Quran oxuması, onun oxunuş qaydalarına riayət etməsi, öncə qeyd etdiyim kimi, gözəl oxunuşun nişanələrindən olan itaətkarlıq yaradan cəhətlərə riayət etməsidir.

İlahi, bizi Quranla yaşat, Quranla öldür, Məhşər səhnəsinə Quranla gətir! İlahi, qəlblərimizə Quranın hidayətini qəbul etmək və onu dərk etmək hazırlığı bəxş et, bizi tövhid əhlindən et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir ramazan ayını xalqımıza, müsəlman ümmətinə bərəkətli ramazan et! İlahi, Quranı müsəlman ümməti arasında gündən-günə daha da çox genişləndir, bərqərar et! İlahi, ölüb gedənlərimizə rəhmət et və onların günahlarını bağışla!

*Ramazan ayının birinci günü Quran qarilərindən*
*ibarət bir dəstə ilə görüşdəki çıxışdan*
*22.VIII.2009*

# “Qüds günü”nün əhəmiyyəti

Gələn həftənin cümə günü “Qüds günü”dür. “Qüds günü” İmam Xomeyninin ən mühüm yadigarlarından biri, inqilab və xalqımızın müqəddəs Qüds və Fələstin məsələsinə bağlılığının göstəricisidir. Biz Qüds günü yürüşünün keçirilməsi ilə hər il dünyada Qüds adını yaşadır, onu gündəmdə saxlayırıq. Bir çox ölkə və siyasətçilər Fələstin məsələsini unutdurmaq istəyir, bu yolda çalışır və çoxlu pul xərcləyirlər. Əgər İslam Respublikasının səyləri olmasaydı, əgər İslam Respublikası bu rəzil siyasət qarşısında var gücü ilə dayanmasaydı, Fələstin məsələsini çoxdan gündəmdən çıxarmışdılar, unutdurmuşdular. Bunu imperialist qüvvələr də etiraf edir. Onlar İran İslam Respublikasının Fələstin bayrağını qaldırmasından, unudulmağa qoymamasından narahatdırlar. “Qüds günü” bu adın yaşadılması, yaddan çıxarılmaması üçündür. Əziz xalqımız bu il də Allahın köməyi ilə həm Tehranda, həm də digər şəhərlərdə “Qüds günü” yürüşünü keçirəcək. “Qüds günü” İrandan başqa digər müsəlman ölkələrinin çoxunda

da keçirilir. “Qüds günü” Qüds məsələsinə aiddir və vəhdət simvoludur. Diqqətli olun və kimlərinsə bu toplantılarda təfriqə salmasına imkan verməyin. Təfriqədən qorxmaq lazımdır. Təfriqə ilə mübarizə aparmaq lazımdır. Heç cür təfriqəyə yol verməkolmaz. Əgər vəhdət yaransa, müsəlmanlar iftixarla Qüds bayrağını ucalda bilərlər. İllərdir bunu pozmağa çalışırlar, amma, Allaha şükür ki, nail ola bilməyiblər. İnşallah, onlar bu istəklərinə bundan sonra da çata bilməyəcəklər.

*Tehranın cümə namazının xütbələrindəki çıxışdan*
*11.IX.2009*

## Qədr gecəsi insanın yeni ilinin başlanğıcıdır

Bərəkətli fitr bayramı münasibəti ilə namazda iştirak edən bütün qardaş və bacıları, İran xalqını, bütün dünya müsəlmanlarını və bütün İslam ümmətini təbrik edirəm. Müsəlman ramazan ayından nuraniyyətlə çıxır. Ramazan ayının orucu, zikri, duası, həmd-sənası, oxunan Quran ayələri, həmçinin mömin şəxsin gördüyü digər çoxsaylı yaxşı işlər qəlbin nuraniləşməsinə, ruh və qəlbdə olan çirklərin təmizlənməsinə səbəb olur. Əslində, qədr gecəsində oruc tutan şəxsin yeni ili başlayır. Qədr gecəsində Allahın katib mələkləri insanın bir illik müqəddəratını müəyyənləşdirir, insan yeni ilə, yeni mərhələyə, yeni həyata daxil olur və yenidən doğulur. O, yola düşüb hərəkət edir və bu yolu təqva azuqəsi ilə qət edir. Bu yolda ona xəbərdarlıq etmək üçün müxtəlif yol kəsişmələri də qoyulub. Fitr bayramı həmin yol kəsişmələrindən biridir. Bu günün qədrini bilmək lazımdır.

Fitr bayramının namazı bir növ Allahın ramazan ayındakı nemətlərinin, bu yeni doğuluşun şükrüdür. Biz fitr

namazında Allaha dəfələrlə belə deyirik: “Bizi Məhəmməd və onun Əhli-beytini daxil etdiyin bütün xeyirlərə daxil et!” Bizi bu seçilmiş bəndələrini daxil etdiyin pak iman, əxlaq və əməl Cənnətinə daxil et. “Və bizi Məhəmməd və onun Əhli-beytini – salavat və salamın olsun onların hamısına – çıxardığın bütün pisliklərdən çıxar”. Bizi o böyük şəxsiyyətləri, yaradılış aləminin bu əziz insanlarını qoruduğun nalayiq əməl, nalayiq əxlaq, nalayiq əqidə Cəhənnəmindən qoru. Biz fitr bayramı günü özümüz üçün belə böyük məqsəd müəyyənləşdirir və Allahdan bunu istəyirik. Əlbəttə, bu yolda bizim boynumuza bir sıra vəzifələr də düşür və gərək bu istiqamətdə çalışaq ki, bu doğru yolda qala bilək. Bu, təqvadır.

## Ramazan ayında əldə edilən xeyirlər

Ramazan ayında əldə edilən böyük xeyirlərdən biri tövbə və Allaha tərəf qayıtmaqdır. Dəyərli “Əbu Həmzə Sumali” duasında belə oxuyuruq: “İlahi, məni seçilmiş bəndələrinlə bir araya gətir və məni tövbə və Sənə tərəf qayıtmaq məqamına çatdır”.[1] Bizi tövbə məqamına çatdır ki, əyri yoldan, pis əməldən, pis əxlaqdan qayıdaq.

Ramazan ayının vida duasında İmam Səccad Allah-taalaya belə deyir: “İlahi, Sən bəndələrinə əfv qapısı açmısan və onun adını “tövbə qapısı” qoymusan”.[2] Bizim üzümüzə belə bir qapı açmısan ki, Sənin əfvinə tərəf tələsək və əfv və rəhmət nemətindən bəhrələnək. O, tövbə qapısı, saf ilahi əfv səmasına açılan geniş pəncərədir. Əgər Allah bəndələrin üzünə tövbə qapısı açmasaydı, biz günahkar



1. İqbalul-əmal, c. 1, səh. 72
2. Səhifeyi-Səccadiyyə, 45-ci dua, səh. 194

bəndələrin halı çıx pis olardı. İnsan nəfsi istklrinin təsiri altına düşərək səhv edir, ayağı büdrəyir, günah edir. Bu günahların hər biri bizim ruh və qəlbimizə bir yara vurur. Əgər tövbə qapısı olmasaydı, biz nə edərdik.

Əmirəl-möminin Kümeyl duasında belə buyurur: "Əgər Sən üzrümü qəbul etməsəydin, etdiklərimə görə qaçmağa bir yer, işlərimdə bir sığınacaq tapa bilməzdim".[1] Əgər bağışlayan və mehriban Allah üzr istəməyə yer qoymasaydı və üzrləri qəbul etməsəydi, biz günah, səhv, xəta, nəfsi istəklərlə başımıza gətirdiklərimizdən necə xilas olar, bu yükün altından necə çıxardıq. Onda qaçmağa və sığınmağa bir yerimiz olmazdı. Allah-taala bizim üzümüzə belə bir sığınacaq qapısı açıb. O, tövbə qapısıdır. Buna görə də tövbənin qədrini bilin.

Bir də görürsən hansısa bir gənc nadanlıq üzündən ata-anasının evindən qaçır, sonra onların evinə qayıdanda onların sevgi, məhəbbət və nəvazişi ilə qarşılaşır. Bu, tövbədir. Biz Allahın rəhmət qapısına tərəf qayıdanda Allah-taala bizi ağuşuna alır və qəbul edir. Ramazan ayında mömin insan üçün təbii olaraq belə bir fürsət yaranır. Gərək bunun qədrini bilək. Mən gənclərin, yeniyetmələrin, kişi və qadınların ramazan ayında dua, Quran, zikr məclislərindəki iştirakı zamanı çəkilmiş şəkilləri gördüm. Allaha üz tutmuş həmin şəxslərin üzündə olan göz yaşları çox qiymətlidir, çox dəyərlidir. Bunlar tövbədir. Bu tövbəni qorumaq lazımdır. Bizim nəfsi istəklərimiz, fikri orda-burda olan qəlblərimiz səhvə düçar olur. Bizə özümüzü paklamaq üçün bu fürsəti ramazan ayı yaradıb. Bu paklıq və təmizliyin dəyəri böyükdür. Bu göz yaşları qəlbləri yuyub təmizləyir. Amma onu qoruyub saxlamaq lazımdır.

1. İqbalul-əmal, c. 2, səh. 707

Bu böyük dərdlərin, bu təhlükəli xəstəliklərin, yəni xudbinliklərin, təkəbbürlərin, paxıllıqların, başqalarının hüququnu pozmağın, xəyanətlərin, laqeydliklərin – bunların hamısı böyük xəstəliklərdir – hamısını ramazan ayında müalicə etmək fürsəti var. Allah-taala bu ayda bəndələrə xüsusi nəzər salır və bunda heç bir şübhə yoxdur. Builki ramazan gözəl keçdi. Müxtəlif məclislər – Quran, zikr, dua və moizə məclisləri keçirildi və müxtəlif təbəqədən olan, müxtəlif ictimai qruplara mənsub fərqli-fərqli insanlar bu məclislərdə iştirak etdilər. Bu ayda çoxlu ianələr verildi, ramazan ayı boyunca imkansızlara əl tutuldu. Bütün bunlar dəyərlidir. Bunların hər biri insanın ruhuna bir ətir verir, onun işində irəliləyiş yaradır. Gəlin bunları qoruyub saxlayaq. Mən gənclərə bu yumşaq qəlbləri qorumağı, bu nurlu qəlblərin qədrini bilməyi tövsiyə edirəm. Bunlar yuxarı yaşlarda az baş verir, gənclərdə isə çox olur. Bu qəlbləri qoruyub saxlayın. Namazın ilk vaxtda qılınmasını, məscidlərə getməyi, Quran oxumağı, Quranla ünsiyyəti, Əhli-beytdən nəql edilmiş duaları – onlar İslam maarifi xəzinələridir – qənimət bilin.

## Cəmiyyətdə əxlaqın əhəmiyyəti

Gərək öz əxlaqımız barədə də düşünək, əxlaqımıza fikir verək. Əxlaq əməldən daha əhəmiyyətlidir. Cəmiyyətdə qardaşlıq, mehribanlıq və nikbinlik ab-havası yaradaq. Mən cəmiyyətdə bədgümanlıq ab-havasının yaradılmasına qarşıyam. Bu adətləri özümüzdən uzaqlaşdırmalıyıq. Təəssüf ki, qəzetlər, kütləvi informasiya vasitələri, gündən-günə artan, genişlənən və mürəkkəbləşən müxtəlif kommunikasiya vasitələri bir-birinə qarşı ittihamlar

irəli sürürlər. Bu, yaxşı hal deyil. Bu, qətiyyən yaxşı hal deyil. Bu davranış qəlbimizi qaraldır, həyatımızı zülmətə boyayır. Bu, günahkarın öz günahının cəzasını çəkməsi ilə ziddiyyət təşkil etmir. Amma mühit günah, böhtan və şayiənin yayılması, əsassız fikirlərə əsaslanıb başqalarına qarşı ittiham irəli sürülməsi mühiti olmamalıdır. Mən burada bir şeyi də qeyd edim: televiziyada göstərilən məhkəmələrdə müttəhimlərdən birinin kiminsə barəsində səsləndirdiyi fikir dini baxımdan dəlil sayılmır. Bəli, müttəhim məhkəmədə özü barədə nə desə, o, dəlil hesab edilir. Müttəhimin məhkəmədə özü barəsindəki etiraflarının dəlil sayılmaması barədə deyilənlər mənasız və dəyərsizdir. Xeyr, belə deyil. Ağıl sahiblərinin nəzərində müttəhimin özü barəsində məhkəmədə kamera və milyonlarla tamaşaçı qarşısında etdiyi etiraf məqbul hesab edilir. Amma onun başqası barədə etdiyi etiraf məqbul deyil. İctimai mühiti böhtan və bədgümanlıqla doldurmaq olmaz. Qurani-kərim buyurur: *"Nə üçün siz bunu (bu iftiranı) eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-biri haqda yaxşı fikirdə olmadılar?"*[1] Biri barəsində ittiham irəli sürüldüyünü görəndə nə üçün bir-birinizə qarşı nikbin olmursunuz? Bəli, icra və məhkəmə orqanlarının işi aydındır. İcra orqanları cinayətkarı təqib etməli, məhkəmə orqanları İslam qanunlarında və ürf-adətlərimizdə olan qaydalar əsasında cinayətkarları məhkum etməli, cəzalandırmalıdırlar. Bu barədə heç kəs səhlənkarlıq göstərməməlidir. Amma cinayəti qanuni yolla sübuta yetirilmiş cinayətkar ilə birinin güman, xəyal, böhtan ilə ittiham edilməsi, adının ləkələnməsi və dillərə salınması arasında fərq var. Bu, düz iş deyil. Cəmiyyətə belə bir ab-

1. Nur, 12

havanın hakim olması düz deyil. Yaxud xaricilər, bizimlə düşmən olan televiziya kanalları kiminsə və ya kimlərinsə əleyhinə bir söz danışır, filan yerdə xəyanət etdiyini iddia edirlər, biz də onların sözünü olduğu kimi nəql edirik. İttiham sübuta yetirilmədən onun nəql edilməsi həmin şəxsə qarşı zülm və qəbuledilməzdir. Xarici kütləvi informasiya vasitələrinin bizə nə vaxt ürəyi yanıb?! Məgər onlar nə vaxtsa bizim barəmizdə həqiqətin üzə çıxmasını istəyiblər ki, bu da ikinci dəfəsi olsun?! Onlar istədiklərini deyir, ağızlarına gələni danışır, hər cür iddia irəli sürürlər. Bunun şəffaflıq olduğunu demək olmaz. Əslində, bu, şəffaflıq deyil, əksinə, ictimai atmosferi korlamaqdır. Şəffaflığın mənası İslam Respublikasında hər hansı bir məsul şəxsin xalqa öz fəaliyyəti barədə şəffaf şəkildə hesabat verməsidir. Şəffaflıq budur və əlbəttə ki, bu iş edilməlidir. Amma bizim heç bir şey sübuta yetirilmədən kimisə böhtan atəşinə tutmağımız, ona təzyiq göstərməyimiz, ona həm doğru, həm də yalan olma ehtimalı olan faktlar nisbət verməyimiz düz deyil. Nə qədər ki, heç nə sübut olunmayıb, bizim onu bəyan etmək haqqımız yoxdur. Bir də görürsən bu onu ittiham edir, o bunu ittiham edir, bu barədə xarici kütləvi informasiya vasitələrinə, məsələn, qərəzli Britaniya mediasına istinad edirlər. Sonra bir başqası da çıxıb İslam quruluşuna ona layiq olmayan ittihamlar irəli sürür. Bu irad onların özünə daha çox aiddir. Hər hansı bir şəxsə böhtan atmaq günahdır, İslam quruluşuna, bir cəmiyyətə qarşı böhtan atmaq ondan da böyük günahdır. İlahi, təqva ilə bizi bu günahlardan uzaq et.

*Fitr namazının xütbələrindəki çıxışdan*
*20.IX.2009*

# Quran təlimlərindən bəhrələnməyin vacibliyi

Allaha şükür olsun ki, Öz lütf və mərhəməti ilə bizə bir daha bu şirin, təsirli və faydalı yığıncaqda iştirak etməyi və əziz qarilərimizin Quran oxumasından feyzyab olmağı nəsib etdi. Mən, həqiqətən, cəmiyyətdə Quranın yayılmasının və inkişaf etməsinin göstəricisi olan bu böyük dəyəri olduqca böyük – bəlkə də, heç bir nemətin tay olmadığı – bir nemət sayıram.

Bugünkü məclis də çox gözəl məclis idi. Möhtərəm qarilər – həm bu gün qiraət edən ustadlar, həm də bu meydana yeni daxil olan və yaxşı istedada, gözəl səsə və böyük həvəsə malik olmaları hiss olunan əziz gənclər – ölkənin gələcəyinin parlaq olmasından xəbər verirlər. Allah-taala bizə belə bir nemət verib. *"Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır"*.[1] Allahın imanı və iman nişanəsi olan hər bir şeyi bizə sevdirməsi və onu bizim

1. Hucurat, 7

qəlbimizdə gözəlləşdirməsi Allahın böyük nemətidir. Əgər Qurandan sözün həqiqi mənasında bəhrələnmək istəyiriksə, Quran təlimləri və onda olan anlayışlarla yaxından tanış olmalıyıq. Bu işdə bizə Quranın həm oxunması, həm əzbərlənilməsi, həm də onunla ünsiyyətdə olmaq kömək edir. Əgər Quranda dərs olmasaydı, bizə bu qədər Quran oxumaq tövsiyə edilməzdi. Amma bilmək lazımdır ki, Quran oxumaqda məqsəd bu səs dalğalarının havada yayılması deyil. Məqsəd bu deyil. Həmçinin məqsəd Quranın gözəl səslə oxunan və dinləyicinin həzz aldığı şeir kimi gözəl avazla oxunması və bizim həmin gözəl səsdən həzz almağımız da deyil. Xeyr, məqsəd bunlar deyil. Bu müqəddimələrin hamısı – Quranın oxunmasının, cəmiyyətdə Quranın yayılmasına səbəb olan gözəl səs və avazın, bir sözlə, cəmiyyət və qəlblərin Qurana tərəf getməsinə səbəb olan işlərin hamısı Quran təlimlərinin dərk edilməsi üçündür.

## Quran təlimlərinin dərəcələri

Quran təlimlərini dərk etməyin dərəcələri bir-birindən fərqlidir. Onun ilk dərəcəsi Quranın sözlərinə və tərcüməsinə diqqət etməklə əldə edilir. Biz Quran təlimləri deyəndə onun heç kəsin başa düşmədiyi sirli bir şey olduğunu demək istəmirik. Bəli, Quranın ülvi təlimləri var və ola bilər, ona bizim kimilərin əli çatmasın. Amma onun çoxsaylı təlimləri də var ki, biz adi insanlar diqqət etsək, onu başa düşə və ondan bəhrələnə bilərik. Quranın bu dəyərli ayələrində belə təlimlər çoxdur. Bunlar bizim üçün həyat dərsidir. Bu mübarək ayəyə diqqət edin. *"Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin*

*üstündədir. Kim əhdini pozsa, təkcə öz ziyanına pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah tezliklə ona böyük mükafat verər".*[1] Bəli, bu, dərsdir. Bu, bizim üçün açıq-aydın dərsdir. *"Kim əhdini pozsa, təkcə öz ziyanına pozmuş olar".* Əgər Peyğəmbər, İslam və Allahla əhdinizi pozsanız, öz ziyanınıza iş görmüsünüz. *"Kim əhdini pozsa, təkcə öz ziyanına pozmuş olar".* Allah və Peyğəmbərlə olan əhdin pozulması Allah və Peyğəmbərin deyil, bizim öz ziyanımızadır. *"Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah tezliklə ona böyük mükafat verər".* Amma əgər Allah və Peyğəmbərlə olan əhdimizə sadiq qalsaq, bu öz xeyrimizədir və Allahdan böyük mükafat alacağıq. Bu mükafatın axirətdə, Cənnətdə olması qeyd edilməyib. Bəli, şübhəsiz, onun böyük hissəsi axirətdə veriləcək, amma onun bir hissəsi də dünyada verilir. Bizə dünyada da belə bir mükafat veriləcək. Qardaşların bəzisinin oxuduğu "Əhzab" surəsinin bir ayəsi var: *"Möminlərin arasında Allahla bağladıları əhd-peymana sadiq qalan kişilər vardır. Onlardan bəzisi əhdini yerinə yetirmiş (və şəhid olmuş), bəzisi də gözləyir. Onlar öz əhdlərini əsla dəyişdirməyiblər. Bu ona görədir ki, Allah doğru danışanları sədaqətlərinə görə mükafatlandırsın".*[2] Bu sədaqət həmin şeydir. "Allahla bağlanan əhd-peymana sadiq qalmaq" deyəndə onların Allahla bağladıqları əhd-peymana sadiq qalmaları, həmin əhd-peymanı sədaqətlə bağlamalı və onun arxasında da sədaqətlə durmaları nəzərdə tutulur. Yəni həyatın çətinlikləri, dünyanın insanın nəfsi istəklərini təhrik edən təzahürləri onları bu yoldan sapdırmadı. *"Bu ona görədir ki, Allah doğru danışanları sədaqətlərinə görə mükafatlandırsın".*

1. Fəth, 10
2. Əhzab, 23-24

Allah-taala da bu sədaqətlərinə, verdikləri sözün arxasında durmalarına görə onları mükafatlandırır. Bunları Quranın zahirinə baxmaqla da başa düşmək mümkündür. Düzdür, ola bilər, bunların arxasında daha ülvi təlimlər olsun və onları xüsusi təbəqə,

Allahın əməlisaleh və ləyaqətli bəndələri başa düşsün və biz başa düşə bilməyək, bizim onları başa düşməyimiz də həmin bəndələrin vasitəsi ilə olsun. Belə şeylərin olması şübhəsizdir. Çünki hədislərdə Quranın batininin olması qeyd edilib. Çoxsaylı hədislərdə deyilir ki, Quranın bir zahiri var, bir də batini, sirri, dərinliyi. O, dənizə bənzəyir. Dənizin zahiri var, onun zahirində su var. Amma o, təkcə bu zahirdən ibarət deyil. Onun dərinliyi var və həmin dərinlikdə bir sıra həqiqətlər mövcuddur. Bu, şübhəsizdir. Amma biz bu zahirdən də bəhrələnə bilərik. Bəs onun şərti nədir? Onun şərti diqqət, ətraflı düşünməkdir.

## Quran ayələrini dərk etməyin gərəkliyi

Biz neçə ildir təkid edirik, xoşbəxtlikdən, nəticəsini də görürük. Mən onu bir daha təkrar etmək istəyirəm: oxuduğunuz ayənin mənasını düzgün dərk edin. Siz hər hansı bir ərəbşünasın ondan başa düşdüyü zahiri mənanı düzgün dərk etməyə çalışın. Belə bir idrakdan sonra insan Quran oxuyanda düşünmək fürsəti əldə edir. Mən bunu da deyim, adam ayənin mənasını biləndən sonra həmin məna səsi və gözəl avazı olan şəxsin avazını da istiqamətləndirir. Əgər biz nə oxuduğumuzu bilsək, daha hansısa məşhur qarinin ayənin bu hissəsini oxuyanda səsini zilə qaldırmasına və ya bəmə salmasına, hansısa hissəni incə, hansısa hissəni qalın səslə oxumasına baxmağa ehtiyac

qalmaz. Xeyr, buna lüzum yoxdur. Əgər biz mənanı başa düşsək, həmin məna adi danışıqda olduğu kimi, səsi olan, səsi avaza yatan şəxsin səsini istiqamətləndirəcək, özü bizə avaz verəcək. Siz adi danışıq zamanı söhbət edəndə səsinizi bəzi yerlərdə aşağı salır, bəzi yerlərdə qaldırırsınız, bir yerdə yavaş, bir yerdə tez-tez, başqa bir yerdə ahəstə-ahəstə danışır, hansısa sözü xüsusi vurğu ilə tələffüz edirsiniz. Halbuki heç əvvəldən hazırlaşmır, xüsusi qeydlər aparmırsınız. Bu sizin hisslərinizdən, təbiətinizdən doğur. Əgər Quran ayəsinin mənasını başa düşsəniz, həmin hiss sizə nə etmək lazım olduğunu, harada yavaş oxumaq, harada dayanmaq, harada ayələri bir-birinə birləşdirmək, dayananda yenidən harada başlamaq lazım olduğunu müəyyənləşdirməkdə kömək edəcək. Quran ayələrinin mənasını bilmək insana belə bir bacarıq verir. Əlbəttə, bəzən də hansısa bir şəxs ərəb olduğu üçün Quran ayələrinin mənasını başa düşür, tərcüməsini anlayır, amma onu mənasına diqqət etmədən oxuyur. Bəzən görürsən Misirin məşhur qarilərinin bəzisi Quranı sanki hansısa bir mətni əvvəldən axıra kimi oxumaq tapşırığı almış şəxs kimi oxuyur və mənanı dinləyiciyə aşılamaq məqsədi daşımır. Bəzi qarilərdə buna rast gəlmək mümkündür. Amma bəziləri də var ki, qiraətləri dinləyici ilə danışmaq, ünsiyyət qurmaq kimidir. Sizin qiraətiniz belə olmalıdır.

Təəssüf ki, bizim cəmiyyətdə insanların çoxu Qurani-kərimin mənasını birbaşa başa düşmür, yəni ərəb dilini bilmir. Bu, bizim məhrumiyyətlərimizdən biridir. Ölkə qanunlarında ərəb dilinin öyrənilməsinə xüsusi əhəmiyyət verilməsinin səbəbi də budur. Quranın mənasını həqiqətən başa düşmək istəyənlər təfsir və tərcümə kitablarına müraciət edə bilərlər.

Allaha şükür ki, bu gün gözəl tərcümələr var. Bəzi şəxslər zəhmət çəkib Quranı gözəl tərcümə ediblər. Mən Quranı gözəl səslə oxuyan siz əziz qardaş və bacılara bu nüansa diqqət etməyi, yəni Quranı onun mənasını nəzərə alaraq oxumağı tövsiyə edirəm. Quranı elə oxuyun ki, sanki qarşı tərəflə, dinləyici ilə Quran dilində danışırsınız. Əgər belə olsa, siz oxumağınızdan, camaat da Qurana qulaq asmaqdan və sizin qiraətinizi dinləməkdən həzz alar, bəhrələnər.

Allah Quranın başa düşülməsini, onun təlimlərindən bəhrələnməyi gündən-günə cəmiyyətimizdə, insanlar arasında daha da artırsın və bizi Quranın bərəkətindən daha çox bəhrələndirsin.

Mən qarilərin Quranın tərcüməsindən bəhrələnməyi xüsusi vurğulayıram. Quranın tərcüməsini tam başa düşməyə çalışsınlar. Əlbəttə, Quranı əzbərləmək də bu cəhətdən çox kömək edir. Allah sizə kömək və uğur nəsib etsin.

*Ramazan ayının ilk günündə*
*"Quranla ünsiyyət" ziyafətindəki çıxışdan*
*12.VIII.2010*

# Ramazan ayının dualarda qeyd edilmiş xüsusiyyətləri

Həm "Səhifeyi-Səccadiyyə"də, həm də digər kitablarda ramazan ayının bir sıra xüsusiyyətləri qeyd edilib. Həmin xüsusiyyətlərin hamısı insanın diqqətini özünə cəlb edir, onu düşündürür. Onlardan biri "tövbə və Allaha qayıdış ayı" xüsusiyyətidir; mən bir az bu barədə danışmaq istəyirəm. Yaxud o, "Səhifeyi-Səccadiyyə"dəki duaların birində "İslamın ayı" sifəti ilə vəsf edilib. "İslam" deyəndə mübarək ayədə qeyd edilən şey nəzərdə tutulur. *"Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar".*[1] İslamın mənası qəlb və ruhu Allaha təslim etmək, Allahın istək, hökm və şəriəti qarşısında ram olmaqdır. Ramazan ayının dualarda qeyd edilən digər bir sifəti "paklaşdırıcı ay"dır. Yəni bu ayda paklayıcı ünsür var və o, insana paklıq verir. Ola da bilər, duanın ərəbcə orijinalındakı "təhur" sözü məsdər və onun mənası "çirkinliklərdən arınma ayı" olsun.

1. Loğman, 22

Həmçinin onun digər bir sifəti "şəhrut-təmhis"dir, yəni "xalisləşmək, saflaşmaq ayı". Ərəblər başqa metal qarışığı olan qiymətli filizi, məsələn, qızılı sobaya qoyub onun aşqarını ayırmağa "təmhis" deyirlər. Bu ayda insanın zatı qarışıq və aşqarlardan təmizlənir. Bunlar ramazan ayının xüsusiyyətləridir.

Adam ilin digər ayları arasında ramazan ayını sutka ərzindəki namaz vaxtlarına bənzədir. Müqəddəs İslam şəriətində maddi aləmlərdə qərq olan biz məhdud varlıqlar üçün bəzi fürsətlər yaradılıb və həmin fürsətlər namaz vaxtlarıdır. Sübh, zöhr, əsr, məğrib və işa namazlarının vaxtı bizim qəflət yuxusundan ayılmağımız üçün xəbərdarlıq zəngidir, qəlb və ruhda nuraniyyət yaratmaq üçün Allahla tək qalmaq vaxtıdır. Sutka ərzində namaz vaxtları təyin edilib ki, biz maddiyyata qərq olmayaq, maddənin əsarətindən bir anlıq da olsa, xilas olaq, nəfəsimizi dərək, mənəviyyata üz tutaq, maddiyyatda tam itib-batmayaq. Bizim nəzərimizcə, ilin ayları arasında ramazan ayı da belə bir statusa malikdir. Ramazan insanın ruhunun nəfəsliyidir. O, insanın bir aylıq bu fürsətdə bizi tam mühasirəyə almış maddi amillərin əlindən xilas olma, nəfəsini dərmə və nuraniyyət əldə etmə məşqidir. Müqəddəs şəriət ramazan ayını bunun üçün təyin edib. Bu, bir fürsətdir.

Ramazan ayının qeyd edilən sifət və xüsusiyyətlərinin hamısı mühümdür. Amma onların arasında mənim diqqətimi cəlb edən və ölkənin məsul şəxsləri olan bizlər üçün xüsusi qeyd edilməli olan sifət "tövbə və Allaha qayıdış" sifətidir. Tövbənin mənası səhv yol, iş və fikirdən qayıtmaqdır. Tövbə və Allaha qayıdışın içində təbii olaraq bir məna yatır. Əgər biz səhv yoldan qayıtmaqdan

danışırıqsa, bu o deməkdir ki, biz səhv yolu tanımalıyıq. Bu, çox mühümdür. Biz hərəkətdəyik və çox vaxt öz işimizi, səhvimizi, təqsirimizi unuduruq. Biz öz işimizdə olan nöqsana diqqət etmirik. "Öz" deyəndə həm fərd olaraq özümüz, həm də onun ictimai cəhəti, yəni öz xalqımız, öz partiyamız, öz dəstəmiz, öz cərəyanımız nəzərdə tutulur. İnsan adətən özünə aid olan nöqsanları unudur. Buna görə də gərək nöqsanlarımızı bizə başqaları desin. Əgər biz həmin nöqsanların olduğunu başa düşüb onları aradan qaldırsaydıq, daha başqalarının deməsinə növbə çatmaz, ehtiyac qalmazdı. Sözü gedən "tövbə və Allaha qayıdış"ın ilk addımı bizim öz nöqsanlarımıza diqqət etməyimiz, irad və səhvin işimizin harasında olduğunu, günah və təqsirimizin nə olduğunu başa düşməyimizdir. Hamıdan qabaq da özümüzdən başlamalı, özümüzdən sonra geniş ictimai dairəyə keçməliyik. Əvvəl öz-özümüzün haqq-hesabını aparaq və görək səhvimiz haradadır. Bu, bizim hamımızın borcudur. Bizim kimi işində nöqsanı, günah və səhvi olan adi insanlardan tutmuş görkəmli şəxsiyyətlərə, Allahın əməlisaleh bəndələrinə, Allah övliyalarına kimi hamı belədir. Allahdan bağışlanma diləməyə, tövbə etməyə onların da ehtiyacı var. Həzrət Peyğəmbərin bir hədisi var, onu həm şiə, həm də sünni mənbələri nəql edib. O həzrətdən belə buyurması nəql edilib: "Bəzən qəlbim tutulur və mən Allahdan hər gün yetmiş dəfə bağışlanma diləyirəm".[1] Hədisin ərəbcə orijinalında işlənmiş "yuğan" sözünün mənası günəşin və ayın üzünü tutaraq tutqunluq yaradıb onların işıq və şüasının qarşısını alan buluddur. Həzrət Peyğəmbər buyurur ki, bəzən mənim qəlbimdə də o buludlu havada olan kimi tutqun bir hal yaranır və

1. Müstədrəkül-vəsail, c. 5, səh. 320

mən Allahdan hər gün yetmiş dəfə bağışlanma diləyirəm. Bunu o böyük ruh və pak zat sahibi olan Peyğəmbər deyir. Şiə mənbələrində nəql edilmiş başqa bir hədisdə deyilir ki, "həzrət Peyğəmbər hər gün yetmiş dəfə tövbə edərək Allaha tərəf qayıdardı". İmam Sadiq buyurur ki, həzrət Peyğəmbər heç bir günah etmədən hər gün yetmiş dəfə tövbə edərdi. Bildiyimiz kimi, Peyğəmbər məsum idi. Bəs görəsən, o həzrət nəyə görə tövbə edirdi. Mərhum Feyz yazır ki, peyğəmbərlərin və Allah övliyalarının günahı bizim günahlarımız kimi deyil, davamlı zikr və minacatın (bir anlıq) tərk edilməsinə görədir. Ola bilər, peyğəmbər və Allah övliyası küçədə, bazarda, adi məişətində bir anlıq qəflətə düşsün. Bizim həyatımızın böyük hissəsini təşkil edən bu hal ilə o da bir anlıq qarşılaşa bilər. Ola bilər, o, bir anlıq halal bir işlə məşğul olsun. Peyğəmbər bunun üçün Allahdan bağışlanma diləyir. Buna görə də bu məsələ təkcə bizə aid deyil, hamı üçündür.

Bu, dövlət məmurları üçün daha vacibdir. Yəni ölkənin müəyyən işləri barədə məsuliyyət daşıyan, ya bəzi işlərə təsir imkanına, nüfuza malik bizlər Allahdan bağışlanma diləmək və Ona tərəf qayıdış məsələsində daha ağır məsuliyyət daşıyırıq. Buna görə də çox diqqətli olmalıyıq. Bəzən bizim tabeçiliyimizdə olan idarələrdə hansısa bir səhv iş baş verir. Əgər həmin iş hər hansı bir formada bizimlə əlaqəlidirsə, məsələn, biz göstəriş verməkdə, ya həmin şəxsin işə götürülməsində, yol verilən nöqsana qarşı tədbir görməkdə səhlənkarlıq etmişiksə, məsuliyyət daşıyırıq. *"Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!"*[1]

Bütün bunlardan bu nəticəyə gəlirik ki, ramazan ayında

1. Təhrim, 6

mümküm qədər diqqətli olmalı, davranışımızı düzəltməli, düşüncə, danışıq və əməlimizi islah etməli, yol verilən nöqsanları tapıb aradan qaldırmalıyıq. Bəs bu islahatlar hansı istiqamətdə olmalıdır? – Təqva istiqamətində! Oruc ayəsində buyurur: *"...ki, təqvalı olasınız"*.[1] Oruc tutmaqda məqsəd təqva əldə etməkdir. Buna görə də ramazan ayı yolunda göstərilən səylər təqva istiqamətində olmalıdır.

## Təqvanın geniş əhatə dairəsi

Mən təqva barəsində bir şeyi də qeyd etmək istəyirəm. Adətən "təqva" deyəndə insanın zehninə şəriətin zahiri hökmləri, haram və vaciblər barəsindəki göstərişlər – namaz qılmaq, xüms-zəkat vermək, oruc tutmaq, yalan danışmamaq gəlir. Bəli, bunların hamısı mühümdür. Amma təqvanın əhatə dairəsi daha genişdir və biz çox vaxt onları yaddan çıxarırıq. Çox dəyərli "Məkarimul-əxlaq" duasının bəndlərinin birində təqvanın həmin geniş əhatə dairəsi barədə izah verilib. "Allahım, Məhəmməd və onun Əhli-beytinə salam-salavat göndər, məni əməlisalehlərin bəzəyi ilə zinətləndir, mənə təqvalıların libasını geyindir".[2] Yaxşı, bəs təqvalıların zinəti nədir? Onun ardınca verilən izah daha maraqlıdır: "Ədalətin yayılması, qəzəbin udulması, alovun (cəmiyyətdə insanların arasındakı ədavətin) yatırılması, sizdən ayrılanların yenidən geri qaytarılması". Çalışın, sizdən olub sonradan ayrılanları geri qaytarın. Bunlar təqvanın tərkib hissələridir. "Səhifeyi-Səccadiyyə"nin 20-ci duası olan dəyərli "Məkarimul-əxlaq" duasında bunlara işarə edilib. Bu, çox mühüm



1. Bəqərə, 183
2. Səhifeyi-Səccadiyyə, 20-ci dua

duadır. Məncə, hamı, xüsusilə bütün dövlət məmurları bu duanı oxumalı və onun məzmununa diqqət etməlidir. Onda öyrəniləsi çox şey var. "İnsanlar arasındakı münasibətlərin düzəldilməsi". İnsanlar arasında ədavətin qızışdırılması, xəbərçilik, onları bir-birinin canına salmaq əvəzinə, onların arasındakı münasibətlər düzəldilməli, mömin və müsəlman qardaşlar arasında vəhdət və birlik yaradılmalıdır. Bunlar təqvadır.

Bunların hamısı gündəmdə olan işlərimizdir. Ədalətin – həm hüquqi, həm iqtisadi sahədə ədalətin genişləndirilməsi, insanların işə götürülməsində, ölkənin sərvət və imkanlarının insanlar arasında bölüşdürülməsində, coğrafi məsələlərdə ədalətə riayət edilməsi çox mühüm məsələlərdir. Ədalətin geniş miqyasda bərqərar edilməsi təqvanın ən yüksək həddidir. Bu, yaxşı qılınan namazdan, isti günlərdə tutulan orucdan üstündür. Hədislərin birində deyilir ki, bir gün ədalətlə hökm edən əmir yetmiş il ibadət edən şəxs kimidir. Əmir deyəndə sizlər, yəni hər hansı bir sahədə hökmranlıq edən, hökmü keçərli olan şəxs nəzərdə tutulur. Bunlar çox mühüm məsələlərdir və ədalətin, ədalətlə davranmanın bizim üçün nə qədər əhəmiyyətli olduğunu göstərir.

Qəzəbin dostlar qarşısında udulması. Burada söhbət dostlardan gedir. Bəli, düşmənlər qarşısında qəzəbli olmaq lazımdır. *"Onların qəlblərindən qəzəbi silib aparsın"*.[1] Sizin kimliyinizə, mövcudluğunuza qarşı olan düşmən qarşısındakı qəzəb müqəddəs qəzəbdir və onun eybi yoxdur. Amma möminlərə, müsəlman kimi davranmaq məsuliyyəti daşıdığımız şəxslərə qarşı qəzəbli olmamalıyıq. Qəzəb insana zərər vurur. Qəzəbli halda qərar qəbul etmək,

1. Tövbə, 15

danışmaq, iş görmək zərər-ziyanla nəticələnir və insan adətən bu kimi hallarda səhvə yol verir. Təəssüf ki, biz buna çox düçar oluruq. Bu qəzəbin – sapıntıya və insanın həm düşüncə, həm də əməldə səhvə düçar olmasına səbəb olan qəzəbin qarşısını alan amillərdən biri təqvadır.

Digər bir iş "alovun yatırılması"dır.[1] Bəziləri siyasi fraksiyaçılıqla məşğul olur, qruplar arasında ədavəti gücləndirirlər. Onlar bu istiqamətdə elə canfəşanlıq göstərirlər ki, elə bil xüsusi olaraq bu iş üçün göndəriliblər. Mən görürəm, ölkə daxilində bəziləri müxtəlif dəstə və fraksiyaları, müxtəlif fraksiyaların üzvlərini bir-birinin canına salmaq, təfriqə yaratmaq istəyirlər. Sanki onların təfriqə yaratmaqdan xoşu gəlir. Bu, təqva ilə ziddiyyət təşkil edir. Təqva təfriqə alovunun yatırılmasından ibarətdir. Siz maddi aləmdə alovu söndürdüyünüz kimi, insani, mənəvi və əxlaqi aləmdə baş qaldıran alovu da söndürməlisiniz. Həmçinin: "Sizdən ayrılanların yenidən geri qaytarılması".[2]

Öncə də qeyd etdiyimiz kimi, çalışıb maksimum dərəcədə insanları öz sıralarımıza cəlb etməli, onların ayrılmasına yol verməməliyik. Əlbəttə, bu işdə dəyər və prinsiplər meyar götürülməlidir. İnsanlar iman baxımından eyni səviyyədə deyildirlər. Bizim aramızda bəzilərinin imanı zəif, bəzilərinin imanı güclüdür. Buna görə də onlarla yol getmək lazımdır. İmanı zəif olanları dəf etmək, yalnız imanı güclü olanlara göz dikmək olmaz. Zəifləri də nəzərə almaq lazımdır. Özlərini güclü sayanlar zəif hesab etdiklərini nəzərə almalı, özlərindən uzaqlaşdırmamalıdırlar. Gərək əvvəl sizin topluya daxil

1. Səhifeyi-Səccadiyyə, 20-ci dua
2. Səhifeyi-Səccadiyyə, 20-ci dua

olan, sonradan səhv və qəflət üzündən ayrılanları yenidən öz sıralarınıza qaytara, onlara öyüd-nəsihət verə, onlara doğru yolu göstərəsiniz. Bunlar mühüm məsələlərdir.

Bunlar təqva, tövbə və Allaha tərəf qayıdışın yollarıdır. Maraqlı nüanslardan biri oruc və bu ayın fərdi deyil, kollektiv əməl olmasıdır. Yəni hamımız oruc tuturuq, hamımız bu aya daxil oluruq, hamımız bu süfrənin başında otururuq. Bu işləri İslam cəmiyyəti, İslam ümməti hamısı edir. Əgər Quran və sünnədə qeyd edilən nəsihətlərə əməl etsək, əgər hamı onların ona ünvanlandığını düşünsə, görün İslam dünyasında, ondan məhdud çərçivə olan ölkə miqyasında nə baş verər? Bu ayın qədrini bilmək lazımdır. Onun qədrini bilmək bu ayı həqiqi mənada tövbə və Allaha qayıdış, paklıq, saflıq ayı hesab etməkdə, bu şeylərin arxasınca getməkdədir. Bizim bu görüşdə demək istədiklərimiz bunlardan ibarət idi.

*Dövlət məmurları ilə görüşdəki çıxşdan*
*18.VIII.2010*

# Pak və saf qəlb gəncliyin böyük sərmayəsidir

Mən vaxtımız olan qədər bəzi məsələlərə toxunacağam. Amma toxunmaq istədiyim ən mühüm məsələ sizin gənc olmağınız, qəlblərinizin pak və təmizliyidir. Siz mənim bu sözümü, qəlbin çirkli olmasının mənasının nə olduğunu, həmin çirkin haradan qaynaqlandığını indi başa düşməyəcəksiniz. Siz hələ gəncsiniz və bunu hələ başa düşə bilməzsiniz. Siz qəlbin çirklənməsinin mənasını, gənclik illərində qəlbin pak və saf olmasının nə qədər dəyərli olduğunu, inşallah, bizim yaşımıza çatanda başa düşəcəksiniz. Amma onda həmin paklıq və saflığı geri qaytarmaq mümkün olmayacaq.

Bu gün sizin əlinizdə belə bir sərmayə var. Sözümün canı budur ki, bu pak və saf qəlbi bacardıqca əzəmət, həqiqət və gözəllik mənbəyi – Allah-taalanın müqəddəs zatı ilə birləşdirin, Ona yaxınlaşdırın. Əgər buna nail olsanız, ömrünüzün sonuna kimi xoşbəxt həyat yaşayacaqsınız. Əgər buna indi nail ola bilməsəniz, iyirmi il sonra çətin

olacaq. Əgər iyirmi il sonra – sizin 40-45 yaşınız olanda da nail olmasanız, ondan sonrakı iyirmi ildə, yəni mənim indiki yaşımdan aşağı yaşda olanda daha çətin olacaq. Bəli, həmin vaxt ona nail olmaq çox çətindir. Qeyri-mümkün deyil, amma çox çətindir. Qəlbinizi indidən Allaha qovuşdurun. Müqəddəs şəriətimizdə bunun yolu açıqdır. O, mürəkkəb və sirli bir iş deyil. Siz bir dağın ətəyində dayanıb bəzilərinin onun zirvəsində olduğunu görürsünüz. Onlar həmin zirvəyə qanad çalıb uçaraq qalxmayıblar. Xeyr, onlar həmin zirvəyə qarşınızda olan yol ilə hərəkət edərək çatıblar. Özümüzdən boş xəyallar qurmayaq, ora qeyri-adi bir hərəkətlə çatmağın mümkün olduğunu düşünməyək. Xeyr, elə deyil! Zirvədə gördüyünüz həmin şəxslər ora bu yollardan keçərək çatıblar. Bəs onlar hansı yollardır? İlk növbədə günahın tərk edilməsi. Bunu dildə demək asan, əməl etmək isə çətindir. Amma hər halda başqa yol yoxdur. Yalan danışmamaq, xəyanət etməmək, müxtəlif cinsi sapıntılardan qorunmaq, günahlardan çəkinmək... Mühüm olanı bunlar – günahların tərk edilməsidir. Günahın tərk edilməsindən sonra vacib əməllərin yerinə yetirilməsidir. Onların hamısından vacibi də namazdır. “Bil! Sənin bütün əməllərin namaza tabedir”.[1] İnsanın bütün işləri namazdan asılıdır. Namazınızı vaxtında qılın, diqqətlə, fikrinizi toplayaraq qılın. “Fikrin toplanması” deyəndə insanın kiminləsə danışdığını bilməsi, qarşısında onun xitab etdiyi bir şəxsin olduğunu hiss etməsi nəzərdə tutulur. Əgər məşq edib özünüzdə belə bir hiss yarada, fikrinizi toplaya bilsəniz, o, ömrünüzün sonuna kimi sizinlə birgə olacaq. Öncə də qeyd etdiyim kimi, əgər bunu indi edə bilməsəniz, ona iyirmi il sonra nail olmaq çətin, ondan

1. Nəhcül-bəlağə, səh. 385

sonra daha çətin olacaq. İndidən namazda diqqətinizi toplamağa, özünüzdə belə bir diqqət yaratmağa çalışın. Əgər buna nail olsanız, qıldığınız namaz *"namaz (insanı) çirkinliklərdən və günahdan çəkindirir"*[1] ayəsinin nümunəsi olacaq. Ayənin mənası namazın sizin qarşınızda maneə yaratması və sizin daha günah edə bilməməyiniz deyil. Xeyr! Onun mənası budur ki, o, daim sizə "günah etmə!" deyir. Təbii ki, əgər insanın içindən bir qüvvə ona gün ərzində neçə dəfə "günah etmə! günah etmə!" desə, insan günah etməz. Həmin qüvvə namazdır.

Ramazan orucu da qənimətdir, aclıq, susuzluq, isti və çətinliklərlə mübarizədir. Oruc tutmaqla yanaşı, bacardığınız qədər Quran, "Nəhcül-bəlağə" və "Səhifeyi-Səccadiyyə" ilə ünsiyyətdə olun, dua oxuyun, müstəhəb namaz qılın, digər işlər görün.

Bu pak və nurani qəlbinizin qədrini bilin. Mən bunu sizə xoş gəlməsi üçün demirəm. Dünyada gənc təkcə sizlər deyilsiniz. Paklıq və nuranilik gəncliyin xüsusiyyətidir. Sizin qəlbiniz pakdır. İndi siz müqayisə edə bilmədiyiniz üçün məsələni dərk edə bilmirsiniz. Vaxt keçdikcə çətinliklər, qubarlar, çirk və his-paslar qəlbin üzərini örtür. Hədislərin birində deyilir ki, siz günah edəndə qəlbinizdə qara bir nöqtə yaranır. İkinci günahı edəndə həmin nöqtə ikiqat böyüyür. Günah etdikcə həmin nöqtələrin sayı artır və beləcə, bütün qəlb qara rəngə boyanır. Əlbəttə, bunlar simvolik bənzətmələrdir. Bu hədisin ürfi mənası qeyd etdiyimiz kimidir. Yəni indi sizin qəlb və ruhunuz hazır vəziyyətdədir, zaman keçdikcə insanın həyat yolunda – siyasət, iqtisadiyyat, bir tikə çörək əldə etmək və özünə şərait qurmaq üçün qarşılaşdığı günahlar, çətinliklər və

1. Ənkəbut, 45

problemlər onun çətinliklərini daha da artırır, qəlbi qaraldır. Buna görə də bizim ilk sözümüz budur. Siz mənim övladım kimisiniz. Əgər mən öz doğma övladlarıma yaxşı öyüd-nəsihət vermək istəsəm, onlara da sizə dediklərimi deyərəm.

Bilin, insanların müxtəlif sahələrdə, hətta cihadda qarşılaşdığı problemlərin hamısı deməsəm də, çoxu həmin əsas və mühüm nöqtəyə riayət edilməməsindən doğur. Ühüd müharibəsində bir dəstə adam səhlənkarlıq etdi və hamınızın bildiyi həmin faciə baş verdi. Əgər Ühüd müharibəsində baş verənləri bilmirsinizsə, tarix kitablarında var, gedin oxuyun. Mən indi onları izah etmək istəmirəm. Quran onların barəsində belə buyurur: *"(Ühüd müharibəsində) iki ordunun qarşılaşdığı gün qaçanları Şeytan düçar olduqları bəzi günahlar sayəsində yoldan çıxartdı"*.[1] Yəni Ühüd müharibəsində düşmənə arxa çevirib həmin faciənin baş verməsinə, həzrət Həmzə və digər böyük səhabələrin şəhid olmasına səbəb olanları Şeytan düçar olduqları bəzi günahlar sayəsində yoldan çıxartdı. Quranda buna bənzər digər ayələr də var. Biz günahdan çəkinməməyin təsirini ölkənin, hansısa bir sahənin idarə edilməsində, döyüş meydanında iştirakımızda, maddi və iqtisadi problemlə qarşılaşanda görürük. Buna görə də bizim sözümüzün canı budur: gəncliyinizin qədrini bilin. Yəni pak qəlbinizin qədrini bilin, Allahla daha çox ünsiyyətdə olun. Bunun yeganə yolu günahın tərk edilməsi, namaza diqqətdir. Vacib namazlardan və qeyd edilən diqqət hasil olandan sonra da bacardıqca müstəhəb işlərlə məşğul olun, dua oxuyun, başqa işlər görün. İnşallah, Allah-taala da yolları açar.

*Ramazan ayının 11-ci günü tələbələrlə görüşdəki çıxışdan*
*22.VIII.2010*

1. Ali-İmran, 155

# Ramazan ayının qədrini bilməyin vacibliyi

Ramazan ayının son günlərindəyik. Xalqın, o cümlədən sizin aranızda ibadət, itaət və saflıq ab-havası hökm sürür. Bu günlərin və gecələrin dualarında belə oxuyuruq: “İlahi, ramazan günləri sona çatdı, gecələri arxada qaldı”.[1] Biz ötüb keçən və arxada qalan bu gecə və gündüzlərdə öz vücud qabımızı Sənin lütf və rəhmətinlə nə qədər doldurduğumuzu, ondan nə qədər bəhrələndiyimizi bilmirik. “İlahi, əgər biz bu ana kimi Sənin razılığını qazana bilməmişiksə, elə indi bizdən razı ol”.[2]

Ruhun paklığı hamı üçün mühümdür, hamıya lazımdır, hamının həyatına təsir göstərir. Amma, məncə, o, müəllim və alimlər üçün daha mühüm, daha faydalı və xeyirlidir. Çünki birincisi, siz müəllimsiniz. Tələbə və gənclərin şəxsiyyətinin formalaşmasına sizin sözünüzdən çox rəftar və davranışınız təsir edir. Bu, çox vaxt belə olur.

**1.** İqbalul-əmal, c. 1, səh. 199
**2.** Biharul-ənvar, c. 98, səh. 205

Belə ki, əgər sizin sözünüz onu bir tərəfə sövq etsə, amma özünüz həmin istiqamətdə hərəkət etməsəniz, sizin bu davranışınız qarşı tərəfə, gənc tələbələrinizə təsir edəcək. Ruhun paklığının bir cəhəti budur. Əgər bizim ustadımız mənəviyyat və pak ruh sahibi olsa, o, sinfi, dərs mühitini, tələbənin qəlbini nurlandıracaq. Bizim buna ehtiyacımız var. Bundan əlavə, siz alimsiniz. Buna görə də əgər elm nuraniliklə müşayiət edilsə, düzgün istiqaməti tapacaq.

Dostar bəzi məsələlərə toxundular və bəzi sahələrdə müşahidə edilən maneə, problem və nöqsanlardan danışdılar. Onların çoxu elmin özünün düzgün istiqamətdə – ilahi qaydalar çərçivəsində hərəkət etməməsindən qaynaqlanır. Ruhun paklıq və nuraniyyəti alimə elmi düzgün istiqamətə yönləndirməkdə və inkişaf etdirməkdə kömək edir.

Gəlin bu gün və gecələrin qədrini bilək. Siz artıq iyirmi gündən çox oruc tutmusunuz və Allaha şükür, uğur qazanmısınız, şübhəsiz, bu gecə və gündüzlərin mənəvi nurundan bəhrələnmisiniz. Yerdə qalan bu neçə gündə də çalışıb vücudunuzu Allahın bizə nazil olan lütf və saflıq nerməti ilə doldurun.

*Universitet müəllimləri ilə görüşdəki çıxışdan*
*5.IX.2010*

## Ramazan Allahın rəhmət qapılarının açılma fürsətidir

Bütün İslam ümmətini, əziz İran xalqını, namazda iştirak edən siz hörmətli qardaş və bacıları mübarək fitr bayramı münasibəti ilə təbrik edir, hamıya və özümə təqvalı olmağı, həm danışıq, həm davranış, həm də düşüncədə Allahın əmr və qadağalarına riayət etməyi tövsiyə edirəm.

Allaha şükür ki, bizə daha bir ramazanı görməyi və daha bir fitr bayramını keçirməyi nəsib etdi. İlahi ziyafəti görmək böyük nemətdir. İran xalqı bu aydan layiqli şəkildə bəhrələndi, bu dəyərli və əziz ayın qədrini bildi. Bu məclislər, bu yığıncaqlar, bu qiraətlər, bu zikrlər, bu dualar, gənclərin pak və saf qəlblə iştirak etdiyi bu proqramlar Allahın rəhmət qapılarının xalqımızın üzünə açılmasına səbəb olur. Bunun qədrini bilmək lazımdır.

Mənəviyyat və Allaha bağlılıq ruhu xalqımızın təbiətinə çevrilib, onların vücudunda kök atıb. Ola bilər, bəziləri şəxsi həyatlarında bəzi səhvlər etsinlər, amma ramazan ayı onlara Allaha tərəf qayıtmaq, Onu yada salmaq fürsəti

verir. Mənəviyyatla əlaqə ruhu bütün insanlarda var. Şeir dili ilə desək:

*Qəlbin xəmiri yoğrulan zaman*
*Ona eşq şəbnəmi qatıblar inan*[1]

Bu, maddi, nəfsi istəklərə bulaşmış eşq deyil, Allah eşqi, bütün insanlarda, varlığın mənbəyində olan, onların təbiətinə çevrilmiş eşqdir. *"Bu, bir fitrətdir ki, Allah insanı bu fitrət üzərində yaratmışdır".*[2] Maddi dünya, maraq və cazibələr çör-çöp və zibil kimi bu gövhərin üstünə yığılır və ramazan ayı öz gəlişi ilə meh kimi həmin çör-çöpü süpürüb aparır, həmin gövhər özünü göstərməyə başlayır, Allah-taalaya tərəf üz tutur. Buna görə də əvvəlki ramazan ayları kimi bu ramazan ayında da biz baxış, davranış və geyim fərqlərindən asılı olmayaraq, hamının bu məclislərdə, xüsusilə qədr gecələri mərasimlərində iştirak etməsinin, ondan bəhrələnməsinin və göz yaşı tökməsinin şahidi olduq.

*Qəlbin yoğrulduğu həmin o şəbnəm*
*Bənzər kababa vurulan o duzlu suya.*
*Aşiqin gözündən axan bu saf su*
*Bənzər kababdan süzülən qan damcısına*[3]

Gözdən axan bu yaşlar, əslində, oyaq və pak qəlbdən qaynaqlanır. Xalqımız gərək bunun qədrini bilsin. Bu bərəkətli ayda azuqə əldə etmisiniz, onu qoruyun; Quranla ünsiyyətdə oldunuz, bu ünsiyyəti davam etdirin; namazın camaatla, ilk vaxtda, məsciddə, diqqətlə qılınmasını il ərzində də qoruyub saxlayın, bacardıqca bu maddi



1. Şeyx Bəhai
2. Rum, 30
3. Şeyx Bəhai

amillərin, bu çör-çöpün, bu maddi toz-torpağın bu gövhərin üstünə oturmasına imkan verməyin. Bu xüsusiyyəti, bu mənəvi yüksəliş və təkamülü qoruyub saxlayan xalq bütün meydanlarda – maddi və mənəvi meydanlarda, izzət və güc əldə etməkdə, milli sərvətlərin yaradılmasında uğur qazanacaq. İnşallah, xalqımız buna nail olacaq.

Bu gün fitr bayramı günüdür. "O, bayram, toplaşma, fitrətə qayıdış, zəkat vermə, (Allaha) üz tutma və yalvarıb-yaxarma günüdür".[1] Bu gün dünyanın hər yerində müsəlmanlar bayram edirlər. Qəlblərin eyni zamanda bir nöqtəyə yönəlməsi İslam ümməti üçün böyük fürsətdir. Bu bayram diqqətin Allaha yönəldilməsi günüdür, məna bayramıdır. Allah hamımıza həm bayram, həm də cümə günü olan bu gündə Öz lütf və mərhəmətindən bərhələnməyi nəsib etsin.

*Fitr bayramının xütbələrindəki çıxışdan*
*10.IX.2010*



1. İləluş-şəraye, c. 1, səh. 269

# Bərəkətli fitr bayramının nişanəsi bəndəlik və ibadətdir

Bütün məclis iştirakçılarını, ölkənin məsul şəxslərini, müsəlman ölkə səfirlərini, bütün İran xalqını və İslam ümmətini bu böyük və bərəkətli bayram münasibəti ilə təbrik edirəm. Allah İslam ümmətinə ramazan ayı boyunca və bu gün etdiyi dualara xatir Öz rəhmət, lütf və yardımını nazil etsin, onları doğru yola istiqamətləndirsin.

Bu bərəkətli günün bayram olmasının nişanəsi bəndəlik, ibadət, namazda izdihamlı iştirakdır. Bu gün İslam dünyasının hər yerində müsəlmanlar camaat namazı sıralarında dayandı və Allah qarşısında əyildi. Bu, İslam ümmətinin bir-biri ilə mənəvi və qəlbən bağlılığıdır. İslam ümməti gərək dünyanın İslam ümmətinin taleyi ilə əlaqəli mühüm məsələləri barədə addım atmaq üçün eyni sırada dayansın.

Əgər qəlblər arasında vəhdət yaransa, İslam ümmətinin düşmənlərinin yaratdığı ixtilaflar aradan qalxsa, İslam ümməti birgə addımlayar, güc və fikrini eyni istiqamətə

yönəldər, İslam və bu ümmət qarşısında yaradılmış böyük cəbhə ilə mübarizədə faydalı işlər görə bilər.

*Fitr bayramı münasibəti ilə dövlət məmurları*
*və müsəlman ölkə səfirləri ilə görüşdəki çıxışdan*
*10.IX.2010*

# İslam dünyasının çatışmazlıqlarının aradan qaldırılması

Bu gün xoş avaz və gözəl qiraətləri ilə məclisi zinətləndirən, Allahın kitabını oxumaq nuru ilə qəlbimizi nurlandıran əziz qardaşlara təşəkkür edirəm. Allah xalqımızı, xüsusilə gənclərimizi Quranla daha çox tanış etsin.

Quranla ünsiyyət qəlbimizi Quran təlimləri ilə daha yaxından tanış edir. İslam dünyasında olan çatışmazlıqların hamısı Quran təlimlərindən uzaqlıqdan doğur. Quran hikmət, elm və həyat kitabıdır. Ümmət və xalqların həyatı Quran təlimləri ilə tanışlıqdan və Quranın hökmlərinə əməl etməkdən asılıdır. Əgər insanlar ədalət istəyirlərsə, zülmdən beziblərsə, zülmlə mübarizə yolunu Qurandan öyrənməlidirlər; əgər insanlar elm axtarırlarsa, elm, bilik və agahlıqla həyatlarını daha da gözəlləşdirmək, rahat və rifah içində yaşamaq istəyirlərsə, bunun yolunu Qurandan öyrənməlidirlər; əgər insanlar Allahla əlaqə qurmaq, mənəvi saflıq, Allaha yaxınlıq əldə etmək istəyirlərsə, yolu Qurandır.

Biz müsəlmanların zəifliyi, geriliyi, əyri davranışı, həm əxlaq, həm də məişət məsələlərində yanlış addımlar atmasının səbəbi Qurandan uzaq düşməsidir. Quran öz auditoriyasını batil qüvvələrdən çox çəkindirsə də, azğın və batil qüvvələr müsəlman xalqların qanını – özü də təkcə iqtisadiyyat, neft və sairə kimi yeraltı sərvətlər baxımından deyil, bütün cəhətlərdən – sovurub, dünyada müsəlmanların müqavimət ruhunu, izzətli və başıuca yaşamaq istəyini əlindən alıb. Müsəlman xalqlar öz mədəniyyətlərinə arxa çeviriblər, materialist mədəniyyətini qəbul ediblər. Biz zahirdə "la ilahə illəllah" deyib müsəlman olsaq da, qəlbimiz qərb mədəniyyəti və qərb təlimlərinin təsiri altına düşərək həqiqətlərdən uzaqlaşıb. Ondan sonra biz təkcə iqtisadiyyatımızı deyil, onunla bərabər dünyəvi izzətimizi də itirmişik, əxlaq və əxlaqi təlimlərimizi də əldən çıxarmışıq. Əgər biz tənbəliksə, zəiflik və süstlük göstəririksə, qəlblərimiz arasında bağlılıq yoxdursa, aramızda bədxahlıq hökm sürürsə, bunların hamısının səbəbi İslama zidd və qeyri-islami təlimlərdir.

Quranın işi bizi həm maddi, həm də mənəvi cəhətdən ucaltmaqdır. Quran bu işi görür. Tarixlə tanışlığı olanlar tarixdə bunun nümunələrini görüblər. Elə indi biz özümüz də yaşadığımız dövrdə bunun nümunələrini görürük. Onun nümunələrindən biri əziz İran xalqıdır. Batil qüvvələrin – istər Pəhləvilərin vaxtında olsun, istər Qacarilərin – zamanında İran xalqının beynəlxalq aləmdə zərrə qədər hörməti yox idi. Xalqımızın böyük istedadı unudulmuş, xarabalıqda basdırılmış xəzinə kimi idi. Həmin vaxt kimsə təsadüfən və xüsusi olaraq özünü göstərə bilərdi ki, heç bu da baş vermirdi. Bu gün fəal, enerjili, təşəbbüskar, ölkənin inkişafını istəyən çoxsaylı

gənc müxtəlif sahələrdə qürurverici işlər görür, ölkəyə başucalığı gətirir, xalqının adını ucaldır. Belə gənclər o vaxt da var idi. Amma hakimiyyətdə olan batil qüvvələr onlara imkan vermirdi.

Biz Quran və onun təlimləri istiqamətində bir addım atdıq – bizim Quran istiqamətindəki hərəkətimiz, həqiqətən, bir addımdır – və Allah-taala bizə izzət bəxş etdi, həyat, agahlıq, bəsirət, güc və qüvvət verdi. İran xalqı bu gün dünyanın ən fəal və güclü xalqlarındandır. Biz onun böyük istedada, güclü hazırlığa malik olmasının, müxtəlif sahələrdə inkişaf etməsinin şahidiyik. Bu gün ölkəmizin vəziyyəti belədir. İran xalqının mövcud durumunu digər xalqlar da alqışlayır.

Xoşbəxtlikdən, biz bu gün İslam ümmətinin arasında və bir çox ölkələrdə xalqların hərəkətə gəlməsinə səbəb olan şüarların səsləndirildiyini görürük. Siz bunu görür, xəbərlərdə eşidirsiniz. Bu hərəkətlər həmin şüarların daha qızğın olduğu, daha böyük nüfuza malik olduğu, düşmən, münafiq, inadkar və hiyləgərlərin təsiri altına düşmə hallarının az olduğu, islami şüar, tələb və istəklərin mövcud olduğu yerlərə aiddir. Bu, Quran təlimlərinin xüsusiyyətidir. Quranla tanış olmaq lazımdır.

Əlbəttə, bu günlə keçmiş arasında müqayisə edilməyəcək qədər fərq var. Keçmişdə bu qədər Quran oxuyan, bu qədər Quran hafizi, bu qədər Quranla tanışlığı olan, bu qədər qiraət aşiqi yox idi. Halbuki ölkə də bu ölkə idi, xalq da.

Yadıma gəlir, bir dəfə Misirin məşhur qarilərindən biri, mərhum Əbüleyneyn Şüəyşə Məşhəd şəhərinə gəlmişdi və Gövhərşad məscidində Quran oxuyurdu, özü də çox gözəl. Məclisin təşkilatçısı həmin dövrün Vəqflər

İdarəsi idi. Allaha şükür olsun ki, bu gün Vəqflər İdarəsi öyünüləsi bir təşkilatdır. Amma o vaxtkı Vəqflər İdarəsi bədnam bir idarə idi. Buna görə də mən həmin qarinin qiraətinə çox qulaq asmaq istəsəm də, həmin məclisə gedib orada oturmaq istəmirdim. Buna görə də uzaqdan dayanıb qarinin səsinə qulaq asırdım. Həmin məclis iştirakçılarının sayı 50-60 nəfərdən çox olmazdı. Onların da bir hissəsi dövlət məmurları idi, bir hissəsi də Məşhəd şəhərinin məşhur qariləri.

Bu gün hər yerdə mövcud olan Quran sevgisini daha da artırmaq lazımdır. Bunu gündən-günə çoxaltmaq lazımdır. Bu gözəl qiraət, gözəl səs, məclisin gözəl tərtibatı – bunların hamısı dəyərli işlərdir. Allaha şükür, qarilərimiz məclisin Quranla zinətləndirilməsində tədricən püxtələşiblər, böyük məharət əldə ediblər. Onun faydası budur ki, bizi Quran təlimləri, Quranın mənası ilə tanış edirlər.

## Quranın əzbərlənməsinin onun mənasının başa düşülməsinə təsiri

Bizim Quranı dərk etməyimizə kömək edən amillərdən biri onun əzbərlənməsidir. Mən əvvəl də demişəm, bizim ölkəmizdə heç olmasa bir milyon Quran hafizi olmalıdır. Əlbəttə, ölkə əhalisinin ümumi sayı ilə müqayisədə bir milyon kiçik rəqəmdir. Allaha şükür, dostlar bəzi hazırlıq işləri görüblər, bir sıra işlərlə məşğuldurlar, Quranın əzbərlənməsi istiqamətində bəzi proqramlar hazırlayırlar və buna görə də biz ümidlənmişik ki, inşallah, bir milyon əvəzinə, on milyon Quran hafizimiz olar.

Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, Quranın əzbərlənməsi ilk addımdır. Birincisi, hafizliyi qoruyub

saxlamaq lazımdır. Quran hafizi gündə Quran oxumalıdır. Yəni Quranı davamlı şəkildə oxuyub təkrar etməlidir. Əks təqdirdə əzbərlənən şey unudulacaq. İkincisi, hafizlik Quranın dərk edilməsinə kömək etməlidir. Bu, əslində, belədir. Hafizlik Quranın dərk edilməsinə, həqiqətən, kömək edir. Siz Quranı təkrarlayanda, onu əzbərdən oxuyanda Quran ayələrini daha dərindən dərk etmək fürsəti əldə edirsiniz.

Əlbəttə, ayənin məqsədini bəyan edən təfsirlərlə ünsiyyətdə olmaq da çox mühümdür. İnsan Quranı əzbər biləndə, təfsirlə ünsiyyətdə olanda, onu dərk edəndə, cəmiyyətdə gözlənilən şey – Quran çiçəklənməsi baş verir. Fərz edin ki, ölkədə Quran təlimləri ilə tanış olan 10-15 milyon kişi və qadın var. Görün bu nə qədər dəyərli şeydir! Əgər onların zehnində Quran təlimləri, Quran dərsləri, Quranın öyüd-nəsihətləri, müjdələri olsa və onlar bunları davamlı şəkildə təkrar etsələr, qəlblərində xatırlasalar, polad iradəli bir xalq yaranar. Xoşbəxtlikdən, buna şərait var. Xalqımızın əzmkarlıq və iradəsi bu gün də polad kimidir. Amma Qurana əsaslanan ideal ictimai quruluş qeyd edilən şəraitdə yarana bilər. Biz bunun gerçəkləşəcəyinə ümid bəsləyirik.

Siz gənclər Quranla ünsiyyətdəsiniz, Quran əhlisiniz, Quran oxuyur, onu gözəl oxuyanların xiridarısınız, ya elə özünüz onu gözəl oxuyanlardansınız. Buna görə də öz qədrinizi bilin! Allah-taala sizi mükafatlandıracaq. Siz, həqiqətən, cəmiyyətdəki bu ümumi hərəkatın öncüllərindənsiniz. Ola bilər, onun çətinlikləri çox olsun, amma Allah-taalanın yanındakı savab və mükafatı da çoxdur.

İlahi, ömrümüzün sonuna kimi bizi Qurana yoldaş et!

İlahi, bizi dünya və axirətdə Qurandan ayırma! İlahi, bizi Qiyamətdə Quranın kölgəsində saxla! İlahi, bizə Quran həyatı, ilahi və islami həyat bəxş et! İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir İmam Mehdinin müqəddəs qəlbini bizdən razı et! Bizi Quran və Əhli-beytdən ayrı salma!

*Quran qari, hafiz və müəllimləri ilə görüşdəki çıxışdan*
*2.VIII.2011*

# Oruc Allahın möminlərə hədiyyəsidir

Məşhur arif və böyük alim mərhum hacı Mirzə Cavad Məliki Təbrizi dəyərli "əl-Müraqibat" kitabında yazır ki, oruc Allahın Öz bəndələrinə və möminlərə verdiyi hədiyyədir. Onun orada işlətdiyi ifadə belədir: "Oruc dini vəzifə deyil, şərəfdir". Oruca dini mükəlləfiyyət gözü ilə baxmayın, şərəfli iş kimi baxın. "O, şükür tələb edir". Oruca bu baxış – onu Allahın bəndələrə hədiyyəsi hesab etmək şükür tələb edir. Ona görə Allaha şükür etmək lazımdır. O, möminlərin ramazan ayında qarşılaşdığı aclıq və susuzluğun çoxlu faydasının olduğunu qeyd edir. Onlar hədislərdən götürülən və bu böyük şəxsiyyətin qəlbindən qaynaqlanan incilərdir. Onlardan biri, yaxud onların bu böyük şəxsiyyətin dili ilə desək, ən mühümü həmin aclıq və susuzluğun insanın qəlbinə saflıq gətirməsidir. Qəlbdə yaranan bu saflıq düşünməyə şərait yaradır. "Bir saat düşünmək bir ilin ibadətindən xeyirlidir".[1] Bu

1. Müstədrək, c. 11, səh. 183

düşünmək insanın batin, ruh və qəlbinə müraciət etməyə və o, həqiqətlərin aydınlaşmasına, insanın üzünə hikmət qapılarının açılmasına səbəb olur. Bundan istifadə etmək lazımdır.

Ömür barəsində fikirləşin. Ömür insanın əsas sərmayəsidir. Bütün xeyirlər ömür vasitəsi ilə – tez ötüb keçən bu anlarla əldə edilir. Əbədi səadət və Cənnəti insana nəsib edən də bu sərmayədir. Ömür barəsində fikirləşək, ömrün ötüb keçməsinə nəzər salaq, həyatımızda saatların, günlərin, gecələrin dayanmadığını hiss etməyə çalışaq. Vaxtın keçməsinə baxaq. "Ömür iyul günəşi qarşısındakı qar kimidir". Bu sərmayə anbaan azalır. Bütün bunlar bu sərmayənin axirət səadəti əldə etmək üçün əlimizdə olan yeganə sərmayə olması fonunda baş verir. Belə bir sərmayə necə, hara və hansı yolda sərf edilməlidir?

Ölüm barədə, bu aləmdən köçmək, ruhun bədəndən çıxdığı an, ölüm mələyi ilə qarşılaşacağımız zaman barədə fikirləşmək lazımdır. Həmin anla hamımız qarşılaşacağıq. *"Hər bir kəs ölümü dadacaqdır"*.[1] Bunu hamımız dadacağıq. Həmin vaxt halımız necə olacaq? Qəlbimiz hansı vəziyyətdə olacaq? Bunlar düşünüləsi məsələlərdir. Bu barədə düşünmək təfəkkürün vacib və zəruri olduğu nüanslardandır.

## Məsumların dualarındakı ilahi təlimlər

Düşünməyin lazım olduğu sahələrdən biri də dualardır. Məsumlardan nəql edilmiş dualar xariqüladə məzmuna malikdir. Mərhum Mirzə Cavad Məliki Təbrizi öncə qeyd etdiyimiz "əl-Müraqibət" kitabında belə yazır:

1. Ali-İmran, 185

“Məsumlardan nəql edilmiş hədis və xütbələrdə – tövhid barəsindəki hədis və xütbələri çıxmaq şərti ilə – onlardan nəql edilmiş dualarda olan həqiqət və təlimlərin onda biri yoxdur”. Bu dualar çox mühümdür.

Mən duaların birinin bir bəndini nəzərdə tutmuşam, bir neçə dəqiqə onun bəzi cümlələrini izah etmək istəyirəm. O, bu izahı əvvəl eşidənlər üçün təkrar, eşitməyənlər üçün xatırlama olacaq. O, “Səhifeyi-Səccadiyyə”nin 20-ci duasıdır, məşhur “Məkarimul-əxlaq” duası.

## “Məkarumul-əxlaq” duasına ötəri baxış

Duanın əvvəlində belə buyurur: “Allahım, Məhəmməd və onun Əhli-beytinə salam-salavat göndər, məni əməlisalehlərin bəzəyi ilə zinətləndir, mənə təqvalıların libasını geyindir”.[1] Yəni məni əməlisaleh və təqvalı bəndələrinin sırasına daxil et. Sonra təqvalılar barədə bir sıra xüsusiyyətlərə toxunur və “məni əməlisalehlərin bəzəyi ilə zinətləndir, mənə təqvalıların libasını geyindir” deyəndə nəyin nəzərdə tutulmasına aydınlq gətirir. Biz hansı halda əməlisalehlərin bəzəyi ilə zinətlənir və təqvalıların libasını geyinirik? Adətən təqvadan söz düşəndə zehnə fərdi günahlardan çəkinmək, ibadətlərin yerinə yetirilməsi gəlir. Bunun təvqa olmasına heç bir şübhə yoxdur. Amma İmam Səccad burada duanın həmin bəndinin ardınca 20-22 məsələyə toxunur və bizim diqqətimizi təqvanın mənasının yeni cəhət və nümunələrinə yönəldir.

“Mənə təqvalıların libasını geyindir”.[2] Nədə? Bunlarda: Birincisi, “ədalətin yayılması”nda. Mənə cəmiyyətdə



1. Səhifeyi-Səccadiyyə, səh. 96, 20-ci dua
2. Səhifeyi-Səccadiyyə, səh. 96, 20-ci dua

ədaləti bərqərar etməyi – həm hüquq sahəsində, həm də ölkənin sərvətlərinin xalqın arasında bölüşdürülməsində, insanların imkanlardan bərabər istifadə etməsinə şərait yaradılmasında ədalətli olmağı – nəsib et! Bizdən umulan təqva bu təqvanın əsas və bünövrəsidir.

"Qəzəbin udulması". Ola bilər, siz adi bir şəxs olasınız və din qardaşınıza, ailə üzvlərindən, yaxud işçilərinizdən birinə qəzəblənəsiniz. Qəzəbi boğmağın fəziləti olduqca böyükdür. *"Qəzəblərini udan, insanların günahlarından keçən şəxslər!"*[1] Ola da bilər, siz ictimai məsuliyyəti, ictimai mövqeyi olan bir şəxs olasınız və sizin hərəkətiniz, nəyisə inkar və ya təsdiq etməyiniz, söz və əməliniz cəmiyyətə təsir etsin. Bu halda sizin qəzəbiniz adi bir adamın qəzəbi kimi deyil. Bəzən kimlərəsə, hansısa bir cərəyana əsəbiləşir, bəzi sözlər deyirik. Bu cür qəzəblə əsəbiləşib kimisə döyən adi bir insanın qəzəbi arasında böyük fərq var. Qəzəbinizi udun, qəzəblə iş görməyin. Siz hər hansı bir şəxs, cərəyan və ya dəstə ilə qarşı razılaşmaya bilərsiniz. Amma burada dəlil və məntiq hakim olmalıdır. Əgər həmin dəlil və məntiq qəzəblə qarışsa, işi xarab edəcək, həddi aşacaq. *"Ey Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla!"*[2]

"Alovun (cəmiyyətdə insanların arasındakı ədavətin) yatırılması". Təqvanın tələblərindən biri, alovun yatırılmasıdır. Burada "alov" deyəndə müxtəlif qrup, dəstə və orqanlar arasındakı ixtilaf və düşmənçiliklər nəzərdə tutulur. Həmin ixtilaflar da alova bənzəyir. Hamı alovu söndürməyə çalışmalıdır. Alovun üzərinə benzin tökmək, onu daha da qızışdırmaq olmaz. Bizim dostlara, məsul



1. Ali-İmran, 134
2. Ali-İmran, 147

şəxslərə, əlində tribuna olanlara, sözləri bütünlüklə və ya qismən ölkə ərazisində yayılan şəxslərə davamlı şəkildə sözlərində, danışıqlarında, işlətdikləri ifadələrdə diqqətli olmağı tövsiyə etməyimizin səbəbi budur. Bəzən bir ifadə nəinki alovu söndürmür, əksinə, onu daha da gücləndirir.

“Sizdən ayrılanların yenidən geri qaytarılması”.[1] Müsəlmanlardan ayrılan, ölkədə topludan uzaq düşən şəxsləri özünüzə yaxınlaşdırmağa çalışın. Yarı yolda qalan şəxsləri mənzilbaşına çatdırın. Biz imanları yarımçıq olan həmin şəxslərin bizim rəftar, əməl, söz, davranışımızla imandan tam uzaqlaşmasına imkan verməməliyik. Əksinə, yolun yarısında olan həmin şəxsləri öz yanımıza cəlb etməliyik. Təqvanın nümunə və növləri bunlardır.

“İnsanlar arasındakı münasibətlərin düzəldilməsi”. Əgər insanların arasında ixtilaf varsa, onu aradan qaldıraq. “Yaxşılıqların faş edilməsi və eyiblərin üstünün örtülməsi”. İnsanların müsbət və yaxşı cəhətlərini faş edək. Əgər hər hansı insanın, məsul şəxsin yaxşı işini bilirsinizsə, onu dilə gətirin, deyin. Həmçinin, əksinə, əgər hansısa bir şəxsin mənfi cəhətini bilirsinizsə, onu faş etməyin. Əlbəttə, onu faş etməməyin mənası həmin şəxsin pis işdən çəkindirilməməsi deyil. Xeyr, mövcud nöqsan işində nöqsan olan şəxsin özünə deyilməlidir. Amma bu cür şeylərin faş edilməsi məsləhət deyil. Bu barədə söz çoxdur. Bunlar sözügedən duanın bir hissəsi idi. Orada ümumilikdə 22-23 məsələyə toxunulub, amma mən qısa olaraq onların 6-7 dənəsinə toxundum. Qəlbimizi bu istiqamətə yönəldək. Allahdan bizə təqvalıların libasını geyindirməsini istəyək. Bundan başqa yol yoxdur. Quranda oruc da təqvalı olmaq üçün



1. Səhifeyi-Səccadiyyə, 20-ci dua

nəzərdə tutulub. Allah orucu vacib edib ki, biz təqvalı olaq. Bunlar təqvanın bəndləridir. Bunlar qeyd etdiyim birinci hissə idi.

*İran İslam Respublikasının*
*məsul şəxsləri ilə görüşdəki çıxışdan*
*7.VIII.2011*

# Şairlərə dini məlumatlarını artırmaq tövsiyəsi

Burada olan şairlərə, eləcə də inqilab şairi sayılan digər şəxslərə demək istədiyim digər bir məsələ zəmanəmizin şairlərinin dövrün tələblərinə uyğun olaraq dərin dini biliyə yiyələnməsinin gərəkliyidir. Bu gün siz istəsəniz də, istəməsəniz də, bilsəniz də, bilməsəniz də, təsdiq etsəniz də, etməsəniz də bir çox xalqlar üçün örnəyə çevrilmisiniz. Hal-hazırda müşahidə etdiyiniz islami oyanış etiraf etsək də, etməsək də, başqaları desələr də, deməsələr də İran xalqının böyük hərəkatının təsirindən yaranıb. Bu əzəmətli və böyük inqilab, batil qüvvələri və hakimiyyətləri devirən bu dəyişiklik İran xalqını örnəyə çevirib. Əgər siz örnək olmağın tələblərinə əməl etmək istəyirsinizsə, dini və islami məlumatlarınızı dərinləşdirməlisiniz. Bizim ədəbiyyat aləmimizin keçmişi də belə olub. Baxın, bizim görkəmli şairlərimizin hamısı demirəm, çoxu – Firdovsidən Mövlanaya, Sədiyə, Hafizə, Camiyə kimi çoxu elə olub. Firdovsiyə “Həkim Əbülqasim

Firdovsi" deyiblər. Dastan yazan şairə təkcə dastan və epik şeir yazmasına görə "Həkim" demirlər. Ona "Həkim" adını biz verməmişik. Mütəfəkkirlər zamanın axarında ona "Həkim" adını veriblər. Firdovsinin "Şahnamə" əsəri hikmətlə doludur. O, xalis dini təlimlərdən xəbərdar bir şəxs olub. Bu şairlərin hamısı "Həkim" (hikmət sahibi) olub. Onların divanları başdan-başa hikmətdir. Əgər Hafiz Şirazi Quran hafizi olması ilə fəxr etməsəydi, özünə "Hafiz" təxəllüsü götürməzdi. O, Quran hafizi olub, Quranı 14 formada oxuya bilib. İndi bizim qarilərimiz Quranı fərqli qiraətlər əsasında oxumaq istəyəndə adətən 2-3 formadan artıq qiraətlə oxuya bilmirlər. Amma Hafiz Şirazi Quranı 14 formada oxuya bilirmiş. Bu, çox böyük işdir. Hafiz Şirazinin Quranla bu dərin tanışlığı onun qəzəllərində də hiss olunur və onun qəzəllərini başa düşən şəxs bunu açıq-aydın görə bilər. Sədi, Mövlana, Cami və Saib də elədir. Siz Saibin divanına nəzər salsanız, onda dərin dini bilginin mövcud olduğunun şahidi olacaqsınız. Həmçinin adam Bidelin şeirlərinə baxanda onlarda xariqüladə dərin və mürəkkəb dini maarifin olduğunu görür. Bunlar bizim böyük şəxsiyyətlərimiz, şeirin atası olublar. Fars dilində olan şeirin "peyğəmbərləri" bunlardır. Onların dərin dini biliyi olub. Siz də dini məlumatlarınızı dərinləşdirin. Bunun yolu Quranla tanışlıq, Quran, "Nəhcül-bəlağə" və "Səhifeyi-Səccadiyyə" ilə ünsiyyətdə olmaqdır. İnsanın qəlbində yaranan tərəddüd və nigaranlıqların çoxu onları oxuyandan sonra aradan qalxır, onda şəffaflıq yaranır, insan yolu, işi, məqsədi tanıyır.

Məsələn, şəhid Mütəhhərinin "Mənəvi söhbətlər" kitabı ramazan günlərinə uyğun kitabdır. Yaxud ilahi hökmlərə diqqət edilməsi böyük mənəvi təsirə malikdir. Mən o gün

söhbətlərimin birində mərhum hacı Mirzə Cavad Məliki Təbrizinin dilindən orucdan əldə edilən mənəviyyatın, oruc tutmaq nəticəsində insanın ruhunda yaranan çiçəklənmə və yüksəlişin nə qədər dəyərli olduğunu qeyd etdim. Elə şairin də işi ruhun təhrik edilməsi, mənəvi idrakın yaranmasıdır. Şairin xüsusiyyəti budur, onun işinin incəliyi bunu tələb edir. O bu təlimləri çox rahatlıqla dərk edə bilər. Ramazan ayına və oruca diqqət ona çox kömək olur. Buna görə də dini məlumatınızı artırın. Əlbəttə, dini məlumat deyəndə onun əsaslı və elmi şəkildə artırılması nəzərdə tutulur, uydurma forması yox. Bəziləri dindən danışırlar, amma, əslində, özlərindən uydururlar və sözləri heç bir mənbə, sübut, dəlil, elmi yanaşma və elmi araşdırmaya əsaslanmır. Onun heç bir faydası yoxdur.

*Şairlərdən ibarət bir dəstə ilə görüşdəki çıxışdan*
*15.VIII.2011*

# Ramazan nurlu bərəkət məhsulunun yığım vaxtıdır

Bərəkətli fitr bayramı münasibəti ilə namazda iştirak edən siz əziz qardaş və bacıları, bütün İran xalqını və dünyanın hər yerindəki İslam ümmətini təbrik edirəm. Allah-taaladan bu dəyərli və bərəkətli gündə Öz lütf və rəhmətini bütün müsəlmanlara nazil etməsini, onların ibadət-itaətlərini ən gözəl şəkildə qəbul etməsini, bu günü İslam ümməti üçün həqiqi bayram etməsini diləyirəm.

Bərəkətli ramazan ayında müvəffəqiyyət və səadət əhli olan insanların əksəriyyəti çoxlu məhsul götürmək imkanı əldə etdi. Bu məhsul onların bu ili, hətta, bəlkə, bütün ömrü üçün bərəkət mənbəyi olacaq. Onların bəzisi Quranla ünsiyyətdə oldu, Quran təlimlərindən bəhrələndi, onun ayələrinin mənası barədə düşündü, bəziləri Allahla ünsiyyətdə oldu, minacat etdi, öz qəlbini nurlandırdı. İnsanlar oruc tutdular və onun vasitəsi ilə ruhlarını saflaşdırdılar, Bu saflıq, səmimilik və nuraniyyət insanın fərdi və ictimai həyatında çoxsaylı xeyirlərin

mənbəyidir. Ruhun bu saflığı insana nikbinlik verir, onun ruhunu həsəd, paxıllıq, təkəbbür və şəhvətdən təmizləyir. İnsanın ruhunun saflığı ictimai mühitə mənəvi cəhətdən əmin-amanlığın hakim olmasına səbəb olur, qəlbləri bir-birinə yaxınlaşdırır, möminlər arasında mehribanlıq yaradır, iman mühitində qarşılıqlı qayğıkeşliyin daha da genişlənməsinə səbəb olur. Bunların hamısı müvəffəqiyyət və səadət əhli olan insanların ramazan ayından əldə etdiyi məhsullardır.

Bu ayın digər mühüm məhsulu təqvadır. Quran buyurur: *"...ki, təqvalı olasınız"*. Təqvanın mənası cilovun əldə olmasıdır. Əgər biz öz cilovumuzu düzgün saxlaya bilsək, öz itaətsizliyimizi, vəhşiliyimizi, Allahın qırmızı xətlərini keçmək kimi işlərimizi tənzimləyə bilsək, başqalarının da cilovunu düzgün saxlaya bilərik. Bu, böyük hünərdir. Təqvanın mənası düzgün ilahi yolda hərəkət etmək üçün insanın özünə nəzarət etməsi, elm, bilik və bəsirət əldə etməsi və həmin elm, bilik və bəsirət əsasında hərəkət etməsidir. Xoşbəxtlikdən, yaşadığımız cəmiyyətdə ramazan ayında qeyd edilən bərəkətləri əldə edənlərin sayı çox olub. Hətta, Allaha şükür ki, ölkə və cəmiyyətin böyük hissəsinin simasının belə olduğunu demək də olar. Biz xəbərlərdə gənclərin, kişi və qadınların, müxtəlif təbəqə mənsublarının, müxtəlif ictimai qrup nümayəndələrinin fərqli baxış və yola malik olmalarına baxmayaraq, müxtəlif məclislərdə, zikr və dua mərasimlərində, Quran qiraəti yığıncaqlarında, qədr gecələrində ilahi ziyafət süfrəsinin başına toplaşdığını və ondan bəhrələndiyini gördük, izlədik.

Şair bir vaxtlar "bu gün öz cilovu əlində olan əllər yoxdur" deyirdi. Amma bu gün öz cilovu əlində olan

əllər az deyil. Bu gün ölkəmizdə iş başına gəlmiş enerjili gənc nəsil düzgün yolda hərəkət edir, təqvalı olmaq istiqamətində çalışır. Bu, ölkənin, hətta İslam ümmətinin gələcəyi üçün böyük müjdədir.

Əsas məsələ bu nailiyyətləri qoruyub saxlamaqdır. Gəlin bu məhsulu qoruyub saxlayaq, günah ildırımının bu dəyərli məhsul anbarını vurub məhv etməsinə imkan verməyək. Allahın yolu, diqqətin Allaha yönəlməsi, ruhun saflığı, Quranla ünsiyyət, həmçinin Allahla əlaqə, Onunla dərdləşmək və danışmaq qapısını üzümüzə bağlamayaq. Əgər siz Allahla danışsanız, Allah da sizinlə danışacaq. *"Məni xatırlayın ki, Mən də sizi yad edim".*

İlahi, Məhəmməd və onun Əhli-beytinə xatir cəmiyyətimizi quransevər, saf, əhli-beytsevər, vəhdət və birliyin hökm sürdüyü cəmiyyət et! İlahi, bu əzəmətli xalqı, bu əziz gəncləri böyük arzu və dəyərli ideyalarına çatdır, düşmənlərinə qalib et! İlahi, İmam Mehdinin müqəddəs qəlbini bizdən razı et! O həzrətin dualarını bizə də şamil et! İlahi, İmam Xomeyni və şəhidlərin pak ruhunu bizdən razı et!

*Fitr namazının xütbələrindəki çıxışdan*
*31.VIII.2011*

# Fitr bayramı xoşbəxtlərin həqiqi bayramıdır

Bu gün bayram günüdür. Fitr bayramı, həqiqətən, xoşbəxt və mömin insanlar üçün həqiqi bayramdır. Əslində, bu gün Allah-taaladan mükafat alma günüdür. Çünki mömin bir ay zahidliklə məşğul olub, könüllü şəkildə aclıq və susuzluq çəkib, gün ərzində nəfsi istəklərini cilovlayıb. Bunlar çox dəyərlidir. İnsan bu məşqi edib azuqə toplayır ki, həyatda iradə və möhkəm əzmkarlıqla azdırıcı nəfsi istəklərini cilovlaya bilsin. Nəfsimizi cilovlamaq üçün bizim bu möhkəm iradəyə ehtiyacımız var. Nəfsimizin sapması və həddi aşması həyatı həm özümüz, həm də başqaları üçün çətinləşdirir. Allah-taalanın bəşəriyyət üçün müəyyənləşdirdiyi bu məşq – möminlərin Allahın bu çağırışına müsbət cavab verərək bir ay zahidliklə məşğul olması, məşq etməsi – bəşəriyyətin nəfsi istəklərin arxasınca getməkdən və nəfsin hərisliyindən ibarət ən böyük dərdinin dərmanıdır. Bu məşqin qədrini bilmək lazımdır. Allaha şükür olsun ki, dünya müsəlmanları

ramazan ayının qədrini bilir. Əziz İran xalqı da, həqiqətən, bu aya hörmətlə yanaşır, onun əzəmətini dərk edir və bu ayda boynuna düşən vəzifələri yerinə yetirir. Allah-taala bütün İslam ümmətinə fitr bayramında bayram hədiyyəsi versin!

*Prezident və nazirlərlə görüşdəki çıxışdan*
*31.VIII.2011*